Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX
İNSTİTUTU

OQTAY
ƏFƏNDİYEV

AZƏRBAYCAN DİLİ VƏ TARİXİ



# AZƏRBAYCAN
# SƏFƏVİLƏR DÖVLƏTİ

OQTAY
ƏFƏNDİYEV

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU



# AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ

ŞƏRQ-QƏRB
BAKI 2007



downloaded from KitabYurdu.az

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

**ISBN 978-9952-34-101-0**
**947.5405-dc22**
1.Azərbaycan-Tarix.2.Səfəvilər dövləti.
**Oqtay Əfəndiyev.Azərbaycan Səfəvilər dövləti**.
Bakı,”Şərq-Qərb”,2007,344 səh.+8 səh.(illüst.)


downloaded from KitabYurdu.az

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

Azərbaycan xalq şairi
Rəsul Rzanın əziz xatirəsinə
həsr edirəm
**Müəllif**

## GİRİŞ

XVI əsr ümumdünya tarixinin yeni mərhələsinin başlanması ilə əlamətdardır. Bu feodal cəmiyyətinin daxilində kapitalist istehsal üsulunun yaranması, feodal münasibətlərinin dağılması və Avropanın bir sıra inkişaf etmiş ölkələrində kapitalist istehsalının meydana gəlməsi, milli və çoxmillətli dövlətlərin təşəkkül tapması dövrü idi. Bu dövrdə Qərbi Avropa ölkələrinin əksəriyyətindəmilli ərazilərin siyasi cəhətdən birləşməsi və mərkəzləşdirilmiş dövlətlərin təşəkkülü prosesi artıq başa çatmışdı. Feodalizm şəraitində siyasi mərkəzləşdirmənin mükəmməl forması mütləq monarxiya idi.

Lakin Asiya ölkələrində dövlətin bir qədər spesifik tipi formalaşdı. Bu dövlətlər müəyyən dərəcədə feodal pərakəndəliyini aradan qaldırsalar da, Avropanın feodal-mütləqiyyətçi dövlətlərindən əhəmiyyətli surətdə fərqlənirdilər. Sonunculardan fərqli olaraq Asiya ölkələrində siyasi birləşmə prosesi məhsuldar qüvvələrin nisbətən zəif inkişafı, feodal münasibətlərinin durğunluğu, natural təsərrüfatın hökmranlığı və vilayətlər arasında iqtisadi əlaqələrin zəifliyi şəraitində baş verirdi. Bir sıra səbəblər üzündən Asiyanın feodal dövlətləri (onlardan bəziləri hətta güclü hakimiyyətə malik olsalar da) optimal daxili sabitlikdən məhrum idilər, onların ərazi bütövlüyünü sarsıdan mərkəzdənqaçma proseslərini tamamilə zərərsizləşdirə bilmirdilər.Asiya ölkələrində siyasi qurumların səciyyəvi xüsusiyyətlərindən biri ondan ibarət idi ki, xarici istilalar nəticəsində onlar sürətlə bir ölkə çərçivəsindən kənara çıxır, geniş regionları öz sərhədləri hüdudunda birləşdirirdilər.

Belə dövlətlərdən biri XVI əsrin əvvəllərində yaranmış, Osmanlı imperiyası və Böyük Moğollar dövləti ilə yanaşı, o dövrün ən iri Asiya dövlətlərindən olan Səfəvilər dövləti idi.

Səfəvilər dövləti onun tərkibinə daxil olmuş Cənubi Qafqaz, İran və


downloaded from KitabYurdu.az

digər ölkələrin xalqlarının tarixi taleyində əhəmiyyətli rol oynamışdı. Bu dövlət sosial - iqtisadi inkişafın müxtəlif pillələrində olan, dil, mədəniyyət və din baxımından fərqlənən bir çox xalqları və tayfaları vahid dövlət hakimiyyətində birləşdirmiş, tabeliyindəki ölkələrdə feodallaşma prosesini daha da sürətləndirmişdi.

Səfəvilər dövlətinin tarixi Azərbaycan xalqının tarixi, onun sonrakı etnik konsodilasiyası ilə qırılmaz surətdə bağlıdır. Azərbaycanın cənub və şimal vilayətlərinin Səfəvilər dövlətinin vahid, nisbətən mərkəzləşdirilmiş hüdudları daxilində birləşdirilməsi, bu vilayətlərin keçmişə nisbətən daha sıx siyasi, iqtisadi, mədəni və etnik inteqrasiyasına zəmin yaranmışdı. Onilliklər boyu davam etmiş feodal pərakəndəliyindən sonra Azərbaycan XVI əsrdə yenidən özünün dövlət bütövlüyünü əldə etmiş, iqtisadiyyat və mədəniyyət sahəsində müəyyən tərəqqiyə nail olmuşdu. Səfəvilər dövlətinin yaranması Azərbaycan ərazisində və həmhüdud ölkələrdə feodalizm cəmiyyətinin təkamülündə mühüm mərhələ oldu. Səfəvilər dövləti ilk növbədə Azərbaycan tayfa əyanları - əmirlər tərəfindən onların sinfi mənafelərinə xidmət etmək üçün yaradılmışdı. Başlıca vəzifəsi öz həmtayfaları və tabe etdikləri vilayətlərin əhalisi üzərində hakimiyyəti möhkəmləndirmək və genişləndirməkdən ibarət olan yeni yaranmış dövlətdə qızılbaş əmirləri hakim qüvvə olmuşdular. XVI əsrdə Azərbaycan və onun ən böyük ticarət-sənətkarlıq mərkəzi olan Təbriz yalnız siyasi baxımdan deyil, həm də iqtisadi cəhətdən Səfəvilər dövlətinin əsasını təşkil etmişdir.

Göstərilən cəhətləri inkar edən Qərb şərqşünasları XVI əsr Səfəvi dövlətinə əsassız olaraq İran dövləti kimi baxmışlar və baxmaqda davam edirlər. Azərbaycan xalqının tarixi yaradıcılığının, milli ləyaqətinin və özünəməxsus mədəniyyətinin, müstəqil yaşamaq və inkişaf etmək hüququnun şovinist tarixşünaslığa xas olan şəkildə tamamilə inkar edilməsi ənənəsi bu münasibətdə özünün təzahürünü tapır. Başqa xalqlara həqarətli, təkəbbürlü münasibət bəslənməsi, onların tarixi rolunu, bəşəriyyət tarixinə və mədəniyyətinə töhfəsini nəzərə almamaq tarixi gerçəkliyə ziddir. Təsadüfi deyildir ki, məhz Azərbaycan tarixçiləri ən qədim dövrlərdən etibarən Azərbaycan ərazisində baş vermiş tarixi proseslərin axarını təhlil etmiş,


downloaded from KitabYurdu.az

Azərbaycan dövlət quruculuğunun və mədəniyyətinin müxtəlif inkişaf mərhələlərində xalqın rolunu səciyyələndirmiş, habelə XVI əsr Səfəvilər dövlətinin yaranmasında və inkişafında Azərbaycan xalqının rolunu aşkara çıxarmışlar. Bu kitab XVI əsr Səfəvilər dövlətinə dair Şərq və Avropa mənbələrinin hərtərəfli tədqiqi, sistemli şəkildə şərh olunması və ümumiləşdirilməsi, göstərilən dövrdə Azərbaycanın siyasi və sosial - iqtisadi həyatının işıqlandırılması istiqamətində ilk cəhddir. Onun mühüm məqsədlərindən biri Səfəvilər dövlətinin meydana gəlməsi və inkişafında Azərbaycan etnik ünsürünün rolunu elmi surətdə əsaslandırmaqdan ibarətdir. Kitab müxtəlif dillərdə olan irihəcmli mənbələrin, o cümlədən ilk dəfə elmi dövriyyəyə daxil edilən nadir əlyazma əsərlərinin tənqidi surətdə öyrənilməsi və təhlili əsasında yazılmışdır. Müəllif iş prosesində görkəmli tarixçi şərqşünaslardan V.V.Bartoldun, A.Y.Krımskinin, V.A.Qordlevskinin, İ.P.Petruşevskinin, Ə.Ə.Əlizadənin, B.N.Zaxoderin və başqalarının əsərlərindəki nəticələrə ümumiləşdirmələrə xeyli dərəcədə istinad etmişdir. Bu kitaba müəllifin 1961-ci ildə Bakıda rus dilində nəşr olunmuş ”XVI əsrin əvvəlində Azərbaycan Səfəvilər dövlətinin yaranması” əsərində başlanğıcı qoyulmuş mətləblərin davamı və həlli faktı kimi yanaşılmalıdır. Buna görə də bu kitabda I Şah İsmayılın dövlətinin yaranmasına və onun hakimiyyəti dövrünə yalnız əvvəlki monoqrafiyanın materillarına əlavələr və dəqiqləşdirmələrlə əlaqədar zəruri ölçüdə toxunulmuşdur. Bu, keçmişdə bizim üçün əlçatmaz olan bəzi salnamələr və tədqiqatlar, xarici alimlərin keçən dövr ərzində meydana çıxmış əsərləri sayəsində mümkün olmuşdur. Müəllif imkan daxilində nəzərə alınmış qeyd və arzularına görə Azərbaycan Respublikası Elmlər Akademiyası Tarix İnstitunun Azərbaycanın orta əsrlər tarixi şöbəsinin əməkdaşlarına minnətdarlığını bildirir. Müəllif iş prosesində ortaya çıxan problemlərin aradan qaldırılmasına görə görkəmli tarixçi - şərqşünas, mərhum professor İlya Pavloviç Petruşevskini və əsərin hazırlanması dövründə öz yardımını əsirgəməmiş Respublika Elmlər Akademiyasının müxbir üzvü, mərhum professor Əlövsət Nəcəfqulu oğlu Quliyevi minnətdarlıqla yad edir.


downloaded from KitabYurdu.az

# I fəsil
# ƏSAS MƏNBƏLƏRİN VƏ ƏDƏBİYYATIN XÜLASƏSİ

Səfəvilər dövlətinin tarixinə dair əsas və ən çoxsaylı mənbələr qrupunu müxtəlif xalqların nümayəndələrinin, o cümlədən azərbaycanlıların yazdıqları farsdilli orta əsr salnamələri təşkil edir.

Fars dilindəki narrativ mənbələrin xülasəsinə başlarkən, öncə bunların arasında mövzuları yalnız Azərbaycana və onun vilayətlərinə həsr edilmiş yerli xronikalara və əsərlərə təsadüf edilmədiyini göstərməliyik. Bizim başlıca məlumat mənbələrimiz olan ümumtarix tipli əsərlər (yaxud Səfəvilər (qızılbaşlar) dövlətinin tarixinə dair xüsusi kitablar) Azərbaycan tarixinin sistemli şərhini əks etdirmir. Həmin əsərlərin müəllifləri bu ölkəyə təsadüfən, adətən burada baş verən miqyaslı hadisələrlə əlaqədar olaraq müraciət edirlər. Bu əsərlərin əksəriyyəti nəşr olunmamışdır, dünyanın məxəzlər saxlanılan müxtəlif obyektlərinə, Yaxın Şərqə və Qərbi Avropaya səpələnmişdir[1]. Onlardan bəziləri Şərqdə litoqrafiya (daş basma) üsulu ilə çap olunmuşdur və elmi - tənqidi nəşrin tələblərinə cavab verə bilmirlər. Son illərdə İranda bu əsərlərin bəzilərinin mətbəə nəşrlərinə cəlb olunması litoqrafiya səhvlərini nəinki aradan qaldırmamış, əksinə, onları daha da artırmışdır. Tədqiqatçıların ixtiyarında tam dərc olunmuş mənbələrin sayı azdır; onlardan bir çoxu çıxarış, xülasə şəklində dərc olunmuşdur. Nadir istisnalarla ən mühüm mənbələrin mətnlərinin ümumi elmi - tənqidi nəşri hələ də yox dərəcəsindədir. Onların az qismi Avropa dillərinə tərcümə olunmuşdur. Bütün bunlar çox vaxt dövrün tarixinə dair nadir əlyazma mənbələri ilə işləməli olan tədqiqatçıların işini xeyli mürəkkəbləşdirir. Səfəvilər dövlətinin tarixinə dair mənbələr əvvəlki dövrlə müqayisədə daha çoxsaylı olsa da, onlar hələ az öyrənilmiş və işlənmişdir. Onlardan bir çoxu tarixşünaslıqda İran tarixinin mənbələri kimi məlumdur və demək olar ki, Azərbaycan tarixinin mənbələri kimi tam tədqiq edilməmişdir. "Qeyd etmək


downloaded from KitabYurdu.az

lazımdır ki, XVI-XVIII əsrlərin narrativ farsdilli mənbələri, ümumiyyətlə, hələlik çox qeyri-kafi, hər halda X-XV əsrlərin farsdilli tarixi mənbələrinə nisbətən müqayisəedilməz dərəcədə az öyrənilmişdir"[2].

Azərbaycan tarixinə, xüsusilə də sosial-iqtisadi məsələlərə dair (kənd təsərrüfatı, şəhər həyatı, sənətkarlıq, ticarət, kəndlilərin vəziyyəti və s.) materiallar bu mənbələrdə çox cüzidir. Bu məsələlərə dair məlumatları tədqiqatçı əsl mənada zərrə-zərrə, uzun və əziyyətli axtarışlar yolu ilə toplamalı olur və tez-tez bu və ya digər məsələnin işıqlandırılmasında ciddi çətinliklərlə rastlaşır. Bu, onunla izah edilir ki, feodal sinfinə xidmət edən orta əsr salnaməçiləri öz əsərlərində xalqın vəziyyəti ilə maraqlanmır, əsas diqqəti şahların və hakim siniflərin digər nümayəndələrinin tərifinə və təsvirinə verirdilər.

Fars dilində narrativ mənbələrin nəzərdən keçirilməsinə başlayaq.

*Sədrəddin Sultan İbrahim əl- Əmini* - xronoloji cəhətdən nəzərdən keçirdiyimiz dövrün ilk narrativ mənbəyinin, hicri 918 (1513-1514)-ci ilə qədər gətirib çıxarılan, I Şah İsmayılın yürüşlərinin tarixi olan "Fütuhati-şahi" ("Şahın qələbələri") adlanan əsərin müəllifidir. Bu əsərin tam nüsxəsi Tacikistan Respublikası Elmlər Akademiyasının Şərq Əlyazmaları fondunda saxlanılır[3]. Tacik şərqşünası A.M.Mirzoyev tərəfindən ("Şahənşahnamə"[4] adlı tarixi əsərin müəllifini müəyyən etmək xidməti də ona məxsusdur) aşkar edilmiş və siyahıya alınmışdır. Sonuncu əsərin müəllifliyini B.A.Dorn səhvən Herat şairi Kamaləddin Binainin adına çıxırdı. A.M.Mirzoyev "Şahənşahnamə"nin və "Fütuhati-Şahi"nin mətnlərini tutuşduraraq sübut etdi ki, hər iki əsər bir müəllifin – Sədrəddin Sultan İbrahim əl- Əmininin qələminin məhsuludur, həm də "Şahənşahnamə" "Fütuhati-Şahi"nin ikinci cildidir[5]. A.M.Mirzoyevin nəticələrini təsdiq edən bir sıra cəhətləri göstərək. Səfəvi tarixşünasları öz əsərlərinin mətnlərində məlumatlarından faydalandıqları əsas mənbələrin adlarını çəkirlər. Dövrün bir sıra mənbələrində "Fütuhati-Şahi" və yaxud "Fütuhati-Əmini"nin adları çəkilir. Xondəmir "Həbib əs-siyər", Qazi Əhməd Qumi "Xülasət ət - təvarix", İsgəndər bəy Münşi "Tarix-i aləm aray-i Abbasi" əsərlərində bu əsəri özlərinin ilk mənbələri


downloaded from KitabYurdu.az

sırasında göstərirlər. Məsələn, Şeyx Heydərin Şirvanşah Fərrux Yasarla döyüşündən və onun ölümündən (1488) danışarkən Xondəmir göstərir ki, o bunları, müəllifinin adını çəkməsə də, ”Fütuhati-Şahi” əsərindən əxz etmişdir[6]. İsgəndər bəy Münşinin bu salnaməsində İbrahim Əmininin “Fütuhati-Şahi” əsəri “Fütuhati- Əmini”[7] formasında göstərilir. Qazi Əhməd Qumi isə özünün “Xülasət ət-təvarix”ində dövrün başlıca mənbələrini göstərərkən, başlıca olaraq Əmir Sultan İbrahim Əmini Hərəvənin[8] əsərinin adını çəkir.

“Fütuhati-Şahi” və onun müəllifi İbrahim Əmini haqqında elmi ədəbiyyatda ilk məlumatı hind alimi Qulam Sərvər özünün I Şah İsmayıl haqqındakı kitabında vermişdir[9]. Onun İranda və digər ölkələrin kitabxanalarında əsərin əlyazmasını tapmaq üçün apardığı inadlı axtarışları nəticəsiz qalmışdır. Buna görə də o, əsərin itmiş olması qərarına gəlmişdi. Fəqət Qulam Sərvərin kitabında İbrahim Əmini barəsində Xondəmirin “Həbib əs-siyər” əsərindən götürdüyü tərcümeyi - hal səciyyəli məlumatları vardı. A.M.Mirzoyev “Fütuhati-Şahi”nin Düşənbə nüsxəsindən etdiyi çıxarışlarla bu məlumatları bir qədər də zənginləşdirmişdir. Mənşə etibarilə Sədrəddin Sultan əl - Əmini Xorasanın təhsilli və kübar torpaq sahibləri ailəsinə mənsub olmuşdur. O, gəncliyində Teymuri şahzadəsi Sultan Müzəffər Hüseyn Mirzənin yanında qulluq edərkən mənsəb qazanmağa başlamışdır. Hicri 910 (1504-1505)-cu ildə onun atası - Herat hakimi Sultan Hüseyn Mirzə onu özünün şəxsi sədri (sədarət - i xassə) vəzifəsinə irəli çəkmişdi. O öz hamisinin ölümündən (hicri 911 (1506) sonra da hicri 913 (1507)-cü ildə Herat və Xorasan Məhəmməd xan Şeybani tərəfindən tutulanadək bu vəzifəni yerinə yetirmişdi. Teymuri sarayının digər əyanları və xadimləri sırasında İbrahim Əmini də Şeybanilər tərəfindən təqiblərə məruz qalmışdı. O, həbs olunmuş, torpaqları və əmlakı isə müsadirə edilmişdi. Həbsdən buraxıldıqdan sonra hicri 916 (1510-1511)-cı ilədək İbrahim Əmini “yalqız və guşənişin qalmağı seçdi”. Qızılbaş qoşunları Şeybaniləri Xorasandan sıxışdırıb çıxaranda və Heratı döyüşlə geri alanda Əmini ehtiramla qəbul olunmuş, gen-bol hədiyyələrə, I Şah İsmayılın mərhəmətinə layiq görülmüş, öz mülklərini və əmlakını geri almışdı.


downloaded from KitabYurdu.az

“İbrahim Əmini hicri 927 (1521)-ci ilədək Heratda yaşadı. Xorasanda özbək basqınları təhlükəsi və şiə-sünni düşmənçiliyinin güclənməsi üzündən sakitlik pozulduğu zaman bir çox elm və mədəniyyət xadimləri, o cümlədən də İbrahim Əmini Heratı tərk etməyə və Səfəvilər dövlətinin paytaxtına köçməyə məcbur oldu. Burada o, saray tarixşünası təyin olundu və I Şah İsmayıl ona “Şahın qələbələri” tarixini yazmağı tapşırdı[10]. ”Fütuhat-i şahi”nin Duşənbə əlyazması (A.M.Mirzoyevin yazdığına görə) iki cilddən (dəftərdən) ibarətdir və ümumi həcmi 265 vərəqdir. Əmini birinci cildi “Fəth” (qələbə) adını daşıyan beş fəslə bölmüşdür. Birinci fəsildə dünyanın və insanın yaranmasından, islam dininin banisi Məhəmməd Peyğəmbərin mənşəyindən bəhs edilir. İkinci fəsil Peyğəmbərin həyat və fəaliyyətinin müfəssəl şərhini verir. Üçüncü fəsil xəlifə Əliyə və şiələrin imamlarına həsr edilmişdir. Dördüncü fəsildə şəcərəsi iyirmi altıncı nəsildə imam Musa əl-Kazıma gedib çıxan “ədalətin pənahgahı” - Şah İsmayılın əcdadından söhbət açılır. Beşinci fəsildə İsmayılın uşaqlıq dövründən (onun həyatının birinci on iki ilində baş vermiş hadisələrdən) danışılır. ”Fütuhati Şahi”nin birinci cildi Şah İsmayılın yürüşləri ilə bilavasitə bağlı deyildir və o başqa məqsədə - Səfəvilərin yeddinci şiə imamı, onun vasitəsilə isə Məhəmməd Peyğəmbərin özü ilə qohumluq iddialarını əsaslandırmağa xidmət edir. Buna görə də müəllif öz əsərinin bu cildini ‘Fütuhati Şahi”nin sonrakı cildlərinə münasibətdə “müqəddimə”adlandırır.

Əsərin ikinci cildi (dəftəri) birincidə olduğu kimi böyük fəsillərə bölünmür. Ayrı-ayrı, qarşılıqlı əlaqəsi olan başlıqlar altında Şah İsmayılın Übeydulla xanın və Teymur Sultanın hicri 919 (1513-1514)-cu ildə Herata basqını ilə əlaqədar Xorasana təkrar yürüşünə qədər bütün hərbi əməliyyatlar haqqında danışılır. Beləliklə, ikinci cild də həmçinin, təxminən on iki ili əhatə edir[11].

Əmininin dili olduqca ibarəli, üslubu mübaliğəli və az məzmunludur. Hekayəyə Qurandan xeyli miqdarda iqtibaslar, hədislər, həmçinin şeir parçaları daxil edilmişdir. A.M.Mirzoyevin göstərdiyi kimi, əgər xüsusi variantlar nəzərə alınmazsa, ””Fütuhat-i Şahi”nin və


downloaded from KitabYurdu.az

“Şahənşahnamə”nin ikinci cildinin mətnləri oxşardır. Mətnlərin eyniliyi buna şəhadət verir ki, ”Şahənşahnamə” müstəqil əsər deyildir və “Fütuhati-Şahi”nin ikinci cildinin (ikinci dəftərinin) nüsxəsidir. A.M.Mirzoyev “Şahənşahnamə” ni “Fütuhati- Şahi”nin ikinci cildinin yeni redaksiyası hesab edir[12].

Biz “Şahənşahnamə” adı ilə məlum olan ikinci cildin Sankt-Peterburq nüsxəsindən istifadə etdik. Qeyd etmək lazımdır ki, bu nüsxədən tarixşünaslıqda əməli surətdə istifadə edilməmişdi[13].

Sankt-Peterburq əlyazması 235 vərəqdə, iri və aydın nəstəliq xətti ilə yazılmışdır. Bu nüsxədə döyüş, şahın ova çıxması, oyunlar və s. səhnələri təsvir edən səkkiz gözəl miniatür də vardır.

İbrahim Əmininin əsəri müasirlərinə yaxşı məlum idi və feodal tarixşünasları tərəfindən I Şah İsmayılın hərbi yürüşlər tarixinə dair əsas mənbə hesab edilirdi. Xronoloji nöqsanlara baxmayaraq, hadisələr, o cümlədən İsmayılın Şirvanda Fərrux Yasara qarşı hərbi əməliyyatları, onun Ağqoyunlu Əlvəndlə, həmçinin də İranın feodal hakimləri ilə döyüşləri zəngin faktiki materiallar əsasında şərh edilmişdir. Müəllif bu hadisələrin şahidi olmasa da, onların təsvir üsulu bu yürüşlərin şahidi və iştirakçılarının, Şah İsmayılın yaxın silahdaşlarının - qızılbaş sərkərdələrinin söylədiklərinə əsaslandığı üçün böyük maraq doğurur. Bütün bu dövr ərzində Əmininin yaşadığı Xorasanla bağlı hadisələr isə ətraflı, canlı, təfsilatı ilə işıqlandırılmışdır. Təbiidir ki, Əminidən obyektivlik, bitərəflilik gözləmək olmazdı. Çünki müəllif İsmayılın yürüşlərinin, istilalarının rəsmi tarixini sinfi mövqedən yazmışdır. Onun vəzifəsi bundan ibarət idi ki, öz hökmdarının əməllərini şöhrətləndirsin. Buna görə də Əmini bu yürüşlərin mədhiyyəçisi, şiəliyin və Səfəvilərin tərəfdarı kimi çıxış edir. Xalqın vəziyyəti Əminini qətiyyən maraqlandırmırdı. O, siyasi əhəmiyyəti olan hadisələr haqqında danışır, onların tarixinə, qarşılıqlı səbəb və əlaqəsinə isə məhəl qoymurdu. Əsərdə Cənubi Qafqazın və İranın siyasi tarixinə dair çoxlu maraqlı məlumat vardır (sosial-iqtisadi səciyyəli məlumatlar isə yox dərəcəsindədir).


downloaded from KitabYurdu.az

*I Şah İsmayılın naməlum (adı bilinməyən*) tarixçisi tərəfindən ədəbiyyatda şərti olaraq "Tarix-i şah İsmayıl-i Səfəvi" ("Şah İsmayıl Səfəvinin tarixi") adını almış, I Şah İsmayılın həyatının salnaməsi yazılmışdır. Əsər I İsmayılın əcdadları haqqında qısa tarixi ekskursla başlanır, onun gəncliyində baş verən hadisələri işıqlandırır, Səfəvilər dövlətinin banisinin bütün şahlıq dövrünü əhatə edir və onun oğlu I Şah Təhmasibin Təbriz taxtına çıxması ilə başa çatır. Əsər tam nəşr olunmamışdır. Yalnız I İsmayılın həyatının ilk illərinə (1499-cu ilədək) aid olan parçalar keçən yüzilliyin sonunda Denison Ross tərəfindən ingilis dilinə tərcümədə dərc olunmuşdur[14].

Salnamənin iki əlyazma nüsxəsi məlumdur: onlardan biri Londonda - Britaniya muzeyində[15], digəri isə Kembric universitetinin kitabxanasında[16] saxlanılır. Anonimin bizim istifadə etdiyimiz[17] London əlyazması 21 miniatürlə bəzədilmiş, 307 vərəqlə (614 səhifə), gözəl nəstəliq xətti ilə yazılmışdır. Nüsxənin yazılma tarixi (Ç.Riyöyə görə) XVI əsrdir.

"Tarix-i Şah İsmayıl-i Səfəvi" (Ç.Riyö və D.Rossun haqlı olaraq göstərdikləri kimi) özünün xeyli hissəsi ilə *Xondəmirin* ilk Səfəvi şahının həyat və fəaliyyətinə həsr olunmuş "Həbib əs-siyər" əsərinin üçüncü cildinin dördüncü hissəsinə tam şəkildə uyğun gəlir. Məlumdur ki, Xondəmir öz əsərini hicri 930 (1524)-cu ildə, I İsmayılın ölümündən bir ay əvvəl başa çatdırmışdır, halbuki bəhs etdiyimiz əsər I Şah Təhmasibin hökmdarlığı dövründə yazılmışdır. Tədqiqatçılar onun yazılma tarixini bir qədər dəqiqləşdirməyə cəhd göstərmişlər. Mətnin özündə göstərilən Teymuri Məhəmməd Zaman Mirzənin[18] vəfat etdiyi hicri 947 (1540)-ci il tarixinə əsasən belə bir fikir söylənilmişdir ki, əsər 1540-cı ildən sonra tamamlanmışdır. Eyni zamanda, müəyyən edilmişdir ki, bu salnamə Xondəmirin oğlu Mahmudun hicri 955 (1548)-ci ildə yazmağa başladığı tarixi xronikasında istifadə olunmuşdur[19]. Bu mülahizələrdən çıxış edərək belə bir nəticəyə gəlmək olar ki, göstərilən əsər 1540 və 1548-ci illər arasındakı[20] dövrdə yazılmışdır. Ç.Riyo qeyd edir ki, anonim müəllifin Xondəmirin mətnlərinin eyniliyi birincinin ikincinin əsərini köçürdüyünü bildirsə də, naməlum müəllifin əsərində əlavə təfərrüatların olması onların


downloaded from KitabYurdu.az

həm də müxtəlif məlumat mənbələrinə əsaslandığını göstərir[21]. D.Ross habelə göstərirdi ki, ”Tarix-i Şah İsmayıl-i Səfəvi”də “Həbib əs-siyər” əsərində olmayan çoxlu bioqrafik və coğrafi təfsilat vardır. D.Ross I Şah İsmayılın tarixinə dair bu iki çox mühüm ilkin mənbəni müqayisə edərək bu xronikaya üstünlük verirdi. Güman etmək olar ki, Xondəmir hicri 930-cu ilədək (“Həbib əs-siyər”in yazıldığı dövr) Xorasanda yaşamışdır və onun dövlətin başqa ərazisində, o cümlədən də Azərbaycanda olub-olmaması sualına daha çox mənfi cavab verilməlidir. Ehtimal etmək olar ki, Xondəmir I Şah İsmayıl və onun istilaları haqqında məlumatı Xorasana gələn şah sarayı məmurlarından, yaxud bizə məlum olmayan digər mənbələrdən alırdı. Güman etmək olar ki, bizim müəllif Səfəvilərə yaxın olmuşdur və öz əsəri üçün Xondəmirin kitabını əsas kimi götürmüş, onu Azərbaycanda, burada baş verən hadisələrlə bilavasitə, şəxsən tanış olduğu materialla zənginləşdirmişdir[22]. Onun hətta İsmayılın ilk yürüşlərinin iştirakçısı olduğunu da ehtimal etmək olar. Nəzərdən keçirilən əsərin müəllifinin şəxsiyyəti barədə müxtəlif fikirlər söylənilmişdir (X.Bexeviç, V.Minorski, V.Hins və b.). Əsər müəllifinin adı bizə tam məlum olmasa da, onun “Bicən” sözü ilə başladığı barədə əsərin London nüsxəsinin 82a vərəqinin haşiyəsində işarə vardır. Q.Sərvərin fikrincə, həmin əlyazmanı müəllifin özü nəzərdən keçirmiş və öz əli ilə orada düzəlişlər etmişdir (çünki bu və bir sıra digər haşiyə yazılarında yazan adamın özünü bildirən “miskin qul” (bəndeyi-kəmtərin) ifadəsi işlədilir[23]. Bəlkə də Q.Sərvər öz ehtimalında haqlıdır, lakin bununla əsərin müəllifliyi məsələsinin həll olunduğunu iddia etmək mümkün deyildir.

Tarix elmi I Şah İsmayıl hakimiyyəti tarixinə dair üç ilk mənbəyə – “Fütuhat-i şahi”, “Həbib əs-siyər” və bəhs etdiyimiz səlnaməyə malikdir. Biz bu əsərləri tutuşduraraq belə bir nəticəyə gəldik ki, nəzərdən keçirilən əsər I Şah İsmayılın hakimiyyəti, XVI əsrin I rübündə Azərbaycanda və həmhüdüd ölkələrdə Səfəvilər dövlətinin yaranması tarixi haqqında daha tam, dəqiq və müfəssəl hekayədir.[24]

“Tarix-i Şah İsmayıl-i Səfəvi” İsmayılın, ənənəvi olaraq, yeddinci imam Musa əl-Kazıma gedib çıxan şəcərəsinin şərhi ilə başlanır. Səfəvilərin


downloaded from KitabYurdu.az

əcdadları haqqında yarıəfsanəvi səciyyəli oçerk qismən Təvəkkül ibn Bəzzazın "Səfvət əs-səfa" adlı agioqrafik əsərindən götürülmüşdür[25].

Bu giriş hissəsindən sonra salnaməçi öz hekayəsinin başlıca mövzusunun şərhinə başlayır. Tarixi hadisələr hicri 930 (1524)-cu ilə qədər şərh edilir. Biz naməlum müəllifin və Xondəmirin əsərlərinin mətnlərinin uyğunluğunu qəbul etməklə, burada onların arasındakı ayrı-ayrı yerlərdə çox əhəmiyyətli görünən fərqləri qeyd etmək istərdik. Anonim müəllifin əsərinin bir sıra üstünlükləri vardır. Əsər, Xondəmirin hekayəsini ayrı-ayrı təfsilat və təfərrüatlarla tamamlaması faktı ilə deyil, konkret tarixi materialla zəngin olan, əhəmiyyətli, bütöv yeni başlıqların mövcudluğu ilə qiymətlidir[26].

Orta əsr salnaməçilərinin əksəriyyətinin əsərlərində olduğu kimi, naməlum müəllif üçün də Azərbaycan müstəqil maraq obyekti deyildir. Azərbaycan barəsində o, qızılbaşların ora yürüşləri, qiyamlar, şahın ov səhnələri və digər hadisələrlə əlaqədar yazırdı. Buna baxmayaraq, onun verdiyi məlumatlar çox maraqlıdır.

Naməlum salnaməçi Azərbaycanda və İranın Xəzərsahili vilayətlərində qızılbaş hərəkatının ilk mərhələləri haqqında orijinal və çox qiymətli material verir[27]. 1501-ci ildə bakılıların güclü müqaviməti və I Şah İsmayılın Bakını tutmasına həsr olunmuş səhifələr Azərbaycan tədqiqatçıları üçün böyük maraq kəsb edir[28]. Yeri gəlmişkən qeyd edək ki, Həsən bəy Rumlunun "Əhsən ət-təvarix"indəki gerçəkliyə uyğun olan hekayə naməlum müəllifdən götürülmüşdür, həm də bu zaman mühüm təfsilat nəzərə alınmamışdır. Azərbaycanda və İranda siyasi vəziyyətin səciyyəsi, feodal pərakəndəliyi və XVI əsrin əvvəlində öz müstəqilliyini qoruyaraq Səfəvilərlə mübarizə aparan yerli hökmdarlar barəsində də eyni sözləri demək olar[29]. Hicri 911 (1506)-ci il və 915 (1509)-ci ildə qızılbaşların Şirvana yürüşləri haqqında hekayə çox məzmunludur[30].

Müəllif hakim sinfin nöqteyi-nəzərindən, şiəliyin müdafiəsi, Səfəvilərin ifrat dərəcədə təriflənməsi mövqeyindən çıxış edir. O, habelə saray tarixşünaslığının tipik üsullarından istifadə edir. Döyüşlərdən, şah ovlarından, ziyafətlərdən və s. bəhs edərkən onun dili təmtəraqlı və az məzmunlu olur. Qalan hallarda təhkiyənin lakonikliyi, hadisələrin əlaqəli


downloaded from KitabYurdu.az

şəkildə şərh olunması, onların tarixinin dəqiq göstərilməsi ilə fərqlənir ki, bütün bunlar həmin salnaməni bu dövrün tədqiqi üçün əvəzsiz edir. Salnaməçi Sah İsmayılın şərti adından, onu "Xaqan-i Süleymanişan-i sahibqiran"[31], yəni "Ulduzlar cədvəlinin xoşbəxt sahibi olan Süleymana layiq"[32] hökmdar ifadəsi ilə əvəz etməklə istifadə edir.

Bütövlükdə müəllifin bitərəfliliyinə baxmayaraq, o müəyyən mənada obyektivliyi saxlamağa nail olur. Onun rəvayətində XV əsrin sonu-XVI əsrin əvvəlində Azərbaycanın və İranın sosial-iqtisadi vəziyyəti barəsində özünə yer tapmış ayrı-ayrı təfərrüatlara təsadüf edilir[33]. Adı çəkilən "Səffat əs-səfa" və "Həbib əs-siyər"dən başqa, müəllifin həmçinin İbrahim Əmininin "Fütuhat-i Şah-i"əsərindən də istifadə etdiyini güman etmək olar. Bu, belə bir cəhətdə xüsusilə özünü göstərir ki, hər iki mənbədə İsmayılın Kaşana daxil olması və şəhərlilərin onu qarşılaması, həmçinin şəhərdəki təntənələr haqqındakı hekayələr eynidir[34].

"*Təzkirey-i Şah Təhmasib*" ("Şah Təhmasibin təzkirəsi") əsərinin kimə aid olması məsələsi indiyə kimi tədqiqatçılar arasında mübahisə və ixtilaflara səbəb olmuşdur. Onların əksəriyyəti (F.Töyfel, P.Horn, D.Fillot, X.Bexeviç, E.Broun, V.Hins) "Təzkirənin müəllifliyini I Şah Təhmasibin adına çıxırlar. "Təzkirə" mətninin P.Horn tərəfindən nəşrinə[35] dair özünün tənqidi rəyində rus iranşünası V.A.Jukovski bu baxışın əleyhinə çıxış etmişdir[36]. V.A.Jukovski həmin əsərin Sankt-Peterburq əlyazmasına əsaslanaraq[37] sübut etməyə çalışırdı ki, bu əsər I Şah Təhmasibin "gündəliyi", yaxud "memuarları" deyildir və şahın Osmanlı səfiri ilə müsahibəsinin protokoludur[38]. İ.P.Petruşevski[39] və K.Q.Tabatadze[40] də bu nöqteyi-nəzəri müdafiə edirlər.

Tarix elminə bu əsərin iki variantı məlumdur. Birinci variant yalnız iki nüsxədə (Sankt-Peterburq və Tiflis) saxlanılır. "Şah Təhmasibin Rum səfirləri ilə söhbəti" başlığı ilə verilmişdir. "Şah Təhmasibin təzkirəsi" adlanan digər nüsxələr təxminən eynidir və I Şah Təhmasibin hakimiyyətindən bəhs edən tarixi müqəddimənin ön söz kimi verildiyi, yuxarıda adı çəkilən "Söhbətin" bir qədər dəyişilmiş variantıdır. Bu hekayədə hicri 930-938 (1524-1532)-ci illərin hadisələri şərh edilir və mənbə


downloaded from KitabYurdu.az

Səfəvi - Osmanlı münasibətləri ilə əlaqədar deyildir.

Əsərin Sankt-Peterburq əlyazması beş "hekayədən" (Üləma bəy Təkəli[41], Qazi xan Təkəli[42], Əlqas Mirzə[43], İsgəndər paşa[43] və Sultan Bayazid[45] haqqında) ibarətdir.

"Təzkirə" yaddaş qeydləri, memuar səciyyəsi daşıyır. Buna görə də xronoloji ardıcıllıq tez-tez pozulur, real hadisələr şahın röyaları və şəxsi mülahizələri ilə qarışıq şəkildə rəvayət edilir. Hekayə hər yerdə birinci şəxsin, I Şah Təhmasibin dilindən söylənilir. Şahın baxışlarının əks etdirən təsvirlər obyektivliyi ilə fərqlənmir. Buna baxmayaraq, I Təhmasibin əsəri Həsən bəy Rumlunun və digər salnaməçilərin məlumatlarını tamamlayan qiymətli ilkin mənbədir. "Təzkirə"nin I Şah İsmayılın vəfatından sonra qızılbaş tayfalarının üsyanı, XVI əsrin birinci yarında Səfəvi - Osmanlı müharibələri, 1538-ci ildə Şirvan ərazisinin Səfəvi dövlətinə birləşdirilməsi və s. haqqında məlumatları xüsusilə maraqlıdır. Əsərdə Səfəvilərin inzibati idarə sistemi, vilayət hakimlərinin təyin olunması, bağışlanmış mülklər və s. barəsində material vardır.

*Əli Zeynalabdinin (Əbdibəy* təxəllüslü şair) "Təkmilət əl-əxbar" ("Xəbərlərin təkmili") əsəri tarixi - xronikal səciyyə daşıyır, ümumtarix əsəridir və dörd fəslə (baba) bölünmüşdür. Müsəlman sülalələrinə həsr olnmuş dördüncü fəslin sonuncu hissəsində ilk Səfəvilərin - I İsmayılın və I Təhmasibin hakimiyyət illəri şərh edilir. Əsərin istifadə etdiyimiz, keçmiş SSRİ-də yeganə nüsxəsi natamamdır, hicri 968 (1560-1561)-ci ilin hadisələrinin şərhində kəsilir[46].

I Şah Təhmasibin hakimiyyət dövrü hadisələrinin təsviri faktik material və elə təfərrüatlarla zəngindir ki, bunlara digər, sinxron salnamələrdə təsadüf edilmir. Məsələn, dövlət banisinin vəfatından sonra qızılbaş feodal əyanlarının torpaq və yüksək vəzifələr uğrunda dramatik mübarizəsinin gözlənilmədən dəyişkənliyə uğraması faktları şahidin canlı hekayəsində verilmişdir. Əsərdə Səfəvilər dövlətinə birləşdirildikdən sonra Şirvanın vəziyyəti, Əlqas Mirzənin qiyamı, Abdulla xan Ustaclının Şirvanda Bürhan Mirzənin, Mehrabın və Qasım Mirzənin separatçı çıxışlarına qarşı mübarizəsi haqqında mühüm məlumatlar vardır.


downloaded from KitabYurdu.az

Əli Zeynalabdin miqyaslı siyasi hadisələrdən bəhs edərkən şiəliyin və Səfəvilərin tərəfdarı kimi çıxış edir, rəsmi əhval-ruhiyyəyə əməl edir. O, kiçik məmur işlədiyinə görə bürokratik aparata yaxşı bələd idi və buna görə də saray mühitində mümkün olan hər cür təyinatlar və yerdəyişmələr barədə onun məlumatları diqqətəlayiqdir. Xronikanın dili lakonikliyi ilə fərqlənir və dəbdəbəli ibarələrdən məhrumdur.

*Hürşad ibn Qubad əl- Hüseyninin*, uzun müddət Hindistanda yaşamış İraqi-Əcəm əhli olduğu ehtimal edilir. Orada o, Əhmədnaqar hakimlərindən, Nizamşahlar sülaləsindən olan Sultan Bürhanın yanında qulluğa girmişdi. Hürşah Bürhan (1508-1553) səfir kimi I Şah Təhmasibin sarayına göndərilmiş və hicri 952-ci ilin rəcəb ayında (1545-ci ilin sentyabrı) Reyə Gəlmişdi. Bir ay keçdikdən sonra o, şahın qəbuluna düşməyə nail olmuş və öz hökmdarının min tümən dəyərində olan hədiyyələrini I Təhmasibə təqdim etmişdi[47], Hurşahın məlumatına görə o, il yarım Səfəvi şahının sarayında qalmış və onun Gürcüstana və Şirvana yürüşlərində də iştirak etmişdi (1546-1547)[48]. Hurşahın sonrakı həyatı haqqında məlumat azdır. Hicri 971 (1563-1564)-ci ilədək, yəni 19 il ərzində o, Səfəvi sarayında yaşamış və saray dairələrinə yaxın olmuşdur. Burada o, özünün "Tarix-i elçi-yi Nizamşah" ("Nizamşahlar elçisinin tarixi") adlandırılmış tarixi xronikasının birinci variantını başa çatdırmışdır. Müəllifin məlumatına görə, I Təhmasib onun əsərinə böyük maraq göstərmiş, işlə tanış olduqdan sonra istifadə etmək üçün öz əsərinin surətini ona vermişdi; bu əsərində o, "xilafətin pənahı əlahəzrət şahın Rum müharibəsindən indiyə kimi başına gəlmiş bəzi hadisələri bir yerə toplamış və onları bir neçə fəslə bölərək xoşagələn hekayələr yazmışdı..." (Söhbət "I Şah Təhmasibin təzkirəsi"ndən gedir - O.Ə.)[49]. Gördüyümüz kimi, Hurşah Səfəvi şahının memuarının bəzi yerlərini demək olar ki, köçürmüşdür.

Bundan bir qədər sonra Hurşah Hindistana qayıtmış və 1656-ci ilin iyununda Holkonda vəfat etmişdir.

"Tarix-i elçi-yi Nizamşah" yeddi fəsildən (məqalədən) ibarət olan, hər biri öz növbəsində "söhbətlərə" ("göftar") bölünən ümumtarix əsəridir.


downloaded from KitabYurdu.az

Altıncı fəsil Qaraqoyunlu, Ağqoyunlu hökmdarlarına, Səfəvilərin ilk iki şahına, Xəzərsahili vilayətlərin hakimlərinə və Osmanlı sultanlarına həsr olunmuşdur. Hürşahın əsərinin bir neçə əlyazma nüsxəsi məlumdur. Lakin onlardan heç birinin mətni tam şəkildə, yəni əsərin bütün hissələrini əhatə etmir[50]. Keçmiş SSRİ-də bu əsərlər yox idi (yaxud da hələ aşkar edilməmişdi). Onun kiçik bir hissəsi - Şirvanın və digər Xəzəryanı vilayətlərin tarixinə aid parçası Ç.Şefer tərəfindən nəşr olunmuşdur[51]. Bu hissə məzmunca zəngindir. 1537-1538-ci illərdə Qələndərin (dərvişin) xalq üsyanı haqqında məlumatlarından başqa, burada sonuncu Şirvanşahlar və onların oğlanları barəsində, bu sülalənin nəsil şəcərəsindəki boşluğu doldurmağa imkan verən bəzi məlumatlar vardır.

Biz Britaniya muzeyinin, hələ mənbə müəllifinin sağlığında üzü köçürülmüş nadir nüsxəsindən istifadə etmişik. Bu əlyazması daha erkən yazılmışdır və səhihdir. I Şah İsmayıla və I Şah Təhmasibə həsr olunmuş, bizim üçün çox mühüm olan hissəsini (VI məqalədən 3-cü göftar) özündə əks etdirir. I Təhmasibin hakimiyyəti haqqında çox ətraflı hekayə şahın qardaşı Sam Mirzə hicri 969 (1561-1562)-cu ildə Qəhqəhə qalasında zindana salınanadək olan dövrü əhatə edir və hakimiyyətdə olan monarxın mədh olunması ilə bitir. Səfəvilər tarixinin işıqlandırılmasında bu hissədən indiyə kimi istifadə olunmamışdır.

Hürşah Səfəvilər dövlətinin bir çox vilayətlərində - Şirvanda və Azərbaycanın digər hissələrində, Gilanda,Mazandaranda olmuşdur və bu vilayətlərin tarixinə dair onun məlumatlarının dolğunluğu, müfəssəlliyi də elə bununla izah edilə bilər. Hindistan Nizamşahlar dövlətinin səfiri və təbəəsi olan Hurşah Səfəvilərin və şiəliyin tərəfdarı kimi çıxış etsə də, onu fanatizm səviyyəsinə gətirib çıxarmır, öz təmkinli üslubunu və obyektivliyini saxlayır.

Mövzumuzun mühüm mənbələrindən biri Budaq Qəzvininin "Cəvahir əl-əxbar" ("Xəbərlərin inciləri") əsəridir. Bu əsərin dünyada yeganə, avtoqraf sayılan nüsxəsi M.Y.Saltıkov-Şedrin adına Sankt-Peterburq Dövlət Kütləvi Kitabxanasının Əlyazmaları Fondunda saxlanılır[52] və 678 səhifədən ibarətdir. Əlyazmada olan kolofona görə iqrar etmək olar ki, əsər hicri 984-


downloaded from KitabYurdu.az

cü il cüməd əl-əvvəlin sonunda (24 avqust 1576-cı il), yəni II Şah İsmayıl taxta çıxdıqdan üç gün sonra tamamlanmışdı (hadisələrin şərhi də həmin dövrə qədər çatdırılmışdır).

B.Dorn və İ.Petruşevski bu əlyazma barədə son dərəcə ümumi məlumat vermişlər[53]. Bu əsərə xüsusi məqalə həsr etmiş P.İ.Petrov qeyd edirdi ki, əlyazma "yaxşı, sadə dildə yazılmışdır, lakin təcrübəsiz adamın onu oxuması çətindir, çünki diakritik işarələrin təxminən yarısı yoxdur. İran tədqiqatçılarının ona inadla məhəl qoymamasını da bununla izah etmək olar"[54].

Budaq Qəzvini öz həyatını, Səfəvilər idarəsində tutduğu xırda məmur vəzifəsindəki fəaliyyətini qısaca və aydın təsvir etmişdir[55].

O, Şah I Təhmasibin hakimiyyətinin əvvəlində, on dörd yaşında olarkən[56] şah dəftərxanasında işə qəbul olunmuşdur. Sonrakı ildə Budaq Qəzvini pulların saxlandığı dəftərxanada (dəftər-i ərbab-i təhavil) üç tümən maaşla işə götürüldü. Dörd il keçdikdən sonra Budaqın xəttindən xoşu gələn xəzinə başçısı (müstövfi-əl-məmalik) Hacı Hüseyn Kaşi onu öz yanına işə götürdü və ona on beş tümən maaş təyin etdi. Onun qulluqdakı fəaliyyətinin altıncı ilində ölkə üzrə mədaxil və məxarici qeydə almaqdan ötrü məlumat dəftərxanası yaradıldı və Budaq səkkiz tümənlik əmək haqqı ilə ora işə keçirildi. Onun qardaşı Hacı İzzəddin dəftərxananın rəisi idi. Budaqın dayısı Əmir bəy Şələkani, Məhəmməd xan Şərəfəddin oğlu Təkəlinin vəziri və vəkili olduğundan, sonuncu Bağdad hakimi təyin edildikdən sonra öz bacısı oğlunu Ərəb İraqının divan katibi (münşiy-i divan) vəzifəsinə işə götürdü. Üç ildən sonra Məhəmməd xan qoşun kargüzarı (nəvisəndəgiy-iləşkər) vəzifəsini də Budaqa tapşırdı və onun əmək haqqı 20 tüməndən 30 tümənədək artdı. Budaqın özünün etiraf etdiyinə görə, o, "vəzir rütbəsinə doğru gedirdi".

Lakin tezliklə onun uğurlu xidmət yüksəlişi dayandı. Qoşun kargüzarlığını başqasına verdiyi üçün Məhəmməd xandan inciyən Budaq, Kirmanda xidmətdən qaçdı. Budaqın həyatının iztirablı və məhrumiyyətlərlə zəngin olan dövrü başlandı. O, bir neçə il işsiz və ac qaldı. Ehtiyacın təqib etdiyi Budaq tez-tez yaşayış yerini dəyişirdi. Nəhayət, Qəzvində şahın


downloaded from KitabYurdu.az

qardaşı Bəhram Mirzə onu öz yanına katib götürdü və Budaqın 4 il orada qulluq etməsini ehtimal edə bilərik. Lakin fitnəyə cəlb edildiyinə görə Budaq, əmlakı müsadirə olunmaq şərtilə, həbs edildi. O, altı il işsiz qaldı, sonra isə Soucbulakın və başqa şəhərlərin kələntərliyi ona bəxşiş edildi. Budaq uzun illər ərzində Xorasanda müxtəlif vəzifələrdə xidmət göstərdi. Təqribən 1565-ci ildə o, Qəzvinə qayıtdı, xəbərçilik nəticəsində yenidən həbs edildi və cərimə olundu. Beş il işsiz qaldıqdan sonra Damğan, Bistan və digər şəhərlərə vəzir təyin olundu, lakin yenidən işdən çıxarıldı. Daha beş il keçdikdən sonra o, şah tərəfindən yenidən işə qəbul edildi. Ona Qəzvin şəhərinin on il üçün mədaxil və məxaricinin hesabatını tərtib etməyi tapşırdılar. Budaqın tərcümeyi-halı belə bir şikayətlə bitir ki, o, artıq 68 yaşına yetməsinə baxmayaraq, yenə də, ”müsibətlər məngənəsindəən yaxa qurtarmamış və məqsədinə çatmamışdır, işsiz və fəaliyyətsiz” qalmaqdadır.

“Cəvahir əl-əxbar” ümumtarix əsəridir və islamdan əvvəlki hökmdarlardan başlayaraq II İsmayılın taxta çıxmasına qədər olan dövrü əhatə edir. Əsər dörd bölmədən ibarətdir ki, bunlardan da sonuncusu Qaraqoyunlu və Ağqoyunlu padşahlarına və Səfəvilərin ilk iki nümayəndəsinə - I İsmayıla və I Təhmasibə həsr olunmuşdur. Müəllif bir çox hallarda təsvir olunan hadisələrin şahidi və iştirakçısı olduğuna görə onun əsəri I Şah Təhmasibin hökmdarlığı dövrünü öyrənmək üçün birinci dərəcəli mənbədir. Hakim dairələrlə yaxından tanış olan Budaq çox vaxt elə təfsilatlardan bəhs edir ki, bunlara onun müasirləri olan salnaməçilərin əsərlərində rast gəlmək olmur. Məsələn, Ağqoyunlu və Səfəvilərin hakimiyyəti zamanı əhalinin orta təbəqəsinin ümumi iqtisadi vəziyyəti haqqında verilən maraqlı məlumatlar onların vəziyyətinin xeyli yaxşılaşdığını göstərir[58].

I Təhmasibin hakimiyyətinin təsviri onun müsbət şəxsi keyfiyyətlərinin sadalanması ilə başlanır. Həmin hissənin ümumən mədhiyyə xarakteri daşımasına baxmayaraq, burada I Təhmasibin şəxsiyyəti və onun daxili siyasəti haqqında qiymətli məlumatlar vardır[59]. Onun hökmdarlıq tarixi ciddi xronoloji qaydada şərh olunur. Hadisələrin təsviri ümumən yığcam və müxtəsər olsa da, onlardan müəllifin şahidi olduğu


downloaded from KitabYurdu.az

hadisələr daha canlı, aydın dildə təsvir olunur və digər narrativ mənbələrdə deyilənləri maraqlı təfərrüatlarla tamamlayır. Bu, hicri 941 (1534-1535)-ci ildə Sultan Süleymanın Azərbaycana yürüşlərinə, o cümlədən Məhəmməd xan Təkəlinin Bağdadı müdafiəsinə də aiddir. Bu yürüşdə iştirak etmiş Budaq Bağdaddan geri çəkilmə səhnələrini ətraflı təsvir etmişdir.

Budaq məmur kimi bürokratik sistemlə yaxşı tanış olduğu üçün Səfəvilərin inzibati aparatı haqqında əsərdə hekayə boyu səpələnmiş, maraqlı məlumatlar vardır. O, özünün əhatə olunduğu mühitdə yeni təyinatlar və vəzifədən çıxarmalar barədə məlumatlar verir. Budaq şiəliyin və Səfəvilərin qatı tərəfdarı kimi çıxış edir, mühüm hadisələrin təsviri zamanı rəsmi məlumatları əsas götürür. Xidmət sahəsinə görə (maliyyə sisiteminə yaxşı bələd olduğu üçün) bəzən onun qeyd etdiyi rəqəmlər böyük maraq doğurur.

"Cəvahir əl-əxbar" hakimiyyətdə olan II Şah İsmayıla həsr olunmuşdur; əsərin sonuncu səhifələrində I Təhmasibin vəfatından sonra baş vermiş iğtişaşların aydın təsviri verilir və yeni şahın ünvanına xeyir-dua verilir.

"Əhsən ət-təvarix" - Azərbaycan salnaməçisi *Həsən bəy Rumlunun* çoxcildlik[60] əsəridir. Əsərin sonuncu cildi hicri 900-985 (1494-1578)-ci illər dövrünü əhatə edir. Hadisələrin şərhi Şah Məhəmməd Xudabəndənin taxta çıxmasına qədər verilir[61]. Hər il üçün ən mühüm hadisələr şərh edilir, habelə həmin ildə vəfat etmiş feodal hakimləri, din xadimləri, alimlər və şairlər barəsində tərcümeyi-hal məlumatları verilir.

I Təhmasibin yarıməsrlik hakimiyyəti dövründəki hadisələr heç bir başqa mənbədə Həsən bəy Rumlunun əsərində olduğu kimi təfsilatı ilə şərh edilmir. Əgər anonim tarixçinin əsəri I Şah İsmayılın tarixinə dair ən tam mənbədirsə, I Şah Təhmasibin dövrü üçün də "Əhsən ət-təvarix" belə əvəzedilməz mənbə olaraq qalır.

Həsən bəy Rumlu üçün Azərbaycan tarixi böyük maraq kəsb edir. Azərbaycandakı hadisələrə onun əsərində kifayət qədər bölmələr həsr edilmişdir. Onun əsərinin bir çox səhifələri gənc şah I Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş əyanlarının dövlət aparatında yüksək və


downloaded from KitabYurdu.az

gəlirli vəzifələrini tutmaq uğrunda mübarizəsini, Azərbaycanın cənub vilayətlərinin hakimi Üləma bəyin qiyamını, Şirvan bəylərbəyi Əlqas Mirzənin xəyanətini, Sultan Süleymanın Azərbaycana dörd yürüşünü və s. əks etdirir.

Əsərdə Azərbaycandakı xalq üsyanları, o cümlədən 1571-1573-cü illərdə Təbrizdə sənətkarların və şəhər yoxsullarının baş vermiş üsyanı haqqında qiymətli material vardır[63].

Səfəvilər dövlətinin tarixinə dair salnamələr arasında indiyədək elmdə, demək olar ki, tədqiq edilməmiş *Qazi Əhməd İbrahim Quminin* "Xülasət ət-təvarix" ("Tarixlərin xülasəsi") əsəri qeyd olunmalıdır. Bu əsərin əlyazmaları olduqca nadirdir. Keçmiş SSRİ-də qədim əlyazmaların saxlandığı obyektlərdə bu nüsxələr yoxdur. Həmin əsər haqqında ilk dəfə 1935-ci ildə Valter Hins məlumat vermişdir. Müharibədən əvvəl Berlindəki Prussiya dövlət kitabxanasında saxlanılan əsərin əlyazmasının qısa təsviri də ona məxsusdur[64].

"Xülasət ət-təvarix" Qazi Əhmədin yeganə əsəri deyildir. "Məcmə əş - şüəra" ədəbi antologiyası[65] və B.N.Zaxoderin rus dilinə tərcümədə nəşr etdirdiyi "Gülüstan-i hünər"[66] əsəri də onun qələminin məhsuludur.

Bizə qədər gəlib çatmış "Xülasət ət-təvarix"in hissəsi, Qazi Əhmədin öz sözlərindən aydın olduğu kimi, hicri 999 (1590-1591)-cu ilə qədər Səfəvilərin tarixini əhatə edən tarixi xronikanın yalnız sonuncu-beşinci cildini təşkil edir. Birinci dörd cild bizə qədər gəlib çatmamışdır; ehtimal etmək olar ki, onlar ümumiyyətlə yazılmamışdır. Qazi Əhməd əsərin altıncı cildini yazmaq niyyətini nə dərəcədə həyata keçirdiyini də iddia edə bilmərik.

Qazi Əhməd əsərlərindən istifadə etdiyi aşağıdakı Səfəvi salnaməçilərinin adlarını çəkir: Əmir Sultan İbrahimi Əmini Hərəvi ("Fütuhat-i Şah-i"nin müəllifi), Mir Mahmud ibn Xondəmir, Mövlana Həyati Təbrizi (?), Qazi Əhməd Qəffari ("Tarix-i Cahan-ara"nın müəllifi), Həsən bəy Rumlu ("Əhsən ət- təvarix"in müəllifi)[67].

Müəllif göstərir ki, o, beş cildin hamısına ömrünün on iki ilini sərf etmişdir[68].Buradan da onun salnaməni təqribən 1578-ci ildə tərtib etməyə


downloaded from KitabYurdu.az

başladığı aydın olur.

Əsər I Təhmasibin hakimiyyətinin son on ili, II İsmayıl, Məhəmməd Xudabəndənin hakimiyyət illəri və I Şah Abbasın hakimiyyətinin başlanğıcı üçün mühüm ilkin mənbədir. Hətta əsərin səthi nəzərdən keçirilməsi göstərdi ki, bunda da söhbət Həsən bəy Rumlu və İsgəndər bəy Münşinin əsərləri arasındakı boşluğu doldurmaq üçün mühüm mənbənin səhihliyindən gedir. Əgər I İsmayıla qədərki dövr də daxil edilməklə həmin dövr üçün materialın verilməsi ən mühüm hadisələr üzərində qurulursa, I Təhmasibin hökmdarlığı zamanından başlayaraq bölgü illər üzrə aparılır, yeni fəsillər yeni ildən - Novruz bayramından başlanır.

Xronika tam halda nəşr olunmamışdır. Əsərin yalnız başlanğıc hacri 909 (1503-1504)[69]-cu islədək və son[70] (I Şah Abbas hakimiyyətinin ilk illəri) hissələri dərc olunmuşdur[71].

Mövzunun tədqiqi üçün ilk dəfə olaraq Mahmud ibn Hidayətulla Nətənzinin "Nəqavət əl-əsar fi zikr əl-əxyar (yaxud əxbar)" ("Dindar adamlar haqqında hekayələrdəki əsərlərdən ən yaxşısı")[72] əsərindən istifadə edilmişdir. Müəllif barədə məlumatlar çox cüzidir və yalnız əsərin daxilində olanlardan ibarətdir. O, ruhani ailəsində doğulmuşdur. Onun atası Şah I Təhmasibin qardaşı, Heratın Səfəvi hakimi olmuş Bəhram Mirzənin himayəçiliyindən istifadə etmişdir. Müəllifin göstərdiyinə görə, o, gənc yaşlarından tarix və ilahiyyata dair kitablar oxumağa həvəs göstərmişdir. Mahmud Nətənzi hicri 938 (1531-1532)-ci ildə anadan olmuş, 998 (1590)-ci ilin yazında, yəni artıq 60 yaşına çatanda əsəri yazmağa başlamışdı. Nətənzinin əsəri iki ciddən ibarətdir. Birinci cilddə I Şah Təhmasibin ölümündən (1576) I Şah Abbasın hakimiyyətə gəlməsinədək (1587) olan dövrdə baş vermiş ən mühüm hadisələr şərh edilir. Birinci cildə nisbətən daha müfəssəl olan ikinci cild I Şah Abbasın hakimiyyətinin hicri 1007 (1598-1599)-ci ilədək ilk on bir ilini əks etdirir. Deməli, əsər başa çatan zamanda müəllifin 69 yaşı olmuşdur[73].

Nətənzinin təsvir etdiyi, I Şah Abbas dövrünə qədərki bir çox hadisələr başqa salnaməçilər tərəfindən ya tamamilə qeyd olunmur, ya da


downloaded from KitabYurdu.az

çox yığcam şərh edilir. Belə hadisələrə I Şah Təhmasibin dəfn olunmasını, II İsmayılın vəfatından sonra fırıldaqçıların meydana çıxmasını, onun pul islahatları haqqında məlumatları və s. misal göstərmək olar. Əsərdə 70-80-ci illərin axırlarında baş vermiş müharibələr, I Abbasın taxta çıxması ərəfəsində Səfəvilər dövlətinin daxili siyasi vəziyyəti haqqında mühüm təfsilatlar vardır.

Mahmud Nətənzi istifadə etdiyi mənbələrin adını çəkmir. Lakin izahından aydın olur ki, onun qələmə aldığı məlumatların əsas hissəsi şəxsi müşahidələrə və rəsmi sənədlərə, habelə şahidlərin söylədiklərinə əsaslanır. Material hissələrə, yaxud fəsillərə bölünmədən, xronoloji ardıcıllıqla düzülmüşdür. Müəllif yalnız hadisələri deyil, həm də onlarin səbəblərini şərh etməyə cəhd göstərir[74].

*Şərəfxan Bidlisinin* "Şərəfnamə" əsəri I Şah Təhmasibin hakimiyyətinin son illərində və II İsmayılın dövründə Səfəvilər dövləti haqqında bir çox maraqlı məlumatlar verir.

Y.İ.Vasilyevanın yazdığı kimi, "Şərəfxan öz salnaməsində İranda daxili siyasi hadisələrin, xüsusilə də, 1576-cı ildə I Şah Təhmasibin vəfatından sonrakı ictimai dövrünün düzgün qiymətini verir"[76]. Müəllif, Səfəvilərin feodal "nərdivanında" yüksək mövqe tutan Bidlis şəhərinin irsi hakimlər nəslindən idi . Şərəfxan təsvir etdiyi bir çox hadisələrin canlı şahidi və iştirakçısı olmuşdur. Məsələn, o, II Şah İsmayılın tapşırığı ilə "mərhum şahın" (I Təhmasibin - O.Ə.) var-dövlətini, dövlət xəzinəsini və qalan əmlakını" mühafizə etmiş və bunun ətraflı təsvirini vermişdi[77]. 1578-ci ildə Osmanlı hücumuna qədər Azərbaycanın daxili həyatı, əhalinin vəziyyəti və vergi sistemi haqqında onun verdiyi məlumatlar xüsusilə maraqlıdır.

Müharibənin əvvəlində Səfəvilərin uğursuzluqları və özünün xudbin mənafeyi ucbatından Şərəfxan Səfəvilərdən üz döndərərək Osmanlı sultanı III Muradın tərəfinə keçmiş, onun Azərbaycana yürüşlərində iştirak etmişdir. Əsərin sonuncu hissələrində Osmanlı informasiya mənbələrinin güclü təsiri hiss olunur və buna görə də 80 - 90-cı illərə dair məlumatlar tam deyildir və birtərəfli səciyyə daşıyır. Müəllif rəsmi Osmanlı təmayülünün tərəfdarı


downloaded from KitabYurdu.az

olmasa da,onun izahında Azərbaycanın və digər ölkələrin türklər tərəfindən işğalı idealizə edilmiş şəkildə işıqlandırılır. Bəzən Şərəfxan hadisələrin tarixini səhv göstərir. Məsələn, o, Krım xanı Məhəmməd Gireyin Azərbaycana yürüşünün hicri 992 (1584)[78]-ci ildə ildə baş verdiyini göstərir, halbuki həmin hadisə beş il əvvələ, yəni hicri 987 (1579)-ci ilə aiddir. ”Şərəfnamə”nin bu yanlışlığı bir neçə əsərdə öz əksini tapmışdır və bu barədə müvafiq bölmədə bəhs ediləcəkdir.

Mövzunun işlənməsi üçün ən mühüm mənbələrdən biri görkəmli Azərbaycan tarixşünası İsgəndər bəy Türkman Münşinin “Tarix-i aləm arayi Abbasi” (“Dünyanı bəzəyən abbasın tarixi”) adlı sanballı əsəridir.

İsgəndər bəy Münşi (1560/61-1634) o dövr üçün gözəl təhsil almışdı, mahir xəttat, poeziya bilicisi idi. İsgəndər Münşi müxtəlif hakimlərin yanında maliyyə məmuru işləyərək, I Şah Abbasın birinci vəziri Hatəmbəy Ordubadinin himayədarlığı sayəsində yüksək mənsəbə çatmışdı. İsgəndər bəy yürüşlər və zəfərlər zamanı şahı müşayiət etmiş, Azərbaycanda, İranda, İraqda və digər ölkələrdə bir çox hadisələrin şahidi olmuşdur. İsgəndər bəy Münşinin əsəri girişdən (müqəddimə) və iki cilddən (səhifə) ibarət olub I Abbasın yarıməsrlik hakimiyyəti dövrünün ən mühüm və əvəzedilməz mənbəyidir[79]. Tədqiq edilən mövzu ilə əlaqədar bizi mənbənin “giriş” hissəsi maraqlandırdı. Burada İsgəndər bəy Münşi Səfəvilər sülaləsinin mənşəyindən söz açır, bu sülalənin ilk dörd şahının hakimiyyət tarixini şərh edir. Əsərin bu hissəsini müəllif özündən əvvəlki tarixşünasların materialları əsasında yazsa da, girişin kompilyativ səciyyəsi ilə yanaşı, burada müxtəlif bizim üçün naməlum olan mənbələrdən götürülmüş orijinal materiallara da təsadüf edilir. I Şah Təhmasibin daha çox adlı-sanlı müasirlərinə - məşhur xanlara və sultanlara, seyidlərə və şiə şeyxlərinə, vəzirlərə və müstöfilərə, xəttat, rəssam, şair, musiqiçi və xanəndələrə həsr olunmuş nadir bölmələri bunlara misal ola bilər. Bu şəxslərin hər biri haqqında onların fəaliyyətini səciyyələndirən qısa bioqrafik məlumatlar verilmişdir[80].

“Müqəddimə”nin II İsmayılın və Məhəmməd Xudabəndənin hakimiyyət dövrlərinə həsr olunmuş bölmələri, bizim üçün olduqca


downloaded from KitabYurdu.az

qiymətli mənbə oldu. Çünki sinxron mənbələrin heç birində biz həmin illərin belə tam və təfsilatlı şərhinə rast gəlmədik.

Səfəvilər dövrünün digər tarixçilərinə nisbətən İsgəndər Münşi o dövrün tarixçiləri üçün nadir sayılan keyfiyyət üstünlüyü ilə fərqlənirdi. O özünün sələflərindən məlumatları sadəcə olaraq götürmür, həm də hadisələrə öz münasibətini bildirməklə, onları yenidən mənalandırmağa, səy göstərir. Münşi bəzən hadisələrin təzahürlərinə aludə olmur, onların tarixini vermir, əsas diqqətini bu hadisələrin mahiyyətinin açılmasına yönəldir. Bu mənada o, fikrimizcə öz müasirlərindən - salnaməçi olub, yalnız faktları qeydə almaqla kifayətlənən tarixçilərdən xeyli yüksəkdə dururdu.

Mövzunun işlənilməsi üçün olduqca vacib olan Avropa mənbələrini nəzərdən keçirək. Həmin sənədlərin qiyməti bundadır ki, onlar Səfəvilər dövlətinin Şərq salnaməçilərinin əsərlərində sərf-nəzər olunan sosial-iqtisadi həyat və siyasi quruluş məsələlərinin bəzi əhəmiyyətli tərəflərini işıqlandırırlar.

*Vinçentso d´Alessandri* Venetsiya Respublikasının I Şah Təhmasibin sarayına təyin edilmiş səfiri idi. O, 1571-ci ildə Səfəvilərin paytaxtı Qəzvin şəhərinə gəlmiş və təxminən iki il ölkədə yaşamışdı. Qayıtdıqdan sonra o, Venetsiya hakiminə özünün Səfəvilər dövlətinə olan səfəri barədə hesabat təqdim etmişdi[81]. Müxtəsər olmasına baxmayaraq, Alessandrinin hesabatında I Şah Təhmasibin hakimiyyətinin son illərində Səfəvilər dövlətinin vəziyyəti haqqında maraqlı məlumatlar və avropalının müşahidələri vardır.

Alessandri Səfəvilər sarayı, I Şah Təhmasibin şəxsiyyəti və həyat tərzi, mərkəzi hökumət, Səfəvilərin daxili siyasəti, o cümlədən vergi siyasəti haqqında qiymətli məlumatlar verir. Məsələn, I Təhmasibin "mərhəmətindən", "ədalətindən" və onun bəzən rəiyyət vergilərini ləğv etməsindən çox danışan farsdilli mənbələrin əksinə olaraq Alessandri göstərir ki, adətən belə "ləğvetmədən" bir qədər keçdikdən sonra şah gözlənilmədən bütün vergi borclarının ödənilməsini tələb edirdi ki, bu da kəndliləri kütləvi surətdə müflisləşdirirdi[82]. I Təhmasibin gömrük rüsumunu



downloaded from KitabYurdu.az

(tamğa - O.Ə.) ləğv etməsi "bunlar dünyanın hər hansı hissəsində olduğundan yüksək idi" və sonuncuların "ticarətin yeddidə birini təşkil edən"[83] daha mülayim vergi ilə (boniçe - O.Ə.) əvəz edilməsi barədə onun məlumatı çox mühümdür. Məhsuldan, torpaqdan və qoyunların sayına görə alınan vergi haqqında venetsiyalının gətirdiyi bəzi rəqəm məlumatları olduqca maraqlıdır[84]. Səfəvilərin qoşunu, onun silahları, şah qvardiyası və i.a. barədə verilmiş məlumatlar da maraqlıdır.

Mövzu üçün digər italyan müəllifinin - *Ciovanni Tommazo Minadoinin* "Türklər və iranlılar arasındakı müharibələri tarixi" əsəri[85] böyük əhəmiyyət kəsb edir.

Minadoi 1540-cı ildə İtaliyanın Roviqo şəhərində anadan olmuşdur. Paduya universitetində tibb təhsilini tamamladıqdan sonra Suriyada Venetsiya konsulluğunun xəstəxanasında həkim işləmişdir. O, 1579-1586-cı illərdə burada olmuş və yəqin ki, türk dilini yaxşı bilmişdir. Xidməti borcunu yerinə yetirərkən Osmanlı mülklərinə səfərlər edir, tez-tez İstanbulda olur, o vaxt Osmanlı imperiyası ilə Səfəvilər dövləti arasında gedən müharibələr haqqında məlumatlar toplayırdı. O, İtaliyaya qayıtdıqdan sonra, tezliklə bu müharibələrin tarixini nəşr etdirir. Minadoi 1596-cı ildən Paduyada yaşamış, adı çəkilən universitetin tibb professoru olmuş və 1615-ci ildə vəfat etmişdir[86].

Minadoinin əsəri ilk dəfə 1587-ci ildə Romada çapdan çıxmışdı. 1588-ci ildə Minadoi öz əsərini 9 fəslə (ilkin nəşrdəki dörd fəsildən ibarət idi) bölüb yeni materialla tamamlayaraq, ikinci dəfə nəşr etdirdi. Venetsiya nəşri Minadoinin əsərinin tam və son nəşri sayılır. Kitab Avropa oxucularının diqqətini dərhal özünə cəlb etdi. Onun əsəri tez bir zamanda ispan (1588), ingilis (1595) və latın (1601) dillərinə tərcümədə çapdan çıxdı. Onu qeyd etmək kifayətdir ki, Minadonin əsəri 14 il ərzində yeddi dəfə nəşr olunmuşdu[87]. Bunu Avropalıların "əfsanəvi dərəcədə zəngin" Şərq ölkələrinə sadəcə olaraq artan marağı ilə izah etmək kifayət deyildir. O dövrdə Qərbi Avropa dövlətləri üçün real təhlükəyə çevrilmiş Osmanlı Türkiyəsinin gələcək niyyətləri qarşısında Avropa cəmiyyətini təlaş bürümüşdü.


downloaded from KitabYurdu.az

Tədqiqatçılar üçün daha böyük əhəmiyyət kəsb edən ikinci fəsildə Minadoi islam dini, iki təriqətin - sünniliyin və şiəliyin mənşəyi, Şah İsmayılın sələfləri - Səfəvi şeyxləri, Səfəvilər dövlətinin meydana gəlməsi haqqında olduqca geniş məlumatlar verir. Daha sonra vilayət və şəhərlərin adları bir-bir sadalanmaqla Səfəvilər dövlətinin coğrafi mövqeyi təsvir edilir. Fəsildə Gürcüstan çarlığının siyasi vəziyyətinin səciyyəsi, habelə Şirvan və onun şəhərləri barədə məlumatlar vardır[88]. Minadoi bəzən bu və ya digər məsələ üzrə rəqəmlər verməklə Səfəvilər dövlətinin dövlət quruculuğu və hərbi təşkilat məsələlərinə də toxunur. Onun dövlət xəzinəsinin gəlirləri haqqında verdiyi məlumatlar olduqca mühümdür.

Bir sözlə, fəsildə XVI əsrin ikinci yarısında Səfəvilər dövlətinin ümumi vəziyyəti haqqında Alessandrinin yaratdığı mənzərəni xeyli tamamlayan materiallar vardır.

Digər fəsillərdə (yeddincidən başqa) I Şah Təhmasibin hakimiyyətinin son illərində Səfəvilər dövlətinin daxili vəziyyəti, ölkəni fəlakət həddinə gətirib çıxarmış saray çəkişmələri, qızılbaş feodal güruhları arasındakı mübarizə ətraflı təsvir edilir. 1586-cı ilin sonunda Həmzə Mirzənin vəfatına qədər Osmanlı - Səfəvi müharibələrindən müəllifin müfəssəl danışması böyük elmi maraq doğurur[89]. Minadoinin məlumatının əsas mənbələri təsvir olunan hadisələrin iştirakçıları və şahidləri ilə görüşlər və söhbətlər idi. Bu işdə ona kömək etmiş şəxslər arasında o, "Suriyadakı Venetsiya senatının çox hörmətli səfirlərinin" adlarını minnətdarlıqla çəkir. Həkimlik praktikası ona yüksək vəzifəli Osmanlı əyanlarının evlərinə getməyə və lazımi məlumatlar əldə etməyə imkan verirdi . Minadoi alınan materialı sadəcə olaraq qeyd etmir, hadisələrin müxtəlif variantlarını tutuşdurmaqla, daha ağlabatan variant üzərində dayanırdı. Minadoinin əsas məlumatçısının Səfəvilərə xəyanət etmiş və Osmanlı sultanı tərəfindən Hələb hakimi təyin edilmiş qızılbaş səfiri Maqsud xan Zülqədər olduğu ehtimal edilə bilər[90].

Minadonin əsəri onun müasirlərinə yaxşı məlum idi, orada verilmiş materiallardan tarix əsərlərində geniş istifadə olunurdu. Məsələn, Oruc bəy Bayatın ( iranlı Don Juan) əsərinin ikinci kitabı əsasən Minadonin əsərinin


downloaded from KitabYurdu.az

ixtisarla qələmə alınmış variantıdır[91].

Bizə məlumdur ki, Minadoinin əsəri indiyə kimi vətən tarixşünaslarının diqqətini cəlb etməmişdir. V.V.Bartoldun "Avropada və Rusiyada Şərqin öyrənilməsi tarixi" adlı kitabında da Minadonin adı çəkilmir.

Əlbəttə, xristian aləminin nümayəndəsi kimi Minadonin nəzərində həm türklər, həm də iranlılar (qızılbaşlar) "dinsizlər" və "barbarlar" idilər. Lakin hər halda o, bitərəf mövqedə də qalmamışdı və bu, onun əsəri ilə tanışlıq zamanı hiss olunur. Bunu da nəzərə almamaq olmaz ki, bəhs etdiyimiz dövrdə Osmanlı təhlükəsi ilə mübarizə aparan Səfəvilər dövləti Avropa dövlətlərinin təbii müttəfiqi idi.

Səfəvilər dövlətinin tarixinə dair mənbələr arasında iranlı *Don Xuanın* [92] (Don Juanın) əsəri xüsusi yer tutur. Qızılbaş Bayat tayfasından olan azərbaycanlı Oruc bəy bu ad altında Avropada tanınmışdı. Oruc bəyin atası Sultanəli bəy Bayat tayfasının əyanlarından və Şah Məhəmməd Xudabəndənin sarayında görkəmli simalardan biri idi. Sultanəli bəy özünün feodal qoşun dəstəsi ilə qızılbaşların Təbrizdəki Osmanlı hərbi hissəsi ilə mübarizəsində iştirak etmiş və toqquşmaların birində həlak olmuşdu. Qoşuna başçılıq etmək şahzadə Həmzə Mirzəyə sədaqətlə xidmət edən Oruc bəyin əlinə keçmişdi[93].

Oruc bəyin yazdığına görə, I Şah Abbas taxta çıxdıqdan sonra yeddi il yarım ərzində 50-dən artıq hərbi əməliyyat həyata keçirmişdi. Oruc bəy onların yarısında şəxsən iştirak etmişdi[94].

Osmanlı Türkiyəsinə düşmən olan Avropa dövlətləri ilə hərbi-siyasi ittifaq yaratmaq məqsədilə I Şah Abbas Hüseynəli bəyin səfirliyini (tərkibinə katiblərdən biri kimi Oruc bəy Bayat da daxil edilmişdi) Avropaya göndərmişdi. Oruc bəy Bayat 1599-1601-ci illərdə Rusiya, Almaniya, Çexiya, İtaliya, Fransa, İspaniya və Portuqaliyaya səyahət etmişdi. O, İspaniyada xristianlığı və Don Juan adını qəbul edərək ömürlük burada qalmışdır.

Don Xuanın – Oruc bəyin əsəri ilk dəfə olaraq müəllifin sağlığında (1604-cü il) ispan dilində nəşr olunmuşdur. Oruc bəyin əsəri (Q.Le-Strencin nəşrində) üç kitaba bölünmüşdür. Birinci kitabın giriş hissəsində


downloaded from KitabYurdu.az

müəllif özünün etdiyi və onun fikrincə yalnız Marko Polonun və Magellenın səyahətləri ilə müqayisə edilə bilən səyahətindən iftixarla danışır. Sonra o, Səfəvilər dövlətinə daxil olan vilayətlərin təsvirini verir. I Şah Abbasın hakimiyyəti zamanı dövlət quruluşu haqqında məlumatlar maraqlıdır. Əyanları birinci dərəcəli, hakim mövqe tutan 32 qızılbaş tayfa və boylarının adı çəkilir. Oruc bəy qeyd edir ki, bütün ən mühüm vəzifələr, hərbi komandanlıq və dövlət hakimiyyətinin digər başlıca sahələri bu tayfaların yuxarı təbəqələrinə məxsus idi[95].

Sonra müəllif İran tarixinin şərhinə keçir. Ölkənin ən qədim tarixinə qısa ekskursdan sonra Sasani şahlarının tarixi, XVI əsrin əvvəlinə qədərki dövrdə İranın müsəlman hökmdarlarının hakimiyyəti dövrləri haqqında söhbət açılır.

Ikinci kitab Səfəvilər dövlətinin yarandığı vaxtdan Oruc bəyin öz vətənini həmişəlik tərk etdiyi XVI əsrin sonunadək (1599-cu il) siyasi tarixinə həsr olunmuşdur. Bu hissəni bütövlükdə, Minadoinin əsərinin müəllifin öz atasından öyrəndiyi və hadisələrə şəxsi təəssüratından doğan məlumatlarla bir qədər zənginləşdirmiş olduğu müxtəsər variantı hesab etmək olar.

I Şah İsmayılın müharibələrinin işıqlandırılmasına bir qədər yer ayıran Oruc bəy demək olar ki, I Təhmasibin yarıməsrlik hakimiyyəti dövrünü sərf-nəzər edərək onun oğlanları arasında, taxt üstündə gedən daxili mübarizənin təsvirinə keçir. Sonuncu bölmələr Gürcüstanın və Azərbaycanın sultan orduları tərəfindən işğalını başa çatdıran, 70 və 80-ci illərin sonundakı hərbi-siyasi hadisələrin müfəssəl təsvirinə həsr olunmuşdur.

1585-ci ildən sonrakı hadisələrin təsviri onların şahidi və fəal iştirakçısı olan Oruc bəyin özünün şəxsi xatirələrinə əsaslandığı üçün orijinal səciyyə daşıyır. Üçüncü kitabın mzmunu onun üzv olduğu Səfəvi səfirliyinin təsvirindən ibarətdir[96].

Avropa mənbələrindən bizim üçün ən faydalı olanları XVI əsrin ikinci yarısında Azərbaycana gəlmiş “Moskva kompaniyası” adlı ingilis


downloaded from KitabYurdu.az

şirkətinin agentləri olan tacir-səyahətçilərin - Antoni Cenkinsonun, Tomas Olkonun, Riçara Consonun, Artur Edvardsın, Ceffri Deketin və Xristofor Berrounun hesabatları, habelə italyanlardan Ancolellonun, naməlum tacirin, Vekyettinin[97] qeydləridir. Bu hesabatlarda Azərbaycanın və bütün Səfəvilər dövlətinin iqtisadi vəziyyəti, o cümlədən şəhərləri, ticarəti və ticarət malları, ticarət yolları, ölkə təsərüffatının aparıcı sahələrindən biri olan ipəkçiliyin vəziyyəti və imkanları haqqında xeyli məlumata təsadüf edilir.

Erməni mənbələri arasında Ohanes Saretsinin tərtib etdiyi, Təbrizli Arakelin "Hirk patmutyans" ("Tarixlər kitabı")[98] adlı böyük əsərinə 55-ci fəsil kimi daxil edilmiş 1547-1600-cü illər dövründə Qafqaz Albaniyası (Aqvaniya) tarixinə dair qısa salnamə maraqlıdır. XVI əsr Azərbaycan tarixinə dair gürcü mənbələrinin məlumatları təsadüfi və yarımçıqdır[99].

Sosial-iqtisadi münasibətlərin, feodal torpaq sahibliyinin və vergi verən əhalinin vəziyyətinin öyrənilməsində sənədli mənbələrin-Səfəvi hökmdarları fərmanlarının böyük köməyi olmuşdur.

Səfəvi fərmanlarının aşkara çıxarılması və sistemli nəşri sahəsində son dövrdə böyük işlər görülmüşdür[100]. A.D.Papazyanın hazırladığı "Matenadarın fars fərmanlari"nın iki cilddə çapdan çıxdığını qeyd etmək kifayətdir.Səfəvi hökmdarlarının burada dərc olunmuş fərmanları (o cümlədən ilk Səfəvilərin 15 fərmanı), əsasən erməni kilsəsinin və erməni icmalarının hüquqlarına aid olsa da, həmin sənədlər dövlətin digər vilayətlərində, o cümlədən də Azərbaycanda feodal münasibətlərini öyrənmək üçün yardımçı mənbələrdir. Gürcü kolleksiyalarında toplanmış farsdilli sənədlərin iki nəşrini V.S.Puturidze həyata keçirmişdir. Son illərdə Azərbaycanda da yerli arxiv və fondlarda göstərilən dövrün nisbətən daha az miqdarda olan farsdilli tarixi sənədlərin toplanması və nəşri işi canlanmışdır. Üç məcmuə nəşr edilmiş T.M.Musəvi bu mühüm işə faydalı töhfə vermişdir.

Xaricdə bu qəbildən olan nəşrlərdən[101] danışarkən V.F.Minorskinin dərc etdirdiyi Ağqoyunlu Qasimin 1498-ci il soyurqal fərmanını birinci qeyd etməliyik. Həmin nəşrdə bu mənbənin mətni və tərcüməsi hərtərəfli tədqiq edilmiş və şərh olunmuşdur ki, bu da mürəkkəb və az öyrənilmiş


downloaded from KitabYurdu.az

sosial-iqtisadi terminləri açmağa imkan vermişdir. Bu iş Avropa iranşünaslarında buna bənzər sənədləri öyrənməyə və aydınlaşdırmağa böyük maraq oyatmışdır. Tezliklə ayrı-ayrı fərmanlar və onların məcmuələri işıq üzü gördü ki, bunlardan da Ağqoyunlu və Səfəvilərin bir neçə fərmanını əhatə etmiş H.Horstun və J.Obenin nəşrlərini qeyd edə bilərik. Sonuncuların arasında Naxşıvana aid olan gömrük rüsumlarının ləğv edilməsi haqqında I Şah Təhmasibin 1565-ci il fərmanı böyük əhəmiyyət kəsb edir.Vergi terminlərinin müxtəlifliyinə münasibətdə J.Obenin nəşr etdiyi həmin şahın iki soyurqal fərmanı diqqət cəlb edir. Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi hökmdarlarının 23 fərmanı Britaniya muzeyinin farsdilli sənədlər məcmuəsinə daxil olmuş və 1959-cu ildə kitabda müsəlman diplomatiyasının tədqiqinə dair müqəddimə yazılmış H.Busse tərəfindən nəşr edildi. 1965-ci ildə B.Martin XVI əsr Səfəvi hökmdarlarının bilavasitə Azərbaycanın cənub vilayətlərindəki (Təbriz,Ərdəbil və Xalxalda) bəxşiş torpaqlara aid yeddi fərmanını dərc etdirdi.

İndiyədək İranda bu sahədə ciddi bir iş görülməmişdir. Çap olunmuş nəşrlər, bir qədər olaraq, sosial-iqtisadi problemlərlə əlaqələndirilmiş və Səfəvilər dövrünün şəxsi və dövlət yazışmaları nümunələri kimi məhdud əhəmiyyətə malikdir. Bu mənada Əbdül Hüseyn Nəvainin dərc etdirdiyi I Şah İsmayıl və I Şah Təhmasib hakimiyyətinin sənəd və məktublarının iki məcmuəsi müəyyən əhəmiyyət kəsb edir[102].

Keçmiş sovet tarixçiləri Səfəvilər dövlətinin sosial-iqtisadi tarixi məsələlərinin tədqiq edilməsində müəyyən uğurlar qazanmışlar.Bu dövlətin, onun tərkibinə daxil olmuş ölkələrin və xalqların sosial-iqtisadi tarixinin bir çox mühüm məsələlərinin əsərlərində dərindən və hərtərəfli işıqlandıra bilmiş İ.P.Petruşevskinin həmin sahədə xidmətləri xüsusilə böyükdür. Onun Azərbaycanda son orta əsrlərdə feodal münasibətlərinə həsr olunmuş monoqrafiyasında Səfəvilər dövlətində feodal torpaq təsisatlarının (tiyul,soyurqal,mülk), hakim sinif və onun təşkilati quruluşunun dəqiq və mükəmməl xarakteristikası verilmişdir, kəndlilərin feodal istismarının mürəkkəb sistemi və sinfi mübarizə məsələləri tədqiq olunmuşdur[103].


downloaded from KitabYurdu.az

Səfəvilər dövründə torpaq mülkiyyəti məsələləri B.N. Zaxoderin və N.Filrozenin əsərlərində tədqiq edilmişdir[104]. XIII-XIV əsrlərdə Azərbaycanın həmhüdud ölkələrin tarixinə dair Ə.Ə.Əlizadənin İ.P.Petruşevskinin əsərləri də nəzərdən keçirilən dövrün ictimai münasibətlərinin və sosial-iqtisadi terminlərinin xarakterini başa düşmək üçün böyük əhəmiyyətə malikdir[105]. S.B.Aşurbəylinin A.P.Novoseltsevin, M.X.Heydərovun, K.K.Kutsiyanın və başqalarının əsərləri[106] XVI-XVII əsrlərdə Səfəvilər dövləti şəhərlərinin sosial inkişafi prosesini öyrənmək üçün əhəmiyyətlidir.

Xarici tarixşünaslıq Səfəvilər dövlətinin sosial-iqtisadi tarixinə indiyədək xüsusi maraq göstərmir.Bununla belə, Yaxın və Orta Şərqdə göstərilən dövrdə feodal münasibətləri probleminə bu və ya digər dərəcədə toxunulan əsələr mövcuddur. Onların arasında V.F.Minorskinin böyük və çox vaxt yeni faktik material əsasında yazılmış tədqiqatlarına öz əhəmiyyətinə görə birinci yeri vermək lazımdır[107]. Anna Lambtonun müasir İranda torpaq sahibliyi və renta haqqında yazılmış və Səfəvilər dövründə həmin məsələlərə həsr olnmuş kiçik bir fəsil olan əsəri də qeyd olunmalıdır[108]. İran alimi Tağı Bəhraminin əsərində bizi maraqlandıran dövr haqqında səthi danışılır[109].

XVI əsrdə Səfəvilər dövlətinin siyasi tarixi,daxili və xarici siyasəti,Avropa ölkələri və Rusiys ilə ticarət-iqtisadi əlaqələri bir sıra əsərlərdə işıqlandırılmışdır. Onların arasında ilk dəfə olaraq XVI-XVII əsr Azərbaycan tarixinin ilkin m\nbələrinə əsaslanan qiymətli oçerkini yaratmış İ.P.Petruşevskinin əsərləri xüsusi yer tutur.Onun İranda islamın tarixinə dair kitabı orta əsrlər Azərbaycanında şiəlik və onun ifrat təriqətlərinin ideologiyasının təsiri altında baş vermiş xalq müqavimət hərəkatlarını dərk etmək üçün böyük əhəmiyyətə malikdir[110].

N.D.Mikluxo-Maklayın Səfəvilər dövlətinin Şeybanilər dövləti ilə qarşılıqlı siyasi münasibətlərinin xarakterini və XVI əsrin əvvəlində şiəliyin sosial rolunu aşkarlayan əsərlərinin mühüm əhəmiyyəti vardır[111.] XVI əsr Səfəvilər dövlətinin sosial-iqtisadi tarixinin bir çox məsələləri kimi,onun siyasi tarixinin mənzərəsi də "Azərbaycan tarixi"nin birinci cildinin


downloaded from KitabYurdu.az

Ə.N.Quliyev tərəfindən yazılmış müvafiq bölməsində təsvir edilmişdir[112]. Səfəvilərin XVI əsrə qədərki tarixinin bəzi məsələləri, Səfəvi şeyxlərinin Ərdəbil hakimiyyəti dövrü C.İbrahimovun əsərlərində öz şərhini tapmışdır[113]. Göstərilən dövrdə Azərbaycanın və Səfəvilər dövlətinin xarici siyasətinin və daxili inkişaf tarixinin bir sıra məsələləri Ə.M.Şahmalıyevin, P.İ.Petrovun, Ə.Ə.Rəhmaninin, A.P.Novoseltsevin, Ə.H.Hüseynovun və B.Əhmədovun[114] əsərlərində işıqlandırılmışdır. Y.A.Paxomovun, Ə.Ə.Ələsgərzadənin, M.X.Nemətovanın, İ.Dilbacın, Ə.V.Rəhimovun və Ə.Ş.Rəcəblinin əsərlərində[115] mövzuya dair epiqrafik və numuzmatik materiallar vardır.

Xarici ölkələrdə də Səfəvilər dövlətinin siyasi tarixinə həsr edilmiş xeyli əsər nəşr olunmuşdur. Hind alimi Qulam Sərvərin I Şah İsmayıl haqqında çox da böyük olmayan kitabımənbələrdən götürülmüş, lakin müəllif ümumiləşdirmələri olmayan faktik material toplusu kimi öz əhəmiyyətini saxlamaqdadır[116]. V.Hinsin və H.Römerin əsərləri XVI əsrin 70-ci illərinin sonu-80-ci illərinin əvvəllərində Səfəvilər dövlətinin vəziyyətinə həsr olunmuşdur[117]. V.F.Minorskinin tədqiqatlarında bu məsələlərə dair qiymətli material və ümumiləşdirmələr vardır[118]. Son illər çapdan çıxmış bəzi əsərlər diqqəti cəlb edir. Onların arasında daha çox maraq doğuranları - I İsmayılın daxili siyasətinin bəzi, az öyrənilmiş cəhətləri haqqında Jan Obenin tədqiqatı, R.Ş.Seyvorinin mühüm vəzifələr və dövlətinin banisinin istilaları haqqında məqalələri, həmçinin də XVI-XVIII əsrlərdə Səfəvilərin inzibati sistemi haqqında K.M.Röhrbornun əsəridir[119]. Faruk Sümerin və Bəkir Kütükoğlunun Səfəvilər dövlətinin yaranmasında Anadolu türklərinin roluna və XVI əsrin son rübündə Osmanlı və Səfəvilər dövlətlərinin qarşılıqlı münasibətlərinə həsr olunmuş əsərlərində xeyli dərəcədə yeni material vardır[120].

İran tarixşünaslığı (Ə.Kəsrəvinin və N.Fəlsəfinin bəzi əsərləri[121] istisna edilməklə) bu sahədə tədqiqatlarla təmsil olunmamışdır. Ə.Tacbəxşin, S.Rəhimzadənin, N.Şeybaninin son dövrdə nəşr edilmiş kitabları millətçilik mövqelərindən yazılmışdır və hekayə xarakteri daşıyır[122]. Bu əsərlərin mənbəşünaslıq və tarixşünaslıq zəmini məhduddur


downloaded from KitabYurdu.az

və buna görə də mövzunun öyrənilməsinə yenilik gətirmir.

Tehran universitetinin professoru Bəstini Pərizinin "Səfəvilər dövründə siyasət və iqtisadiyyat" kitabı əslində bu sahədə İran tarixşünaslığında XVI-XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin sosial-iqtisadi həyatının öyrənilməsinə ciddi maraq göstərilmiş[123] ilk tədqiqatdır.

Keçmiş sovet tarixçilərinin diqqətini cəlb etmiş məsələlərdən biri XVI əsrdə Səfəvilər dövlətinin etnik xarakteri məsələsidir.

Vətən tarixşünaslığında Səfəvilər sülaləsinin və onları müdafiə edən tayfaların türk (Azərbaycan) mənşəli olduğunu ilk dəfə olaraq göstərənlər rus şərqşünasları V.V.Bartold və A.Y.Krımski[124] olmuşlar.

Azərbaycan feodal əyanlarının Səfəvilər dövlətinin yaranmasında həlledici rol oynadığı faktı 1941-ci ildə Bakı tarixçilərinin hazırladığı Azərbaycan tarixinə dair ilk kollektiv əsərdə qeyd olunmuşdur[125]. 1946-cı ildə buna bənzər nəşrdə həmin baxış daha da inkişaf etdirilmişdir[126]. Qırxıncı illərin əvvəllərində Azərbaycan tarixçisi, akademik İ.A.Hüseynov I Şah İsmayılın dövlətini Azərbaycan dövləti kimi səciyyələndirmişdir[127]. Həmin səciyyələndirmə bu sətirlər müəllifinin əsərlərində elmi dəlillər və mənbəşünaslıq məlumatları ilə əsaslandırılmışdır.

İ.P.Petruşevski özünün ilkin mənbələrinə əsaslanan tədqiqatlarında Səfəvilər dövlətinin yaranmasında və onuntarixinin birinci yüzilliyində Azərbaycanın və Azərbaycan etnik feodal ünsürünün aparıcı,müəyyənedici sosial-iqtisadi və siyasi rol oynadığını təkzibolunmaz şəkildə sübut etmişdir.O göstərmişdir ki, Azərbaycan əyanları bu dövlətdə müstəsna hüquq və imtiyazlardan istifadə etmişlər.Sarayda yüksək vəzifələr,vilayət canişinlikləri,hərbi iş və s. Azərbaycan feodallarının əlində olduğu halda,dövlət işlərində fars feodallarının rolu maliyyə,dəftərxana və qismən də məhkəmə məsələləri ilə məhdudlaşırdı.

İran tarixşünaslığının millətçi,paniranist baxışlarını, habelə Qərbin mürtəce tarixçilərinin oxşar konsepsiyalarını tənqid edən N.D.Mikluxo-Maklay qeyd edirdi ki, Şeybanilər Səfəviləri bütün İranın hökmdarları kimi tanımırdılar. Onlar Səfəviləri Ağqoyunlular sülaləsinin xələfləri və varisləri hesab edərək onların yalnız Azərbaycan və Qərbi İran Üzərində


downloaded from KitabYurdu.az

hakimiyyətini tanıyırdılar. O yazırdı: ”Bütün deyilənlər belə bir nəticəyə gəlməyə imkan verir ki, XVI əsrdə yaranmış Səfəvilər dövləti XV əsr Qaraqoyunlu və Ağqoyunlu hakimiyyətlərinin xələfi kimi təşəkkül tapmışdır. Həm də real əsaslara istinad edirdi, yəni Səfəvilər dövləti İran dövləti deyildi və ona heç elə də baxılmırdı”[128].

B.N.Zaxoder Səfəvilər dövlətinin yaranmasında Azərbaycanın roluna dair yazırdı: ”Sosial-iqtisadi inkişafın nisbətən yüksək pilləsində duran Azərbaycan XVI əsrin əvvəlində Cənubi Qafqazda və İranda yaranan həmin böyük dövlətin özəyini təşkil edirdi. Bu dövlət çoxlu tayfa və xalqları öz tərkibinə daxil etmişdir. Lakin uzun müddət bu dövlətdə onun hərbi qüvvələrində ilk Səfəvilərin arxalandığı Azərbaycan feodalları üstünlük təşkil etmişdilər[129].

Hal-hazırda tarix elmində XVI əsr Səfəvilər dövlətinə Azərbaycan dövləti kimi baxmaq meyli tədricən özünə yol tapır[130].

Müasir İran tarixşünaslığının görkəmli nümayəndələri də aşkar faktlarla hesablaşmaq məcburiyyəti qarşısında qalaraq Səfəvilər dövlətində türkdilli (Azərbaycan) etnosun rəhbər rolunu,hakim mövqeyini təsdiq edirlər.Məsələn, I Şah Abbasa həsr olunmuş çoxcildli əsərin müəllifi Nəsrulla Fəlsəfi Şah İsmayıl və onun yaratdığı dövlət haqqında yazır: “Şah İsmayıl ata tərəfdən özünü seyid (yəni Məhəmməd Peyğəmbərin nəslindən olan – O.Ə.) Əli nəsli sayır və bu nəsil şəcərəsi ilə fəxr edirdi. Ana tərəfdən isə o, Türkman Həsən bəy Ağqoyunlunun (yəni Uzun Həsənin – O.Ə.) nəvəsi idi və haqlı olaraq özünü bu sülalənin qanuni varisi hesab edirdi... Dövrün bütün tarixlərindən məlum olduğu kimi, onun tərəfdarları da əsasən türkman və tatar tayfalarından olanlar idi. Hətta taxta çıxdıqdan sonra belə o,İran mənşəyinə və dilinə - millətin iki başlıca əsasına xor baxırdı. O, İranın yerli əhalisini tabe etmiş və onları mənşəcə türkman olan qızılbaş tayfalarının hakimiyyəti altına salmışdı. Fars dili Osmanlı imperiyasında və Hindistanda siyasət və ədəbiyyat dili olduğu bir dövrdə Şah İsmayıl türk dilini İran sarayının rəsmi dili etmişdi. Hətta o özü də yalnız türk dilində şeirlər yazırdı. Nəticədə türk dili Səfəvilər sarayında elə geniş yayıldı ki, bu sülalənin hakimiyyətinin sonunadək sarayın rəsmi dili olaraq qaldı. Buna


downloaded from KitabYurdu.az

görə də türk siyasi qurumlarını yıxan və vahid dövlət yaradan I Şah İsmayılın İranın milli və siyasi birliyini bərpa etməyi qarşısına məqsəd qoymaması şübhəsizdir"[131]. Başqa bir yerdən iqtibas gətirək: "Şah İsmayıl hər bir vilayəti tutduqdan sonra ələ keçirilmiş qənimətləri, əsirləri, və torpaqları Qızılbaş sərkərdələri arasında bölüşdürürdü. Beləliklə,mənşəyi və dili etibarilə türk olan tayfalar İranın hər yerində yerli farsdilli iranlılar üzərində ağalıq etməyə başladılar. İranda imtiyazlı və qüdrətli zümrə əmələ gəldi və bütün hərbi və mülki mövqeləri, vəzifələri ələ keçirərək İran xalqını tam ixtiyarla və əzəmətlə idarə etdi. Buna görə də Səfəvilər dövründə şahı İran şahənşahı adlandırdıqlarına baxmayaraq, İran ölkəsinə Qızılbaş dövləti (Məmləkət-i Qızılbaş) adını verdilər. İran sarayında türk dilində danışırdılar. Şah İsmayıl türk dilində şeirlər yazırdı. Qızılbaşlar özlərini türk mənşələrinə, əsil – nəcabət və ad –sanlarına görə İranın yerli əhalisindən yüksəkdə durur, onları (iranlıları –O.Ə.) həqarətlə tatlar və taciklər adlandırırdılar"[132].

Müasir türk tarix elminin ən böyük nümayəndələrindən biri olan Faruk Sümer də özünün sonuncu monoqrafiyasında Səfəvilər dövlətinə "İran milli dövləti" kimi baxmaq istəyənlərə qarşı çıxmışdır. O, düzgün olaraq göstərir ki, "ciddi alimlər" arasında bu cəfəng baxışın artıq tərəfdarları yoxdur. F.Sümerin əsərində Səfəvilər dövlətinin yaranmasında və yüksəlişində türkdilli etnosun həlledici və birinci dərəcəli rol oynadığını təsdiq edən çoxlu material toplanmışdır və sistemləşdirilmişdir.Fikrimizcə, onun əsərinin qiymətli cəhəti də elə bundadır.

Təəssüf ki, F.Sümerin əsəri Türkiyə taeixşünaslığına xas olan bəzi nöqsanlardan və bitərəflilikdən azad deyildir. Özünün əvvəlki əsərlərində də o, Azərbaycan tarixini Türkiyə tarixinin əlavəsi kimi təsvir eməyə, Kiçik Asiyanı – anadolunu "Ana Vətən" kimi, yəni Azərbaycan əhalisinin köçetmə və türkləşmə mənbəyi kimi təsdiq etməyəcəhd göstərmişdi. Bununla belə, yaxşı məlumdar ki, Azərbaycan, türkdilli əhalinin Orta Asiyadan Kiçik Asiyaya köçetmə hərəkatının yolu üzərində yerləşirdi və Türkiyənin özünə nisbətən daha əvvəl türkləşmişdi.

O, coğrafi əlaməti əsas götürərək Səfəvilər dövlətinin yaranmasında Anadolu türklərinin rolunu göylərə qaldırmağa, onların adına müstəsna


downloaded from KitabYurdu.az

xidmətlər yazmağa, "İran türklərinin" (yəni azərbaycanlıların) iştirakını isə azaltmağa səy göstərir.'"Türklərin etnolinqvistiq və digər fərqlərini nəzərə almayan müəllifin bu fikri felən doğru deyildir. F.Sümerin digər bir müddəası da ən ciddi etiraz doğurur ki, guya Səfəvilər dövləti bütün XVI əsr ərzində və sonralar yalnız Anadoludan gələn tayfalar, yəni türkiyə qızılbaşları hesabına mövcud olmuş və inkişaf etmişdir. Əsərin sonunda müəllifin çıxardığı nəticələrin bir çoxu əsaslandırılmır, mətnin materialına uyğun gəlmir. Biz F.Sümerlə mübahisəmizə aşağıda bir daha qayıdacağıq[133].

Səfəvilər dövlətini "konqlomerat imperiya" kimi şərh edən baxışlarla razılaşmaq çətindir. Keçmiş sovet tarix elmində bu anlayış bir qayda olaraq,natural təsərüffatın tam hökmranlığı, əmtəə - pul münasibətlərinin başlanğıc vəziyyəti, vilayətlərin güclü iqtisadi əlaqəsizliyi ilə xarakterizə olunan quldarlıq dövrünün və ilkin feodalizmin dövlət birləşmələrinə münasibətdə işlədilir. Buna görə də "konqlomerat imperiya" anlayışını inkişaf etmiş feodal münasibətləri dövlətlərinə, o cümlədən bu dövlətlərdən biri olan XVI – XVII əsrlər Səfəvilər dövlətinə aid etmək qanunauyğun sayıla bilməz.

Digər tərəfdən, qədim və ilk orta əsrlər dövlətlərinin (məsələn, Əhəmənilər, yaxud Sasanilər dövlətinin) keçmiş sovet tarix elmində "konqlomerat imperiya"lar kimi təfsir olunması onların İran (fars) padşahlıqları kimi səciyyələndirilməsinə heç də mane olmamışdır. Bu zaman "İran"anlayışına tam aydın bir məna verilir ki, öz tərkibinə əhalisi fars olmayan çoxlu ölkə və vilayətləri daxil etmiş bu imperiyalarda hakim mövqe, rəhbər rol fars etnik elementinin yuxarı təbəqələrinə məxsus olmuşdur. Bu mülahizələr baxımından Səfəvilər dövlətinin (imperiyasının) yaranmasında və tarixində Azərbaycan etnosunun həlledici rol oynadığını demiş olsaq, mübaliğəyə yol vermərik.


downloaded from KitabYurdu.az

II FƏSİL

## SƏFƏVİLƏR DÖVLƏTİNİN YARANMASI VƏ MÖHKƏMLƏNMƏSİ TARİXİNDƏN



downloaded from KitabYurdu.az

## Sülalənin etnik mənsubiyyəti məsələsinə dair

Qeyd etmək lazımdır ki, Səfəvilərin etnik mənşəyi xüsusi, ətraflı tədqiqat tələb edən yeni problem deyildir. Lakin xarici tarixşünaslığın bütün Səfəvilər sülaləsini farslaşdırmaq üçün inadlı və elmi məqsəddən uzaq olan cəhdləri ilə əlaqədar olaraq bu məsələ əhəmiyyət kəsb edir. Ədalət naminə demək lazımdır ki, Səfəvilərin etnik mənşəyi məsələsi indiyədək mübahisə mövzusu olmuşdur. Lakin V.V.Bartoldun sülalənin türk mənşəli olması barədə söylədiyi fikir daha mötəbərdir və mənbə məlumatları ilə təsdiq edilir. Alim bu sülalənin eponimi və banisi Şeyx Səfiəddin (1252-1334) və onun nəslindən bəhs edərkən göstərirdi ki,"bu Ərdəbil şeyxləri, şübhəsiz, fars deyil, türk mənşəlidirlər"[1]. İ.P.Petruşevski də eyni fikri söyləmişdir: "İlk Səfəvi şeyxləri Ərdəbildə yaşamışlar, onların doğma dili Azərbaycan dili olmuşdur"[2].

Bu məsələni aydınlaşdırmağın mürəkkəbliyi onunl ələqədardır ki, Səfəvilərin uzaq əcdadları barədə məlumatları özündə əks etdirən yeganə mənbə Təvəkkül ibn İsmayıl ibn Bəzzazın "Səfvət əs – səfa" ("Saflığın saflığı") adlı agioqrafik əsəridir. Dərviş Təvəkkülün əsəri möcüzələr haqqındadır,tipik sufi kitabıdır və XIV əsrin ikinci yarısında təetib olunmuşdur. Tədqiqatçıların belə bir fikri diqqətə layiqdir ki, çox az – az əlyazmalar "Səfvət əs – səfa" qədər dəyişikliyə məruz qalmışdır.

Əhməd Kəsrəvi Təbrizi bu əsərin müqatisəli tədqiqi ilə məşğul olmuş, xeyli əvvəl V.V.Bartold tərəfindən söylənmiş belə bir nəticəyə gəlmişdir ki, Səfəvilərin əcdadları heç də seyidlər (Məhəmməd peyğəmbərin) nəslindən olanlar deyillər və onların nəsil şəcərəsini sonralar Səfəvi tarixşünasları uydurmuş və İbn Bəzzazın əsərinin mətninə daxil etmişlər[3].

Əhməd Kəsrəvi Şeyx Səfinin ərəblərlə əlaqəsinin olmadığını sübut etdikdən sonra onu türk də hesab etmir və kürd mənşəli olduğunu söyləyir. Digər İran müəllifləri (məsələn, S.Rəhimzadə[4] və N.Şeybani[5]) Ə.Kəsrəvinin şübhəsinə və dəlillərin zəifliyinə məhəl qoymur, onun Səfəvilərin kürd


downloaded from KitabYurdu.az

mənşəli olduğu barədəki ehtimalını şəksiz həqiqət kimi qələmə verir və bununla da bütün Səfəvilər sülaləsini iranlılaşdırmağa səy göstərirlər.

İran tarixçisi M.Məşkur Şah İsmayıldan bəhs edərkən onu türk hökmdarı kimi deyil, xüsusi şərait ucbatından türkcə danışmağa türkcə şeirlər yazmağa "məcbur olan" iranlı kimi[6] qələmə verir. Bu müəllif İranda yaşayan azərbaycanlıların etnik mənşəyini belə izah edir: "İran türkləri türkman və ya tatar irqinin məhsuludur. Azərbaycan tatarları türkcə danışsalar da, felən iranlıdırlar; onlar saf iranlıların mənşəcə türkman, yaxud tatar irqi ilə qarışığını təşkil edirlər"[7]

Qeyd etmək lazımdır ki, İran müəllifləri Səfəvi sülaləsinin mənşəyi haqqında öz konsepsiyalari ilə istisnalıq təşkil etmirlər. Məsələn, türk müəllifi Zəki Vəlidi Toqan da Səfəvilərin mənşəyinə həsr olunmuş məqaləsində onların kürd mənşəli olduğunu əsaslandırmağa cəhd göstərir[8]. Ə.Kəsrəvinin əlavə və saxtalaşdırma hesab etdiyi "Səfvət əs – səfa"dan kürd qoşunlarının Azərbaycana gəlməsi haqqındakı rəvayətinə əsaslanan Toqan, bu yürüşü hicri 416 (1025)cı ildə Rəvvadilərin Azərbaycanı tutması ilə eyniləşdirir. Toqan belə ehtimal edir ki, Şeyx Səfinin əcdadları kimi,onun mənəvi hamisi olan Şeyx zahidin əcdadları da "Rəvvadilərin hərbi əməliyyatları zamanı Gilin və Ərdəbilə gəlmiş, Muğan və Arran vilayətlərində islamı yaymışlar"[9]. Lakin Toqanın sözlərinə görə, XVI əsrin əvvəlinə kimi "Ərdəbilin kürd şeyxinin" nəsli "tamamilə türkləşmişdir"[10]. Türk müəllifi öz mülahizələrini belə yekunlaşdırır: "Hökmdarlar (I Şah İsmayıl və I Şah Təhmasib) özlərinin kürd mənşəyini tarixdən silmək, kürd Firuzşahı peyğəmbərin nəslinə aid etmək və Şeyx Səfinin türk şiə şeyxi, türk poemalarının müəllifi olduğunu sübuta yetirmək üçün əllərindən gələni etmişlər"[11]. Toqan da bir çox başqaları kimi özlərinin kürd mənşəyini gizlətməyin Səfəvilərə nə üçün lazım olduğunu izah etməyi zəruri bilmir.

"Səfvət əs – səfa"da Şeyx Səfiəddinin etnik mənsubiyyətinə dair məlumatlar vardır. Səfəvilərin mənşəcə fars olduğunu sübut etmək arzusu ilə hərəkət edən müəlliflərin bu barədə "susması" tamamilə başa düşülə bilər. Çünki Şeyx Səfinin səyahətləri haqqındakı rəvayətlərdə onun dəfələrlə


downloaded from KitabYurdu.az

"türkün piri" (pir-i türk) [12] adlandırıldığını görməmək mümkün deyildir. Bu mənada Şeyx Səfinin fars torpağı olan Şirzada öz müridləri ilə görüşləri və söhbətlərindən bəhs edən hekayədə ona dəfələrlə türk kimi müraciət olunması çox səciyyəvidir:"Yüksək mənsəb sahibi olan və bütün Farsda cəsarəti ilə tanınn əmir Abdulla (Səfiyə müraciət edərək – O.Ə.) dedi: "Ey türk piri..."[13]. Mövlanə Əhməd və Mövlanə İbrahim Təbrizi Səravi qeyd edirdilər ki, (biz) Ərdəbilə gəldik. Şeyxin yanında (evində), qoy (Allah) onun ruhunu əziz tutsun,bizin üçün qara çörək və su gətirdilər. Qəflətən bir neçə türk daxil oldu. Onlar üçün ağ çörək və bal gətirdilər"[14]. Deməli, Şeyx Səfinin evində (hücrəsində) türklərə üstünlük verilirdi. Təvəkkül ibn Bəzzazın əsərində şeyxin "türk kəndində" (deh-i türk)[15] olmasından söz açılır ki,bu da Səfi dövründə Ərdəbil ərazisinin türk əhalisinə işarədir[16].

Şeyx Səfinin türklərə mənsub olunduğunu göstərən buna bənzər fikirlər "Səfvət əs-səfa"nın bütün nüsxələrində vardır. Səfəvilərin guya öz uzaq əcdadlarının etnik mənşəyini şüurlu surətdə saxtalaşdırmaq istədiklərini söyləmək üçün də hüç bir əsas yoxdur. Səfəvilər sülaləsinin əzəldən kürd, yaxud İran mənşəli olması haqqındakı ehtimal damötəbər mənbələrin məlumatlarına əsaslanmır. Həm də Şeyx Səfiəddinin türk etnosuna mənsub olması, çətin ki, şübhə doğura bilər.

## Ərdəbil feodallarının türkdilli tayfalarla əlaqələri tarixindən

Səfəvilərin Kiçik Asiyanın türk tayfaları ilə əlaqələri hələ XIII əsrin sonu-XIV əsrdə yaranmışdı. "Tarix-i Əmini"nin yaxşı məlumatlı müəllifi olmuş Fəzlullah Ruzbihan qeyd edirdi ki, Talış əmirləri onun (Səfiəddinin-O.Ə.) mənzilini özlərinin sığınacaqlarına çevirmişdilər və Rumun böyük adamları ona baş çəkirdilər"[17]. Bu əlaqələrə dair daha qəti işarələr Şeyx Xacə Əlinin (Sultan Əlinin) dövrünə aiddir. Kiçik Asiya yürüşündən sonra geri qayıdarkən Teymurun Ərdəbildən keçməsi barədə rəvayət də məlumdur. İstilaçı,şeyxin xahişi ilə Kiçik Asiyadan olan əsirləri azad etmiş və onları Səfəvi şeyxlərinə xidmət etmək üçün Ərdəbil ətrafında yerləşdirmişdi.



downloaded from KitabYurdu.az

Teymurun fərmanına əsasən Rum hökmdarlarına əmr edilirdi ki, özlərinin Ərdəbildə yaşayan mürşidinin görüşünə gəlmək istəyən Anadolu müridlərini sıxışdırmasınlar və bu işə maneçilik törətməsinlər. Şeyx bütün Kiçik Asiya tayfalarına öz nümayəndələrini (xəlifə və pirə) təyin etmişdi[19]. Həmin əsirlərin nəsilləri sonralar "rumlu sufiləri" ("sufiyan-i rumlu")[19] adlandırıldı.

XV əsrin birinci yarında – Şeyx cüneyd və Şeyx Heydər zamanında Səfəvilərin Kiçik Asiya və Şimali Suriya tayfaları ilə əlaqələri möhkəmlənmişdi.1449-cu uldə Cahanşah Qaraqoyunlu tərəfindən Ərdəbildən sıxışdırılıb çıxarılan Cüneyd Kiçik Asiyaya - Qaramana getmişdi[20]. O, Kilikiyada ikən türkdilli *varsaq* tayfası daxilində ciddi fəaliyyət göstərmişdi. Yerli hakim tərəfindən qovulan şeyx Suriyanın ən şimal hissəsinə - Misirin məmlük sultanının hakimiyyəti altında olan Mərəş, Antakya və Kilis bölgələrinə gəlib çıxmışdı. Cüneyd bu bölgədə adı çəkilən baçqa bir türkdilli, zülqədər tayfasının daxilində şiəlik təbliğatı apardı. 1456-cı ildən 1459-cu illədək Cüneyd, o vaxt hələ az tanınan Diyarbəkir hakimi Ağqoyunlu Uzun Həsənin yanında olmuşdu. Uzun Həsən öz düşməni Cahanşahla mübarizədə Səfəvi şeyxlərinin köməyini təmin etmək arzusu ilə öz bacısını Şeyx Cüneydə ərə verdi. Tarixçilərin göstərdiyi kimi, bu nigahın sorağı Kiçik Asiyanın və Suriyanın ən uzaq guşələrinə yayıldı və "əvvəlki şeyxlərin" xəlifələri Cüneydin görüşünə gəldilər[21].

Şeyx Heydəri (1460-1488) əvvəlcə Rum, Talış və Qaracadağ sakinləri müdafiə etdilər.1488-ci ilin yazında, Dağıstana sonuncu yürüşü zamanında isə onun qoşununda *şamlı* tayfası da var idi[22].

Ağqoyunlu Rüstəmin tərəfində Baysunqur[23] əleyhinə çıxış edən Şeyx Sultan Əlinin (Heydərin böyük oğlu) silahdaşları arasında türkdilli *qacar* (Qarapiri bəy Qacar), *şamlı* (Hüseyn bəy Lələ Şamlı) və *qaramanlı* (Rüstəm bəy Qaramanlı) tayfalarının adları çəkilir. Sonuncu iki nəfər sağ cinaha başçılıq edirdi. Sultan Əli həlak olmazdan (1494) əvvəl İsmayılı təriqət şeyxi vəzifəsinə təyin etdi və onu özünün ən yaxın silahdaşları ilə Ərdəbilə göndərdi.


downloaded from KitabYurdu.az

Sultan Əlinin həlak olmasından sonrakı hadisələr ədəbiyyatda kifayət qədər əks olunmadığı üçün, onların üzərində bir qədər ətraflı dayanaq.

## Heydərin oğlanlarının Ərdəbilə qaçması.
## Onların həyatının Gilan dövrü

Sultan Əlinin qızılbaşları Ərdəbil yaxınlığındakı Şəmasi adlı yerdə darmadağın edildikdən sonra sədaqətli sufilər Şeyx Heydərin oğlanları İsmayıl və İbrahimə Ərdəbildə gizlənməyə kömək etdilər. Onların ardınca Heydərin oğlanlarını hər vasitə ilə tutmaq və məhv etmək tapşırığını almış Eybə Sultanın dəstələri şəhərə daxil oldular. Eybə Sultanın dəstələri şahid təfsilatı ilə həmin hadisələri danışan anonim salnaməçinin dediyinə görə,"Ərdəbil əhalisinə münasibətdə zorakılığa və təzyiqə əl atdılar,qətl və qarətlərə başladılar". İsmayıl, anası Aləmşah bəyimin ilk vaxtlar onları gizlətdiyi Şeyx Səfiəddin məqbərəsini tərk edərək, Qazi Əhməd Kakuli adlı Səfəvi müridlərindən birinin evinə köçdü və üç gün ərzində orada qaldı. Sonra isə yeddi yaşlı oğlan Xancan[25] adlı qadının himayəsinə verildi. İsmayıl,Şeyx Cüneydin qızlarından biri olan və burada ona baş çəkən bibisi Paşa xatun (Məhəmmədi bəy Türkmanın arvadı) istisna olmaqla hamıdan gizlənərəkbir ay həmin qadının himayəssində qaldı[26]. Paşa xatun İsmayılı zülqədər tayfasından olan Übayi-cərrahə adlı qadının yanına gətirdi. Həmin qadının evi "rumluların məhəlləsində" ("məhəlleyi rumiyan"), Şeyx Xacə Əlinin azad edərək Ərdəbilə yerləşdirdiyi Teymurun türk əsirlərinin nəsilləri yaşayan məhəllədə idi. Eybə Sultan Rüstəmdən İsmayılı və onun qardaşını hər vasitə ilə tapmaq barədə təkidli göstərişlər alırdı. O, Ərdəbili "məhəllə-məhəllə,ev-ev" axtarırdı, lakin bunun nəticəsi olmurdu. Eybə Sultanın adamlarının onun məhəlləsində axtarışlara başladığından xəbər tutan Üba, İsmayılı ehtiyatla öz evindən çıxarır, və Ərdəbilin Cümə məscidinə gətirərək Allahvermiş ağanın dəfn edilmiş olduğu sərdabədə yerləşdirir. Üba hərdənbir Aləmşah bəyimin yanına gəlir və ona oğlu İsmayılın sağ-salamat olduğunu xəbər verirdi[27]. Lakin bir qədər keçdikdən sonra Üba İsmayılın olduğu yeri dəyişdirməyin zəruriliyini yenidən hiss etdi. Həmin məsciddə


downloaded from KitabYurdu.az

Eybə Sultanla döyüşdə yaralanmış qızılbaşlardan biri də gizlənmiş və həkim köməyi üçün Übaya müraciət etmişdi. Üba müridi İsmayılla görüşdürdü. Mürid İsmayıla xəbər verdi ki,"Şəmasi kəndindəki döyüşdən qaçmaqla canını qurtarmış 80 sufi Ərdəbilin ətrafındakı Baqrov dağında gizlənərək ona xidmət etmək üçün fürsət axtarır". Mürid, Übanın məsləhəti ilə Ərdəbili tərk etdi və sağ qalmış qızılbaşların arasında olan Rüstəm bəy Qaramanlıya İsmayıl barədə məlumat vermək üçün həmin dağa tərəf yola düşdü. Rüstəm bəy gecə yarısı öz adamları ilə gizlicə şəhərə gəldi. İsmayılı məsciddən götürüb adı çəkilən dağa yola düşdüvə oğlanı Kərkan kəndində xətib Fərruxzadın evində gizlətdi.Mənsur bəy Qıpçaği, Hüseyn bəy Lələ, Qırx Seyyidi Əli, Çulban bəy, Xadim bəy Xəlifə, Dədə bəy, Göy Əli bəy və digər sufilər özlərinin gənc rəhbərini təhlükədən harada daha yaxşı rorunmağın mümkünlüyü barədə məsləhətləşməyə başladılar. Qərara alındı ki, İsmayıl Məhəmməd bəy Türkmanla (İsmayılın bibisi Paşa xatunun əri) və onun qardaşı Əhməd bəylə çoxdan bəri yaxşı münasibətdə olan Rəşt hakimi Əmirə İshaqın evinə aparılsın[28]. Bu səfər zamanı İsmayılı Rüstəm bəy Qaqmanlı, Əhmədi bəy və onun qardaşı Məhəmmədi bəy Türkman 80 nəfərlik qızılbaş dəstəsi ilə müşayiət edirdilər. Onlar əvvəlcə Tulunav hakimi Əmirə Müzəffərin evinə gəldilər. Bundan xəbər tutan Eybə Sultan Əmirə Müzəffərə qasidlə məktub göndərərək Heydərin oğlanlarını təslim etməyi tələb etdi. Onlar Xalxal hakimi Cagir bəy Pornakdan da eyni məzmunlu məktub aldılar. Bu tələblərə əhəmiyyət verməyən Əmirə Müzəffər qardaşları Kəskərə göndərdi. Ondan bu barədə müvafiq tapşırıq almış yerli hakim Əmirə Səyavuş onları öz evində qəbul etdi. Dördüncü gün İsmayılın dəstəsi Rəştə doğru hərəkət etdi. İsmayılın tərəfdarları Rəşt hakiminin dəvətinə baxmayaraq,onu "Ağ məscid" deyilən yerdə yerləşdirməyi üstün tutdular. Rəştdə olduğu zaman İsmayıla daim məscidin qonşuluğunda yerləşən zərgərlik dükanının sahibi olan Əmirə Nəcm adında yerli sakin qulluq etmişdi[29].

Rəşti də təhlükəsiz hesab etməyən sadiq müridlər İsmayıla Lahicana, Gilanın Biyepiş vilayətinin hakimi Karkiya Mirzə Əlinin sarayına keçməkdə kömək etdilər[30]. Lahicanda İsmayılı və onu müşayiət edənləri mehribanlıqla


downloaded from KitabYurdu.az

qarşıladılar və Key Əfridun mədrəsəsi ilə üzbəüz binada yerləşdirdilər. Karkiya Mirzə Əli özünün hörmətli qonaqlarına hər cür diqqət göstərirdi. Tanınmış yerli alimlərdən biri-Şəmsəddin Lahici ərəb və fars dillərini öyrətmək, Quranı oxumaq üçün İsmayılın və onun qardaşının tərbiyəçisi təyin olundu[31].

Bununla belə Ağqoyunlu Rüstəm İsmayılla hesablaşmaq ümidini itirmirdi. İsmayıl Gilana qaçdıqdan az sonra Eybə Sultan Übanı həbs etməyə və ondan İsmayılın Ərdəbildə qaldığı yeri öyrənməyə nail oldu.Üba Rüstəmin əmri ilə Təbrizin bazar meydanında edam edildi. İsmayılın qaçırılmasının təşkilinə kömək etmiş Məhəmmədi bəyin və onun qardaşı Əhmədi bəyin əmlakı hökumət tərəfindən müsadirə olundu[32]. Rüstəm padşah İsmayılı qaytarmaq tələbi ilə Karkiya Mirzə Əliyə dəfələrlə hədələyici məktublar göndərir, lakin Lahican hakimi hər dəfə üzürlü bəhanələr gətirməklə onun tələblərini rədd etdi.

İsmayıl Lahicanda təqribən 6 il qaldı. Bu, həddi-büluğ yaşına çatmaq və yeni çıxışa hazırlaşmaq üçün zəruri idi. Bütün məsələləri həll edən qızılbaş əmirlərinin hasablamalarına görə, Ağqoyunlu şahzadələri arasındakı ara müharibələri və onların dövlətinin dağılması İsmayılın qalibiyyətli yürüşünü asanlaşdırmalı idi. Bura, İsmayılın yanına itaətkar olduqlarını bildirmək üçün, xüsusilə Rum, Qaracadağ və Əhərdən çoxlu tərəfdarlar gəlirdi[33].

## Ərzincana yürüş

1499-cu ilin avqustunda, Şeyx Heydərin 13 yaşlı oğlu İsmayıl Lahicandan Ərdəbilə yola düşəndə onu yeddi nəfərdən ibarət ən yaxın şəxslər müşayiət edirdi; Hüseyn bəy Lələ Şamlı, Əbdüləli bəy Dədə (Dədə bəy), Xadim bəy Xüləfa, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy Ayğut oğlu Xunuslu və Qarapiri bəy Qacar. Onlar Deyləmdən keçib Taroma gəldilər.Müasirin xəbər verdiyi kimi, dayanacaqlar zamanı İsmayılın dəstəsinə "Rum və Şam" taufalarından tərəfdarlar


downloaded from KitabYurdu.az

qoşulurdular.Artıq Taromda sayı 1500 nəfərə çatmış qızılbaş qüvvələrinə baxış keçirildi.

Nəticə etibarilə, İsmayıl Gilandan birbaşa Ərdəbilə gəlməyib, cənuba və cənub-qərbə doğru-Xalxal tərəfə dolama yolla kiçik bir dövrə vurdu. İsmayılın anonim tarixçisi xəbər verir ki,yerli hakim Əmir Hüsaməddindən ehtiyat edən İsmayıl Taromu tərk etdi və xalxala doğru irəlilədi. Birinci dayanacaq Bərəndik kəndində oldu. Sonrakı gün o, "Şam-i Qızılüzən" adı ilə tanınan və şamlı tayfasına mənsub olan şumluq torpaqlarda dayandı[34].

Həm də şamlı tayfasının Xalxal rayonunda Qızılüzən çayının sahillərində cəmləşdiyi qeyd edilir. Deməli, göstərilən dolama yolu gedib dövrə vurmaq burada yaşayan şamlı tayfasını qızılbaşların bayrağı altına toplamaq məqsədi ilə edilmişdi.

Göstərilən məlumatlaradn belə nəticəyə gəlmək olar ki, rumlu və şamlı etnonimləri ilə tanınan türkdilli tayfalar Azərbaycanda XVI əsrdən xeyli əvvəl yaşamışlar.

İsmayıl və onun dəstələri hicri 905 (1499-1500)-ci ilin qışını Xəzər dənii yaxınlığında, Astara ərazisindəki Ərcüvan adlı yerdə keçirmişdilər[35]. Onlar burada Azərbaycanın cənub hissəsindən olan Səfəvi tərəfdarlarına qoşunla birləşdirmək üçün vaxt qazandırmaq məqsədilə dayanmışdılar. Qızılbaş rəhbərlərinin müşavirəsində Kiçik Asiyaya-Ərzincana hərəkət etmək qərarı verildi. Qızılbaş rəhbərləri belə hesab edirdilər ki, İsmayıl orada Kiçik Asiya və Suriyada olan tərəfdarlarına yaxın olacaqdır. Onlar İsmayılın yürüşündən xəbər tutub onun bayrağı altına toplanacaqlar[36].

1500-cü ilin yazında İsmayıl Ərcüvandan Araz çayının şimalındakı dağlıq rayona, Göyçə gölünün cənub sahillərinə doğru hərəkət etdi.İbrahim Əmininin verdiyi məlumata görə, bu vilayərdə İsmayılın qoşunu tərkibində ərəşli və zülqədərli tayfaları çıxış edirdilər[37].

Deməli, İsmayıl Azərbaycan hüdudlarını tərk edərək Kiçik Asiyaya daxil olmazdan əvvəl onun qoşunu tərkibində şamlı, rumlu, ərəşli, zülqədər tayfalarının, həmçinin də Qaradağ, Əhər və Talış sufilərinin adları


downloaded from KitabYurdu.az

çəkilir. Həmin vaxtda qoşunun sayı haqqında mənbələrdə, yürüşə başlarkən (taromda) 1500 rəqəmindən başqa digər məlumat yoxdur. Mənbələrdə göstərilir ki, Azərbaycandan keçən yollarda (Xalxal, Ərcüvan və başqa yerlər) İsmayıla çoxsaylı tərəfdarlar qoşulmuşdu. Belə düşünmək məntiqi olar ki, Anadoluya daxil olarkən İsmayılın qoşunu xeyli artmış və bir neçə min nəfərə çatmışdı.

Bəzi müəlliflər[38] belə fikirdədirlər ki, İsmayıl Səfəvinin qoşun hissələrinin əsas kütləsini Kiçik Asiyadan (Anadoludan) və Suriyadan olan qızılbaşlar təşkil etmiş və guya Azərbaycan sakinlərinin İsmayılın yürüşündə iştirakı çox cüzi olmuşdur. F.Sümerin təbirincə deyilsə,''Səfəvilər təriqətinin başı Azərbaycan şəhəri olan Ərdəbildə, bədəni isə Anadoluda yerləşmişdi''. İsmayılın Ərzincana hərəkət etməsi sayəsində, "baş bədənlə birləşdi''. Halbuki elə yuxarıda şərh etdiyimiz mənbə məlumatlarından çıxardığımız nəticələr bu fikri təkzib etmək üçün kifayətdir.

İsmayıl Çuxursədi keçdikdən sonra Doqquz Ulam adlı yerə gəldi.Burada Kiçik Asiya qızılbaşları dəstəsinə başçılıq edən Qaraca İlyas ona qoşuldu[39]. İsmayıl daha sonra öz dəstəsi ilə Kiçik Asiyaya doğru hərəkət etdi və "Arazın mənbəyindəki *ustaclı*[40] tayfasının yaşadığı Mingöl yaylağına gəldi.O, Tərcan ərazisindəki Kağızmandan və Sarıqaya yaylağınndan keçərək son məqsədə-Ərzincana çatdı. Mənbələrin məlumatına görə,burada yayın sonu və payızın əvvəlində (hicri 906-cı ilin əvvəli) İsmayılın bayraqları altında türkdilli *şamlı, ustaclı, rumlu, təkəli*, *zülqədər, əfşar, qacar, varsağ* tayfalarından, həmçinin "Qaradağ sufilərindən'' ibarət 7000 qazi toplanmışdı[41].

Mənbələrin verdiyi məlumatlara görə, Ərzincanda, qızılbaş ağsaqqallarının müşavirəsində hərbi yürüşün istiqaməti məsələsi müzakirə olunmuşdu. Bəziləri qüvvələrin kifayət qədər olmamasını əsalandırıb, qarşıdan gələn qışı Ərzincanda keçirmyi və əlavə qüvvələr gəlməsini gözləməyi, yaz gəldikdə (1501-ci il) isə Azərbaycana,Əlvəndə qarşı yürüşə başlamağı,digərləri qarşıdan gələn qışda Gürcüstanda cihad həyata keçirməyi, üçüncülər isə, Çuxursəd ərazisinə yola düşməyi və orada qışlamağı təklif edirdilər. Lakin bu təkliflərdən heç biri qəbul olunmadı.


downloaded from KitabYurdu.az

Qərara alındı ki, təxirə salmadan mövcud qüvvələrlə başlıca zərbə Səfəvilərin qəddar düşməni olan şirvanşah Fərrux Yəsara qarşı yönəldilsin[42].

## Şirvanşah Fərrux Yəsarla vuruşma

1500-cü ilin sonunda, Gülüstan qalası yaxınlığında,Cəbani adlı yerdə İsmayılla Şirvanşah arasında döyüş başlandı. Qızılbaş qoşununun sağ cinahında şamlı,solunda isə ustaclı tayfalarının üzvləri durmuşdular.İsmayıl özü isə mərkəzdə mövqe tutmuşdu: təkəli, rumlu və zülqədər tayfaları gözətçi dəstələri (çərxçiyan) təyin edilmişdilər. Döyüşdə iştirak etmiş qızılbaş başçıları sırasında tayfa əlamətləri göstərilməklə aşağıdakı dövlət sütunlarının adları çəkilir: Abidin bəy Tavaçı Şamlı, Hüseyn bəy Lələ Şamlı, Məhəmməd bəy Ustaclı, Əhməd bəy Sufi oğlu Ustaclı, Bayram bəy Qaramanlı, Qılınc bəy Qaramanlı, Qaraca İlyas Bayburtlu,(Çuş Mirzə), İlyas bəy Xunuslu, Sultanşah bəy Əfşar, Dana bəy Əfşar, Xəlil bəy Möhddar, Hüseyn bəy Süfrəçi Əfşar, Piri bəy Pərvanəçi Əfşar, Lələ Məhəmməd Təkəli, Bəkir bəy Cagirli, Piri bəy Qacar, Salman bəy Həzin Zülqədərli[43].

Döyüşün əvvəlində İsmayılın özünün olduğu mərkəz istisna olmaqla qızılbaşların döyüş nizamı hər iki cinahda pozuldu.Şirvanlılar sanki üstünlük əldə etmişdilər. Lakin onların piyada qoşununun hücumunu Səfəvi süvarisi qarşıladı.Salnaməçilər xəbər verirlər ki, hələ 14 yaşı tamam olmamış İsmayıl ön sıralarda vuruşur, şəxsi nümunəsi ilə öz tərəfdarlarının döyüş ruhunu artırırdı. Şirvan qoşunu məğlub olub qaçmağa üz qoydu. Tək qalan şirvanşah Fərrux Yəsar atını Buğurt qalası istiqamətində çapmağa baçladı. Onun şirvanşah olduğunu bilməyən bir dəstə qızılbaş,atlını təqib edərək Gülüstan qalasından bir qədər aralıda ona çatdılar. Fərrux Yəsar anonim tarixçinin Hüseyn bəy Lələnin “cilovdarı” adlandırdığı Şahgəldi ağa adlı qızılbaş tərəfindən vurulub atdan salındı. O, şirvanşahın başını kəsərək İsmayıla gətirdi. Fərrux Yəsarın meyiti onun atını tanımış əsir şirvanlılar


downloaded from KitabYurdu.az

tərəfindən tanındı. Ölənlərin başlarından "minarələr ucaldıldı", ələ keçirilmiş qənimət qızılbaşlar arasında bölüşsürüldü. İsmayıl üç gün döyüş meydanında qaldı,sonra isə Şamaxıya qayıtdı və şəhər əyanları tərəfindən ehtiramla qarşılandı[44]. Fərrux Yəsarın oğlanlarından biri-təsvir olunan döyüşdən salamat çıxmış İbrahim (Şeyxşah) Xəzər sahilindəki Şəhrinov şəhərinə[45] gələrək atasının qoşunundan sağ qalanlarını toplamağa başladı. Lakin Xadim bəy Xüləfanın (Xüləfa bəy) yürüşündən xəbər tutara, gəmilərə oturub Gilana üzdü. Şeyxşahın ardınca gəlmiş İsmayıl bir neçə gündən sonra Şəhrinovu tərk edib hicri 906 (1500-1501)-cı ilin qışını keçirmək məqsədilə Muğandakı Mahmudabada yola düşdü[46]. Salnaməçilərin xəbər verdiyi kimi, burada İsmayıla bildirdilər ki, Bakı əhalisi Səfəvilərin nümayəndələrinə itaət etməkdən və "xərac verməkdən" imtina edir. Belə olduqd İsmayıl, Məhəmməd bəy Ustaclını və İlyas bəy Xunuslunu Bakını tutmaq üçün göndərdi.

## İsmayılın Bakını mühasirəyə alması və tutması

XV əsrdə Bakı Azərbaycanın iri ticarət-sənətkarlıq mərkəzi və Xəzər dənizindəki ən mühüm limanı idi. Şamaxı ilə yanaşı Bakı da Şirvan hökmdarlarının iqamətgahı sayılırdı. Böyük sərvətləri ilə məşhur olan Şirvanşahlar sarayı burada yerləşirdi, qızılbaş rəhbərlərinin planlarında bu sərvətlərə sahib olmağa səy göstərilməsi əhəmiyyətli yer tuturdu.

Bakı möhkəm qala idi və onu tutmaq çox da asan iş deyildi. Salnaməçilər xəbər verirlər ki,qızılbaş sərkərdələri onlara Makedoniyalı İsgəndərin səddi kimi görünən Bakı qalasının əzəmətli mənzərəsinə, onun yüksək divarlarına və qüllələrinə valeh olmuşdular[47]. Anonim tarixçinin məlumatına görə,qala üç tərəfdən Xəzər dənizinin suları ilə əhatə olunmuşdu,qurudan isə qala divarları boyunca "həqiqətən də dənizə bənzəyən"[48] geniş və dərin xəndək uzanırdı. Bu,onu göstərir ki,xarica təhlükə zamanı Bakının qala xəndəkləri su ilə doldurulurdu. İbrahim Əmini yazır ki, qala xarici aləmlə dörd qapı ilə əlaqə saxlayırdı ki, onlardan üçü də


downloaded from KitabYurdu.az

dənizə və yalnız biri quruya çıxırdı.

Bakı sakinləri IX əsrdən Şirvanşahların təbəələri idilər və hakimiyyətləri dövründə şəhərin müəyyən iqtisadi inkişaf səviyyəsinə nail olduğu Dərbəndilər sülaləsinə xüsusilə sadiq idilər. Müasirləri bakılıları igid və qorxmaz,mahir döyüşçülər kimi səciyyələndirirdilər[49]. Mühasirəyə alınanlar qala istehkamlarının keçilməzliyinə,çoxlu silah ehtiyatına, döyüş sursatı və ərzaq bolloğuna da xüsusi ümid bəsləyirdilər. Onlar qala divarlarına yaxınlaşan qızılbaşların üzərinə minlərlə oxlardan, həmçinin tüfənglərdən ölüm yağışı yağdırırdılar.

Qalanı ələ keçirmək üçün sərkərdələrinin göstərdiyi cəhdlərin müvəffəqiyyətsizliyini görən İsmayıl 1501-ci il yazın əvvəlində özünün başlıca qüvvələri ilə Mahmudabaddan Bakıya hərəkət etdi[50]. Anonim tarixçi göstərir ki, əmirlərin müşayiəti ilə şəhərə yaxınlaşan İsmayıl qala divarlarını, qüllələri,qapıları və xəndəyi bir-bir gəzib nəzərdən keçirdi. Qalaya hücumun çətinliklərlə bağlı olacağını və itkilərlə nəticələnə biləcəyini başa düşən Səfəvilər bakılıları dilə tutub şəhəri təslim etməyə razı salmağı qərara aldılar. Qalanın müdafiəsinə, təəssüf ki, mənbələrin adını bizim üçün saxlamadığı Fərrux Yəsarın oğlu olan Qazı bəyin arvadı başçılıq edirdi[51]. Digər mənbələrdən fərqli olaraq anonim tarixçi Qazı bəyin arvadının nadir təsvirini verir. O (Qazı bəyin arvadı) " həmin ölkənin idarə olunması işlərində tam iqtidara və səlahiyyətə malikdir, Qazı bəy isə hakimiyyətə malik deyildi və arvadının qorxusundan heç bir işə qarışmırdı"[52].

Anonim tarixçi məlumat verir ki, İsmayıl öz səfirini "Qazı bəyin və onun arvadının" hüzuruna göndərmişdi[53]. Qızılbaş səfirinin təslim olmaq haqqında tələbinə cavab olaraq Qazı bəyin arvadı onun edam olunmasını əmr etdi. Belə olanda Bakı darğası Əbülfəth bəy[54] onu İsmayılın qəzəbi ilə qorxudaraq bu addımı atmaqdan çəkindirməyə cəgd göstərmişdi. Lakin hökmlü və qətiyyətli qadın darğanın da edam olunmasını əmr etmişdi.

Mühasirəyə alınanların inadlı müqaviməti qızılbaş əmirlərini qalanı hücumla almaq üçün hazırlıq görməyə məcbur etdi. İbrahim Əmini qeyd edir ki, İsmayıl döyüşçüləərin bir hissəsinə özlərinə torpaq təpələri (murçal)[55] düzəltməyi və onlardan mühasirədə olanlara atəş açmaöı əmr etdi. Digər


downloaded from KitabYurdu.az

qrup isə qoşunların qala xəndəklərindən asanlıqla keçə bilməsi üçün onları torpaq və daşla doldurmaq barədə göstəriş aldı. "İstehkamçılar" (nəqəbçiyan) qala bürcünün altından lağım atdılar və onun özülündən böyük bir daşı vurub parçalayanda bürc uçdu, divarda iri yarıq əmələ gəldi. Hətta bundan sonra da bakılılar silahı yerə qoymadılar; onlar divardakı yarığı keçə çadırla (yaxud xalça ilə) tutdular və daha üç gün davam gətirdilər[56].Nəhayət, qızılbaşlar qalaya daxil ola bildilər. Həsən bəy Rumlunun yazdığına görə,şəhərliləri hamılıqla məhv olmaqdan qorumaq arzusu ilə,sayı 70 nəfər olan Bakı əyanları əllərində Quran İsmayılın ayağına gələrək ondan şəhərə aman verməsini xahiş etdi. Anonim tarixçinin məlumatına görə, İsmayıl qətl və qarətlərə son qoyulmasını əmr etmişdi ki, bu da qızılbaşlar şəhərə girdikdən sonra da mübarizənin davam etdiyini göstərirdi. Şəhər başçıları (kələntərlər, qazılar və şeyxlər) Bakının qapılarını Səfəvilərin üzünə taybatay aşdılar. İsmayılın əmrinə əsasən, Xadim bəy Xüləfa şəhər hakimiyyəti nümayəndələrinin müşayiəti ilə qalaya daxil oldu və "həyatlarının bağışlanması" müqabilində sakinlərdən "peşkəş" və "savəri" yığdı[57]. O,həmçinin Şirvanşahların qızıl,qiymətli daş-qaş, nağd pul, ləvazimat və digər sərvətlərlə çox zəngin xəzinəsini də apardı. Bunların çox hissəsi qızılbaşlar arasında bölüşdürüldü[58]. Bundan əlavə, Xadim bəyin əmri ilə Şeyx Cüneydin həlak olmasının səbəbkarı,Fərrux Yəsarın atası şirvanşah Xəlilin (I Xəlilullah) meyiti (sümükləri) qəbirdən çıxarıldı və yandırıldı. Onun sərdabəsinin qülləsi altında çoxlu qızıl (pul) aşkara çıxarıldı[59]. Anonim müəllif xəbər verir ki, Şirvanşahların mavzoleyi də dağıdılıb yerlə yeksan edilmişdi[60]. İsmayılın Cəbani yaxınlığında darmadağın etdiyi Şirvan qoşunun bir hissəsi Gülüstan, Buğurt və Surxab qalalarında müqavimət göstərməkdə davam edirdi. Buna görə də İsmayıl Bakını tutduqdan sonra Gülüstan qalasına doğru hərəkət etdi. Mühasirəyə alınanlar ərzaq ehtiyatına və qala divarlarının möhkəmliyinə bel bağlayaraq müvəffəqiyyətlə müdafiə olunurdular. Qızılbaşlar mühasirəni aradan qaldırmağa məcbur oldular. Buna bənzər hallarda İsmayıl öz qərarını guya yuxusunda ona əyan olmuş, yuxarıdan gələn hökm kimi izah edirdi. Həqiqətdə isə İsmayıl, Əlvənd Ağqoyunlunun böyük qüvvələrlə Təbrizdən hərəkətə başlaması barədə


downloaded from KitabYurdu.az

qorxulu xəbərlər almışdı. Anonim tarixçi xəbər verir ki, İsmayıl "dövlətin sütunlarını"- Hüseyn bəy Ləlәni, Məhəmməd bəy Ustaclını, Əbdi bəy Şamlını, Xadim bəy Xüləfanı, Qrapiri bəy Qacarı yanına çağıdı və onlardan soruşdu: "Siz Azərbaycan səltənətinimi (taxtgah), yoxsa Gülüstan qalasınımı istəyirsiniz?" Onlar cavab verdilər: "Azərbaycanı". Sonralar Ə.Ə.Rəhmani Həsən bəy Rumlunun, həmçinin də İsgəndər Münşinin götürdükləri bu xəbərə əsaslanaraq belə bir nəticəyə gəlmişdir ki, İsmayıl və qızılbaş əyanları Azərbaycanda öz hakimiyyətlərini qurmağı, Təbriz taxtını "Ağqoyunlu kafirlərin" əlindən geri almağı başlıca vəzifə hesab edirdilər[61].

Beləliklə, qızılbaşlar Şirvan hüdudlarını tərk etdilər. Şirvanşahlar dövlətinə ağır zərbə vuruldu, lakin onun mövcudluöuna son qoyulmadı; biz Səfəvilərin və Şirvanşahların (sonuncular devrilənə qədər) qarşılıqlı münasibətlərindən aşağıda bəhs edəcəyik.

## Ağqoyunlu Əlvəndin məğlub edilməsi

Gülüstan mühasirədə olarkən Təbrizdən Musa xəlidənin göndərdiyi çapar gəlib xəbər gətirdi ki, Əlvənd böyük bir qoşunla paytaxtdan çıxmışdır. O, Şirvanşah qoşunlarının qalıqları ilə birləşmək və qızılbaşlarla vuruşmaq üçün Şirvana hərəkət edir[62]. İsmayıl Çuş Mirzəyə əmr etdi ki, Kür və Araz çaylarının qovuşduğu yerdə - Cavada getsin, bərə körpüsü quraraq əsas qüvvələrin təcili qaydada çayı keçməsini təmin etsin, Əlvənd çayın şimal sahilinə keçməyə cəhd göstərməzdən əvvəl onun üzərinə hücuma başlasın. Vəziyyəti öyrənmək üçün Qaracadağa göndərilmiş qızılbaş kəşfiyyatçısı Məhəmməd Xəlifənin yolladığı çapar xəbər gətirdi ki, Azərbaycan hakimi Əlvənd Mirzə 30 minlik qoşunla Naxçıvana gəlmiş, İsmayılın Kürü keçməsinə ol verməmək üçün Mahmud Qaracanı Gəncə və Qarabağa, Kərçiqay Məhəmmədi Ərdəbil bölgəsinə, Həsən bəy Şükür oğlunu isə Qaradağa göndərmişdi[63]. Halbuki İsmayıl Cavadda Kürü keçmiş və Qarapiri bəy Qacarın dəstəsini Naxçıvana geri çəkilmiş Həsən bəy Şükür


downloaded from KitabYurdu.az

oğluna qarşı eritmişdi. Kərçiqay Məhəmməd qızılbaşların Kürü keçdiyini bili Qrabağa yollandı və Mahmud Qaraca ilə birləşdi. Onlar birlikdə Əlvəndin yanına – Naxçıvana geri çəkildilər.

İsmayıl Qarpiri bəy Qacarı (ləqəbi "Toz qoparan" idi)[64] və İlyas bəy Halvaçı oğlunu irəlidə gedən qoşun hissəsinin başçıları təyin edərək Naxçıvana hərəkət etdi. İlyas bəy, Əlvəndin qızılbaşların qarşısını almaq üçün göndərdiyi Osman bəy Mosullunu məğlub etdi və onu əsir tutdu[65]. Əlvənd İsmayıla məktub göndərin Şirvana qayıtmağı və həmin vilayəti idarə etməklə kifayətlənməyi tələb etdi, lakin rədd cavabı aldı[66]. Belə olduqda Ağqoyunlu hökmdarı Naxçıvandan çıxıb şimal – qərbə doğru getdi və Şərur düzündə dayanaraq döyüşə hazırlaşmağa başladı. İsmayıl Arazın cənub sahili boyunca hərəkət edərək Naxçıvan bölgəsində çayı keçdi və düşməni qarşılamağa tələsdi. Elə buradaca, Şərur düzündə hicri 907-ci ilin əvvəlində (1501-ci ilin ortaları) İsmayılla Əlvənd arasında həlledici döyüş baş verdi.Salnaməçilərin məlumatına görə, Əlvəndin 30 minlik ordusu olduğu halda, qızılbaşların sayı 7 min nəfərdən çox deyildi[67].

İsmayıl mərkəzdə mövqe tutaraq Hüseyn bəy Lələ, Əbdüləli bəy Dədə, Xadim bəy Xüləfa, Məhəmməd bəy Ustaclı, Bayram bəy Qaramanlı, Əbdi bəy Şamlı, Qraca İlyas Bayburtlu, Qara Piri bəy qacar, İlyas bəy Halvaçı oğlu (əmirşikar), İlyas bəy Xunuslu, Sarı Əli bəy Təkəli (möhrdar), Əli bəy Rumlu (Div Sultan ləqəbi almışdı) kimi sərkərdələrini cinahlarda yerləşdirmişdi. Özünün sayca üstün olan qüvvələrinin döyüş bacarığına ımin olmayan Əlvənd öz döyüşçülərinin vuruş meydanından qaçmasına mane olmaq üçün dəvələri arxada düzməyi və onları bir – birinə zəncirləməyi əmr etmişdi. O, özü mərkəzdə mövqe tutaraq Lətif bəy, Sidi Qazi bəy, Musa bəy, Kərçiqay bəy, Qulabı bəy, Xəlil bəy və Qaraca Mahmad bəy kimi Ağqoyunlu əmirlərini cinahlara təyin etmişdi[68].

Bu döyüşdə İsmayıl, Kərçiqay bəti və bir çox rəqiblərini qılıncla öldürməklə sərkərdəlik məharəti və şəxsi hünər göstərirdi. Qızılbaşların ardıcıl ümumi hücumu zamanı Lətif bəy, Sidi Qazi bəy, Musa bəy, Qraca Mahmud bəy öldürüldü. Öz sərkərdələrinin başlarını qızılbaş qazilərini nizələrində görən Ağqoyunlu qoşunları vahimə içərisində qaçmağa


downloaded from KitabYurdu.az

başladılar. Əlvənd döyüş meydanından Ərzincana qaçmaqla güclə canını qurtardı. Qızılbaşlar zəngin qənimət ələ keçirdilər (atlar, dəvələr, qatırlar, qiymətli mallar, qızıl və gümüş əşyalar və s.)[69]. Elə həmin – 1501-ci ilin payızında, Şərur qələbəsindən dərhal sonra İsmayıl tənyənə ilə Təbrizə daxil oldu və şahlıq taxt-tacına yiyələndi[70].

## Ağqoyunlu Muradın məğlubiyyəti. Azərbaycan Səfəvilər dövlətinin genişlənməsi

1503-cü ilin yazında I Şah İsmayıl Qənbər ağa adlı müridini məktubla Muradın yanına göndəri, ondan itaət etməsini tələb etdi.

Səfəvilərlə Ağqoyunluların qohumluq əlaqələrini xatırladan qızılbaş rəhbəri onun hakimiyyətini tanıdığı təqdirdə İraqi Əcəmin bir hissəsini Murada təklif edirdi. Ağqoyunlu Muradın cavabı mənfi oldu[71]. Belə olduqda İsmayıl 12 min nəfərlik qoşunla Təbrizdən çıxaraq, Qızılüzən çayını keçdi və cənuba – Həmədana doğru hərəkət etdi. Murad 70 min nəfərlik böyük qoşun topladı[72].

İsmayılın Muradla döyüşü 1503-cü il iyunun 21-də (hicri 908-ci il zilhiccə ayının 24-də), Həmədan yaxınlığındakı Alma Qulağı adlı yerdə baş verdi Xüləfa bəy və Mənsur bəy Qıpçaği irəlidə hərəkət etmək üçün başçı təyin edildilər. Qarapiri bəy Qacar isə 1500 süvari ilə ehtiyatda saxlanıldı. Qalan qızılbaş əmirləri – Dədə bəy Talış (Əbdüləli bəy Dədə də odur), Hüseyn bəy Lələ, Məhəmməd bəy Ustaclı, Bayram bəy Qaramanlı, Əbdi bəy Şamlı, Yeqan bəy Təkəli, Sarı Əli (möhrdar) cinahlarda, İsmayıl özü isə mərkəzdə mövqe tutdular. Qarşı tərəfdə Sultan Murad Əli bəy Türkmanı sağ, Murad bəyi isə sol cinaha təyin etdi. Qum hakimi İslamış bəy düşmənin irəlidə gedən dəstəsinə başçılıq edirdi. O, başlanan döyüşdə qızılbaş ön dəstəsinin hücumunu müvəffəqiyyətlə dəf edərək, onu mərkəzə doğru geri çəkilməyə məcbur etdi. Lakin bu vaxt Qara Piri bəy qacar ona hücum etdi. İslamış bəy ələ keçirildi, onun dəstəsi isə tamamilə məhv edildi.


downloaded from KitabYurdu.az

Şah İsmayıl döyüşə girərək, şəxsən çoxlu düşmən öldürdü. Ağqoyunlu qoşunu darmadağın olundu. Əli bəy Türkman 10 min nəfərlik dəstəsi ilə məhv edildi. Gözəl Əhməd Bayandur (Eybə Sultanın qardaşı), həmçinin də İslamış bəy və başqaları əsir düşdülər,qətlə yetirildilər. Muradın özü qaça bildi[73].

Əgər Əlvənd üzərində qələbə İsmayılı Azərbaycanın sahibi etmişdisə, Muradın qoşunlarının darmadağın edilməsi Farsın və İraqi – Əcəmin böyük hissəsini qızılbaşların əlinə keçməsinə gətirib çıxardı.

Muradı təqib edən İsmayıl İranın içərilərinə doğru irəlilədi. Qızılbaşlar müqavimət gösrərməyən Şiraz şəhərini tutdular[74]. 1503-cü ildə İsmayıl İsfahan, Kaşan və Qum şəhərlərini də ələ keçirdi. 1504-cü ildə Gülxəndan, Firuzguh, Usta qalaları və Yəzd şəhəri ələ keçirildi[75]. 1508-ci ildə bütün İran (Xorasan istisna olmaqla) İraqi – Ərəb də İsmayıl tərəfindən tutulmuşdu. 1510-cu ildə Şah İsmayıl Mərv yaxınlığındakı döyüşdə özbək hökmdarı Məhəmməd Şeybani xanı məğlub etməsi nəticəsində Xorasan vilayəti və Ceyhun çayına qədər uzanan torpaqlar qızılbaşların tabeçiliyi altına keçdi.

## Qızılbaş hərəkatının ideologiyasına dair

1499-cu ildə İsmayılın rəhbərliyi altında başlanan şiə-qızılbaş hərəkatı Səfəvilərin əvvəlki çıxışlarıbnından (Cüneyd, Heydər, Sultan Əli) əhəmiyyətli dərəcədə fərqlənirdi. İ.P.Petruşevski yazırdı: ”Əgər Şeyx Heydər yalnız Azərbaycanı birləşdirməyi qarşısına məqsəd qoymuşdusa, İsmayılın müridlərinin və tərəfdarlarının məhz qonşu ölkələrdə fəal çıxışları onun qarşısında daha geniş vəzifələr qoydu. O, Azərbaycanı birləşdirdi (1502-ci il) və öz hüdudlarına bir sıra ölkələri də daxil edə biləcək böyük şiə dövləti yaratmağa səy göstərən məsləkdaşlarının arzularını da yerinə


downloaded from KitabYurdu.az

yetirməyə məcbur oldu"[77].

İsmayılın hərəkatı, Ağqoyunlu dövləti ərazisində xalqın narazılığının artmasından və hakim təbəqə daxilindəki nifaqın kəskinləşməsindən doğmuş tam dağılma dövründə başlanmışdı. Bu hərəkat əvvəlki çıxışlardan daha geniş ictimai zəminə malik olması ilə səciyyələnirdi. Bu hərəkatda qızılbaş tayfalarından başqa, yerli (oturaq) feodallar, tacirlər də fəal iştirak edirdilər. Hərəkatın xalq – kəndlilər və sıravi köçərilər tərəfindən dəstəklənməsi onun müvəffəqiyyətini təmin edən həlledici amil oldu. Sonuncular öz ümidlərini şiəlik hərəkatları ilə bağlamağa adət etmişdilər. Hekayə üslubunda olan mənbələr qızılbaş hərəkatının ideologiyası, yəni onun iştirakçılarının ictimai və siyasi məramı haqqında mühakimə yürütməyə imkan vermir. Bu cəhətdən Şah İsmayıl Xətayinin öz divanı (şeirlər külliyatı) böyük əhəmiyyət kəsb edir. V.F.Minorski yazırdı: "Yalnız "Divan", ilk Səfəvilərin sirli bidətinə açar ola bilər. Bu dinamik, zahirən mistik və dini ideyalar bilavasitə fəaliyyətdə asanlıqla öz ifadəsini tapır. Onlar hərəkatın zərbə qüvvəsini təşkil edən həmin ünsürlərin siyasi xəttini təmsil edirlər"[78]. Xətayinin "Divan"ında öz əksini tapmış qızılbaş nəzəriyyəsinə görə, Xəlifə Əli imamdır və kim bunu qəbul etmirsə, o kafirdir. Məhəmməd peyğəmbərdirsə, Əli "Allah həqiqətinin təzahürüdür" ("məzhər-i həqq"dir). İsmayıl özünün Əli və Fatimədən başlanan "mənşəyi" ilə fəxr edir. O, Əlidə ilahi mahiyyətin başqa şəklə düşdüyünə inanır. Əvvəlcə o (İsmayıl), Əli ilə bir olmuş, indi isə yenidən zühur etmişdir. Peyğəmbərin və imamın keyfiyyətləri onun simasında təcəssüm etmişdir. İnsan Allahın təcəssümü ola bilər. İsmayıl – insan qiyafəsində olan Allahdır (adam donuna girmiş xuda). O, bu dünyaya "Allahın nuru" (nuri xuda), "peyğəmbərlərin möhürü" (ənbiya xətmi), "kamil rəhbər" (mürşid- kamil),"aparıcı imam" (imam-rahnema), mütləq həqiqət - Allah (həqq-i mütləq) kimi gəlmişdir. O, ğzünün "qazi", "sufi", "əxi" adlandırdığı tərəfdarlarından təkidlə pərəstiş, təzim, kor – koranə itaət (səcdə,socud) tələb edirdi.

Əlinin və onun nəslindən olanların ilahiləşdirilməsi, Allahın əlamətlərinin insanda görünməsi, Allahın dönə-dönə təcəssüm etdirilməsi


downloaded from KitabYurdu.az

ifrat şiə tiriqətləri üçün xasdir. Onlar istər sünnilərdə, istərsə də mötədil şiələrdə islama bidət və yad sayılır[80]. V.A.Qordlevski "əhl-i həqq" ("həqiqət əhli") təriqətinin təlimini nəzərdən keçirərkən belə bir maraqlı nəticəyə gəlir ki, "mücərrəd fəlsəfi ideyakar yalnız xalq içərisində Əlinin ilahiləşdirilməsi formasında öz ifadəsini tapa bilər"[81] Məlum olduğu kimi, XX əsrə qədər Kiçik Asiyada ifrat şiə "Əli ilahi" ("Əlini ilahiləşdirənlər"), yaxud "əhl-i həqq" ("həqiqət əhli") təriqətinin tərəfdarlarını qızılbaşlar adlandırırdılar.

Deyilənlərdən aydın olur ki, qızılbaş hərəkatının yuxarı təbəqələrinin şiəliyi ifrat şiələrin (xalq kütlələri ideoloqlarının) güclü təsirinə məruz qalmışdı. Bu, sadə xalqın hərəkatda fəal iştirakının gösrəricisidir. Qızılbaşlar Şah İsmayılı çox sevir və onu ilahiləşdirirdilər. Venetsiya səyyahlarının təsdiq etdiyi kimi o, xalq içərisində də böyük şöhrət qazanmışdı[82]. Şah İsmayıla xilaskar, imam Mehdi kimi baxırdılar[83].

V.Qordlevski bununla əlaqədar olaraq yazmışdı: "...XVI əsrdə xalq təfəkkürü yenə də coşqun gərginlik içərisində çırpınırdı. Şiə ideyaları yenidən ortaya çıxmışdı: xalq, həsr\ətində olduğu xilaskar – Mehdi, yaxud imam intizarı ilə yaşayırdı. Kiçik Asiyada güclü təşviqat aparılırdı. Dərviş dəstələri ölkəni gəzib – dolaşır, əhalini həyəcana salır və aldadırdılar"[84]. Səfəvi şeyxlərinin uğurla istifadə etdikləri, Azərbaycanda əlverişli zəmin tapan dini yüksəliş türkdilli tayfalarla məskunlaşmış Kiçik Asiyanın Şərq hissəsini də bürüdü.

Osmanlı feodallarının qəsdlərindən öz istiqlaliyyətini qorumaq və dövlət yaratmaq üçün bu tayfaların bir hissəsi hərbi – siyasi ittifaqlarda birləşməyə başladı. N.D.Mikluxo – Maklay yazır: "Sonralar qızılbaşlar adlanmış bu tayfalar öz dilinə və mənşəyinə görə XV əsrdə ardıcıl surətdə Azərbaycanın və İranın böyük hissəsinin sahibi olmuş, qaraqoyunlu və Ağqoyunlu dövlətlərini yaratmış Azərbaycan tayfaları ilə qohum idilər"[85].

## Şiə islahatı və onun əhəmiyyəti


downloaded from KitabYurdu.az

Məlum olduğu kimi, I Şah İsmayılın ən mühüm tədbirlərindən biri dini islahat keçirilməsi idi.

Təbrizə daxil olmanın ilk günlərindən, yəni 1501-ci ilin payızında islamın şiə təriqəti, dəqiq deyilərsə, imamilər (on iki imamın - ər "isna əşəri") təriqəti dövlət dini elan edildi.

Anonim tarixçinin məlumatına görə, tacqoyma ərəfəsindəki gecədə İsmayıl bu barədə əmirlər və şiə üləmaları ilə məsləhətləşmişdi. Onlar İsmayılı ifratçılıqdan çəkindirməyə çalışmış, Təbrizdə xalq həyəcanlarının başlanabiləcəyini iddia etmişdilər. Lakin İsmayıl şiəliyə keçməyi qəti qərara alaraq cavab vermişdi: "Əgər rəiyyət bir söz belə desə, mən böyük Allahın köməyilə qılınca əl ataram və bir nəfəri də sağ qoymaram". "Yuxarıdan" təlimat alan İsmayıl Təbrizin Cümə məscidinə gəldi və oranın tanınmış şiələrindən olan xətibinə əmr etdi ki, minbərə qalxsın və xütbə oxumağa başlasın. İsmayıl özü minbərin aşağısında, məscidə gəlmiş təbrizlilərin başları üzərində, qılıncını qaldırmış halda durmuşdu. Onun silahdaşları hər cür müqaviməti boğmağa həzır vəziyyətdə yaxınlıqda dayanmışdılar[86].

Pul dövriyyəsinə şiə etiqad rəmzini bildirən yeni sikkələr buraxıldı: "Allahdan başqa tanrı yoxdur; Məhəmməd – Allahın elçisidir; Əli – Allahın dostudur". Pulların üstündə on iki şiə imamın adları və "Müqəddəs Şahın (yəni Əlinin – O.Ə.) qulu" ifadəsi ilə, kiçildilmiş formada Şah İsmayılın adı göstərilmişdi[87]. Pul islahatı da imami şiəliyin təbliğat məqsədlərinə, onun Səfəvilər dövlətində hakim mövqeyinin möhkəmləndirilməsinə xidmət edirdi.

Müasir İran tarixşünaslığında Səfəvilər dövlətinin yaranmasında şiəliyin rolu və əhəmiyyəti məsələsi yanlış və təhrif olunmuş şəkildə təqdim edilir. Belə bir təsəvvür yaradılır ki, guya XVI əsrin əvvəlində, Səfəvilər və qızılbaşlar İranı istila etməzdən əvvəl İran əhalisinin əsas hissəsi şiəliyə gizli, yaxud aşkar surətdə etiqad edirdi və və buna görə də yeni rəsmi dini etiraz etmədən qəbul etmişdi.

Məsələn, N.Şeybaninin fikrincə, İranın siyasi və milli birliyini şiəlik təriqətinin köməyilə qaytarmaq mümkün olmuşdu, şiəliyin sayəsində "iranlıların azadlıq hərəkatı dini çalar almışdı", şiəlik iranlıların milli və


downloaded from KitabYurdu.az

siyasi birliyinin möhkəmlənməsinə kömək etmişdi[88]. Tarixçinin yazdığına görə, İsmayıl Səfəvinin çıxışı guya qədim zamanlardan (ərəb istilaları dövründən) rəsmi sünnilik əleyhinə üsyan qaldırmaq istəyən İran əhalisi arasında əlverişli zəmin tapmışdı. Bu cəhət İsmayılın istilaçılıq hərəkatına və onun tısis etmiş olduğu dövlətə "milli xarakter" vermək üçün mühüm amillərdən biri hesab edilir[89]. Bununla təsdiq edilir ki, şiəlik islahatı keçirildikdən sonra o, iranlıların ciddi müqaviməti ilə qarşılaşmamışdı[90].

Əslində tarixi mənbələrdə həmin məsələ tamamilə başqa cür təsvir edilir. İş ondadır ki, XVI əsrin əvvəli üçün İran əhalisinin əksəriyyəti İran tarixşünaslığında tez-tez təqdim edildiyi kimi şiəliyə deyil, sünniliyə etiqad edirdi. Tədqiqatçılar (İ.P.Petruşevski, V.F.Minorski, N.D.Mikluxo-Maklay və b.) göstərmişlər ki, XIV-XV məsrlərdə İranda şiələr azlıq təşkil etmişlər. Feodallar və şəhərlərin əksəriyyətinin əhalisi sünnilərdən ibarətdi. Mazandaran və Gilan şiə əmirlikləri istisna olmaqla sünnilik İranda bütün dövlət birləşmələrinin hakim dini sayılırdı[91]. Hətta Azərbaycanda – şiə - qızılbaş hərəkatının beşiyində də sünnilər əhalinin əksəriyyəni təşkil edirdilər. Məsələn, anonim tarixçinin məlumatına görə XVI əsrin əvvəlində əhalisinin sayı 300 min nəfərə çatan Təbrizdə sünnilər sakinlərin $^2/_3$ hissəsini təşkil edirdilər[92]. Yeri gəlmişkən qeyd edək ki, S.Rəhimzadə bu dövrdə Təbrizdə yaşamış sünnilərin və şiələrin nisbətini aşkar surətdə təhrif edir: onun irəli sürdüyü ½ nisbəti heç bir dəlillə əsaslandırılmır[93].

Məlumdur ki, Ərdəbil şeyxləri tərəfindən idarə olunan şiə təbliğatı N.Şeybaninin və S.Rəhimzadənin iddia etdikləri kimi İranda deyil, Azərbaycanda və Kiçik Asiyada, irandilli mühitdə deyil, türkdilli əhali arasında daha çox tərəfdarı və ardıcılı özünə cəlb etmişdi. Belə ki, Venetsiya səyyahlarının məlumatlarına əsasən XV əsrin sonu – XVI əsrin əvvəllərində Kiçik Asiya əhalisinin $^4/_5$ hissəsi şiəlik tərəfdarı idi[94]. Azərbaycanda və Kiçik Asiyada məskunlaşmış, şiə təriqətinə mənsub olan türkdilli tayfalar Ərdəbil şeyxlərinin mübariz zərbə qüvvəsini təşkil edir, onların bütün siyasi və hərbi tədbirlərini həyata keçirirdilər.

Buna görə də İranda fəthlər və şiəliyin yayılması çox zaman İran müəlliflərinin təsvir etdiyi kimi o qədər də "dinc səciyyə" daşımırdı.


downloaded from KitabYurdu.az

Mənbələrdən məlum olur ki, İsmayıl Azərbaycandan İranın daxili bölgələrinə daha çox irəlilədikcə xeyli sünni (əsasən feodal əyanlar və ruhanilər) ölkəni tərk etmiş və qonşu sünni dövlətlərinin ərazisində məskunlaşmışdı. Bəzi yerlərdə (məsələn, İsfahanda,Şirazda, Kazerunda, Yəzddə) sünnilər şiələşdirməyə hətta açıq müqavimət göstərməyə cəhd etdiklərinə görə kütləvi edamlara məruz qalmışdılar[95]. Xatırlatmaq yerinə düşər ki, bu dövrdə qızılbaşlar sünnilərə tam əsasla özlərinin siyasi rəqibləri – onların devirdiyi Ağqoyunlu sülaləsinin ardıcılları, Osmanlı Türkiyəsinin və Şeybanilər dövlətinin tərəfdarları kimi baxırdılar və bu, gerçəklik idi. Bu dövrdə şiəliyə mücərrəd dini nəzəriyyə, təlim kimi deyil, daha çox Aöqoyunlulara və digər sünni dövlətlərinə müxalifət təşkil edən siyasi mübarizə vasitəsi kimi əhəmiyyət verildiyini XVI əsr tarixçisi Həsən bəy Rumlunun məlumatı da təsdiq edir. 1501-ci ildə şiəlik Təbrizdə dövlət təriqəti elen olunduğu zaman yeni təriqətin əsaslarını möhkəmləndirmək barədə məsələ qalxdı və məlum oldu ki, şiəliyin nəzəriyyəsi ilə səthi tanışlığı olan bir nəfər də yoxdur. Hətta şiə dini təliminə dair kitab da yox idi. Şiəliyə dair rəhbərlik üçün Şeyx Cəmaləddin Mütəhhər Hillinin (1250-1325_ “Qəvaid-i islam” (“İslamın qaydaları”) kitabı yeganə rəsmi ədəbiyyat kimi qəbul edildi[96].

## Çaldıran vuruşması və onun nəticələri

Çaldıran vuruşması Səfəvilər dövlətinin hərbi – siyasi tarixinin mühüm mərhələsi oldu. Şah İsmayılın dövlətinin taleyi üçün bu vuruşmanın həlledici nəticələri olmasa da, Səfəvilərin Kiçik Asiya şiələrindən zərbə qüvvəsi kimi istifadə etmək niyyətlərinin mənasızlığını göstərdi. I Sultan Səlim hələ müharibə başlamazdan əvvəl arxadan – Anadolu şiələri tərəfdən olan təhlükəni ləğv edə bildi[97].

Qızılbaş ordusunun vuruşma ərəfəsindəki hərbi hazırlıq vıziyyəti belə idi: mərkəzdə Nizaməddin Əbdülbaqinin, Məhəmməd Kəmunənin və Şərəfəddin Əlinin başçılığı altında qızılbaşların dəstəsi yerləşirdi; sağ canaha


downloaded from KitabYurdu.az

Durmuş xan Şamlı, sol cinaha isə Diyarbəkir hakimi Məhəmməd xan Ustaclı başçılıq edirdi. Ərzincan hakimi Nurəli Xəlifə Rumlu, Təbriz hakimi Məntəşə Sultan, Fars hakimi Xəlil Sultan Zülqədər, Hüseyn bəy Lələ, Xüləfa bəy (Xadim bəy), Pirə bəy Çavuşlu və Sultanəli Mirzə Əfşar cinahlarda mövqe tutdular. Sarı Pirə (qorçibaşı) və Yusif bəy Varsaq öndə duranhissəyə (çərxçiyan) təyin olundular. Şah İsmayıl özü seçmə hissələrlə sağ cinahda dururdu[98].

Osmanlı ordusunun döüüş qüvvələri Avropa nümunəsi üzrə qurulmuşdu. Sağ cinaha Anadolu bəylərbəyisi Sinan paşa, sol cinaha isə Rumeli bəylərbəyisi Həsən paşa başçılıq edirdilər. Mərkəzdə artilleriyaya – 300-ə yaxın top yerləşdirilmişdi. Düşmənin topları görə bilməməsi üçün onların qarçısında xüsusi hissələr (əzablar) saxlanırdı. Artilleriyanın arxasında piyada nişançılar – yeniçərilər dururdular. İş heyvanlarını – dəvələri və qatırları bir-birinə zəncirlərlə bərkidilmiş arabalarla birlikdə yeniçərilərin qarşısında və ətraflarında yerləşdirmişdilər. Bu, müdhiş qızılbaş süvarisinin yolunda maneə olmalı idi. Elə həmin məqsədlə də topların sıraları zəncirlərlə bağlanmışdı. Sultan Səlim özünün şəxsi hərbi dəstəsi ilə yeniçəri qüvvələrinin arxasında mövqe tutmuşdu. Osmanlı ordusunun arxa hissəsində vəzifəsi vəzifəsi düşmənin arxadan vura biləcəyi zərbəni dəf etməkdən ibarət olan Şadi bəy durmuşdu[99].

Çaldıran vuruşması 1514-cü il avqustun 23-də səhər, qızılbaş ön süvari dəstəsinin – Sarı Pirə Ustaclının başçılıq etdiyi qorçıların şiddətli hücumu ilə başlandı. Türklər ağır itkilərə məruz qalsalar da, Osmanlıların ön dəstəsi Səfəvi süvarisinin hücumunu dəf edə bildi.

Salnaməçilərin məlumatlarına görə, bu döyüşdə I Şah İsmayıl və qızılbaş döyüşçüləri xeyli hünər və qəhrəmanlıq nümunələri göstərdilər. Məsələn, döyüşün qızğın çağında İsmayıl Osmanlı ordusunda özünün bahadır gücü və igidliyi ilə tanınan Əli bəy Malquçoğlu ilə üz-üzə gəldi. İsmayıl qılıncla onun başına elə bir zərbə endirdi ki, baş dəbilqə ilə birlikdə iki hissəyə parçalandı, şahın qılıncı isə onun sinəsini dəldi[100.]

Vuruşmanın ən böhranlı anında top mərmiləri İsmayılın döyüşçülərinin sıralarını seyrəltdiyi bir vaxtda Fars hakimi Xəlil



downloaded from KitabYurdu.az

Sultan Zülqədər özbaşına döyüş meydanını tərk etdi və öz dəstəsi ilə birgə qaçdı. Lakin şah düşmənin məhvedici atəşi qarşısında geri çəkilmədi və döyüşçülərini topların üzərinə hücuma apardı. O, qılıncı ilə bir – birinə zəncirlənmiş topların arasından özünə yol açdı, lakin dəvələrin və qatırların "divarı" qarşısında dayanmağa məcbur oldu[101]. Bu zaman Şah İsmayılın atı müvazinətini itirdi və üzərindəki döyüşçü ilə birlikdə yerə sərildi. Türk əsgərləri İsmayıla tərəf atıldılar. Lakin şahın həyatı üçün bu çətin anda o, şaha "zahirən və geyimi " ilə çox oxşayan Sultanəli Mirzə Əfşar tərəfindən xilas edildi. O, "mənəm şah" – deyə qışqıraraq irəli qaçdı və düşmənin əsgərlərini də öz arxasınca apara bildi. Bu zaman özünü yetirən Xızır ağa Ustaclı adlı bir qızılbaş İsmayıla başqa bir at gətirdi. Şah həmin atın üzərində döyüşə atıldı[102].

Səfəvi salnaməçilərinin məlumatlarına görə, Çaldıran vuruşmasında hər iki tərəfdən 5 min nəfər döyüşçü həlak olmuşdur. Onlardan 2 min nəfərinin qızılbaş, 3 min nəfərinin isə türk olduğu göstərilir[103]. Lakin biz bu rəqəmin düzgünlüyünə heç cür inana bilmərik. Məsələn, Şərəfxan Bidlisi yalnız qızılbaşların itkisinin 5 min nəfər süvari olduğunu göstərir ki, bu, həqiqətə daha yaxındır[104]. Osmanlı tarixçiləri əksinə, bu rəqəmləri həddən rtöq şişirdirlər. Onlardan bəziləri türklərin 30-40 min nəfər, qızılbaşların isə bundan iki dəfə artıq itki verdiyini göstərirlər. Səfəvilər özlərinin bir sıra istedadlı sərkərdələrini – Məhəmməd xan Ustaclını, Sarı Pirə Ustaclını, Hüseyn bəy Lələni, Xadim bəy Xüləfanı itirdilər. Osmanlı sərkərdələrindən Həsən paşa, Malquç oğlu, Üveys bəy, Süleyman bəy həlak oldular[105].

Qızılbaş ordusunun Çaldıran vuruşmasında məğlubiyyətini müasirləri müxtəlif səbəblərlə izah edirlər. Burada əvvəlki qələbələrdən arxayın düşən və tərslik edərək öz sərkərdələrinin aöıllı kəlamlarını eşitməyən Şah İsmayılın cəngavər xasiyyətini, şahın gecə həmləsi fikrindən daşındırmış Durmuş xanın özünə güxənərək, keflənib lovğalanmasını və s. göstərmək olar. Bu


downloaded from KitabYurdu.az

baxımdan Sulyan Səlimlə türklərin əsir aldığı Şah İsmayılın oxşarı – Sultanəli Mirzə Əfşar arasında olmuş söhbət maraqlıdır. Sultan Şah İsmayıldan soruşur: “Məgər sən bilmirdin ki, mən iki yüz min döyüşkən kişi, artilleriya və yeniçərilərlə gəlmişəm, sən niyə belə miskin qüvvələrlə mənimlə döyüşə girib, öz adamlarını ölümə məhkum etdin, özün isə əsir düşdün”. Cavab belə oldu: “Mən bilirdim ki, sənin böyük ordun var, lakin bilmirdim ki, sən toplardan düzəldilən istehkama atılıb bununla da özünü bu dünyada da, o dünyada da rüsvay edəcəksən...”[106] Göründüyü kimi, I Şah İsmayıl odlu silah tətbiqini insanlıqla bir araya sığışdırmır, qorxaqlıq və cəsarətsizlik təzahürü sayırdı. Şah İsmayıl yalnız canlı qüvvə baxımından deyil, texniki təchizat cəhətdən, silahlanma cəhətdən Sultan Səlimdən geri qalırdı. Səfəvilərdə artilleriya demək olar ki, tamamilə yox idi. Səfəvilərin əsas qüvvəsi olan qızılbaş tayfa süvari qoşunu topların və yeniçəri nişançılarının atəşi qarşısında aciz idi. Bundan əlavə, Osmanlı ordusu hərbi nizamın və döyüşün aparılması taktikasında Avropa sistemini də mənimsəmişdi. Deməli, İsmayılın məğlubiyyətini şəxsi səbəblərlə deyil, sultan ordusunun o dövr üçün qabaqcıl olan tışkili və silahlanması, onun odlu silahı, artilleriyanı geniş tətbiq etməsi ilə əlaqələndirmək lazımdır[107].

Çaldıran Səfəvilər dövlətinin hərbi – siyasi nüfuzuna ciddi zərbə endirdi və son nəticədə onun Kürdüstanda geniş əraziləri itirməsinə gətirib çıxardı. Kürd tayfaları və əyanları o vaxta qədər I Şah İsmayılın və onun canaşinlərinin hakimiyyətini qismən tanısalar da, Çaldırandan sonra kömək üçün I Sultan Səlimə müraciət edərək, açıq–aşkar qızılbaş hakimlərinə qarşı çıxış etməyə başladılar. Kürdüstanın əsarət altına alınmasına yönəldilmiş Osmanlı ilhaqçı siyasətinin sadiq nümayəndəsi və yayıcısı İdris həkim Bidlisi kürd tayfalarının sultanın tərəfinə keçməsində çox böyük rol oynadı. Kürdlərin siyasi təmayülünün dəyişməsində


downloaded from KitabYurdu.az

onların Osmanlı türkləri ilə ümumi olan sünnilik ideologiyası heç də az rol oynamadı[108].

Hicri 920 (1514-1515)-ci ilin qışını amasyada keçirən Səlim İstanbul istiqamətində hərəkət etdi. O, yolüstü Kəmaxı tutdu[109]. Ərzincanın qızılbaş hakimi Nurəli Xəlifə Rumlu Trabzonun Osmanlı hakimi Bıyıklı Məhəmmədin (farsdilli mənbələr onu Mustafa paşa Bığlı Çavuş adlandırırlar) qoşunları ilə döyüşdə məğlubiyyətə uğradı və həlak oldu. Ərzincan isə türklər tərəfindən tutuldu[110].

Çaldıran vuruşmasından sonra Diyarbəkir əhalisi Sultan Səlimə itaətini bildirdiyinə görə I Şah İsmayıl şəhəri geri almaq üçün Qara xanı (Çaldıran yaxınlığında həlak olmuş Məhəmməd xan Ustaclının qardaşı) ora göndərdi. Lakin qızılbaşlar qiyamçıların müqavimətini heç cür qıra bilmədilər. Mühasirə bir ildən artıq çəkdi. İdris Bidlisinin başçılığı altında kürd dəstələri ilə möhkəmləndirilmiş Bıyıklı Məhəmməd paşanın qoşunlarının yaxınlaşması Qara xanı məcbur etdi ki, mühasirədən əl çəksin və Mardinə geri çəkilsin. 1516-cı ilin əvvəlində Mardinin cənubunda Koçhisarın yaxınlığında tərəflər arasında baş verən qəti döyüş Osmanlı türklərinin xeyrinə qurtardı. Qara xan öldürüldü, qızılbaş qoşunu darmadağın edildi. Nəticədə, şimalda Harputdan və Bidlisdən başlayan, cənubda isə Rəqqə və Mosula qədər uzanan geniş ərazi Osmanlı türklərinin əlinə keçdi[111].

## Səfəvilər və Gürcüstan
## Şah İsmayıl və Şəki xanlığı

Sultanın barışmaz mövqeyi ilə qarşılaşan I Şah İsmayıl Cənubi Qafqaz ölkələrində, xüsusilə də Gürcüstanda öz mövqelərini möhkəmləndirmək üçün ciddi tədbirlər gördü. Səfəvilərin vəziyyəti onun hesabına yüngülləşmişdi ki, Gürcüstan


downloaded from KitabYurdu.az

XVI əsrin əvvəlində bir-birilə düşmənçilik edən bir sıra müstəqil çarlıqlara parçalanmışdı.

Qızılbaşların Gürcüstana yürüşləri üçün formal bəhanə gürcü çarlarının kömək üçün özlərinin müraciəti oldu.Mesxi(Samtsixi) çarı IV Kvarkvare (1516-1535) digər gürcü çarı “Başı Açıq” (İmeretiya) hökmdarı Mənuçöhr (?) tərəfindən məğlub edilərək İsmayılın Naxçıvandakı qış düşərgəsinə gəldi və müdafiə olunmasını xahiş etdi. Şah İsmayıl Div Sultan Rumlunun başçılığı ilə bir neçə qızılbaş sərkərdəsini Gürcüstana göndərdi[112]. Onlar Şuragöl yolu ilə buraya gəldilər.Yürüş nəticəsində Mənuçöhrün ordusu darmadağın edildi və o, yardım almaq üçün Ruma (Türkiyəyə) qaçdı. Kvarkvare isə taxt-tacı özünə qaytardı[113].

Sonrakı ildə Mənuçöhr Qızıl Əhməd oğlunun komandası altında Osmanlı türk dəstəsi ilə Türkiyədən qayıtdı və yenidən Kvarkvarenin mülklərinə basqın etdi.Div Sultan Rumlu ikinci dəfə Gürcüstana göndərildi.Dəbil (Dvin) rayonunda baş verən döyüşlərdə qızılbaşlar Osmanlı türklərini darmadağın etdilər.Onların başçısı isə öldürüldü.Mənuçöhr meşələrə qaçmaqla canını qurtardı[114].

Div Sultan Rumlunun başçılığı ilə qızılbaşların üçüncü yürüşü hicri 927 (1521)-ci ilə təsadüf etmiş və Kaxetiya gürcü çarı Ləvənd xanın (Levanın-1520-1574) Şəki xanlığına basqını ilə əlaqədar olmuşdu.Şəki hakimi Həsən bəy kömək üçün Naxçıvanda qışlayan I Şah İsmayıla müraciət etdi. Div Sultan Qanıq (Alazan) və Qabırrı (İori) çaylarını keçərək Zəyəm və Qərəm qalalarına hücum etdi. Ləvənd xan günahını etiraf edərək div Sultanın hüzuruna gəldi. Gürcüstanın digər hökmdarları-Kvarkvare, Davud bəy[115] və Mənuçöhr də bu cür hərəkət etdilər. Onlar Div Sultanla birlikdə Naxçıvanda qışlayan Şah İsmayılın yanına gəldilər. Burada gürcü çarları Səfəvilərə hər il vergi (bac-xırac) verməyi öhdələrinə götürdülər və öz mülklərinə qayıtdılar[116].

Yeri gəlmişkən qeyd edək ki, Səfəvilərlə əlaqədar Şəki


downloaded from KitabYurdu.az

hakimi barəsində daha ilkin məlumat yalnız Budaq Qəzvinidə vardır.Burada hicri 925 (1519)-ci ildə Şah İsmayıl Təbrizdəki qış mənzilində olarkən onun yanına qonşu hakimlərin bütöv bir dəstəsinin gəldiyi xəbər verilir. Şirvan əhalisi Şeyxşah,Müzəffər Sultan Rəşti, Xan Əhməd Gilani, Mirəbdülkərim Mazandarani, Məlik Kavus Rüstəmdari, Məlik Bəhmən Rüstəm Abbasi, Ləvənd bəy Gürcü, Həsən bəy Şəki və Kvarkvare Gürcü "bir xalçanın üstündə əyləşmişdilər"[117]. Başqa sözlə, adları çəkilən hakimlər bununla I Şah İsmayıla itaət etdiklərini və ona tabe olduqlarını bildirirdilər[118].

Hicri 930 (1524)-cu ilin yazında İsmayıl Naxçıvandan Şirvana hərəkət etdi. Salnaməçilər yürüşün səbəbini izah etmirlər.Şah Kür çayına çatanda şirvançah II Şeyxşahın vəfatı haqqında xəbər alındı. Şirvan taxtına onun oğlu,İsmayılın kürəkəni 9qızı Pərixan xanımın əri) Xəlilullah çıxdı. Sonra şah Şəki tərəfə döndü və burada Həsən bəy və yerli əyanlar onu təntənə ilə qarşıladılar.İsmayılın Şəki ilə Gürcüstan arasındakı ərazidə təşkil etdiyi çox böuük ovda,"qazilər" və Şəki əyanları iştirak etdilər[119]. Şəkidən Ərdəbilə qayıdarkən İsmayıla xəbər verdilər ki,Kaxetiya hökmdarı Ləvənd xan böyük bir qoşunla Şəkiyə hücum etmişdir. Vuruşmada şəkililər məğlub olmuşdular və Həsən bəy öldürülmüşdü. Bu xəbər I Şah İsmayılı qəzəbləndirdi və o, dikbaş gürcü çarını cəzalandırmağı qərara aldı. Lakin İsmayılın vəfat etməsi buna mane oldu[120]

Bu faktlar göstərir ki, Şəki hakimi Həsən bəy Şah İsmayılın simasında öz himayədarını görür və qərb qonşuları-gürcü çarları ilə mübarizədə onun köməyinə arxalanırdı.

## I Şah İsmayılın şirvanşah II İbrahim Şeyxşahla qarşılıqlı münasibətləri


downloaded from KitabYurdu.az

ŞirvanşahFərrux Yəsar həlak olduqdan sonra Şirvanşahlar dövlətinin varlığına son qoyulmadı.Şirvan taxtında onun oğlanlarından biri,bir ilə qədər hakimiyyətdə olmuş Bəhram bəy əyləşdi.Onun vəfatından sonra isə qardaşı Qazı bəy hakimiyyətə gəldi. Bir neçə ay sonra o taxt-tacı ələ keçirmiş oğlu Sultan Mahmud tərəfindən öldürüldü. Mənbələrin məlumatlarına görə,hakimiyyəti qəsb etmiş bu adamın qəddarlığından hədsiz əziyyət çəkən Şirvan əhalisi onun əmisinin,Gilan hakimi Hüsaməddinin[121] ölkəsində olan Şeyx İbrahim Şeyxşahın ardınca elçi göndərdi. Şeyxşah 1502-ci ildən II İbrahim adı ilə taxta çıxdı.Sultan Mahmud kömək almaq ümidi ilə I Şah İsmayılın sarayına qaçdı.

I Şah İsmayıl Sultan Mahmudu müdafiə etməyi lazım bildi.Münəccimbaşının verdiyi məlumata görə,Sultan Mahmud qızılbaşlardan hərbi kömək alaraq Şirvana hərəkət etdi.Şeyxşah Gülüstan qalasına çəkildi.qalanın mühasirəsi üç aya qədər davam etdi.Mühasirədə olanların vəziyyəti təhlükəli hal alırdı.Lakin bu zaman gözlənilməz hadisə baş verdi: Mahmud yatdığı yerdə xidmətçisi tərəfindən öldürüldü. Gecə zülmətində onun başı qalaya çatdırıldı. Bundan ruhlanan şirvanlılar gecə həmləsi təşkil etdilər və özlərini itirmiş qızılbaşları qılıncdan keçirdilər[122]. Münəccimbaşının məlumatında bu hadisənin tarixi göstərilməmişdir.

Qızılbaşların Şirvana yuxarıda təsvir edilən yürüş tarixinə münasibətində Y.A.Paxomov maraqlı müşahidələr aparmışdır[123]. 1935-ci ildə Gəncə yaxınlığında Çaykənd kəndində Şirvanşahların və I Şah İsmayılın sikkələrindən ibarət pul dəfinəsi tapılmışdır. Y.A.Paxomov tərəfindən siyahıya alınmış bu dəfinədə I Şah İsmayılın Şamaxıda və Şabrandav zərb edilmiş, hicri 911 (1505-1506)-ci il tarixli pullar vardır. Halbuku bu dövrdə Şirvanın hökmdarı II İbrahim Şeyxşah idi. Digər tərəfdən Y.A.Paxomovun fikrincə, istər bu dəfinədə, istərsə dəŞeyxşahın pulları olan başqa


downloaded from KitabYurdu.az

məlum kolleksiyalarda hicri 911 və 912 (1505-1507)-ci illərdə zərb olunmuş pulların tamamilə olmaması müşahidə edilir. Y.A.Paxomov bu faktların əsasında belə bir nəticəyə gəlir ki, göstərilən illərdə Şamaxı, Şabran və Şirvanın bir hissəsi İsmayılın tabeliyinə keçmişdi; Şeyxşah yalnız hicri 913 (1507-1508)-cü ildə Şamaxını özünə qaytarmış, artıq öz adından pul zərb etdirmişdi. Tədqiqatçı deyilənlərə belə yekun vurur: "Birincisi, Sultan Mahmuda kömək etmiş Səfəvilər nəinki Şamaxını, həm də Şirvanın şimal hissələrini, məsələn Şabranı tuta bilmişdilər.; ikincisi, bu köməyin əvəzində Sultan Mahmud özünü Şah İsmayıln təbəəsi saymağı və onun adından pul zərb etdirməyi öhdəsinə götürmüşdü"[124].

Y.A.Paxomovun numizmatik məlumatlara əsaslanan həmin nəticələri, əsasən narrativ mənbələrin məlumatları ilə düz gəlsə də, aşağıdakı faktlar onların bir qədər dəqiqləşdirməsini tələb edir.

İbrahim Əmini xəbər verir ki, I Şah İsmayıl Hüseyn Kiya Çəlavinin qorunduğu Usta qalasını mühasirəyə alanda "Qazı bəyin oğlu Sultan Mahmud " şah qərargahına gəldi və Şirvan taxt – tacına öz hüquqlarını təsdiq etdirdi[125]. Biz bilirik ki, Usta qalasının mühasirəsi və alınması hicri 909 (1504-cü ilin yazında)-cu uldə[126] baş vermişdir. Deməli, Sultan Mahmudun qızılbaş hissələri ilə yürüşü yalnız həmin müddətdən sonra ola bilərdi. Biz elə həmin hicri 911 (1505-1506)-ci ildə qızılbaşların Şirvana yürüşü haqqında da məlumatlar əldə etmişik. Həsən bəy Rumlu xəbər verir ki, həmin ildə Şah İsmayıl "hökm vermişdi ki, Sultan Heydərlə döyüşdə onun düşmənlərinin tərəfində olanların hamısını öldürsünlər.O bu işi təhqiq etməyi qorçibaşı Əbdül bəy Dədəyə tapşırdı. Bu səbəbdən xeyli adam öldürüldü"[127]. Anonim müəllif bu hadisənin bəzi təfsilatlarını göstərir. O yazır ki, Əbdül bəy Dədə I Şah İsmayılın əmri əsasında qoşunla Şirvana yollandı, çoxlu


downloaded from KitabYurdu.az

"türkman"ı, Təbərsaran və Şirvan sakinini qırdı[128]. Bu haqda digər mənbələr də məlumat verirlər[129].

Mənə elə gəlir ki, yuxarıda göstərilən I Şah İsmayılın adı olan pulların (hicri 911-ci ildə Şamaxı və Şabranda zərb edilmiş) məhz Əbdül bəy Dədənin başçılığı ilə qızılbaşların həmin yürüşü zamanı zərb edildiyinə şübhə etməyə əsasımız yoxdur.

Qeyd olunan faktlar Sultan Mahmudun və Əbdül bəy Dədənin Şirvana yürüşləri arasında əlaqənin olması fikrinə gətirib çıxarır. Belə güman etmək məntiqi olar ki, söhbət müxtəlif vaxtlarda olmuş iki yürüşdən deyil, Sultan Mahmudun da iştirak etdiyi bir yürüşdən gedir.

I Şah İsmayılın ilk yürüşündən sonra Səfəvilərin Şirvan hökmdarları ilə siyasi münasibətləri məsələsi hələ qz öyrənilmişdir. "Azərbaycan tarixi"ndə bu münasibətlərin xarakterinə düzgün qiymət verlimişdir: "1500-1501-ci illərdə qızılbaşların yürüşündən sonra Şirvan, əsasən Səfəvilərin vassal asılılığı altına düşdü"[130].

Aşağıda verdiyimiz yeni material həmin səciyyəni nəinki təsdiq edir, həm də onu mühüm təfərrüatlarla tamamlayır və bu münasibətlərin mahiyyətini dəqiqləşdirir. Bizim əlimizdə 1501-ci ildə qızılbaşlar Şirvandan getdikdən sonra, orada Səfəvilərin nümayəndələrinin qalması barədə mötəbər məlumat vardır. Məsələn, bizə məlum olur ki, İsmayılın ən nüfuzlu silahdaşlarından biri və onun tərbiyəçisi Hüseyn bəy Lələ Şamlı Şirvana canişin təyin olunmuşdu. Sonuncu, özünün xidmətçisini ("cilovdar") – darmadağın edilmiş Şirvanlıların təqib edilməsi zamanı Fərrux Yəsara çatması, onu vurub atdan salması və şirvanşahın başını İsmayıla gətirməsi ilə fərqlənmiş Şahgəldi ağanı öz yerinə təyin etmişdi[131]. Sonra məlumat verilir ki, Şeyxşah Gilandan qayıtdı, boş qalmış Şirvan taxtına sahib oldu və "həmin vilayət tutulduqdan sonra oranı Lələ bəyin müavini kimi idarə etmiş" Şahgəldi ağa Şirvan hüdudlarını tərk etməyə məcbur oldu. İlk vaxtlar Şeyxşah öz adamlarını hədiyyələrlə Şah İsmayılın sarayına göndərmiş, özünün


downloaded from KitabYurdu.az

sadiq olduğuna onu inandırmış və İbrahim Əmininin sözləri ilə desək, İsmayılın "Şirvanın idarə olunmasını ona bağışlamasına nail olmuşdu[132]. Şeyxşahın öz mövqeyi möhkəmlənəndən sonra Şirvan qalalarının möhkəmliyinə və qoşunların sayca çoxluğunaarxalanaraq, Səfəvilərin asılılığından tamamilə azad olmağa cəhd göstərdi. O, İsmayılın nümayəndələrinin üzünə "hörmət və ehtiram qapılarını bağlayarq", "bac – xərac" verilməsini dayandırdı. Elə bu vəziyyət də hicri 911-ci ilin qışında (1509-cu ilin sonu) Şah İsmayılın Şirvana təkrar yürüşünə səbəb olmuşdu[133]. Qızılbaş qoşunları Cavad yaxınlığında bərənin köməyilə çayı keçərək Şirvana daxil oldular.İsmayılın üstün qüvvələri ilə toqquşmaqdan ehtiyat edən Şeyxşah Buğurd qalasında gizləndi. Qoşunların bir hissəsini Şamaxıya göndərən İsmayıl Bakıya hərəkət etdi. Bakı və Şabran şəhərlərinin hərbi rəisləri şəhər və qala qapılarının açarlarını qızılbaş hökmdarına təqdim etdilər. Şirvanın digər qalalarının rəisləri də belə hərəkət edərək hədiyyələrlə İsmayılın yanına gəldilər. Yarəhməd və Ağa Məhəmməd bəy istisna olmaqla Dərbənd hakimləri qala divarlarının hündürdə yerləşməsinə və möhkəmliyinə ümid bağlayaraq, nəinki özləri şahın yanına gəlmədilər, hətta ənənəvi "peşkəşi" belə ona göndərmədilər. Belə olduqda qızılbaşlar Dərbəndə hərəkət etdilər və onu mühasirəyə aldılar. Beş gün ərzində qala divarlarının altından 12 lağım atıldı. Öz vəziyyətlərinin çıxılmaz olduğunu görən şəhər müdafiəçiləri silahı yerə qoydular. Anonim müəllif göstərir ki, "Şirvan ölkəsinin idarə olunması yenidə Hüseyn bəy Lələyə tapşırıldı".

Deyilən Şərhlərdən görünür ki, İsmayıl Şirvanşahları lap əvvəldən vassallığı qəbul etməyə məcbur etmişdi. Bizim hər il Şirvanşahların İsmayıla ödədikləri verginin – "bac – xəracın" miqdarı və xarakteri haqqında məlumatımız yoxdur. Güman etmək olar ki,Şirvanşahlar Şah İsmayıla münasibətdə öz üzərlərinə müəyyən öhdəliklər götürmüşdülər. Əks təqdirdə, Şirvanda qızılbaş


downloaded from KitabYurdu.az

nümayəndələrinin olması səbəbini izah etmək çətindir. Təəssüf ki, bizim bu barədə konkret məlumatımız yoxdur. Yəqin ki, Şirvanın idarə olunmasının Hüseyn bəy Lələyə tapşırılmasını Səfəvilərin bu vilayəti həmişə özlərinin qanuni mülkü hesab etdiklərini təsdiq edən aşkar, formal əmək kimi başa düşmək lazımdır. Səfəvi nümayəndələrinin Şirvanın daxili işlərinə qarışmasının dərəcəsi və xarakteri haqqında fikir yürütmək də bizim üçün çətindir. Ehtimal etmək olar ki, bu, Şeyxşah üçün kifayət qədər sıxıntılı olmuşdu. Onun həmin asılılıqdan qurtulmaq üçün göstərdiyi cəhdlərdən də bunu sezmək olar.

# III FƏSİL

## I TƏHMASİBİN DÖVRÜNDƏ SƏFƏVİLƏR DÖVLƏTİNİN VƏZİYYƏTİ

Azərbaycan Səfəvilər dövlətinin banisi I Şah İsmayılın müxtəlif xalqları birləşdirən geniş vahid dövlətin əsaslarını möhkəmləndirmək sahəsindəki fəaliyyəti onu ən görkəmli dövlət xadimi kimi səciyyələndirir. Azərbaycan (qızılbaş) əyanları mühitində tərbiyə almış, bu mühitlə ayrılmaz tellərlə bağlı olan I Şah İsmayıl mülki və dini rəhbər kimi şəksiz nüfuzundan istifadə edirdi. Qızılbaş əmirlərinin itaətsizliyinin ən xırda əlamətlərinin qarşısını amansızlıqla alan I Şah İsmayılın ağıllı siyasəti sayəsində əsrin ilk rübündə mərkəzi hökumətinn nüfuzu kifayət qədər yüksək


downloaded from KitabYurdu.az

idi. Buna görə də hicri 930-cu il rəcəb ayının 19 (1524-cü il mayın 23-də)-u[1] onun 37 yaşında ikən vaxtsız və qəfil ölümü mərkəzi hakimiyyətin zəifləməsinə və tayfa başçılarının ara müharibələrinə gətirib çıxardı.

## I Şah İsmayılın vəfatından sonrakı birinci onillikdə dövlətdə feodal özbaşınalığı

İsmayılın oğlu Təhmasib Mirzə formal olaraq şah elen edildi[2]. Lakin on yaşlı oğlan yüksək gəlirli dövlət vəzifələri, zəngin və məhsuldar torpaqlar ələ keçirmək uğrunda bir – birilə mübarizə aparan qızılbaş tayfa əmirlərinin əlində oyuncağa çevrildi. Dövlət işləri üzərində əməli nəzarəti rumlu tayfasının rəhbəri, I Təhmasibin lələsi (atabəyi) Div Sultan ələ keçirdi. Lakin ustaclı tayfasının Köpək Sultan və Abdulla xan kimi qüdrətli əmirləri onun hakimiyyətinin güclənməsinə yol vermək istəmirdilər. Təbrizdə ustaclı əyanlarının çıxış edəcəyindən qorxan Div Sultan özbəklərin Xorasana basqınını dəf etmək bəhanəsi ilə paytaxtdan çıxdı və guya xarici düşmənə qarşı qoşun toplamaq üçün Təbəristanla sərhəddə yerləşən Lar yaylağına yola düşdü. İsfahan hakimi Çuxa Sultan Təkəli, Həmədan hakimi (tiyuldarı) Qaraca Sultan Təkəli,Məşhəd hakimi Burun Sultan Təkəli, Şiraz hakimi Əli Sultan Zülqədər və başqaları onun çağırışı ilə öz qoşunları ilə bura gəldilər[3]. Div Sultan hədiyyələr və vədlər verməklə onları öz tərəfinə çəkdi və Köpək Sultan Ustaclı əleyhinə ittifaq bağladı. Şamlı tayfasının iki görkəmli əmiri – Herat hakimi durmuş xan və Astrabad hakimi Zeynal xan şəxsən Div Sultana qoşulmasalar da, onun vəkilliyə olan iddialarını müdafiə etdilər[4]. Ustaclı tayfasından olan əmirlərin bəziləri, məsələn, Məntəşə Sultan, Div Sultanın tərəfində durdular. Mövqeyinə və sayına görə başqa qızılbaş tayfalarından üstün olan ustaclı tayfa əmirlərinin əksəriyyəti Div


downloaded from KitabYurdu.az

Sultanı tanımaqdan imtina etdi[5] Hicri 931 (1525)-ci ilin payızında özünü kifayət qədər güclü hiss edən Div Sultan Köpək Sultana məktub göndərərək mərhum şahın iradəsinə tabe olmağa və onun vəkalət hüquqlarını tanımağa çağırdı. Özü isə əmirlərlə birlikdə Təbriz istiqamətində hərəkət etdi. Köpək Sultan ustaclı əmirlərinin müşavirəsində münaqişəni dincliklə həll etmək ruhunda çıxış edərək Div Sultanı qarşılamağa yollandı. Görüş Türkmənkəndi adlı yerdə baş verdi. Onlar birlikdə Şah Təhmasibin Təbrizdəki sarayının yaxınlığında yerləşən Çərəndaba gəldilər. Lakin tayfalar arasında müharibə yenidən başlandı[6].

Div Sultan Köpək Sultanla birlikdə paytaxta daxil olan kimi, ilk növbədə ixtilafa təhrik edənləri cəzalandırmaq bəhanəsi ilə Qərincə bəy Ustaclını və Narın bəy Qacarı edam etdirdi. Ustaclı əmirləri dövlət işlərini idarə etməkdən uzaqlaşdırıldılar. Köpək Sultan sağ – salamat Təbrizdən çıxıb gatməyi "xoşbəxtlik" hesab etdi və özünün keçmiş vilayəti (ölkəsi) olan Naxçıvan və İrəvan tərəfə hərəkət etdi[7]. Div Sultan Rumlu və Çuxa Sultan Təkəli bütün hakimiyyəti ələ keçirdilər. Fərmanlarda Div Sultan "məlik əl – üməra" ("əmirlərin rəhbəri"), Çuxa Sultan isə "rükn əs – səltənə" ("səltənətin dayağı") adlandırılırdı. Köpək Sultan paytaxtdan çıxan kimi Div Sultan Çuxa Sultanla birlikdə tiyul (iqta) hüququnda ustaclı tayfasına məxsus olan torpaqların çox hissəsini öz aralarında bölüşdürdülər[9].

İsgəndər bəy Münşi Azərbaycan tayfaları arasında düşmənçilik və müharibə törətmiş Div Sultanın hərəkətlərini pisləyir[10]. Köpək Sultan ustaclı, rumlu və təkəli tayfaları ilə mübarizə aparmaq üçün hicri 932-ci il rəcəbin əvvəlində (1526-cı ilin əvvəli) Xalxaldan Sultaniyyəyə gəldi. Ona qoşulmuş ustaclı əmirləri, o cümlədən Qılıc xan, Məntəşə bəy Şeyxlər qorçibaçının qardaşı Sarı Pirə, Bədr bəy Qorçibaşı və Kürd bəylə birgə Köpək Sultan şah qərargahına hərəkət etdi. Div Sultan barışmağa cəhd göstərdi və vasitəçilik etmək üçün Qasım – xəlifə Varsağı Köpək


downloaded from KitabYurdu.az

Sultanın yanına göndərdi. Lakin onlar Div Sultanın sözlərinə və vədlərinə inanmadılar.

Mayın 26 (şaban ayının 14-də)-da Səksəncik adlanan yerdə düşmən tərəflər arasında döyüş baş verdi. Əvvəlcə ustaclı əmirləri öz rəqiblərinə üstün gəldilər. Belə olanda Div Sultan və Çuxa Sultan "əlacsızlıqdan" gənc şahı ata oturdaraq onunla birlikdə döyüş meydanına çapdılar[11]. Ustaclı əmirlərinə qarşı döyüşə şahın xüsusi hərbi dəstəsi (qorçilər) daxil olduqda üstünlük rumlu və təkəli əmirlərinin tərəfinə keçdi. Ustaclı qoçunu qaçmağa üz qoydu və Əbhərdən keçərək Taroma – Rəşt hakimi Müzəffər Sultanın mülklərinə gəldi[12]. Həmin vaxtda mərhum Qara xanın oğlu Abdulla xan Ustaclı Kirman hakimi Əhməd Sufi oğlu Ustaclı ilə birlikdə rumlu və təkəli tayfalarına qarşı çıxdı və Xərzavil adlı yerdə onların arasınad döyüş baş verdi[13]. Gilanlıların köməyinə baxmayaraq, ustaclı dəstələri yenidən ağır məğlubiyyətə uğradılar və Qəzvində onların başlarından "minarə ucaldıldı"[14].

Sonrakı hicri 933 (1526-1527)-cü ildə Köpək Sultan öz qoşunlarını Xalxaldan keçərək, Rəştdən Ərdəbilə gətirərək yerli hakim Badəncan bəy Rumlunu məğlub etdi və öldürdü. Sonra o Çuxursəədə, rumlu tayfasının köçdüyü yeni yerə hərəkət etdi. Bundan xəbər tuitan Div Sultan, Çuxa Sultan və Məhəmməd xan Zülqədər oğlu səkkiz min nəfərlik qorçilər dəstəsi ilə Qərbi Azərbaycana yollandılar. Tərəflərin qz – üzəgəldiyi Naxçıvanda Araz çayı yaxınlığında, hicri 933-cü il ramazanın 29-da (1527-ci il iyunun 30-da) onların arasında həlledici döyüş baş verdi. Ustaclı qoşunu darmadağın edildi, Köpək Sultan isə öldürüldü[15].

Qızılbaş tayfaları arasında gedən ara müharibələri nəticəsində mərkəzi hakimiyyət əslində fəaliyyətdən qalaraq iflic vəziyyətinə düşdü. Ölkədə özbaşınalıq hökm sürürdü. Məsələn, Xorasanın bir çox qızılbaş tayfaları vətəndaş müharibəsinə cəlb olundu. Hürşah məlumat verir ki, Xorasanda və Astrabadda torpaqlara (iqta) sahib olan əmirlərin çoxu öz tayfaları ilə (il-u-


downloaded from KitabYurdu.az

ulus) İraqa yola düşdülər. Məsələn, Nişapur hakimi Çərəkə Sultan, İsfərain hakimi Pirqulu Sultan, Astrabad hakimi Zeynal xan, Damğan və Bistam tiyuldarı Ələş Sultan öz vilayətlərini tərk edərək Rey və Xarda məskunlaşdılar. Özbək əmirləri budan dərhal istifadə etdilər. Hicri 933-cü ilin əvvəlində (1526-cı ilin sonu) onlar Xorasana soxuldular, maneəsiz olaraq onu ələ keçirərək qarət etdilər və viran qoydular[16].

Üçüncü rəqibdən yaxalarını qurtaran Div Sultan Rumlu və Çuxa Sultan Təkəli özləri bir – birilə vəkillik (vəkalət-i əmir əl-ümərai) vəzifəsi uğrunda toqquşmağa başladılar. Hicri 933 (1527-ci il iyul)-cü ilin əvvəlində Div Sultan Çuxa Sultanın təhriki ilə öldürüldü. Şərəfxan Bidlisinin məlumatlarına görə, Çuxa Sultan gənc şahı inandıra bilmişdi ki, Div Sultan tayfalararası ədavətin və toqquşmaların səbəbkarıdır və o, divan daxil olanda şah Div Sultanı oxla vurmu, sonra isə şahın xidmətçiləri onu qətlə yetirmişdilər[17]. Bununla da rumlu əyanlarının hakimiyyət dövrü sona çatdı.

Dövlət işlərinə rəhbərlik təkbaşına vəkil olmuş Çuxa Sultanın şəxsində təkəli əyanlarının əlinə keçdi. O, elə hakimiyyət sahibi olmuşdu ki, I Təhmasibə "yalnız şahın adı qalmışdı". O,"vilayətlərin çoxunu təkəli tayfasından olan qohumlarının arasında bölüşdürmüş və (onlardan) hər birini xan rütbəsinə, sultan dərəcəsinə yüksəltmişdi" Lakin tezliklə Çuxa Sultanın və təkəli tayfasının nüfuzu son dərəcə azaldı. Bu hicri 935 (1529)-ci ildə, Zirabad yaxınlığında özbəklərlə vuruşmadan sonra baş verdi. Burada təkəli əmirləri döyüş meydanından qaçdıqlarına görə Səfəvi qoşunu az qala məğlubiyyətə uğrayacaqdı[19].

Bu zaman özbəklərlə döyüşdə böyük şücaət və cəsurluq nümayiş etdirmiş şamlı tayfasının başçısı Hüseyn xan əvvəlki mühasirə zamanı ağır vəziyyətə salınmış, ərzaq cəhətdən korluq çəkən Heratın[20] hakimi vəzifəsini tutmuşdu. Qızılbaş qoşunu Xorasanı tərk edən kimi, Übeydulla xan yenidən bura hücum etdi və Hüseyn xanın azsaylı qızılbaş dəstəsi ilə qoruduğu Heratı


downloaded from KitabYurdu.az

mühasirəyə aldı. Çuxa Sultan qızılbaş qoşununu Heratda mühasirəyə düşənlərə köməyə göndərməyi yubandırdı. Çuxa Sultanın, onun özbəklərin əlinə düşməsini istədiyini yaxşı başa düşən Hüseyn xan Übeydulla xanla danışıqlara başladı. Ona maneəsiz olaraq öz dəstəsi ilə şəhəri tərk etməyə və Sistandan keçərək Şiraza geri çəkilməyə icazə verildi[21]. Hicr 937-ci il zülqədənin 2-də (1531-ci il iyunun 17-də) Hüseyn xan Sam Mirzə ilə şahın İsfahan yaxınlığındakı qərargahına gəldi[22]. Çuxa Sultan özünün təhlükəli rəqibindən xilas olmaq üçün onu şənliklərin birində öldürmək qərarına gəldi. Onun bu planından Hüseyn xan xəbər tutdu.O, gecə düşəndə silahlı adamlardan ibarət dəstə ilə Çuxa Sultanın alaçığına yollandı. Çuxa Sultan sığınacaq tapmaq ümidi ilə divanxanaya qaçdı. İş o yerə çatdı ki, vuruşma şah otağnda davam etdirildi və Hüseyn xanın adamlarının atdıqları iki ox şahın tacına dəydi. Həmin gecə şahı mühafizə edən, zülqədər tayfasından olan şah qorçiləri Hüseyn xanın tərəfinə keçdilər və onlardan biri Çuxa Sultanı ölümcül yaraladı.

Çuxa Sultanın ölümündən sonra təkəli əmirləri vəkil vəzifəsinə onun böyük oğlu Şah Qubadın namizədliyini irəli sürdülər. Təkəli əmirlərinin öz hökmranlığını qoruyub saxlamaq üşün etdikləri bu cəhd təkəli feodallarının zülmünə çox dözmüş digər qızılbqş tayfaları – ustaclı, rumlu, zülqədər və əfşar əmirləri tərəfindən narazılıqla qarşılandı. Həmədandan bir qədər aralıda tərəflər arasında toqquşma baş verdi. I Şah Təhmasibin əmri ilə təkəli tayfası tamamilə məhv edilmək təhlükəsi qarşısında qaldı. Tayfadan bir çoxları qırıldı, sağ qalanlar isə onların öz tayfalarından olan Məhəmməd xan Şərəfəddin oğlunun idarə etdiyi Bağdada qaçdılar. Sonuncu, özünün şaha olan xeyirxah münasibətini bildirmək əlaməti kimi onlardan bəzilərini edam etdirdi və başlarını saraya göndərdi[23].

Hicri 937 (1530-1531)-ci ildə təkəlilər Azərbaycanın cənub hissəsinin hakimi (əmir əl-üməra) Üləma bəy Təkəlinin şəxsində


downloaded from KitabYurdu.az

vəkil vəzifəsini tutmaq üçün daha bir uğursuz cəhd etdilər[24]. Müqavimətə rast gələn Üləma şaha qarşı üsyanh etdi, Təbrizi çapıb taladı və tayfasının bir hissəsi ilə Türkiyəyə getdi. Sonralar, Üləma bəy Sultan Süleymanın Azərbaycana yürüşlərində iştirak etmişdir.

Təkəli əyanlarınıın hökmranlıq müddəti (1527-1531) şamlı feodallarının hakimiyyəti ilə əvəz edildi. Çuxa Sultanın ölümündən sonra Hüseyn xan Şamlı ən qüdrətli feodal oldu, vəkil və əmir əl-üməra vəzifələrini tutdu. Hüseyn xan da sələfi kimi ilk növbədə öz tayfasının yaxşı yerləşdirilməsi qayğısına qalaraq "ən yaxşı vilayətləri (iqta əsasında) şamlı əmirləri arasında bölüşdürüb" şaha dövlət işlərinə qarışmaq imkanı vermədi[25].

Hüseyn xan hicri 940 (1533-1534)-cı ilədək dövlət işlərini idarə etmiş, elə həmin ildə qəflətən hakimiyyətdən kənar edilərək edam olunmuşdu. Mənbələrdə göstərilir ki, Hüseyn xan Şamlı I Şah Təhmasibi zəhərləmək məqsədilə sui – qəsd hazırlanmaqda təqsirləndirilmişdi. I Şah Təhmasib Heratda ikən Hüseyn xanın həmtayfası olan Başdan Qara adlı bir nəfər şahın piyaləsinə zəhər tökmək üçün cəhd göstərmişdi. Hüseyn xanın tərbiyəçisi (lələsi) olduğu qardaşı Sam Mirzənin xeyrinə I Şah Təhmasibi devirməyə yönəldilmiş fəaliyyətdə ittiham etmişdilər. Həmçinin Sam Mirzənin xəyanəti barədə xəbər verən "Şərəfnamə"yə görə, Sam Mirzə özünü I Sultan Süleymanın vassalı kimi tanımışdı[26]. Hüsen xandan məmləkətə soxulmuş türklərlə əməkdaşlıq etməkdə,düşmənin tərəfinə keçmək niyyətində olmaqda şübhələnirdilər. Həsən bəy Rumlunun göstərdiyi kimi, Hüseyn xanın hazırlanmaqda olan xəyanəti barədə şaha xəbər veriləndə Hüseyn xan onun əmrilə saraya çağırılmış və "parça – parça doğranmışdı"[27].

Hüseyn xan Şamlının ölümü ilə qızılbaş feodallarının on il müddətində - 1524-cü ildən 1534-cü ilədək davam etmiş ağalığı başa çatdı. Şübhə yoxdur ki, şamlı əyanlarının hakimiyyəti tezliklə dövlət işlərindən sıxışdırılıb uzaqlaşdırılmş digər tayfa əyanlarının


downloaded from KitabYurdu.az

narazılığına səbəb olacaqdı. Həm də I Şah Təhmasibib özü artıq böyümüşdü, qızılbaş əmirlərinin sıxıntılı himayəsindən qurtulmaq və nəhayət, dövlət işlərini öz əlinə almaq qərarına gəlmişdi. Hüseyn xanın edam olunması və vəkil vəzifəsinə Qazi Cahan Qəzvininin təyin edilməsi I Şah Təhmasibin mərkəzi hakimiyyəti gücləndirmək və möhkəmləndirmək qətiyyətini göstərirdi.

## Osmanlı Türkiyəsi ilə Səfəvilər dövləti arasında müharibənin başlanması

I Səlim dövründə Osmanlı Türkiyəsinin Azərbaycanı zəbt etmək cəhdləri, gördüyümüz ki, müvəffəqiyyətli olmadı. Osmanlılar Səfəvilər dövlətinin içərilərinə irəliləyib onun öaytaxtı Təbrizi tita bilsələr də burada qala bilmədilər.

I Sultan Süleyman Qanuni (1520-1566) dövründə də Osmanlı hakim dairələri şərq istiqamətində ərazilərini genişləndirmək cəhdlərindən əl çəkmədilər. Avropa qitəsində, xüsusilə də Macarıstanda və Avstriyada Türkiyənin istilalarına müqavimət artdiqca Osmanlı imperiyasının Şərqdə ilhaqçılığı güclənirdi.

Müharibə bu dəfə Ərəb İraqına sahib olmaq uğrunda alovlandı[28]. Hicri 934 (1528-ci ilin axırında)-cü il Luristanda Kəlxur hakimi, Noxud Sultan Mosullu adı ilə tanınan Zülfüqar xan Əli bəy oğlu Səfəvilər əleyhinə qiyam qaldırdı, dayısı İbrahim xanın hakim olduğu Bağdada hücum etdi, onu ğldürüb bütün nəslini qırdı və Ərəb İraqını tamamilə özünə tabe etdi. Sonra Zülfüqar şəhərin açarlarını türk sultanına göndərərək onun tabeliyinə keçdi[29].

Hicri 935 (1529)-ci ildə I Şah Təhmasib böyük ordu ilə Bağdada yeridi. Möhkəm Bağdad qalasını tutmaq o qədər də asan iş deyildi və mühasirə uzun çəkdi. Nəhayət, şəvvalın 3 (10 iyun)-də


downloaded from KitabYurdu.az

Zülfüqar xan şahın adamları tərəfindən qalada öldürüldü, onlar qapıları açıb şahı şəhərə buraxdılar. Bağdadın idarə olunması xan rütbəsi ilə birgə Məhəmməd Sultan Şərəfəddin oğlu Təkəliyə tapşırıldı[30].

Hicri 938 (1531-1532)-ci ildə Üləma bəy Diyarbəkirin Osmanlı hakimi Fil Yaqub paşanın 50 min nəfərlik qoşununun köməyilə yerli hakim Şərəf xanı Bidlisdən sıxışdırıb çıxartdı və o da yardım üçün qızılbaş sarayına müraciət etdi. "Təzkirə"də deyilir ki, Şah Təhmasib öz müvəkkili İstanbula göndərib Üləma bəyin təslim olunmasını tələb etdi. Lakin sultan rədd cavabı verdi və öz növbəsində Şərəf xanın ona təslim olunması tələbini irəli sürdü[31]. Şah sultanı barışdırmağa daha bir dəfə cəhd göstərərək vəkil Hüseyn xan Şamlının başçılığı ilə yeni elçi heyətini onunla danışığa göndırdi. Lakin Üləma bəyi Şərəf xanla dəyişmək təklifi qəbul olunmadı. Sultan barışmaz mövqe tutdu. Belə olduqda şah Üləmaya qarşı qoşun göndərib Bidlisi geri aldı. Bundan az sonra qızılbaşların Übeydulla xana qarşı Xorasana yürüşündən istifadə edən Üləma bəy hicri 940 (1533)-cı ildə təkrarən Bidlisə hücum etdi. Şərəf xan öldürüldü, şəhər Üləmanın əlinə keçdi[32].

## I Sultan Süleymanın Azərbaycana ilk yürüşü

Mənbələrdə deyilir ki, Üləma bəy Osmanlı sultanın Azərbaycana və İraqa yürüş etməyə sövq edirdi. O, şahı əmin edirdi ki, indi şahın başlıca qüvvələri özbəklərin Xorasana basqınını dəf edirlər və xondkarın (yəni sultanın) qızılbaş qoşunlarının olmadığı ölkəni ələ keçirməsi çətin olmayacaqdır. 1534-cü ilin yayında Sultan Süleyman çox böyük ordu ilə Azərbaycana hərəkət etdi. Ordunun ön dəstəsini böyük vəzir İbrahim paşanın 90 min nəfərlik qoşunu təşkil edirdi. Üləma bəy 10 min nəfərlə irəli çıxarılmışdı.


downloaded from KitabYurdu.az

Üləma ilə əlaqəsi olan bəzi qızılbaş əyanları Səfəvilərə xəyanət edərək düşmənin tərəfinə keçdilər. Məsələn, Musa sultan Mosullunun[33] vəziri Xacə Şahqulu öz adamlarını sultanın yanına göndərərək onu Təbrizə dəvət etmişdi. Qəfildən yaxalanmış Musa Sultan qoşunların arasında yayılmış taun xəstəliyi üzündən paytaxtı tərk etməyə məcbur oldu[34]. Üləma bəy, Osmanlı qoşunları ilə Təbrizə daxil oldu. Bir neçə gündən sonra İbrahim paşa şəhərin yaxınlığında öz düşərgəsini saldı. Üləma Ərdəbilə, Osmanlı sərkərdəsi Xosrov paşa isə Əlincə qalasını ələ keçirməyə göndərildi. Cənubi Azərbaycanın bir çox yerləri türklər tərəfindən tutuldu[35].

Türk mənbələrinə görə,Sultan Süleymanın ilk yürüşü zamanı İbrahim paşanın hərbi hissələri hicri 940-cı il zilhiccənin 1-i (1534-cü il iyunun 13-də) Təbrizə daxil olmuşdular[36]. Süleymanın da olduğu Osmanlıların əsas qüvvələri iə şəhərə sentyabrın 27-də çatdılar[37].

Osmanlı qoşunları Təbrizdə olduqları zaman işğalçıların zülm və zorakılığı nəticəsində şəhərdə çoxlu iğtişaşlar baş verdi. Türk əsgərl\ri şəhərliləri qarət edir və öldürürdülər. Sünni üləmaları isə bu cinayətləri şiələrə qarşı yol verilən hərəkətlər kimi qanuniləşdirirdilər[38].

Düşmənin basqını barədə məlumat alan şah Xorasandan hərəkət etdi və Reyə çatdı. Qızılbaşların atları və təvələri məsafəni sürətlə qət edərək gücdən düşmüşdülər. Bu üzüntülü yol onların bir çoxunu sıradan çıxarmışdı. Üstəlik dəşah qoşununun sayı 7 min nəfərdən çox deyildi. Halbuki sultanın ordusu, Həsən bəy Rumlunun obrazlı ifadəsinə görə, "səhranın qum zərrələrindən və payız yarpaqlarından daha çox" idi. Şah Qəzvinə, oradan isə Əbhərə hərəkət etdi və burada əmirlərin müşavirəsini çağırdı. Onlardan hər biri öz fikrini söylədi. Hüseyn xan Şamlı dedi: "Bizim atlarımız əldən düşmüşlər, biz Rum qoşununun qarşısına çıxa bilmərik". I Şah Təhmasib ona belə cavab verdi: "Məgər mən dedim ki, biz rumlularla üz-üzə vuruşmaq istəyirik? Mən atamın


downloaded from KitabYurdu.az

qaydası ilə gedə bilmərəm. Bu düşmən çox güclüdür"[39].

Sultan Süleyman I Şah Təhmasibə göndərdiyi məktubda onu qorxaqlıqda təqsirləndirdi və döyüşə başlamağı təkid etdi. Şah cavabında yazdı ki, o, ağlını itirməyib, bir qızılbaşa qarşı on türkün dayandığı qeyri – bərabər şəraitdə düşmənlə vuruşa bilməz[40].

Bəhram Mirzənin başçılığı ilə qızılbaşların irəlidə gedən hissələri Qızılüzən çayının sahilindəki Qaraağac yaxınlığında İbrahim paşanın qoşunları ilə üz-üzə gəldilər. Qızılbaşlar döyüşə-döyüşə dağa doğru geri çəkilməyə məcbur oldular. Ardı-arası kəsilməyən axınla gələn Osmanlı qoşunları qızılbaşların sıralarını sarsıdırdı və onlar şah düşərgəsinə doğru çəkilirdilər. Bu vaxt KuhKiluyə (Fars) hakimi Əvənd xan Əfşar yeni qüvvələrlə şah qərargahına gəldi. Sultan Süleymanın çox böyük qoşunla Miyanəni keçərək Sultaniyyəyə çatması barədə xəbər alındı. Bu təhlükəli anda qızılbaş əmirlərim arasında ixtilaflar baş verdi. Məhəmməd xan Zülqədər oğlu, Hüseyn xan Təkəli və başqaları düşmənin tərəfinə keçdilər. Şah, Hüseyn xan Şamlıya, Qazi xan Təkəliyə və Məlik bəy Xoyluya da inanmırdı və bu onu düşmən qoşunları ilə vureşa girməkdən çəkinməyə məcbur edirdi.

Payızın sonunda Sultaniyyə ərazisində bərk qar yağdı və güclü şaxtalar düşdü. Osmanlı ordusu şiddəətli soyuqlar və azuqə çatışmazlığı üzündən böyük itkilər verdi. Osmanlılar qızılbaşların artilleriyanı ələ keçirmələrinin qarşısını almaq üçün yüzə qədər topu tollrda yandırdılar[41]. Sultan qışlamaq üçün Bağdada tərəf döndü, Üləmanı isə Təbrizə göndərdi. Sultanın Bağdada getmək cəhdini əsirlərdən öyrənən Şah Təhmasib  Təbrizə hərəkət etdi. Bu vaxt Qazi xan Təkəli şaha xəyanət etdi və ondan əvvəl Təbrizə gələrək şah ordusunun yaxınlaşdığını xəbər verdi. Onlar qaçaraq hündür qüllələri və divarları olan, hər tərəfdən dərin xəndəklərlə əhatə olunmuş Van qalasında gizləndilər. Qızılbaş qoşunları qalanı mühasirəyə aldılar.  Mühasirə qış qurtaranadək uzandı[42].

Qızılbaşların qalanı tutması ərəfəsində şaha, xondkarın "öz


downloaded from KitabYurdu.az

oğlu" adlandırdığı və "Əcəm" hakimi kimi tanıdığı qardaşı Sam Mirzənin xəyanəti haqqında xəbər verdilər. Buna görə də şah mühasirədən əl çəkdi, tələsik Azərbaycana yola düşdü.

Bu zaman Süleyman böyük çətinliklərlə Şəhrizurdan keçərək Bağdada yaxınlaşdı. Şəhərdəki iğtişaşlar onun hakimi Məhəmməd xan Şərəfəddin oğlu Təkəlini şəhəri heç bir müqavimət göstərmədən türklərə verməyə məcbur etdi. Həmin hadisələrin iştirakçısı olmuş Budaq Qəzvininin dediyinə görə, Süleymanın yaxınlaşması barədə xəbərlər alındıqda Məhəmməd xan öz "ağalarını" bir yerə toplayıb yaranmış vəziyyət haqda məlumat verdi. Təqribən 3 min nəfər olan təkəli tayfası şaha imtina etdi, lakin bildirdi ki, Bağdadı sultandan müdafiə edəcəkdir. Onları yola gətirməyin mümkün olmadığını görən Məhəmməd xan bildirdi: türklərin tərəfini saxlayanlar, arvad – uşaqları və əmlakı ilə şəhərdən çıxmalıırlar. 700-ə qədər ailə şəhəri tərk etdi. Yerdə qalanlara ümid bəsləyən xan yenidən adamlar müraciət etdi və bu dəfə də o etirazla qarşılandı. Təkəli tayfası şahdan üz döndərmişdi. Belə olanda xan iğtişaş və ədavət salanlardan yaxa qurtarmaq üçün hiyləyə əl atdı. O bildirdi ki, şahın yanına getmək arzusundan əl çəkmişdir və qalanı türklərə təslim etmək istəyir. Xana tabe olmayan başçılar məktub və və qala açarları ilə Sultanın yanına göndərildi. Bundan sonra Məhəmməd xan ona sadiq olan adamlardab ibarət dəstə ilə qaladakı ehtiyatlar od vurdurdu, qalan əmlakı çapıb – talayaraq döyüşə-döyüşə Dəclə çayının sağ sahilinə keçdi[43].

## I Sultan Süleymanın Azərbaycana ikinci yürüşü

Hicri 941 (1534-1535)-ci ilin qışını Bağdadda keçirən Sultan Süleyman 1535-ci il yazın əvvəlində Təbrizə hərəkət etdi. Bundan əvvəl şah, sakinləri Təbrizdən köçürmüş, şəhəri boşaltmışdı. Həmin


downloaded from KitabYurdu.az

ərazidə yaşayan tayfalar İraqa və Farsa köçürülmüşdü. Suvarma kanalları və kəhrizlər torpaqqla doldurulmuşdu. Taxıl (qəllat) və əkinlər (məzruat) yandırılmış, yerdə qalan nə varsa, mal-qaraya yedizdirilmişdi. Bu tədbirləri gördükdən sonra şah Sultaniyyəyə çəkildi. Onun arxasınca türk qoşunları Təbrizə daxil oldu. Şah sultan və İbrahim paşa ilə sülh danışıqlarına başlamq üçün iki dəfə öz səfirlərini onların yanına göndərdi, lakin rədd cavabı aldı. Şah qoşunları Sultaniyyədən Dərəcəzinə gedən yolda əkinləri yandırdılar. Türk ordusu Sultaniyyə ərazisinə çatanda aclıq və baş verən taun xəstəliyi sultanın canlı qüvvəsinə böyük tələfat verdi. Burada (Dərəcəzində) qızılbaşların irəlidə olan hissələri (çərxçiyan) Əmir Sultan Rumlu və Çıraq Sultan Ustaclının başçılığı ilə rumluların qoşunları ilə toqqudular. Osmanlılar qızılbaşlara hücum etdilər, lakin məğlub oldular. Ağır vəziyyətə düşən türk qoşunları geri çəkilməyə başladılar.

Bəhram Mirzə bir dəstə əmirlə-Məntəşə Sultan, Əmir Sultan, Şahqulu xəlifə möhrdar, Məhəmməd Əmin bəy Süfrəçi ilə birlikdə İbrahim paşanı təqib etmək üçün göndərildi.Halbuki, şah özü Van qalasına yola düşmüşdü. Qalada mühasirəyə düşmüş osmanlılara yardım göstərmək üçün sultan Diyarbəkir hakimi Məhəmməd paşanı və Üləmanı 2 min nəfərlik yeniçəri və 10 minlik süvari ilə ora göndərdi. Onlar Vostan yaxınlığında türkman tayfasından olan şah qorçiləri ilə qarşılaşdılar. Xain Üləmanın yaxınlıqda olması xəbərini alan şah 2 min nəfərlə onun üzərinə yeridi.

Üləmanın dəfələrlə xəbərdarlıq etməsinə baxmayarq, Məhəmməd paşa özünün sayca üstünlüyünə arxalanıb yenişəriləri ön sırada yerləşdirərək qızılbaşlarla döyüşə girməyi qərara aldı. Lakin Şiraz hakimi Qazi xan Zülqədər türkman və zülqədər tayfalarından olan qorçılər dəstəsi ilə düşmənə hücum etdi. Həsən bəy Rumlunun sözləri ilə desək, “bir anda dörd yüzə qədər türk qızılbaşlar tərəfindən öldürüldü və onların başları şah atının ayaqları altına atıldı”. Sultanın bir neçə əyanı əsir alındı.


downloaded from KitabYurdu.az

Qızılbaşlar düşməni Bidlisədək təqib etdilər. Onlar böyük qənimət ələ keçirdilər. Bəhram Mirzə əmirlərlə Ərcişə yola düşdü. Oranın müdafiəçiləri qızılbaşları qalanın qarşısında qarşıladılar. Qızılbaşların hücumuna davam gətirməyən türklər qalaya çəkilib sultandan kömək göndərməsini xahiş etdilər. Xondkar buraya Sinan paşa başda olmaqla qoşun göndərdi. Lakin Budaq xan Qacarın dəstəsi onları qarşılayarq darmadağın etdi. Sinan paşa və başqa Osmanlı sərkərdələri ilə birlikdə yüzlərlə türk məhv edildi. Onların başları Van yaxınlığında olan şaha çatdırıldı. Sinan paşanın həlak olmasından xəbər tutan Sultan Süleyman öz ordusunun seçmə hissələrini İbrahim paşanın başçılığı altına keçirdi və Ərcişdə mühasirədə qalanlara köməyə göndərdi. Lakin qızılbaşlar İbrahim paşanın göndərdiyi dəstəni də darmadağın etdilər. Bundan sonra İbrahim paşa qalanın sakinlərini də özü ilə götürərək oranı tərk etdi. Beləliklə, Van və Ərciş əraziləri şahın əlinə keçdi[44].

## Sonuncu Şirvanşahlar.
## Şirvanın Səfəvilər dövlətinə birləşdirilməsi

Osmanlı Türkiyəsi ilə müharibədə yaranmış fasilədən istifadə edən I Şah Təhmasib Şirvanı öz dövlətinə birləşdirdi. Şirvanşah II İbrahim Şeyxşahın üç oğluqalmışdı: Sultan Xəlil, Məhəmməd Mirzə və Müzəffər Mirzə[45]. Şirvan taxtı I Şah İsmayıln qızı Pərixan xanımla evlənmiş Şeyxşahın böyük oğlu Sultan Xəlilə, yaxud onun rəsmi adı ilə deyilərsə, II Xəlilüllaha keçdi.

I Şah Təhmasib Şirvanın Təbriz taxtına tam tabe edillməsi planını çoxdan idi ki, hazırlamışdı və öz niyyətini həyata keçirmək üçün əlverişli fürsət axtarırdı. II Xəlilüllah bundan əvvəl qızılbaşlar tərəfindən darmadağın edilmiş Gilan Biyəpəs hakimi Əmire Dubaca[46] Şamaxı sarayında sığınacaq vermişdi. Şahın elçiləri Şamaxıya gələrək qaçqının təlim olunmasını tələb etmişdi. Lakin II


downloaded from KitabYurdu.az

Xəlilüllah rədd cavabı vermişdi. Həmçinin məlumatlar vardır ki, bu şirvanşah 1534-cü ildə Təbrizi tutmuş türk sərkərdəsi İbrahim paşaya qiymətli hədiyyələr göndərmişdi[47].

1535-ciildə oğlu olmayan II Xəlilüllahın vəfat etməsi ilə Şirvan taxtı varissiz qalmışdı. Buna görə də Şirvan əyanları II Xəlilüllahın qardaşı oğlu Şahruxu qaldığı "Şamxal ölkəsində " dərhal paytaxta-Şamaxıya gətirdilər və taxta oturtdular[48].

Lakin ölkədə hakimiyyət azyaşlı Şahruxun adndan fəaliyyət göstərən Hüseyn bəy adlı vəkilin başçılıq etdiyi Şirvan əyanlarının əlində cəmlənmişdi. Feodal əyanlarının özbaşınalığı baş alıb gedirdi. İsgəndər Münşi göstərir ki, Şirvanda "qayda-qanundan əsər qamamışdı, iğtişaşlar və asayişin pozulması bu ölkədə adi hal aldı"[49].

Bu vaxt Mahmudabaddan və Salyandan qələndər çıxış etməyə başladı və "saysız-hesabsız qoşunla" Şirvanın paytaxtına hərəkət etdi. Əmirlər arasında birliyin olmaması və qoşundakı çəkişmələr, Şirvan əyanlarını Şamaxı sarayını qələndərə müqavimət göstərmədən təslim etməyə və alınmaz sayılan Buğurd qalasında gizlənməyə məcbur etdi. Üsyançılar müqavimətə rast gəlməyərək Şamaxını ələ krçirdilər. Lakin aydın məqsədləri, möhkəm rəhbərliyi olmadığı üçün onlar öz hakimiyyətlərini təşkil edəbilmədilər və buna görə də şəhərdə 40 gündən ertıq qala bilmədilər"[50]. Qələndərin geri çəkilməsi xəbəri Buğurda çatanda Şirvan əyanları Şahruxla bərabər qaladan çıxdılar və üsyançıları təqib etməyə başladılar. Şahrux Salyandan bir qədər aralıda qələndərə çatdı. Baş vermiş döyüşdə üsyançılar darmadağın edildilər[51].

Mənbələrdə bu hadisənin dəqiq tarixi yoxdur. Budaq Qəzvini üsyanın tarixini göstərmir. Üsyan haqqında daha çox təfərrüatla danışan Hürşah qış soyuqları mövsümünə işarə vurmaqla kifayətlənir. Həsən bəy Rumlu üsyanı hicri 944 (1537-1538)-cü ildə baş vermiş hadisələrə aid edir ki, bu da 1537-ci ilin


downloaded from KitabYurdu.az

sonu və 1538-ci ilin əvvəlinə düşür.

Budaq Qəzvininin qələndərin çıxışı barədəki məlumatları İ.P.Petruşevskinin baş vermiş üsyanın ümumxalq xarakteri haqqında çıxardığı nəticələri təsdiq edən bəzi mühüm təfsilatlara malikdir[52]. Şivanşah II Xəlilüllahın vəfatından sonra "bir nəfər qələndər peyda oldu və dedi ki, mən Məhəmməd Əminəm, cam yaxınlığında özbəklərin əlinə keçmiş və qələndər qiyafəsində xilas olmuşam". Budaq Qəzvini izah edir ki, Məhəmməd Əmin Sultan Xəlilinn (yəni II Xəlilüllahın) qardaşı idi və I Şah Təhmasibin yanında qulluq edirdi. Bu qələndər isə əvvəllər Məhəmməd Əminin mülazimi (xidmətçisi) olmuşdu. Tarixçi üsyanın gedişi haqqında qısaca belə deyir: "Xalq ona qoşuldu və onu taxta çıxartdı"[53].

Şirvanda hərc-mərclik, vətəndaş müharibəsi buradakı islərə qarışmaq üçün bəhanə axtaran I Şah Təhmasibin xeyrinə idi. İ.P.Petruşevskinin düzgün olaraq qeyd etdiyi kimi,II Xəlilüllahın dul qalmış qadını-Pərixan xanım öz qardaşı I Şah Təhmasibin gizli təlimatları ilə hərəkət edərək qələndərlə əlaqəyə girdi və onun Şirvan taxtına olan iddialarını müdafiə etdi. Şahın bacısının qələndərlə yaxınlaşmasına işarə edən Budaq Qəzvininin məlumatına görə, qələndəri hətta Pərixan xanımla evləndirmək istəmişdilər. Lakin şah buna razı olmamışdı. Bundan sonra "qələndərin işi çətinləşmiş və o ölmüşdü, Şirvanda hakimiyyət isə şahın bacısının əlinə keçmişdi"[54].

Səfəvi şahının Təbrizdə camaatın gözü qarşısında qələndərin meyitini təhqir etməsi olduqca səciyyəvidir. Budaqın sözlərinə görə, meyit qəfəsdə yerləşdirilmi. Və "pozğun ünsürlərin"- "lütlərin" və "qaragüruhşu" kütləsinin müşayiəti ilə təhqirlərdən sonra mərkəzi Qeysəriyyə bazarına gətirilmişdi. Burada meyit nümayiş etdirmək üçün qoyulmuşdu. Xüsusi olaraq hazırlanmış yerlərdə şah, əmirlər və musiqiçilər əyləşmişdilər. Muzdla şeir yazanlar acı həcvlər qoşur, xalq başçısını hər vasitə ilə lağa qoyurdular. Meyitin olduğu qəfəs bir neçə gündən sonra


downloaded from KitabYurdu.az

Sahibabad adlanan baş meydana aparılmış, minarədən asılmış və yandırılmışdı[55].

Qələndərə divan tutulduqdan sonra Pərixan xanım Təbrizə gələrək öz qardaşını xəbərdar etdi ki, Şirvanda “pozğunluq və çaşqınlıq hökm sürür və oranı istila etməyin vaxtı çatmışdır”[56]. Qorçibaşı Padar[57] hərbçı dəstə ilə Şirvandan Təbrizə gəldi, kömək üçün I Təhmasibə müraciət etdi və onu ölkədə “asayişi” bərpa etməyə çağırdı. 1538-ci ilin yayında, şahın qardaşı Əlqas Mirzə 20 minlik ordu, həmçinin Qarabağ və Muğanın qoşun dəstələri ilə Şirvana daxil oldu[58]. “Həmin ölkədə bütün giriş və çıxışlara yaxşı bələd olan” adı çəkilən Padar ordunu müşayiət edirdi. Surxab, Qorci qalaları, habelə Qəbələ tutuldu. Sonra qızılbaşlar Gülüstan və Buğurd qalalarına hırıkıt etdilər. Şirvan əyanları Buğurd qalasına sığındılar. Buğurd (yaxud Qəle-yi Buğurd) Hürşahım məlumatına görə, “böyük və meşələrlə əhatə olunmuş dağda yerləşirdi”[59]. Ərzaq çatışmazlığından və xəstəliklərdən əziyyət çəkən qala sakinlərinin aöır vəziyyətinə baxmayaraq, Buğurdun mühasirəsi bir neçə ay çəkdi. Müdafiəçilərin mətinliyi xəbəri şaha gəlib çatdı və o, böyük qoşunla qala divarlarına yaxınlaşdı. İndi qızılbaş qoşunlarının da malik olduğu toplar işə salındı və qalanın müdafiəçiləri müqaviməti dayandırdılar. Onlar qaliblərin mərhəmətinə tabe oldular. Qəle-yi Buğurd şirvanlıların ənənəvi olaraq xəzinə saxlanılan anbarı idi və Hürşahın söylədiyinə görə, orada saxlanılan pulun, qiymətli daş0qaşın və malların sayı-hesabı yox idi. I Şah Təhmasib bütün bunları şəxsən müsadirə etdi[60]

I Şah Təhmasib iğtişaşların səbəbkarları və Şirvan əhalisini sıxışdıranlar ilə mübarizə aparmaq bəhanəsi ilə yerli əyanların çoxlu nümayəndələrini (o cümlədən də, vəkil Heseyn bəyi) edam etdirdi. Onların əmlakını müsadirə etdi, torpaqlarını qızılbaş tayfalarının yuxarı təbəqələrinə verdi. Şahrux Təbrizə aparıldl və bir qədər sonra edam edildi[61].

Beləliklə, varlığına son qoyulmuş Şirvanşahlar dövləti


downloaded from KitabYurdu.az

Səfəvilər dövlətinin bəylərbəyliklərindən biri kimi onun tərkibinə daxil oldu. Şahın qardaçı Əlqas Mirzə Şirvanın birinci bəylərbəyi oldu. Şirvan əyanları hələ uzun müddət baş vermiş bu gerçəkliklə və imtiyazlarının itirilməsi ilə barışa bilmirdilər. Sülalənin ayrı-ayrı nəsillərinin itirilmiş səltənəyi bərpa etmək səyləri sonralar, Azərbaycanı ələ keçirməyə cəds göstərən Osmanlı sultanları tərəfindən istifadə olunmuşdu[62]. Şirvanın Azərbaycan Səfəvilər dövlətinin tərkibinə daxil olması Azərbaycan xalqının tarixində obyektiv olaraq müsbət rol oynadı. Ölkənin cənub və şimal vilayətlərinin Azərbaycan Səfəvilər dövlətinin hüdudlarında birləşməsi Azərbaycanın sonrakı iqtisadi və mədəni yüksəlişinə şərait yaratdı.

## Şirvan bəylərbəyi Əlqas Mirzənin qiyamı

Yeni Osmanlı basqını ərəfəsində Şirvan bəylərbəyisi, şahın qardaşı Əlqas Mirzənin qiyamı Səfəvilər dövlətinin vəziyyətini mürəkkəbləşdirdi. Yerli Şirvan əyanlarının separatçılığından istifadə edən Əlqas Mirzə özünü müstəqil dövlət başçısı elen etmək qərarına gəldi.

Hicri 952-ci ilin sonunda (1546-cı ilin əvvəlində) Qəzvində qışlama zamanı Şirvandan qaçmış Oruc Ağa Rumlu adlı bir şəxs şahın yanına gələrək Əlqas Mirzənin hazırladığı qiyam barədə ona məlumat verdi. Bu xəbər sarayda müzakirə edildiyi bir zaman, Əlqas Mirzədən qaçmış Zeynal xanın oğlu, möhrdar olmuş Sultan Mahmud Mirzə və Kərəm Mirzə gəlib çıxdılar, artıq qiyam hazırlandığına şübhə qalmadı. Lakin Budaq Qəzvininin xəbər verdiyi kimi, əmirlər belə bir fikir söylədilər ki, özlərini məlumatsız kimi qələmə verib qaçanları həbs etsinlər və Əlqas Mirzəyə göndərsinlər. Şah onların fikri ilə razılaşmadığını bildirdi.


downloaded from KitabYurdu.az

"Bu nə söhbətdir? Onlar bu mənfurun tuğrası olan və mənim əvəzimdən möhür vurmuş fərmanını bura çatdırdıqdan sonra mən necə yol verə bilərəm ki, mənə qarşı səmimi olduqlarını ifadə edərək yanıma gəlmiş adamlar məhv edilsinlər. Əgər mən belə edərəmsə, bundan sonra heç kəs mənim yanıma gəlməz". O, elə oradaca Sultan Mahmuda xanlıq, Oruc ağaya isə mehmandar vəzifəsi bağışladı[63].

1546- cı ilin yazında I Şah Təhmasib qoşunla Təbrizə hərəkət etdi və Əlqas Mirzə ilə danışıqlar aparmaq üçün Ürgənc oğlunu Şirvana göndərdi. Əlqas Mirzə əvvəlcə itaət göstərməkdən imtina etdi. Lakin şahın öz qoşunları ilə yaxınlaşdığını biləndə, anası Xanbəyi xanımı bə böyük oğlu Sultan Əhmədi şah sarayının yerləşdiyi Çərəndaba göndərdi. Ana öz oğlunun peşman olduğunu və bunun bir daha təkrar olunmayacağı barədə vəd verməklə bağışlanmaq xahişini şaha xəbər verdi. Şah Xanbəyi xanımla birlikdə öz müvəkkillərinin eçikağası  başı Seyid bəy Məhəmməd Kəmunəni, qurçibaşı Sevindik bəy Əfşarı, möhrdar Şahqulu bəy Zülqədəri, divan əmiri Bədr xan Ustaclını, Ərdəbil türbəsinin mütəvəllisi Məsum bər Şeyxavəndi (Səfəvini) və digər adlı-sanlı adamları danışıqlar aparmaq üçün Əlqas Mirzənin yanına göndərdi. Əlqas Mirzə ilə görüş Cavadda oldu. Əlqas Mirzənin ən yaxın adamlarından olan bəzi əmirlər onu dilə tutdular ki, şahın elçilərini həbs etsin. Lakin obuna razı olmadı.I Şah Təhmasibib elçiləri ona hər il xəzinəyə min Təbriz tüməni məbləğində pul verməsi və hərbi xidmət üçün min atlı göndərməsi barədə öhdəlik götürməsi haqqında and içdirdilər. Qarşıdan gələn qışda "kafirlərin ölkəsinə" yürüşlər keçirmək barədə razılıq əldə edildi. Hicri 953-cü ilin qışında (1547-ci ilin əvvəlində) I Şah Təhmasib böyük qoşunla Şuragöldən keçərək Gürcüstana hərəkət etdi. Eyni vaxtda Əlqas Mirzə də həmin məqsədlə "çərkəz diyarına" yola düşdü.Lakin əmirlər Şirvandan qayıtdıqdan sonra paytaxtda qızılbaş əyanları arasında[64] baş vermiş tayfa münaqişəsindən istifadə edən Əlqas


downloaded from KitabYurdu.az

Mirzə yenidən özünü müstəqil hakim elan etdi və öz adından məclislərdə xütbə oxutdurdu, pul zərb etdirdi. Buna görə də I Şah Təhmasib Gürcüstandan qayıdarkən özünün qiyamçı qardaşı ilə hesablaşmaq qərarına gəldi. Şah Gürcüstan yürüşündən qayıdarkən Gəncədən keçdi,Yevlax adlanan yerdə dayandı. O, buradan 5 min atlı ilə İbrahim xan Zülqədəri, Hüseyncan Sultan Rumlunu, Göyçə Sultan Qacarı, Şahverdi Sultan Ziyad oğlunu, Xacə Basanı Şamaxıya göndərdi. Əlqasın əmiri Mehtar Dövlətyar bundan xəbər tutub Əlqasın ailəsini də özü ilə götürdü və Gülüstan qalasında gizləndi. Şahın əmirləri qalanı mühasirəyə aldılar. Zilhiccənin 11-də (fevralın 2-də) Qoyun ölümü keçidinin yanında Kürü keçdiƏrəşi ötərək Əli Şabana (?)[65] gəldi. Şah Süleyman Çələbi adlı bir şəxsi 600 nəfərlik dəstə ilə Gülüstan qalasının cənubundan Dərbənd üzərinə göndərdi. O, qaladan bir fərsəx (6-7 km) aralı Qəbələ kələntərinin dəstəsi ilə toqquşdu və onu darmadağın etdi Süleyman Çələbi Dərbənd divarları arxasında gizlənmiş Sarı Kəymasibi və Dəli Kəymasibi də məğlubiyyətə uğratdı.

Eyni zamanda Əlqas Mirzə şahın elçiləri ilə Cavadda görüşdükdən sonra altı minlik qoşunla Dərbənddən Cənubi Dağıstana (Diyari-Çərkəzə) hərəkət etdi. Həsən bəy Rumlunun məlumatına əsasən, burada soyuqlar düşdüyündən Əlqasın qoşunu müvəffəqiyyət qazanmadı. Əlqas geri qayıdarkən "çərkəçlərlə" döyüşdə məğlub oldu. Bu yürüşdə iştirak etmiş Şəki xanı Dərviş Məhəmməd xanın qardaşı Şahnəzər də nizə ilə vurulub atdan salındı və həlak oldu. Pərvəndi Ağa Rumlu və Əlqas Mirzənin bir çox yaxın adamları da həlak oldular. Bu qələbədən ruhlanan "çərkəzlər" öz qüvvələrini toplayıb yenidən Əlqasa hücum etdilər, lakin bu dəfə geri çəkilməyə məcbur oldular. Əlqas seyrəlmiş qoşunu ilə Şamxalın mülkü Tarkudan keçərək Dərbəndə çatdı.

Burada Əlqas Mirzə xəbər tutdu ki, I Şah Təhmasib otuz min nəfərlik ordu ilə Şirvandadır. Əlqas Mirzə Sarı Keymasibin və


downloaded from KitabYurdu.az

Dəli Keymasibin başçılığı ilə dəstəni şaha qarşı göndərdi. Onlar Samur çayının sahilində  Şahverdi Sultan Ziyad oğlu Qacar, Məhəmməd bəy Türkman, Süleyman bəy Çələbi Çəpni və Məhəmməd bəy Şirbəxt oğlu Talı.ın qoşunları ilə qarşılaşdılar və darmadağın edildilər. Əlqasın Məhəmməd bəy Əfşarın başçılığı altında olan başqa bir dəstəsi Qəbələdə darmadağın edildi. Əlqasın qayıtması xəbərini alan şah, Şahqulu Xəlifə möhrdarı, Bədr xan Ustaclını, Hüseyncan Sultan Rumlunu və Çıraq Sultan Ustaclını Dərbəndə yolladı. Əlqas Xınalığa qaçdı. Qoşun kütləvi şəkildə çahın tərəfinə keçməyə başladı. Əlqas öz qoşunlarının qalığı ilə Xınalıqdan şimala hərəkət etdi və Samur çayını keçdi. Qızılbaşların irəlidə gedən hissələri təqibə başlayaraq, "Şirvanın dağətəyində", Axtı mahalının Miskincə kəndində ona çatdılar və qoşununu darmadağın etdilər. Əlqas döyüşdə yaralandı, kiçik dəstəsi ilə dağlarda gizlənə bildi və özünü Şamxalın ölkəsinə çatdırdı. Sonra o, azov dənizinə keçərək Kəfəyə (Feodosiyaya) gəldi, oradan isə İstanbula yola düşdü[66].

Əlqas qaçdıqdan daha bir müddət sonra onun yaxın adamları Gülüstan və Dərbənd qalalarında şah qoşunlarına müqavimət göstərdilər. Mehtər  Dövlətyar Gülüstan qalasında şah qoşunlarına müqavimət göstərirdi. Mühasirəyə alınanlar şahın danışıqlar üçün göndərdiyi elçini edam etdilər. Qızılbaşlar üç ay müddətində demək olar ki, alınmaz olan qalanı heç bir nəticə əldə etmədən mühasirədə saxladılar. Həsən bəy Rumlu göstərir ki, qala qadınların köməyi sayəsində tutuldu. Dövlətyarın əlindən qəzəblənmiş qadınlar alaçıq kəndirlərini şamlı qorçilərinə ataraq onları qala divarlarının üstünə qaldırdılar. Gülüstan qalası alındı və şahın əmri ilə dağıdıldı. Şahqulu Xəlifə və Hüseyncan Sultan Dərbəndin yanından keçərək Qaytağı viran etdilər, sakinlərdən qarət etdikləri böyük qənimətlə geri döndülər[67].

Bəhram Mirzə və Abdulla xan Ustaclı qoşunla Dərbəndi mühasirəyə alan əmirlərin köməyinə gəldilər. Dərbəndin qalabəyi


downloaded from KitabYurdu.az

Köhnə Şahverdi uzunmüddətli mühasirəyə hazırlaşdı. Qızılbaşlar iki-üç ərzində qala bürcünün altından lağım atır, və toplardan istifadə edirdilər. Yalnız divar uçurulduqdan sonra Köhnə Şahverdi Əlqas Mirzənin anası Xanbəyi xanımla birlikdə qaladan çıxaraq şaha təslim oldular. Həsən bəy Rumlu xəbər verir ki, elə həmin vaxtda Sulut qalasının hakimi Məsih Şirvani adlı bir şəxs də şahın yanına gəldi və qalanı təslim etdi. Beləliklə, şirvan əslində "ikinci dəfə" I Şah Təhmasib tərəfindən fəth olundu. Şahın oğlu İsmayıl Mirzə (gələcək II Şah İsmayıl) Şirvanın yeni bəylərbəyisi təyin olundu, onun lələsi Göyçə Sultan Qacar isə ona köməkçi kimi saxlanıldı. 1547-ci ilin payızında Şirvanın idarə aparatını qiyamçılardan, Əlqas Mirzənin yaxın adamlarından təmizləyən Şah Təhmasib Təbrizə qayıtdı[68].

## I Sultan Süleymanın Azərbaycana üçüncü yürüşü

Həsən bəy Rumlunun xəbər verdiyi kimi, hicri 955 (1548)-ci ildə Sultan Süleyman, Osmanlı imperiyasının tabeliyində olan bütün ölkələrdən- Macarıstan, Əflak (valaxiya), Bosniya, Serbiya, Moreya, Moldaviya, Anadolu, Məntəşə eli, qaraman, Mərəş, Hələb, Suriya, Misir, Hicaz, Yəmən, Diyarbəkir, Ərəb İraqı və Kəfədən toplanmış böyük ordu ilə Azərbaycana soxuldu.

Şərəf xanın verdiyi məlumata görə, Sultanı Səfəvilər üzərinə yürüş etmək üçün dilə tutmuş Əlqas Mirzə ona demişdi ki, Sultan İraqa daxil olan kimi qızılbaşlar şahdan üz döndərəcəklər. Lakin tarixçinin göstərdiyi kimi, qızılbaşlardan heç biri Sultanın ən yaxın silahdaşlarını qarşılamadı. Əksinə, Əlqasla birlikdə İstanbula gəlmiş mülazimlər onu tərk edərək şahın yanına qayıtmağa başladılar[69]. Böyük türk ordusuna qarşı çıxmaq üçün kifayət qədər qoşunu olmayan I Şah Təhmasi Təbrizi tərk etdi və Şəmbi Qazana çəkilərəkorada üç ay müddətində qoşun topladı. Burada Şirvan


downloaded from KitabYurdu.az

bəylərbəyi İsmayıl Mirzə və digər hakimlər öz qoşunları ilə onunla birləşdilər.

Qızılbaşlar türk ordusnun hərəkətini çətinləşdirmək üçün Osmanlı sərhədindən Təbrizin özünə qədər olan ərazini xüsusi olaraq viran qoydular. Burada düşmənə “bir toxumcuq, ot saplağı” belə saxlanılmadı, daşınmaz əmlaka isə od vuruldu. Özlərinin fədakarlığı ilə tanınan Təbriz sakinləri su mənbələrini, suvarma kanallarını (qənov və kəhrizləri) elə bağladılar ki, “hətta özlərinin içməsi üçün belə lazım olan qədər su qalmasın”[70].

Xainlər- Üləma bəy və Əlqas Mirzə Sultan ordusunu müşayiət edirdilər. Həsən bəy Rumlunun yazdığına görə, Süleyman Azərbaycana Ərzurum-Xoy-Təbriz yolu ilə gəlmişdi[71]. Üləma türklərin dəstəsi ilə Van qalasını tutmaq üçün göndərildi. Sultan Mərənddə qızılbaşlara hücum etmək üçün 40 minlik qoşunla Xoydan hərəkət edəcək bir sıra paşaları ( ocümlədən Əlqas Mirzəni) ayırdı. Osmanlı qoşunları Abdulla xan Ustaclının, Şahverdi Sultan Ziyad oğlunun və Əli Sultan Təkəlinin başçılığı ilə irəlidə olan qızılbaş hissələri ilə toqquşdular. Şahverdi Sultan döyüşdə böyük igidlik göstərdi. Qızılbaşlar Osmanlıların üstün qüvvələrinin təzyiqi altında şahın Eşkəmbərdə yerləşən qərargahına geri çəkilməyə məcbur oldular. Şah Eşkəmbər çayının sahillərini tərk etdi, onunla Xuzistan, Fars, Kirman və İraq əmirlərinin birləşəcəyi yerə-Əhər çayına tərəf geri çəkildi.

Bu zaman Sultan Süleyman əsas qüvvələri ilə Təbrizə daxil olaraq orada cəmisi 4 gün qala bildi. Həmin günlər Osmanlı ordusu üçün çox kədərli keçdi. Həsən bəy Rumlu xəbər verir ki, yem olmadığına görə türklərin 5 min atı, dəvəsi və qatırı tələf oldu. Şəhərdə ərzaq olmadığına görə türk döyüşçüləri şəhərlilərin şəxsi əmlakını qarət etməyə başladılar. Həsən bəy Rumlu yazır: “Xalq nalə və fəryad səsini göylərə ucaltdı”. Hicri 955-ci il rəbi əs-saninin 24-ü (1548-ci ili iyunun 2-də) Sultan Təbrizi tərk etməyə məcbur oldu. Sakinlər işğalçılara qarşı üsyan qaldırdılar. Salnaməçi


downloaded from KitabYurdu.az

söyləyir: "Təbrizin qara camaatı və pozğun ünsürləri (yəni əhalisi - O.Ə.) özlərinin qisasını atlardan və sultanın yaxın adamlarından alaraq onları öldürdülər"[72].

Qızılbaş qoşunları da düşmənə aman vermirdilər. Onlar gündüz və gecə düşmənin ətrafında dövrə vurur və ayrı-ayrı dəstələri əsir alırdılar. İsgəndər bəy Münşi qeyd edir ki, qızılbaşlar qəfil hücumları ilə türkləri elə qorxutmuşdular ki, "onlar özlərinə yemək əldə etmək üçün dayandıqları yerdən kənara bir addım da ata bilmirdilər"[73].

Azərbaycan əhalisinin getdikcə artan müqaviməti, ərzaq çatışmazlığından yaranan ağır vəziyyət və şah qoşunlarının hücumları Osmanlı qoşunlarının Təbrixdə qalmasını qeyri-mümkün etmişdi. Sultan Kürdüstandan keçərək Vana çəkildi, Van qalasını ələ keçirdi və onu İsgəndər paşaya verdi. Özü isə Diyarbəkirə döndü. İbrahim xan və Məhəmməd bəy Türkman sultanın geri çəkilən ordusunun arxasınca hərəkət etdilər. Şəbüstər yaxınlığında Suriya və Diyarbəkir paşası, Mərəş paşası ilə baş vermiş şiddətli vuruşmada onlar böyük tələfat verildi[74].

Osmanlı ordusu geri çəkildikdən sonra şah Xoya daxil oldu. Burada İbrahim xan və başqa əmirlər öz qoşun dəstələri ilə ona qoşuldular. Çaldıranda Kirman hakimi Şahqulu Sultan və Mahmud xan Əfşar da şahın qoşunları ilə birləşdilər.

Bu zaman Şah Təhmasib məlumat aldı ki, sultan qullar ağası Osman Çələbini dörd minlik qoşunla Qars qalasını bərpa etmək üçün göndərmişdir. Təhmasibin böyük oğlu İsmayıl Mirzə Göyçə Sultan Qacarla birlikdə ona qarşı göndərildi. Şahzadə qəfil hücumla 2 min nəfərədək döyüşçünü, həmçinin bərpa işləri aparmaq üçün Amasiya, Tokat, Sivas, Akşehir, Ərzincan, Bayburt, Kəmax, Tərcan, Ərzurum və başqa yerlərfən qovulub bura gətirilmiş 5 min kəndli və sənətkarı məhv etdi[75]. Onların bir hissəsi qalada gizlənərək canlarını xilas etdilər, lakin üç gündən sonra qızılbaşlara təslim oldular. Osman Çələbi özü ilə 600 nəfər götürərək


downloaded from KitabYurdu.az

şahzadənin qərargahına gəldi və qəflətən qılıncını sıyıraraq ona hücum etdi. Osmanın adamları da onun kimi hərəkət edərək qızılbaşlara hücum etdilər. Lakin İsmayıl Mirzə soyuqqanlılıq göstərdi, özünü itirmədi. Türklərdən bir nəfər də salamat qalmadı. Qars qalası qızılbaşlar tərəfindən dağıdıldı.

Yenə həmin ildə Şahqulu Sultan böyük qoşunla Osmanlıların sərhəd rayonlarını viran etmək üçün göndərildi. Onalr Əxlat ərazisində tayfaları soyub taladılar və təqribən 5 minədək at, 100 min qoyun və 50 min qaramal sürüb apardılar[76]. Şah Xınıs bölgəsini viran edib yandırdı və Pasinə yola düşdü. Burada şahzadə İsmayıl və Bəhram Mirzə şaha qoşuldular.

İsgəndər bəy Münşi göstərir ki, qızılbaşların əsas qüvvələrini məqsəddən yayındırmaq və özünün başlıca qüvvələrini itkisiz çəkib aparmaq üçün  Sultan Süleyman Əlqası və Üləmanı qoşunlarla müxtəlif istiqamətlərə yolladı. Əlqas Mirzə beş min nəfərlik qoşunla Şəhrizurdan İraq tərəfə, Üləma isə Ərzurum və Sivas paşaları ilə otuz minlik qoşunla sultanın əmrinə əsasə,Ərzurumu müdafiə etmək üçün göndərildi. Süleyman özü isə Bilisi sürətlə keçdi və Diyarbəkirə çatdı.

Şah Əli Sultan Tatı oğlunu on min nəfərlik dəstə ilə Əxlat, Gözəl Dərə, Adilcəvaz və Muş ərazilərini viran qoymaq üçün göndərdi. Üləmanın Tərcanda olması xəbərini alan şah, Sufiyandan keçib onun arxasınca hərəkət etdi. Lakin Üləma tələsik qaçdı. Onda şah Tərcandan Ərzincan istiqamətinə irəlilədi. Şahzadə İsmayılın irəlidə gedən hissələri Bayburt yaxınlığında  Məhəmməd Paşa Tək oğlunun dəstələri ilə toqquşdu. Türklər darmadağın edildilər və qaçdılar. Ərzincan tutuldu və talan edildi. Noyabrın əvvəlində şah İrəvana yollandı və Üçkilsədə düşərgə saldı.

Şah Ərzincanda olarkən Əlqas Mirzə beş min nəfərlik dəstə ilə Kürdüstandan Həmədana, sonra isə Qum üzərinə yeridi. Bunun ardınca o, Kaşana daxil oldu. Əlqas Mirzə şahın yaxınlaşması xəbərini alan kimi tələsik cənuba, İsfahana hərəkət etdi. Şəhər


downloaded from KitabYurdu.az

əhalisi müdafiəyə hazırlaşdı. Bəhram Mirzənin və İbrahim xanın dəstələri Kaşana çatdılar. Əlqas təqibçilərdən yaxa qurtarmaq üçün Fars tərəfə döndü, Yezdxas (Şiraz-İsfahan yolunda) qalasını aldı və müdafiəçiləri qılıncdan keçirdi. Sonra o, Şirazı keçib Bəhbəhana, Dizfula daxil oldu. Oradan isə Bayat qalasından çıxıb Bağdadın hüdudlarına çıxdı[77].

## Şirvanda Səfəvilər əleyhinə üsyanlar

Biz Əlqas Mirzənin qiyamı timsalında gördük ki, Şirvanda onun keçmiş müstəqilliyinin, dövlət istiqlaliyyətinin bərpa olunması ənənəsi çox güclü idi. Əlqas Mirzənin qiyamını təzəcə yatırtmışdılar ki, Şirvanda Səfəvilər əleyhinə yeni üsyan baş verdi. Üsyana, devrilmiş Dərbəndi Şirvanşahlar sülaləsindən olan, bəzi məlumatlara görəmərhum Şirvanşah II Xəlilüllahın (1524-1535) oğlu Bürhan Əli Sultan, yaxud Bürhan Mirzə başçılıq edirdi. O, hələ Əlqas Mirzənin vaxtında özünü sakit aparmırdı və hicri 951 (1544)-ci ildə Qaytaqdan yürüş edərək Şirvana soxulmuşdu. Lakin Əlqas Mirzənin qoşunları ilə döyüşlərdə dəfələrlə məğlub olmuşdu[74].

Hicri 954 (1547)-cü ildə Bürhan yenidən Qaytaqdan çıxışa başladı və Külhanda düşərgə saldı. Burada, meşə və cəngəlliklərdə "qiyamçılar və Şirvan əsgərlərinin (sipahiyan) qalıqları" onun yanına toplandı. Çox çəkmədi ki, onlar Şirvan hakimi İsmayıl Mirzə və Göyçə Sultan qacar tərəfindən darmadağın edilib pərən-pərən salındılar. Lakin Bürhan Qaytağa qaça bildi. O, Şirvan hakiminin Azərbaycanın cınub hissəsinə soxulmuş türklərlə müharibəyə getməsindən istifadə edərək yenidən Şirvana gəldi, maneəsiz olaraq Şamaxını və digər yerləri tutdu[79].

Osmanlı qoşunları Azərbaycanın cənub hissəsindən getdikdən sonra şah ustaclı tayfasının başçısı Abdulla xanı Şirvan



downloaded from KitabYurdu.az

hakimi təyin etdi və Şirvan qiyamçılarını zərərsizləşdirmək vəzifəsini ona tapşırdı. Hicri 956 (1549)-cı ildə Abdulla xan Cavad yaxınlığında Kürü keçərək Əli Şəban (yaxud Əli Çuban) adlı yerdə düşərgə saldı. Qiyamçılar Buğurd dərəsində yerləşmişdilər. Onlar böyük qüvvələrə malik olduqlarına görə qızılbaşlar hücuma başlamağa cəsarət etmirdilər. Lakin bu vaxt qiyamçıların başçısı Bürhan öldü[80] və üsyançılar onun qohumlarından birini – gənc Mehrabı özlərinə başçı saçdilər. Abdulla xan qiyamçılara hücum edib onları məğlubiyyətə uğratdı. Mehrab çoxlu tərəfdarları ilə qaçdı. Lakin darmadağın edilməkdən canlarını qurtarmış şirvanlılar inadkarlıq göstərəərk şahın hakimiyyətini tanımadılar,şiarvanşah taxtına Mehrabın Qurban Əli adlı qohumunun namizədliyini irəli sürdülər. Onlar Xəzər dənizinin adalarından birində, mənbələrin Derov (yaxud Derav) adlandırdığı yerdə möhkəmləndilər. Əli Zeynalabdinin dediklərinə görə ada Xəzər sahillərinə yaxın yerlərdə idi. "Kür çayı onun hər iki tərəfindən dənizə tökülür"[81], yəni ada Kür çayının Xəzər dənizinə töküldüyü ərazidə yerləşirdi. Qiyamçılar Abdulla xanın barışıq təkliflərini rədd etdikdən sonra, qızılbaşlar qışda (1549-cu ilin sonu-1550-ci ilin əvvəli) atlarla çayı üzüb keçərək özlərini adaya çatdırdılar. Qurban Əlini və onun adamlarının çoxunu məhv etdilər[82].

Səfəvilər hakimiyyətinə qarşı başlanan bu üsyankar Şirvanşahlar dövlətini bərpa etmək məqsədini güdürdü. Türk salnaməçilərinin yazdığı kimi, özlərinin nisbətən kiçik qüvvələrinə arxayın olmayan şirvanlılar, hərbi yardım üçün Səfəvilərin qüdrətli düşməninə- Osmanlı sultanına müraciət edirdilər. Osmanlılar kömək etməklə öz məqsədinə çatmağa, şirvanlıların səyi ilə Səfəviləri Şirvandan sıxışdırıb çıxarmağa və Xəzər sahillərinə çıxmağa can atırdılar.

## Şəkinin Səfəvilər dövlətinə birləşdirilməsi


downloaded from KitabYurdu.az

Azərbaycanın sonuncu müstəqil xanlığının - Şəkinin süqutu da bu dövrə təsadüf edir

Həsən bətin oğlu və varisi Dərviş Məhəmməd xanın vaxtında Şəki xanlığının Səfəvilərlə münasibətləri pisləşdi. 1538-ci ildə I Şah Təhmasib qızılbqş qoşunlarını Şirvanı zəbt etmək üçün göndərəndə, Dərviş Məhəmməd xan Şəki qoşunları ilə Buğurd qalasında mühasirədə olan Şirvanşah Şahruxun köməyinə gəldi və qızılbaşlara gecə həmləsi təşkil etdi[83].

1538-ci ildə hakimiyyətdən məhrum edilmiş Şirvanşahların simasında müttəfiqlərini itirmiş Şəki hakimliyi müstəqilliyini saxlamaq ümidi ilə I Şah Təhmasiblə yaxınlaşmaq yolunu tutdu. Məsələn, Dərviş Məhəmməd xan Şirvanşahlar devrildikdən cəmisi bir il sonra – hicri 946 (1539-1540)-cı ildə Səfəvilərlə qohum oldu. O, Şah Təhmasibin bacısı, Şirvanşah II Xəlilüllahın dul qalmış qadını Pərixan xanıml evləndi[84]. Lakin onun ölümündən[85] sonra münasibətlər yenidən pisləşdi.

Yuxarıda deyildiyi kimi, Dərviş Məhəmməd xan Əlqas Mirzənin Səfəvilərdən ayrılmaq cəhdini müdafiə etmiş və öz qardaşı Şahnəzəri qoşunla onun yanına göndərərək ona hərbi yardım göstərmişdi. Buna görə də Sultan Süleyman Azərbaycandan geri çəkilən kimi, Şah Təhmasib Kiş qalasına sığınmış Dərviş Məhəmməd xanı "cəzalandırmaq" üçün Qarabağdan Sevindik bəy Əfaşarı 2500 qorçi ilə Şəkiyə göndərdi. Qızılbaşlar Şəkini viran qoyub qənimət ələ keçirdikdən sonra geri döndülər[86].

Nəhayət, hicri 958 (1551)-ci ildə I Şah Təhmasib Şəkinin müstəqilliyinə son qoymaq qərarına gəldi. Qızılbaş qoşunları Ərəşdə dayandılar. Burada onlara Səfəvilərin vassalı olan Kaxetiya çarı Levan qoşuldu. Dərviş Məhəmməd xan nəinki onları qarşılamağa çıxmadı, hətta qızılbaşların şahın yanına gəlmək tələbinə də rədd cavabı verdi. Bu, qızılbaşların Şəkiyə hücuma başlaması üçün bəhanə oldu. Şəkililər belə hərəkət edərkən


downloaded from KitabYurdu.az

özlərinin güclü qalaları olan Kiş və xüsusilə də Şəki xanının əyanlarla birlikdə sığınmış olduğu,demək olar ki, alınmaz "Gələsən-Görösən" qalasına arxayın idilər. Şəkililərin bir hissəsi Sıqnaxda – dağ yamacındakı sığınacaqda möhkəmlənmişdilər. Qızılbaşlar eyni vaxtda şəkililərin hət üç müqavimət məkanına qarşı hücuma başladılar. Qorçibaşı Sevindik bəy, Bədr xan və Şahqulu Sultan Ustaclı Kiş qalasının üzərinə göndərililər. "Gələsən – Görəsən" qalasını ələ keçirmək Abdulla xan Ustaclıya və kaxetiya çarı Levana tapşırıldı. Şahqulu xəlifə möhrdar qızılbaş dəstəsi ilə Sıqnaxdakı şəkililərin üzərinə hərəkət etdi.

Şəkililər öz düşmənlərinin böyük üstünlüyünə baxmayaraq, qızılbaşların bütün hücumlarını dəf edərək inadlı müqavimət göstərirdilər. Məsələn, Şahqulu Xəlifə Sıqnaxa hücum etdikdə, şəkililərin tüfəng atəşi ilə geriyə oturduldu. Qızılbaşlar topları və 2qalalarla mübarizə aparmaq üçün başqa vasitələri" işə saldılar. 20 gündən sonra Kişin qala divarları və bürcləri dağıdıldı. Qalanın rəisi Mahmud bəy mübarizənin davam etdirməyi faydasız hesab edərək qapı açarlarını şaha təqdim etdi və təslim oldu. Kişin süqutundan xəbər tutan Sıqnax müdafiəçiləri də tədricən mübarizəni dayandırıb şaha təslim oldular. Çıxılmaz vəziyyətə düşdüyünü görən Dərviş Məhəmməd xan gecə "Gələsən – Görəsən" qalasından çıxdı və özünün dörd yüz nəfərlik dəstəsi ilə qalanı mühasirəyə alməş qızılbaşların xəttini yarıb keçməyə cəhd göstərdi. Lakin Abdulla xanın və çar Levanın dəstələri qaçqınları yaxaladılar və qılıncdan keçirdilər.

Beləliklə, Şəki xanlığı ləğv edildi və onun ərazisi Səfəvilər dövlətinin tərkibinə qatıldı. Toygün bəy Qacar Şəkinin ilk qızılbaş hakimi təyin olundu[87.]

### Səfəvilərin Osmanlı ərazilərinə soxulması



downloaded from KitabYurdu.az

Hicri 959 (1552)-cu ildə I Şah Təhmasib Osmanlı ərazilərinə daxil olaraq fəal hücum əməliyyatlarına keçdi.

Ərzurum hakimi İsgəndər paşanın qızılbaşların Çuxursəəd (İrəvan) vilayətinə basqınları bu hücumlar üçün bəhanə oldu. 1552-ci ilin əvvəlində İsgəndər paşa Xoy ərazisində Səfəvilərin hüdudlarına soxuldu, sonra isə Çuxursəədə keçib şəhər bazarını yandırdı və geriyə qayıtdı. Ərzurum paşası qızılbaş əmirlərinə lovğalıqla yazdığı, hədələrlə dolu məktublarda özünü Şirvan və Gürcüstan hakimi adlandırmışdı[88].

1552-ci ilin yayında Şah Təhmasibin əmri ilə qoşunların toplanmasına başlandı. Onlar 4 hissəyə bölündülər və dörd istiqamətə göndərildilər:

1) Ərciş və Bərkiyyə - (Məsum bəy Səfəvi, Allahqulu bəy Aycək oğlu, Əli Sultan Təkəli, Şəmsəddin xan Bidlisi, Xəlifəyi Ənsar, Həmzə bəy Talış, Uluqxan bəy Səədli və b.).

2) Pasinə (Şahverdi Sultan Ziyad oğlu və və Ədhəm bəy Rumlu).

3) Ərəb İraqına (İbrahim xan Zülqədər, Şahqulu xan Əfşar, Çıraq Sultan).

Dəvilə[89] (Bayram bəy Qacar, Toygün bəy Qacar və gürcü hökmdarı Səfəvilərin vassalı olan Keyxosrov)[90].

Bu hərbi əməliyyatın məqsədi Osmanlı Türkiyəsinin sərhəd ərazilərini viran qoymaqdan, həmçinin hərbi qənimət ələ keçirməkdən ibarət idi. Qızılbaşlar düşmənin yeni basqını qarşısında osmanlı ordularının bu ərazilərdən gəlib – getməsini çətinləşdirmək niyyətində idilər. Bu əməliyyatda I Şah Təhmasib şəxsən iştirak edirdi. Məsələn, Ahlat ərazisində 30 min qoyun, 10 min qaramal, 3 min at ələ keçirilmişdi. Ahlat qalası yerlə yeksan edildi. Van ərazisində evlər və əkinlər məhv edildi. Bidlis, Vostan, Adilcəvaz, Ərciş, Muş, Pasin bölgələri oddan – qılıncdan keçirildi. Döyüşlərdə


downloaded from KitabYurdu.az

çoxlu osmanlı və kürd məhv edildi. Qızılbaşlar yürüşdən xeyli qənimətlə qayıtdılar[91].

Ərzurumun "dikbaş" hakimi olan İskəndər paşanı "cəzalandırmaq" qərara alındı. Şah öz oğlu İsmayıl Mirzənin başçılığı altında ordunu ona qarşı göndərdi[92].

Qarabağ hakimi Şahverdi Sultan Ziyad oğlu, Bədr xan Ustaclı, Çuxursəəd hakimi Şahqulu Sultan Ustaclı, Məhəmməd xan Mosullu Türkman kimi adlı-sanlı əmirlər, "min Tehran və altı yüz Naxçıvan qorçisi" bu yürüşdə iştirak edirdi. Öz qüvvələrinin sayca üstünlüyünə arxayın olan (Ərzincan, Tərcan, Bayburt, Kemax, Mərəş, Trabzon, Kürdüstan və Gürcüstandan türklər və kürdlər) İsgəndər paşa qaladan çıxaraq İsmayıl Mirzə ilə döyüşə girmək qərarına gəldi. Türklər şəhərin yarım fərsəxliyində (3-4km) döyüşə hazır oldular.

Qızılbaşların sol və sağ cinahlarda güclənən təzyiqini müşahidə edən İskəndər paşa irəli atıldı, lakin mühasirəyə alınacağından ehtiyat edərək geriyə dönməyə məcbur oldu. Bu vaxt İsmayıl Mirzə döyüş meydanına yaxın olan təpənin üstündə durmuşdu. Türklər qızılbaşların hücumuna davam gətirməyib vahimə içərisində qala tərəfə qaçmağa başladılar. Onlardan bir çoxu Ərzurum qalasının dövrəsindəki xəndəyə düşdü. Xəndək adamlarla və atlarla dolmuşdu. Çaxnaşmada türklər qapıları bağlamağı yaddan çıxardılar və üç qızılbaş qalaya girı bildi. Cəsur şahzadə İsmayıl şəxsən döyüşə atılırdı. Lakin qorçilər buna imkan vermirdilər. Xəndəyə düşüb ölənlərdən başqa 2576 türk öldürüldü. Görkəmli Osmanlı əyanları Trabzon hakimi Mustafa bəy, Mərəş hakimi Kəbir İsa, Sultanın qullarağası Məhəmməd bəy, İskəndər paşanın qardaşı Ramazan bəy, Malatya hakimi Xeyrəddin bəy və bir çox başqaları əsir alındılar[93].

Sonra İsmayıl Mirzə Ərciş yaxınlığındakı şah


downloaded from KitabYurdu.az

düşərgəsinə yetişdi. Qaladakı hərbi hissənin döyüşçüləri qalabəyini öldürdülər və qalanı qızılbaşlara təslim etdiər. Şahın əmri ilə qala istehkamı dağıdıldı. Sonra Bərgiri qalası tutuldu. İsmayıl Kürdüstana yola düşdü. Bu yürüşdə "qazilər" böyük qənimətlər (əsirlər, mallar, atlar, qatırlar və qaramal) ələ keçirdilər. Şah hicri 960-cı ilin rəbi əs-sanisində 1553-cü ilin mart-aprelində) Naxçıvan yürüşündən qayıtdı[94]. Həmin ildə Təhmasib sülh danışıqları aparmaq üçün əmir Şəmsəddin Dilcanini[95] sultanın yanına göndərdi. Lakin Həsən bəy Rumlunun yazdığına görə, geri qayıdan elçinin gətirdiyi məktubda sultan "Şərqin və Qərbin" padşahına (yəni I Təhmasibə) kifayət qədər ehtiram bildirməmişdi. Buna cavab olaraq şah oğlu İsmayılı yenidən qoşunla Kürdüstana göndərmişdi. Onlar Van, Vostan, Ərciş və Adilcəvazı xarabazara döndərərək qənimətlə Naxçıvana şah qərargahına qayıtdılar[96].

## I Süleymanın Azərbaycana dördüncü yürüşü

Sultan Süleyman hicri 961 (1554)-ci ilin yazında böyük ordu ilə Azərbaycana yeridi və Naxçıvanı tutdu. Öz taktikasına sadiq qalan I Şah Təhmasib düşmənin başlıca qüvvələri ilə gözlənilən toqquşmadan çəkinərək, sultan qoşunlarının hərəkət edəcəyi gözlənilən yollara viranedici həmlələr edirdi. Şah Bazarçay (Arazın qolu) yaylaqlarına tərəf çəkildi. İskəndər bəy Münşinin yazdığına görə, sultanın Naxçıvana hərəkəti zamanı qızılbaşlar yollarda osmanlılara qəfil basqınlar edir, ayrı-ayrı dəstələri qılıncdan keçirir və əsir alırdılar[97].

Şahın əmrilə qızılbaşların bir hissəsi İsmayıl Mirzənin, Məsum bəy Səfəvinin və Şahqulu Xəlifənin başçılığı altında Van və Vostan bölgələrinə, digəri isə Sultan Hüseyn Mirzənin (Bəhram


downloaded from KitabYurdu.az

Mirzənin oğlu) və Şahverdi Sultan Ziyad oğlunun başçılığı ilə Pasinə göndərildi. Bu basqınların məqsədi düşmənin geri çəkiləcəyi yolun üstündəki yerləri xarabaya çevirməkdən ibarət idi ki, "həmin diyarda abadlıqdan əsər-əlamət qalmasın".

Kəskin ərzaq çatışmazlığı ilə üzləşən sultan qabaqcadan od vurub yandırdığı Naxçıvanı tərk etdi və geriyə - Ərzuruma qayıtdı. Qızılbaş qoşunları (İskəndər bəy Münşiyə görə,sayı təqribən 40 min nəfər) geri çəkilən türklərin ardınca osmanlı ərazilərinə qədəm qoydular. Qızılbaşlar bir döyüşdə türklərin böyük dəstəsini darmadağın edərək, türk sultanının yaxın adamlarından biri olan Sinan bəyi əsir aldılar.

Yürüşün yorub əldən saldığı Sultan qoşunları arasında narazılıq artırdı. Əlbəttə, sultanın özü və yaxın adamları da ordunun əhval-ruhiyyəsi, həmçinin özlərinin Azərbaycana yürüşlərinin faydasızlığı ilə hesablaşmağa məcbur idilər. Buna görə də, Osmanlı Türkiyəsi Səfəvilərin dəfələrlə təkid etdiyi sülh danışıqlarına başlamağa razı olduğunu bildirdi[98].

## Şirvanda Qasımın Səfəvilər əleyhinə üsyanı

Osmanlı sultanı Azərbaycana özünün dördüncü yürüşünə başlayanda şirvanşahlar nəslindən olan Qasımı yeniçərilər dəstəsi və artilleriya ilə Kəfədən Şirvana göndərdi. Sultanın göstərişi ilə Dağıstanda Kumık və Qaytaq qoşunları onunla birləşdilər. Onlar Qasımın başçılığı ilə Dərbənddən keçərək Şirvana soxuldular. Elə güman edilə bilərdi ki, yerli sülalənin hakimiyyətini qaytarmaq üçün dəfələrlə edilmiş uğursuz cəhdlərdən sonra, şirvanlılar yerli hakim nəslin yeni övladının peyda olmasına biganə qalacaqlar. Lakin əslində bunun tamamilə əksi baş verdi. Qasım Şirvana təzəcə daxil olmuşdu ki, şirvanlılar Osmanlı sultanının yardım haqqında vədlərinə güvənərək Abdulla xanı tərk etməyə və Qasımın yanına


downloaded from KitabYurdu.az

keçməyə başladılar. Bu vaxy Şirvan hakiminin qoşunlarının xeyli hissəsi Naxçıvana – türlərlə müharibəyə göndərilmişdi. Abdulla xan öhdəsində olan qüvvələrin zəifliyinə baxmayıb, Şirvan əmirləri olan İbrahim bəy Şamlı və Əliqulu bəy Qacarla birlikdə dərhal qiyamçılara qarşı çıxdı və Tabasaranda – Təngə adlı yerdə Qasıma hücum etdi. Lakin qızılbaşlar üsyançıların möhkəmləndirilmiş mövqeləri qarşısında uğue qazana bilmədilər və Şamaxıya qayıtdılar. Abdulla xanı təqib edən Qasım Buğurd qalasına gəlməli olan tərəfdarlarını toplamaqvə mübarizəyə hazırlaşmaq üçün orada 40 gün qaldı. Burada onun bayrağı altında toplanmış bir neçə min türk və şirvanlı Abdulla xanın üzərinə yeridi[99].Qızılbaş ağsaqqalları öz qoşunlarının azlığından narahat olduqları üçün nəticəsi şübhəli olan döyüşdən imtina etməyi qərara aldılar. Lakin salnaməçilər xəbər verirlər ki, Abdulla xan "Allahın köməyinə və şahın xoşbəxtliyinə təvəkkül edərək" iki min nəfər[100] qızılbaşla Gülüstan qalasının altında qiyqmçılarla döyüçə girdi. Vuruşma şiddətli oldu və bütün gün davam etdi. Qızılbaşların üstünlüyü yalnız axşama yaxın hiss olunmağa başladı. Döyüş meydanında təxminən min beş yüz qiyamçının cəsədi qaldı. Canını qurtaranlar Tabasarana qaçdılar. Bu qələbə sayəsində Şirvanda Abdulla xanın hakimiyyəti möhkəmləndi. O, "şirvanlıların, Tabasaran və Dağıstan əhalisinin gözünü elə qorxutdu" ki, artıq heç kəs ona itaət etməmək haqqında "hətta düşünməyə" də cəsarət etmədi.

### 1555-ci il Amasya sülhü

Azərbaycanı işğal etmək cəhdlərinin nəticə vermədiyinə əmin olduqdan sonra Sultan Süleyman Səfəvilərlə sülh danışıqlarına başlamağa razı oldu. O, hələ Naxçıvandan geri qayıdarkən bu barədə baş vəzir Məhəmməd paşaya müvafiq göstərişlər verdi. Məhəmməd paşa isə sərhədyanı qızılbaş əmirlərinə məktub


downloaded from KitabYurdu.az

göndərərək şahdan Sinan bəyi azad etməyi və danışıqlar aparmaq üçün onunla öz nümayəndəsini göndərməyi xahiş etdi. Sinan bəy həbsxanadan azad edildi və onunla birlikdə Qacar tayfasının aösaqqallarından biri – Şahqulu bəy[102] də yola düşdü. Şahqulu bəy qayıtdıqdan sonra, sultan Amasyada olarkən özünü ona çatdırmış[103] "Qaradağ sufilərinin" ağsaqqallarından biri – eşikağası Fərruxzad bəy, Səfəvi elçisi kimi sultanın yanına göndərildi. Burada aparılmış danışıqlar nəticəsində "Amasya sülhü" adı altında məşhur olan sülh müqaviləsi bağlandı.

Farsdilli mənbələrdə bu sülhün dəqiq tarixi verilmir. Məsələn, Həsən bəy Rumluda Fərruxzad bəyin elçiliyi barədə məlumat hicri 961 (1554)-ci ilə aid edilir. Qəffarinin və Əli Zeynalabdinin salnamələri haqqında da eyni sözləri demək olar[104]. Bu hadisənin dəqiq tarixini göstərən türk mənbələrinə görə, Amasyada sülh hicri 962-ci ilrəcəbin 8-də (1555-ci il mayın 29-da ) bağlanmışdır[105]. Hammer bunu Osmanlı Türkiyəsi ilə Səfəvilər dövləti arasında bağlanmış ilk rəsmi sülh müqaviləsi adlandırır[106].

1555-ci ilin sülh müqaviləsinə görə, Qərbi Gürcüstan vilayətləri (İmeretiya, Menqreliya, Quriya) Osmanlı Türkiyəsinin təsir dairəsinə keçirdi. Şərqi Gürcüstan vilayətləri (Mesxiya, Kartliya, Kaxetiya) isə Səfəvilər dövlətinin hakimiyyəti altına düşürdü[107].

Türkiyə tarixçisi İsmayıl Haqqı Uzunçarşılının belə bir iddiası heç nə ilə əsaslandırılmır ki, guya bu sülhə görə Azərbaycan (Təbriz də daxil olmaqla) Osmanlı Türkiyəsinin hökmranlığı altına düşmüşdür[108].

XVI əsrin birinci yarısında Osmanlı-Qızılbaş müharibələri Cənubi Qafqaz ölkələrinin xarici siyasət tarixinin ən əhəmiyyətli amillərindəndir. Osmanlı sultanları Səlim və Süleymanın Azərbaycanı zəbt etmək cəhdləri hər şeydən əvvəl iqtisadi mülahizələrdən, xüsusən də ölkənin ipək xammalının iri tədarükçüsü olmasından, təbii ehtiyatlarının zənginliyindən və


downloaded from KitabYurdu.az

nəhayət, Avropa və Asiyanın gəlirli tranzit ticarət yollarının Aəzrbaycandan keçməsindən irəli gəlirdi. Osmanlı Türkiyəsi Xəzər dənizinə çıxmaq və Orta Asiya ölkələri ilə bilavasitə əlaqələrə girmək üçün mümkün olan bütün tədbirləri görürdü.

Yadda saxlamaq lazımdır ki, XVI əsrdə Osmanlı dövləti öz qüdrətinin ən yüksək dövrünü yaşatırdı. Onun sərhədləri Avropa, Asiya və Afrika qitələrini əhatə edirdi. Imperiyanın sərəncamında saysız-hesabsız canlı qüvvə və maddi ehtiyatlar, böyük hərbi potensial cəmləşmişdi. Osmanlı imperiyası yalnız Səfəvilər üçün deyil, hətta iri Avropa dövlətləri üçün də qorxulu düşmən idi. Buna görə də Avropa dövlətləri Səfəvilər dövlətinin simasında Osmanlı Türkiyəsinin hərbi qüvvələrinin xeyli hissəsini Avropadan yayındıran təbii və güclü müttəfiqlərini görürdülər.

Osmanlı təhlükəsinin Avropa dövlətləri üçün nə dərəcədə qorxulu olduğunu alman imperatorunun Sultan Süleymanın sarayında olmuş səfiri Busbekin söylədiklərindən görmək olar. O yazırdı: "Yalnız İran (Səfəvilər dövləti - O.Ə.) bizimlə fəlakətin arasında durur. Əgər İran onu saxlamasaydı, Türkiyə bizi məhv etməyinə şad olardı. Onların arasındakı bu müharibə bizə qurtuluş deyil, yalnız tənəffüs verir"[109] Osmanlı ordusu yalnız sayca və texniki təchizat (Səfəvilərdə olmayan böyük artilleriya cəbbəxanasının mövcudluğu) cəhətdən deyil, həm də qoşunun təşkilində, intizamda Səfəvi ordusundan xeyli üstün idi.Qızılbaşların ləyaqətini qeyd etmək lazımdır. Onlar türk qoşunlarına mətanətlə müqavimət göstərərək hər dəfə basqından sonra onları Azərbaycandan geri çəkilməyə məcbur edirdilər. Bu da nəzərə alınmalıdır ki, Səfəvilər dövləti tez-tez iki cəbhədə, həm türklərə qarşı, həm də ardı-arası kəsilməyən Xorasana soxulan özbəklərə qarşı müharibə aparırdı. Bu dövrdə Osmanlı diplomatiyasının səyləri ona yönəldilməşdi ki, "qızılbaş bidətçilərə" qarşı mübarizədə sünni dövlətlərini, o cümlədən Şeybanilər dövlətini Osmanlı Türkiyəsi ilə birləşməyə təhrik


downloaded from KitabYurdu.az

etsin[110].

I Şah Təhmasibin öz silahdaşlarından birinin narahatlıqla verdiyi suala cavab bu dövrdə Səfəvilərin strategiyası üçün səciyyəvidir: "Mən atamın qaydası ilə hərəkət etməyəcəyəm.Bu düşmən (Osmanlı sultan – O.Ə.) çox güclüdür.Mən onunla qarşı-qarşıya durmayacağam, lakin Həsən padşah (Ağqoyunlu Uzun Həsən – O.Ə.) Sultan Əbu Səidə qarşı necə hərəkət etmişdisə, o cür onun ətrafında dövrə vurub, onun adamlarının qoşundan kənara çıxmasına, sonra isə ora qayıtmasına yol vermədən hərəkət edəcəyəm"[111].

Səfəvi ordusu əsasən cəld və manevr edə bilən süvari hissələrindən ibarət idi. Düşməni geri çəkilməyə məcbur etmək, onun qüvvəlrini yayındırmaq üçün qızılbaş süvari dəstələri tez-tez düşmən ərazisinin içərilərinə basqınlar edir, Osmanlı ordusununarxa cəbhəsini ağır vəziyyətə salırdılar.

Bu müharibələrdə Osmanlı Türkiyəsi təcavüzkar,hücum edən tərəf olduğuna görə, qızılbaşlar öz strategiyalarını başlıca olaraq müdafiə üzərində qururdular. Türk ordusunun Səfəvilər dövlətinin ərazisində irəliləməsini daha çox çətinləşdirmək üçün onlar bir sıra tədbirlər görürdülər. Məsələn, Osmanlı ordusunun güman edilən yolu boyunca ərzaq ehtiyatları məhv edilir, içməli su mənbələri torpaqla doldurulur, buğda və digər dənli bitki əkinlərinə od vurulurdu. Osmanlılar Azərbaycan ərazisində olduqları zamanda da mübarizə dayandırılmırdı. Qızılbaş hissələri qəfil basqınlar edir, Osmanlı qoşunlarının ayrı-ayrı dəstələrini tələfata uğradır, onların burada sonralar da qalmasını dözülməz edən şərait yaradırdılar. Buna görə də türklər hər dəfə ölkədə qısa müddət qalır və geri qayıtmağa məcbur olurdular.

Düşmənlə mübarizənin sonuncu mərhələsində qızılbaş qoşunları ağır yürüşdən, aclıq və xəstəlikl\ərdən yorulmuş, geri çəkilən Osmanlı ordusunun ardınca gedir, ona canlı qüvvə cəhətdən təsirli itkilər verirdi. Sonra isə düşməni izləməkdə davam edərək


downloaded from KitabYurdu.az

sultanın tabeliyində olan əraziyə daxil olur, Kürdüstanda və Şərqi Anadoluda böyük dağıntılar törədirdilər. Qızılbaşlar Osmanlı Türkiyəsi ilə Səfəvilər dövləti arasındakı sərhəd ərazilərini boşaltmağa və əhalidən məhrum etməyə çalışırdılar. Bu, mümkün olan müharibələr zamanı düşmənin yürüşlərini çətinləşdirmək məqsədi güdürdü[112]

Qızılbaşların yuxarıda göstəriləm müharibə strategiyası və taktikası I Şah Təhmasibin özünün yazdığı "Təzkirə"də yaxşı şərh olunmuşdur. Təhmasib yazır: "Müharibədə düşmənə əlverişli imkan verməк olmaz. Əgər düşmən döyüşə can atırsa, imkan daxilində onunla üz-üzə döyüşdən çəkinmək lazımdır"[113]. Sərhəd zolağında bütöv vilayətlərin viran edilməsi şah aşağıdakı maraqlı mülahizələrlə haqq qazandırırdı: "Biz hesablamışıq ki, xondkarın (Türk sultanının – O.Ə.) qulluqçulardan başqa təxminən 300 min nəfərlik atlı qoşunu var. Və əgər hər birinin (süvarinin) bir qulluqçusu varsa, bu 600 min nəfər edir. Yeniçərilərdən başqa sultanın piyada qoşunu yoxdur. Əgər hər birinin bir atı və dəvəsi varsa, onda 600 min at və dəvə alınır. Bir eşşəyə isə hər gün 2 mən (batman) arpa, cəmisi 12 min xalvar yüz mən arpa tələb olunur. 600 min adamın hər biri gün ərzində yarım mən ərzaq işlədirsə, cəmisi 3 min xalvar 100 mən alınır. Deməli, bir gün ərzində 15 min xalvar 100 mən taxıl lazımdır. Tutaq ki, xodkarın 150 min xalvar 100 mən taxılı vardır. Qoşunlarda da həmçinin 150 min xalvar taxıl var[114]. Halbuki, həmin 300 min xalvar taxılı daşımaq üçün 500 min dəvə tələb olunur. Bunun hələ döyüş sursatı, topları və başqa ləvazimat daşıyan dəvələrə dəxli yoxdur. 300 min xalvar taxıl onlara 20 günlüyə bəs edir. Biz torpaqlara od vurduqdan və hər şeyi yeyəndən sonra, onlarla üz-üzə vuruşmayıb dövrələrində fırlanmaqda davam etsək onlar nə nə edə bilərlər? Bəs onlar yeməyi hardan əldə edəcəklər? Bəs qızılın onlara nə faydası olacaq? Buna görə də qayıtmaqdan savayı onların bir çarəsi qalmır"[115].


downloaded from KitabYurdu.az

Burada Osmanlı qoşunlarının sayı son dərəcə şişirdilmişdir. Ehtimal etmək olar ki, etibarlı müdafiə olunmaq üçün düşmən qoşunlarının maksimum sayı nəzərdə tutulmuşdur. Osmanlı basqını əleyhinə Təhmasibin yuxarıda təsvir olunan mübarizə üsulu, düşmən hücumunun başlıca obyektləri olan Azərbaycan və Kürdüstanın bir sıra ərazilərini xarabazara çevirirdi. Şübhə yoxdur ki, bu vəziyyət həmin ölkələrin iqtisadi inkişafına mənfi təsir göstərirdi.

I Şah Təhmasibin fikrincə, guya mərkəzi hökumət həmin vilayətlərin məcburən boşaldılmasını və kəndlilərin ağır vəziyyətini nəzərə alaraq vurulan zərərin əvəzini dövlət vergilərini azltmaqla, yaxud tamamilə ləğv etməklə ödəyirdi. Məsələn, o yazırdı ki, "Sultan Sivasda olanda mən hər mahalın kəndxudalarını və rəiyyətini yanıma çağırıb dedim ki, əgər biz sizin taxıldan istifadə etməsək xondkar onu mənimsəyəcəkdir. Buna görə də bizim onu yeməyimiz lazımdır. Nədən istifadə edə bilməsək yandırarıq. Bunun əvəzində biz sizin əmlakınızı üç il müddətində vergilərdən azad edərik"[116].

I Təhmasib "viran edilmiş ərazi" taktikasını həyata keçirməkdə ilk və yeganə hakim deyildi. Bu taktika onun atası Şah İsmayıl tərəfindən, 1514-cü ildə edilməsi, I Səlimin Azərbaycana soxulmuş qoşunlarına qarşı da uğurla tətbiq edilmişdi[117].

Viran edilmiş ərazi" taktikasının tətbiqi Osmanlı qüvvələrinin böyük üstünlüyə malik olmasından irəli gəlirdi. Azərbaycana yürüşləri zamanı, yalnız Osmanlı sultanları onların tabeliyində olan Suriya, Misir, Ərəb İraqı və Kürdüstandan deyil, habelı istila etdikləri Avropa ölkələrindən (Macarıstan, Bosniya, Serbiya, Moldaviya və s.) toplamış olduqları böyük ordudan istifadə edirdilər. Bu taktika Osmanlı Türkiyəsi ilə müharibələrdəki kimi, düşmən tərəfin daimi üstünlüyünün mövcud olmadığı özbəklərlə müharibələrdə öz əhəmiyyətini itirirdi. Səfəvi-Osmanlı müharibələri dövründə qızılbaşlar yalnız özlərinin sərhədyanı


downloaded from KitabYurdu.az

ərazilərinin boşaldılması ilə kifayətlənmir, Osmanlı Türkiyəsinin qonşu ərazilərinə də böyük ziyan vururdular. Məsələn, İskəndər Münşinin söylədiyinə görə, I Süleymanın üçüncü yürüşü zamanı osmanlı qoşunları Azərbaycandan çəkiolməyə başlayanda, qızılbaş qoşunları geri çəkilən düşməni təqiib edərək Şərqi Anadoluda böyük dağıntılar törətmişdilər. Tarixçi yürüşün şərhini a.ağıdakı şəkildə başa çatdırır: "Sultan-Süleymanın Əcəm ölkəsinə (Səfəvilər dövlətinə - O.Ə.) gəlişi ilə vurulmuş zərər və itkinin əvəzi on qat artıq ödənildi. Bu yürüşdə qalibiyyətli qazilərin qisasçı qılınclarının sayəsində təqribən 20 min türk viran edilmiş yollardan keçərkən öldürüldü. I Şah Təhamasib Ərzincandan geriyə dönüb İrəvana gəldi. Oradan isə Qarabağ istiqamətində hərəkət etdi"[118].

## Səfəvilər dövlətinin Şeybanilərin basqınlarına qarşı mübarizəsi

XVI əsrin əvvəlindən Şeybanilər bütün Xorasanı ələ keçirməyə can atdılar, lakin onun yalnız şimal-şərq hissəsində (yəni Bəlx vilayətində ) kifayət qədər möhkəmlənə bildilər. O zamankı Xorasanın qalan üç vilayəti- Herat, Məşhəd və Mərv yenə də Səfəvilərin hakimiyyəti altında qaldı[119].

Orta Asiyanın sünni ruhaniləri şiələrə münasibətdə bütün vasitələrlə dini fanatizmi qızışdırır və Səfəvilər dövləti ilə mübarizədə Şeybaniləri hər cəhətdən müdafiə edirdilər. Şeybanilər Xorasanda hökmdarlıq uğrunda qızılbaşlarla mübarizəni "dönüklərə (rəfizilərə) – şiələrə" qarşı "müqəddəs müharibə" şüarı altında aparırdılar[120].

Dini süşmənçilik bəhanəsi Səfəvilər dövlətinin yalnız Osmanlı Türkiyəsi ilə deyil, həmçinin Şeybanilər dövləti ilə də qarşılıqlı münasibəti üçün səciyyəvidir[121]. Şeybanilər də Səfəvilər kimi bir-birilə müharibəni cihad, qəzavat adlandırırdılar. Bu,


downloaded from KitabYurdu.az

müharibəni nəinki xalqların gözündə müqəddəsləşdirirdi, eyni zamanda hər iki dövlətin feodal əyanlarına imkan verirdi ki, dinc əhalini "qanuni" əsaslarla kölə halına salsınlar əsir götürsünlər. Məlu olduğu kimi şəriət müsəlmanları qula çevirməyi qadağan edir, lakin kafirlərə münasibətdə bunu mümkün sayır. Sünnilər və şiələr isə indi bir-birin "kafir" adlandırırdılar. Cihad hər iki tərəfin feodal əyanlarına dinc əhalini soymaq üçün ən geniş imkanlar verirdi.

I Şah İsmayılın vəfatından və qızılbaş tayfalarının ara müharibələri ilə əlaqədar olaraq ölkədəki qarışıqlıqlardan istifadə edənn Şeybani xanın oğlu və varisi Übeydulla xan Xorasan üzərinə dəfələrlə basqınlar etdi. Özbəklərin hücumları demək olar ki, hər il təkrar olunurdu. "Qiyamçı qızılbaşlar kütləsinə" qarşıittifaq yaratmış Osmanlı türkləri və özbəklərlə eyni vaxtda mübarizə aparmaq Səfəvilər dövləti üçün çətin idi.

Hicri 930 (1524)-cu ildə Übeydulla Herata hərəkət etdi, lakin Xorasan bəylərbəyi Durmuş xan Şamlının qoşunları ilə toqquşaraq geri döndü[122].

Hicri 932 (1526)-ci ildə Durmuş xanın vəfatından sonra Xorasandakı qarışıqlıqdan istifadə edən özbəklər Amudəryanı keçərək Tus şəhərini mühasirəyə aldılar və onu tutdular[123]. Hicri 933 (1527)-cü ildə qızılbaşlar Bistam yaxınlığında yenidən məğlubiyyətə uğradılar. Özbəklər Astrabadı tutdular[124].

Hicri 934 (1527-1528)-cü ildə Übeydulla Xorasanın paytaxtı Heratı mühasirəyə aldı O, ancaq yeddi ay keçdikdən sonra şah ordusunun yaxınlaşması xəbərini alaraq mühasirəni aradan qaldırdı[125].

Güman edilir ki, ən böyük toqquşma hicri 935 (1528)-ci ildə Cam vilayətində, Sarıqamış adlı yeri yaxınlığında baş verdi. Vuruşmanın miqyası haqqında buna əsasən mühakimə yürütmək olar ki, Übeydulla öz qüvvələrini "Mavərənnəhr, Kaşqar, Türküstan, Əndican, Otrar, Seyran, Kabil, Turfan, Qılman, qazax,


downloaded from KitabYurdu.az

Qıpçaq və Qırğız çöllərindən" elə bir sayda toplamışdı ki, "Çingiz xan dövründən indiyə kimi Amudəryanı belə çoxsaylı qoşun keçməmişdi"[126]. Döyüşün əvvəlində qızılbaş ordusunun cinahları özbəklərin hücumuna tab gətirməyərək geri çəkilmişdilər. Lakin I Şah Təhmasibin yerləşdiyi mərkəzi cəbhə möhkəm dayanmışdı. Qızılbaşlar döyüşə yeni qüvvələr cəlb etməklə özbək qoşununu məğlubiyyətə uğratdılar. Übeydulla qaçaraq güclə canını qurtardı. Lakin şah Bağdada Zülfüqar xanın qiyamını yatırmağa getdikdən sonra Übeydulla əvvəlcə Məşhədi, sonra isə Heratı tutdu[128].

Hicri 936 (1529-cu ilin sonu) cı ildə 70 minlik şah qoşunu yenidən Xorasanı tutdu. Şah Heratda qardaşı Bəhram Mirzəni lələsi Qazi xan Təkəli ilə Xorasan hakimi kimi təsdiq etdi. Bütün yerlərə qızılbaş hakimləri təyin edildilər[129].

Hicri 938 (1531)-ci ildə Übeydulla Xorasan üzərinə yeni yürüş təşkil etdi. Özbəklər Məşhədi tutub Heratı mühasirəyə aldılar. Şəhərin mühasirəsi il yarım davam etdi. Qalada ərzaq ehtiyatları tükəndi. Qazi xan şəhər sakinlərini qaladan çıxardı ki, onların hesabına qoşun davam gətirsin. "Təkəli tayfası bu qarışıqlıqlar zamanı yoxsul rəiyyəti sıxışdırdı və onlara zülm etdi"[130]. Şəhərdən çıxarılan hər ailədən üç yüz Təbriz dinarı alırdılar. Şəhəri tərk edən sakinlərin evləri qızılbaşlar tərəfindən qarət edilirdi. Heratda elə dəhşətli aclıq baş verdi ki, mühasirəyə alınanlar "pişiklərin və itlərin ətini" yeməyə başladılar. 1532-ci ilin sonunda özbəklər şahın yürüşü xəbərini alıb Heratın mühasirəsindən əl çəkdilər[131].

Xorasan ərazisində ardı-arası kəsilməyən müharibələr nəticəsində yerli əhali tamamilə dilənçi vəziyyətinə düşdü. Xalq həm özbək qoşunlarının əsarətindən, həm də qızılbaş əyalət hakimlərinin zülm və özbaşınalığından eyni dərəcədə əziyyət çəkirdi[132]. Məsələn, salnaməçinin yazdığına görə, Übeydulla xan şəhərdən geri çəkildikdən sonra Herata daxil olan şah, Heratın özbəklər tərəfindən mühasirəsi zamanı "məzlumların əmlakını qarət etdiklərinə", xalqı incitdiklərinə görə Xorasan hakimi Qazi


downloaded from KitabYurdu.az

xanı və onun köməkçilərini vəzifədən kənar etməyə məcbur olmuşdu. Xəzinədən "yoxsullara" və "zəiflərə" pul paylandı. Ağzıvar xan Şamlı eyni zamanda vilayətin nominal hakimi çahzadə Sam Mirzənin atabəyi (lələsi) yerini tutmaqla Xorasan hakimi təyin olundu[133].

1534-cü ildə vəkil Hüseyn xan Şamlının öldürülməsi ilə əlaqədar olaraq qızılbaş tayfaları arasında başlanan ara müharibələri, Xorasanda da feodal hərc-mərcliyinə səbəb oldu. Hüseyn xanın həmtayfası, Xorasan bəylərbəyi Ağzıvar xan mərkəzi hakimiyyətə qarşı qiyam qaldırdı. Onun qiyamında istər-istəməz hamisi olduğu şahın qardaşı Sam Mirzə də iştirak etdi. Qiyamçılar Herat şəhəri sakinlərinin əmlakını qarət etdilər. Sonra isə o zaman Böyük Moğollardan olan Şah Humayunun tabeliyindəki Qəndəhar şəhərini ələ keçirmək məqsədilə yürüşə başladılar. Qalanın iki aylıq uğursuz mühasirəsindən sonra Hümayunun qardaşı Mirzə Kamran iyirmi minlik qoşunla mühasirədə olanların köməyinə gəldi. Düşmənin üstün qüvvələri ilə döyüşdə qiyamçılar darmadağın edildilər. Ağzıvar xan özü də həlak oldu. Bundan sonra Sam Mirzə özünü I Təhmasibin qarşısında təmizə çıxarmaq üçün bir neçə "qiyam təhrikçisini" edam etdirib başlarını şaha göndərdi[134].

Qərbdən Osmanlı imperiyasının hücumu  və Xorasandakı qarışıqlıqlarla əlaqədar olaraq Səfəvilər dövlətinin düşmüş olduğu ağır vəziyyət  Orta Asiya hökmdarlarını, xüsusilə də Übeydulla xanı yeni, fəal əməliyyat kaçməyə həvəsləndirdi. Onların göndərdikləri iki dəstə Xorasana soxuldu.Lakin Məşhədin qızılbaş hakimi Sufiyan Xəlifə Rumlu tərəfindən darmadağın edildi. Bunun ardınca Gərcistan[135] hakimi  Bayramoğlan Herat ərazisinə soxuldu. Müqavimət göstərmək üçün kifayət qədər qüvvələri olmayan Herat hakimləri şəhərin və ətraf ərazilərin sakinlərindənn icbari qaydada qoşun topladılar.Heratın 80 yaşlı hakimi Xəlifə Sultan Şamlının başçılıq etdiyi bu qoşun İsfizar ərazisində, hicri 941-ci il zülqədərin


downloaded from KitabYurdu.az

19-u (1535-ci ilin mayın 22-də) özbəklər tərəfindən darmadağın edildi[136].

Hakimsiz və qoşunsuz qalan heratlıların kömək üçün müraciət etdikləri Məşhəd hakimi Sufiyan Xəlifə Rumlu qoşunla Herata gəldi. O, özünün zülm və qarətləri ilə əhalini "ağır günə" qoydu.

Heratdakı vəziyyətdən xəbəri olan Übeydulla xan Xorasana yeni basqın üçün həmin anı əlverişli hesab etdi. Sufiyan Xəlifə özbəklərin Məşhədi mühasirəyə alması xəbərini eşidəndə öz müavinləri Xızır Çələbini və Nurəddin Məhəmməd İsfəhanini Heratda qoydu, özü isə özbəklərə qarşı hərəkət etdi. Döyüş hicri 942-ci il rəcəbin 20 (1536-cı il yanvarın 13)-də, Nişapur ərazisinin Abdulabad kəndi yaxınlığında baş verdi və qızılbaş qoşununun darmadağın edilməsi, Sufiyan Xəlifənin isə öldürülməsi ilə başa çatdı[137].

Eyni zamanda Heratda da mürəkkəb vəziyyət yaranmışdı. Ümidsiz vəziyyətə salınmış şəhər sakinləri Xızır Çələbiyə və onun adamlarına qarşı üsyan qaldırdılar. Səfəvilər əleyhinə olan bu çıxışda şəhər əyanlarından başqa, qızılbaş əmirlərinin zülm və özbaşınalığından narazı olan, Herat ətrafında yaşayan kəndlilər də fəal iştirak etdilər. Xəyanət sayəsində Xızır Çələbi şəhər əyanlarının qəsdinin üstünü aça bildi və qəsdin təşəbbüsçüsü, Heratın kələntəri Mühibb Mikal ələ keçirilib edam edildi. Lakin Herat kəndlilərinin üsyanını yatırmaq o qədər də asan olmadı. Xızır Çələbi Heratın Firuzabad qapılarına həmlə edən kəndliləri dilə tutmağa və sakitləşdirməyə cəhd göstərdi. Kəndlilərin şəhərə girmək üçün dəfələrlə göstərdikləri cəhdlər nəticə vermədikdə onlar (şəhər əyanlarının hiyləsi də yox deyildi) kömək üçün öz nümatəndələrini Übeydulla xanən yanına göndərdilər. Sonuncu, bu çağırışa yubanmadan cavab verdi.

Hicri 942-ci il ramazanın 18 (1536-cı il martın 11)-də Übeydulla xan böyük qoşunla Herata yaxınlaşıb onu mühasirəyə


downloaded from KitabYurdu.az

aldı. Özbəklər yalnız beş aydan sonra hicri 943-cü il səəfrin27 (1536-cı il avqustun 15)-də şəhərə girə bildilər və qısa toqquşmadan sonra onu ələ keçirdilər. Xızır Çələbinin öz ailəsi və yaxın adamları ilə sığındığı məşhur Herat qalası olan İxtiyarəddin də bir qədər sonra hiylə ilə alındı[138]. Bu dəfə Übeydulla Heratda bir ildən artıq qaldı. Hicri 943-cü il şabanın 17 (1537-ci il yanvarın 29)-də I Şah Təhmasibin başçılığı ilə Xorasana gəlmiş böyük qızılbaş ordusu ilə toqquşmaqdan çəkinən özbəklər Heratı tərk edərək Buxaraya qayıtdılar və şəhər yenidənn qızılbaş əmirlərinin hakimiyyəti altına keçdi[139].

Beləliklə, Übeydulla xanın Xorasana yürüşləri bir nəticə vermədi. Səfəvilər bu mühüm vilayəti öz əllərində saxlayaraq özbəklərin bütün basqınlarını dəf etdilər. Deməli, Səfəvilər dövlətinin qərb cəbhəsində Osmanlı türklərinə qarşı olduğu kimi, özbəklər əleyhinə də hərbi əməliyyatları müdafiə xarakteri daşıyırdı. Özbək xanları özlərinin basqınları zamanı bir neçə dəfə Astrabad ərazisinə qədər gəlib çıxmış, dəfələrlə Xorasanın paytaxtı, Səfəvilər dövlətinin ən böyük şəhərlərindən biri olan Heratı almışdılar. Burada özbəklərin müvəffəqiyyətləri xeyli dərəcədə onunla bağlı idi ki, yerli tacik əhalinin istər feodal əyanları, istərsə də kəndliləri amansız zülm və zorakılığa yol vermiş qızılbaş hakim dairələrinədüşməncəsinə münasibət bəsləyirdilə. 1535-1536-cı illərin Herat üsyanının nümunəsində gördüyümüz kimi, bu düşmənçilik bəzən öz zülmkarlarına qarşı açıq xalq çıxışı şəkli alırdı.

Özbək xanlarının Xorasana yürüşləri sonrakı illərdə 950 (1543), 952 (1545), 955 (1548), 957 (1550), 962 (1555), 965 (1558), 967 (1559-1560), 971 (1563-1564), 974 (1566-1567), 977 (1569-1570)-ci illərdə də davam etmişdi[140]. 1550-ci ildə Astrabad ərazisində türkmən mənşəli yaka tayfasının mərkəzi hakimiyyətə qarşı üsyanı Səfəvilərin bu basqınlarla mübarizəsini mürəkkəbləşdirmişdi. Üsyana əyan ailəsindən olan Aba adlı gənc


downloaded from KitabYurdu.az

rəhbərlik edirdi. O, şah qoşunları ilə mübarizədə kömək üçün özbək xanlarına dəfələrlə müraciət etmiş və onların qoşunları köməyə gəlmişdilər. Yalnız 1558-ci ildə (Aba xaincəsinə öldürüldükdən sonra) üsyan yatırıldı[141].

## Səfəvilərin Gürcüstana yürüşləri

Gürcüstan Osmanlı imperiyası ilə Səfəvilər dövləti arasında mühüm hərbi-strateji mövqe tuturdu. Osmanlı Türkiyəsi Səfəvilərdən əvvəl bura soxulmuş, öz təcavüzünü genişləndirməklə hədələyərək Qərbi Gürcüstanda möhkəmlənmişdi. Sultanın əksinə olaraq, şahAzərbaycana Osmanlı ilhaqının qarşısında maneə yaratmaq üçün hər vasitə ilə Gürcüstanın şərq vilayətlərində öz mövqelərini möhkəmləndirməyə səy göstərirdi. Yuxarıda qeyd edilmişdi ki, Osmanlı imperiyası Azərbaycanın zəngin ipəkçilik bölgələrini – Şəki və Şirvanı zəbt etməyi, Xəzərboyu ticarət üzərində nəzarəti ələ keçirməyi öz qarşısına məqsəd qoymuşdu. Göstərilən istiqamətdə Osmanlı təcavüzü XVI əsrin son rübündə aşkara çıxdı və Gürcüstan bu vilayətlərə Osmanlı basqını üçün istinad nöqtəsinə çevrildi.

XVI əsrin əvvəlində Kartli, Kaxetiya, İmeretiya çarlıqlarına, Samtsxe-Saatabaqo knyazlığına[142] parçalanmış Gürcüstan, Yaxın Şərqin Osmanlı imperiyası və Səfəvilər dövləti kimi iki qüdrətli siyasi qurumun qarşısında dura bilməzdi. Gürcü çarları sultanla şah arasında manevr etməklə öz torpaqlarının bütövlüyünü saxlamağa çalışırdılar.

Qızılbaş yürüşlərinin əsas obyektləri Kartli, Kaxetiya və Mesxiya (Samtsxe-Saatabaqo) idi. İskəndər bəy Münşi göstərir ki, Şəki ilə Şirvanın qonşuluğunda olan gürcü çarları keçmişdə bu ərazilərə soxulur və "müsəlmanlara hücum edirdilər". Tarixçi davam edir: "Bu vilayətlər Səfəvilər dövlətinə birləşdirildikdən


downloaded from KitabYurdu.az

sonra Kaxetiya çarı Levan (Ləvənd xan)[143] şahın vassalı oldu. Mesxiya atabəyi Keyxosrov da "yüksək şah astanasının mülazimləri sırasına"[144] daxil oldu. Lakin Kartli çarı Luarsab[145] (Ləvəsən), İmeretiya çarı (Başı açıq) Baqrat[146] və Menqreliya hakimi Dadian şahın vassalları Levan və Keyxosrova hücum etməklə "öz düşmənçiliklərini biruzə verir və lazımi itaət göstərmirdilər".

Hələ XVI əsrin birinci rübündə Səfəvil\ər Kartli və Kaxetiyanı tabe etməyə cəhd göstərmişdilər. Lakin onlar Gürcüstanın fəth olunması uğrunda ardıcıl mübarizəyə I Şah Təhmasibin dövründə başladılar. 1540-1554cü illərdə I Şah Təhmasib Gürcüstana dörd dəfə yürüş etmişdi.

Farsdilli mənbələrə o, o cümlədən Həsən bəy Rumlunun məlumatına görə, I Şah Təhmasibin Gürcüstana yürüşləri hicri 947[148], 953[149], 958[150] və 961[151] (1540-1541, 1546-1547, 1551 və 1554)-ci illərə təsadüf edir.

İskəndər bəy Münşinin məlumatları, hərbi yürüşlərin tarixi və bir çoz təfərrüatları xeyli dərəcədə Həsən bəy Rumlunun təsvir etdiklərinə uyğun gəlir[152].

Gürcü mənbələri, qızılbaşların Gürcüstana yürüşlərinin tarixlərinin göstərilməsində Şərq salnamələrindən əhəmiyyətli dərəcədə fərqlənir. Məsələn, gürcü salnaməçisi Vaxuştinin yazdığına görə, Səfəvi şahı Gürcüstana 1536, 1548, 1553 və 1558-ci illərdə yürüş etmişdir[153]. M.Brosse bu yürüşlərin tarixini gürcü mənbələri əsasında göstərir. Mükəmməl "Əhsən ət-təvarix" əsəri ona məlum deyildi. Məsələ bundadır ki, Həsən bəy Rumlu bu yürüşlərin yalnız müasiri deyildi. O, həm də döyüş əməliyyatlarıda, o cümlədən özünün xüsusi olaraq söz açdığı I Şah Təhmasibin ikinci yürüşündə şəxsən iştirak etmişdi[154]. Halbuki Vaxuşti tarixi xronikanı XVIII əsrdə yazmış və hadisələrin təsvirini öz dövrünə qədər gətirib çatdırmamışdır. Onun əsərinin mənbələri barədə olduqca az məlumatımız vardır[155].Bundan başqa, Həsən bəy


downloaded from KitabYurdu.az

Rumludan hadisələrin tarixi, təsvir olunan olayların müasiri olmuşƏhməd Qəffarinin "Tarix – Cahan ara" salnaməsinin məlumatları ilə tamamilə təsdiq edilir.

Bu baxımdan "Gürcü xronikası" adlananmənbə heç bir yenilik vermir[156]. Arakel Təbrizinin xronoloji cədvəlində I Şah Təhmasibin Gürcüstana yalnız birinci yürüşünün adı çəkilir, tarixi göstərilir və bu məlumatlar Şərq salnamələri ilə səsləşir[157].

Bu yürüşlər Qurana görə savab iş sayılır, "kafirlərlə" mübarizə, müqəddəs "cihad" müharibəsi kimi, üzürlü bəhanələr altında həyata keçirilirdi. Qızılbaş hərbi-feodal əyanları həmin yürüşlərdən "İslamı yaymaq" üçün istifadə edirdilər. Mənbələrdə göstərilir ki, gürcü qalaları alınarkən yalnız islamı qəbul edənlərə aman verilirdi.

Qızılbaşların Gürcüstana yürüşləri ölkə iqtisadiyyatına böyük ziyan vurdu. Müharibələr zamanı əkinlər, meyvə bağlarıməhv edilir, qaramal, qoyunsürüləri aparılır, məskənlər viran edilirdi. Qızılbaşlar yalnız maddi sərvətləri ələ keçirməklə kifayətlənmir, əhalini də əsir aparırdılar. Səfəvi tarixşünasları hakim dairələrə xoş gəlmək üçün gürcüləri "gəbrlər" adlandırır və onlar üzərində qələbələrlə öyünürdülər. Məsələn, birinci yürüş (1540) zamanı Tiflis ələ keçirilmiş və qarət edilmişdi. Dördüncü yürüş (1554) zamanı qızılbaşlar 30 min nəfərdən çox adamı ( o cümlədən qadınları və uşaqları) əsir almışdılar. Qızılbaş qoşunlarının basqınlarından ilk növbədə zəhmətkeş əhali və xırda gürcü feodalları əziyyət çəkirdilər. Hakim dairələr isə çox vaxt xərac verməklə, yaxud islamı qəbul edərək işğalçılara ximətə keçməklə nicat tağırdılar.

Yuxarıda göstərdiyimiz kimi, 1555-ci ilin Amasya sülh müqaviləsinə görəGürcüstan Osmanlı Türkiyəsi ilə Səfəvilər dövləti arasında təsir dairələrinə bölündü. Lakin Gürcüstanın istiqlaliyyəti uğrunda mətin və barışmaz mübarizlər – Kartli çarı Luarsab, onun ölümündən sonra isə oğlu Simon (1558-1560)


downloaded from KitabYurdu.az

müqaviməti davam etdirdilər. Səfəvilərin Kartliyə yürüşləri sonralar da baş vermişdi. Məsələn, qarabağ bəylərbəyi Şahverdi Sultan Ziyad oğlu üç dəfə - hicri 963 (1556)[158], 964 (1557)[159], 968 (1560-1561)- ci[160] illərdə qoşunları ilə bura daxil olmuş və dağıntılar törətmişdi. Çar Luarsab onunla döyüşdə həlak olmuşdu. Simon isə qızılbaşların tərəfinə keçmiş qardaşı Davidin (Davud bəyin) təhriki ilə hicri 976 (1568-1569)-cı ildə Şamxal bəy Çərkəz tərəfindən ələ keçirilmiş və şahın gösrərişi ilə Ələmut qalasına salınmışdı[161].

## Səfəvilərin Böyük Moğollar dövləti ilə münasibətləri

Səfəvilər dövləti cənub-şərqdə əsası 1526-cı ildə Babur tərəfindən qoyulmuş Böyük Moğollar dövləti ilə həmsərhəd idi. Özlərinin digər qonşularından fərqli olaraq, Səfəvilər hələ I Şah İsmayılın dövründə Baburla ittifaq münasibətləri yaratdılar. Onların qarşılıqlı münasibətləri dini düşmənçilik amilindən uzaq idi. Çünki Babur da şiəliyin qəbul edilməsinə meyl göstərirdi. Onların ümumi düşməni yalnız Xorasana deyil, habelə Əfqanıstana və Şimali Hindistana basqınlar təşkil edən özbək hökmdarları idi. Səfəvilərlə Moğollar arasında münaqişə çox mühüm hərbi-strateji məntəqəyə, Hindistandan İrana və oradan da geriyə aparan qapılar olan şəhər - qalaya – Qəndəhara yiyələnmək uğrunda baş verdi. Qəndəharın həm də böyük ticarət – iqtisadi əhəmiyyəti var idi. "Hindistandan İrana mallarla yüklənmiş təxminən 14 min dəvə hər il buradan keçirdi"[162]. Təbiidir ki, buna görə də şəhər Səfəvilər və Moğollar arasında münaqişə obyektinə çevrildi və o, əldən-ələ keçməyə başladı.

Hicri 943 (1537)-cü ilin qışıI Şah Təhmasib Qəndəharı geri almaq üçün Heratdan yola düşdü.Qala rəisi Xacə Kalan müqavimət göstərmədən qızılbaşlara təslim etdi. Şah, Budaq xan Qacarı


downloaded from KitabYurdu.az

Qəndəhar vilayətinin hakimi təyin etdi və Herata qayıtdı[163]. Lakin 1538-ci ildə Moğol padşahı Hümayunun qardaşı Mirzə Kamran qoşunla Qəndəhara gələrək qızılbaşları oradan sıxışdırdı[164].

Səfəvi – Moğol münasibətlərində Hümayunun hərbi yardım haqqında xahişlə I Şah Təhmasibə müraciət etməsi əlamətdar hadisə oldu. Hümayun əfqan hakimi Şirxan tərəfindən darmadağın edilmiş və hətta ona qarşı çıxış etmiş qardaşları da onu yalqız buraxmışdılar. Vəziyyət o dərəcədə ağırlaçmışdı ki, o, arvadı, qulluqçusu və 40 etibarlı adamının müşayiəti ilə Səfəvilərin ərazisində təqibdən yaxa qurtarmağa məcbur olmuşdu[165].

Hicri 951 (1544)-ci ildə Hümayun Sistan hakimi Əhməd Sultan Şamlı tərəfindən padşaha layiq təmtəraqla qəbul edilərək Herata yola salınmışdı. Hümayun onu qarşılamaq üçün öz məiyyəti ilə şəhər hüdudlarından xeyli kənara çıxmış Xorasan bəylərbəyi Məhəmməd xan Şərəfəddin oğlu tərəfindən də böyük ehtiramla qarşılanmışdı[166]. Hümayun bir neçə gün Heratda qaldıqdan sonra şahın yanına – İraq tərəfə hərəkət etdi. Həsən bəy rumlu yazırdı: "Onun gəlib çatdığı hər bir vilayətdə yerli əmirlər və sərdarlar sədaqət andı içir, ona layiqli hədiyyələr verirdilər"[167]. Sultaniyyənin yaxınlığında, Sorluq yaylağındakı şah düşərgəsində Hümayunu şahın qardaşları Bəhram və Sam, vəzir Qazi Cahan, qorçibaşı Sevindik bəy və dövlətin digər yüksək rütbəli adamları qarşıladılar.Həsən bəy qeyd edir ki, Hümayun şah alaçığına yaxınlaşanda atdan düşdü və alaçığa doğru yollandı. I Şah Təhmasib onu görüb alalçıqdan çıxdı və bir neçə addım irəli yeridi. Oradakılar iki parlaq ulduzun birləşməsinin şahidi oldular. Hümayunun şaha bağışladığı hədiyyələr arasında "tayı-bərabəri olmayan, taleyin görmədiyi və zamanın eşitmədiyi, çəkisi dörd misqal və dörd danqa olan almazın" da adı çəkilir[168].

Hümayun ona hər cür qonaqpərvərlik və dostluq nişanələri izhar edən I Şah Təhmasib tərəfindən mehribanlıqla qarşılandı. Onun şərəfinə verilən böyük ziyafətdən sonra şah peşkəşlərinin


downloaded from KitabYurdu.az

verilməsinə başlandı. Bunların arasında qiymətli daşlarla bəzədilmiş tac və kəmər, qızıl çəkili parçalar, firəng (Avropa) malları, döyüş sursatı və silah, ərəb atları vəs.vardı. Sonra Hümayun şahdan ayrıldı, Təbriz və Ərdəbilə yollandı. Təbriz yerli sakinlərin əmri ilə bayramsayağı bəzədilmişdi: bazarlar və xüsusilə mərkəzi Qeysəriyyə bazarı yaraşıqlı libasa bürünmüşdü. Təbrizlilər yüksək qonağın şərəfinə Sahibabad meydanında keçirilən çovgan oyununda və digər əyləncə növlərində öz məharətlərini nümayiş etdirirdilər. Hümayun Ərdəbildə Şeyx Səfiəddinin türbəsi qarşısında "baş əydi", bundan sonra isə saraya qayıtdı. Müxtəlif məlumatlara görə, I Şah Təhmasib tərəfindən Budaq xan Qacar və Şahverdi bəy Ustaclı başda olmaqla 6 mindən 12 min nəfərədək qızılbaş Hümayunun sərəncamına verildi[169]. Hümayun həmin hərbi yardımla Hindistana yola düşdü, öz düşməni Şirxanı darmadağın etdi və taxt-tacı özünə qaytardı. O, bu köməyin müqabilində hər il 40 min tümən gəlir verən Qəndəharı Səfəvilərə güzəştə getdi[170].

## Osmanlı Türkiyəsi ilə münasibətlər. Şahzadə Bəyazidin qiyamı və onun Səfəvilərin yanına qaçması

1555-ci ildən sonra Səfəvilər dövlətinin Osmanlı Türkiyəsi ilə münasibətlərində I Şah Təhmasibin hakimiyyətinin sonuna qədər sülh dövrü davam etdi.

Hicri 967-ci ilin məhərrəmində (1559-cu ilin sonunda) şahzadə Bəyazid öz ailəsi və 12 min nəfərlik dəstəsi ilə Qəzvinə I Şah Təhmasibin sarayına gəldi.Türk sultanı Süleymanın oğlu Bəyazid atasına qarşı üsyan etmiş, lakin darmadağın olunmuşdu. Ardınca göndərilmiş təqibçi dəstədən canını qurtarmaq üçün o, Çuxursəədə - Səfəvilərin ərazisinə daxil olmuşdu. Onun qızılbaş paytaxtında təntənə ilə qarşılanması Qəzvin meydanında,


downloaded from KitabYurdu.az

həmin mərasimdə iştirak etmiş Qazi Əhməd Qəffari tərəfindən təfsilatı ilə təsvir edilmişdir[171]. Şah, ziyafətlər və hədiyyələr verməkdə xəsislik etməmiş və bu tədbirlərə təxminən on min tümən xərcləmişdi. Öz mənafeyini düşünən Təhmasib, Süleymanın oğlunun onun yanına qaçmasından daha çox faydalanmaq barədə düşünürdü. Üç il şahın sarayında qalmış şahzadə Bəyazid onu türk sultanına qarşı yürüşə təhrik etmişdi. Şah, ölkəyə çoxlubədbəxtliklər gətirmiş müharibəni yenidən başlamaq fikrindən uzaq idi. Şah, Bəyazidin təslim olunması müqabilində türk elçilərindən Bağdadın öz oğlu Heydər Mirzəyə verilməsini və yaxud oğullarından birinin osmanlı ərazisində sancaqbəyi təyin edilməsini və Kərbəladakı şiə türbələrinə nəzarət etmək üçün qızılbaş xadiminin ora buraxılmasını tələb edirdi. Şahın bütün bu kələkləri,özünün qiyamçı oğlunundanışıqsız qaytarılmasında təkid edən, Osmanlı-Səfəvi münasibətlərinin yenidən pisləşə biləcəyi ilə hədələyən sultan tərəfindən rədd edildi.

Hicri 969-cu ilin zülqədə ayında (1562-ci ilin iyulunda) Van hakimi Xosrov paşa başda olmaqla, Qəzvinə sultanın böyük elçi heyəti gəldi[172]. Şahın Bəyazidi qaytarmasına nail olmaq onların əsas vəzifəsi idi. Türkiyə ilə yeni hərbi münaqişə təhlükəsi qarşısında ehtiyat edən, bəlkə də qızıla tamahı olan I Təhmasib Bəyazidi və onun dörd oğlunu sultan nümayəndələrinin sərəncamına verdi. Onlar elə oradaca edam edildilər, cənazələri isə Osmanlı Türkiyəsinə aparıldı. Bəyazidin beşinci oğlunun taleyi daha dəhşətli oldu. Bursada yaşayan üç yaşlı uşaq sultanın casusları tərəfindən boğulub öldürüldü. Şərəf xan Bidlisinin məlumatına görə, türk elçiləri bu "xidmət" müqabilində sultanın ümumi məbləği 30 min İraq tüməninə bərabər 400 min florini, şahzadə Səlimin isə 100 min florinini şaha təqdim etdilər[173].

Hər halda yetişməkdə olan münaqişə aradan qalxdı və xəyanət hesabına sülh əldə edildi. I Şah Təhmasib "Təzkirə"də özünə yöndəmsiz halda bununla bəraət qazandırır ki, guya o,


downloaded from KitabYurdu.az

Bəyazidə onu şəxsən Süleymana təslim etməyəcəyinə söz vermişdi və buna görə də onu elçilərə təslim etməklə, öz vədinə xilaf çıxmamışdır.

## Səfəvilər dövlətinin Avropa ölkələri ilə siyasi əlaqələri

Artıq qeyd etmişik ki, orta əsrlərin yeganə əsl hərbi dövləti – Osmanlı Türkiyəsinə qarşı mübarizənin ümumi mənafeləri əsasında, Səfəvilər dövlətinin Qərbi Avropa ölkələri ilə diplomatik münasibətləri xeyli canlanmışdı.

Səfəvilər dövlətin mənafelərinin bilavasitə toqquşduğu Avropa ölkələrindən birincisi Portuqaliya oldu.

Portuqaliyalı Vasqo de Qamanın Afrika ətrafından

Hindistana dəniz yolunu kəşf etməsi İran, Osmanlı və Suriya limanlarından keçən köhnə Aralıq dənizi yolu ilə avropanın Hindistanla ticarətinə ağır zərbə vurdu.1515-ci ildə İran körfəzinin Hörmüz və digər adalarını tutmaqla portuqaliyalılar Səfəvilərin ərazilərinin bilavasitə yaxınlığında görünərək, onlara özlərinin Hindistanla dəniz ticarətinin şərtlərini qəbul etdirməyə cəhd göstərdilər. Portuqaliya böyük gəlir gətirən Avropa-Asiya ticarətinin Aralıq dənizi yolunu nəzarət altında saxlamaq üçün hər cür cəhd göstərir, okean yolu ilə Hindistanla müntəzəm ticarət əlaqələri yaratmaqda ona mane olmağa səy edən Osmanlı Türkiyəsi ilə düşmənçilik edirdi.

Portuqaliyalılar Osmanlı Türkiyəsi ilə mübarizədə Səfəvilər dövləti ilə yaxınlaşmağa başladılar. Türkiyə ilə müharibələr dövründə Səfəvilər dövləti də belə bir ittifaqa meyl göstərirdi. Bəzi məlumatlara görə, Portuqaliya Türkiyə əleyhinə Səfəvilərə yalnız odlu silahla deyil, habelə qoşunlarla, hərbi və maliyyə yardımı göstərirdi. Məsələn, F.Kruzinskinin məlumatlarına görə, I Şah Təhmasib 1549-cu ildə portuqaliyalılardan 10 minlik qoşun və 20


downloaded from KitabYurdu.az

top almışdı[174]. XVI əsrin yetmişinci illərində Səfəvilərin Venetsiyadakı səfiri Xacə Məhəmməd məlumat verir ki, Portuqaliya kralı Səfəvilərə 20 min tsexin məbləğində pul göndərmək barədə də göstəriş vermişdi[175].

Bununla əlaqədar olaraq qeyd etmək maraqlıdır ki, farsdilli salnamələrdə I Şah Təhmasibin sarayına gəlmiş iki firəng (avropalı) səfirliklərinin adları çəkilir. Bu diplomatil nümayəndəliyin hər ikisini Portuqaliya göndərmişdi. Hicri 958 (1551)-ci ildə Qəzvinə gəlmiş Portuqaliya kralı III Juanın (1552-1557) elçiləri sarayda mehribanlıqla qarşılanmışdılar[176]. Bu zaman Səfəvilər dövləti ilə Osmanlı Türkiyəsi arasında müharibə gedirdi. Hicri 982 (1574-1575)-ci ildə III Juanın varisi – Don Sebatyanın (1557-1578) göndərdiyi nümayəndə heyətini isə şah qəbul etməmişdi. Həsən bəy Rumlu bunu portuqaliyalıların işğal etmiş olduqları İran körfəzi adalarında müsəlmanları sıxışdırmaları ilə izah edir[177]. Görünür başlıca səbəb bundan ibarətdir ki,Şah Təhmasib Osmanlı Türkiyəsi ilə 1555-ci ildən sonra yaranmış dinc münasibətləri sultana düşmən olan dövlətin elçilərini qəbul etməklə mürəkkəbləşdirmək istəmirdi. İskəndər bəy Münşi məlumat verir ki, I Təhmasib öz vəfatına qədər həmin nümayəndə heyətinə vətəninə qayıtmağa icazə verməmişdi. Onlar yalnız Şah Məhəmməd Xudabəndənin dövründə ölkədən getmək imkanı əldə etmişdilər[178].

Osmanlı basqını təhlükəsi Avropa dövlətlərini son dərəcə narahat edirdi. Venetsiya, İspaniya, Avstriya Habsburqlarının ərazilərinə isə bilavasitə basqın təhlükəsi yaranmışdı. Əvvəllərdə olduğu kimi, Osmanlı dövləti əleyhinə ittifaqın yaradılmasında Roma papası böyük fəallıq göstərirdi. O, sultana düşmən olan Asiya dövlətlərini də (onların arasında Səfəvilər dövlətinə başlıca yer ayrılırdı) cəlb etməklə xristian dövlətləri ittifaqını qarşıya məqsəd qoymuşdu. Bu zaman Türkiyənin hərbi qüvvələrini iki cəbhəyə - qərb və şərq cəbhələrinə parçalamaq nəzərdə tutulmuşdu.


downloaded from KitabYurdu.az

1571-ci ildə sultanın venetsiyalıların hakimiyyəti altında olan Kipr adasını işğal etməsi Venetsiya, İspaniya və Vatikanın daxil olduğu antitürk "müqəddəs ittifaqın" yaranmasını sürətləndirirdi.

Göstərildiyi kimi, təxminən elə o zaman Venetsiya öz diplomatı Vinçentso Alessandrini osmanlılar əleyhinə ittifaq bağlamq təklifi ilə Səfəvilərin sarayına göndərmişdi. Sonrakı ildə (1572) papa V Piy I Şah Təhmasibə məktubunda bildirirdi ki, şahın xristian müttəfiqləri ilə özünün qəddar düşməninə qarşı birgə çıxış etməsi üçün əlverişli məqam çatmışdır. Katolik kilsəsinin başçısı, I Şah Təhmasibi II Səlimə qarçı hərbi əməliyyatlara başlamağa çağırır, ona Mesopotamiya və Suriyanı ələ keçirməkdə müvəffəqiyyətlər vəd edir, birgə çıxış edən Avropa dövlətləriqoşunlarına qarşı vuruşan türklərinn həmin əraziləri qoruya bilməyəcəyini göstərirdi[179].

Səfəvilərlə bütün bu diplomatik əlaqələr nəticə vermədi. Çünki I Şah Təhmasib bu dövrdə qəti qərara gəlmişdi ki, Osmanlı Türkiyəsi ilə münasibətləri pisləşdirə biləcək hərəkətlərə yol vermək olmaz. Eyni zamanda Səfəviləri Türkiyə ilə müharibəyə təhrik edən Qərbi Avropa hökmdarları özləri həmin müharibədə ciddi iştirak etmək barədə düşünmürdülər. Onlar yalnız Səfəvilər dövlətindən istifadə edərək Türkiyəni uzun sürən müharibəyə cəlb etmək, bununla da özləri və torpaqları üçün sultan tərəfindən gözlənilən təhlükəni zəiflətmək istəyirdilər. Bu münasibətlə, papa XIII qriqorinin (1572-1585) Vatikanın arxivində saxlanılan, Səfəvi şahının yanına gedəcək elçisi üçün yazdığı təlimatlar maraqlıdır. Elçiyə göstərişlər verilirdi ki, 100-150 min skudi məbləğində pul, həmçinin də 2 min odlu silah və 15-20top göndərməyi vəd etməklə, şahın yaxın 2-3 ildə hərbi əməlyyatlara başlamasına nail olmaq lazımdır[180].

Hadisələrin sonrakı gedişi də bu fikri təsdiq edir. Belə ki, 1578-ci ildə Osmanlı Türkiyəsi öz ordularını Səfəvilər dövlətinə qarşı yeritdi.Şah Məhəmməd Xudabəndə Portuqaliyaya nümayəndə


downloaded from KitabYurdu.az

heyəti göndərmiş və Sultan III Murada[181]qarşı birgə çıxış etmək çağırışı ilə Avropanın bütün xristian krallarına müraciət etmişdi. Türkiyə, demək olar ki, bütün Cənubi Qafqazı işğal etmişdi.Səfəvilər dövləti üçün ağır olan bu şəraitdə nə Portuqaliya, nə də İspaniya Türkiyəyə qarşı müharibəyə qoşulmadılar.1582-ci ildə papa XII Qriqorini və II Filippi təmsil edən, Hörmüzdə Avqustluların prioru olan Simon, Şah Məhəmməd Xudabəndənin yanına göndərildi. Simon papaya məktubunda xəbər verirdi ki, şah türklərlə müharibəni davam etdirməyə hazırdır və əgər xristian dövlətlərinin sultanla vuruşmaq istədiklərini bilsəydi, öz elçisini ispan kralının yanına göndərərdi[182]. Artilleriya, pul və Avropa dövlətlərinin birdə çıxışını vəd etməklə, Səfəvi dövlətini Türkiyə ilə müharibəyə təhrik etmək vəzifəsi də Simonun qarşısına qoyulmuşdu.

1586-cı ildə Səfəvilər dövlətinə Şah Məhəmmədin yanına göndərilmiş digər papa elçisi – Ciovanni Battista Vekyettinin qarşısında da belə bir vəzifə qoyulmuşdu.

## Azərbaycan Səfəvilər dövləti və Moskva knyazlığı

Azərbaycan Səfəvilər dövlətinin Moskva dövləti ilə ilk diplomatik əlaqələri I Şah İsmayıl hakimiyyətinin son illərinə aiddir. 1521-ci ildə Səfəvi nümayəndəliyinin Moskvaya gəlməsi və Moskva knyazından "çoxlu top, ustalar və yaraq-əslahə" alması[183] barədə, Krım xanının Sultan I Süleymana verdiyi məlumat saxlanmışdır. Bu, rus arxiv sənədlərinin qeydə aldığı ilk əlaqə faktıdır. Məlumat həm də buna görə maraqlıdır ki, Çaldıran vuruşmasında I Şah İsmayılın ordusunda çatışmayan odlu silah və top almaq cəhdlərinin olduğunu göstərir.

Moskva dövlətinin Azərbaycan Səfəvilər dövləti ilə diplomatik əlaqələr yaratmasına qonşular – Osmanlı Türkiyəsinə


downloaded from KitabYurdu.az

meyl edən Volqaboyu xanlıqlar, həmçinin Krım tatarlarının viranedici basqınları mane olurdu. XVI əsrin ortalarında Moskva dövləti Xəzərin şimal sahillərinə çıxmağa, Xəzər dəniz yolunu ələ keçirməyə cəhd göstərir, Volqa boyunca cənuba doğru irəliləyirdi.

Bizə həmçinin məlumdur ki, 1553-cü ildə Seyid Hüseynin başçılıq etdiyi Səfəvi nümayəndə heyəti Moskvaya gəlmişdi[184]. əlimizdə danışıqların məzmunu haqqında məlumat olmasa da güman etməyə əsas var ki, danışıqlarda Türkiyə əleyhinə hərbi ittifaq haqqında məsələyə də toxunulmuşdur. Məhz bu zaman Sultan Süleymanın qoşunlarıüçüncü dəfə Azərbaycana soxulmuşdular və I Şah Təhmasib düçmən basqını ilə ağır və qeyri-bərabər mübarizə aparmalı olurdu. Səfəvi şahı Krım tatar süvarilərinin Dağıstan və Dərbənddən hücumunun qarşısını almaq üçün məhz şimalda müttəfiq axtarırıdı.

1561-ci ildə Moskvaya (adı naməlum qalmış) Səfəvi nümayəndəsi gəlmişdi. Bu barədə 1562-ci ilin iyununda onunla birlikdə Moskvadan Həştərxana gəlmiş Cenkinson çəlumat verir[182]. 1563-cü il noyabrın 1-də Şirvan bəylərbəyi Abdulla xan Ustaclının nümayəndəliyi Moskvaya gəlmişdi[186].

Ehtimal etmək olar ki, I Şah Təhmasib Osmanlı Türkiyəsi ilə 1555-ci il sülhünün uzun sürəcəyinə şübhə edir və Moskva dövləti ilə yaxınlaşmağa səy göstərirdi. Moskva dövlətinin başı üzücü Livoniya müharibəsinə qarəşmışdı və çar sultanla münasibətləri kəskinləşdirmək istəmirdi. Lakin IV İvan 1569-cu ildə Aleksey Xoznikovun nümayəndəliyini I Şah Təhmasibin yanına göndərmişdi. Xoznikov Səfəvilər üçün xeyli hərbi texnikanı – 100 top və 500 tüfəngi Qəzvinə gətirmişdi[187].

IV İvanın Kazan və Həştərxan xanlıqlarını Moskva dövlətinə birləşdirməsi, I Süleymanın sarayında ciddi narahatlığa səbəb olmuşdu. Türkiyə ğzü Volqa hövzəsində və Şimali qafqazda işğallara can atırdı. Lakin cənub-şərqi Avropa və Azərbaycan Səfəvilər dövlətinə qarşı müharibələrə başı qarışan Sultan


downloaded from KitabYurdu.az

Süleyman rus dövlətinin istilalarına mane ola bilmədi. 1569-cu ildə Iı Sultan Səlim Krım xanı Dövlət Gireylə birlikdə rusları Həştərxandan sıxışdırıb çıxarmaq məqsədilə yürüşə başladı. Müharibədə özlərinin donanmasından istifadə etmək məqsədilə, türklər hətta Don ilə Volqa arasında kanal qazmağa cəhd göstərdilər[188]. Lakin bu cəhdlər uğursuzluqla başa çatdı. Moskva dövləti Həştərxanı əlində saxlaya bildi, lakin Şimali Qafqazda möhkəmlənə bilmədi.

## I Şah Təhmasibin şəxsiyyəti

İsmayılın böyük oğlunun – I Təhmasin şəxsiyyəti, ümumilikdə tədqiqatçıların mənfi qiymətini almışdır. Onların əksəriyyəti bu fikirdədir ki, şah heç bir cəhətdən "özünün dahi atasına bənzəmirdi". Süst xasiyyət, passivlik, təşəbbüssüzlük kimi keyfiyyətlər ona aid edilir. Bu rəylərdə I Təhmasib gözə çarpmayan, qabiliyyətsiz dövlət xadimi, din fanatiki kimi nəzərə çarpır.

Biz I Şah Təhmasibi heç də həddindən artıq qiymətləndirmək, ideallaşdırmaq fikrində deyilik. Lakin bu xarakteristikanı bir qədər sərt hesab edirik. I Təhmasibin simasında çox cəhətlər onun ağıllı, ehtiyatlı siyasətçi olduğunu göstərir. I Şah Təhmasibin müasirlərinin məlumatlarına müraciət edək.

Təhmasib hicri 918-ci il zilhiccənin 26 (1513-cü il martın 3)-da[189] anadan olmuş, hicri 984-cü il səfərin 15 (1576-cı ilmayın 14)-də vəfat etmişdir. Öz atasının hicri 930-cu il rəcəbin 19 (1524-cü il mayın 24)-da erkən ölümü üzündə on yaşlı oğlan ikən taxta çıxmışdı. Tamamilə təbiidir ki, o, qızılbaş tayfa başçılarının əlində oyuncağa çevrildi və onların hakimiyyət, var-dövlət uğrunda qanlı mübarizəsini acizanə surətdə müşahidə edirdi. Budaq Qəzvininin


downloaded from KitabYurdu.az

yazdığına görə, gənc Təhmasib elmlərə müvəffəqiyyətlə yiyələnirdi. O, nisbətən qısa vaxtda müsəlman hüququnun (şəriyyə) və adi hüququn (ürfiyyə) bütün incəliklərinə bələd olmuşdu. Xəttatlığa və nəqqaşlığa böyük həvəsi olduğuna görə, hər birinin öz sənətində "yeganə" olduğu görkəmli müəllimlər onunla məşğul olmağa cəlb edilmişdilər. Xəttatlar – Molla Əbdi Nişapuri, Şah Mahmud Nişapuri, Molla Rüstəm Əli Hərəvi, nəqqaşlar – Sultan Məhəmməd, Behzad, Mirək İsfahani, Mir Müsəvvir və Dust Divanə məhz belələrindən idilər. Şair Buk ül-işk bu münasibətlə belə bir beyt demişdi:

Nə gözəl tərəqqi etdilər bişəkk,
Katib, nəqqaş, qəzvinli, bir də eşşək.

Budaq şerin mənasını belə izah edir: katibin (xəttatın) və nəqqaşın adının çəkilməsi aydındır; burada qəzvinli ona görə verilmişdir ki, onun vəkili Qazi Cahan Qəzvini olmuşdu; ulağın xatırlanmasına gəldikdə isə tarixçi yazırdı: bu, ona görədir ki, Təhmasib uşaq yaşlarında ulağın üstündə bir dəstə uşağı yığıb onlarla gəzməyi və oynamağı xoşlayırdı[190].

Artıq iyirmi yaşında ikən həddi-büluğa çatmış Təhmasib qətiyyətlə dövlət işlərini öz əlinə aldı. Burada da onun dövlət və siyasi xadim kimi qabiliyyəti özünü göstərdi. Müasir müəlliflər, bir qayda olaraq hakimiyyətdə olmuş şahların şəxsiyyətinin təriflərlə təsvir edirlər. I Şah Təhmasibin səciyyəsi bi baxımdan istisnalıq təşkil etmir. Məsələn, Budaq Qəzvini şahın məziyyətlərini sayarkən göstərir ki, ədaləti sayəsində "onun vəkilləri, vəzirləri, müstəvfiləri və məmurların başqaların haqqını bir karat belə azaltmağa, yaxud artırmağa imkanları qalmırdı. O, həftəni elə bölürdü ki, hər gün müəyyən iş görülsün. Sədrlər, qazilər və fəqihlər işlərə şəriətlə baxmaq üçün daim hazır olurdular. Onun fərmanı ilə dəftərxanalarda hesablanan bütün məsvəflər (ixracat-i hükmi) ləğv edildi. O, hər il təxminən 80 min tümənə çatan vilayətlər üzrə


downloaded from KitabYurdu.az

tamğanı onlara güzəşt etdi, rəiyyətdən 10-20 illik vergini almaqdan imtina etdi. Bir sözlə, rəiyyət belə dinclik və əmin-amanlığı heç vaxt görməmişdi. Və əgər hər hansı bir rəiyyət saraya hakimdən şikayət edərdisə, sonuncu şikayətə baxıldıqdan sonra vəzifədən azad edilirdi". Budaq Qəzvini göstərir ki, Şah Təhmasib Osmanlı Türkiyəsi, Hindistan və Mavəraünnəhr padşahlarına göndərilən məktubların qaralamalarına şəxsən düzəlişlər edirdi. Təhmasin əlli iki illik şahlığı dövründə ilbəil qışlaq və yaylaqları xatırlayırdı. Özünün qeyri-adi yaddaşı ilə tanınmışdı. O, bütün əyanları (ərbab), vəzifə sahiblərini (kələntəran) və adlı-sanlı şəxsləri (əşraf) adı ilə və üzdən tanıyırdı". Ən təəcccüblüsü bu idi ki, şah ona xidmət edən üç min nəfər qorçi və üç minə qədər yasavul, bukavul vəzifəli şəxs və daxili mühafizəçilərin (qalaçı) hamısı haqqında, "hansının nə vaxt mülazimliyə başlaması, yürüşlərdə hansı şücaət və igidlik göstərdiyini və əvvəllər hansı xanın və sultanın yanında qulluq etdiyini" bilirdi[191].

Digər bir müasir – Həsən bəy Rumlu da qeyd edir ki, Təhmasib yetkinlik yaşına çatdıqdan sonra "səhərdən axşama qədər dövlət işləri ilə məşğul olur və bütün işləri özü görürdü. Belə ki, vəkillər və vəzirlər onun icazəsi olmadan heç kəsə bir fəls belə verə bilmirdilər". O, vasvası dərəcəsində təmizkar, hər şeydən şübhələnən adam idi və heç kimlə yemək – içməyi xoşlamırdı. O, ömrünün son 20 ilində ata minməmişdi. Şah zahiri əlamətlərinə görə hündürboylu, gərilmiş simalı, uzun əlli, sarı bənizli və saqqalı tamam ağarmış bir şəxs idi". Tarixçi davam edərək yazır: "Döyüşçülər ona o qədər sadiq idilər ki, 14 il ərzində məvacib verilmədiyinə baxmayaraq, heç kəs şikayət etmirdi"[192].

Venetsiya səfiri Alessandri "tutqun baxışına, qalın dodaqlarına və ağ saqqalına baxmayaraq, 60 yaşlı şahı üzünün düzgün cizgiləri olan ortaboylu" bir şəxs kimi təsvir edir. "O, bədbin xasiyyətlidir, öz sarayını 11 il ərzində tərk etməmişdir" Sonra isə o, I Təhmasibi çox da cəsarəti olmayan, qanun və ədalət


downloaded from KitabYurdu.az

haqqında az, qadınlar və pul haqqında çox qayğı göstərən, "xırda tacir məharəti ilə alan və satan" xəsis kimi səciyyələndirmişdir[193]. Lakin buna baxmayaraq, venetsiyalının qeyd etdiyi ki, "şaha münasibətdə xalqın ehtiram və məhəbəti ağlasığmazdır. Çünki onlar ona şah kimi deyil, özlərinin böyük sitayiş obyekti, Əli nəslinə mənsub olduğuna görə Allah kimi ehtiram edirlər". Alessandri, ilahiləşdirməyə qədər gedib çıxan, yalnız iri şəhərlərin sakinləri ilə məhdudlaşmayan, həm şahın ailə üzvləri və saray adamları, həm də dövlətin ucqarlarının əhalisi arasında da yayılan bu ehtiramın qeyri-adi formaları haqqında məlumat verir[194].

Həsən bəy Rumlunun sözlərinə görə, müsəlman hökmdarlarıarasında öz hakimiyyətinin davamlılığına görə I Təhmasib yalnız Fatimi xəlifəsi Müstənsir əl-Billahdan geri qalırdı[195].

Mənbələrdə I Şah İsmayılın dini islahatından başqa, digər ictimai islahatları barədə məlumatlar yoxdur. Ola bilər ki, dövlətin taranması və siyasi cəhətdən möhkəmlənməsi dövründə sosial islahatlara xüsusi ehtiyac da hiss olunmamışdı. Lakin dövlətin birliyini saxlamaq mənafeyi naminə I Şah Təhmasib üçün bəzi ictimai-iqtasadi islahatların keçirilməsi obyektiv zərurət oldu. Onun ən mühüm islahatı şəhər həyatının, ticarətin yüksəlişini ləngidən tamğa vergisinin qəti ləğv edilməsi oldu. Onun vilayətlərdə şiə əhalisinin vergi yükünü yüngülləşdirmək məqsədilə cəhd göstərməsi, sui-istifadə hallarının qarşısını almaq üçün cərimələr müəyyən etməsi, sikkə işi sahəsində islahatı və s. haqqında da məlumatlar vardır[196].

## IV FƏSİL

# AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİNİN ZƏİFLƏMƏSİ VƏ TƏNƏZZÜLÜ


downloaded from KitabYurdu.az

## I Şah Təhmasibin həyatının son illərində sarayda vəziyyət.

## Əyanlar arasında parçalanma

Ölkəni idarə etmək işinin bir hissəsini daha gənc qüvvələrin öhdəsinə buraxmaq üçün, I Təhmasib öz oğlanlarından birinə - Heydər Mirzəyə inzibati işlərin idarə olunmasını çox erkən etibar etmişdi. 1571-ci ildə, 18 yaşı olanda Heydər Mirzəni Alessandri, əslində bütün işləri idarə edən şah müavini[1] adlandırır. Yaşca Məhəmməd Mirzə və İsmayıl Mirzədən kiçik olmasına baxmayaraq, bu şərait tezliklə onda uzaq şöhrətpərəstliyin hisslərini gücləndirmiş, taxt-taca iddialarının oyanmasına səbəb olmuşdu. İskəndər bəy Münşinin yazdığı kimi, o, şahın rəğbətini ona görə qazanmışdı ki, hər işdə atasının razılığı ilə hərəkət edirdi[2].

Venetsiya səfiri Heydər Mirzəni alçaqboylu, lakin çox yaraşıqlı bir şəxs kimi təqdim edir. O, bacarıqlı natiq, qəşəng və mahir at çapan idi. Alessandrinin sözlərinə görə, o, adamların müharibə haqqında söhbətlərini dinləməyi xoşlasa da, həddən artıq zərif və demək olar ki, qadın təbiəti ilə özünü belə təmrinlərdən ötrü yararlı saymırdı[3]. Dövlət işlərində onun təsir və rolu artmışdı. Qardaş və bacıları ona nifrət edir, həsəd aparırdılar. Saray adamları isə Heydər Mirzəyə hörmət edirdilər. I Təhmasibin ölümündən sonra baş vermiş hadisələri araşdırmaq üçün, taxt uğrunda mübarizənin nəticəsini müəyyən etmiş saraydaxili vəziyyət və qüvvələr nisbəti üzərində dayanmaq zəruridir.

I Şah Təhmasibin 9 oğlu qalmışdı. Bunlar – İsa bəy Mosullu Türkmanın qızı Sontanımın dünyaya gətirdiyi Məhəmməd Mirzə və İsmayıl Mirzə; Şamxalın bacısından və çərkəz kənizlərindən olan Süleyman Mirzə, Mahmud Mirzə və Əhməd Mirzə; gürcü kənizlərindən doğulmuş Heydər Mirzə (onun barəsində yuxarıda


downloaded from KitabYurdu.az

danışıldı), İmamqulu Mirzə, Mustafa Mirzə və Əli Mirzə idilər[4].

Şahın sağlığında taxta kimin çıxacağı məsələsi ortaya çıxmırdı. Lakin hicri 982 (1575)-ci ildə I Təhmasib ağır xəstələndi və bu məsələ şah sarayındakı müzakirələrin başlıca mövzusuna çevrildi[5]. Səfəvilərin sarayında ziddiyyətlər kəskinləşdi. Öz namizədini taxt-tac varisi kimi irəli sürən qruplaşmalar yarandı.

Təhmasibin böyük oğlu Məhəmməd Mirzənin taxta sahib olmaq hüququ şübhə doğurmurdu. Həqiqətdə isə ağır xəstəliyi getdikcə güclənən korluğu üzündən onun imkanları çox cüzi idi. İsmayıl Mirzə istisna olmaqla şahın qalan oğlanları azyaşlı idilər və buna görə də hesaba alınmırdılar.

Güclü qızılbaş əyanlar qrupunun müdafiə etdiyi, həmçinin yaxşı tanınan İsmayıl, Heydər Mirzənin ciddi rəqibi idi. Lakin artıq iyirmi ilə yaxın bir müddətdə Qəhqəhə qalasında dustaqda olması İsmayılın vəziyyətini xeyli mürəkkəbləşdirirdi[6].

II Şah İsmayıl adı ilə tanınan İsmayıl Mirzə on dörd yaşlı gənc ikən siyasət meydanına atılmışdı. Hicri 954 (1547)-cü ildə şahın qardaşı Əlqas Mirzə qiyam etdi. O, türk sultanının sarayına üz tutdu və Şirvanın idarə olunması gənc İsmayıla həvalə edildi.Qacar tayfasından olan Göyçəm Sultan onun tərbiyəçisi (lələsi) idi[7]. Gənc şahzadə devrilmiş Şirvanşahlar sülaləsinin nümayəndəsi olan Burhanla vuruşmada döyüş sınağından çıxdı.

Tezliklə İsmayıl Mirzə öz bəxtini Osmanlı sultanı I Süleymanın o dövr üçün güclü sayılan ordusu ilə daha çətin döyüşlərdə sınadı.Gənc şahzadənən sərkərdəlik ustedadı düşmənlə döyüşlərdə özünü parlaq şəkildə göstərdi.Qızılbaş qoşunlarının İsmayıl Mirzənin başçılığı altında Ərzurumun osmanlı hakimi, lovğa İskəndər paşa üzərində hicri 969 (1552)-cu ildə qəti qələbəsi türklərə dəhşətli təsir göstərdi. Bu döyüşdə İsmayılın həyata keçirməyə nail olduğu taktiki manevrlə, yəni qəsdən geri çəkilmək yolu ilə qızılbaşklar rəqiblərini qaladan kənara çıxardılar. Açıq sahədə İskəndər paşanın qoşunları mühasirəyə alındı, darmadağın


downloaded from KitabYurdu.az

edildi. Türk sultanın bir sıra adlı-sanlı əyanları əsir alındı[8].

İsmayılın bu parlaq qələbəsi ona məğlubedilməz sərkərdə şöhrəti gətirdi. O, özünün cəsarətli, sürətli həmlələri ilə türkləri dəhşətə saldığı üçün onu "Dəli İsmayıl" adlandırmışdılar[9]. Hətta iyirmi il keçdikdən sonra da İsmayılın hünərləri haqqında rəvayət, Azərbaycanda hələ də yaşamaqda və adətən belə hallarda olduğu kimi, hədsiz dərəcədə bəzək-düzək vurulmaqla qalmaqda davam etmişdi. Belə ki, ingilis taciri Cefri Deket 1574-cü ildə məlumat verirdi ki, İsmayılın İskəndər paşa ilə döyüşü zamanı guya 100 minə yaxın osmanlı həlak olmuşdu[10].

1555-ci ildə Amasyada Osmanlı-Səfəvi müharibələrində uzun sürən fasilə yarananda, I Şah Təhmasib Qarabağdan Təbrizə qayıtdı və sülh bağlanmasını bayram etməyi, türklərlə müharibənin qəhrəmanını layiqincə alqışlamaq qərarına gəldi. İskəndər bəy Münşi yazır: Təbrizdə elə bir bayram keçirildi ki, o indiyə kimi qızılbaşların dilindən düşmür[11]. Oradaca İsmayılın Şah Nemətulla Yəzdinin qızı ilə təntənəli toyu oldu[12]. Iskəndər bəy Münşi yazır: "Lakin o, şahın xeyirxahlığına və mərhəmətinə nankorluq göstərdi və möhtərəm atasının bəyənmədiyi çoxlu əməllərə yol verdi"[13]. Tarixçi bildirir ki, bunun nəticəsində şah, şahzadənin sarayda qalmasını mümkün saymır və onu, öz böyük qardaşı Məhəmməd Mirzəni hakim kimi əvəz etmək üçün hicri 963 (1556)-cü ildə Herata göndərir.

İskəndər bəy Münşi qeyd edir ki, şahın əmri ilə Əli Sultan Təkəli İsmayılı Herata çatdırmalı və şahzadə Məhəmmədi isə özü ilə şahın yanına, saraya gətirməli idi.Əli Sultan Məhəmmədlə Heratdan qayıdanda, şahın olduğu Savucbulaqdan bir qədər aralıda şah qorçilərindən biri onu ölüncəyədək döyür. İskəndər bəy Münşi, bu qəddarcasına divanın səbəbini açmadan bunu göstərməklə kifayətlənir ki, İsmayılı Herata müşayiət edərkən o, şah tərəfindən verilmiş göstərişləri yerinə yetirməmişdi.


downloaded from KitabYurdu.az

Əli Sultanın günahının nədən ibarət olduğunu V.Hins Məhəmməd Tahir Qəzvininin "Xülase-yi məqal) materiallarını tədqiq etməklə açır.

Əli Sultan İsmayılı Xorasana müşayiət etdiyi zaman şahdan məktub almışdı ki, onu Məhəmməd Mirzənin lələsi, Heratən əmir əl-ümərası Məhəmməd xan Şərəfəddin oğlu Təkəliyə şəxsən təqdim etsin. Məktubda yazılmışdı ki, İsmayıl Mirzə hər işdə yalnız əmirin razılığı və təqdir etməsi ilə fəaliyyət göstərməli, tamamilə onun himatəsi altında olmalıdır. Əli Sultan, İsmayılı məktubun məzmunu ilə tanış etdikdən sonra onu əmirdən gizlətdi. Məhəmməd xanın şahın məktubunu ona vermək tələblərinə Əli sultan soyuqqanlıqla cavab verdi ki, o, I Təhmasibin şifahi əmrini ona çatdırmalıdır. Həmin əmrə görə isə əmir və onun oğlanları hər işdə şahzadəyə tabe olmalıdırlar. Məhəmməd xanın bilavasitə şaha məktubla müraciət edərək onu hər şeyi olduğu kimi xəbərdar etməkdən başqa çarəsi qalmadı. Şah, Əli Sultanı geri çağırdı. Beləliklə, Əli Sultan İsmayıl Mirzəyə sədaqətini öz həyatı bahasına nümayiş etdirdi. Bununla belə, İsmayıl Heratda öz lələsi Məhəmməd xanı dövlət işlərində iştirakdan uzaqlaşdıraraq bütün məsələləri özbaşına həll edirdi[14]. Məsələn, Alessandri göstərir ki, İsmayıl şahdan soruşmadan vilayətlərin hakimlərinə məktublar göndərərək onlardan dərhal qoşun toplamaöı və Amasya müqaviləsini pozmaqla Osmanlı vilayətlərinə yürüşə başlamağı tələb etmişdir[15]. Buna bənzər məlumatlar dogər Avropa mənbələri ilə də təsdiq olunur.

Dövlət işlərindən uzaqlaşdırılmış və təhqir olunmuş Məhəmməd xan şaha onun oğlunun davranışı barədə məlumat verir və onun geri çağırılmasını xahiş edir. Eyni zamanda şaha böyük təsiri olan vəzir Məsum bəy Səfəvi, sultana qarşı yürüş etmək üçün qoşun toplamaq barədə çağırışla İsmayılın vilayət hakimlərinə göndərdiyi bir neçə məktubu ona göstərir. Şah doğma qardaşları Əlqasın və Samın ona vurduqları ağır zərbələri hələ


downloaded from KitabYurdu.az

unutmadığından, belə təhlükəli itaətsizlik əlamətlərini təqdir edə bilməzdi. Habelə oğlunun qızılbaş döyüşçüləri arasında necə məşhur olduğu da şaha yaxşı məlum idi. Belə fərz etmək də məntiqidir ki, I Təhmasin İsmayılın onu taxtdan kənar edib yerini tuta biləcəyindən də ciddi surətdə qorxurdu[16].

İsmayılın gələcək fəaliyyətindən ehtiyat edən I Təhmasib, dərhal özünün hərbi dəstəsinin rəisi (qorçibaşı) Sevindik bəy Əfşarı İsmayılı vəzifədən kənar etmək əmri ilə Herata göndərdi. Onun yerinə Məhəmməd Mirzə yenidən Herat hakimi təyin olundu. Sevindik bəy İsmayılla Təbəs və Yəzddən keçib savəyə gəldi[17]. Burada Məsum bəyə təhvil verilən İsmayılı onun əmrilə Qəhqəhə qalasına salırlar[18]. Məhəmməd Tahir Qəzvini məlumat verir ki, İsmayılın saraydakı fəal tərəfdarları - Həmzə bəy Rikabdarbaşı, Xeyir Mirək, Süleyman bəy bu zaman artıq cəzalandırılmışdılar[19]. Şahzadəyə yaxın olan Şahrux bəy Tatı oğlu İstəxr qalasına atılmışdı[20]. İsmayıl 19 il 6 ay və 21 gün[21] həbsdə əziyyət çəkmişdi. O, iyirmi dörd yaşında, qüvvə və bacarığının yüksəliş çağında qalanın astanasından içəri adlayaraq, oradan mənəvi və fiziki cəhətdən sarsıdılmış halda, yalnız qırx üç yaşında çıxa bilmişdi. Bu zindan İsmayılın qəlbində sağalmaz iz buraxmış və onun gələcəkdə qısamüddətli hakimiyyəti zamanı törətdiyi qeyri-insani qəddarlıqlarda ifadəsini tapmışdı.

İsmayıl Qəhqəhə qalasında olduğu zaman baş vermiş hadisə - I Şah Təhmasibin ölümü, saraydakı həyəcanları və əyanlar arasındakı parçalanmanı əvvəlcədən müəyyən etmişdi.

Şərəfxan Bidlisinin xəbər verdiyi kimi, hicri 979 (1571-1572)-cu ildə Qəhqəhə qalasından qızıl və gümüş külçələr yoxa çıxmışdı[22]. Qala rəisi Həbib bəy Ustaclı Külçələrin yoxa çıxmasında şahzadəni günahlandırdı. İsmayıl isə bu işdə Həbib bəyin qızının təqsirkar olduğunu söyləyirdi. İşi yerindəcə təhqiq etmək üçün şah bir dəstə qızılbaş əmirini qalaya göndərdi.


downloaded from KitabYurdu.az

Hüseynqulu Xəlifə Rumlu və Qum hakimi Vəli Xəlifə Şamlı şahzadənin tərəfini saxladılar. Buna baxmayaraq, ustaclı tayfasının nümayəndəsi Pirə Məhəmməd xan və Qaradağ hakimi Xəlifə Ənsar, Həbib bəyin tərəfində durub onun ittihamını müdafiə etdilər. Onlar Qəzvinə qayıtdıqdan sonra şahın qarşısında bir-birinin üzərinə hücum etdilər. Şərəfxan yazırdı: "Elə həmin gündən qızılbaş tayfaları arasında düşmənçilik başlandı"[23]. 1575-ci ildə I Təhmasib ilk dəfə xəstələnərkən sarayda dərhal yaranmış gərginlik və taxt uğrunda mübarizə barəsində, biz yenə də İskəndər bəy Münşidən məlumatlar əldə edirik.O, xəbər verir ki, xəstəlik günlərində saray əyanları iki dəstəyə bölünmüşdü və onlardan da hər biri taxta öz namizədini oturtmaq istəyirdi. İskəndər bəy Münşinin sözlərinə görə,"hərbçilər və rəiyyət sırasında xalqın əksəriyyəti İsmayıl Mirzənin tərəfdarları idi". O vaxt mühüm dövlət vəzifələri tutan Murad xan süfrəçi, Hüseyn bəy Yüzbaşı, Piri bəy, Məhəmməd bəy əmiraxurbaşı və Allahqulu Sulatn Aycək oğlu kimi ustaclı əmirləri Heydər Mirzənin hüquqlarını qorumaq üçün birləşdilər. Öz atasından sonra Heydər Mirzənin lələsi olmuş Məsum bəy Səfəvinin oğlu Sədrəddin xan yubanmadam şeyxavənd tayfası  və gürcü əyanları ilə əlaqəyə girərəkqəyyumluğu altında olanın hüquqları uğrunda mübarizədə onlarla anda əsaslanan ittifaq bağladı.

İsmayılın mənafeyini müdafiə edən dəstədə Hüseynqulu Xəlifə Rumlu, Əmiraslan Sultan Əfşar, Heydər Sultan Çabuk Türkman birləşmişdilər. Əfşar, rumlu və türkman tayfaları tam heyətdə onun tərəfdarları sıralarına daxil idilər. Təhmasibin kəskin ağıl və qabiliyyət sahibi olan süvimli qızı, dövlət şurasına buraxılan yeganə şahzadə xanım, Pərixan xanım da İsmayılın fəal tərəfdarı idi[24].

Lakin bu dəfə I Təhmasib hər iki dəstənin ümidini qırdı və öz həkimi Mövlana Qiyasəddin Əli Kaşinin Məharəti sayəsində sağaldı[25]. Pərixan xanımın anası qızının tapşırığı ilə şahı Heydər


downloaded from KitabYurdu.az

Mirzəyə qarşı qaldırmaq üçün, onun tərəfdarlarının fitnə-fəsadları barədə dərhal şaha məlumat verdi. Lakinntəzəcə sağalmış I Təhmasib əyanların hiylələrinə əhəmiyyət vermədi.

Maraqlıdır ki, I Təhmasib öncə Qəhqəhədə olan oğlunun həyatını mühafizə etmək qayğısına qaldı. Şah qorxurdu ki, qaradağlı tayfasının başçısı (rişsəfidi), Heydər Mirzənin qatı tərəfdarı və həmin tayfadan olan Qəhqəhə qalasının rəisi Xəlifə Ənsarın qohumu – Fərruxzad bəy eşikağasıbaşı öz qohumunun vasitəsiləköməksiz İsmayılın öldürülməsini təşkil edə bilərdi. Təhmasib bunun qarşısını almaq üçün əfşar tayfasından oaln qorçilər dəstəsini  Qəhqəhəyə göndərdi. Şahın bu tədbiri  İsmayılın tərəfdarlarının gücünü artırdı.

Bundan əlavə, I Təhmasib paytaxtda ustaclı tayfasının mövqelərini bir qədər zəiflətməyi qərara aldı. Bu məqsədlə o, arabir onların nüfuzlu nümayəndələrini müxtəlif tapşırıqlarla əyalətlərə göndərirdi. Məsələn, Murad xan Qocur qalasını ələ keçirmək tapşırığı aldı və Rüstəmdara hərəkət etdi. Piri bəy Rey hakimi təyin edildi və ora yola düşdü. Şah, Hüseyn bəy yüzbaşını da II Səlimin vəfatı və onun oğlu III Muradın taxta çıxması ilı əlaqədar qızılbaş nümayəndə heyətinin başçısı kimi İstanbula göndərnək istəyirdi. Lakin o, Məşhəddə İmam Rzanın müqəddəs məqbərəsini ziyarət etmək bəhanəsi ilə bu tapşırıqdan[26] imtina etdi. Hüseyn bəy qorxurdu ku, onun burada olmadığı vaxtlarda sarayda vəziyyət İsmayılın xeyrinə dəyişə bilər. Lakin tezliklə şah tərəflərin fitnələrinə laqeyd qaldı. Bu vaxt şahzadə Mustafa Mirzənin lələsi Nəzər Sultan Ustaclı vəfat etdi və onun əvəzinə Hüseyn bəy yüzbaşı qəyyum təyin edildi. İskəndər bəy Münşi qeyd edir ki, bundan sonra "qızılbaş tayfaları arasında ədavət və fitnə-fəsad alovu" bir qədər söndü.

### 1576-cı  il 14 may qanlı  hadisələri


downloaded from KitabYurdu.az

1576-cı il mayın əvvəlində I Şah Təhmasib yenidən yatağa düşdü. Şahı müayinə edən saray həkimləri əvvəlcə buna əhəmiyyət vermədilər. Lakin mayın 13-dən 14-nə (səfərin 15-i)[27] keçən gecə I Təhmasib özünü çox pis hiss etdi: hərarəti kəskin surtdə artdı və o, gücdən düşməyə başladı. Paytaxtda olan bütün oğul və qızları, həmçinin də saray adamları xəstənin başına yığıldılar. Gecəyarısı şah birdən-birə hamıya getməyi əmr etdi. Şahzadə Heydər istisna edilməklə hamı evinə dağılışdı.

İskəndər bəy Münşi yazır ki, Heydər Mirzənin şahın yanında qalması haqqında iki rəvayət vardır. Bəziləri deyirlər ki, o, şahın əmrilə qalmışdı. Əlbəttə, I Təhmasibin ölümünün ertəsi günü ortaya çıxarılan, guya şahın vəsiyyətnaməsi olan kağıza görə, o, şahzadə Heydəri öz xələfi təyin etmişdi. Lakin salnaməçilər göstərirlər ki, vəsiyyatnamə saxta idi və onu şahzadənin özü tərtib etmişdi[28].

Digərləri (bunlar həqiqətə daha yaxındırlar) iddia edirlər ki, Heydərin anası öz oğlunun saraydan kənarda düşmənlərdən ziyan görə biləcəyindən ehtiyat edərək onu qalmaq üçün dilə tutmuşdu. O, oğluna demişdi ki, atanın halı getdikcə pisləşir. Çox güman ki, o, bu gecə həyatla vidalaşacaq. Sən atanın varisisən, padşahın taxt-tacını qoyub hara getmək istəyirsən? Sən dövlətxanada qalmalısan və həmin dəhşətli hadisə baş verən kimi, atanın tacını başına qoyub Çehelsütundakı xoşbəxtlik sarayında Əlahəzrət xalçası üzərində əyləşərsən. Ana Heydəri inandırırdı ki, qiyam baş verəcəyi halda sarayda xəzinəyə və cəbbəxanaya sərbəst daxil ola bildiyin üçün qızıl hərisi olan yüzbaşıları, qorçiləri və mühafizə dəstəsini ələ almaqlataxt-tacı özündən ötrü təmin etmiş olarsan. Şahzadənin tərəfdarları saraya gəlib çatanda və taxta çıxmaq gerçəkləşəndə İsmayıl Mirzənin tərəfdarlarının yeni şaha özlərinin itaətini bildirməkdən başqa çarəsi qalmayacaqdırı Anasının dəlillərini dinləyən şahzadə sarayda qaldı. 1576-cı il mayın 14-də səhər şah vəfat etdi[29].V.Hins  I Şah Təhmasibin ölümqabağı davranıpşını


downloaded from KitabYurdu.az

"ziddiyyətli və ikibaşlı" adlandırır. O, yazır: "Şah bir tərəfdən şahzadə İsmayılın Qəhqəhədəki şəxsi mühafizəsi qayğısına qalırdı. Digər tərəfdən də onun öz səfiri Toxmaq xan Ustaclıya vermiş olduğu şahzadə Heydərin maneəsiz taxta varis olması haqqında , qayğı göstərməyi tələb edən məktubu ortaya çıxdı"[30]. Sonuncu məlumatı farsdilli mənbələr təsdiq etmir. Daha çox ehtimal olunanı budur ki, I Təhmasib özünün tezliklə öləcəyinə inanmadığından heç bir vəsiyyətnamə tərtib etməmişdi. Bununla da şah qeyri-iradi,ölümündən dərhal sonra qiyamın baş verməsinə şərait yaratmışdı.

Deməli, sarayda qalmış Heydər Mirzə arzu etdiyi məqsədə çatdığına əmin idi. O, səhər hətta atasının tacını başına qoymuş, qılıncını belinı bağlamışdı[31]. Lakin hər şey onun istəyinin əksinə oldu.

Öncə aydın oldu ki, həmin gecə sarayın mühafizəsini hərəmxana yüzbaşısı Vəli bəy Əfşarın rəisliyi ilə rumlu, əfşar, qacar, bayat və varsaq[32] tayfalarından olan qorçilər aparırdılar. Bu tayfalar şahzadə İsmayılın tərəfdarları idilər. Şahın vəfatı xəbəri alınan kimi onlar saraya bütün giriş və çıxışları bağladılar. İskəndər bəy Münşinin sözlərinə görə, "ağılsız qadının məsləhəti ilə hərəkət edən şahzadə sarayın içərisində qalaraq, tərəfdarları və ardıcıllarını saraydan kənarda qoymuşdu"[33]. Beləliklə, Heydər Mirzə öz tərəfdarlarının köməyindən məhrum oldu. Düşmənlərinin əlində əsirə çevrildi. Digər tərəfdən də o, İsmayılın tərəfdarı olan bacısı, onu aldatmağa nail olmuş ağıllı, lakin hiyləgər Pərixan xanımı zərərsizləşdirə bilmədi. Pərixan xanım həmin səhər özünü şahın hərəmxanasında Heydərin əsiri kimi görəndə saraydan çıxmağın və qardaşının planlarının həyata keçməsinə mane olmağın yeganə yolu, belə işlərdə usta olduğu riyakarlıq və yalandan ibarətdir. O, dərhal Heydərin yanına gəldi, özünü məharətlə itaətkar və yaltaq cildinə saldı. Həyəcanla, əgər o düşüncəsizliyi üzündən hər hansı qəbahətə yol vermişsə, qardaşından onu – "ağılsız qadını" bağışlamağı xahiş


downloaded from KitabYurdu.az

edərək əmin etdi ki, bundan sonra qardaşına fədakarlıqla xidmət edəcək və keçmiş dostluq münasibətlərinin bərpa olunmasına çalışacaqdır. Bu zaman o, qardaşına tərəf atılıb onun ayaqlarından öpdü və burada duran anaya üzünü tutaraq dedi: "Şahid ol, Əlahəzrəti taxta çıxdığına görə təbrik etmək və onun ayaqlarını öpməkdə heç kəs məni qabaqlamadı"[34].

Bundan sonra o, qurana əl basaraq and içdi və guya öz qardaşı şahzadə Süleymana  və dayısı Şamxala bu yeniliyi bildirmək və onları da xidmət etmək üçün saraya gətirməkdən ötrü evə getməyə icazə istədi. Sadəlövh və hər şeyə inanan Heydər öz bacısının səmimiyyətinə inandı və bununla da özünü məhvə məhkum etdi.

Getmək icazəsi alan şah qızı Pərixan xanım tələsik hərəmxana bağından saray meydanına ("Meydan-i əsp")aparan gizli otağın qapısını öz açarı ilə açıb dayısı Şamxalı son hadisələrlə tanış etdi.

Sarayda qalan şahzadə Heydər yüzbaşıları, qorçiləri, eşikağalarını, saray mühafizəsinin nümayəndələrini, saray adamlarını qızıl və hədiyyələrə qərq etdi və onların hamısına nə isə vəd etdi. Lakin onun öz tərəfdarları ilə qovuşmaq üçün saray mühafizə dəstəsini ələ almaq cəhdləri boşa çıxdı. İskəndər bəy Münşi yuxarıda adı çəkilən Vəli bəy Əfşarın sözləri ilə deyir ki, şahzadə Heydər həmin səhər Vəli bəy Əfşara, qorçilərəqapıları açmaq və onun tərəfdarlarını içəri buraxmaq əmrini verərsə, Kirmanın idarəsini və qorçibaşı vəzifəsini təklif etmişdi. Vəli bəy qapılara qədər getdikdən sonra şahzadənin yanına qayıtmış və demişdi ki, "vicdansız" qorçilər heç kimin nə saraya girməsinə, nə də saraydan çıxmasına razı deyllər. Belə olduqda, şahzadə qılıncına əl ataraq özünü öldürmək istədi, lakin anası çığıraraq özünü ona tərəf atıb buna mane oldu. Şahzadə geriyə dönüb hərəmxanaya girdi və o günün axırına kimi hərəmxana binasına "gah daxil oldu, gah da çıxdı"[35]. I Şah


downloaded from KitabYurdu.az

Təhmasibin ölüm xəbəri (onu gizlətmək üçün göstərilən bütün cəhdlərə baxmayaraq) paytaxtda yayıldı və mayın 14-də səhər şahzadə Əhmədlə birlikdə Əmiraslan xan Əfşar, həmçinin Məhəmməd Mirzə, Hüseynqulu Xəlifə Rumlunun evinə gəldilər. İsmayılın ardıcılları bura yığıldılar.

Şeyxavənd, ustaclı tayfaları, gürcülər və Heydərin digər tərəfdarları – Məsum xan Səfəvi, Həmzə Sultan Talış, Seyid bəy Kəmunə, Əlixan bəy (gürcü), allahqulu xan Aycək oğlu Ustaclı Hüseyn bəy yüzbaşının evinə toplaşdılar. Şahzadə Mustafa və Bəhram Mirzənin oğlu İbrahim Kirzə buraya gəldilər.

Heydər Sultan Çabuk Türkman, Qulu bəy Əfşar, Məhəmmədqulu Zülqədər möhrdar, Mirzə Əli Sultan Qacar və Heydərin tərəfdarları öz evlərində oturub hadisələrin sonrakı gedişini gözləyirdilər. Onlar öz qüvvələrinə arxayın idilər və mübarizənin nəticəsi üçün o qədər də narahat deyildilər. Onlar saraya daxil olub şahzadə Heydəri taxta çıxarmaq, mane olanları isə məhv etmək barədə düşünürdülər[36].

Onlar belə hesab edirdilər ki, İsmayıl onların tərəfdarı Xəlifə Ənsar Qaradağlının etibarlı mühafizəsi altındadır və Heydər taxta çıxdıqdan sonra yeni şahın göstərişi ilə birgə hərəkət edərlər. Onlardan bəziləri ehtiyat edirdi ki, saraya hücum edildiyi halda şahzadənin tərəfdarları ona kömək etməyə gəlib çatanadək qorçilər şahzadəni qətlə yetirə bilərlər. Onlar tez-tez öz qərarlarını dəyişirdilər. Nəhayət, bu fikrə gəldilər ki, həmin gecə sarayın mühafizəsi ustaclı tayfasından olan qorçilərə keçəcək, ona görə də axşama qədər gözləmək lazımdır. Allahqulu Aycək oğlu saraya getməməyi, qəflətən Hüseynqulu Xəlifənin evinə soxulmağı və İsmayılın bütün tərəfdarları ora toplaşanadək onu öldürməyi, dəstəsini isə dağıtmağı təklif etdi. O inandırırdı ki, bu xəbər saraya çatan kimi saray mühafizəçilərinincanına qorxu düşəcək və onlar qapıların mühafizəsindən əl çəkərək, bizim tərəfimizə keçəcəklər.

Bu zaman ağıllı, tədbirli və təcrübəli şəxs olan Hüseynqulu


downloaded from KitabYurdu.az

Xəlifə Rumlu, Heydərin tərəfdarlarının onun evinə hücum edəcəklərindən çox ehtiyat edirdi. O, öncə Budaq Rumlu və Şahqulu Sultan Təbət oğlu Zülqədər adlı iki ağsaqqalı barışıq haqqında danışıqlar aparmaq, düşmənçilik fəaliyyətininn qarşısnı almaq üçün Hüseyn bəyin yanına göndərdi. Qarşı tərəfə ittifaq bağlamaq təklis edilirdi. Təklifdə, əvvəlcə mərhum şahı dəfn etmək, sonra isə hər iki tərəfin ağsaqqallar şurasında hansı namizədin öz şəxsi keyfiyyətlərinə görə mərhum şahın yerini tutmağa daha çox layiq olması məsələsini sakit şəraitdə müzakirə etmək arzusu ifadə olunurdu. Hüseynqulu Xəlifə yaxşı bilirdi ki, danışıqlar faydasızdır, lakin onları oraya vaxt qazanmaq üçün göndərmişdi.

O, həmçinin öz adamını şəhərdən bir fərsəx uzağa göndərmişdi ki, çaparaq şəhərə daxil olub İsmayılın "gəlməsi" xəbərini xalqa çatdırsın. Günorta çağı qan-tər içində bir atlı şəhərə daxil olub xəbər verdi ki, İsmayıl Mirzə tezliklə şəhərə gələcək. O, belə bir şayiə yaydı ki, mərhum şah on iki gün əvvəl gizlicə şahzadə İsmayılın ardınca adam göndərmişdir və onu tezliklə şəhərə çatdıracaqlar. Paytaxt əhalisi təşvişə düşdü və şəhərlilərin böyük dəstəsi Hüseynqulu Xəlifə Rumlunun evinə yollandı. Bu xəbər Heydərin tərəfdarlarını ruhdan saldı və onları çaşdırdı. Lakin axşama yaxın aydın oldu ki, bu xəbər yalandır və fərasətli Hüseynqulunun kələyidir.

Öncə mübarizədən kənarda qalmış bir sıra əmirlər (məsələn, Məhəmmədqulu Xəlifə möhrdar, Heydər Sultan Çabuk Türkman) Hüseynqulunun evinə gələrək İsmayılın tərəfdarlarına qoşuldular. Heydərin ardıcıllarının sırasında çaşqınlıq müşahidə olunurdu. Məsələn, mayın 14-də, axşam Hüseyn bəy yüzbaşı və Heydərin digər ardıcılları nəhayət, saraya doğru hərəkət etməyi qərara aldılar. Lakin yola çıxdıqdan az sonra şahzadə İbrahim (Bəhram Mirzənin oğlu) onlarla getməkdən imtina etdi və evinə qayıtdı. Allahqulu Sultan Aycək oğlu Ustaclı da onun kimi hərəkət etdi. Təbiidir ki, bu, Heydərin dəstəsində ruh düşgünlüyünə səbəb oldu. Hüseyn bəy


downloaded from KitabYurdu.az

əvvəlcə saraya baş küçə ilə hərəkət edirdi. Lakin onlar Xəlifə Möhrdarın, Qulu bəy Əfşarın evinə çatanda damlardan güllə, kamanlardan ox yağdıraraq onların yolunu kəsdilər. Hüseyn bəy atışmaya fikir verməyib xəzinə binasının arxa tərəfindən keçən küçəyə tərəf döndü. Qarətçilərin basqın etdiyini güman edən mühafizə dəstəsi onlara atəş açdı. Belə olduqda Hüseyn bəy qışqırdı: "Biz heç kimdən ötrü vuruşmaq istəmirik. Sarayda növbəni dəyişməyə gedirik. Bizdən nə istəyirsiniz?". Bunu eşidən mühafizə dəstəsi atışmanı dayandırdı və Hüseyn bəyin dəstəsinə yol verdi. Saraya çatan dəstə qapıların bağlı olduğunu və maneələrin qurulduğunu gördü. Bu vaxt onlar məlumat aldılar ki, Hüseynqulu Xəlifə öz adamları ilə baş küçə ilə hərəkət edir və hərəmxana bağına bitişik olan "Meydan-i əsp"ə gəlib çatmışdır. Gördüyümüz kimi Heydərin tərəfdarları ehtiyat edirdilər. Ehtimal edilir ki, qarşı tərəf hərəmxananın bağına soxulub şahzadəni öldürmək istəyirdi. Hüseyn bəy qapıları sındırıb saraya daxil ola bildi. Bu vaxt şahzadə Heydər hərəmxanada idi. O, binada vurnuxur, çıxış yolu axtarırdı. Lakin bütün qapılar möhkəm bağlanmışdı. Heydərin ardıcılları şah yeməkxanasına soxulub, sarayda otaqdan – otağa keçərək "Şah Heydər" deyə çağırırdılar. O biri tərəfdən də Hüseynqulu Xəlifə Rumlu öz adamları və Şamxalla birlikdə hərəmxananın bağının qapısını açdı. Bütün künc-bucaq ələk-vələk edildi. Heydəri axtarmağa başladılar. Düşmənlərin yaxınlaşdığını görən Heydər qızılbaşların şahın hərəmxanasına girməyə cəsarət etməyəcəkləri ümidi ilə yenidən qadınların otaqlarına soxulub anasının yanında əyləşdi. Lakin onun bütün ümidləri puça çıxdı. Qızılbaşlar hərəmxanaya soxulub şahzadənin onlara verilməsini tələb etdilər. Şahzadə hərəmxananın qulluqçuları və qadınlarına qarışdı. O, qadın paltarı geyinərək hərəmxananı tərk etdi.

Hərəmxana eşikağalarından biri Əli bəy Şamlı başqa bir binaya yollanarkən şahzadəni tanıdı və ucadan qışqırdı: "Sizin


downloaded from KitabYurdu.az

axtardığınız bax budur!”. Cəmşid bəy Çərkəz(şahzadə Süleymanın qulamı) və Vəlixan bəy yüzbaşı Rumlu şahzadənin üzərinə atıldılarvə onu kənara çəkdilər. Gəncin başı Hüseynqulu Xəlifə və Şamxalın işarəsi ilə elə oradaca kəsildi. Nəhayət, gürcü dəstəsi ilə Heydərin dayısı Əlixan bəy və Zal bəy hərəmxananın qadınlarına gəlib yetişəndə, şahzadənin qana bulaşmış başı hərəmxana eyvanının üstündən istehzalı çığırtılarla onların ayaqları altına atıldı: “Alın, bu da sizin şahın başı”. Heydərin ardıcılları baş vermiş hadisədən sarsıldılar. Onlar tələm-tələsik sarayı tərk etdilər və pərakəndə surətdə dağılışdılar. Hamı tərəfindən tərk edilmi. Hüseyn bəy yüzbaşı və şahzadə Mustafa Luristana qaçdılar[37].

Həmin axşam qızılbaş dəstəsi şahzadə İsmayılın arxasınca Qəhqəhə qalasına göndərildi. Şahzadə Heydərin faciəli ölümündən sonra bir çox ustaclı əmirləri İsmayılın ardıcılları tərəfinə keçdilər. Onlar da Qəhqəhə qalasına doğru hərəkət etdilər.

Ertəsi gün, mayın 15-də, səhər əmirlər və şahzadələr saraya toplaşdılar.14 may hadisələrində iştirak etməmiş İbrahim Mirzə və Allahqulu Sultan Aycək oğlu da ora gəlmişdilər. Zal bəy (gürcü), Həmzə bəy Talış və həlak olmuş şahzadənin digər tərəfdarları evlərindən çıxarıldılar, edam edildilər. I Təhmasibin həkimi Əbunəsr Gilani şahı zəhərləməkdə və şahzadə Heydərə rəğbət göstərməkdə ittiham edildi. O, 14 may hadisələri zamanı saraydakı buxarıların birində gizlənmişdi. Lakin qorçilər onu oradan çıxarmış və tikə-tikə doğramışdılar. Heydərin darmadağın edilmiş tərəfdarlarının əmlakı qızılbaşlar tərəfindən müsadirə olundu[38].

Bu qələbədən sonra hakimiyyət Pərixan xanımın və qızılbaş əyanları arasında nüfuzu əhəmiyyətli dərəcədə artmış Hüseynqulu Xəlifə Rumlunun əlinə keçdi. Cümə günü Qəzvinin baş məscidində əmirlərin, şahzadələrin və camaatın iştirakı ilə təntənəli şəraitdə şahzadə İsmayılın taxta çıxması şərəfinə xütbə oxundu.

Bu günlərdə hakimiyyət tamamilə Pərixan xanımın əlində cəmlənmişdi. “Heç kim Pərixan xanımın əmri və hökmündən


downloaded from KitabYurdu.az

çıxmağa cürət etmirdi".

İndi isə 1576-cı il 14 may hadisələrinə qiymət verməyə cəhd göstərək.

V.Hins bu məqsədlə yuxarıda təsvir olunanhadisələrdə, hakimiyyət uğrunda mübarizə aparan hər iki dəstənin tərkibi haqqında aşağıdakı məlumatları ayırmışdır:

## HEYDƏRİN DƏSTƏSİ

*Hüseyn bəy* – ustaclı tayfasının ən nüfuzlu əmiri, şahzadə Mustafanın tərbiyəçisi (lələsi), bu dəstənin başçısı.

*Zal bəy* – gürcü sərkərdəsi, şahzadə İmamqulunun dayısı.

*Əlixan bəy* – gürcü zadəganı, şahzadə Heydərin dayısı.

*Murad xan, Piri bəy, Məhəmməd bəy* – sarayda vəzifələri olan ustaclı əmirləri.

*Allahqulu Sultan Aycək oğlu* – nüfuzlu ustaclı rəislərindən biri.

*Xəlifə Ənsar Qaradağlı* – Qəhqəhə qalasının rəisi, şahzadə İsmayılın zindanbanı.

*Həmzə Sultan* – talışların rəisi.

*Sədrəddin xan* – I Təhmasibin vəziri Məsum bəy Səfəvinin oğlu, şeyxavənd tayfasının (nəslinin) ağsaqqallarına mənsub idi. Şahzadə Heydərin ləlləsi kimi öz atasını əvəz etmişdi.

*Seyid bəy Kəmunə* - nüfuzlu şiə ruhanisi.

Ustaclı tayfası, gürcülər, şayxavənd tayfası və talışlar.

## İSMAYILIN DƏSTƏSİ

*Hüseynqulu Xəlifə* - rumlu tayfasının çox güclü və hiyləgər rəisi, bu dəstənin başçısı.



downloaded from KitabYurdu.az

*Şamxal Sultan* – sarayda çərkəz hərbi dəstəsinin başçısı, şahzadə Pərixan xanımın və şahzadə Süleymanın dayısı.

*Əmiraslan bəy* - əfşar tayfasının başçısı, nüfuzlu əmir, şahzadə Əhmədin lələsi.

*Vəli bəy Əfşar* – mayın 14-dən 15-nə keçən gecə sarayda növbə çəkmiş mühafizə dəstəsinin başçısı.

*Heydər Sultan Çabuk* – türkman tayfasının başçısı.

*Dəli Budaq Rumlu, Mahmud bəy Əfşar, Süleyman bəy Türkman, Xan Vəzir bəy Baharlı* – qızılbaş əyanlarının nümayəndələri, təsvir olunan hadisələrin fəal iştirakçıları.

Şahzadə Pərixan xanım – I Şah Təhmasibin çərkəz qadınından doğulmuş qızı, şahzadə Süleymanın bacısı, 30 yaşında, gözəl, ağıllı, çox nüfuzlu.

Rumlu, əfşar, türkman, şamlı, qacar, zülqədər, bayat, varsaq tayfaları və çərkəzlər.

V.Hins göstərilən məlumatlardan belə nəticə çıxarır ki, "təmiz türk qanlı" İsmayılı yalnız türk qızılbaş (çərkəzlərdən başqa) əyanları, Heydəri isə ustaclı, şeyxavənd tayfaları, talışlar, fars ruhani-bürokrat əyanları, həmçinin də gürcülər müdafiə etmişdilər[39].

Bir sözlə, V.Hins 1576-cı il 14 may hadisələrində hakim türk hərbi-qızılbaş aristokratiyasını aparıcı mövqelərdən salmaq üçün fars (tacik) əyanlarının onun əleyhinə olan digər qüvvələrlə ittifaqda çıxışını görür[40]. Lakin aşağıdakı səbəblərə görə, V.Hinsin dəlilləri ilə razılaşmaq çətindir. Məsələ bundadır ki, Heydər Mirzənin ardıcılları arasında V.Hinsin farslar kimi qələmə vrdiyi əsas qüvvələri heç də farslar deyil, elə həmin türklər (azərbaycanlılar) təşkil edirdilər. Bu dəstənin başlıca qüvvəsi qüdrətli qızılbaş ustaclı tayfası idi. Şeyxavənd nəsli (tayfası) V.Hins tərəfindən qeyd-şərtsiz fars tayfalarına aid edilir. Lakin bu, belə deyildi. Ustaclı kimi onlar da türk nəsli, tayfası idilər[41]. Farslara qohum olanlar yalnız talışlar idilər. Ancaq onlar Heydərin


downloaded from KitabYurdu.az

dəstəsində ikinci rol oynayırdılar.

Digər tədqiqatçı – R.M.Seyvori belə hesab edir ki, mübarizə qızılbaş hərbi əyanları və Səfəvilər sarayının yeni ünsürləri – gürcülər və çərkəzlər arasında gedirdi[42]. Lakin adları çəkilən gürcülər və çərkəzlər (müsəlmanlığın şiəlik təriqətini qəbul etmiş və Səfəvilərin xidmətinə daxil olmuş Gürcüstan feodal əyanlarının və Qafqaz dağlarının şimal hissəsi əhalisinin yuxarı təbəqələrinin nümayəndələri) müstəqil siyasi qüvvə olmamış, göstərilən hadisələrdə ikinci dərəcəli rol oynamışlar.

Fars əyanları bu dövrdə müstəqil siyasi qüvvə kimi çıxış etmək üçün hələ olduqca zəif idilər. Buna görə də 14 may qanlı toqquşmaların hakimiyyət uğrunda və dövlət işlərinə nüfuzlarını gücləndirmək üçün ayrı-ayrı qızılbaş əyanları arasındakı daxili mübarizənin yeni təzahürü kimi baxmaq lazımdır. Ustaclı tayfasının əyanları Heydərin taxt-taca olan iddialarını müdafiə etməklə, I Şah Təhmasibin hakimiyyətinin son dövründə dövlət işlərində tutduqları aparıcı mövqeləri qoruyub saxlamağa ümid edirdilər. Ustaclı feodallarını tutmuş olduqları yüksək vəzifələrdən sıxışdırıb çıxarmaq və onların yerini tutmaq ümidi ilə qızılbaş tayfalarının mütləq əksəriyyəti (rumlu, əfşar, türkman, şamlı, qacar, zülqədər, bayat, varsaq) onlara qarşı birləşmişdi

## II Şah İsmayılın taxta çıxarılması

Təsvir olunan hadisələr baş verdiyi zaman şahzadə İsmayıl Qəhqəhə qalasında, I Təhmasibin göndərdiyi yeddi qorçinin mühafizəsi altında idi. Atasının vəfat etməsi və şahzadə Heydərin öldürülməsi xəbərləri ona çatanda qala rəisi Xəlifə Ənsar Qaradağlı ova çıxmışdı. İsmayıl, Xəlifə Ənsara inanmır, onu Heydərin tərəfdarı hesab edirdi. Bundan əlavə, o, Qəzvindən gələn xəbərlərə də şübhə ilə yanaşır, bunları özünə qarşı məharətlə düşünülmüş tələ


downloaded from KitabYurdu.az

sayırdı. O, hər ehtimala qarşı öz təhlükəsizliyini təmin etmək üçün tədbirlər gördü. Qalada keşik çəkən Xəlifə Ənsarın adamları qorçilərin köməyilə aldanılaraq ələ keçirildilər və zərərsizləşdirildilər. Onlar qalanın çıxış və giriş yollarında baş verə biləcək hücum ehtimalına qarşı maneələr qurdular.

Xəlifə Ənsar İsmayılın tərəfdarlarının paytaxtda qalib gəlməsi xəbərini alıb qalaya qayıtdı. Dəfələrlə itaət etdiyini bildirməsinə baxmayaraq, İsmayıl onu qalaya buraxmadı. Yalnız 3 gündən sonra, Azərbaycanın cənub hissəsindən xalq kütlələri və paytaxt əyanlarının nümayəndələri qala ətəklərinə axışıb gələndə qala qapıları taybatay açıldı.

Elə buradaca, qalanın qarşısında ustaclı tayfasından Heydərin tərəfdarlarından olan bir dəstə adam İsmayılın əmri ilə edam edildi. Sağ qalanlar Ərdəbilə - Səfəvilərin məqbərəsinə qaçmaqla canlarını qurtardılar. İsmayıl qaladan çıxdı və onu paytaxta müşayiət etmək üçün xüsusi olaraq Qəzvindən qızılbaş əyanlarının göndərdiyi Heydər Sultan Çabuk Türkmanın alaçığında dayandı. Bura hər gün ardı-arası kəsilmədən öz sədaqətlərini bildirmək üçün xalq kütləri gəlir və onun "kandarından öpmək şərəfinə nail olurdular". Bir neçə gündən sonra İsmayıl öz əcdadlarının müqədəs məzarlarını ənənəvi qaydada ziyarət etmək üçün Ərdəbilə yola düşdü.

Zəncan çəmənlərində İsmayılı şahzadə Pərixan xanımın göndərdiyi şahzadə İbrahim və vəzir Mirzə Salman, mərhum şahın dövlətxana (saray), hərəmxana, divanxana və büyutat (saray emalatxanaları) məımurları qarşıladılar. Mərasimə İsmayılın mehribancasına qəbul etdiyi şahzadə İbrahim başçılıq edirdi. İsmayıl onu səmimiyyətlə qucaqlayaraq "qardaşım" adlandırdı. Pirə Məhəmməd xan Ustaclı, şahzadə İmamqulu ilə birlikdə Gilandan bura gəlmişdilər. Pirə Məhəmməd xan, ustaclı əyanları arasında həmtayfalarının İsmayıla tərəfdar olmaqla ittiham etdikləri yeganə adm idi. İsmayıl riyakarcasına şahzadə İmamqulunu da


downloaded from KitabYurdu.az

bağrına basıb onu “oğlum” adlandırdı. Bu qardaşlıq və atalıq “məhəbbətinin” bəhrələrini biz aşağıda görəcəyik.

İyunun 13 (rəbi əs-saninin 16-sı)-də İsmayıl Qəzvinin ətrafına çatdı və burada dayandı. Onu qarşılamağa şahzadələr, Hüseynqulu Xəlifə Rumlu və “böyük əmirlər” gəlmişdilər. Qaçmaq istərkən tutulmuş Heydər tərəfdarlarının başçısı Hüseyn bəy də bura gətirilmişdi. Lakin İsmayıl gözləndiyinin əksinə olaraq onu edam etdirmədi, yalnız zindana salınmasını əmr etdi.

Ertəsi gün şah özünün mərasim dəstəsi ilə Səədabad bağında dayandı. Sonra o, bir neçə gün Hüseynqulu Rumlunun evində qaldı. Şahzadə Mustafanı onun yanına gətirdilər. İsmayıl onu dəfələrlə, “hərarətlə” öpdü və onu soyuq qarşılamış qardaşlarının arasında əyləşdirdi. O, aşağıdakı sözlərlə onlara müraciət etdi: “Allah görür, əgər siz mənə məhəbbət və doğruluqla yanaşsanız, mən sizə dünyada heç bir padşahın öz qardaşların yanaşdığı kimi münasibət bəsləməyəcəyəm”. Lakin İskəndər bəy Münşinin obrazlı ifadəsi ilə desək, “onun ürəyinin, dilinin dediklərindən xəbəri yox idi”.

Qızılbaş tayfalarının əyanları zahiri itaət də etməmişdilər. Onların nümayəndələri əvvəlki kimi, təmtəraqla mərhum şahın sarayından nəinki geri qalmayan, hətta üstün olan şahzadə xanımın sarayına toplaşırdılar. Öz təbiəti etibarilə hakimiyyətpərəst olan Pərixan xanımümid edirdi ki, taxt-tac uğrunda döyüşdə misilsiz köməyinə görə İsmayıl dövlət işlərində onun rolunu məhdudlaşdırmayacaq və ona öz köməyini əsirgəməyəcəkdir. Lakin onun ümidləri doğrulmadı.

İskəndər bəy Münşi göstərir ki, qızılbaş əmirləri və əyanları şahzadə xanımın sarayına gəlməklə, öz bacısının dövlət işlərinə müdaxiləsinin qarşısını almaq qərarına gəlmiş İsmayılın nüfuzunu aşağı saldıqlarını dərk etməyə başladılar. Hətta bəzi nüfuzlu əmirlər qadının dövlət işlərinə qarışmasını qeyri-təbii sayaraq bunu pisləyirdilər. Hüseynqulu bəy Xəlifəyə də İsmayılın münasibəti


downloaded from KitabYurdu.az

dəyişmişdi. Zahirən buna onun təkəbbürlü davranışı səbəb olmuşdur. Həqiqətdə isə İsmayıla xəbər vermişdilər ki, şahın ölümündən sonra Qəhqəhə qalasından heç bir xəbəri olmadığı ilk günlərdə Hüseynqulu taxta çıxmaq üçün şahzadə Mahmudun namizədliyini irəli sürmüşdü. Pərixan xanım da vaxtilə bu namizədliyi müdafiə etmişdi. Bütün bunlrdan xəbər tutan İsmayıl belə qərara gəlmişdi ki, Hüseynqulu xanı öz yolundan mütləq kənar etməlidir. Lakin bunu etmək asan deyildi. Çünki Hüseynqulu o zaman yalnız paytaxtda sayı 10 min nəfərə çatan rumlu tayfasının başçısı idi. Xəlifət əl-xulafa tutan Hüseyn bəy, rumlu sufiləri üçün Mürşidi Kamilin, yəni Səfəvilər təriqətinin başçısı kimi şahın müavini idi. Buna görə də İsmayıl öz başçılarına sözsüz sadiq olan sufilərin qiyamından ehtiyat edir, ciddi səbəb olmadan onu vəzifəsindən kənar edə bilmirdi. İsmayıl xeyli düşündükdən sonra çıxış yolu tapdı. O, Hüseynqulunu çağırdı və xəlifət əl-xulafa vəzifəsindən istefa verməklə dövlət vəkili (vəkalət-i ala) vəzifəsini qəbul etməyi ona təklif etdi. Lakin Hüseynqulu yaxşı başa düşürdü ki, əgər o, şahın təklifini qəbul edərsə, xəlifə kimi öz gücünü və müstəqilliyini itirəcəkdir. Həm də şah, özü üçün əlverişli olan zaman onu divan vəkili vəzifəsindən də kənar edə bilər. Hüseynqulu fikirləşərək imtina etməyi qərara aldı. Belə olduqda, İsmayıl rumlu əmirlərini yanına çağırdı və onlara belə bir sualla müraciət etdi: “Öz mürşidinin məsləhətini qulaqardına vurmuş sufi ilə nə etmək olar?” Onlar gözlənildiyi kimi cavab verib dedilər: “Həmin sufi cəzaya layiqdir”. Hüseynquluya bu söhbəti çatdırdılar. Ertəsi gün şahın yanına gələndə onu içəri buraxmadılar. O, günahkarcasına şahın qaldığı özünəməxsus evin qapısı ağzında oturmağa məcbur oldu. Üçüncü gün Hüseynqulu şahın fərmanı ilə Məşhəddə qorçilərin rəisi təyin edildi. O, həmtayfalarını tərk etdiyi bir halda, tək-tənha Xorasana yola düşdü. Hüseynqulu Damğanda şahın əmrilə öz həmtayfalarından biri tərəfindən dayandırıldı və gözləri çıxarıldı.


downloaded from KitabYurdu.az

Bundan sonra İsmayıl Hüseynqulunun evindən Pərixan xanımın sarayının yanında yerləşən əmir Şahqulu Sultan Yegan Ustaclının evinə gəldi. Şah öz bacısını çox sərt qəbul etdi. Nəhayət, İsmayıl onun, özünün təyin etdiyi vaxtda[43] şah sarayının kandarını adlayıb keçdi. Əvvəlcə o sarayı yenidən qurmağa başladı. O, taxtaçıxma saatını horoskopla özü təyin etmiş və bu, bütün ölkədə elan edilmişdi. İsmayılın taxt çıxmasına hazırlıq paytaxtda sürətlə gedirdi. Qızılbaş tayfaları hər tərəfdən paytaxta axışıb gəlirdilər. Qəzvinin küçələrində dəhşətli izdihamlar yaranmışdı. Qonşu dövlətlərin səfirləri, əmirlər, sərhəd bölgələrinin hakimləri və dəstə-dəstə əhali hədiyyələrlə şahın iqamətgahına gəlirdilər[44].

İskəndər bəy Münşi yazırdı: "Özünün (taxta) çıxması saatı onun tərəfindən təyin edildiyi üçün, bütün dövlət işləri taxta çıxan günə qədər təxirə salınmışdı". Əhali bu hadisəni gözləyir, günləri sayırdı.

II İsmayıl adı ilə tanınan şahzadə İsmayılın taxta çıxması mərasimi hicri 984-cü il cumada əl-əvvəlin 27-də (1576-cı il avqustun 22-də) keçirildi[45]. Sarayın Çehelsütun salonunda bu münasibətlə təntənəli qəbul düzəldilmişdi. Burada bütün əmirlər, şahzadələr və dövlət əyanları iştirak edirdilər. İsmayıl zinətlərlə bəzənmiş şah libasında, təntənəli şəraitdə salona daxil oldu və atasının taxtında əyləşdi. Sonra ənənəvi "taxt-taca sədaqət" and mərasimi başlandı.Yeni şahın əyləşdiyi taxta əvvəlcə şahzadələr, onların ardınca seyidlər, üləmalar, müctəhidlər, gürcü knyazları – İsa xan Ləvənd oğlu və Simon Luarsab oğlu yaxınlaşdılar[46]. Sonra Şah Rüstəm Lur, yüksək mövqeli əmirlər və qızılbaş əyanları, vəzirlər və ali məmurlar, əyalət əyanları, Hindistan padşahı Nizamşahın, Luristan hakimi İbrahim xanın, Mazandaran hakimi Mirzə xanın və Ərəbistan hakimi Seyid Səcadın elçiləri yaxınlaşdılar. Nəhayət, Portuqaliya kralı Don Sebastyanın firəng (avropalı) səfirləri yeni şahın "ayaqlarından öpmək üçün" taxta yaxınlaşdılar.İsmayılın qaladan azad edildikdən sonra almış olduğu


downloaded from KitabYurdu.az

bütün hədiyyələr və bəxşişlər onun ayaqları altına yığılmışdı[47].

Biz artıq paytaxtda ustaclı tayfasının məruz qaldığı cəza tədbirləri haqqında danışmışıq. Bu xəbər əyalətlərdə ustaclı nümayəndələrinin devrilməsi üçün sanki bir işarə idi. Belə ki, mühüm vəzifələrin bu tayfa əyanlarının əlində olduğu Xorasanda (Heratda) əfşar tayfasının digər tayfalarla birlikdə qiyamı baş verdi. Bunun nəticəsində Xorasan hakimi Şahqulu Sultan Yegan[48] öldürüldü. Tayfa darmadağın edildi və pərakəndə salındı. Şah, xan rütbəsi verməklə Əliqulu xan Şamlını Heratın hakimi və Xorasanın əmir əl-ümərası təyin etdi[49].

Ustaclı tayfasının sağ qalmış nümayəndələri hər vasitə ilə II Şah İsmayılın onları bağışlamasına nail olmaq, digər qızılbaş tayfaları ilə birlikdə ona xidmət etmək niyyətilə Qəzvinə doğru getdilər. Lakin onları burada da yaxşı qarşılamadılar. Onlat şahzadə Heydərin tərəfində çıxış etməklə qızılbaş tayfalarının nifrətini qazanmışdılar. İskəndər bəy Münşi yazır: “Ustaclı tayfası qızılbaşlar arasında gecə-gündüz öz rüsvayçılığından utanır və xəcalət çəkirdi”[50].

İsmayıl taxta çıxdıqdan sonra ilk əvvəl öz hakimiyyətini möhkəmləndirməyi qərara aldı. Bu məqsədlə o, sülalədən taxt-taca namizəd ola biləcək şəxslərin zərərsizləşdirilməsini zəruri hesab etdi. Biz artıq göstərmişik ki, uzun illər dustaqda tənha saxlanması İsmayılı ifrat dərəcədə hər şeydən şübhələnən və qəddar adam etmişdi. O, şahzadə Mustafanın 14 may hadisələrində Heydərlə birgə olmasını, Heydərin ölümündən sonra isə şahzadə Süleymanın öz bacısı Pərixan xanım və çərkəzlərin başçısı Şamxal tərəfindən taxta namizəd irəli sürüldüyünü unuda bilmirdi.

İsmayıl ilk növbədə göstərilən şahzadələri məhv etməyi qərara aldı. O, bu məqsədlə şahzadə Mustafanı “himayə etməyi” adlı[51]. Ustaclı həmtayfaları başa düşürdülər ki, şah onların “taxt-taca sədaqətini” sınaqdan keçirmək üçün dəhşətli üsul düşünmüşdür. İskəndər bəy Münşinin dediyi kimi, Pirə


downloaded from KitabYurdu.az

Məhəmməd öz əlini şah sülaləsi nümayəndəsinin qanına bulamaq istəməsə də, qəzəbli şahın əmrindən boyun da qaçıra bilmədi. Çünki o, öz tayfasının şah qarşısındakı günahını yumaq istəyirdi. Beləliklə, Mustafa Pirə Məhəmməd xanın evinə çatdırıldı və bir neçə gündən sonra boğulub öldürüldü.

Digər şahzadənin - Süleymanın da aqibəti dəhşətli oldu. O, şahın əmrinə əsasən, öz həyatı üçün əsən dayısı Şamxalın əli ilə öldürüldü. Bu qətllər 1576-cı il noyabrın 1-nə keçən gecə (şabanın 7-də)[52] baş verdi.

Lakin İsmayıl öz məqsədinə tam nail olmağa çalışırdı. İskəndər bəy Münşinin obrazlı dili ilə desək, o, qardaşlarını "öz dövlətinin gülşənindəki tikanlar" hesab edirdi.

Çox qorxduğu Qəndəhar hakimi Sultan Hüseyn Mirzə[53]sağ ikən, İsmayıl riyakarcasına qardaşlarına canıyananlıq edir, onların sayıqlığını zəiflətmək istəyirdi. Lakin bir qədər sonra Xorasandan Sultan Hüseyn Mirzənin ölüm xəbəri alındı və onun qardaşlarına olan əsl münasibəti aşkara çıxdı[54]. Şah heç bir günahı olmayan, ədalətsiz tənələrdən əzab çəkən qardaşlarını da məhv etmək üçün bəhanə axtarmağa başladı.

Günlərin birində paytaxt meydanında rumlu sufiləri ilə Qəzvin darğasının mülazimləri arasında mübahisə toqquşma ilə nəticləndi. Tezliklə darğa Əbdülqəni bəy Ustaclı tərəfdarlarından ibarət dəstəsi ilə özünü bura çatdırdı. Lakin o, sayca üstün olan sufilər tərəfindən əzişdirildi. İsmayıl, Müseyib xan Təkəliyə və Murtizaqulu xan Pornaka əmr etdi ki, qiyamçıları susdurmaq üçün hərəkət etsinlər. Əmirlər "həmin xalqın məskənlərinə" gedib meydandakı toqquşma ilə heç bir əlaqəsi olmayan, günahsız adamları qırdılar[55].

İğtişaşlardan istifadə edən İsmayıl paytaxtda olan şahzadələrə divan tutmağı öz adamlarına tapşırdı. Məhəmməd Hüseyn Mirzə[56], şahzadə Mahmud və onun bir yaşlı oğlu Məhəmməd Bəkir, şahzadələr İmamqulu və Əhməd[57], həmçinin



downloaded from KitabYurdu.az

İbrahim Mirzə[58] öldürüldülər.

Sonra II İsmayıl əmisi, bibisi, dayısı, xalası oğlanları və onların əyalətlərdəki kişi nəslini qırmağa başladı. Belə ki, Sisitanda onun əmri ilə Bəhram Mirzənin oğlu Badi əz-zaman Mirzə, öz oğlu Bəhramla birlikdə qətlə yetirildi[59]. Gəncədə yaşayan Sultan Mirzə isə kor edildi. Beləliklə, qətllər müvəqqəti olaraq dayandırıldı. Yalnız onun qardaşı Məhəmməd Mirzənin (bir anadan olmuşdular) oğlanları toxunulmaz qaldılar: Sultan Həsən Mirzə, Həmzə Mirzə, Abbas Mirzə, Abutalıb Mirzə və Təhmasib Mirzə[60].

## II Şah İsmayılın dövlət fəaliyyəti

Xalqın vəziyyəti I Şah Təhmasibin hakimiyyətinin son illərində xüsusilə ağırlaşmışdı. Alessandrinin şəhadətinə əsasən, son 8 il ərzində quldurların əli ilə 10 min nəfərdən artıq adam öldürülmüşdü. Yollar təhlükəli idi, tacir anbarlarına hücumlar adi hal almışdı[61].

Həsən bəy Rumlunun qeydlərinə görə, I Şah Təhmasibin ölümü əyanlar arasında böyük təlaşa və çaxnaşmaya səbəb oldu. Seyidlər, qazılar və üləmalar öz həyatları üçün narahat olur, “pozğun ünsürlərin və qara camaatın” (ronud və ovbaş)[62] üsyanından qorxurdular. Belə bir təhlükənin heç də xəyali deyil, gerçək olduğunu şahın ölümündən sonra, on gün ərzində Qəzvində qarışıqlıq hökmsürdüyünü xəbər verən İskəndər bəy Münşinin məlumatlarından da görmək olar. İskəndər bəy Münşi yazırdı: “Məhəllələrin qara camaatı (acəmirə) və pozğun ünsürləri (ovbaş) qiyam və iğtişaş üçün başlarını qaldırdılar”. Əlbəttə ki, hücumlara ilk növbədə varlı şəhərlilərin özləri məruz qaldı. Həmin günlərdə heç kəs “öz evindən başını çıxarmağa” cəsarət etmirdi. Bu vəziyyət hakimiyyət orqanlarının hadisələrin təhlükəli gedişinin qarşısını almaq qərarına gəldikləri günədək – 1526-cı il mayın 24-dək


downloaded from KitabYurdu.az

davam etdi. Həmin gün carçılar şəhərdə belə bir əmri elan etdilər ki, küçələr maneələrdən təmizlənməli və bundan sonra "başqasına əl qaldıran edam ediləcəkdir"[63].

Tacqoyma günlərində öz işlərinin baxılmasını tələb edən xalq kütlələri şahın sarayına gəlirdilər. Onların arasında "türklər, taciklər, hərbçilər və rəiyyət" var idi. İsmayıl kəndlilərin və şəhərlilərin partlayışına yol verməmək üçün xalqın vergilər haqqında və inzibati işçilərinə dair şikayətlərinə baxmaq işini dayısı oğlu İbrahim Mirzəyə həvalə etdi[64]. Məhəmmədi xan Toxmaq Ustaclı, Mirzə Əli Qacar və vəzir Mirzə Şükrulla onunla birgə ədalət divanında iclas etməli idilər. Onların "ən ali divanının" möhürü ilə imzalanan sənədlər qüvvədə olan qanun hüquqlarına malik idi.

İsmayılın hakimiyyətinin bir-iki ayı ərzində bütün mülki və dövlət işləri ədalət divanında həll edilirdi. Lakin şahın özünün həll etməli olduğu vilayət hakimlərinin təyin olunması kimi daha mühüm işlər təxirə salınırdı. II İsmayıl itirilmiş vaxtın əvəzini çıxmaq üçün hakimiyyətdən istifadə edir, kef-işrətlə məşğul olurdu. Bir müddətdən sonra şah narazı qaldığı vəzir Mirzə Şükrulla İsfahanini öz vəzifəsindən kənar etdi. Onun yerinə Mirzə Salman təyin edildi. İskəndər bəy Münşi göstərir ki, o, dövlət işlərinin həllində böyük müstəqilliyə malik olduğu halda İsmayıl idarəçilik işlərinə qarışmırdı. Mirzə Salman İsmayıldan dövlət işlərinə kənar adamların müdaxiləsinə yol verməmək və qızılbaş əmirlərinin qarşısında təslim olmamaq barədə göstəriş almışdı[65]

II İsmayılın dövründə saray vəzifələrinin və vilayət hakimlərinin heyətində bəzi dəyişikliklər həyata keçirildi. Təbiidir ki, bu vəzifələrə əvvəlki kimi azərbaycanlı qızılbaş əyanlarının nümayəndələri təyin edilirdi. Farsların (taciklərin) rolu yalnız mülki işlərlə məhdudlaşırdı. Saray vəzifəsi eşikağasıbaşı (saray təşrifçisi) Hüseynqulu xan Şamlıya həvalə edildi. Mirşah Qazi mustoufi əl-məmalik (baş xəzinədar) oldu. Müseyib xan Şərəfəddin


downloaded from KitabYurdu.az

oğlu Təkəli, xan rütbəsi alaraq Rey hakimi təyin edildi. Kürdüstanda Ələşkərt bölgəsinin idarəsi Sulaq Hüseyn Təkəliyə bağışlanıldı. Biz artıq qeyd etmişik ki, Əliqulu xan Şamlı Herat hakimi və Xorasan əmir əl-ümərası təyin olunmuşdu. Murtuzaqulu xan Pornaka Məşhədin idarə olunması etibar edildi. Qarabağın əmir əl-ümərası və Gəncə vilayətinin hakimi Yusif Xəlifə Ziyad oğlu, qacar tayfasından olan Peykər Sultan tərəfindən öldürülmüşdü. Bu vəzifəyə İmamqulu xan Qacar təyin edildi. Kirman hakimi Allahqulu bəy Əfşar, şahın xüsusi hərbi dəstəsinin başçısı (qorçibaşı) vəzifəsinə irəli çəkildi. Mahmud Sultan Əfşar isə Kirman hakimi təyin edildi. Şiraz vilayətinə hakim təyin edilən Vəli xan Qalxançıoğlu Zülqədər az sonra II İsmayılın təzəcə dünyaya gəlmiş oğlu Şahşücanın[66] tərbiyəçisi oldu. "Şərəfnamə"nin müəllifi Şərəf xan Bidlisi Kürdüstanın "əmirlər əmiri" vəzifəsinə keçdi"[67].

## Dini islahat cəhdi

II İsmayılın dövlət xadimi kimi fəaliyyəti haqqında əlimizdə olan məlumatlar çox azdır. Onların içərisində şahın din sahəsindəki tədbirlərinə aid məlumatlar diqqəti xüsusilə cəlb edir. Bu məsələ barəsində daha tam məlumatları biz tenə də İskəndər bəy Münşinin "Tarix-i aləm aray-i Abbasi" əsərində tapırıq.

Artıq II İsmayılın tacqoyma mərasimindən bir neçə ay sonra, onun öz İsmayılın adamlarının kiçik dairəsində sünniliyə meyilli çıxışlar etməsi barədə xalq arasında narahat şayiələr gəzməyə başladı. Buna görə də ondan sünniliyin tərəfdarı kimi şübhələndilər[68]. Saraydakı şiə ruhaniləri açıq etirazlarını bildirməyə cəsarət etmirdilər. Lakin öz aralarında şahın çıxışlarını pisləyirdilər.


downloaded from KitabYurdu.az

Hələ I Təhmasib dövründə sünniliyə rəğbət bəsləməkdə ittiham edilən saray üləmalarından biri (Mirzə Məxdum Şərifi) şahın şiəlik əleyhinə çıxışlarını müdafiə etdi və tezliklə hər cür qorxunu kənara ataraq, "birinci üç xəlifənin lənətlənməsini" ləğv etmək tələbilə sünnilərin xeyrinə açıq şəkildə çıxış edən İsmayılın yanında böyük təsir sahibi oldu.

Şiə ruhanilərinin müqavimətinə baxmayaraq, İsmayıl gələcəkdə küçələrdə və şəhər meydançalarında Əbubəkrin, Ömərin və Osmanın açıq lənətlənməsi adətini (təbərra) qadağan etdi. O, Mirzə Məxdum Şərəfi, Mövlana Mirzəcan Şirazi və Mir Məxdum Lalə kimi sünni ruhanilərinin nümayəndələrinə mərhəmətlər yağdırdı.

Mirzə Məxdum, şaha şikayət etmişdi ki, məsciddə moizə oxunuşu zamanı xəlifələr lənətlənir və onun barəsində istehza ilə danışırlar. II İsmayıl qorçilər dəstəsinə məscidə getməyi və lənət deməyə cəsarət edənləri cəzalandırmaq üçün növbəti moizədə iştirak etməyi əmr etdi. Cümə xütbəsinin sonunda Qəmbər adlı dərviş öz sözlərini aşağıdakı kəlamla bitirdi: "Əliyə və onun ailəsinə səmimi qəlbdən xeyir-dua, Əlinin düşmənlərinə isə əbədi lənət olsun!"[69]. Mirzə Məxdum dərvişi ədəbsizlikdə günahlandırdı. Yaxınlıqda duran qorçilər isə onun üzərinə atılıb dəyənəklə başını yardılar. Bu hadisə şahın sünnilik əqidələri barəsində Qəzvin əhalisinin şübhələrini gücləndirdi[70].

II İsmayıl hətta şiə ilahiyyatçılarını təqib etmək fikrinə düşdü. Məsələn, Mir Seyid Hüseyn Müctəhid, Mir Seyid Əli Xətib və başqaları saraydan qovuldular. Mir Seyid Hüseynin kitabları möhürləndi və müsadirə edildi. Onun evi isə dağıdıldı.

Sünnilik tərəfdarları xalqı öz tərəflərinə çəkməyə cəhd göstərdilər. Elan edildi ki, öz həyatı boyu peyğəmbərin silahdaşlarını lənətləməmiş müsəlmanlara müəyyən məbləğdə pul veriləcəkdir. Belə adamları aşkara çıxarmaq Mirzə Məxduma tapşırıldı. Qəzvin əhalisinin ehtiyac içərisində olan hissəsi vəd


downloaded from KitabYurdu.az

olunmuş məbləği almaq arzusu ilə iddia edirdi ki, onlar həyatları boyu şiəliyə mənsub olmamışlar. Bir çox qəzvinli keçmişdə sünni olmuş, şafii təriqətinə etiqad etmişdi. Buna görə də belə hesab edirdilər ki, onların çoxu hələ paytaxtda qalmaqdadır. Mirzə Məxdum bu yolla müəyyən edilmiş "sünnilərə" 200 min tümənə qədər pul verdi[71].

Lakin II İsmayıl və sünnipərəst ruhanilər öz əməllərini davam etdirmək fikrində idilər. Qəzvin möhtəsibinə (keşikçi dəstəsinin rəisi) göstəriş verilmişdi ki, o, məscidlərin bütün divar və qapılarından İmam Əliyə olan məhəbbəti ifadə edən yazıları yox etsin. Möhtəsib Mir Zeynalabidin Kaşi özü şiə idi. Lakin II İsmayılın xoşuna gəlmək üçün imamların şücaətlərini təsvir edən bütün yazıları və hətta onların adlarını da pozmağı əmr etdi.

Dərvişin öldürülməsi və məscidlərin təhqir edilməsi xəbəri təəssübkeş qızılbaşların səbir kasasını doldurdu. Onların əyanlarından ibarət adamlar son dərəcə hiddətlənmiş halda Səədabad bağında, sarayın qarşısında toplaşdılar. Onlar şiə icmasının başçısı olan mürşidi-kamilinaçıq-aşkar öz əcdadlarının etiqadından imtin etmək niyyətində olduğu təqdirdə, müridlərin (sufilərin) özlərini necə aparacaqlarını da bilmirdilər. Bəziləri bu barədə İsmayılın şəxsi fikrini öyrənməyi təklif edirdilər. Çünki yalnız o, icmanın irsi başçısı kimi şübhələrə son qoya bilərdi. Ağsaqqallar bu təklifə qarşı çıxış etdilər. Onların fikrincə, belə rəftar qəbul olunmuş qaydalara müvafiq deyildi və şah sülaləsinə qarşı qiyam kimi başa düşülə bilərdi. "Bəli, bəs İsmayıla belə sualı verməyə kim cəsarət edəcək?".

Təkəli taufasının başçısı Ərdoğdu Xəlifə, türkman tayfasının rəhbəri Əmir xanla bərabər şahın yanına getmək, etiqad məsələləri üzrə onları narahat edən suallara cavab verməyi şahdan xahiş haqqında razılıq əldə olundu. Burada iştirak edən əmirlərin bir qismi tez aradan çıxıb şaha xəbər verdilər ki, təkəli və türkman tayfalarının başçıları öz aralarında ittifaq bağlayıblar, müttəfiqlər


downloaded from KitabYurdu.az

şahı dinsizlikdə günahlandırmaq, onu devirmək və yerinə Tehranda yaşayan şahzadə Həsəni[72] taxta oturtmaq niyyətindədirlər.

Qəzəblənmiş II İsmayıl dərhal Əmir xanı öz yanına çağırtdırdı və çox sərt şəkildə ona dedi: "Siz mənim sünni etiqadını seçdiyimi iddia etməklə məni qızılbaşların arasında rüsvay edir, xalqın mənə olan inamını qırırsınız!" Əmir xan ona cəsarətlə cavab verdi: "Biz belə düşünmürük və bizim əlahəzrət şaha inamımız sarsılmazdır. Biz belə hesab edirik ki, əgər əlahəzrət tərəfindən etiqad məsələlərinə etinasızlıq təzahür etmişsə, bu, sizin dövlət işləri ilə məşğulluğunuzdan irəli gəlir və düşmən əməlidir. Lakin Mirzə Məxdum Şərəfi bu məsələni aşkarlamış, şaha böhtan atmışdır. O, xalqa açıqca deyir ki, əlahəzrət şah sünniliyi qəbul etməyə meyil edir. Mirzə Məxdum şiə üləmalar ilə həmin etiqadın üstünlükləri barədə mübahisə açır. Əgər şah bu şayiələri yalan hesab edirsə, qoy onu cəzalandırsın. Məgər bizim günahımız varmı?" Daha sonra Əmir xan sözünə davam etdi: "Niyə əlahəzrət şah (onun) xeyirxahları haqqında (bizim) düşmənlərimizin sözlərinə qulaq asır, onların düzgünlüyünü və yanlışlığını yoxlamadan (bizi) – ürəkdən sadiq olanları öz düşməni hesab edir?" II İsmayıl dedi: "Əgər mən qızılbaşların padşahı olmağa layiq deyiləmsə, sizin sövdələşmənizə və qərarınıza əsasən, Tehrandan Sultan Həsəni bura gətirin və özünüzə padşah edin!"[73].

II İsmayılın əmri ilə Ərdoğdu Xəlifə həbs edildi. Əmir xana isə İsmayıl dedi ki, əgər onlar həqiqətən şahzadə Həsəni taxta əyləşdirmək niyyətində deyillərsə, o və Müseyib xan Təkəli bunu əməlləri ilə sübuta yetirsinlər. Bu, şahzadə Həsənin qətlə yetirilməsinə açıq işarə idi. Əmirlər bunu başa düşdülər və tezliklə şahzadə xüsusi olaraq bu məqsədlə göndərilmiş adamlar vasitəsilə Tehranda öldürüldü[74]. Bu hadisələrdən sonra II İsmayıl ustaclı əyanları ilə yaxınlaşmağa, türkman və təkəli tayfalarına isə şübhə ilə yanaşmağa başladı.

Lakin tezliklə şah başa düşdü ki, özünün dini islahat


downloaded from KitabYurdu.az

səylərində həddindən çox irəli getmişdir. Qızılbaş əyanlarının qiyamından və həyəcanlanmış xalqın tərəfindən baş verə biləcək iğtişaşlardan ehtiyat edərək o, Mirzə Məxdumu yanına çağırdı. Hamının gözü qarşısında onu ittiham edib danladı. "Bu, əhalinin ürəyindən idi və beləliklə, xalqın şübhəsi aradan götürüldü"[75]. Bundan sonra şah saray daxilində bir daha dinlə əlaqədar olan məsələlərə qayıtmadı.

II İsmayılın sünniliyə olan rəğbəti onun hakimiyyəti dövründə zərb edilmiş sikkələrdə daha aşkar surətdə təzahür etmişdi. İsmayıl tac qoyduqdan sonra, bir müddət yeni şahın adı ilə sikkə zərb olunmadı. Buna görə sikkə zərb edən ustalar (zərrəbiyan) zərbxana gəlirlərinə ziyan vurulmaması məqsədilə şahın qarşısında sikkənin dəyişdirilməsi məsələsini qaldırdılar. İskəndər bəy Münşi qeyd edir ki, bu zaman İsmayıl, adətən sikkənin bir üzündə həkk edilən ərəb kəlamlarının, yəni: "Allahdan başqa Tanrı yoxdur, Məhəmməd Allahın rəsuludur, Əli Allahın dostudur" sözlərinin doğruluğuna şübhə etdiyini bildirmişdi. O, qeyd etdi ki, Allahın adı ilə zərb olunan dinarlar və dirhəmlər ticarət əməliyyatında yəhudilərin, ermənilərin, atəşpərəst hindlilərin və digər "kafirlərin" də əlinə keçir və bu etiqad qaydalarına ziddir. Lakin İsmayılın etirazının əsl səbəbi bu deyildi. İskəndər bəy Münşi göstərir ki, bu kəlamda II İsmayılı təmin etməyən hissə şiə formulu olan "Əli Allahın dostudur" ifadəsi idi[76].

Mahmud Nətənzi məlumat verir ki, İsmayılın fərmanı ilə on dang dəyəri olan xalis qızıl və gümüş sikkələr buraxılmışdı. Qızıl sikkələrin bir tərəfində Şeyx Əttardan bir beyt, o biri tərəfində isə padşahın adı, ünvanı və sikkənin zərb olunduğu yer göstərilirdi. Sikkələrin üstündəki ənənəvi şiə ifadəsindən imtina edilməsi ruhanilərin güclü müxalifətinə səbəb oldu. Lakin bu etirazlar II İsmayılın qərarını dəyişə bilməmişdi[77].

II İsmayılın sünni təmayüllü dini siyasətinin anlamı və


downloaded from KitabYurdu.az

məqsədi nədən ibarətdi? Bu suala əlimizdə olan materiallar əsasında aydın cavab vermək çox çətindir. Təsvir olunan hadisələrin müasiri – Şərəfxan Bidlisi yazır ki, II İsmayıl hakimiyyətdə möhkəmləndikcə öz əcdadlarının adətləri əksinə olaraq ölkədə elə qaydalar yaratmaq üçün tədbirlər görürdü ki, bu qaydalar sünnilərin və şiələrin hər birinin öz etiqadını saxlamasına, bir-birinin işinə qarışmamasına imkan yaratsın.

Sultan Süleymanla I Şah Təhmasib arasında 1555-ci ildə sülh müqaviləsinin bağlandığı zaman Osmanlılar xüsusi olaraq qeyd etmişdilər ki, Səfəvilər əgər sultanla sülh şəraitində yaşamaq istəyirləsə, birinci üç xəlifəni" də tanımalıdırlar[79].

Buna görə də yalnız ehtimal etmək olar ki, III Sultan Muradla təxminən eyni vaxtda taxta çıxan II İsmayıl sultanla sülh münasibətləri yaratmağa və bu məqsədlə də şiə-sünni qarşıdurmasını yumşaltmağa səy göstərmişdi. Zənn etmək olar ki, məhz buna görə də II İsmayılın qısamüddətli hakimiyyəti dövründə Səfəvi-Osmanlı sərhədində sakitlik hökm sürmüş, tərəflərin heç biri barışıq müqaviləsini pozmamışdı.

Qəzvində şahın yeni din təmayülü ilə əlaqədar olaraq baş vermiş həyəcanlardan, şahzadə Həsən öldürüldükdən sonra öz hakimiyyətini möhkəmləndirmək üçün getdikcə daha çox qan axıdan, özünə inamı daha artıq dərəcədə itirən müstəbid kimi II İsmayılın öz ətrafındakılara inamsızlığı və şübhəsi də artmağa başladı.

Təbiidir ki, çoxsaylı edamlar, vergi yükünün ağırlığıxalq kütlələrini müflisləşmək və dilənçiləşmək həddinə gətirib çıxarmaya bilməzdi. Narazılıq qızılbaş qoşunlarını və II İsmayılın ən yaxın adamlarını da əhatə etmişdi. Lakin qəddar, qana həris müstəbidin təlqin etdiyi qorxu hissi bu narazılığın aşkar təzahürünə mane olurdu. Biz II İsmayılın taxt-taca iddia edə bilən qardaşlarını məhv etməsi barədə danışmışıq. Qardaşının böyük oğlunu, şahzadə Həsəni öldürən II İsmayıl öz hakimiyyəti üçün daimi qorxu hissinin


downloaded from KitabYurdu.az

təsiri altında uzaq Xorasanda yaşayan digər qardaşı oğlu – yeddi yaşlı şahzadə Abbası da qətlə yetirməyi qərara almışdı. Bu "vəzifəni" Herat hakimi, Abbasın qəyyumu Əliqulu xan Şamlı yerinə yetirməli idi[80]. Lakin onun Abbasa rəhmi gəlmiş, mövhumatçı olduğuna görə qətl tədbiri "müqəddəs" ramazan ayının sonuna qədər təxirə salınmışdı. Ancaq ramazan ayı hələ başa çatmamışdı ki,şapar II İsmayılın ölümü barədə şad xəbəri Herata yetirdi.

Hicri 985-ci il ramazanın 13-ü (1577-ci il noyabrın 24-də) İsmayıl sərxoş vəziyyətdə paltarını dəyişdi, saraydan çıxdı, saray halvaçısı Həsən bəyin və məiyyətin müşayiəti ilə şəhərin küçələrini dolaşmağa başladı. Gecəyarısı o, dincəlmək üçün Həsən bəyin evinə gəldi. Ertəsi gün isə elə oradaca onun meyiti tapıldı.

II Şah İsmayılın ölümü haqqında çoxlu rəvayətlər vardır. Bəziləri onun kəskin mədə ağrısından, başqaları həddən artıq tiryək istemal etməsindən, üçüncülər isə boğulub öldürüldüyündən və s. vəfat etdiyini söyləyirlər[81]. Bu rəvayətlərdən daha çox həqiqətə bənzəyəni İskəndər bəy Münşinin söylədiyidir[82]. Həmin rəvayətə görə, II İsmayılın etinasız münasibətindən narazı qalmış Pərixan xanım hərəmxana kənizləri vasitəsilə şahın qəbul etdiyi uyuşdurucu maddələrə zəhər qatmışdı. Doğrudan da şöhrətpərəst və kinli olan Pərixan xanımİsmayılın hakimiyyətə gəlməsi üçün çox iş görmüş, lakin dövlət işlərindən kənar edilməsinə görə özünü olduqca təhqir olunmuş hesab edirdi. Lakin Pərixan xanımın belə təhlükəli addımı atmağa cəsarəti çatardımı? Güman etmək olar ki, burada II İsmayılın dini xarakterli islahat cəhdini çox təhlükəli sayan qızılbaş əmirlərinin təşkil etdikləri sui-qəsd mühüm rol oynamışdır.

## Məhəmməd Xudabəndənin dövründə Səfəvilər dövlətinin daxili vəziyyətinin pisləşməsi

II Şah İsmayılın ölümü ilə əlaqədar olaraq Qəzvin sarayında gərgin vəziyyət yarandı. Elə görünürdü ki, qızılbaş tayfaları (bir


downloaded from KitabYurdu.az

tərəfdən ustaclı və şamlı, digər tərəfdən, türkman və təkəli) arasında qanlı düşmənçilik tezliklə yeni qüvvə ilə alovlanacaqdır. Lakin vəzir Mirzə Salman və çox nüfuzlu, müdrik şəxs olan Xəlil xan Əfşar toqquşmaların qarşısını dərhal almaq qərarına gəldilər. Qəzvinin saray meydanına ən böyük əyanlar və tayfa əmirləri çağırıldı. Burada türkman tayfasının qoca başçısı Əmir xanla ustaclı tayfasının gənc rəhbəri Pirə Məhəmməd xanın "barışdırılması" hadisəsi baş verdi. İskəndər bəy Münşinin təbirincə desək,onlar "ata və oğul" müqaviləsi bağladılar. Digər əmirlər də onlardan nümunə götürdülər. Sonra taxt-tacvarisi məsələsini həll etməyə başladılar. Bir çox namizədlər irəli sürülsə də (o cümlədən Məhəmməd Mirzənin oğulları olan 11 yaşlı Həmzə və 9 yaşlı Abbas, hətta I İsmayılın südəmər oğlu Şahşüca)[83], iri tayfaların əmirləri I Şah Təhmasibin böyük oğlu Məhəmməd Mirzənin namizədliyi üzərində dayandılar. Əmirlər qərar barədə Pərixan xanıma məlumat verdikdə, o, "özünü padşah təsəvvür edərək" dedi ki, qardaşının şah olması qərarına etirazı toxdur, lakin bütün dövlət işlərini özü aparacaqdır. II Şah İsmayılın zindanlara atdığı əmirlər və əyanlar Pərixan xanımın əmri ilə azad edildilər[84].

Məhəmməd Mirzə qardaşı ölən zaman Şirazda yaşayırdı. O, demək olar ki, kor, mülayim və dövlət işləri üçün bacarıqsız bir adam idi. Onun bu nöqsanları dövlət hakimiyyətini öz əllərinə almağa səy göstərən qızılbaş tayfa başçılarını tamamilə qane edirdi.

II İsmayılın ölümündən sonrakı ilk günlərdə ölkədə ikihakimiyyətlilik şəraiti yarandı. Paytaxt şəhəri olan Qəzvində dayısı Şamxal Sultanın müdafiə etdiyi Pərixan xanım hakimiyyəti ələ aldı. Bütün əmirlər və "dövlətin ali şəxsləri" ona tabe oldular. Onun yanında hətta qızılbaş tayfalarının ağsaqqallar şurası yarandı. Bu şuraya türkman tayfasından Əmir xan, ustaclı tayfasından Pirə Məhəmməd xan, şamlı tayfasından Sultan Hüseyn xan, təkəli tayfasından Müseyib xan Şərəfəddin oğlu, əfşar tayfasından Qulu


downloaded from KitabYurdu.az

bəy qorçibaşı daxil oldular. Onlar Şamxal Sultanın vasitəsilə Pərixan xanımın göstərişlərini alırdılar. Pərixan xanım dövlət işlərinə rəhbərliyi tamamilə öz əlinə almışdı[85].

Həmin günlərdə Mirzə Salman Qəzvindən Məhəmməd Mirzənin yaşadığı Şiraz şəhərinə gəldi. O, çox tez bir zamanda şahın və onun arvadı Xeyrannisə bəyimin etibarını qazandı[86]. Bu bacarıqlı və hakimiyyətpərəst qadın əslində ərinin əvəzinə bütün dövlət işlərini görür, hətta özünə lazım olan adamları dövlət vəzifələrinə də təyin edirdi.

Məsələn, Şirazın mustoufisi Mir Qəvaməddin Hüseyn onun (Məhdi Ülya – "Yüksək beşik") göstərişi ilə həbsdən azad edildi və vəzir rütbəsinə yüksəldildi. İskəndər bəy Münşi yazır: "Əlahəzrət Məhdi Ülya dövlət işlərinin təşkilatçısı və qurucusu oldu. Onun göstərişi olmadan heç bir mühüm məsələ həll olunmurdu"[87]. Məhəmməd, Məhdi Ülyanın arzusu ilə onun qohumu Ədməd xanı İstəxr qalasından azad etmiş, Gilan hakimi vəzifəsini bərpa etmişdi. Yuxarıda adı çəkilən Mirzə Salman[88] fəxri "etimad əd-dövlə" ("dövlətin etimadı") adını aldı və dərhal Məhdi Ülya tərəfindən "ali divanın" vəziri təyin edildi.

Mirzə Salman şahı və onun arvadını tezliklə Qəzvinə köçməyə çağırırdı. O, Məhdi Ülyanı inandırırdı ki, Pərixan xanım paytaxtdaöz hakimiyyətini möhkəmləndirər və onun yerinə yalnız "şahın adı" qalar, özü isə ərinə arvad olmaqla kifayətlənər. Farsın dəlilləri dərhal öz təsirini göstərdi. Şah sarayının əhli, İsfahan-Kaşan-Qum-Savə-Qəzvin yolu ilə şimala doğru hərəkətə başladı.

Pərixan xanım şahın yaxınlaşması xəbərini eşitdi və mübarizəsiz təslin olmamaq qərarına gəldi. Dayısı Şamxal Sultan silahlı müqavimət göstərmək üçün öz adamlarını toplamağa başladı. Lakin toqquşma baş vermədi. Qızılbaş əmirləri Pərixan xanımı tərk etməyə və paytaxta daxil olan Məhəmmədin tərəfinə keçməyə başladılar. Pərixan xanımın dəyəri 10-15 min tümən olan əmlakı xəyanət etdiyi üçün onun lələsi Xəlil xan Əfşara hədiyyə verildi.


downloaded from KitabYurdu.az

Məhəmmədin Qəzvində tacqoyma mərasimi hicri 985-ci il zülhiccənin 5 (1578-ci il fevralın 13)-də oldu[89]. İlk əvvəl şahın düşmənləri məhv edildi. Onun 30 yaşlı basısı Pərixan xanım fevralın 17-də edam edildi. Pərixan xanımın dayısı Şamxal Sultan hiylə ilə ələ keçirildi və öldürüldü. Taxt-tacın varisi ola biləcək şəxsin, II Şah İsmayılın bir yaşlı oğlu Şahşücanın da məhv edilməsi "yaddan çıxarılmadı". Məhəmməd Xudabəndənin taxta çıxmasının ilk günlərindən etibarən, onun arvadı Məhdi Ülya "tam əzəmət və müstəqilliklə dövlət və padşahlıq işləirini öz əlinə aldı"[90]. Onun oğlu Həmzə Mirzə "ali divanın vəkili" (vəkalət-i divan-i əla) vəzifəsinə yüksəldildi və müəyyən edildi ki, onun möhürü padşahın hökm və fərmanlarının arxasında, vəzirin möhürünün üzərindən vurulsun"[91].

Əyanların bir çox nümayəndələri adətən yeni şah taxta çıxdıqdan sonra fəxri libaslar və hədiyyələr aldılar, onların əvvəlki vəzifələri və imtiyazları təsdiq edildi.

Qızılbaş tayfalarının əmirləri əyalətlərdə nəzarətsiz ağalıq edirdilər. Əmir xan Türkman (Mosullu) Təbriz, Pirə Məhəmməd xan Ustaclı isə Ərdəbil əyalətlərinin hakimliyi vəzifəsini aldılar. Çuxursəəd bəylərbəyliyi Məhəmmədi xan Toxmaq Ustaclıya verildi. İmamqulu xan Qacar yenidən Qarabağ hakimi, Araz xan Rumlu Şirvan bəylərbəyi təsdiq edildi. Kirman hakimliyi Vəli xan Əfşara, Həmədan vilayətiVəli Sultan Təkəliyə, Kuh Giluyə Xəlil xan Əfşara, Kaşanın idarəsi Məhəmməd xan Türkmana (Mosullu), Qəzvin vilayəti Sultan Hüseyn xan Şamlıya, Fars vilayəti isə zülqədər tayfasının əmirlərinə və s. verildi[92].

Məhəmməd Xudabəndənin daxili siyasətini səciyyələndirən Şərəfxan Bidlisi göstərir ki, ölkə, əslində mərkəzlə az hesablaşan, vilayətləri özbaşına idarə edən qızılbaş tayfalarının başçıları arasında bölüşdürülmüşdü. Məhəmməd Xudabəndəyə onlar yalnız şah adını saxlamışdılar. Şərəfxanın təbirincə, əmirlər dövlət işlərini


downloaded from KitabYurdu.az

"kor padşaha və gözləri zəifləmiş vəzirə" vermişdilər[93].

Qazi Əhməd Quminin məlumatına görə, o dövrdə dövlət xəzinəsinin bütün sərvətlərinin dəyəri 900 min tüməndən ibarətdi. II Şah İsmayılın məhv etdiyi şahzadələrin mülkiyyətinin müsadirə olunmasıyolu ilə və digər zorakı tədbirlərlə mənimsənilmiş bütün əmlakın dəyəri də bura daxil idi[94].

Əsasən I Şah Təhmasibin yarım əsrlik hakimiyyəti dövründə, qənaət hesabına toplanmış bu böyük sərvət bir il ərzində xəzinədən boşaldı. Həsən bəy Rumlu göstərir ki, yeni çah, I Təhmasibin son 14 ildə ödəmədiyi, II Şah İsmayılın isə yüzdə bir hissəsini ödədiyi məvacibin dərhal hamısını orduya vermişdi[95].

İskəndər bəy Münşi, Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin ilk illərində Səfəvilər dövlətinin vəziyyətinin parlaq təsvirini verir. Şah dövlət xəzinəsinin "qapılarını açmış" və "israfçılıq son həddə çatmışdı". Vəzir Mirzə Salman bir, yaxud iki il üçün əmirlərə əvvəlcədən borc pul ödəyirdi. Təxminən 10 il müddətində məvacib almayan qorçilər indi məvacibin hamısını bir yerdə aldılar. "Hər gün dövlət xəzinəsindən bütöv sandıqlarla zərb olunmuş qızıl daşıyır və qorçilərə ətək-ətək paylayırdılar. Qazanc qapıları divanın vəzifəli şəxsləri qarşısında açılır və rüşvətxorluq artırdı. Qızılbaş tayfaları öz başçılarının səhlənkarlığı üzündən (hakimiyyətə) qarşı qalxdılar. Onlar vəzirlərin və dövlətin ali şəxslərinin könlünü rüşvətlə alaraq istədiklərinə nail olurdular. Öz məqsədlərinə çatmağı fədakarlıq nümunəsi hesab edən qızılbaş tayfalarıdövlətin və dinin mənafeləri ilə az hesablaşmağa başladılar. Tezliklə xəzinə tamam boşaldı, orada nəqd pul və maldan heç nə qalmadı". Hətta son 15 ildə mədənlərdən çıxarılmış qiymətli daşlar da xəzinədən yoxa çıxdı[96].

Azərbaycan tarixçisi İskəndər bəy Münşi, qızılbaş tayfalarının vətənpərvərlik əleyhinə yönəlmiş hərəkətlərindən, əyanlar arasındakı ədavətdən, qızılbaş feodallarının Səfəvilər dövlətinə və onun müdafiə qabiliyyətinə ağır zərbə vuran


downloaded from KitabYurdu.az

əməllərindən, mərkəzi hakimiyyətə tabe olmamasından qəzəblənir.

Şah Məhəmməd və onun ən yaxın məsləhətçiləri gen-bol pul, torpaq və sair bağışlamaqlaqızılbaş əyanlarının sədaqətini qazanmaq cəhdində həddən artıq canfəşanlıq edirdilər. Bu, dövlət hakimiyyətinə əvəzedilməz zərər vurdu və onun rolunu heçə endirdi. İskəndər bəy Münşi göstərir ki, Məhəmməd Xudabəndə dövründə şah hakimiyyəti o qədər zəifləmişdi ki, tayfaların əyanları qarşısında tamam aciz görünürdü. Məsələn, "hər tayfa (oymaq) üçün yeni əmir təyin olunurdu, bütün vilayətlər və məmləkət isə artıq (əmirlər arasında) bölüşdürüldüyü üçün onlara dövlət xəzinəsindən məvacib verməli oldular və hər tayfanın tərəfdarları qiyam və iğtişaş üçün baş qaldırır, öz rəqiblərinin üzərində üstünlük qazanmağa çalışır, müstəqil olmaq istəyirdilər"[97].

Dövlət daxilində feodal ara müharibələri və çəkişmələr Səfəvilər dövlətinin xarici siyasi düşmənləri (xüsusilə sə müharibəni yenidən başlamaq üçün əlverişli fürsət gözləyən Osmanlı Türkiyəsi) üçün arzuolunan bir hal idi. "Qızılbaşların məmləkətində ara müharibələri, pozğunluq və qarışıqlıq baş verməsi barədə xəbərlər yayılırdı... Bu günü gözləyən qonşu padşahlar və düşmənlər həmin məqamı əlverişli saydılar, Əcəmi (Səfəvilər dövlətini – O.Ə.) tutmaq üçün şərqdən və qərbdən cəhdlər göstərdilər. Sultan Murad Azərbaycan və Şirvan ölkələrini tutmaq arzusunda olduğunu bildirdi. Uzun illər başlarını itaət çənbərində saxlamış ucqarların asılı hakimləri isə müstəqillik və hakimiyyət iddiası ilə çıxış etdilər..."[98].

## Kürd tayfalarının 1577-ci il qiyamı

Cənubiqafqaz uğrunda müharibəni yenidən başlamağa əlverişli fürsət axtaran Osmanlı Türkiyəsi Səfəvilər dövlətinin ağır daxili vəziyyətindən dərhal istifadə etdi. Vanın Osmanlı hakimi


downloaded from KitabYurdu.az

Xosrov paşa sərhəd boyunda yaşayan kürd tayfalarının Səfəvilərə qarşı qiyamını qaldırmaq barədə göstəriş aldı. Öncə hüquqları vaxtilə II İsmayılın fərmanı ilə təsdiq olunmuş Səlmas və Tasuq hakimi Şahqulu Bülbülan oğlu Qazi bəy qiyam etdi. Xosrov paşanın qoşunları kürdlərlə birlikdə qəflətən Xoya hücum etdilər və bununla da Sultan süleymanın imzaladığı 1555-ci il müqaviləsini pozdular. Xain düşmənlər tərəfindən qəfildən yaxalanmış Xoy hakimi Mahmud Sultan Rumlu şiddətli müqavimət göstərdi və həlak oldu.

Sonra kürdlər Urmiya hakimi Hüseyncan Sultan Xunusluya qarşı hücuma keçdilər. O da bir aylıq müqavimətdən sonra hiylə ilə ələ keçirildi və öldürüldü. Düşmənlər qızılbaş düşərgəsindən çoxlu oğlan və qızı əsir aldılar. "Həmçinin məzlumların və rəiyyətin mirasını və əmlakını" çapıb taladılar. Bunun ardınca kürdlər Göyərçinlik qalasını və Urmiyanı tutdular[99].

Həmin vaxtda Azərbaycan hakimi təyin olunmuş Əmir xan Türkman Təbrizə gəldi, kürdlərin qiyamını yatırmaq üçün qoşun toplamağa başladı. O, 10-15 min nəfərlik qoşun toplayıb sərhədə doğru hərəkət etdi. Qiyamçılar hücuma dözmədilər və qalalarda gizləndilər. Lakin Əmir xan və əmirlər bu ərazidə törədilmiş böyük dağıntılar üzündən orada möhkəmlənə bilməyib geri çəkildilər. İskəndər bəy Münşi yazır: "Qoşunların geri çəkilməsi o ölkənin viran edilməsi səbəbindən irəli gəlmişdi. Xoy, Səlmas və Urmiyanın xeyli sakini (o yerləri) tərk etməyə başladı. Sonra qayıdanlar qeyri-iradi olaraq düşmənlərə tabe oldu və həmin yerlər onların (kürdlərin) hakimiyyəti altına düşdü". Tezliklə Osmanlı basqınının başlanacağına dair şayiələrdən ruhlanan digər kürd tayfaları da üsyan qaldırdılar. Məsələn, Sulduz və Miyanduab ərazisində (Marağanın yaxımlığında) yaşayan, Əmir bəyin başçı olduğu mükri tayfası Marağaya yaxınlaşdı,I Şah Təhmasibin mülkiyyəti olan at ilxısını sürüb apardı. Bu ilxıda 10 min seçmə


downloaded from KitabYurdu.az

ərəb atı bəslənirdi. Əmir xan Türkman onlara çatıb ilxını geri qaytarmağa cəhd göstərdi, lakin bunun nəticəsi olmadı[100].

## Şirvanda Əbubəkrin üsyanı

Bu zaman Şirvanda Osmanlı sultanının təhriki ilə Səfəvilər əleyhinə üsyan başlandı. İskəndər bəy Münşi məlumat verir ki, "Şirvanın əvvəlki sultanlarının nəslindən olan" Bürhan oğlu Əbubəkr Mirzə o vaxtadək Dağıstanda və Çərkəzistanda gizlənmişdi[101]. O, öz ətrafında "ləzgi və qarabörk (keçmiş Şirvan ordusunun qalıqları) tayfalarından" 2-3 min nəfərlik qoşun topladı, kömək üçün türk sultanına müraciət etdi. O, bu kömək müqabilində qızılbaşlar qovulduqdan sonra sultanın vassalı olacağına söz verdi. Şirvanlıların bir dəstəsi İstanbula yola düşdü və vahid etiqadın (sünniliyin) müdafiəsi bəhanəsi altında "qızılbaşların zülm və istibdadından" qurtulmaq üçün sultandan kömək istədi[102].

Şirvanda üsyanın başlanmasının obyektiv səbəbləri var idi. Qazi Əhməd bildirir ki, burada 200 min tümən məbləğində vergi (malcəhət) toplanmamışdı. Bu, həmin ölkədən vergi məbləğləri alınması üçün hər hansı sənəd verilməsini qadağan etmiş I Şah Təhmasibin sərəncamı ilə edilmişdi[103]. Bu xəbəri Şərəfxan Bidlisi də təsdiq edərək göstərir ki, adı çəkilən şahın hakimiyyətinin son dövründə "Azərbaycanın, Şirvanın və Aranın bəzi yerlərində mal-u-xərac yeddi, bəzən isə doqquz il ərzində yığılmırdı"[104]. Əgər I Şah Təhmasib kimi pul xəsisi olan hökmdar buna getmişdisə, həmin tədbirin var-yoxdan çıxmış xalqın olduqca ağır vəziyyətindən irəli gəldiyi aydın olur. Dövlət xəzinəsinin talanından sonra Qəzvində həmin vergi borcunu xatırlatmağa başladılar. Maliyyə məmurları məvacibləri hesabına qorçilərə paylanan və vergi yığmaq hüququ verən təxsisnamələr (həvalə) buraxdılar. Bu, Şirvanşahlar nəslindən olan Əbubəkr Mirzənin işini


downloaded from KitabYurdu.az

asanlaşdırdı. O, şirvanlıların narazılığından istifadə etdi və qızılbaşların Dəbənddə və Şabranda qırılması ilə başlanan “qara camaatın və pozğun ünsürlərin” Səfəvilər əleyhinə üsyanının başçısı oldu[105].

Bu üsyan və Əbubəkrin şəxsiyyəti haqqında Münəccimbaşı bəzi təfsilatları açıqlayır. Onun hekayəsinə görə, Əbubəkr Mirzə hələ uşaq ikən atası Bürhan Əlinin ölümündən sonra, atasının tərəfdarları tərəfindən Dağıstana aparılmış və 20 ilə yaxın orada qalmışdı. Əbubəkr Mirzə oradan hicri 978 (1570)-ci ildə Krıma yola düşdü. Krım xanı Dövlət Girey (1551-1577) ona “yüksək hörmət və ehtiram” göstərmiş, “onu öz qızı ilə evləndirmiş, onun barəsində Osmanlı imperiyasının Ali astanasın məlumat vermişdi”. Əbubəkr Mirzəyə maaş təyin olunmuş və o, Osmanlı ordusunun Şirvana hücumuna qədər Şirvanda qalmışdı[106].

## 1578-ci ildə Osmanlı türk qoşunlarının Cənubi Qafqaza müdaxiləsi. Çıldır vuruşması

Osmanlı sultanı III Murad (1574-1585) Səfəvilərlə müharibəyə ciddi hazırlıq görmüşdü. O, ortodoksal islamın (sünniliyin) “dönük şiələrə” qarşı sınaqdan çıxmış “cihad” şüarından yenidən istifadə etdi. Biz artıq gördük ki, sultan tərəfindən qızışdırılan kürdlərin qızılbaşlar əleyhinə üsyanı və Şirvandakı üsyanlar bir məqsədin müxtəlif vasitələri idi. Türk qoşunlarının sərkərdəsi Mustafa Lələ paşa Ərzurumda yüz minlik qoşun topladı. Öz qüvvələrinə arxayın olmayan Osmanlı Türkiyəsi vassalı olan Krım xanı Məhəmməd Gireydən (1577-1584) tatar qoşunlarının bu yürüşdə iştirak etməsini tələb etdi[107]. Bundan əlavə, Dağıstanın feodal hakimlərinə, o cümlədən Kumık və Qaytaq hakimi Çitlav Şamxala, Tabasaran hakimi Qazi Salehə və avar


downloaded from KitabYurdu.az

hakimi Toca Laz Bürhanəddinə əmr edilmişdi ki, Osmanlı Türkiyəsinin Gürcüstanı və Şirvanı istila etməsinə yardım göstərmək üçün öz qoşunlarını hazır vəziyyətə gətirsinlər[108]. Mustafa Lələ paça Qars vilayətini hərbi qüdrətdən salınmış mövqe kimi təsbit edən 1555-ci il müqaviləsini pozaraq, öncə Qars qalasını bərpa etdi və və oraya qoşun yeritdi[109]. Qarsla qonşu olan Çuxursəəd vilayətinin hakimi Məhəmmədi xan Toxmaq Ustaclı Qəzvinə türlərin hərəkəti barədə məlumat verdi və onlarə sərhəddə dayandırmağa cəhd göstərdi.

Qızılbaş rəhbərləri vətənin başının üstünü almış bu təhlükəli anda öz qüvvələrini birləşdirmək və müqaviməti təşkil etmək üçün kifayət qədər tədbir görmədilər. Türklər Ərzurumdan Qarsa tərəf hərəkət edəndə Məhəmmədi xan Toxmaq Osmanlı basqınını dayandırmaq üçün Çuxursəəddə qüvvələri birləşdirmək çağırışı ilə Azərbaycanın cənub hissəsinin hakimi Əmir xan Türkmanın və Qarabağ hakimi İmamqulu xan Qacarın yanına adam göndərdi. Lakin Əmir xan ifrat tərsliyi və türkman və ustaclı tayfaları arasında mövcud oaln düşmənçilik üzündən istəyirdi ki, həmin tayfadan bir nəfər də adlı-sanlı adam sağ qalmasın". Buna görə də o, çıxış etməyi təxirə salaraq öz qoşunlarının silahlandırılmasına və təchizatına cinayətkarcasına laqeydlik göstərdi[110].

İmamqulu xan Qacar Çuxursəəd bəylərbəyinin çağırışına cavab verərək öz qoşunu ilə buraya gəldi. Onların birləşmiş qoşunlarının sayı 15 min nəfərdən artıq deyildi. Onlar Əmir xanın dəstələrinin yaxınlaşmasını gözləyərək Qarsın şimal-şərqində, Çıldır gölünün sahilində yerləışdilər. Qızılbaş sərkərdələri düşmənin Gürcüstana yolunu kəsmək istəyirdilər.

Əvvəlcə türk ordusunun öndə gələn hissələri ilə toqquşan qızılbaşlar qələbə qazandılar. Onlar 2-3 minə yaxın adamı məhv etdilər. Bu qələbədən ruhlanan Azərbaycan döyüşçüləri qaçan düşməni təqib etməyə başladıla. Ön dəstənin məğlub olmasından xəbər tutan Mustafa paşa qızılbaşlara qarşı təcili olaraq20-30 min


downloaded from KitabYurdu.az

nəfərlik əlavə qoşun göndərdi. Türkləri təqib edən azərbaycanlı hissələr öz əsas qüvvələrindən 2-3 fərsəx (12-20km) aralı düşdülər. Bu hissələr darmadağın edildi və pərən-pərən salındı[111].

Oruc bəy belə hesab edir ki, qızılbaş qoşunlarına başçılıq edən Məhəmmədi xan Toxmaq yanlış məlumatın qurbanı olmuşdu. O, öz kəşfiyyatçılarının məlumatına əsaslanaraq Dərviş paşanın və Bəhram paşanın qırx minlik qoşununu türklərin başlıca zərbə qüvvəsi hesab etmiş, onlara hücum etmişdi. Lakin Mustafa paşanın yetmiş min nəfərlik qoşunu gizli sığınacaqdan gəlib qızılbaşların sağ cinahına zərbə endirəndə Məhəmmədi xan öz səhvini başa düşdü. Ancaq artıq gec idi. Oruc bəyin məlumatına görə, qızılbaş qoşunu iki xoşbəxt təsadüf üzündən tam darmadağın edilməkdən xilas oldu. Birincisi, Toxmaq tərəfindən göstərilmiş sərkərdəlik məharəti, ikincisi isə qaranlığın düşməsi idi. Qızılbaşlar öz qoşunlarının əsas hissəsini itirdilər: 7 min nəfər həlak oldu, 3 min nəfər isə türklərə əsir düşdü. Məhəmmədi xan qaranlıqdan istifadə edərək, öz qoşunlarının bir hissəsini dağ cığırlarından və keçidlərdən keçirib xilas edə bildi[112].

Osmanlı mənbələri birtərəfli qaydada türklərin qüvvələrinin sayını azaldır, qızılbaş qoşunlarının sayını isə artırırlar. Məsələn, onların məlumatlarına görə, Çıldır vuruşması ərəfəsində türk qüvvələrinin sayı 30 min nəfərə çatırdısa, qızılbaşların sayı 25-50 min arasında idi. Buna baxmayaraq, hətta osmanlı tarixçiləri də qızılbaşların mətinliyini, mərdliklə vuruçmalarını qeyd edirlər. Onlar göstərirlər ki, Diyarbəkir bəylərbəyi Dərviş paşa əvvəlcə məğlubiyyətə uğradı, döyüşdə özünün 30 ağasını və 7 sancaqbəyini itirdi. Yalnız Dərviş paşaya böyük qoşunla köməyə gəlmiş Özdəmir oğlu Osman paşanın yeni hissələri döyüşə girdikdən sonra qızılbaşlar darmadağın edilmişdilər[113].

İskəndər bəy Münşinin fikrincə, Çıldır vuruşmasında Səfəvilərin məğlubiyyətinin başlıca səbəbi bunda idi ki, qızılbaş əmirləri "təkəbbürün və özlərinə güvənməyin bolluğundan


downloaded from KitabYurdu.az

rumilərlə müharibəni yüngül və sadə (iş) hesab edirdilər”. Buna görə də, onlar 10-15 min nəfərlik qoşunla Mustafa paşanın yüz minlik qoşununa qarşı çıxmağı mümkün saymışdılar. Qazi Əhmədin dediyinə görə, bir qızılbaş on nəfər rumiyə qarşı dururdu[114].

İskəndər bəy Münşi gileylənirdi: “Əgər qızılbaş əmirləri arasında həmrəylik yaransaydı, Azərbaycanın və Şirvanın birlikdə sayı 50 min nəfərə çatan bütün qoşunları birləşsəydi, habelə gürcü çarları onlara qoşulsaydılar, o zaman Lələ paşanın ölkəyə basqını belə asan olmazdı. Lakin əmirlərin çəkişməsi, tayfalar arasındakı ədavət və təşəbbüssüzlük üzündən nəinki təkcə ölkə itirildi, habelə, qızılbaşların nüfuzku başçıları həlak oldular. Azərbaycan qoşunu məhv edildi, bir sıra illər boyu yığılmış əmlak və ləvazimat isə talan edildi”[115].

Çıldır vuruşmasından sonra Məhəmmədi xan Toxmaq məsuliyyəti öz üzərinə götürərək qoşunların qalıqları ilə Çuxursəədə getdi, İmanqulu xan isə Qarabağa qayıtdı.

## Osmanlı türkləri Gürcüstanda

Mustafa paşanın qalib gəldiyi Çıldır vuruşması Gürcüstanın qapılarını türklərin üzünə açdı. Türk basqınının təhlükəsi qrtdığı bir zamanda gürcü feodal hökmdarları arasında didişmə və nifaq hökm sürürdü[116] Onlardan bəziləri Səfəvilərin, bəziləri isə türklərin tərəfini saxlayırdılar. Səfəvilərin məğlubiyyəti onların Gürcüstandakı nüfuzuna güclü zərbə vurdu və bəzi gürcü hökmdarlarını öz mülklərini saxlamaq üçün Osmanlı Türkiyəsinin tabeliyinə keçməyə razı olmağa məcbur etdi.

Çıldırdan sonra Mesxi vəliəhdi Mənüçöhr və onun qardaşı Kvarkvare türklərin tərəfinə keçməyə birinci olaraq razılıq verdilər. Onların irsi mülkləri öz əllərində saxlandı. Mustafa Şirvana yürüş


downloaded from KitabYurdu.az

edərkən və geri qayıdarkən Mənüçöhr ona bələdçi oldu[117].

Mustafa paşa Axaltsixi tutduqdan sonra Kaxetiyaya doğru hərəkət etdi. O, "Rum xondkarına tabe olmaq və itaət göstərmək" çağırışı ilə Kartli çarı Simonun və və Kaxetiya çarı Aleksandrın yanına adam göndərdi.İskəndər bəy Münşi göstərir: Onlar da bir-biri iə düşmənçilik etdikləri üçün "simon tabe olmaqdan imtina etdi və türklərə qarşı həmlələr edərək onlara bir sıra təsirli zərbələr endirdi"[118].

Halbuki "hiyləgər və uzaqgörən adam" olan Aleksandr yaranmış şəraitdə Mustafa paşaya itaətini bildirməyi özü üçün sərəfli hesab etdi. Türk qoşunları "keçilməzləyinə və əzəmətinə görə göylərlə bəhsləşən"Tiflis qalasını ələ keçirmək üçün hərəkət etdilər. Şəhət Davidin (Davud xanın) mülkündə yerləşirdi. I Şah Təhmasib Kartlini ona verərək, çarlığı onun qardaşı Simondan almışdı. Buna görə də David qardaşından kömək gözləməyərək Tiflisi tərk etdi. Avqustun 24-də Osmanlı ordusu sakinlərinin tərk etmiş olduğu Tiflisi, sonra isə həm də Qorini ələ keçirdi. İstalaçılar Tiflisdə Məhəmməd paşanın başçılığı altında altı min nəfərlik hərbi dəstə saxladılar. Zəgam və Geram hakimi də türklərə tabe oldu. Gürcüstan türk qoşunları tərəfindən işğal edildikdən sonra Şəki hakimi İsa xan[119] öz mülkünü tərk edərək Səfəvilərin sarayına getdi[120].

## Şirvana basqın

1578-ci il sentyabrın əvvəlində Osmanlı qoşunları Qanıq (Alazan) çayına çatdılar. Onlar əhalisi və yaşıllığı olmayan Şirak düzündən keçərək ərzaq cəhətdən ciddi çətinlik çəkdilər.

Aclıq və üzücü yürüş işğalçıların mənəvi ruhunu əsaslı surətdə sarsıtdı. Sipahilər (süvarilər) və yeniçərilər yürüşdəm


downloaded from KitabYurdu.az

imtina edərək geri qayıtmağı tələb etdilər. Osmanlı salnaməçilərinin yazdığına görə, hətta bir qrup döyüşçü sərkərdəyə yaxınlaşaraq bildirdi: "Sən bizi dəli edəcəksən. Nə vaxtadək bu boş və yaşayış olmayan çöllərdə gedəcəksən. Sən qayıtmalısan. Biz qayıtmağa etiraz edən yoldaşlarımızı öldürərik. Bizim üçün əvvəlcə həyat, sonra isə (bütün) dünya vacibd8ir. Biz nə Qanıqdan keçmək, nə də Şirvan ölkəsini ələ keçirmək arzusunda deyilik"[121].

İskəndər bəy Münşinin məlumatına görə, xeyli yubanmadan sonra Əmir xan on minlik qoşunla Təbrizdən çxaraq Məhəmmədi xan Toxmağın köməyinə gəldi. Çıldır yaxınlığında darmadağın olunmaq, Mustafa paşanın Gürcüstan və Şirvan istiqamətində hərəkət etməsi xəbəri ona çatdı. Əmirxan Qarabağa tərəf yeridi, burada ona qoşulan İmamqulu xanla bərabər Alazan sahilində Osmanlı ordusunun böyük dəstəsinə hücum etdilər. Qızılbaşlar 2 min nəfərə yaxın adam öldürdülər. Onların əlinə böyük miqdarda qənimət keçdi[122].

Bu məlumatı türk tarixçisi Münəccimbaşı da təsdiq edir və əlavə olaraq göstərir ki, bu zaman qızılbaşlar ləvazimatı ilə birlikdə min dəvə və 3 min at ələ keçirmişdilər[123]. Bundan əlavə, bir sıra Osmanlı başçıları qızılbaşlara əsir düşmüşdü[124]. Bu qələbədən sonra Əmir xan Qarabağa qayıtmaq və Səfəvi şahzadəsi Həmzə Mirzənin başlıca qüvvələrinin yaxınlaşmasını gözləmək fikrində idi. Lakin onun oğlu Sultan Murad xan "dəliqanlı qızılbaş döyüşçüləri" dəstəsi ilə Alazan çayını keçdi və düşmənə bir daha zərbə endirdi. Lakin onun dəstəsi türklər tərəfindən mühasirəyə alındı və darmadağın edildi. Bu döyüşdə 2-3 min nəfər qızılbaş həlak oldu. Bundan sonra Əmir xan öz qoşunlarının qalıqları ilə Təbrizə qayıtmağı daha düzgün çıxış yolu hesab etdi[125].

Osmanlı ordusu Şirvana daxil olduğu zaman yeni qiyam baş verdi. İş bundadır ki, Şirvanın qızılbaş hakimi Araz xan Rumlunun yaxınlaşdığını eşidən Mustafa paşa Alazan çayını keçməyə tələsirdi. Sentyabrın 10-da səhərdən Osmanlı hissələri çayın sol sahilinə


downloaded from KitabYurdu.az

keçməyə başladılar. Çayın keçilməsi toran düşənə qədər uzandığından çayın daşması nəticəsində əsgərlərin bir hissəsi batmışdı. Bu çayın sağ sahilində qalanlar arasında böyük vahimə yaranmasına səbəb oldu. Ertəsi gün səhər, ordu nümayəndələri dəstəsi Mustafa paşanın yanına gələrək qışın yaxınlaşdığını, əsgərlərin yorulduğunu və doyunca yeməməkdən taqətdən düşdüklərini bildirərək dərhal yürüşü dayandırmağı və vətənə qayıtmağı təkidlə tələb etdi. Sərkəördə öz əqidəsinin bütün qüvvəsini işə saldı və onlara böyük qənimət əldə edəcəklərini, Şirvanda ərzaq bollluğu ilə qarşılaşacaqlarını vəd etdi. O, döyüşçüləri şiələrin – qızılbaşların hakimiyyətini devirtməkdə "kömək" etməli olduqlarını öz həmməzhəblərinə, yəni Şirvan sünnilərinə "xəyanət edəcəkləri təqdirdə" qiyamət günündə cəza alacaqları ilə qorxudurdu. Hər halda 2 min nəfərədək yeniçəri yollarına davam etməkdən imtina etdi və atəş açmaqla çayı keçənlərə mane olmağa cəhd göstərdilər. Oruc bəyə görə, çayın keçilməsi və Ərəşə qədər yol qət edilməsi türklərə 8 min insan həyatı bahasına başa gəlmişdi. Sentyabrın 16-da Mustafa paşa Ərəşə daxil oldu[126].

Türklər burada təxminən üç həftə qalaraq dincəldilər və yürüşü davam etdirmək üçün özlərinə bir aylıq azuqə topladılar. Onlar qala tikərək orada Qaytas paşanın başçılığı ilə beş min nəfərlik hərbi dəstə yerləşdirdilər[127].

Ağıllı və təşəbbüskar hakim olan Şirvan bəylərbəyisi düşmənin qat-qat üstün olan qüvvələri qarşısında tab gətirməyəcəyini hiss edərək Şirvanı tərk edib, Kürün cənub sahilində yerləşdi. Üstəlik də bu vaxt dağıstandan Əbubəkr Mirzə ləzgi və şirvanlılardan ibarət üç minlik dəstə ilə Şirvana daxil oldu[126].

Türk ordusu çox da çətinlik çəkmədən Ərəşdən başqa Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad və Səlyanı ələ keçirdi. İ.Petruşevski düzgün olaraq qeyd edir ki, "Osmanlı Türkiyəsinin


downloaded from KitabYurdu.az

Şirvanı işğal etməsini Azərbaycanın cənub hissəsində və Ermənistanda bir çox köçəri kürd tayfalarının, Şimalı Azərbaycan əyanlarının bir (sünni) hissəsinin onun tərəfinə keçməsi, habelə qızılbaş əmirlərinin arasındakı didişmələr və onların ümumi rəhbərliyə tabe olmaq istəməməsi" asanlaşdırmışdı[129]. İskəndər bəy Münşinin göstərdiyi kimi, Şirvanın bəzi yaşayış yerlərinin sakinləri (rəiyyətləri), nəinki müqavimət göstərmirdilər, əksinə, hətta "qızılbaşlara qarşı qiyama və mübarizəyə" qalxırdılar[130]. Bu həm qızılbaş feodallarının Şirvanın oturaq əkinçi əhalisinə etdiyi ağır zülmlə, həm də yerli sünni əyanlarının Şirvan dəstəsinin keçmiş müstəqilliyinə hələ ümidlərini itirmədikləri və öz arzularını sultan ordusunun gəlməsinə bağlamaları ilə izah olunurdu. Məsələn, Dərbəndin Səfəvi hakimi Çıraq Xəlifə 300 qızılbaşla birlikdə Osmanlı qoşunlarının şəhərə daxil olmasınaqarşı çıxmış, lakin dərbəndlilərin qiyamı nəticəsində məhv edilmişdi[131].

Mustafa paşa Şirvanı tutduqdan sonra Şamaxıda Osmanlı sərkərdələrinin şurasını (divanını) çağırdı. Burada, ölkədə sultan hakimiyyətini möhkəmləndirmək üçün tədbirlər müzakirə olundu. Şirvanda türk hərbi-inzibati idarə sistemi tətbiq edildi. Osmanlı salnaməçisi Əli özünün "Künh əl-əxbar"[132] əsərində məlumat verir ki, Şirvan mahallardan (sancaqlardan) ibarət olan iki vilayətə - Şamaxı və Dərbənd bəylərbəyiliklərinə bölündü.

Şamaxı vilayəti aşağıdakı sancaqlardan ibarət idi: 1) Lahıc, 2) Ağdaş, 3) Qəbələ, 4) Salyan, 5) Zərdab, 6) Şəki, 7) Bakı, 8) Sədəru, 9) qara Ulus, 10) Axtı və İxır, 11) Diku, 12) Siryan (yaxud Sirhan), 13) Osmani, 14) Xudavərd (yaxud Xudadərd), 15) Mahmudabad, 16) Ərəş.

Dərbənd vilayətinə daxil olan sancaqlar bunlar idi:

1) Dəmirqapı (Dərbənd), 2) Şabran, 3) Axtı (habelə Şamaxının 10-cu sancağı kimi göstərilir), 4) Quba, 5) Müskir (yaxud Məskir)[133], 6) Kürə, 7) Çıraq, 8) Restov[134].

Bir aydan sonra Mustafa paşa geriyə hərəkət etdi. O, buna


downloaded from KitabYurdu.az

bir sıra səbəblər üzündən məcbur olunmuşdu. Qızılbaşlarla qanlı döyüşlər, Gürcüstanda dəfələrlə pusqulardan edilmiş hücumlar, təbii fəlakətlər zamanı məruz qaldıqları təsirli itkilər – bütün bunlar Osmanlı ordusunun ruhdan düşməsinə böyük təsir göstərirdi.

Biz artıq açıq qiyamlara keçən yürüşlə əlaqədar narazılıqların şahidi olduq. Nabələd ölkədə yaxınlaşmaqda olan qış osmanlı əsgərlərinə təskinverici heç nə vəd etmirdi. Buna görə də Mustafa paşa bu ölkədə qalmağı ağılsızlıq hesab edirdi. İstilaçılar zəbt etdikləri ölkədə özlərini həddən artıq inamsız hiss edirdilər. Bu baxımdan belə bir fakt səciyyəvi idi ki, türk baş komandanı Şirvandakı istilaları əldə saxlamağa öz əsgərləri arasında həvəs göstərən şəxs tapa bilməmişdi. Şirvanda Osmanlı qoşunlarına komandanlıq etmək təklifi almış Diyarbəkir bəylərbəyi Dərviş paşa və Hələb (Aleppo) bəylərbəyi Məhəmməd paşa tələsik bundan imtina etmişdilər. Mustafa paşa bu vəzifəni Özdəmir oğlu Osman paşaya həvalə etməyə müvəffəq oldu[135]. Sonuncu, sultanı müdafiə edən Dağıstan hakimlərinə yaxın olması sayəsində əlverişli olan Dərbəndi özünə iqamətgah seçdi. Mustafa paşa Ərzurumda qışlamağa getməzdən əvvəl Şamaxıda, Ərəşdə, Bakıda və başqa şəhərlərdə qalaları möhkəmləndirdivə bu yerlərdə Osmanlı hərbi hissələri yerləşdirdi[136]. Mustafa paşa Dağıstan hakimlərini sultana sədaqətlə xidmət etdiklərinə görəmükafatlandırmağı da unutmadı. Kumık və Qaytaq hakimi Çitlav Şamxal Şabran sancağını aldı, avar hakimi Toğa Laz Bürhanəddinə isə Axtı və İxır sancağı bağışlandı[137].

Tiflisdən keçərək Ərzuruma hərəkət edən Osmanlı ordusunun geriyə qayıtdığı yol da türk əsgərlərinin meyitləri ilə dolu idi. Hətta Osmanlı salnaməçilərinin etiraflarına görə, sentyabrın 25-də Tiflis və Qori arasında qopan qar çovğunu nəticəsində 5-6 min türk əsgəri həlak oldu[138]. Mustafa paşa Tiflis yaxınlığında türklərin keçəcəyi yolda, meşə və cəngəlliklərdə pusqu qurmuş Qarabağ bəylərbəyisi


downloaded from KitabYurdu.az

İmamqulu xanla Kartli çarı Simonun birgə hücumuna məruz qaldı. 20 min nəfərdən artıq düşmən əsgəri öldürüldü, zəngin qənimət ələ keçirildi[139].

Türk mənbələrinə görə, Mustafa paşa Şirvandan getdikdən sonra Osman paşa Gəncəyə basqın təşkil etdi. Qaytas paşa başda olmaqla Osmanlı dəstəsi Kürü keçərək Gəncə bəylərindən biri olan Partal oğlu Əhməd bəyə hücum etdi. Sonuncu qaçdı, yaşayış yeri isə qarət və talanlara məruz qaldı. Osman paşa az sonra Araz xan Rumlunun qüvvə topladığı Salyana dəstə göndərdi. Lakin qızılbaşlar türklərin hücumunu dəf etdilər və Xürrəm ağanı geri çəkilməyə məcbur edə bildilər. Araz xana qarşı müvəffəqiyyətsizliyə uğrayan Osman paşa Şamaxıda möhkəmlənməyi və Krım tatarlarının gəlişini gözləməyi qərara aldı. Bu vaxt Ərəşdə Qaytas paşa İmamqulu xan Qacarın qoşunlarının hücumuna məruz qaldı. Qızılbaşlar türkləri darmadağın edərək Ərəşi tutdular. Qaytas paşa öldürüldü. Osmanlı sərkərdələrindən Əbdürrəhman bəy isə əsir düşdü. Türk hərbi qüvvələrinin bir hissəsi üsyana qalxmış və bununla da qızılbaşlara kömək etmiş sakinlərin əli ilə qılıncdan keçirildi. Ərəşin süqut etməsi xəbərini sağ qalmış bir nəfər döyüşçü Şamaxıya çatdırdı. Osman paşa onu həbs etdi və bu xəbəri əsgərlərdən gizlətdi[140].

Əbubəkr Mirzə diyarın istila edilməsində sultana xeyli kömək etdiyi üçün Şirvanda hakimiyyəti hətta ondan belə qəbul etməyə hazır idi. Lakin gözlənildiyi kimi, Əbubəkrin Şirvan hakimiyyətinə olan iddialarını müdafiə edən Şirvan feodallarının ümidləri özünü doğrultmadı. Mustafa paşa Əbubəkrə ölkənin qəti olaraq tabe edilməsi işində Osman paşaya kömək etməyi tapşırdı və vətənə qayıdan kimi, sultandan onun Şirvan hakimi təyin edilməsinə nail olacağı kimi yalançı vədlərlə onu sakitləşdirdi[141].

## Qızılbaşların əks hücumu


downloaded from KitabYurdu.az

Səfəvilər sarayında türk ordusunun Qarsa doğru hərəkət etməsi xəbəri alınan kimi əmirlər nə etmək lazım gəldiyi barədə müşavirə keçirməli oldular. Nəhayət, qərara gəldilər ki, sultana nəzakətli bir məktub göndərərək sərhədin pozulmasına öz etirazlarını bildirsinlər. Həm də iş elə təqdim edilirdi ki, guya söhbət yerli əhəmiyyətli münaqişədən – sərhədyanı hakimlərin sərhədi pozmasından gedir. Rəsmi müraciətdə həmçinin göstərilirdi ki, Səfəvilərin həmişə əməl etdiyi Amasya sülhü sarsılmazdır. Məktubu İstanbula çatdırmaq vəzifəsi Məhəmmədi xan Toxmağın mülazimlərindən biri olan Vəli bəy Ustaclıya həvalə edildi. O, yola düşdü. Lakin Mustafa paşanın qoşunları Ərzurumdan Qarsa gedib çıxanadək Osmanlı Türkiyəsi sərhədində yerli hakim tərəfindən tutulub saxlanıldı[142].

Bununla da qızılbaşların ölkənin ağır daxili vəziyyəti üzündən hərbi toqquşmadan yaxa qurtarmağa yönəldilmiş son ümidləri puça çıxdı. Buna görə də hərbi çağırışı qəbul etməkdən başqa çarə qalmadı. Türk sultanı bu yürüşdə şəxsən iştirak etməyi lazım bilmədi. Buna görə də Səfəvilər də qərara aldılar ki, qızılbaş qoşunlarına şahın özü deyil, onun oğlu, türklərlə mübarizədə sərkərdəlik istedadı nümayiş etdirmiş Həmzə Mirzə başçılıq edəcəkdir. O, İraq, Fars və Kirmanın yığma qoşunu (ləşkər) ilə Azərbaycanın cınub hissəsinə gəlməli və yerli qoşunların birləşərək "mühafizə və müdafiə üzrə zəruri tədbirlər" görməli idi[143]. Dövlət işləri əməli olaraq şahın arvadı Xeyrənnisə bəyimin əlində olduğuna görə, o da (öz oğlundan ayrılmağın onun üçün çətin olduğuna əsaslanaraq) bu yürüşdə iştirak edirdi. Sentyabrın 27-də Həmzə Mirzə öz anası ilə Qəzvindən çıxaraq qoşunlarla Miyanəyə gəldi. Burada, müxtəlif əmirlərin öz qoşunları ilə gəlməsini gözləmək, Gürcüstanda və Şirvanda hadisələr haqqındakı son xəbərləri öyrənmək üçün on günlük fasilə elan edildi.


downloaded from KitabYurdu.az

Əmirlər Miyanədə keçirilən şurada hərbi əməliyyatlar planını işləyib hazırladılar[144]. Bəziləri təklif edirdilər ki, Urmiya gölü yaxınlığında kürd tayfalarının üsyanını yatırmaq üçün öncə Təbrizə hərəkət etmək lazımdır. Onların fikrincə, sonra Ərzurum və Ərzincan istiqamətində gedərək Qars qalasını dağıtmalı, qışda isə Türkiyə hüdudlarına hücum edilməlidir. Bu xəbər o vaxt artıq Şirvanda olan Mustafa paşaya çatarkən, Ərzurumu müdafiə etmək üçün geri çəkilməyə məcbur olacaqdır. Lakin əmirlərin çoxu bu təklifə etiraz etdi və böyük Osmanlı ordusuna müqavimət göstərmək üçün zəif olan Şirvan əmirlərinə köməyə getməyi məqsədəuyğun saydı[145].

Buna müvafiq olaraq Həmzə Mirzə otuz minlik qoşunla Ərdəbildən, türklər tərəfindən tutulmamış Qarabağa doğru hərəkət etdi.

Qərara alındı ki, qoşunların başlıca qərargahı şahzadə və onun anası ilə Qaraağacda qalacaq, əmirlər isə qoşunlarla və vəzir Mirzə Salmanla Kürü küçərək, Şirvanı türklərdən azad etməyə gedəcəklər[146].

## Araz xan Rumlunun məğlubiyyəti

Kür çayının keçilməsi və qızılbaş əmirlərinin qoşunlarla yaxınlaşması xəbəri Araz xan Rumluya çatdı. O, ölkəni düşmənə güzəştə getməkdə, fəaliyyətsizlikdə təqsirləndiriləcəyindən qorxaraq dərhal şimala hərəkət etməyi, Şamaxı qalasını mühasirəyə almağı, əmirlər oraya gəlib çıxanadək onu ələ keçirməyi və bununla da özünü qərargahın gözündə təmizə çıxarmağı qərara aldı. Araz xan bu niyyətlə Kürü keçdi və tələsik Şamaxıya doğru hərəkət


downloaded from KitabYurdu.az

etdi. Osman paşa şəhərdən çıxdı və müdafiəyə hazırlaşmağa başladı.

Araz xan və qızılbaşlar Şamaxını ələ keçirmək üçün qəhrəmancasına cəhd göstərdikləri və buna yaxın olduqları bir vaxtda Krım xanının qardaşı Məhəmməd Girey və taxt-tacın varisi (kalqay) Adil Girey[147] başda olmaqla Krım tatarlarının iyirmi minlik qoşunu Dərbənddən keçərək Şirvana hücum etdi. Bəzi əmirlər düşmənin mühasirəsini yararaq Kürün cənub sahilinə qayıtmağı təklif etdilər. Lakin Araz xan meydandan qaçmaq fikri ilə heç cür barışa bilmirdi. Həm də artıq gec idi. Osmanlı qoşunları və Krım tatarları, habelə ləzgilər, qarabörklülər, Əbubəkrin Şirvan üsyançıları tərəfindən mühasirəyə alınmış araz xan və qızılbaşlar sarsılmaz mətanət göstərdilər. Lakin onların müqaviməti qırıldı. Araz xan bir dəstə qızılbaşla əsir alındı və edam edildi. Qoşunların yalnız bir hissəsi qaçmaqla qırğından yaxasını qurtara bildi[148].

Bundan sonra Osman paşa Şamaxı qalasına gəldi. Adil Girey isə Əbubəkrlə birlikdə Araz xanın düşərgəsini qarət etmək üçün cənuba, Muğan düzünə tərəf hərəkət etdilər. İskəndər bəy Münşi yazırdı: “Bu müharibədə rumlu tayfasına bədbəxtlik üz verdi”. Bu tayfanın adlı-sanlı adamlarının əksəriyyəti öldürüldü və Şirvanın uzun illər boyu “sakit və firavan” idarə olunması dövründə toplanmıış saya-hesaba gəlməyən əmlak, var-dövlət isə düşmənlərin əlinə keçdi[149]. Döyüşdən sağ-salamat çıxmış Ərdoğdu Xəlifə Təkəli və bir neçə başqa əmir, o cümlədən Araz xanın iki oğlu artıq bu vaxt Qarabağa gəlib çıxmış, qızılbaş qərargahına Araz xanın darmadağın edilməsi barədə dəhşətli xəbəri çatdırdılar. Talış əmirlərinə əmr edildi ki, Araz xanın qoşunlarının qalıqları ilə Kür çayından keçiddə bir yerə cəmləşsinlər və Krım tatarlarının cənub sahilinə keçməsinə yol verməsinlər.

Qərargahın əmrini yerinə yetirən bu qoşunlar Cavad yaxınlığında keçidi tutaraq yaralı qızılbaşları o biri sahilə keçirmək üçün körpü saldılar. Bu vaxt tatarların və ləzgilərin yaxınlaşması


downloaded from KitabYurdu.az

xəbəri alındı. Qızılbaşlar körpünü çətinliklə uçura bildilər. Lakin bu, düşmənlərin qarşısını saxlaya bilmədi. Onlar cəsarətlə suya atıldılar və o biri sahilə çıxdılar. Qızılbaşlarla onların arasında ağır döyüş başlandı. Qızılbaşlar, həmin yerlərə yaxşı bələd olan şirvanlı üsyançıların köməyilə düşmənin yeni dəstələrinin çayı keçərək onların arxasınca çıxdıqları xəbərini alana qədər qəhrəmanlıqla müqavimət göstərdilər. Düşmən qoşunlarının məngənəsinə düşən qızılbaşlarkütləvi surətdə qaçmağa üz qoydular. Qaçanlardan hər kəsi yalnız şəxsi həyatı düşündürürdü. Onlardan bir dəstəsi öz qoşunlarının dayandığı yerə gəlib baş vermiş hadisə barədə danışdı. Burada isə daha çox öz əmlaklarını xilas etmək qayğısına qaldılar. Düşmənin öndə gələn hissələri göründükdə, ağlasığmaz bir vahimə yarandı və hamı dağınıq halda ətrafa səpələndi. Hər cür sərvətlərlə yüklənmiş dəvə karvanları tatarların əlinə keçdi. Onlar həmçinin çoxlu qadın və qız əsir aldılar. Adil Girey tatarlarla və ləzgilərlə birlikdə çox böyük miqdarda qənimət ələ keçirdi, elə həmin gün də şimala – Şirvana tərəf hərəkət etdi[150].

## Krım tatarlarının Mollahəsən yaxınlığında darmadağın edilməsi

Bu vaxt Mirzə Salman və əmirlər[151] Qarabağdan təcili hərəkətə başladıla və Qoyun ölümü keçidindən Kürü keçərək Şirvana daxil oldular. Onlar Osman paşanı Şamaxı qalasında mühasirəyə aldılar. Mühasirə zamanı qızılbaşlar qalaya girmək istəyən bir neçə tatarı ələ keçirdilər. Onlarda Adil Gireyin Osman paşaya məktubu var idi. Qızılbaş əmirləri məktubu oxuyub öyrəndilər ki, tatar xanı Əbubəkr Mirzə ilə birlikdə rumlu tayfasının düşərgəsini talan etmiş, indi isə təcili qaydada şimala, Osman paşanın köməyinə tələsir[152]. Şamaxı ətrafında qalmaq əmirlərə çox təhlükəli göründü. Çünki aydın idi ki, tatarlar gələnə


downloaded from KitabYurdu.az

qədər onlar Osman paşanın uğurlu müdafiə olunduğu qalanı ala bilməyəcəklər. Eyni zamanda əmirlər şübhə edirdilər ki, tatarlar cənubdan gələcəyə təqdirdə, onlar bir neçə cəbhədə vuruşmaqla döyüşü uda biləcəklər[153]. Araz xanın faciəli taleyi də buna şəhadət verirdi. Buna görə də əmirlər yeganə düzgün qərar qəbul etdilər. Şamaxı yaxınlığında Vəli Xəlifə Şamlının başçılığı altında 3 min nəfərlik dəstə qoyaraq Mirzə Salman qorçibaşı Qulu bəy Əfşar, Şahrux xan möhrdar, Məhəmməd xan Türkman, Pirə Məhəmməd xan Ustaclı, Sultan Hüseyn xan, Müseyib xan Şərəfəddin oğlu Təkəli, İmamqulu xan Qacar, Əmir Həmzə xan və digər "adlı-sanlı" əmirlərlə cənuba, tatarlara qarşı yeridi[154].

Adil Girey və onun qardaşları – Səadət Girey və Əsgər Girey Həmzə Mirzənin qoşunlarının gəlməsi, Şamaxını mühasirəyə alması xəbərini eşidib mühasirəyə alınmış Osman paşanın köməyinə çatmaq üçün şimala hərəkət etdilər. Tərəflər hicri 986-cı il ramazanın 28-də (1578-ci il noyabrın 28-də), Ağsu çayı sahilində, Mollahəsən dalı yerdəqarşı-qarşıya gəldilər[155]. Adil Girey ləzgilərin, qarabörklülərin və şirvanlıların dörd-beş minlik dəstəsi ilə möhkəmləndirilmiş on iki min nəfərlik tatar qoşununu Səfəvilərin qarşısına çıxardı. Bu tərəfdən Əmir Həmzə xan Ustaclı (çərxçi) və başqa əmirlər çıxış edirdilər. İskəndər bəy Münşi obrazlı şəkildə qeyd edirdi: "Ölülərin qanına bulaşmış döyüş meydanı lalələr örtülmüş çəmənliyi xatırladırdı". Səhər başlanan döyüş axşama qədər davam etdi. Şamaxı yaxınlığında qalmaq əmri almış bir sıra qızılbaş əmirləridüşmənin başlıca qüvvələri ilə döyüşdə iştirak etməyi özləri üçün şərəf işi sayaraq mühasirəni özbaşına tərk etmiş, qızılbaş qoşunlarına qoşularaq onların sıralarını xeyli gücləndirmişdilər. Tatarlar bütün günü hər vasitə ilə onları darmadağın etməyi qərara almış qızılbaşların ardı-arası kəsilməyən hücumlarını mətanətlə dəf etmişdilər.

Qızılbaşların getdikcə artan üstünlüyünü müşahidə edən Adil Girey tatarları ruhlandırmaq məqsədilə döyüş meydanına


downloaded from KitabYurdu.az

atıldı. Lakin tezliklə qızılbaş dəstəsi Baba Xəlifə Danqralunun (yaxud Qaramanlının) başçılığı ilə Adil Gireylə üz-üzə gəldi. Adil Girey nizə zərbəsi ilə atdan salındı. Qızılbaşlar Adil Gireyi öldürmək istədilər, lakin tanıyaraq onu salamat saxladılar.

Həlak olmuş Qaytas paşanın yerinə Ərəş hakimi təyin olunmuş Osmanlı sərkərdəsi Piyalə bəy də qızılbaşlara əsir düşdü[156]. Adil Girey əsir alındıqdan sonra düşmən qoşunu vahimə içərisində qaçmağa başladı. Tatarların əksəriyyəti döyüş zamanı qılıncdan keçirildi. Sağ qalanlar (əsasən həmin yerə bələd olan ləzgilər və şirvanlılar) dağlarda və meşələrdə gizləndilər. Araz xan Rumlu darmadağın edildikdən sonra[157] tatarların ələ keçirdiyi bütün qənimət Səfəvilərə qaytarıldı. Əldə olunmuş qələbədən istifadə etməyə səy göstərən Mirzə Salman yubanmadan Şamaxı üzərinə hərəkət etdi. Osman paşa tatrların darmadağın olunması və Adil Gireyin əsir düşməsi xəbərini eşidərək kənardan ediləcək köməkdən məhrum olduğunu görüb Şamaxını tərk etdi. O, Dərbəndə getmək və orada pərən-pərən salınmış qoşunlarının qalıqlarının yolunu gözləmək qərarına gəldi.

Qızılbaş qoşunlarının qələbəsi xəbərini alan Dərbənd sakinləri türklərə qarşı üsyan qaldıraraq qalanı ələ keçirdilər. Buna görə də Osman paşa həmin xəbəri qoşunlardan gizlədərək şimala getməyə tələsirdi. Qış sərt keçirdi, arxadan isə türkləri addım-addım izləyən qızılbaşlar gəlirdi. Şabrana çatarkən bərk şaxta düşdü və bu, türklərin kütləvi surətdə məhv olmasına gətirib çıxardı. Süvarilər şimala doğru hərəkət edir, piyadalar isə yorğunluqdan yıxılır və bir daha qalxa bilmirdilər. Eyni zamanda, şirvanlılar və dağıstanlılar da qoşunların arxasınca gələn xəzinə əmlakına basqın və qarətlər təşkil edir, qiymətli mallar yüklənmiş qatır və dəvələri sürüb aparırdılar. Geridə qalanları yerli sakinlər qarət edirdilər. Osman paşa xeyli seyrəlmiş qoşunla nəhayət, Dərbəndə gəlib çatdı. Sakinlər türkləri Dərbəndə buraxmaq istəmədikləri üçün şəhəri qüvvə tətbiq etməklə yenidən almaq lazım gəldi[158]. Müxtəlif


downloaded from KitabYurdu.az

qızılbaş dəstələri Osman paşanı Şabrana qədər təqib edərək topları və digər hərbi ləvazimatı ələ keçirdilər[159]. Şirvan türklərdən azad edilsə də, onların dayaq məntəqəsi olan Dərbənd alınmadı.

Qızılbaş qoşunlarının uğurları barədə xəbərlər Həmzə Mirzənin və anasının yerləşdiyi Qaraağacdakı baş düşərgədə böyük sevinclə qarşılandı. Buradan paytaxta – Qəzvinə və bütün ölkəyə "fəthnamələr" ("Qələbə məktubları") göndərilirdi. Qərargahın Osman paşa ilə mübarizəni davam etdirmək, onu məhv etmək və Dərbənd qalasını ələ keçirmək barədə əmri alındı. Lakin qızılbaş qoşunları şah qərargahı göstərişinin ziddinə olaraq Osman paşanın təqib olunmasını dayandırıb Qarabağa qayıtdılar. Bu tezliklə çox acınacaqlı nəticəyə gətirib çıxarmış, fəlakətli bir səhv idi. İskəndər bəy Münşi iddia edir ki, bunun təqsirkarları, guya Dərbəndin alınmasında və Şirvanda qələbələrin möhkəmləndirilməsində təkid etmiş "Məhdi Ülyanın iradəsi əleyhinə" hərəkət edən Mirzə Salman və qızılbaş əmirləri olmuşlar. Şərəfxan Bidlisi təqsiri bütövlükdə şahın arvadının üstünə yıxır: "Bu qədər qələbədən həddindən artıq qəhərlənən Sultan Həmzə Mirzənin anası Şirvandakı işlərə qadın düşüncəsizliyi ilə, qayğı və diqqət göstərmədən yanaşdı. Osman paşanı Dəmir qapıda (Dərbənd – O.Ə.) qoyub qışın ortalarında Adil Girey xanla Qəzvinə qayıtdı"[160]. Qazi Əhmədin də şərhindən aydın olur ki, şahın arvadı "bu planla razılaşmadı" (yəni Dərbəndin tutulması və türklərin Şirvandan tamamilə çıxarılması haqqında şah qərargahından alınmış əmrlə). O, öz eşikağası Məhəmməd xan Türkmanı Mirzə Salmanın və əmirlərin ardınca göndərdi. Bundan sonra onlar Qarabağa qayıtdılar və bununla da Şirvan məsələsi başa çatdırılmamış və həll olunmamış qaldı"[161]. Sonrakı hadisələr qızılbaş sərkərdələrinin fikri ilə az hesablaşan və özbaşına iş görən şah arvadının günahlarını təsdiq edir.

Mənbələr təsdiq edirlər ki, tezliklə Qarabağda Şirvan hakimi vəzifəsinə namizədlik (həlak olmuş Araz xan Rumlunun


downloaded from KitabYurdu.az

əvəzinə) üstündə şahın arvadı və həmin vəzifəyə Mollahəsən döyüşünün qəhrəmanı – Abdulla xanın oğlu Həmzə xan Ustaclını namizəd göstərmiş qızılbaş əmirləri arasında fikir ayrılığı yarandı. Şahın arvadı bu təklifi qəbul etmədi və qışın bərk soyuğuna baxmayaraq, 1578-ci ilin sonunda Qarabağı tərk etdi. Əmirlərdən heç biri şah arvadının "yersiz hərəkətinə" qarşı çıxmağa cəsarət etmədi və bir neçə gündən sonra bütün əmirlər qoşunları ilə onların ardınca Qəzvinə yola düşdülər[162].

Mollahəsən qələbəsinə baxmayaraq, Səfəvilər Şirvanda möhkəmlənə bilmədilər. Türklər burada əməli olaraq Dəırbənddən başqa heç bir dayaq məntəqəsinə malik deyildilər. Lakin onlar ləzgilərin və Dağıstan hakimlərinin köməyi ilə Şirvanda qızılbaş əmirlərini daim narahat edirdilər[163].

## Səfəvilər dövlətində daxili siyasi mübarizə

Səfəvilər dövlətinin daxilində Azərbaycan tayfalarının əmirləri ilə İran ünsürləri arasındakı çəkişmələr qızılbaş qoşunlarının türklərə qarşı mübarizədə sonrakı uğurlarına mane oldu.

Biz artıq göstərmişik ki, qızılbaş əmirləri Qarabağda olduqları zaman şah arvadı Məhdi Ülya və qızılbaş əmirləri arasında tezliklə açıq düşmənçilik münasibətlərinə çevrilən ixtilaflar yaranmışdır.

İş bunda idi ki, zəif iradəli Məhəmməd Xudabəndəni şah seçməklə qızılbaş əmirləri, tayfa başçıları dövlət işlərində öz nüfuzlarının güclənəcəyini, onların icazəsi və razılığı olmadan heç bir mühüm dövlət tədbirinin həyata keçirilməyəcəyini nəzərdə tutmuşdular. Buna baxmayaraq hadisələr heç də onların istədiyi istiqamətdə cərəyan etmirdi. Müstəbid və tündxasiyyət olan şah arvadı Məhdi Ülya ərinin əvəzinə dövləti təkbaşına, tam


downloaded from KitabYurdu.az

hakimiyyət sahibi kimi idarə edir, qızılbaş tayfalarının əyanları ilə az hesablaşırdı. Onun şəxsi vəziri Mir Qəvaməddin Hüseyn Şirazi, paytaxtın kələntəri Mövlana Əfzəl Münəccim Qəzvini, habelə etimad əd-dövlə Mirzə Salman İsfahani İran ünsürlərinə mənsub olan şəxslər idi. Mənbələr onları türklərdən fərqli olaraq ümumi taciklər (tacikiyyə) istilahı ilə adlandırırlar. Məhdi Ülya türk (azərbaycanlı) əmirlərini dövlət işlərindən kənar edərək onların danışıqsız itaət göstərmələrinə nail olmaq istəyirdi. Bu baxımdan Mazandaranın irsi hakimi, "ləyaqətli və mömin gənc" Mirzə xanın Məhdi Ülyanın hökmü ilə öldürülməsi hadisəsi səciyyəvi sayıla bilər.

Bu zaman şah arvadı özünün günahsız qurbanının mərhum atası Murad xanla Mazandaranda hakimiyyət uğrunda mübarizədə təqribən 20 il əvvəl həlak olmuş, Mərəşi seyidlərindən olan atası Mirzə Abdulla xanın intiqamını almaq kimi xırda hissləri rəhbər tutmuşdu[164].

Mirzə xan onun arxasınca göndərilmiş, həyatını qoruyacaqlarına və şah arvadını qan intiqamından imtina etmək üçün dilə tutacaqlarına and içmiş adlı-sanlı əmirlərə könüllü təslim olmuşdu. Lakin Məhdi Ülya əmirlərin andına məhəl qoymadı və onlardan gizli qorçilər dəstəsinə gecə ikən xanı qətlə yetirməyi əmr etdi. Şah arvadının əmirlərin razılığı olmadan və onların iradəsi əleyhinə Mirzə xanı qətlə yetirməsi əmirlərin qəlbində Məhdi Ülyaya sönməz nifrət oyatdı[165]. Bu qətlə görə, Şahrux xan möhrdar Zülqədər, Piri Məhəmməd xan Ustaclı və Qorxmaz xan Şamlı kimi bir sıra görkəmli əmirlər anda xilaf çıxdılar. Bu, onsuz da qadının hakimiyyəti ilə həvəssiz hesablaşan qızılbaş əyanlarının Məhdi Ülyanın özbaşınalığına son qoymaq qətiyyyətini möhkəmləndirdi. Onlar öz niyyətlərini həyata keçirmək üçün əlverişli imkanı çox gözləməli olmadılar.

Bir gün Kaşan şəhərinin sakinləri divana gələrək, tamahkarlıq dərəcəsi adi hüdudları aşan şəhər hakimi Məhəmməd xan


downloaded from KitabYurdu.az

Türkmandan şikayət etdilər. Divan məmurlarına şikayətə baxmaq göstərişi verildi. Aydın oldu ki, qızılbaş hakimi həqiqətən ağır sui-istifadə hallarında təqsirlidir. Buna əsasən "onun ölkəsini dəyişmək", yəni onu Kaşandan başqa yerə keçirmək barədə sərəncam verildi. "Böyük əmirlər və dövlətin ali şəxsləri" sırasına daxil olan Məhəmməd xan işin belə şəkil alması ilə rüsvay olundu. Məhəmməd xanın Məhdi Ülyanı inandırmaq üçün göstərdiyi bütün səylər heç bir nəticə vermədi. Belə olduqda, Məhəmməd xan əmirlərin arasındakı təhlükəli əhval-ruhiyyədən, onların Məhdi Ülya idarə üsulundan ümumi narazılığın olmasından istifadə etməyi qərara aldı. O, qiyamçı əmirlərlə sövdələşdi və onlar İskəndər bəy Münşinin təbirincə "fitnə-fəsad və düşmənçilik qapılarını açdılar". Hətta özünün ağlı və təcrübəsi ilə tanınan qorçibaşı Qulu bəy Əfşar kimi nüfuzlu bir əyan da qəsdə cəlb edildi[166].

Əmirlər gizli müşavirədə şahın arvadını və onun tərəfdarlarını hakimiyyətdən kənar etmək barədə məsləhətləşməyə başladılar. Onlar öz həmtayfaları və qohumları qarşısında belə bir sual qoydular: "Necə olmuşdur ki, şah Məhəmməd Xudabəndə olduğu halda, hakimiyyət şah arvadının, onun tacik və mazandaranlılarının əlindədir, adlı-sanlı əmirlər hakimiyyətdən, nüfuzdan nə üçün məhrum olmuşlar?" Onlar Məhdi Ülyanı tacikləri və ona yaxın olan mazandaranlıları hər vasitə ilə himayə etməkdə, onları rəhbər vəzifələrə irəli çəkməkdə, İran ünsürlərini qızılbaş əmirlərindən üstün tutmaqda, habelə hərəmxana xəzinəsini Mazandarana keçirməkdə təqsirləndirirdilər.

Nəhayət, əmirlər və əyanlar "Çehelsütun" sarayına yollandılar. Onlar öz nümayəndələri vasitəsilə şaha bildirdilər ki, onun arvadı Məhdi Ülyanın "əmirlərə və padşah dövlətinin ali şəxslərinə" pis münasibəti "və mazandaranlılara (göstərdiyi) hamilik" onun təbəələri – qızılbaşlar üçün çox təhqiramizdir. Onun dövlət işlərinə qarışması qızılbaş tayfaları ağsaqqallarını narazı


downloaded from KitabYurdu.az

salır. Onlar şaha çatdırdılar ki, əgər vəziyyət dəyişməzsə, məsud padşahın nökərləri bu tayfaların ümumi üsyanından qorxurlar. Əmirlərin fitnə-fəsadları barədə məlumatı olan Məhdi Ülya onların nümayəndələrinə elə təhqirlər və hədələr yağdırdı ki, onların yeni təhqirdən sonra, acizlikdən yaranmış qəzəblə sarayı tərk etməkdən başqa çarələri qalmadı[167].

Sonra hadisələr aşağıdakı şəkildə cərəyan etdi[168].Biz yuxarıda göstərmişdik ki, maliyyə idarəsinin verdiyi sənədlərlə qorçilər öz xeyirlərinə vergi toplamaq üçün Şirvana gəlmişdilər. Müflisləşmiş əhalidən heç nə ala bilməyən qorçilər əliboş Qəzvinə qayıtmışdılar. Təbiidir ki, qorçilərin hiddəti ilk növbədə onları təsvir edilən dövrdə Şirvan kimi ödəmə qabiliyyəti olmayan vilayətə göndərmiş maliyyə məmurlarına qarşı yönəlmişdi. Əmirlər qorçilərin əhvali-ruhiyyəsindən öz qəsdçi məqsədləri üçün yubanmadan istifadə etdilər. Onlar qəzəblənmiş qorçiləri saraya (dövlətxanaya), maliyyə başçısı (mustoufi əl-məmalik) “tacik” Mirşah Qazi İsfahaninin yanına göndərdilər. Qorçilər dərhal öz muzdlarını tələb etdilər. Başlanmış qalmaqalda Mirşah Qazi qorçilərdən birinin qılınc zərbəsi ilə yaralandı. Yalnız özünü yetirən şahzadə Həmzə Mirzənin bu məsələni yoluna qoyacağı barədə vəd verməsi qan tökülməsinin qarşısını aldı. Bundan sonra qorçilər əmirlərin təhriki ilə şah sarayına yollandıla rvə orada əsir olan tatar xanı Adil Gireyə hücum etdilər. Sonuncu özünün tatar məiyyəti ilə fədakarlıqla müdafiə olundu. Qısa, lakin şiddətli döyüşdə hər iki tərəf itki verdi. Tatar xanı ölümcül yaralandı və yerə sərildi. Qorçilər onun başını kəsib əmirlərə gətirdilər[169]. Onlar habelə şahın arvadının olduğu hərəmxanaya da soxulmaq istədilər, lakin xidmətçilər tərəfindən geri oturduldular.

Ertəsi gün, iyulun 26-da (rəcəbin 2-də) qızılbaş əmirləri qorçilərin görə bilmədiyi işi başa çatdırdılar. Onlar Məhdi Ülyanı hakimiyyət işlərindən kənar etmək planını müzakirə etmək üçün paytaxtın Səadətabad bağına toplşdılar. Yalnız şah ailəsinə sadiq


downloaded from KitabYurdu.az

qalan və şahla yaxın qohum olan təkəli tayfasının başçısı Müseyib xan Şərəfəddin oğlu əmirlərin arasında yox idi. Ona, əmirlərin hücum edəcəyi təqdirdə şah ailəsi üzvlərini qorumaq tapşırığı verilmişdi. Lakin o, bu vəzifəni yerinə yetirmək iqtidarında olmadı. O, dəfələrlə yığıncağa gəlmək tələbi ilə öz həmtayfası mehmandar Çələıbi bəyi onun yanına göndərmiş silahdaşlarının – qızılbaş əmirlərinin çağırışı qarşısında dura bilmədi. Müseyib xan "əmirlərin əleyhinə gedə bilmədi" və onlarla birləşdi[170]. İndi daha şah ailəsinin taleyi əmirlərin əlində idi. Onlar saraya gələrək, öz elçilərui vasitəsilə şaha bildirdilər ki, o, öz arvadının və onun anasının dövlət işlərindən uzaqlaşdırılmasına mane olmamalıdır. Əmirlər şaha çatdırdılar ki, onun arvadı dövlət işlərini qızılbaş tayfa başçılarının iradəsi ilə hesablaşmadan, onun ziddinə idarə edir. O, daim tayfa başçılarını təhqir etmiş, alçaltmış, rüsvay etmş, onları düşmən saymış, hədələmişdir. Belə vəziyyətə daha dözmək olmaz. Əmirlər yol vermək istəmidilər ki, qonşu dövlətlər qızılbaşların hökmdar sülaləsində bir kişinin qalmadığı üçün hakimiyyət başında qadının durduğunu düşünsünlər. Əmirlər iddia edirdilər ki, əgər şah arvadı hakimiyyətdən kənar edilməzsə, dövlətin mənafeyinə böyük ziyan dəyəcəkdir. Şah əmirlərin qəti tələbinə çox yumşaq və güzəştli cavab verdi: əgər əmirlər şahın arvadının siyasi fəaliyyətini məqsədə müvafiq saymırlarsa, o əmr edəcəkdir ki, arvadı bir daha dövlət işlərinə qarışmasın. Əgər əmirlər ondan çəkinirlərsə, o, əmr edər, arvadı Quma yola düşər və orada oğlu ilə qala bilər. Şah, həmçinin arvadını öz vətənində yaşaması üçün Mazandarana da göndərə bilər. Əgər bu təklif də əmirləri qane etməzsə, o taxt-tacdan imtina edər və öz oğulları ilə birlikdə geriyə - Şiraza yola düşər. Qoy qızılbaşlar kimi istəyirlərsə, onu da özlərinə şah seçsinlər. Həm də seyid qızı olan "günahsız" arvadının öldürülməsinə isə o razılıq vermir[171]. Şah arvadı isə heç də əri kimi güzəştə getmək fikrində deyildi. İskəndər bəy Münşinin sözlərinə görə, həyatı üçün təhlükəli olan anda Məhdi Ülya nadir


downloaded from KitabYurdu.az

soyuqqanlılıq və dəyanət göstərdi. O, vəziri Mir Qəvaməddin Hüseyn Şirazinin qorçilərə qızıl paylamaqlaəmirlərin arasına təfriqə salmaq təklifini özü üçün həqarətli sayaraq qəzəblə rədd etdi. Şah arvadının barışmaz və qətiyyətli olduğunu bilən əmirlər başa düşdülər ki, o heç bir vəchlə hakimiyyətdən imtina etməyəcəkdir və bu məsələ ilə bağlı şahın verdiyi vədlər əslində həyata keçirilə bilməz. Onlar yubanmadan fəaliyyətə başlamağı qərara aldılar. Bu "rəzil iş" Şeyxavənd nəslindən Sədrəddin xan Səfəviyə, Həsən Əli bəy Əlkəsən oğlu Zülqədərə və şahın qohumu İmamqulu Mirzə Mosulluya həvalə edildi. Onlar "nəzakətsizliklə" şah hərəmxanasına oxuldular və Məhdi Ülyanı boğub öldürdülər. İskəndər bəy Münşinin sözlərinə görə, sonra onlar şah arvadının anasının – bir neçə qohumu ilə Mazandarana gəlmiş və ömrünün qalan günlərini hərəmxanada keçirən "qoca xeyirxah və mömin" qadının mənzilinə yollandılar. Şah arvadının anasının, eləcə də onun qohumlarının və Mazandaran əyanlarının başqa nümayəndələrinin taleyi də eyni cür oldu. Onların bütün əmlakı qarət edildi[172]. Şah arvadı öldürüldükdən sonra paytaxtda iğtişaşlar baş verdi: bütün gün ərzində qara camaat (əmmə) küçələrdə, meydanlarda mazandaranlıları saxlayır və onları soyurdular. Şah arvadının Mir Qəvaməddin Hüseyn, Mövlana Əfzəl Münəccim Qəzvini kimi ən yaxın tərəfdarları və müşavirləri saraydan çıxarıldılar. Mir Qəvaməddin Hüseyn Şirazi böyük ödənc hesabına həyatını qoruyub doğma Şiraza qayıtdı. Qanlı 1579-cu il 26 iyul günündə öz həyatları üçün narahat olan digər taciklər kimi Mirzə Salman da özünün əvvəlki vəzir vəzifəsində saxlandı. İki-üç gündən sonra qızılbaş əmirləri saraya gəldilər və üləmaların, müctəhidlərin qarşısında onlardan hər biri "əlli bir and" içərək söz verdi ki, Məhəmməd nə qədər sağdır, şah taxtında başqa bir adamı görmək istəmirlər. O öldükdən sonra isə onun böyük oğlu və varisi Həmzə Mirzə şah olacaqdır. Andın mətni müctəhidlərin və üləmaların möhürü ilə təsdiqləndi. Andın mətni öz arvadının ölümü


downloaded from KitabYurdu.az

faktı ilə barışmaqdan başqa çarəsi qalmayan şaha təqdim edildi[173]. Məhəmməd xan Türkman yenidən Kaşan hakimi təyin olundu. Qızılbaş əmirləri öz istəklərinə çatdılar. Onlar əslində yenidən dövlətin tam hakimiyyət sahibləri oldular.

## Krım tatarlarının Şirvana və Qarabağa basqını

Şirvanın yeni hakimi Osman paşanı Dərbənddən çıxarmaq üçün təsirli tədbirlər gördü. Onun təzyiqi altında Şabranı və Məskuru (Müşkürü) yenidən ələ keçirmiş türklər, Dərbəndə geri çəkilməyə məcbur oldular. Osman paşa qızılbaşlara qarşı iki dəfə qoşun göndərdi, lakin onlar Məhəmməd Xəlifə Zülqədər tərəfindən darmadağın edildilər. Türklərin bu uğursuzluqları qaytaqlıları onların əleyhinə qaldırdı. Osman paşa qaytaq usmisini (hakimini) tabe etmək üçün hətta onun Başlıdakı iqamətgahına yürüş təşkil etdi. Qaytaqlılar əvvəlcə top-tüfəng atəşlərinə davam gətirməyərək dağlara geri çəkildilər. Lakin qüvvə toplayıb türkləri geri çəkilməyə məcbur etdilər. Xəzər sahili boyunca Dərbəndə doğru geri çəkilən türklər yenidən qaytaqlıların pusqusuna düşərək böyük itki verdilər. B.Kütükoğlunun göstərdiyi kimi, Osman paşanın bu yürüşü qızılbaş hakimi Məhəmməd Xəlifə Zülqədərlə Qaytaq usmisi və Təbəsaran hakimi Məsud bəyin yaxınlaşmasını, Dərbənddə olan Osman paşa üzərinə birgə hücum haqqında razılığa gəlməsini mümkün etdi[174]. Lakin Şimali Qafqazdan Krım tatarlarının iri qüvvələrinin Dərbəndə yürüşü buna mane oldu.

Krım xanlığı Azərbaycana münasibətdə işğalçılıq planlarından imtina etməmişdi. İlk vaxtlar Səfəvilər sarayında əsir olan Adil Gireyə hər cür diqqət və iltifat göstərilirdi. Əsirlikdən azad edilmiş bir dəstə tatar onun məiyyətinə verilmiş, onu mühafizə


downloaded from KitabYurdu.az

etmək üçün qorçilər dəstəsi ayrılmışdı. O, dövlətxana ilə yanaşı binada yaşayırdı; ümid edilirdi ki, mehriban və xoşrəftarlı münasibət göstərməklə, onu öz tərəflərinə çəkib, sultanla ittifaqdan əl çəkməyə razı salar və bununla da Şirvanı Krım tatarlarının viranedici hücumlarından qurtara bilərlər[175]. Şahın tələbi ilə Adil Girey İstanbula və Bağçasaraya öz adamları ilə sülh təklifləri irəli sürülən məktublar göndərirdi[176]. Lakin Adil Girey öldürüldükdən sonra bu cəhdlər uğursuzluqla nəticələndi.

Hicri 987 (1579)-ci ilin yayında Krım xanı Məhəmməd Girey türk sultanının tələbi və hərbi qənimət ələ keçirmək məqsədi ilə Bağçasaraydan hərəkət edərək Şimalı Qafqazdan keçib Şirvanın hüdudularına yaxınlaşdı. O, özünün qardaşları Qazi Girey, Səfi Girey və Səadət Gireyin müşayiəti, yüz minlik ordu ilə oktyabrın 10 (şabanın 18)-da Dərbəndə çatdı və Osman paşa tərəfindən şadlıqla qarşılandı[177].

Eyni zamanda şah Məhəmməd Xudabəndə Həmzə Mirzə və qoşunlarla birlikdə Qəzvindən qərbə tərəf hərəkət etdi və oktyabrın 19 (şabanın 27)-da Təbrizə daxil oldu[178]. Qızılbaş qoşunlarının Şirvanda türklərə qarşı hərbi əməliyyatlarına buradan rəhbərliyi həyata keçirmək üçün qərargah da Təbrizdə yerləşdirildi[179]. Şirvan hakimi Məhəmməd Xəlifə Zülqədər, Adil Gireyin qardaşlarının böyük qüvvələrlə, öldürülmüş qardaşın "qan intiqamını" almaq üçün Dərbəndə gəlmələri barədə qərargaha məlumat verdi. Təbrizdə hərbi şuranın iclasında Mirzə Salmanla əmirlərin qoşunlarını tatarlara qarşı göndərmək qərara alındı. Lakin əmirlər yürüşə hazırlaşdıqları bir zamanda tatarlar Şirvana basqın etdilər. Məhəmməd Xəlifə cəsur döyüşçü idi və qəhrəmanlıqla ölümü, şərəfsizcəsinə qaçmaqdan üstün tutaraq azsaylı igid döyüşçüləri il\ə Samur sahilində tatarlarla qeyri-bərabər döuüşə atıldı. Tatarların yeni, əlavə qüvvələr alması sayəsində qızılbaşlar darmadağın edildilər. Məhəmməd Xəlifə isə həlak oldu[180].

Məhəmməd Girey və Osman paşa oktyabrın 23 (ramazanın


downloaded from KitabYurdu.az

2)-də Şamaxıya daxil oldular, orada üç gün qaldılar[181]. Buradan Şirvanın müxtəlif hissələrinə dəstələr göndərildi. Məsələn, Bakının altı yüz nəfərlik qızılbaş müdafiəçilərinin üstünə göndərilən dəstə şəhəri ələ keçirərəl Xan Əlini və Maqsud Sultanı əsir tutdular. Sonra Məhəmməd Girey Ərəş yaxınlığında Kürü keçərək Gəncəni, Qarabağı, Muğanı tutdu, Qızılağaca qədər yeridi və Şimali Azərbaycan vilayətlərini viranəyə döndərib qarət etdi. Lakin Məhəmməd Girey və tatarlar  başlıca qızılbaş qüvvələrinin yaxınlaşması xəbərini alan kimi "qayıtmaq təbillərini çaldılar". Tatarlar özləri ilə Azərbaycanın xeyli əhalisini əsir və qul kimi (o cümlədən Qafdakı qul bazarında) satmaq üçün bir çox qadın və qızı apardılar[182]. Qazi Girey, qardaşları və tatar dəstəsi ilə birlikdə Osman paşaya kömək üçün Dağıstanda və Dərbənddə saxlanıldı. Tatarlıların bu yürüşünə qoşulmuş şirvanlıların bir hissəsi Dərbəndə qayıtdı. Əbubəkr Mirzə ilə qalan hissəsi isə Şirvanda Xaçmaz ərazisində möhkəmlənməyə cəhd göstərdi[183]. Tatarların əsas qüvvələrinin Krıma qayıtması və qızılbaş qoşunlarının Şirvana daxil olması xəbəri Dərbənddəki türk qarnizonu içərisində vahimə yaranmasına səbəb oldu.

Mirzə Salman və qızılbaş əmirləri Şirvana gec daxil olduqlarına görə artıq tatarları orada görə bilmədilər.Qazi Əhmədin məlumatlarına görə, Şirvana olan bu yürüş çox ağır qış şəraitində keçirilmişdi. Atlar və dəvələr sərt çaxtalardan və yem çatışmazlığından tələf olurdular, döyüşçülər isə piyada yeriməli olurdular. Qalın qar örtüyü yolları keçilməz etmişdi. Buna baxmayaraq qızılbaş dəstələri Qarabağdan Kürü keçərək Şirvana daxil oldular və Şamaxını mühasirəyə aldılar. Bir neçə gün davam edən mühasirədən sonra Şamaxı qalası qızılbaşlara təslim oldu[184].

İskəndər bəy Münşiyə görə, Əmir xan Xaşmaza toplanmış şirvanlılara və dağıstanlılara qarşı yeridi. Tarixçi göstərir ki, bu yürüş qızılbaşlar üçün uğulu alınmadı və Əmir xan heç nəyə nail olmadan geri qayıtdı. Bu uğursuzluq qızılbaş tayfaları arasında


downloaded from KitabYurdu.az

təfriqə və çəkişməyə səbəb oldu. Şahrux xan Zülqədər tərəfindən müdafiə edilən şamlı və ustaclı əmirləri Əmir xandan öz narazılıqlarını açıqca bildirməyə başladılar. Şahrux xan qızılbaş dəstəsi ilə şirvanlılara qarçı getmək və Əmir xanın bacarmadığını etmək arzusunda olduğunu bildirdi. Bu, Əmir xanı qəzəbləndirdi və qarşılıqlı düşmənçiliyin güclənməsinə səbəb oldu. Əmir xan belə hesab edirdi ki, ona qarşı bu çıxış baş komandan Mirzə Salmanın təhriki ilə təşkil edilir.

Beləliklə, özləri üçün əlverişli şəraitdən istifadə edərək, birgə səylərlə şirvanlıları darmadağın etmək, Osman paşanı Dərbənddən sıxışdırıb çıxarmaq əvəzinə qızılbaş əmirləri iki düşmən cəbhəyə bölündülər və onlardan hər birinin tərəfdarları ayrı-ayrılıqda yerləşdilər. İskəndər bəy Münşinin göstərdiyi kimi, tərəflərdən hər biri, digərinin hücumundan ehtiyat edərək döyüşə tam hazır vəziyyətdə dururdu.Bu dəfə də qorçibaşı Qulu bəy Əfşar siyasi müdriklik göstərdi və öz nüfuzu ilə qan tökülməsinin qarşısını ala bildi. O, əmirləri zahirən barışdırmağa nail oldu, Şahrux xan yürüşdən imtina etdi. Lakin onların qəlblərinin dərinliyində “düşmənçilik alovu yanmaqda davam edirdi”[185].

## Azərbaycanda aclıq və viranəlik

Təsvir olunan dövrdə Azərbaycan əhalisinin vəziyyəti həddindən artıq ağır idi. Ara verməyən hərbi əməliyyatlar, iri qoşun dəstələrinin hərəkəti, 1578-1579-cu illərdə türk-tatar qoşunlarının törətdiyi talan və qarətlər nəticəsində Azərbaycanda dəhşətli aclıq və taun xəstəliyi başlandı. Bəzi yerlərdə vəziyyət vəhşilik səviyyəsinə çatdı və yüksəldi. Bir sıra yaşayış məntəqələri əhalisi sıx olan məskənlərdən heyvanların cövlan etdiyi yerlərə çevrildi.

Qazi Əhmədin sözlərinə görə, Təbrizdə 1 batman çörəyin qiyməti 300 dinar idi. 1 xarvar və 100 batman buğda isə 25 min


downloaded from KitabYurdu.az

dinara satılırdı. Aclığın tüğyan etdiyi kənd məskənlərindən ac və dilənçi kütlələri şəhərlərə axışırdılar. Təbrizdə bazarlarda və küçələrdə hər gün 50-60 uşaq və yaşlı şəxs ölürdü. Dövlətin bütün vilayətlərində - İraq, Fars, Kirman, Xorasan və Təbəristanda qıtlıq və aclıq hökm sürürdü. "Yaz gələndə çöllərdə, tarlalarda ot göyərəndə, mahal və vilayətlərdən şəhərə toplaşmış, pərən-pərən düşmüş ac, çılpaq əhalinin qalıqları canavar kimi səhralara, çöllərə cumdular və otu yeməyə başladılar. Onlardan çoxu doyunca ot yeyərək çöllərdə öldü"[186].

Bu dövrdə Azərbaycanın əməkçi əhalisinin həyatı yerli sakinlərdən birinin, həmin hadisələrin şahidi və müasiri, ermənidilli salnaməçi olan Ovanes  Tsaretsinin məlumatlarında öz parlaq təsvirini tapmışdır. Tsaretsi yazırdı: 1028 (1579)-ci ildə Atrpakanda və bütün Ağvanqda dəhşətli və böyük xəstəlik başlandı. O, bütün tayfalardan çoxlu unsan apardı. İş o yerə çatdı ki, xeyli ev sahibsiz, ata və ana isə uşaqsız qaldı. Belə müsibətli vəziyyətə düşən Ağvanq ərazisinin əhalisi ölənlər üçün göz yaşı axıdır, sağ qalanlar, xəstələrə, habelə özünə can yandırır və ağır düşüncəyə dalırdı: "Ah, görəsən təsadüfi ölümdən canımız qurtaracaqmı?"[187].

Tsaretsi göstərir ki, iki ümumxalq fəlakətinə (epidemiyaya və tatarların basqınına) "dəhşətli və dözülməz aclıq" da əlavə olundu. Aclıq o qədər güclü idi ki, insanlar ölümdən yaxa qurtarmaq üçün heyvanlar kimi çiy ət yeyirdilər. Ac və evsiz olan bu insanlar qəsbkarlardan gizlənir, avaralanırdılar. Hadisələrin müasiri davam edir: "Əgər haradasa (hələ) yaşayış məskəni qalmışdısa, orada yaşayanlar sığınacaq yeri olmayan, özgələrin həyətlərində, kənar şəxslərin evlərində yalvar-yaxarla özünə yemək əldə edən, gözləri yaşlı gəzib-dolanan evsizlərdən,ayağıyalın kişi və qadın, qoca və gənc, oğlan və qızlardan ibarətdi"[188]. Aclıq işgəncəsindən insanlıq simasını itirmiş adamlar mal və at peyinini eşələyərəkarpa dənəsi axtarırı, onları daşla əzir, ağızlarına atır, küçələrdə atılıb qalmış köhnə sümükləri bişirir, dəri, yırtıq


downloaded from KitabYurdu.az

ayaqqabı və s. yeyirdilər. Salnaməçi bu barədə kədərlə danışaraq deyirdi: "Qardaşlar, gözlərim kor olaydı!"

"Yazın gəlişi ilə bədənləri qaralmış dilənçilər çöllərə səpələndilər və keçi, qoyun sürüləri kimi tabanı tərəvəz və göy ot yeməyə başladılar. Onlar doymaq bilmirdilər. Çünki peyğəmbərin dediyinə görə, "Allah yerə aclıq göndərmişvə hər cür taxıl bitkisini məhv etmişdi". Başları şişənlər xüsusilə kütləvi surətdə ölürdülər. Bir çoxları qayıtmağa gücü çatmadığı üçün elə otlaqda, kimisi isə kəndə qayıtdıqdan sonra, uçmuş evlərin divarları altında və künc-bucaqlarda məhv olurdular"[189]. Tsaretsi vəhşilik (kannibalizm) halları barədə də məlumat verir[190].

Ovanes Tsaretsinin söylədikləri həm ölkənin şimal vilayətlərinə (Qarabağa, Şirvana), həm də Azərbaycanın (Atrpatakanın) cənub hissəsinə aid idi.

Ovanes Tsaretsinin təsvir etdikləri Qazi Ədmədin və İskəndər bəy Münşinin məlumatlarına müvafiq gəlir. Məsələn, İskəndər bəy Münşi göstərir ki,1579-cu ildə əmirlərin Şirvana yürüşünün müvəffəqiyyətsizliyə uğraması səbəblərindən biri, ərzağın kəskin surətdə çatışmaması olmuşdu. Nəticədə, dəhşətli bahalıq tüğyan edirdi. Buna görə də "Şirvan hakimi vəzifəsinə" təyin edilmək təklifini alan hər bir əmir  bu vəzifədən imtina edirdi" İskəndər bəy Münşinin məlumat verdiyi kimi, aclığın tüğyan etdiyi  Azərbaycanın bütün cənub hissəsində, Qarabağda, İraqda, Gilanda əhali ağır əzablar keçirir, və ümidsizlik həddinə çatırdı. Həmişə olduğu kimi, aclıqdan ilk növbədə əhalinin yoxsul təbəqələri daha çox əziyyət çəkirdilər. Şirvandan geri çəkildiyi qızılbaş əmirlərinin Təbrizdə "zəiflər" (zəəfa) və "sadə xalq", "qara camaat" (mərdom-i fürumaye) aclıqdan ölürdülər[191].

## 1580-ci ildə Təbrizdə qızılbaş əyanları arasında çəkişmələr


downloaded from KitabYurdu.az

Biz yuxarıda xatırlatdıq ki, Şirvanda, Xaçmaz üzərinə yürüş ucbatından Əmir xanla Şahrux xan arasında ədavət düşmüşdü. Pirə Məhəmməd xan Ustaclının və Hüseynqulu Sultan eşikağasıbaşı Şamlının başçı olduqları ustaclı və şamlı tayfalarıŞahrux xanın tərəfini saxlayaraq türkman tayfasına qarşı çıxdılar. Qulu bəy qorçibaşı tayfalararası silahlı toqquşmanın qarşısını çətinliklə ala bildi. Əmirlərin Şirvan yürüşündən Təbrizə qayıtmasından sonra, adları çəkilən qızılbaş tayfaları arasındakı münasibətlər daha da kəskinləşdi. Həmin tayfalar arasında baş vermiş toqquşmalar barəsində Xorasandan alınmış məlumatlar buraya çatdıqdan sonra isə tayfaların toqquşması labüd oldu. Bu hadisələri anlamaq üçün Xorasandakı vəziyyət haqqında qısaca danışmaq zəruridir.

II Şah İsmayıl şamlı tayfasının əmiri Əliqulu xanı Heratı hakimi təyin etmişdi. Şah Məhəmməd Xudabəndə onu bu vəzifədə təsdiq edərək öz oğlu Abbas Mirzənin (gələcək I Şah Abbasın) lələsi etmişdi[192]. Abbas Mirzə Xorasanın nominal canişini sayılırdı, lakin bütün işləri Əliqulu xan Şamlı idarə edirdi.

1578-ci ildə Əliqulu xan Mürşüdqulu xan ilə birlikdə sarayda onun həyatı üçün "təhlükə olduğunu" bəhanə edərək, Məhdi Ülyaya oğlu Abbası verməkdən imtina etdilər. Əslində isə onlar, taxt-tacın varisini öz yanlarında saxlayıb idarə işlərini Abbasın adından icra etməklə özlərini daha müstəqil aparmaq niyyətində idilər. Əliqulu xan Şamlının güclənməsi, Xorasan üzərində öz nəzarətini yaratmağa cəhd göstərən Məşhəd hakimi Murtuizaqulu xan Türkmana təhlükəli göründü. Şamlı və ustaclı tayfasından olan Xorasan əmirlərinin əksəriyyəti, tərkibində türkman və təkəli tayfalarından olan əmirlərin böyük rol oynadığı Qəzvindəki mərkəzi hökuməti tanımamaq barədə öz aralarında saziş bağladı. Onlar Əliqulu xan Şamlını "xanlar xanı" elan edərək özlərinə başçı seçdilər. Beləliklə, Xorasanda əmirlərin bir-biri ilə düşmənçilik edən iki – Herat və Məşhəd dəstəsi yarandı[193].


downloaded from KitabYurdu.az

Qızılbaş əmirlərinin qüvvəsini zəiflətmək, onların arasına təfriqə, düşmənçilik salmaq üçün Məhdi Ülyanın və Mirzə Salmanın şəxsində mərkəzi hökumətin həyata keçirdiyi tədbirlər, istilaçıları dəf etməkdən ötrü qüvvələri birləşdirməyə mane olurdu. Məsələn, qərara alındı ki, bir çox Xorasan əmirləri öz mülklərindən (tiyulat) məhrum edilsinlər və onların torpaqları Osmanlı basqını nəticəsində Şirvanda öz tiyullarını itirmiş, indi isə sarayda yaşayan əmirlərə verilsin. Yenicə mülk almış və keçmiş mülk sahiblərinin çox vaxt eyni tayfadan olması tayfadaxili müharibələr təhlükəsini gücləndirirdi. Bu vəziyyət, mərkəzin təzyiqinə qarşı dura bilmək üçün Xorasan əmirlərini Əliqulu xan Şamlının ətrafında daha çox birləşməyə məcbur edirdi. Əliqulu xan müttəfiqi olan əmirlərlə, öncə Murtuzaqulu xana qarşı Məşhəd üzərinə yeridi. Rəqib qoşunları darmadağın edildi, lakin Əliqulu xan Məşhədi tuta bilmədi[194]. Şah sarayına müsbət münasibətini saxlayan Məşhəd hakimi əleyhinə olan bu yürüş, Herat hakimlərinin aşkar şəkildə mərkəzi hökumətlə əlaqələrini kəsməsi demək idi.

Xorasanda tayfalararası müharibə, Əliqulu xanın və Mürşüdqulu xanın yürüşü, onların Məşhədi mühasirəyə alması xəbəri şah sarayının yerləşdiyi Təbrizə gəlib çatdı. Əmir xan və türkman tayfasından olan əmirlər yubanmadan bu xəbərdən istifadə etdilər, şamlı və ustaclı tayfalarını dövlət əleyhinə qiyamda təqsirləndirməyə başladılar. Onlar sarayda bu tayfalardan olan əmirləri Xorasan qiyamçıları ilə əlaqələr saxlamaqda təqsirləndirərək, şahın qarşısında onlara etimad göstərməmək məsələsini qaldırdılar. Türkman tayfasının əmirləri saraydakı şamlı əmirlərinin yüksək vəzifələrindən sıxışdırılıb çıxarılmasına və onların yerinə öz həmtayfalarından olanları keçirməyə nail oldular. Bu yüksək və gəlirli dövlət vəzifələri uğrunda qızılbaş tayfa əyanları arasında gedən əski mübarizə üsulu idi. İskəndər bəy Münşinin göstərdiyi kimi, sarayda şamlı tayfasından olan əsas əyanlar bunlar idi: Həmzə Mirzənin doğma anası kimi münasibət


downloaded from KitabYurdu.az

bəslədiyi Əliqulu xanın anası Xanixan xanım; onun qardaşı və Həmzə Mirzənin vəziri olan Hüseyn bəy; şahzadənin yanında xidmətdə olan Vəli Xəlifə Şamlının oğlu İsmayılqulu bəy (şahzadə ona özünün xüsusi rəğbətini bildirməsi əlaməti kimi onu "yoldaşbaşı" fəxri adı ilə təltif etmişdi); mötəbər eşikağasıbaşı Hüseynqulu Sultanın oğlu Mehdiqulu bəy; əmiraxurbaşı vəzifəsini tutan Fulad bəyin oğlu Əbülfəth bəy; Qorxmaz xanın oğlu Təhmasibqulu bəy və b. Adları çəkilmiş şəxslər "şahın yaxın adamlarından" olduqları üçün sarayda böyük nüfuz sahibləri idilər. Həmzə Mirzənin vəziri Mirzə Hüseyn bəy Şamlının sarayda tutduğu yüksək mövqeyindən xoşu gəlməyən vəzir Mirzə Salman, şamlı əmirlərinin paxıllığını çəkən türkman əmirlərini müdafiə edirdi.

Türkman tayfasından olan Əmir xan və Məhəmməd xan yuxarıda göstərilən əyanların üzərinə hücuma keçdilər. Şaha, şahzadəyə xəyanət edənlər və düşmənlər kimi, onların saraydan qovulmalarını tələb etdilər. Onların hücumlarına məruz qalmış Pirə Məhəmməd xanUstaclı və Hüseynqulu Sultan Şamlı cavablarında bildirdilər ki, Xorasandakı ədavətin yaranmasının bütün günahı, Məşhəd hakimi Murtuzaqulu xan Türkmanın üzərinə düşür.

Çünki o, özünün müstəqillik barədə fitnə-fəsad və iddiaları ilə, Xorasan əmirlərinin birliyini özbək xanlarının hücumu qarşısında heçə endirir. Onlar öz tayfalarının şaha və şahzadə Həmzəyə sədaqətini ifadə etdilər və Osmanlı istilası, Xorasana özbək basqını təhlükəsi ilə aqğır mübarizə şəraitində qızılbaş tayfalarını birləşdirməyə çağırdılar.

Təbiidir ki, hər iki tərəfin hücuma hazır olduqları bir vaxtda Təbrizdə qan tökülməsinin qarşısını bu izahatların təsiri deyil, öz aralarında dostluq edən şamlı və ustaclı tayfalarının qüvvəsi qarşısındakı qorxu aldı. Lakin bu vaxt baş vermiş bir hadisə Əmir xanın tərəfdarlarına rəqiblərinin qüvvələrini sınamaq kimi təhlükəli üsula əl atmadan öz məqsədlərinə çatmaq imkanı verdi: söhbət Vəli


downloaded from KitabYurdu.az

Xəlifə Şamlının Xorasanda qətlə yetirilməsi barədə xəbərin Təbrizə gəlib çatmasından gedir. Onun oğlu İsmayılqulu bəy dərhal atasının qisasını tələb etdi. İskəndər bəy Münşi göstərir ki, "şamlı və ustaclı tayfaları arasında daim həmrəylik və dostluq münasibətləri hökm sürdüyünə" görə türkman və təkəli əyanları öz qarşılarına onların arasına ədavət, düşmənçilik toxumu səpmək məqsədi qoydular. Onlar bu məqsədlə İsmayılqulu bəyi inandırdılar ki, onun atası Vəli Xəlifə Şamlı Sultan Hüseyn xanın və oğlu Əliqulu xan Şamlının əmri ilə öldürülmüşdür. Bu,m xüsusi olaraq ona görə edilmişdi ki, şamlı tayfasından olan əmirlərin bir hissəsi digər hissəsinin üzərinə qalxsın və həmin güclü tayfa zəifləsin. Qeyd etmək lazımdır ki, Əmir xan və onun tərəfdarları öz məqsədlərinə nail oldular. Onlar şahı və şahzadə Həmzəni saraydakı şamlı əyanlara qarşı qaldıra bildilər.

Biz göstərmişdik ki, Əliqulu xanın anası Xanixan xanım Həmzə Mirzənin tərbiyəçisi olmuş və Məhdi Ülya öldürüldükdən sonra, əslində ona anasını əvəz etmişdi. İndi isə Əmir xan Türkman və onun həmfikirləri Əliqulu xanın qiyamına, separatçı hərəkətlərinə əsaslanaraq bildirirdilər ki, qiyamçının anası bundan sonra sarayda yaşaya bilməz. Onlar hərəmxana binasına soxuldular və "günahsız qadını" boğub öldürdülər. Sonra isə Əliqulu xanın atası Sultan Hüseyn xanın izinə düşdülər. Sultan Hüseyn xanın qətlə yetirilməsini, öldürülmüş Vəli Xəlifə Şamlının oğlu İsmayılqulu bəyə tapşırdılar. Ona Sultan Hüseyn xanın tutduğu Qəzvin hakimi vəzifəsi (xan və tavaçıbaşı fəxri adları ilə) vəd edidi. Uzun illər Vəli Xəlifə Şamlıya xidmət etmiş, əmir dərəcəsi almış və buna görə də mərhuma çox minnətdar olan Qorxmaz xan Şamlını da bu yolla ələ aldılar. Ona Hüseynqlu Sultanın tutmuş olduğu eşikağasıbaşı vəzifəsini vəd etdilər və rəqibini aradan götürməyi tapşırdılar. İsmayılqulu xan qardaşlarının Mahmud xan Sufi oğlu Ustaclının qardaşını öldürməsi ilə, keçmişdə həmişə


downloaded from KitabYurdu.az

müttəfiq olmuş şamlı və ustaclı tayfaları arasında "ədavət və nifaq" qapıları açıldı.

Əmir xanın və onun güruhunun məkrli fitnələri nəticəsində Hüseynqulu Sultan vəzir, Hüseyn bəy, habelə Hüseyn xan Şamlı (Əliqulu xanın atası və öldürülmüş xanixan xanımın əri) öldürüldülər. Beləliklə, saraydakı şamlı əyanlarına divan tutuldu[195].

Mürşüdqulu xan Ustaclı Herat hakimi Əliqulu xan Şamlının tərəfində çıxış etdiyi üçün ustaclı tayfası da Xorasandakı qiyamın iştirakçısı kimi ittiham edildi. Saraydakı ustaclı tayfasının başçısı Pirə Məhəmməd xan öz tayfasını belə aqibətdən xilas etmək üçün saraydakı şamlı tayfasının nümayəndələrinə tutulmuş divanla barışmağa məcbur oldu. O, barışıq əlaməti olaraq Əmir xan Türkmanın şahzadə Fatimə Sultan xanımla təmtəraqlı toy mərasimində iştirak etdi və qanlı hadisədən sonra öz qızının Əmir xanın oğlu ilə Təbrizdə nigah mərasiminin keçirilməsinə razılıq verdi[196]. Təbrizdə baş vermiş hadisələr, hətta xarici düşmənlərin təhlükəsi qarşısında öz nəsli, tayfası üçün xırda, xudbin mənafelərdən əlavə heç bir mənafe güdməyən qızılbaş əmirlərinin azğınlığını və özbaşınalığını təsdiq edir.

Qeyd etmək lazımdır ki, sarayda Əliqulu xanın qohumlarının qılıncdan keçirilməsi Xorasanda qızılbaş tayfalarının qiyamının nəinki qarşısını almadı, əksinə, Əliqulu xanla və şamlı əmirləri ilə müəyyən danışıqlar aparmaq imkanını da yox etdi. Bu, Xorasanın yarısının Səfəvilər dövlətinin tərkibindən çıxmasına və bir il sonra – 1581-ci ildə şahzadə Abbasın Xorasan əmirləri tərəfindən şah elan edilməsinə gətirib çıxardı.

## Səfəvi-Osmanlı münasibətləri və Azərbaycan uğrunda mübarizə



downloaded from KitabYurdu.az

Səfəvilər ağır vəziyyətə baxmayaraq Şirvanı itirmək və onu türklərə güzəştə getmək fikrində deyildilər. Hicri 988 (1580)-ci ilin əvvəlində, Təbrizdə, şah sarayında Şirvana yeni yürüş təşkil etmək qərara alındı. Bu dəfə həmin vəzifə Salman xana və ustaclı tayfasının əmirlərinə həvalə edilmişdi. Arasbardan keçən yolla hərəkət edən qızılbaş qoşunları, dözülməz istilər üzündən Həmşəhr[197] yaylağında dayandılar, öz qüvvələrinin cəmləşməsi və Araz çayına keçmək üçün hazırlıq görməyə başladılar. Şirvanda tiyulları müəyyən edilmiş yürüş iştirakçıları olan əmirlər arasında Şirvan bəylərbəyisi Salman xandan başqa Hüseynqulu Sultanın, Əliqulu Sultanın, Mustafa Sultan Şərəflinin, Mehdiqulu Sultan Çavuşlunun, həmçinin də cagirli və qaramanlı tayfalarından (oymaqat) olan bir neçə əmirin adları çəkilir[198].

1580-ci ilin yayında Hacı Maqsud bəy Zülqədərin başçılığı ilə Ərzuruma gələn qızılbaş nümayəndə heyəti İstanbula müşayiət olundu və avqustun 15-də orada onu qəbul edən Sultan III Murada Şah Məhəmməd Xudabəndənin məktubu təqdim edildi. Məktubda ilk qızılbaş elçisi olan Vəli bəy Ustaclının türk sərhəd hakimiyyət orqanları tərəfindən tutulub saxlanması və həbs olunmasından narazılıq bildirilir, Osmanlı qoşunlarının törətdikləri qarət və zorakılıqların, müsəlman qadın və uşaqlarının əsir alınmasının yolverilməz olduğu göstərilir, habelə sülhün bərpa olunması və ziyarətə gedənlərin dincliyini, təhlükəsizliyini təmin etmək arzusu bildirilirdi.

Lakin türklər Şirvanı öz əllərində saxlamaq, itirdiklərini qaytarmaq üçün əllərindən gələni əsirgəmirdilər. Əməli olaraq Dərbənddə qapanıb qalmış Osman paşanın çətin vəziyyətə düşməsi Sultan III Muradı üçüncü vəziri Sinan paşanı orduya sərkərdə təyin etməyə, Şirvana yeni yürüş başlamasına vadar etdi. Ərzurumda böyük qoşun toplamış Sinan paşa ilk növbədə təkəbbürlə dolu məktubda öz elçisini Səfəvi sarayına göndərdi. "Osmanlı qoşunlarının (bir kərə) daxil olduğu və orada onun (sultanın) adına


downloaded from KitabYurdu.az

xütbə oxunduğu ölkəni tərk etmək, bu ölkədən əl çəkmək osmanlıların qaydalarına müvafiq deyil. Osmanlılar Şirvan, Şəki, Azərbaycan və Gürcüstanın bəzi vilayətlərini tutmuşlar. Əgər bundan sontra qızılbaşlar bu ölkələrə qarşı təcavüz etməsələr, o, həmin ölkələri islam nümayəndələrinin (Osmanlı məmurlarının – O.Ə.) himayəsi üçün saxlayar və mübahisə qurtarmış olar"[199]. Sinan paşa daha sonra yazırdı ki, belə halda biz keçmiş hərəkətlərimiz üçün üzr istəyər, etibar qazanmış və bacarıqlı şəxsi dostluq məktubu ilə xondkarın yanına göndərər, onu sülh bağlamağa razı salmağa cəhd edərik. Osmanlı sərkərdəsi hədələyirdi: "Əks təqdirdə - rum qoşunu İran vilayətlərini tutmaqdan imtina etməyəcəkdir"[200].

Qızılbaş əmirləri, xüsusilə də Şahrux xan möhrdar, özlərini türk ordusuna qarşı dura bilməkdə kifayət qədər güclü hiss etmirdilər. Onlar öz aralarında birliyin olmamasını dərk edərək məyus oldular. Lakin Sinan paşanın iddialarına kəskin cavab verdilər: "Biz yalnız mərhum şah dövrünün (yəni I Şah Təhmasibin bağladığı 1555-ci il müqaviləsinin – O.Ə.) şərtlərinə razıyıq və öz torpağımızın bir qarışını da verməik, nə qədər ki, yüz mindən bir nəfər qızılbaş sağdır mübarizədən imtina etmərik. Sənin və onlarla sənin kimilərin gəlişindən qorxmuruq. Elə zənn etməyin ki, indi də Lələ paşa zamanındakı kimidir. Zira o bizim üstümüzə gələndə bizim padşahımız İraqda idi. Azərbaycan əmirləri həmin vaxt öz aralarında düşmənçilik edirdilər. İndi isə bütün qızılbaş qoşunları Azərbaycanda, şahın yanındadır, döyüşə hazırdırlar. Şirvan ölkəsinin osmanlıların tabeliyində olması fikrində də yanılırsınız. Şirvan yenə də qızılbaş əmirlərinin əlindədir. Rumilərin hakimiyyəti yalnız Dərbənd qalasının dörd divarı ilə məhdudlaşır. Həqiqətən də, əgər o vaxt (Lələ paşanın yürüşü zamanı – O.Ə.) qızılbaşlar arasında yekdillik olsaydı, Allahın mühafizə etdiyi ölkəyə (Səfəvilər dövlətinə - O.Ə.) düşmənin qəsd etməyə cəsarəti çatmazdı"[201]


downloaded from KitabYurdu.az

Qızılbaşların qəti cavabı Sinan paşanın döyüşkən əhval-ruhiyyəsini bir qədər yumşaltdı. O, ikinci dəfə daha mülayim məktub göndərdi. O, yazırdı ki, "Osman paşa Əlahəzrət xondkarın taxt-tacının hüzurunda bildirmişdir ki, Şirvan ölkəsi bizim tərəfimizdən ələ keçirilmişdir. Əgər bunun belə olduğu məlum olarsa, bundan sonra qızılbaşlar tərəfindən Şirvan mülkünə iddialar irəli sürülməməsi ən ağıllı hərəkət olardı. Əgər bu məsələ üzrə ixtilaf olmasa,mən sülhə zəmanət verirəm". Qızılbaşların cavab məktubu müvafiq surətdə, mehriban ruhda oldu.

Sinan paşanın təklifi ilə tərəflər razılaşdılar ki, hicri 988 (1580-1581)-ci ildə onlardan hər biri qışlamaq üçün öz yerlərində qalsınlar. Hər iki tərəfin nümayəndələri Şirvana gəlməli və bu ölkənun bu, yaxud digər ərazisinin kimin əlində olmasını aydınlaşdırmalı idilər. Bu məqsədlə türklər tərəfindən Ömər ağa Şirvana göndərildi. Sinan paşa qışı Ərzurumda qaldı. Şah da qışlamaq üçün Naxçıvan yaylaqlarından (Eşkəmbər və Qəleybər) Qarabağa doğru hərəkət etdi.

Bu məqamda Şirvan üçüncü dəfə Krım tatarlarının qarətçi qoşunlarının basqınına məruz qaldı. Qazi Girey və Səfi Girey böyük ordu ilə Dərbənddən keçərək Şirvana soxuldular. Bu hücum qızılbaşlar üçün əlverişli olmayan şəraitdə baş verdi. Şirvanda hələ qızılbaş qoşunları yox idi. Çünki Salman xan əmirlərlə birlikdə hələ Kürü keçməmişdi. Onlar yaylaqda idilər. İskəndər bəy Münşinin bildirdiyi kimi, "Şirvan xainləri" Salman xanın düşərgəsinin olduğu yeri tatarlara xəbər vermişdilər. Bədbəxtlikdən həftə ərzində ara vermədən yağış yağmışdı, palçıq və gölməçələrin keçilməzliyi üzündən hər cür hərəkət son dərəcə çətinləşmişdi. Buna görə də qızılbaşlar tatarların yaxınlaşmasını sezməmişdilər. Eyni zamanda, şirvanlılar düşməni Kürün elə yerindən keçirmişdilər ki, oradan tamamilə hücum gözlənilmirdi. Qızılbaşlar hətta silahlanmağa və bir yerə cəmləşməyə də imkan tapmadılar. Onların çoxusu qaçmaqla canını qurtardı, müqavimət göstərən az hissəsi isə


downloaded from KitabYurdu.az

qəhrəmanlıqla həlak oldu. Tatarlar qızılbaş düşərgəsini qarət etdilər və elə həmin gün də geri qayıtdılar. Osman paşa isə tatarların köməyilə türklərin dəstəsini Bakıya daxil etdi və qalanı möhkəmləndirdi[202].

Tatarların Salman xanı darmadağın etməsi xəbəri Qarabağa daxil olduqları vaxtda şaha gəlib çatdı. Saray adamlarının qışlamaq üçün dayandığı Qızılağacdan Mirzə Salman, Əmir xan, Qulu bəy qorçibaşı, Şahrux xan, Pirə Məhəmməd xan və başqa əmirlər qoşunlarla Şirvana – tatarlara qarşı göndərildi. Bundan əvvəl tatarların darmadağın edilməsindən bizə məlum olan Mollahəsən adlı yerdə, qızılba. Qoşunları türk və tatarlarla qarşılaşdılar. Hər dəfə döyüşə yeni qüvvələr daxil edən qızılbaşların daim güclənən hücumuna tab gətirməyən türklər və tatarlar sürətlə geri çəkilməyə başladılar. Türklər yenidən Dərbənddə qapanıb qaldılar. Tatarlar isə Dağıstandan keçib Krıma qayıtdılar.

Salman xan əsas qızılbaş qüvvələrinin Şirvana gəlməsi xəbərini aldı. Tez-tələsik Kürü keçdi və tatarlardan uğradığı məğlubiyyətin və qaçmasının əvəzini çıxmaq məqsədilə Bakını ələ keçirməyi qərara aldı. Düşməni Şabrana qədər təqib etmiş Əmir xan Türkmangeri qayıtdı, Bakını mühasirəyə almış Salman xanla birləşdi. Qızılbaşlar on səkkiz gün ərzində türk hərbi hissəsinin müqavimətini qırmaq üçün uğursuz cəhdlər göstərdilər. Sonra onlar mühasirədən əl çəkməyə məcbur oldular. Çünki türklər Dərbənddən gələn gəmilərlə müntəzəm olaraq hərbi sursat və ərzaqla təchiz olunduqları bir zamanda, qızılbaşlar dağıntı və sakinlərin (rəiyyətin) yozsul vəziyyəti üzündən azuqə sarıdan kəskin ehtiyac hiss edirdilər. İskəndər bəy Münşi qeyd edirdi: " Hətta arpa unu belə yox idi. Onun bir batmanı öncə altı misqal zərb olunmuş gümüş dəyərində olan altı yüz Təbriz dinarına satılırdı"[203]. Səfəvi qoşunları Şirvanı tərk edib Qarabağdakı şah qərargahına gəldilər. Həmin qışda heç bir qızılbaş əmiri Şirvanda qalmadı. Bununla əlaqədar olaraq Osman paşanın qoşunları



downloaded from KitabYurdu.az

tədricən Şirvanın bir sıra rayonlarını ələ keçirdilər. İskəndər bəy Münşi yazır: “Şirvan əhalisi istər-istəməz Osman paşaya itaət göstərdi”.

Osmanlı nümayəndəsi Ömər ağanın Şirvanda tərəflərin vəziyyətini təhqiq etmək üçüçn oraya gəlməsi ərəfəsində Səfəvi sarayında elçini baş vermiş gerçəklik qarşısında qoymaq məqsədilə, Şirvanı tutmaq üçün təcili tədbirlər görülməsi qərara alındı. Bu məqsədlə, əmirlər və “dövlətin ali şəxsləri” təklif etdilər ki, Qarabağdan qacar, otuziki və başqa tayfaların bir hissəsi Şirvana yeridilsin Bu hərbi əməliyyatı həyata keçirmək məsuliyyəti Qarabağ hakimi İmamqulu xan Qacarın üzərinə qoyuldu. Xan adına layiq görülmüş Peykər bəy Ziyad oğlu Qacar Şirvanın yeni hakimi təyin edildi.

Qızılbaş nümayəndəsi ilə Şirvanı gəzən Ömər ağa əmin oldu ki, Dərbənddən və Bakıdan başqa bu ölkədə heç bir yer türklər tərəfindən tutulmaməşdır. Bundan sonra Osmanlı nümayəndəsi onu müşayiət edən Səfəvi müvəkkili Şahqulu Sultan Tebet oğlu Zülqədərlə birlikdə, “həqiqi vəziyyət barədə” məlumat vermək və sülh danışıqları aparmaq üçün Ərzuruma – Sinan paşanın yanına gəldilər.

Lakin Sinan paşa Osman paşa ilə münasibətləri gərgin olduğu üçün birbaşa sülh danışıqlarına başlamadı. O, Şahqulu Sultanı dostluq məktubu ilə geri göndərdi və məktubunda səfəvilərə təklif etdi ki, sülh müqaviləsi bağlamaq üçün “böyük əmirlərin” ləyaqətlilərindən birini sultanın sarayına göndərsinlər. Ağıllı və ehtiyatlı şəxs kimi tanınan Qum hakimi İbrahim xan (Heydər sultan Çabuk Tərxan Türkmanın oğlu) bu məqsədlə Osmanlı paytaxtına göndərildi. İstanbula layiqli hədiyyə və bəxşiş.lərlə gələn İbrahim xan dərhal başa düşdü ki, buradakı şərait heç də sülh danışıqlarının xeyrinə deyildir. Səfəvilərlə danışıqlar əleyhinə çıxış edən əsas sima Dərbənddə məskiən salmış Osman paşa idi.ı Osman paşa və onun tərəfdarları sultanı Sinan paşaya onun təmkinli,


downloaded from KitabYurdu.az

sülhsevər tədbirləri əleyhinə qaldırmışdı. Buna görə də İbrahim xanın cəhdləri nəticə vermədi. O, yeddi il müddətində Osmanlı paytaxtında qaldı və yalnız I Şah Abbas döründə vətənə qayıtdı[204].

Şərəf xanın bildirdiyi kimi, Sinan paşanın İstanbula, Məhəmməd Xudabəndənin isə Qəzvinə qayıtması barədə saziş əldə edildi. Lakin sonrakı ildə Sinan paşa baş sərkərdə vəzifəsindən kənar edildi və onun yerinə Fərhad paşa təyin olundu.

Hicri 989 (1581)-cu ildə Qazi Girey və Səfi Gireyin başçılığı ilə Krım tatarları dördüncü dəfə Şirvana hücum etdilər. Bundan bir qədər əvvəl İmamqulu xan Qacar qızılbaşların güclü dəstəsini Peykər xanın köməyinə göndərmişdi. Şamaxıya hərəkət edən tatarlar başda Şirvan bəylərbəyi Peykər xan olmaqla qacar, cairli, qaramanlı və başqa tayfaların əmirləri ilə qarşılaşdılar. Döyüş Şamaxı ilə Şabran arasında baş verdi. "Tatarların əvvəlki uğurlarının təsiri altında özünə güvənən" Qazi Girey at belində döyüşün ən qızğın yerinə yeridi və qacarlar tərəfindən əsir alındı. Tatarlar və türklərin birləşmiş qoşunu yenidən ağır məğlubiyyətə uğradı. Səadət Girey də əsir düşmək təhlükəsi ilə üzləşdi. Sağ qalan tatarlar və türklər döyüş meydanından qaçdılar. Əbubəkr Mirzə də aradan çıxdı.

1581-ci ilodə Peykər xan vəfat etdi və onun yerinə Xəlifə Ənsar Qaradağlı Şirvan hakimi təyin olundu. Lakin İskəndər bəy Münşi göstərir ki, Xəlifə Ənsar Qaradağlı da Şirvanda müvəffəqiyyət qazanmadı. 1582-ci ildə Xəlifə Ənsar vəfat etdi. Şah Qarabağdan Qəzinə qayıtdıqdan və Xorasana yürüş etdikdən sonra "qızılbaş əmirlərindən heç biri Şirvanda qala bilmədi"[205]. Osman paşa bunun sayəsində yenidən Dərbənddən Şamaxıya gəldi və Şirvanda türklərin hakimiyyətini bərpa etdi[206].

Yuxarıda göstərilən faktlardan biz əmin olduq ki, Krım xanları Osman paşanın Dərbənddə qala bilməsinə xeyli yardım göstərmişdilər. Bundan əlavə, Osmanlı sultanı Krım və Şimalı Qafqazdan hərbi dəstələr, habelə hərbi sursat və pul göndərməklə


downloaded from KitabYurdu.az

Osman paşaya daim yardım göstərirdi.

Mənbə məlumatları göstərir ki, Dağıstanda və Şirvanda türklərin güclənməsi ayrı-ayrı yerli hakimlərin narazılığına səbəb olduğundan onlar hətta qızılbaşlarla ittifaqa girirdilər. Məsələn, belə bir məlumat vardır ki, Şamxal və Əbubəkr Mirzə Osman paşaya qarşı birgə çıxış etmək təklifi ilə Gəncənin qızılbaş hakiminə müraciət etmişdilər. 1583-cü ilin yazında yeni qüvvələr alan İmamqulu xan Kürü keçərək Şirvana daxil oldu. Şamaxıda olarkə, Niyazabad ərazisində Yaqub bəyin Osmanlı qoşunlarının cəmləşməsi xəbərini alan İmamqulu xan Rüstəm xanı qızılbaş dəstəsi ilə onlara qarşı göndərdi. Şiddətli vuruşmada Yaqub bəy və digər türk hərbi başçıları öldürüldülər. Türklər tamamilə darmadağın edildilər. Qızılbaşlar onları Dərbəndədək təqib etdilər. Köməyə gələn Osman paşa Samur çayı sahilində, Baştəpə yaxınlığında qızılbaşlarla döyüşə girdi. Türk mənbələrinin göstərdikləri kimi, Əbubəkr Mirzə bu döyüşdə qızılbaşların tərəfində çıxış edirdi. Peçevi onu "bu tərəfdən üz döndərmiş (yəni sultana xəyanət etmiş – O.Ə.) İbn Bürhan", "xain kafir" kimi yad edir. İmamqulu xanın Osman paşa ilə döyüşü bir neçə gün davam etdi. Atışma gecələr də məşəl işığında davam etdirildiyi üçün bu döyüş "məşəllər savaşı" da adlanırdı. Yalnız döyüşün dördüncü günü Osmanlılar üstünlük qazandılar və qızılbaşları döyüş meydanından çəkilməyə məcbur etdilər[207].

## Qızılbaş feodallarının vəzir Mirzə Salmana divan tutması

Səfəvilər dövlətinin hərbi uğursuzluqları xeyli dərəcədə ölkənin ağır daxili vəziyyəti ilə izah olunurdu. 80-ci illərin əvvəllərindən başlayaraq, Azərbaycan qızılbaş əyanlarının İran feodal ünsürləri ilə mübarizəsi son dərəcə kəskinləşdi. Bunun da



downloaded from KitabYurdu.az

nümunəsini biz yuxarıda, Məhdi Ülyanın və onun qohumlarının öldürülməsi hadisələrində görmüşdük. Həmçinin qeyd edilmişdi ki, nəinki sağ qalan, həm də yüksək vəzir vəzifəsini saxlayan yeganə "tacik" Mirzə Salman olmuşdu.

Mirzə Salman bir sıra illər ərzində Fars hakimi İbrahim xan Zülqədərin vəziri olmuş isfahanlı Ağa Mirzə Əli Cabirinin oğlu idi. Mirzə Salman I Şah Təhmasibin hakimiyyətinin son dövründə ilk dəfə sarayda görünmüş və saray təsərüffatına başçı ("nazir-i büyutat") təyin edilmişdi. II Şah İsmayıl onu vəzir təyin etdi. O, II Şah İsmayılın ölümündən sonra məharətlə Şah Məhəmməd Xudabəndənin və onun hakimiyyətpərəst arvadının etibarını qazanmış və fəxri "etimad əd-dövlə" ("dövlətin etimadı") adı ilə "ali divanın vəziri" vəzifəsinə təsdiq olunmuşdu[208]. O hətta öz qızını taxt-tacın varisi Həmzə Mirzəyə ərə verməyə, böyük oğlu Mirzə Abdullanı isə şahzadənin vəziri etməyə nail olmuşdu. Beləliklə, şahın zəifliyindən və onun oğlunun cavanlığından istifadə edən Mirzə Salman qeyri-məhdud hakimiyyətə can atırdı. Biz artıq bilirik ki, onun qızılbaş əyanları arasında bir çox fitnə-fəsadlarda, çəkişmələrdə və qəsdlərdə əli var idi. Mirzə Salman əmirləri bir-birinin üstünə qaldırmaq, bununla da qızılbaş tayfalarının zəifləməsinə nail olmaq, dövlət işlərində əmirlərin rolunu məhdudlaşdırmaq üçün ən kiçik fürsəti belə əldən vermirdi. İskəndər bəy Münşi, dövlət xadimi kimi Mirzə Salmanın ağlını və qabiliyyətini ümumən yüksək qiymətləndirirdi. Lakin qeyd edirdi ki, onun qızılbaş tayfalarına qarşı yönəldilən fitnələri hərbi tədbirləri pozur və dövlətin mənafeyinə ziyan vururdu. 1582-1583-cü illərdə şahın Xorasan qiyamçılarına qarşı yürüşü zamanı Mirzə Salman şah qoşunları tərəfindən əsir alınmış bir sıra adlı-sanlı ustaclı və şamlı əmirlərini, saray əmirlərinin və "dövlətin ali şəxslərinin" arasındakı qohumlarının və həmyerlilərinin etirazlarına baxmayaraq edam etdirmişdi[209]. Əliqulu xanın uğurla müdafiə olunduğu Herat qalasını şah mühasirəyə aldığı zaman Mirzə


downloaded from KitabYurdu.az

Salman qızılbaş əmirlərini xəyanətdə və mühasirəyə alınmış qiyamçılarla əlbir olmaqda günahlandırmışdı. İskəndər bəy Münşi göstərir ki, Mirzə Salman həmişə Həmzə Mirzəni qızılbaş əmirlərinə, xüsusilə də Qulu bəy Əfşara, Şahrux xan Zülqədərə və Məhəmməd xan Türkmana qarşı qaldırmağa çalışırdı. O şahzadəni inandırırdı ki, "bu üç xadim sağ olduqca, şahın canişininin gülüstanı ətir saçmayacaq və çiçək açmayacaq".

Qızılbaş əmirləri vəzirin onlara qarşı fitnələrindən xəbərdar idilər və onu öldürmək qərarına gəlmişdilər. Bu hadisə 1583-cü ildə, Heratda baş verdi. Bir gün Mirzə Salman öz məiyyəti ilə şəhər ətrafına gəzintiyə çıxmışdı. Aralarında Qulu bəy Əfşarın oğlu Yusifxanın, Məhəmməd xan Türkmanın oğlu Vəlican xanın, Şahrux xanın qardaşı oğlu Xəlil Sultanın və başqalarının olduğu qızılbaş gənclər dəstəsi əmirlərin göstərişi ilə onların arxasınca düşdü. Yolda təqib edənlər barədə məlumat alan Mirzə Salman tələsik geri qayıtdı. O, sığınacaq tapmaq ümidilə dövlətxanaya – şahın və Həmzə Mirzənin yanına gəldi. Belə olduqda qızılbaş əmirləri şah sarayının yerləşdiyi Sultan Hüseyn Mirzə mədrəsəsinə gələrək vəzirin onlara verilməsini tələb etdilər. Onlar açıq surətdə bildirdilər ki, Mirzə Salman qızılbaşların düşmənidir, tayfalar arasında ədavət və düşmənçiliyin səsəbkarıdır. Xorasan əmirləri arasında itaətsizliyin və qiyamın günahkarıdır və o sağ olduqca əmirlər arasında birlikdən söhbət gedə bilməz. Şahın və Həmzə Mirzənin vəziri əmirlərə təslim etməkdən başqa çarəsi qalmadı. Çünki əmirlər şahı əks təqdirdə Abbas Mirzə ilə birləşəcəkləri ilə hədələyirdilər. Əmirlər əvvəlcə vəzirin bütün əmlakını qarət etdilər. Bir neçə gündən sonra isə Mirzə Salmanı qətlə yetirdilər[210].

## Fərhad paşanın Azərbaycana yürüşü


downloaded from KitabYurdu.az

Biz artıq qeyd etmişik ki, Səfəvilərlə sülh məsələsində Sinan paşa ilə Osman paşa arasında ciddi ixtilaf yaranmışdı.

1592-ci ilin əvvəlində Sinan paşa, qızılbaş elçisi İbrahim xan Tərxan Türkmanla sultanı Səfəvilərlə barışıq bağlamağa razı salmaq üçün Ərzurumdan İstanbula yola düşüd. Lakin Dərbənddə ilişib qalmış Osman paşa heç də sülhsevər əhval-ruhiyyədə deyildi. O, qızılbaşlar gerdikdən sonra Şirvanı ikinci dəfə tutdu və İstanbula məktub yazaraq sultan Murada Şirvanın tutulduğu xəbərini verdi, onu qızılbaşlarla müharibəni davam etdirməyə çağırdı. Osman paşa sultana məlumat verdi ki, hazırda şah əmirlərlə Xorasandadır. Bu .əraitdə ona qoşunlarla kömək edilərsə, çətinlik çəkmədən Azərbaycanı və İranın qərb vilayətlərini imperiyaya birləşdirmək olar. Istilaları daha da genişləndirmək ehtirası ilə alışan türk sultanı sülh danışıqlarını dayandırdı və Sinan paşanı şərq yürüşünün hərbi başçısı vəzifəsindən kənar etdi. Bununla yanaşı, sultan elçi İbrahim xana təhdid formasında bildirdi ki, o, yalnız şah tərəfindən Şirvandakı Osmanlı istilalarının tanınacağı təqdirdə sülhə razıdır. Əks halda Osmanlı qoşunları hücumu davam etdirəcəklər. Ağıllı və uzaqgörən İbrahim xan Türkman öz səfirliyinin üzvlərindən biri ilə Xorasana – şahın adına göndərdiyi məktubda sultanın qəti tələbi barədə məlumat verdi və Səfəvilər dövlətinin ağır daxili vəziyyətini nəzərə alaraq, ölkəni daha böyük ərazi itkilərinə məruz qoymamaq üçün sərt sülh şərtlərini qəbul etməyi məsləhət gördü. İskəndər bəy Münşi göstərir ki, "özlərinə güvənən qızılbaş əmirləri" aralarında hökm sürən parçalanmaya, düşmənçiliyə və çəkişməyə baxmayaraq cavab məktubunda öz elçilərinə bildirdilər ki, onlar Şirvanı heç bir vəchlə türklərə güzəştə getməyəcəklər və əgər sultan 1555-ci il sülh şərtlərinə razı deyilsə, müharibəni davam etdirəcəklər[211].

Hicri 991 (1583)-ci ilin yayında şərq yürüşünün yeni hərbi rəhbəri Fərhad paşa 70-80 min nəfərlik qoşunla Ərzurumdan çıxdı və Qarsı keçərək Çuxursəəd vilayətinə daxil oldu. Qazi Əhmədin


downloaded from KitabYurdu.az

məlumatına görə, Fərhad paşanın yürüşü ona görə mümkün olmuşdu ki, şahın əsas qüvvələrlə uzun müddət Xorasanda olması, “iki padşah təyin etmiş qızılbaşlar arasındakı”[212] didişmələr haqqında Rumda xəbər tutmuşdular. Özqarşısında türklərin üstün qüvvələrini görən Çuxursəəd bəylərbəyisi Məhəmməd xan Toxmaq Ustaclı Qarabağ və Azərbaycanın cənub hissəsi hakimlərinə - İmamqulu xan Qacara və Əmir xan Türkmana kömək üçün müraciət etdi. Lakin həmin əmirlər hələ Xorasanda olan şahın köməyi olmadan türk ordusuna qarşı durmağı öz qüvvələri imkanı xaricində saydıqları üçün, Məhəmmədi xanın çağırışını cavabsız qoydular. Buna görə də Məhəmmədi xan İrəvanı tərk etdi və Naxçıvana geri çəkildi. Fərhad paşa İrəvanı tutdu. Orada qala tikdirdi və qalada bir illik ehtiyat qoyub geri qayıtdı. İskəndər bəy Münşi göstərir ki, Əmir xan və türkman əmirləri Məhəmmədi xana heç bir kömək göstərmədilər. Çünki “dar əs-səltənə Təbrizin müdafiəsini və mühafizəsini daha vacib və birinci dərəcəli” sayırdılar. Onlar “kürdlərin yaxında olması ucbatındanoradan kənara bir addım da atmadılar”. Göstərilən nümunədə Azərbaycan tarixçisi qızılbaş əmirləri arasında ümumdövlət, ümumxalq mənafeyini deyil, öz tayfalarının mənafeyini, özlərinə məxsus mülklərin müdafiəsini hər şeydən üstün tutan adamlara qarşı çıxış edir. Bu qapalılıq da Çuxursəəd kimi “abad vilayətin” itirilməsinə gətirib çıxardı[213]. Bundan sonra Əmir xan Türkman öz səfiri Qasım bəyin vasitəsilə türklərin İrəvanı tutması xəbərini şah sarayına yetirdi və şahdan qoşunlarla Azərbaycana gəlməyi xahiş etdi. Hicri 962 (1584)-ci il yayın əvvəlində şah öz qoşunu ilə Qəzvindən Təbrizə hərəkət etdi[214].

**Türkman və təkəli tayfalarının qiyamının başlanması**


downloaded from KitabYurdu.az

Göstərdiyimiz kimi həmin dövrdə bütün Şirvan və Çuxursəəd vilayəti osmanlı qoşunlarının əlində idi. Şah hökuməti bütün qüvvələri səfərbərliyə alıb, düşmən basqınının dəf olunmasını təşkil etmək və düşmənin ölkənin içərilərinə sonrakı irəliləməsinin qarşısını almaq əvəzinə, hicri 993 (1585)-cü ilin qışında və yazında öz vaxtını Təbrizdə fitnə-fəsadlara və əyləncələrə sərf etdi. Təbriz vilayətinin bəylərbəyisi Əmir xan Türkman 12 min nəfərlik tayfasının tam heyəti ilə şəhərdən çıxdı. Şahı və Həmzə Mirzəni qarşılamaq üçün Miyanəyə gəldi. Şah Məhəmməd və Həmzə Mirzə üçün Təbrizdə təşkil etdiyi təntənəli qəbul şah və şahzadənin yanında Əmir xanın nüfuzunu xeyli artırdı.

Qeyd etmək lazımdır ki, bu dövrdə Həmzə Mirzənin artıq on səkkiz yaşı var idi. O, böyük oğul, taxt-tacın varisi kimi dövlət işlərinə və hərbi işlərə rəhbərlikdə getdikcə daha çox iştirak edirdi. İskəndər bəy Münşiyə görə, təkəbbürlü və tündxasiyyət olan Həmzə Mirzə Şərab düşkünü idi. Qızılbaş əmirləri onun anası Məhdi Ülyanı öldürəndə onun on üç yaşı var idi. O, həmin vaxtdan anasını öldürənlərə qarşı qəlbində sönməz kin gəzdirir və intiqam almaq üçün bəhanə axtarırdı. Anası qətlə yetiriləndə Əmir xan Türkman Qəzvindən uzaqda idi və zahirən bu hadisə ilə əlaqəsi olmamışdı. İndi Təbrizə gəlmiş şahzadə onu özünə yaxınlaşdırmaq və Əmir xanın köməyilə anasının qatillərinə divan tutmaq qərarına gəldi. Lakin Əmir xan Həmzə Mirzənin niyyətini bəyənmədi və buna əasslandı ki, Osmanlı sultanı kimi güclü düşmənlə qarşı-qarşıya dayanarkən nüfuzlu qızılbaş sərkərdələrini öldürmək və bununla da onların arasına düşmənçilik salmaq ağıllı iş olmaz.

Türkman tayfasına düşmən olan saray adamlarından bir çoxu, xüsusən də şamlı və ustaclı tayfalarının nümayəndələri Əmir xanın şahzadə ilə yaxınlaşmasından narazı idilər. Onlar hər vasitə ilə bu dostluğu pozmağa cəhd göstərirdilər. Şahzadənin yaşıdları və həmpiyalələri olan Əliqulu bəy Fəth oğlu və İsmayılqulu xan Şamlı


downloaded from KitabYurdu.az

şahzadənin iştirak etdiyi qapalı dairədə Əmir xanın ünvanına böhtanlar yağdırmağa başladılar. Əmir xan Təbrizdə, şah iqamətgahının yanında qala tikdirdikdə isə bunu şah hakimiyyətinə qarşı onun üsyan etmək niyyəti kimi qələmə verdilər. Onlar həmçinin, heç də əsassız olmadan göstərdilər ki, Əmir xan, onun qohumları, yaxın adamlar Təbriz əhalisini amansız surətdə istismar edir, soyub talayırlar və bunun sayəsində zinət və var-dövlət içində üzürlər. Bu söhbətlər tədricən Həmzə Mirzəyə öz təsirini göstərirdi. Şahzadə Əmir xanı Azərbaycanın cənub hissəsinin hakimi vəzifəsindən kənar etmək qərarına gəldi. Onun ətrafında gəzən söz-söhbət və fitnə-fəsadları sezən Əmir xan özünün məğrur davranışı ilə vəziyyətini daha da ağırlaşdırdı. Həmzə Mirzə hiss etdi ki, Əmir xan onunla ünsiyyətdən kənara qaçmağa başlayır. Məsələn, Əmir xan şahzadənin təşkil etdiyi çövkən və qapaq əndazi oyunlarında işrirak etmədi. Bunun ardınca o, şahın Təbrizin Həsən padşah məscidində təşkil etdiyi aşura günü (məhərrəmin 10-u) dini mərasiminə də gəlmədi. Beləliklə, Əmir xanla Həmzə Mirzə arasında düşmənçilik münasibətləri yarandı. Əmir xan Həmzə Mirzənin göstərişi ilə tutuldu və Qəhqəhə qalasına salındı. Onun əmlakı isə müsadirə edildi. Fitnə-fəsadları ilə Əmir xanın vəzifədən getməsinə və həbsə alınmasına səbəb olmuş Əliqulu bəy Fəth oğlu Ustaclı Təbriz hakimi və Azərbaycanın cənub hissəsinin bəylərbəyi təyin edildi[215]. Ustaclı və şamlı tayfalarının başçıları şahzadənin köməyilə yenidən türkman və təkəli tayfalarının feodallarını yüksək vəzifələrdən sıxışdırıb çıxararaq onların yerlərini tutdular.

Bu hadisələr haqqında xəbər, həmin tayfaların başqa əyalətlərdəki feodallarını da ayağa qaldırdı. Kaşan hakimi Məhəmməd xan Türkman Həmədan hakimi Vəli xan Təkəlilə Əmir xanın düşmənlərinə divan tutmaq məqsədilə, Təbrizə hərəkət etmək barədə razılığa gəldilər.

Bunun ardınca hicri 993-cü ilin cümada əl-əvvəl ayında (1585-ci ilin mayında) Əmir xanın Qəhqəhə qalasında öldürülməsi


downloaded from KitabYurdu.az

türkman və təkəli tayfalarının ümumi qiyamına səbəb oldu[216].

Qızılbaş tayfaları arasındakı təsvir edilən çəkişmələr və müharibə Səfəvilərin qüvvəsini və müdafiə qabiliyyətini qəti olaraq qırdı və türk qoşunlarının gələcək istilalarını asanlaşdırdı.

## 1585-ci ildə Təbriz şəhərinin Osman paşa qoşunlarından müdafiəsi

Bütün Azərbaycanı ələ keçirmək arzusunda olan Türkiyə sultanı, döyüşkən Özdəmir oğlu Osman paşanı Şirvandan geri çağırdı. Böyük ordunu onun sərəncamına verdi və onu Şərq yürüşünün başçısı təyin etdi[217]. Hicri 993 (1585)-cü ilin əvvəlində Osman paşa Ərzurumda Azərbaycana basqın etməyə hazırlaşmaqla məşğul oldu. 1585-ci ilin yayında şah və Həmzə Mirzə Qarabağ yaylaqlarında idilər və günlərini eyş-işrətdə keçirirdilər. Türklərin Çuxursəəddən sıxışdırıb çıxardığı Məhəmməd xan Toxmaq da öz qoşunu ilə burada onlara qoşuldu. Onlar yaylaqda ikən Osman paşanın basqın xəbərini aldılar və bu, şah sarayında çaşqınlığa səbəb oldu. İndi düşmən yaxında idi və artıq gerçəkliyi inkar etmək mümkün deyildi. Buna görə də Qarabağdan bütün vilayətlərin hakimlərinə fərmanlar göndərildi və onlara qoşunlarla Təbrizə gəlmək barədə göstəriş verildi.

Lakin qızılbaş əmirlərinin əksəriyyəti şah qərargahının tələbinə tabe olmaqdan imtina etdi (Məhəmməd xan Təkəli, Vəli xan Təkəli, Rey hakimi Müseyib xan Şərəfəddin oğlu Təkəli və başqaları). Onlar bu çağırışa nəinki cavab vermədilər, habelə sonralar türklərlə vuruşan Həmzə Mirzənin qoşunlarına qarşı hərbi əməliyyatlara başlamaqla türklərlə əlbir çıxış etmiş oldular. İskəndər bəy Münşi göstərir ki, “həmin iki tayfadan (türkman və təkəli – O.Ə.) heç bir adam, Fars, Kirman və İraq hakimlərinin qoşunları da şahın hərbi düşərgəsinə gəlmədilər”[218].


downloaded from KitabYurdu.az

Osman paşa 1585-ci ilin avqustun 12-də Ərzurumu tərk etdi və Panisabad-Çaldıran-Xoy-Mərənd-Sufiyan-Təbriz istiqamətində hərəkətə başladı[219].

Şah öz saray adamları ilə Qarabağdan cənuba doğru hərəkət etdi və Bazarçaydan keçərək Naxçıvana yola düşdü. Yolda ikən məlumat alındı ki, Osman paşa Mərənddədir və tələsik Təbrizə doğru hərəkət edir. Buna görə də Həmzə Mirzə 20 min nəfərlik qoşunla ona qarşı göndərildi. O, Ordubaddan keçib Dızmar Üzümdülə tərəf hərəkət etdi. Sufiyan ərazisində Məhəmmədi xan Toxmağın başçılığı ilə qızılbaşların öndə gedən dəstəsi düşmən hissələri ilə üz-üzə gəldi. Əvvəlcə qızılbaşlar türkləri böyük itkiyə məruz qoydular. Lakin sonra onların böyük üstünlüyü qarşısında geri çəkilməyə məcbur oldular[220].

Qızılbaşların vəziyyəti pisləşdi.20 min nəfərlik silahlı qüvvə ilə Osmanlıların on dəfə üstün olan, üstəlik də artilleriya ilə yaxşı təchiz olunmuş qüvvələri ilə mübarizə aparmaq mənasız idi. Hərbi şurada daha təcrübəli sərkərdələr mərhum I Şah Təhmasibin nümunəsi əsasında hərəkət etməyi məsləhət görürdülər. Onlar təklis etdilər ki, Təbriz əhalisi Qaradağ qalalarına köçürülsün, şəhər taxılsız və ərzaqsız qalsın. Türk qoşunları Təbrizə daxil olduqdan sonra isə bütün yolları bağlamaqlaşəhərə ərzaq gətirilməsinə yol verilməsin. Beləliklə, onlar belə hesab edirdilər ki, aclıq türk qoşunlarını Təbrizi tərk etməyə və geri çəkilməyə məcbur edər. İskəndər bəy Münşinin göstərdiyi bu daha ağıllı təklif əmirlərin əksəriyyəti tərəfindən bəyənilmədi. Bunun müqabilində şurada “son nəfəsədək” müharibə etmək tərəfdarı olan gənc qızılbaşlar üstünlük təşkil etdi. Onlar israr edirdilər ki, Təbrizdə özünü, öz ailəsini qorumağa və şəhəri müdafiə etməyəqadir olan təqribən 50 min gənc, qoçaq adam vardır. Onların fikrincə, Təbrizin küçələrində maneələr qurmaq və düşməni şəhərə buraxmamaq lazımdır. Təbrizlilərə xüsusi fərmanla təklif edildi ki, öz yerlərində qalsınlar və şəhəri düşmənlərdən müdafiə etməyə hazırlaşsınlar.


downloaded from KitabYurdu.az

Onlara vəd edilirdi ki, qızılbaş qoşunları düşmənə arxadan zərbələr endirməklə bütün vasitələrlə şəhərlilərə kömək edəcəklər. Bundan sonra, Təbriz hakimi vəzifəsində qardaşı Əliqulu xanı əvəz edən Hüseynqulu xan Ustaclıya kömək etmək üçün Pirqeyb xan Ustaclı və Mehdiqulu xan Şamlı min nəfərlik qızılbaş dəstəsi ilə Təbrizə göndərildilər. Onlara küçələrdə maneələr qurmaq, əhalini maneələr yaratmağa cəlb etmək, həmçinin də "kiminsə (təbrizlilərdən – O.Ə.) öz ailəsini şəhərdən çıxarmasına yol verməmək, belə ev sahibini edam, əmlakını isə qarət etmək" əmri verilmişdi[221].

İskəndər bəy Münşi göstərir ki, "şəhərin məhəllələri bölüşdürülmüşdü və hər bir sahənin (rəhnə) müdafiəsi həmin məhəllədən olan pəhləvanlardan birinə tapşırılmışdı. Hər bir maneəyə başçılıq etmək təcrübəli şəxslərə, qızılbaşlardan olan etibarlı şəxsə tapşırılmışdı". Yuxarıda deyildiyi kimi, Sufiyan yaxınlığında qızılbaşların türklərlə ilk toqquşması hicri 993-cü il ramazanın 23 (1585-ci il sentyabrın 18)-də baş vermişdi[222]. Sonrakı gün Osman paşa dayandığı yerdən aralanıb Təbrizin şimalından axan Abşur (türkcə - Acısu) çayının keçidinə yanaşdı. Osmanlı ordusunu Maqsud bəy Zülqədər müşayiət edirdi[223].

Əldə olan məlumatlara görə, Maqsud bəyin türklərin göstərişi ilə Təbriz əyanlarına yazdığı məktubda, onları, öz həyatlarını hifz etmək istədikləri təqdirdə türk sultanına itaət etməyə çağırmışdı[224]. Qəti tələbinə cavab almayan Osman paşa sentyabrın 20 (ramazanın 25)-də Təbrizə qarşı hərbi əməliyyatlara başladı. Əsasən müdafiəsiz qalmış Təbriz sultanın çoxsaylı nizami ordusuna qarşı uğula müdafiə olunmaq iqtidarında ola bilməzdi. Şəhər ələ keçirildi. Lakin düşmən, Təbrizi müdafiə edən sakinlərin türklərlə ilk döyüşlədə göstərdikləri cəsarət və igidlik möcüzələri üzündən dərhal tuta bilmədi. Diyarbəkir hakimi Ciğal oğlunun başçılığı altında 7-8 min nəfərlik ilk dəstə Şotorbanan ("Dəvə çarvadarları") küçəsi ilə şəhərə daxil oldu[225].


downloaded from KitabYurdu.az

Qazi Əhmədin xəbər verdiyi kimi, şəhər maneələrinə qarşı türklərin ilk hücumu onlara müvəffəqiyyət gətirmədi. 170 nəfər itirən türklər şəhərdən nənardakı çıxış mövqelərinə geri çəkildilər. Ertəsi gün səhər, türk artilleriyasının atəşə tutduğu maneələr axşama yaxın yerlə-yeksan edildi. Osmanlı qoşunları küçə döyüşləri apararaq Təbrizə daxil oldular və Sahibabad meydanına qədər irəlilədilər. Bundan sonra mmmüqavimət göstərməyin mənasız olduğunu görən  Pirqeyb xan və Hüseynqulu Sultan özlərinin dəstəsi ilə şəhəri tərk edərək şah qərargahı ilə birləşdilər. Səfəvi hakimləri tərəfindən taleyin ümidinə buraxılmış təbrizlilər daha bir müddət inadla müqavimət göstərdilər. Bir çox sakinlər özlərinin əşya və ləvazimatını əvvəlcədən torpağa basdırdılar. Xilas olmaq ümidi ilə ailələrini də götürüb piyada Təbriz ətrafındakı Sorxab dağında yerləşən qızılbaş düşərgəsinə getdilər. Şəhər əyanları özlərini və əmlaklarını talandan qorumaq üçün qazi Kamran bəy Əvhədinin,  şeyxülislam Mövlana Məhəmməd Əlinin və digər adlı-sanlı şəxslərin daxil olduğu nümayəndə heyətini Osman paşanın yanına göndərdi[226]. Lakin bu, əhalini amansız kütləvi qarət və talanlardan xilas edə bilmədi. Oruc bəy göstərir ki, şəhərlilərin müqavimətindən qəzəblənmiş Osman paşa, Təbrizi qarət etmək üçün öz əsgərlərinin sərəncamına verdi. Qazi Əhməd yazır: "Yeniçərilər həyətləri, evləri gəzir və əllərinə keçənin hamısını götürürdülər"[227]. Təbrizin bir çox gözəl binaları dağıdıldı, gözəl məscidlər istilaçılar tərəfindən kül və daş qalağına çevrildi. Dini, sünni-şiə düşmənçiliyi türklərin Təbrizdə digər əməlləri üçün də  səciyyəvi idi. Salnaməçi qeyd edir ki, şiə ilahiyyatçılarının, mahir xəttatların əli ilə yazılmış çoxlu kitablar məhv edildi. Həmçinin xəbər verilir ki, türklər ən böyük Təbriz bazarı olan "Qeysəriyyənin" "saysız-hesabsız" mallarını qarət etdilər, bazarı isə yandırdılar. Osman paşa Təbrizi tutduqdan sonra məşhur "Həşt Behişt"sarayının terində qala tikdirmək qərarına gəldi. İskəndər bəy Münşi göstərir ki, gecələr "qara camaat" və"pozğun ünsürlər"


downloaded from KitabYurdu.az

(“əcamire və ovbaş”), yəni sadə xalq türklərin çadırlarına hücum edir, düşmənləri qarət edir və öldürür, özlərini türklərin tikdiyi qalaya çatdırıb “onların gündüz düzəltdiklərini gecələr yerlə yeksan edirdilər”[228]. İşğalçılar sakinlərin müqavimətini qırmaq üçün Təbrizdə təqib və qətl üsuli-idarəsi qurdular. Əhali gündüzlər küçələrə çıxmağa cəsarət etmir və etirazını yalnız gecələr ifadə edə bilidi. Lakin təbrizlilər ağır şəraitə baxmayaraq istilaçılarla mübarizəni dayandırmırdılar.

Hadisələrin şahidi olmuş bir nəfərin məlumatına görə, Təbriz hamamlarından birində türk zabiti öldürülmüşdü. Bu barədə paşaya məlumat çatanda o, qəzəbindən coşdu və qoşunlarına əmr etdi ki, şəhər əhalisini kütləvi surətdə qırsınlar. Osmanlı əsgərləri Təbrizin küçələrini ələk-vələk edir, qarşılarına çıxanları qətlə yetirirdilər. Onlar şəhərlilərin evlərinə soxulur, əhalinin əmlakını qarət edir, kişiləri öldürür, çoxlu qadın və uşaqları isə əsir və qul kimi aparırdılar. Müxtəlif mənbələrdən alınmış ziddiyyətli məlumatlara görə, bir gün ərzində qırğın qurbanlarının sayı 15-20 min nəfərə çatmışdı[229]. Təbriz Osmanlı istilası zamanı “İslam şəhərləri arasında” tayı-bərabəri olmayan, əhalisi sıx və abad bir şəhərdən əhalinin tərk etdiyi, yarımdağılmış, ölü şəhərə çevrildi. Belə bir məlumat var ki, müdafiə olunduğu ilk üç gün ərzində Təbriz əvvəlki 300 illik tarixindən daha çox zərər çəkmişdi[230].

Osman paşa Təbrizdə bir aydan bir qədər çox qaldı. Türk qoşunlarını tələsik surətdə şəhərdən çıxmağa vadar edən səbəblər az deyildi. Böyük Osmanlı ordusunu yedirtmək üçün ərzaq yox idi. Yaxınlaşmaqda olan qış (oktyabrın sonu idi) vəziyyətin yaxşılaşacağını vəd etmir, əksinə, çətinliklərin daha da artacağına şəhadət verirdi. Amansız cəza tədbirlərinə baxmayaraq təbrizlilərin ara verməyən mübarizəsi, şəhər ətrafında yerləşdirilmiş düşmən hissələrinə qızılbaş qoşunlarının dəfələrlə etdikləri hücumlar istilaçılrın mənəvi ruhuna ciddi zərbə endirmişdi.

Təbrizin süqutundan sonra Üzümdüldəki şah qoşunları


downloaded from KitabYurdu.az

qərargahında qərara alındı ki, təbrizlilərin mübarizəsinə kömək etmək məqsədilə, düşmənin şəhər ətrafında yerləşmiş canlı qüvvəsinə bir sıra təsirli zərbələr endirilsin və ona dinclik verilməsin. Türklər üzərinə öncə hücum edən qorçibaşı Qulu bəy Əfşar oldu. O, qızılbaş dəstəsi ilə Fəxusfənc çayını keçərək Təbrizə yaxınlaşdı. Osman paşa Cığal oğlunu ona qarşı göndərdi.

Qulu bəyin göndərdiyi ön dəstə qəsdən geriçəkilmə manevri ilə Cığal oğlunun qoşunlarını öz arxasınca, Qulu bəyin pusquda duran əsas qüvvələrinə tərəf gətirdi. Öz ordusunu artilleriyanın köməyindən məhrum etmiş Cığal oğlu,qızılbaş süvarisinin sarsıdıcı hücumuna məruz qaldı. Türklər hücumun qarşısını ala biməyib qaçmağa başladılar. Qızılbaşlar 2000-ə yaxın türkü məhv etdilər[231]. Cığal oğlunun özü isə canını birtəhər qurtara bildi.

Bir neçə gündən sonra Həmzə Mirzə türklərin üzərinə hücum etdi. Qaraman hakimi Murad paşa və Diyarbəkir hakimi Məhəmməd paşanın başçılığı ilə ona qarşı qoşun hissələri göndərildi. Döyüş yenə də Fəxusfənc çayının sahilində baş verdi. Şahrux xan Həmzə Mirzənin əmri ilə düşmən mərkəzinin arxasına keçdikdən sonra, döyüş qızılbaşların qələbəsi ilə başa çatdı. Düşmən dəstələri sayca üstün olmalarına baxmayaraq, pərən-pərən salındı və türklər tələsik geri çəkilməyə başladılar. Hər iki Osmanlı sərkərdəsi – Murad paşa və Məhəmməd paşa qızılbaşlara əsir düşdü. Məhəmməd paşa tezliklə aldığı yaradan öldü. Bu döyüşdə iştirak etmiş Oruc bəyin məlumatına görə, vuruşma zamanı Trabzon paşası və bir sıra digər Osmanlı sərkərdələri həlak olmuşdular[232]. Qızılbaş qoşunları düşməni türklərin əsas qüvvələrinin Çərəndabdakı düşərgəsinə qədər təqib etdilər.

Özlərinin çox da böyük olmayan qüvvələrinə baxmayaraq, qızılbaşlar düşmənin əziyyətini xeyli artırır, ona dinclik vermirdilər. Bütün bu deyilənlər son nəticədə türk hərbi rəhbərliyini geri qaytarmaq üçün tələsməyə vadar etdi. Osman paşanın ağır xəstələnməsi və vəfatı ilə əlaqədar olaraq Cığal oğlu (Sinan paşa)


downloaded from KitabYurdu.az

türk qoşunlarının baş sərkərdəsi təyin edildi. Getməzdən əvvəl türklərin Təbrizdə tikmiş olduqları qalada birillik döyüş sursatı və ərzaqla  Cəfər paşanın başçılığı altında yeddi min nəfərlik hərbi hissə yerləşdirildi. Oktyabrın 29-da  (zülqədənin 5-də) türk qoşunları özlərinin Çərəndabdakı baş düşərgələrini tərk etdilər və geriyə yola düşdülər[233].  Həmzə Mirzə geri çəkilən düşmənin arxasınca hərəkət etdi və onun arxada qalan hissələrinə Şəmbi Qazanda çatdı. Baş vermiş döyüşdə türklər böyük itkiyə məruz qaldılar.  Həmzə Mirzə Tasucaya qədər düşmənin ardınca gedərək ona tez-tez gözlənilməz zərbələr endirdi[234].

## Həmzə Mirzənin Təbrizdəki Osmanlı qalasını ələ keçirmək cəhdləri

Təbrizə qayıdan Həmzə Mirzə öz qarşısında xarabalıqlar gördü. İskəndər bəy Münşi Təbrizi belə təsvir edir: “Zər və mavi rənglə bəzədilmiş bütün evlər, şəkillər çəkilmiş qapılar və pəncərələr çıxarılmış, oduncaq əvəzinə işlədilmişdi”; “Öz gözəl bağları ilə məşhur olan şəhərdə ağac qalmamışdı; hamısını kəsib yandırmaq üçün qala hərbi hissəsinə göndərmişdilər”; “Çoxminli yaraşıqlı binalrdan, orta təbəqədən olan adamın yaşaması üçün yararlı olan bir ev belə salamat qalmmışdı”; “Dükanlar, kaşılarla işlənmiş ikimərtəbəli evlər, hamamlar xarabalığa dönmüşdü...”.

Hər yerdə - küçələrdə, bazarlarda, evlərdə öldürülmüş təbrizlilərin meyitləri qalmışdı. Gediş-gəlişli, “kefli və əyləncəli” şəhər olan Təbriz, tarixçiyə tərk edilmiş, ölü şəhər kimi görünmüşdü. “Bütün bunlara bir dəfə baxmaqla dəhşətdən ürək sıxılırdı”[235].

Qızılbaşların şəhərə daxil olduğundan xəbər tutan əhali şəhərə qayıtmağa və qoşunlarla birlikdə Təbrizi meyitlərdən təmizləməyə, evləri təmir etməyə, yaşayışı qaydaya salmağa


downloaded from KitabYurdu.az

başladı. Hicri 993-994 (1585-86)-cü ilin qışını şahın saray əhli Təbrizdə keçirdi. Səfəvi hərbi rəhbərliyi yaxşı başa düşürdü ki, Təbrizdəki türk hərbi hissəsi ciddi təhlükə təşkil edir və ölkədə gələcək türk hökmranlığının dayaq məntəqəsidir. Buna görə də, Həmzə Mirzə ona sadiq olan əmirlərlə birlikdə qalanı almaq üçün bir sıra inadlı, qızğın, lakin son nəticədə uğursuz cəhdlər etdi. Qızılbaşların topları yox dərəcəsində idi. Bunlarsız isə qalaya hücum etmək çətin idi. Onların əlində olan yeganə top Göyərçinlik qalasından Təbrizə gətirilmişdi. Bu topun köməyilə bürclərdən birinin xeyli hissəsi dağıdılmışdı[236]. Lakin türklər qəfil həmlə ilə qızılbaşları topdan uzaqlaşdırdılar və topu çəkib qalaya apardılar. Yeni topu hazırlamağa iki ay vaxt sərf olundu. Lakin keyfiyyətinin pisliyi üzündə nə birinci, nə də ikinci top istifadəyə yaramadı. Qala uğrunda döyşlərdə qızılbaşlar özlərinin ən qabiliyyətli sərkərdələrindən birini – zülqədər tayfasının başçısı Şahrux xan möhrdarı itirdilər. Qiyamçı türkman və təkəli əmirləri gəlib çıxanadək qalanı ələ keçirməyə cəhd göstərən Şahrux xan ehtiyatsızlıq etmiş, kiçik bir dəstə ilə qala divarlarına yaxınlaşmışdı. Bu vaxt türk dəstəsi gözlənilmədən qaladan çıxdı və Şahrux xana hücum etdi. Onun adamları (o cümlədən də oğlu) qızğın döyüşdə qılıncdan keçirildilər. Şahrux xan isə yaralı halda əsir düşdü. Daha bir səbəb qızılbaşların qalanı ələ keçirməsinə və düşmənin hərbi hissəsinin məhv edilməsinə mane oldu. Məsələ bunda idi ki, qızılbaşlar Təbrizə qayıtdıqları vaxtdan etibarən, şahzadənin gizli əmri ilə Həsən padşah məscidində lağım atmaq, yeraltı yolla qala bürclərindən birinin altından içəri daxil olmaq və qapını açmaq istəyirdilər. Bir neçə ay keçdikdən sonra lağımatanlar qala divarlarına çatdılar. İşləri tamamilə başa çatdırmağa cəmisi bir neçə gün qalırdı. Lakin bədbəxtlikdən qorçibaşı Qulu bəy Əfşarın xəyanəti və qalaya – türklərin yanına qaçması, qızılbaşların planlarının həyata keçirilməsinə mane oldu. Qulu bəy Cəfər paşaya yeraltı yol barədə danışdı. Mühasirədə qalanlar lağımın sonunu


downloaded from KitabYurdu.az

tapdılar, onu torpaqla doldurdular, bununla da, həmin tərəfdən olan təhlükəni aradan qaldırdılar. Qalanı ələ keçirmək cəhdində ümidsizliyə qapılan Həmzə Mirzə günün günortaçağı qala divarlarına hücum etmək barədə öz qoşunlarına əmr verdi. Qızılbaşlar qala divarlarına bərkidilən nərdivanlarla qalaya soxulmaq üçün əbəs cəhdlər göstərirdilər. Minlərlə adamın həyatı bahasına başa gələn bu inadlı və ümidsiz qızılbaş hücumu bir neçə gün davam etdi[237].

Bu vaxt qiyamçı türkman və təkəli əmirlərinin Təbrizə yaxınlaşması xəbərinin alınması, Həmzə Mirzəni Osmanlı qalasının hərbi hissəsi ilə mübarizəni dayandırmağa məcbur etdi. Bununla əlaqədar olaraq türklərin tərəfinə keçmiş, öz xidmətləri ilə məşhur olan, dövlət işlərində böyük nüfuz ilə seçilən sərkərdənin – Qulu bəy Əfşarın xəyanətinin səbəbini aydınlaşdırmaq lazımdır. Məsələ bunda idi ki, Qulu bəy Məhəmməd xan Türkman və başqaları ilə birlikdə Həmzə mirzənin anasının ölümü ilə nəticələnən qəsddə iştirak etmişdi. Şahzadə anasının qisasını almaq üçün xeyli vaxt idi ki fürsət axtarırdı. Şahzadə tez-tez açıq-aşkar anasının qatillərini hədələmişdi və şahzadənin ona olan qərəzli münasibəti Qulu bəy üçün sirr deyildi. İndi isə qiyamçılar yaxınlaşdıqca Əliqulu xan Fəth oğlu Ustaclı və onun tərəfdarları Həmzə Mirzəyə belə bir fikir təlqin edirdilər ki, Məhəmməd xan Türkmanın keçmiş müttəfiqi Qulu bəy qorçibaşı təhlükəlidir, onu məhv etmək lazımdır. Şahzadə buna məmnuniyyətlə razı oldu. O, gizli olaraq qorçibaşı vəzifəsinə Təhmasibqulu Sultan Ərəşli Əfşarı təyin etdi və Qulu bəyi öldürməyi ona tapşırdı. Bu barədə qardaşı oğlu Cabbarqulu bəydən məlumat alan şah qvardiyasının keçmiş rəisi, xilas olmaq üçün düşmən tərəfinə keçməkdən başqa bir yol tapmadı[238].

## Türkman və təkəli əyanlarının qiyamı


downloaded from KitabYurdu.az

Hökumət əleyhinə çıxışda Məhəmməd xan Türkmana və Vəli xan Təkəliyə Fars hakimi (əmir əl-üməra) Ümmət xan Zülqədər də qoşuldu. Beləliklə, şah Məhəmmədin və onun oğlu Həmzə Mirzənin qarşısında indi türkman, təkəli və zülqədər tayfalarının birləşmiş qüvvələri dururdu. Həm də qiyamçı qoşunlar artıq mərkəzi hökumətin nəzarəti altında olan qüvvələrdən üstün idilər. Buna görə də şah və Həmzə Mirzə qiyamçı əmirlərlə toqquşmadan çəkinməyə və barışıq əldə etməyə cəhd göstərdilər. Onlar öncə ustaclı və şamlı əmirlərinin rəhbər vəzifələrdən qovulmasını şərt kimi irəli sürdülər[239]. Həmzə Mirzənin qiyamçıların arasına təfriqə salmaq cəhdi baş tutmadı. Qiyamçılar danışıqlar aparmaq üçün onların yanına göndərilmiş Həbib bəy Zülqədəri öldürdülər, digər bir neçə vasitəçini isə girov saxladılar. Qiyamçı əmirlər Təbrizin dörd fərsəxliyində (24-28 km) yerləşən Səidabad adlı yerə yaxınlaşanda şah qoşunlarında xidmət edən türkman və təkəli tayfalarından olan döyüşçülər qiyamçıların düşərgəsinə getməyə, öz tayfalarına qoşulmağa başladılar. Həmzə Mirzədən narazı olanlar da onu tərk etdilər. Təhlükəli vəziyyət yarandı, şah və Həmzə Mirzə Əmir xan Türkmanın tikdirdiyi möhkəmləndirilmiş Təbriz qalasında gizləndilər[240]. Qiyamçı əmirlər şahzadənin adına göndərdikləri məktubda Əmir xanın qatillərinin, ilk növbədə Əliqulu xan Fəth oğlunun onlara təslim olunmasını tələb etdilər. Bu qəti tələbdən qəzəblənmiş Həmzə Mirzə ustaclı və şamlı əmirlərinə qiyamçılara qarşı döyüşə başlamağı əmr etdi. Özü isə şah Məhəmmədlə onların ardınca getdi. Lakin döyüş olmadı. Qiyamçılar öz həyatları üçün təhlükə olmadan şah qoşunları ilə birləşmək, birlikdə Təbrizdəki Osmanlı qalasına hücum etmək naminə, öz tələblərini Əmir xanın qatillərini saraydan çıxarmaq və onları ucqar vilayətlərə göndərməklə məhdudlaşdırdılar. Lakin Həmzə Mirzə qiyamçıların bu mülayim təklifini də rədd etdi[241]. Ertəsi gün Təbrizdə, şah düşərgəsində gözlənilməz münaqişə baş verdi. Əsasən "böyük qorçilər" sırasına daxil olan zülqədər, əfşar,


downloaded from KitabYurdu.az

qacartayfaları əyanlarından bir dəstəsi açıq-aşkar surətdə şahzadənin qiyamçıların tələıblərinə güzəştə getməməsindən narazılıqlarını bildirməyə başladılar. Onlar qeyd etdilər ki, Əliqulu xan Fəth oğlu və Məhəmməd Sarızolaqdan ötrü qızılbaş tayfaları arasına müharibə vəziyyətinə gəlib çatmış ədavət salmaq olmaz. Qorçilər soruşurdular: axı niyə tam tərkibdə gəlmiş təkəli, türkman və zülqədər tayfaları öz şahlarına xidmət etməyə imkan tapıb, türklərin yurd saldığı Təbriz qalasını almağa kömək göstərə bilmirlər?! Qorçilər döyüşçülər və şəhərlilər kütləsinin müşayiəti ilə Əliqulu xanın evinə keçdilər və evi talan etdilər. Bu, şəhərin başqa məhəllələrində ustaclı əyanlarının evlərinin qarət edilməsi üçün işarə rolunu oynadı. Sonra qorçilər Həmzə Mirzənin iqamətgahına gəldilər və onun pəncərələri qarşısında hədə dolu sədalarla nifaq təqsirkarlarının təslim olunmasını tələb etdilər. Qorçilərin "həyasızlığından" hiddətlənmiş Həmzə Mirzə əlində siyirmə qılınc saraydan çıxdı və iğtişaşların əsas baislərinə ölümcül zərbələr endirdi. Yerdə qalanlar dağılışdılar[242].

Həmin vaxtda şah Məhəmmədi qəti olaraq sıxışdırmış, ölkəni tək idarə edən Həmzə Mirzənin barışmazlığına əmin olmuş türkman və təkəli əmirləri onu taxtdan salmaq üçün silahlı mübarizə aparmağa başladılar. Bunun üçün onlar Təbrizdə, şah sarayında olan şahzadələrdən birini oğurlayıb şah elan etmək qərarına gəldilər.

Qiyamçılar şah ailəsinin yerləşdiyi Əmir xanın qalasında keşik çəkən qoşunların arasındakı tərəfdarlarının vasitəsilə Həmzə Mirzənin kiçik qardaşı şahzadə Təhmasibi oğurlaya bildilər. On yaşlı şahzadəni kəndirlə yarıyuxulu halda qala bürcündən aşağıda gözləyən atlılara çatdırdılar. Onlar isə Təhmasibi qiyamçıların düşərgəsinə gətirdilər. Əmirlər yubanmadan gənc şahzadə ilə dövlətin paytaxtı Qəzvinə yollandılar.

Səhər Təhmasib Mirzənin yoxa çıxması xəbəri yayılan kimi bütün saraya çaxnaşma düşdü. Ustaclı və şamlı əmirləri tərəfindən


downloaded from KitabYurdu.az

şah Məhəmmədi, öz kiçik oğlunu qaçırmaqda təqsirləndirən şayiələr meydana çıxdı. İskəndər bəy Münşinin göstərdiyi kimi, Həmzə mirzə buna inandı. Yazıq şah bu barədə heç nə bilmirdi. Həmzə Mirzə ondan incidi. Bu şübhələrdən ötrü o fakt əsas götürüldü ki, şahın anası türkman tayfasından idi.

Həmzə Mirzə qiyamçıların niyyətinə mane olmaq üçün təcili tədbirlərə əl atmaq qərarına gəldi. O, Məhəmmədi xan Toxmaq Ustaclı və İmamqulu xan Qacarı qoşunların bir hissəsi ilə Təbrizdə qoydu. Onlara şah Məhəmməd və qardaşı Abutalıb Mirzə barəsində qayğı göstərmələrini tapşırdı və Təbrizdəki Osmanlı qalasının mühasirəsini davam etdirməyi onlara həvalə etdi. İsmayılqulu xan qoşun dəstəsi ilə qiyamçıları qabaqlayıb paytaxtı tutmaq və Həmzə Mirzənin qoşunları gəlib çıxanadək oranı əldə saxlamaq üçün Tarom və Xalxaldan keçən yolla Qəzvinə göndərildi[243]. Həmzə Mirzə özü isə sayı 3 min nəfərdən artıq olmayan qüvvə ilə İsmayılqulu xanın ardınca, Qəzvin istiqamətində yola düşdü. O, öz yolundan kənara çıxaraq Ərdəbilə gəldi ki, özünün çox da böyük olmayan qüvvələrini şeyxavənd tayfasından olan qədim Səfəvi müridlərinin hesabına artırsın. Lakin Həmzə Mirzə uğursuzluğa düçar oldu. Tarom ərazisində Qızılüzən çayının daşması nəticəsində qoşunun azuqəsi məhv oldu. Şahzadə öz dəstəsini dağılmaqdan qorumaq üçün daş-qaşını "qazilər" arasında bölüşdürməli oldu.

Xəbər alındı ki, əvvəlcə göndərilmiş İsmayılqulu xan qiyamçılara müqavimət göstərmədən Qəzvini tərk etmiş və Deyləmə çəkilmişdir. Qiyamçılar maneəsiz olaraq Qəzvinə daxil oldular və Təhmasib Mirzəni atasının varisi elan edərək şah sarayında yerləşdirdilər. Həmzə Mirzəyə xidmət etmiş bir çox əmirlərin və başqa əyanların əmlakı qarət edildi.

Qazi Əhmədin xəbər verdiyi kimi, bu yolla təqribən 100 min tümən məbləğində pul və əmlak mənimsənildi[244]. Təhmasibin yanında vəzir, mustoufi və başqa vəzifəli şəxslər təyin edildi[245].


downloaded from KitabYurdu.az

Vəkil vəzifəsi türkman və təkəli əyanları arasında nifaq obyektinə çevrildi. Nəhayət, Müseyib xan Şərəfəddin oğlu Təkəli vəkil təyin edildi. Məhəmməd xan Türkman Təhmasib Mirzənin lələsi və əslində ölkənin tam hakimiyyətə malik hökmdarı oldu. Təhmasib Mirzənin taxta çıxması xəbəri ilə İsfahana və İraqın digər yerlərinə adamlar göndərildi[246].

İsmayılqulu xan Taromda öz dəstəsi ilə Həmzə Mirzəyə qoşuldu. Sultaniyyədə Rey və Kürdüstan əmirləri, habelə əfşar və bayat tayfalarından olan döyüşçülər şahzadənin qoşununa daxil oldular. Qoşunun sayı 7 min nəfərə çatdı. Qiyamçılar şahzadənin yaxınlaşması xəbərini alanda 10 min nəfərdən çox qoşunla Qəzvindən çıxdılar və onu qarşılamağa yollandılar. Sainqala adlanan yerdə döyüş baş verdi. Sayca üstün olmalarına baxmayaraq qiyamçılar darmadağın edildilər. Qiyamçıların başçıları - Məhəmməd xan Türkman və Müseyib xan Təkəli əsir alındılar. Vəli xan isə vuruşma zamanı həlak oldu. Qiyamçı əmirlərin əlində oyuncağa çevrilmiş Təhmasib Mirzə Ələmut qalasına salındı[247]. Hicri 994 (1586)-cü ilin yayında tayfaların həmin təhlükəli qiyamını çətinliklə yatıran Həmzə Mirzə Qəzvindən geriyə - Təbrizə tərəf hərəkət etdi. Şahzadə Təbrizdəki türk hərbi hissəsinə qarşı mübarizə aparmaq üçün Səfəvilərə sadiq tayfaları öz bayrağı altında toplamağa cəhd göstərdi. Lakin bu dəfə də onun çağırışına cavab verən az oldu. Türkman və təkəli tayfalarının bir hissəsi qılıncdan keçirilmiş, digər hissəsi isə ölkəyə səpələnmiş, yaxud Osmanlı Türkiyəsinə qaçmışdı. İsfahan, Yəzd, Kirman və Kuh Giluyə vilayətlərində yaşayan əfşar tayfası türklərin tərəfinə qaçmış başçıları Qulu bəyin xəyanəti ucbatından Həmzə Mirzədən ehtiyat edir və bu bəhanə ilə Təbrizə gəlməkdən imtina edirdilər. Xorasanın şamlı və ustaclı əmirləri əslində Həmzə Mirzənin əleyhinə çıxdılar və onun qardaşı Abbas Mirzənin taxt-tac hüququnu müdafiə etdilər. Buna görə də onların köməyə gələcəyinə inanmağa dəyməzdi. Bütün bu səbəblərə görə,


downloaded from KitabYurdu.az

Sultaniyyədə qoşunların toplaşmasını gözləyən Həmzə Mirzə ətrafındakı 10 min nəfərlik qüvvə ilə kifayətlənməli oldu və onlarla birlikdə Təbrizə getməyə tələsdi.

Həmzə Mirzə Təbrizdə yenidən türklərin müqavimətini qırmağa və Osmanlı ordusu yaxınlaşana qədər qalanı almağa cəhd göstərdi. Qızılbaşlar topların atəşi ilə qalanın bir neçə bürcünü yerlə-yeksan etdilər. Türklərin vəziyyəti həddən artıq pisləşdi. Qızılbaşlar hətta lağıma su buraxmağa cəhd göstərdilər. Lakin qalanın müdafiəçiləri su axınını qaladan uzaqlaşdıra bildilər. Elə görünürdü ki, türklər qızılbaşların hücumuna davam gətirməyib mübarizəni dayandıracaqlar. Lakin bu zaman Fərhad paşa başda olmaqla Osmanlı ordusunun Təbrizə yaxınlaşdığı barədə xəbər alındı[248]. Buna görə də Həmzə Mirzə mühasirədən əl çəkib Üzümdül və Dizmar istiqamətində geri çəkildi. Fərhad paşa şəhərə daxil oldu, qalanı döyüş sursatı və birillik azuqə ilə təchiz etdi, hərbi hissənin tərkibini dəyişib geriyə döndü. Fərhad paşa hicri 994-cü ilin şəvvalı (1586-cı ilin sentyabr-oktyabrında), Təbrizdə olduğu zaman Əliqulu xana və əmirlərin yanına öz səfirini göndərərək barışıq təklif etdi.

Sultan türklərin tutmuş olduqları bütün Səfəvi mülklərinin danışıqsız onların əlində qalması şərtilə sülh təklif edirdi. Həmə Mirzə əmirlərin müqavimətinə baxmayaraq, sülh şərtlərini yalnız Təbrizin Səfəvilərdə qalması şərtilə qəbul etdi. Həmzə Mirzə özünün sərəncamında olan kiçik qüvvələrlə düşmənin tutmuş olduğu Şirvanı, Şəkini, Ermənistanı və Azərbaycanın cənub hissəsinin xeyli ərazisini geri alacağına ümid bağlaya bilməzdi. İskəndər bəy Münşinin göstərdiyi kimi, sülh Səfəvilərə ona görə lazım idi ki, onlar qalan mülklərini, xüsusən də hərbi əməliyyatlar davam etdiriləcəyi halda labüd olaraq itirə biləcəyi Azərbaycanın cənub hissəsinin şərq vilayətlərini və İraqı əldə saxlaya bilsinlər.

Fərhad paşa "xoşbəxt şahzadələrdən" birini sultanın sarayına göndərməyi təklif etdi və bildirdi ki, sultan ona "Təbriz


downloaded from KitabYurdu.az

vilayətini verə bilər”. Belə bir tələbin alçaldıcı olduğuna baxmayaraq, Həmzə Mirzə kiçik oğlu Heydər Mirzəni İstanbula göndərməyi qərara aldı.

Şah və Həmzə Mirzə İmamqulu xan Qacarın hakimiyyəti altında qalmış Qarabağa yollandılar. Gəncədə Həmzə Mirzə Osmanlı elçisi Vəli bəy çaşnikirbaşını lütfkarlıqla qəbul etdi və vəd verdi ki, yaxın vaxtda təcrübəli elçinin müşayiəti, məktublar və hədiyyələrlə öz oğlunu İstanbula göndərəcəkdir.

Fərhad paşanınh yanına göndərilən eşikağası Əhməd bəy Ustaclı şahın təklif edilmiş şərtlərlə sülh bağlamaq arzusunda olduğunu təsdiq etdi[249]. Bundan sonra Həmzə Mirzə dinc tənəffüsdən istifadə edərək daxildəki işləri qaydaya salmaq, mərkəzi hakimiyyəti möhkəmləndirmək, mübarizəyə başlamaq və türkləri ölkədən qovmaq üçün qüvvələri toplamaq işinə girişmək istədi. Lakin ona bu niyyətini həyata keçirmək nəsib olmadı. O, Gəncədən bir qədər aralıda özünün Xudaverdi adlı şəxsi dəlləyi tərəfindən öldürüldü. Xoy ermənisi olan dəllək, Həmzə Mirzənin siyasətindən narazı qalan qızılbaş əmirlərinin əlində yalnız bir alət idi. Hakimiyyəti tamamilə öz əlində toplayıb dövlət işlərində əmirlərin rolunu məhdudlaşdırmağa cəhd göstərən Həmzə Mirzənin güclü şəxsiyyət olması onları qane etmirdi[250].

## Azərbaycan Səfəvilər dövlətinin dağılması və Osmanlı imperiyasının Azərbaycanı istila etməsi

Həmzə Mirzənin ölümündən sonra Səfəvilər dövlətini fəlakətə gətirib çıxarmış ara müharibələri və feodal özbaşınalığı dövrü başlanır.

Şah Məhəmməd Xudabəndə dövlət işlərini öz əlinə almaq və ölkəni yaxınlaşmaqda olan daxili parçalanmadan və genişlənən düşmən işğalından xilas etmək üçün cəhdlər göstərdi. Lakin bu vəzifə


downloaded from KitabYurdu.az

özünün azyaşlı oğlanları ilə qızılbaş əyanlarının əlində oyuncağa çevrilmiş, zəif iradəli şahın bacaracağı iş deyildi. Əyanların özlərinin və bir-biri ilə düşmənçilik edən dəstələrinin arasında çəkişmə başlandı. Həmzə Mirzənin ölümündən dərhal sonra əmirlər onun iradəsinin əksinə olaraq Şah Məhəmmədi, oğlu Abutalıb Mirzəni varis kimi tanımağa məcbur etdilər. Məlumdur ki, bu, on üç yaşlı oğlanın adından dövləti özlərinin idarə etməsi məqsədi ilə edilmişdi. Hakimiyyət əslində şahzadənin lələsi Əliqulu xan Fəth oğlu Ustaclının və İsmayılqulu xan Şamlının əlinə keçdi ki, onlar da yüksək vəzifələri öz qohumları arasında bölüşdürdülər

Həmzə Mirzənin ölməsi və saraydakı yeni təyinatlar xəbəri əyalətlərdə həyəcanlara və qiyamlara səbəb oldu.Qızılbaş əmirləri arasında Şah Məhəmmədin simasındamərkəzi hakimiyyətlə hesablaşan adam çətin tapılardı. Qızılbaş əmirlərinin əsas kütləsi Qəzvin sarayından üz döndərib Abbas Mirzəni şah kimi irəli sürən Xorasan əmirlərinin tərəfinə keçdi.Keçmişdə Abbas Mirzənin düşməni və şah sarayına münasibətdə müsbət mövqedə olmuş Murtuzaqulu xan Pornak türkman tayfası ilə, Kaşan hakimi Məhəmməd xan Türkmanın oğlu Vəlican xan, əfşar tayfasından olan Kirman və Yəzd hakimləri, İsfahanda və Kuh Giluyədə hakimiyyətdə olan ərəşli və əfşar tayfalarının əmirləri onların arasında idi. Farsda zülqədər tayfasının başçıları özlərini Abbas Mirzənin tərəfdarları elan edərək, onlara Şah Məhəmməd tərəfindən təyin olunmuş hakimi, Şiraz şəhərinin girəcəyində öldürdülər. İskəndər bəy Münşinin dediyinə görə, Azərbaycanın cənub hissəsində özbaşınalıq o dərəcəyə çatdı ki, feodallar "özlərini şahın fərmanı və hökmü ilə bağlı hesab etməyərək" vilayətlərdə hakimiyyəti ələ keçirməyə başladılar.Burada, habelə Səfəvilər dövlətinin digər vilayətlərində - İraq, Fars, Kirman, Kuh Giluyə və Xuzistanda hərbçi adamların ("sipahiyan") hökmranlığı üzündən rəiyyətin vəziyyəti tamamilə pisləşdi[252].


downloaded from KitabYurdu.az

Türk komandanlığı Həmzə Mirzənin ölümündən, kəskin ziddiyyətlərinqızılbaş əmirlərinin çəkişmələrinin didib parçaladığı Səfəvilər dövlətinin ağır daxili vəziyyətindən tezliklə istifadə etdi. Təbrizdəki türk qalasının qalabəyisi Cəfər paşa Təbrizdən çıxaraq, nəinki onun ətrafındakı yerləri, habelə Azərbaycanın cənub haissəsindəki bir çox əraziləri də ələ keçirməyi mümkün saydı[253]. Kürd əmirlərinin köməyi ilə Cəfər paşa Ərdəbildən Təbrizə hərəkət edən qızılbaş dəstəsini darmadağın edib geri çəkilməyə məcbur etdi. Düşmənin bu müvəffəqiyyəti Qaradağ hakimi Xəlifə Ənsarın oğlu Şahverdi xanın xəyanət etməyinə gətirib çıxardı. O, sultana öz itaətkarlığını bildirdi. Bunun nəticəsində Ordubad, Mərənd, Dizmar, Gərgər və qonşuluqdakı ərazilər Cəfər paşanın əlinə keçdi[254]. Yenə də hicri 996 (1588)-cı ildə Sinan paşa (Cığal oğlu) otuz minlik qoşunla Bağdaddan Həmədana yeridi və qızılbaşların tərk etdiyi Nəhavəndi döyüşsüz ələ keçirdi. Sinan paşa qalada iki min nəfərlik hərbi hissə yerləşdirərək geri qayıtdı. Qızılbaşların qalanı geri qaytarmaq cəhdi uğursuzluqla nəticələndi. Onlar məğlubiyyətə uğradılar. Başçıları olan Həmədan bəylərbəyisi Qorxmaz xan Şamlı isə əsir düşdü[255].

Bu zaman sultan qoşunları o vaxta kimi Məhəmməd xan Ziyad oğlu Qacarın əldə saxladığı Qarabağı tutdular. Gürcüstandan keçib gələn Fərhad paşa Gəncə və Bərdəyə daxil oldu, burada da Osmanlı hərbi hissəsini yerləşdirdi. Qarabağ Osmanlı qoşunları tərəfindən talan edildi. Türklərin darmadağın etdiyi qacar və iyirmi dörd tayfaları Arazın cənub sahilinə geri çəkildilər. Bunun ardınca Naxçıvan tutuldu[256].

Beləliklə, 1586-1589-cu illərdə demək olar ki, bütün Azərbaycan tədricən Sultan III Muradın orduları tərəfindən tutuldu. Özbək hakimlərinin Xorasana basqınları türklərin müvəffəqiyyətlərinin əhəmiyyətli dərəcədə yüngülləşdirmişdi. Qəzvində hakimiyyətə gələn Səfəvi şahı I Abbas dövlətin ağır vəziyyətə düşdüyünü nəzərə alaraq, Osmanlı Türkiyəsi ilə hələ


downloaded from KitabYurdu.az

Həmzə Mirzənin başlamış olduğu sülh danışıqlarını davam etdirməyə tələsdi. Səfəvilər özlərinin qalan mülklərini saxlamaq üçün sultanın sərt sülh şərtlərini qəbul etməyə məcbur oldular. 1590-cı il İstanbul sülhünə görə Azərbaycandan[257]əlavə, Cənubi Qafqazın digər əraziləri, hyabelə İranın qərb vilayətləri (Nəhavənd, Luristan, Şəhrizur) Osmanlı Türkiyəsinə verildi[258].

Beləliklə, XVII əsrin əvvəllərinə qədər davam etmiş Osmanlı Türkiyəsi tərəfindən Azərbaycanın istilası zamanı Azərbaycan nəhayətsiz müharibələrdə tamamilə talan edildi və müflisləşdi, ölkənin iqtisadiyyatı sarsıldı. Türk feodallarının ölkədə 20ilə yaxın ağalıq etməsi onun sərvətlərinin talan edilməsinə, iqtisadi həyatın tam şəkildə pozulmasına gətirib çıxardı. Buna görə də Azərbaycan I Şah Abbas tərəfindən geri alındıqdan sonra da Səfəvilər dövləti sistemində özünün əvvəlki aparıcı sosial-iqtisadi rolunu saxlaya bilmədi. Bu rol İranın daxili vilayətlərinə keçmiş oldu.

Bundan başqa, Azərbaycan feodal əyanları və qızılbaş tayfaları xarici və daxili müharibələr gedişində öz tərkiblərinin xeyli hissəsini itirərək xeyli zəiflədilər. Azərbaycan feodalları XVII əsrdə Səfəvilər dövlətində özlərinin əvvəlki, hökmran mövqelərini saxlaya bilmədilər və İran feodalları tərəfindən sıxışdırıldılar. Buna baxmayaraq onlar mərkəzi hökumətin daim hesablaşmağa məcbur olduğu zəhmli qüvvə kimi qalmaqda davam etdilər.

# V FƏSİL

## XVI ƏSRDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

### Kənd təsərüffatı


downloaded from KitabYurdu.az

Azərbaycan monqol qəsbkarlarının istilaları və hökmranlığı dövründə əaslı zərbəyə məruz qalmış ölkələr sırasında idi. Monqol istilası dövrünün iqtisadi fəlakəti, Azərbaycanda feodal cəmiyyətinin sonrakı inkişafına da mənfi təsir göstərmiş, onda mürtəce ənənələri gücləndirmiş və təsbit etmişdi[1].

Əgər XV əstin birinci yarısında ölkənin kənd təsərüffatı nisbi yüksəliş dövrü keçirmişdisə, artıq XV əsrin son onilliklərində cənub vilayətlərində, Ağqoyunlu dövlətində mərkəzi hakimiyyətin zəifləməsi və viranedici feodal ara müharibələri nəticəsində yenidən dağıntı və tənəzzül mərhələsinə qədəm qomuşdu. XV əsrin sonunda burada, müntəzəm surətdə on minlərlə insan həyatını özü ilə aparan dağıntı və aclıq baş verirdi. Bu, məhsulsuzluğun, kənd təsərüffatı istehsalının kəskin surətdə azalmasının, geniş kəndli külələrinin müflisləşməsi və dilənçiləşməsinin nəticəsi idi[2]. Feodalların yalançı vədlərinə aldanaraq ara müharibələrinə cəlb edilən kəndli kütləsinin məhv olması əkinçiliyin, bütövlükdə ölkənin kənd təsərüffatının vəziyyətinə fəlakətli təsir göstərirdi. Deyilənləri, Azərbaycanın şimal-şərq hissəsinə, Şirvana aid etmək olmaz. Burada hakimiyyətdə olan Şirvançahlar sülaləsi diyarın nisbətən sabit inkişafını təmin edirdi[3].

Azərbaycanda Səfəvilərin hakimiyyəti bərqərar olarkən, yəni XVI əsrin əvvəlində ölkə dərin iqtisadi tənəzzül vəziyyətində idi.

İqtisadi həyatı normal hala salmaq və dövlət xəzinəsinə vəsait axınını artırmaq məqsədilə, Səfəvilər ilk vaxtlar, hətta kəndlilərin vəziyyətini müəyyən qədər yüngülləşdirməyə məcbur oldular[4]. I Şah İsmayılın dövründə, XVI əsrin birinci onilliklərində daxili feodal müharibələrinin azalması da kənd təsərüffatının dirçəlməsinə təkan verdi.

XVI əsrdə Azərbaycan əhalisinin əsas məşğuliyyəti, əvvəllərdə olduğu kimi, əkinçilik idi. Kəndlilərin əsas kütləsi dövlətdən, feodallardan və digər torpaq mülkiyyətçilərindən ağır


downloaded from KitabYurdu.az

şərtlərlə icarəyə götürdükləri torpaqlarda yaşayır və zəhmət çəkirdilər. Yalnız torpaq deyil, si ehtiyatları da feodalların mülkiyyəti sayılırdı. Düzənliklərdə əla qış otlaqlarının (Mil və Muğan düzləri), yüksək dağ çəmənlərində yay otlaqlarının (Qarabağ, Azərbaycanın cənub hissəsi) olması sayəsində, Azərbaycan qədimdən köçərilərin də diqqətini cəlb edirdi.

XVI əsrə qədər Azərbaycanda məskən salmış köçəri türk tayfaları tədricən yarımoturaq və oturaq həyat tərzinə keçirdilər. Bu proses olduqca ləng gedir, köçərilərin yuxarı əyanlar təbəqəsindən başlayır, sonra isə yoxsul aşağı təbəqələri əhatə edirdi. Düzdür, Çingiz xan Qanununa görə, köçərilərə şəhər həyatından uzaqda durmaqla köçəri təsərüffatla məşğul olmaq əmr edilirdi. Lakin mədəni cəhətdən inkişaf etmiş ölkələr istila edildikdən sonra Çingiz xan Qanunu özünün ilkin mənasını itirdi. Siyasi hakimiyyətə sahib olan köçəri əyanlar sarayda və əyalətlərdə yüksək və gəlirli vəzifələri ələ keçirir, nəhəng torpaq fondunun mülkiyyətçisinə çevrilir, ticarət (xüsusən xarici) aləmi və şəhər həyatı ilə sıx əlaqələr yaradırdılar. Onlar hakim sinfin nümayəndələri kimi yerli feodallarla, qədim oturaq əyanlarla qohumluq əlaqələrinə girir, tədricən yarımoturaq və oturaq həyat tərzinə keçirdilər. Sıravi köçərilərə gəldikdə, onların bir hissəsi xırda torpaq mülkiyyətçilərinə çevrilir, tədricən oturaqlığa keçirdilər. Digər hissəsi (əsas kütlə) isə feodalların və hökmdarların qoşunlarında hərbi xidmətini davam etdirərəkkəndlilərin məhrum edildikləri imtiyazlardan istifadə edirdilər[5].

Bir çox başqa Şərq ölkələrində olduğu kimi Azərbaycanda da yağıntının azlığı əkinçilik təsərüffatında torpağın süni suvarılmasını zəruri edirdi. Tarlaların və bağların məhsuldarlığı müstəsna dərəcədə suvarma şəbəkəsinin saz halda saxlanmasından, onun müntəzəm surətdə təmizlənməsindən asılı olurdu. Buna görə də yalnız bənd və kanalların birbaşa uçurulması deyil, həm də ümumən ölkənin boş qalması, əhalinin tələf olması və işçi


downloaded from KitabYurdu.az

qüvvəsinin çatışmaması suvarmanın vəziyyətinə və deməli, bütövlükdə ölkənin kənd təsərüffatının məhsuldarlığına mənfi təsir göstərirdi.

İranda olduğu kimi, orta əsr Azərbaycanında da suvarmanın dörd növünü fərqləndirirdilər: 1)arəs (kiçik çay), 2)çay (kanalların və ehtiyat su anbarlarının köməyi ilə), 3)kəhriz (torpaq altında olan suyun xüsusi lağımlar vasitəsilə yerin üstünə çıxarılması) və 4)quyu. Birinci iki növ yerüstü, axırıncı ikisi isə yeraltı suvarma qurğuları ilə bağlı idi[6].

Həmdullah Qəzvini suları suvarma üçün istifadə edilən daha iri çaylar arasında, sahillərində sahələrin intensiv becərildiyi Kür və Araz çaylarının adını çəkir[7]. İlk Səfəvilər dövründə Azərbaycanda suvarma şəbəkəsini genişləndirmək üzrə həyata keçirilmiş tədbirlər haqqında əlimizdə məlumatlar yoxdur. Çoz güman ki, XVI əsrdə də XIV-XV əsrlərdə mövcud olmuş eyni, süni suvarma sistemi fəaliyyət göstərmişdi.

Həmdullah Qəzviniyə görə, Təbriz mahalında 900 kəhriz, çoxlu quyu və Mehranrud çayının sularından yaranmış kanallar var idi[8]. Bu, XVI əsrin sonunun müəllifi – Əmin Əhməd Razinin məlumatı ilə təsdiq edilir: “Öz başlanğıcını Səhənd dağından alan Mehranrud çayı və varlı adamların qazdırdığı doqquz yüzdən artıq kəhrizin hamısı Təbrizin bağ və bostanlarının (suvarılmasına) sərf edilir, lakin indi bu da kifayət etmir”[9]. Bu sayda kəhrizlərin olması Təbriz ərazisində iri bağçılıq təsərüffatının mövcud olduğunu göstərir.

XVI əsrin əvvəlində Təbrizdə olmuş Venetsiya taciri yazırdı ki, “şəhəri bəzəyən çoxsaylı bostanlarda adi kələm, kahı, tərəvəz bitkiləri və Venetsiyada olduğu kimi tərəvəz bitkiləri: şalğam, yerkökü (kiçik), turp, mərzə , cəfəri və rozmarin becərirdilər”[10]. Yenə də həmin tacirin verdiyi məlumata görə, “Təbriz ərazisində çoxlu düyü və bol buğda və arpa vardır”[11]. Əmin Əhməd Razi Ərdəbil və Xalxal mahallarında buğdanın bol olduğunu göstərir[12].


downloaded from KitabYurdu.az

Taxıl məhsulları, buğda və arpa (mənbələrdə “ğəllə” istilahı ilə göstərilmişdir) demək olar ki, Azərbaycanın bütün digər ərazilərində: Muğanda, Arranda, Şirvanda becərilirdi. Venetsiyalı Alessandri Səfəvilər dövlətində taxılın çox bol olduğunu qeyd edir[13].

Azərbaycanda XVI əsrdə pambıq becərilməsi haqqında bilavasitə mənbələrin məlumatı əlimizdə olmasa da, buna şübhə etməmək olar. Hələ Həmdullah Qəzvini Naxçıvan, Azad, Beyləqan, Guştəsfi, habelə Kəhran, Gilan, Fəslun, Miyanə, Qərrud, Dehxarkan, Marağa, Mərənd, Dizmar və s. ərazilərində pambıq yetişdirildiyini göstərirdi[14]. XVII əsr səyyahı Övliya Çələbinin Naxçıvan ərazisində olduğu zaman, orada yeddi pambıq növünün becərildiyi barədə verdiyi məlumatlar da vardır. Bu səyyahın yazdığına görə, Gəncə, Xoy, Şamaxı, Təbriz, Bkı ərazilərindəki sahələrdə pambıq əkilirdi[15].

Kənd sakinlərinin əsas və ən qədim məşğuliyyətlərindən biri, ölkə iqtisadiyyatında mühüm yer tutan bağçılıq və bostançılıq idi. Orta əsrlərə aid mənbələr Azərbaycanda alma, armud, əncir, üzüm, ərik, şaftalı, hulu, heyva, gavalı, nar və başqa meyvələrin, habelə qovun və qarpızın müxtəlif növlərinin yetişdirilməsi barədə məlumatlar verirlər.

Əmin Əhməd Razi Təbriz ərazisində yetişdirilən alma, armud, ərik, gavalı, gilas və üzümün əla dad keyfiyyətlərinə malik olduğunu göstərir[16]. O habelə Ərdəbil, Xalxal, Ordubad, Marağa ərazisində gözəl meyvə bağlarının olduğu barədə məlumat verir[17].

XVI əsrin əvvəllərində Sufiyan, Mərənd, Xoy ərazisində də meyvə bağlarının olması barədə venetsiyalı tacir də məlumat verir[18]. Alessandri göstərir ki, “meyvələr öz keyfiyyətinə və dadına görə dünyanın hər hansı başqa hissəsinin meyvələrindən üstündür”[19].

Azərbaycanda tut ağacının becərilməsi, qədim zamanlardan burada barama qurdlarının yütişdirilməsi və ipəkçiliyin inkişafı ilə bağlı olmuşdur. Tut baramaçılığının xüsusilə geniş yayıldığı


downloaded from KitabYurdu.az

Şirvanda yerli xammal hesabına ipək parça istehsalı çox inkişaf etmişdi. 1562-1563-cü illərdə Azərbaycanı səyahət etmiş A.Cenkinson yazırdı: "Bu dövlətdə (Azərbaycanda – O.Ə.) müxtəlif, yaxşı keyfiyyətli və zəruri mallar –qoz və fındıq, çiyidlik pambıq (cotton – wooll),zəy, təbii yolla istehsal edilən xamna (xam ipək), demək olar ki, ədviyyat və boyaçılıq mallarının bütün növlərini əldə etmək olar. A.Cenkinson davam edir: "Lakin buranın əsas malı, olduqca bol olan xam ipəyin hər cür növləridir"[20]. XVI əsrdə barama yetişdirilən əsas yerlərdən biri Ərəş şəhəri idi. İngilis tacirləri öz qeydlərində əcnəbi tacirlərin xam ipək almaq üçün gəldikləri bu şəhərin adını tez-tez çəkirlər. Azərbaycanda istehsal edilən xam ipək, orta əsrlər Qəzrbi Avropasında geniş yayılmışdı. Venetsiyadan, Florensiyadan və digər şəhərlərdən olan italyan tacirləri özləri üçün böyük mənfəət götürməklə, Azərbaycan ipəyini əla xammal kimi Avropanın iri manufaktura mərkəzlərinə gətirirdilər.

Avropalılar Azərbaycandan gətirilən xam ipəyin aşağıdakı adlarını bilirdilər: "Seta Mamutawa" – "Mahmudabad ipəyi", "seta canare", yaxud "seta channaruia" – "Kanar ipəyi" (?) Qarabağda; "seta Siechi", yaxud "seta Sacchi" – "Şəki ipəyi"; "seta Gangia" – "Gəncə ipəyi", "seta Cavallini" – "Qəbələ ipəyi"[21].

Təəssüf ki, nəzərdən keçirilən dövrün mənbələrində xam ipək yığımının həcmini əks etdirən rəqəm məlumatlarına rast gəlməmişik. İxrac olunan ipəyin miqdarı haqqında, ingilis Artur Edvarın 1566-cı ildə Şamaxıdan yazmış olduğu məktub əsasında fikir yürütmək olar. O, ingilis ticarət şirkətinin rəhbərlərinə yazırdı: "Sizi əmin edirəm ki, burada 50-60 batmanlıq at yükü ilə gürcü ipəyini hesaba almadan, 3000-4000 atı yükləmək olar"[22].

Bizim hesablamalarımıza görə, bu, orta hesabla 200 min batman,yaxud hər tayda 25 batman sayılarsa,8000 taya bərabərdir. Əmin Əhməd Razinin verdiyi məlumata görə, Azərbaycanın ən iri ipəkçilik mərkəzlərindən biri olan Şamaxıda, hər il 20 min xalvara


downloaded from KitabYurdu.az

yaxın ipək satılırdı[23].

XVI əsrdə Azərbaycanın kənd əhalisinin sayı, ölkənin müxtəlif vilayətlərindən dövlət xəzinəsinə vergilərdən daxil olan pulların məbləği haqqında əlimizdə heç bir məlumat yoxdur. Bütövlükdə Azərbaycan kəndlərində natural təsərüfatın hökm sürdüyü şübhəsizdir. Lakin qeyd etmək lazımdır ki, Təbriz, Şamaxı, Bakı, Gəncə, Ərdəbil, Naxçıvan, Marağa və s. kimi şəhərlərin ətraf kəndləri əmtəə təsərüfatı obyektləri idilər. Ölkənin xarici bazara xam ipək göndərən kənd mahallarına bu xüsusilə aid edilə bilər.

Böyük ticarət – sənətkarlıq şəhərlərinin tərəqqi etməsi, bu şəhərlərin bazarlarını öz məhsulu ilə təchiz edən şəhər ətrafı kəndlərdə taxıl, bağçılıq və bostançılıq təsərüfatının inkişafına müsbət təsir göstərir. Həmin kəndlərdəki torpaqlar, şəhər bazarı ilə bağlı olduqlarına görə kənd təsərüfatı məhsulunun artmasında maraqlı olan iri feodal torpaq sahiblərinin mülklərinə daxil idi.

Azərbaycan əhalisinin əsas kütləsi əsasən oturaq həyat tərzi keçirirdi. Onun bir hissəsi isə maldarlıqla məşğul olan köçəri və yarımköçəri həyat tərzi sürən qızılbaş tayfalarından ibarət idi.

1561-ci ildə Cavaddan Ərdəbilə qədər yol boyu müşahidələör aparmış A.Cenkinsonun köçəri tayfaların həyat tərzini təsvir etməsi səciyyəvidir. “Buradan (Cavaddan – O.Ə.) çıxdıqdan sonra biz maldarların məskunlaşdığı barlı-bağatlı ölkədən keçdik. Onlar çox vaxt dağlarda yaşayır. Qışda isə nə şəhərlərə, nə də başqa yerlərə daxil olmadan düzənliklərə enirlər. Öz yerlərini dəyişdirəndə, onlar insanlardan və mal-qaradan ibarət olan karvanlarla səyahət edir, arvad, uşaq və əmlaklarını öküzlərlə aparırlar”[24].

Əlbəttə, Azərbaycanda köçəri və yarımköçəri tayfaların olması, burada feodal cəmiyyətinin inkişafını ləngidirdi. Onlar feodal münasibətlərinin daha geridə qalmış, mürtəce formalarını möhkəmləndirir və müdafiə edirdilər. Köçəri maldarlıq, tayfaların möntəzəm olaraq yay otlaqlarından (yaylaqlar) qış otlaqlarına (qışlaqlara) köçməsi və geri qayıtması ilə müşayiət olunur.


downloaded from KitabYurdu.az

Təsəvvür etmək çətin deyildir ki, belə yerdəyişmələr zamanı kəndlilərin əkinləri hərəkətdə olan böyük mal-qara sürülərinin tapdağı altında qalırdı. Silahlanmış və hərbi işdən yaxşı baş çıxaran köçərilərin özləri də müdafiəsiz əkinçiləri soymağa aludə idilər. Həmin yarımköçəri tayfalardan ibarət olan, öz ailələri və əmlakları ilə müharibəyə gələn Səfəvi qoşunlarının hərəkəti kəndlilər üçün əsl fəlakətə çevrilirdi. Həm də qoşun müəyyən yerdə o vaxta qədər qalırdı ki, həmin müddət ərzində o yerdə qoşunla birlikdə sürülüb aparılan atların, qoyunların və başqa mal-qaranın otlaması üçün yaşıl ot tapılmış olsun[25].

## Feodal torpaq mülkiyyəti

Orta əsrlər Şərqinin bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da feodalların kəndlilər üzərində hökmranlığının iqtisadi əsasını, torpaq üzərində feodal mülkiyyəti təşkil edirdi. Bu iqtisadiyyatın aparıcı növünü əkinçilik deyil, maldarlıq təşkil edirdi. “Asiya istehsal üsulu” konsepsiyasında irəli sürüldüyü kimi mücərrəd deyil, gerçək surətdə mövcud olan feodal mülkiyyəti daha çox dövlət mülkiyyəti formasında çıxış edirdi. Dövlət mülkiyyətinin üstünlük təşkil etməsi başlıca olaraq onunla izah edilirdi ki, dövlət əkinçiliyin və deməli, minlərlə insan həyatının asılı olduğu süni suvarma qurğularının mülkiyyətçisi idi. Torpaq üzərində dövlət mülkiyyəti torpaq vergisi şəklində (xərac, mal-cəhət) xəzinəyə daxil olan məhsul payının (renta-vergi) mənimsənilməsində ifadə olunurdu. Feodalların istifadı etdiyi vergi toxunulmazlığı imtiyazına (yəni vergi ödəməkdən azad olunmaq) dövlətin həmin ərazidə özünün müstəsna səlahiyyətinə güzəşti kimi


downloaded from KitabYurdu.az

baxılırdı.

Müsəlman hüququ torpaq sahibliyinin beş əsas növünü qəbul edirdi:

1. Dövlət torpaqları (xəzinə torpaqları) - əraziyi-divani;
2. Hakim sülalənin şəxsi mülkləri - əraziyi-xassə;
3. Müsəlman ruhani idarələrinə vəsiyyət edilmiş torpaqlar - əraziyi-mövquf (vəqflər);
4. Xüsusi mülkiyyətdə olan torpaqlar – mülklər;
5. Kənd icmalarının mülkiyyəti olan torpaqlar - camaati-deh.

Biz feodalizm dövründə torpaq sahibliyinin adları çəkilən bütün növlərinin Azərbaycanda mövcudluğunu müşahidə edirik, həm də müxtəlif dövrlərdə nəinki bu formalar arasındakı nisbət dəyişirdi, eyni zamanda rəsmi hüquqla nəzərdə tutulmayan yeni torpaq təsisatları da meydana gəlirdi.

Qızılbaşların istilaları nəticəsində dövlətin banisi I Şah İsmayılın (1501-1524) əlinə külli miqdarda torpaq fondu keçdi. Onun oğlu və varisi I Təhmasib Şirvan və Şəkini dövlətin tərkibinə qatdı. Azərbaycanın və onunla həmsərhəd olan ölkələrin torpaqlarının əhəmiyyətli hissəsi əvvəlki sahiblərinin torpaqlarının dünyəviləşdirilməsi və müsadirə olunması, torpaq sahiblərinin qismən məhv edilməsi nəticəsində Azərbycan qızılbaş hərbi feodal əyanlarının və şiə ruhanilərin əlinə keçdi (əsasən şərti torpaq sahibliyi olan soyurğal və tiyul hüququ ilə).

Səfəvilər dövlətinin yaranması ilə dövlət torpaqlarının (divani) və şah ailəsinin şəxsi mülklərinin (xassə) durmadan artması müşahidə edilir. Əgər Ə.Ə.Əlizadənin [26] müəyyən etdiyi kimi, Qazan xandan başlayaraqmonqolların dövründə dövlət torpaqları hesabına xüsusi torpaq sahibliyinin (mülklərin) artması baş verdisə, Səfəvilər dövründə bunun əksi olan bir proses gedirdi[27].

Torpaqların dövlət və saray torpaqlarına ayrılması yeni hadisə deyildir və və yalnız XVI əsrə aid edilə bilməz. V.Bartold qeyd edirdi: “Bütün idarə orqanlarının iki böyük kateqoriyaya – dərgah


downloaded from KitabYurdu.az

(saray) və divana (dəftərxana) bölünməsi müsəlman Şərqinin siyasi təşkilatının bütün sisteminin əsas xəttini təşkil edir”[28]. Lakin Səfəvilər dövründə bu bölgü daha dəqiq və dərin idi. Bu, öz ifadəsini onda tapırdı ki, həmin iki torpaq sahibliyi kateqoriyalarının idarələri “divanı-məmalik” və “divani-xassə” adlanan, hər birinin çoxlu məmurlar ştatı olan iki müxtəlif idarədə mərkəzləşdirilmişdi[29]. Həm də bu torpaqlarda kəndlilərin istifadə etdiyi mülk öz torpaqlarına nisbətən qat-qat artıq idi. Çünki çox da böyük olmayan müddət üçün vəzifəyə təyin edilən məmurlar kəndlilərin müflisləşməsi və dilənçiləşməsi ilə az hesablaşır, həmin vatda daha çox gəlir götürməyə çalışırdılar[30].

Şaha məxsus iri torpaq mülkünün yaranması, əslində Səfəvilərin siyasi hakimiyyət uğrunda siyasi mübarizəsinin başlıca məqsədi, onların hökmranlığının iqtisadi təməli idi. Ə.Rəhmani qeyd edir ki, Səfəvi şahları dövlət torpaqlarından daha məhsuldar vilayətləri özlərinin şəxsi mülklərinə (xassə) daxil edirdilər[31]. I Şah İsmayılın dövründə Ərdəbil mahalından başqa, Azərbaycanın digər vilayətlərinin xassə torpaqları kateqoriyasına daxil olması barədə əlimizdə məlumatlar yoxdur[32]. Lakin məlumdur ki, I Şah Təhmasibin və onun oğlu Məhəmməd Xudabəndənin İsfahan, Fars, Herat vilayətlərində böyük torpaq mülkləri var idi[33]. Bu ondan irəli gəlirdi ki, sərhəd vilayəti olan Azərbaycan, Osmanlı-Səfəvi müharibələri gedişində talanlara və dağıntılara məruz qaldığı halda, hərbi əməliyyat meydanından uzaqda yerləşən mərkəzi İran vilayətləri üçüçn belə təhlükə gözlənilmirdi.

Azərbaycanda öz hakimiyyətini qurmazdan xeyli əvvəl Səfəvilərin burada iri vəqf mülkləri var idi. Sülalənin banisi Şeyx Səfiəddinə, hələ XIV əsrin birinci yarısında Ərdəbil, Marağa, Muğan və Talış ərazilərində vəqf və mülk hüququ ilə onlarla kənd məxsus idi[34]. Sonralar, Səfiəddinin xələfləri – Sədrəddin və Xacə Əlinin vaxtında nüfuzlu təriqətin yardımını əldə etməyə çalışan müxtəlif feodal hakimlərinin hədiyyə verdikləri torpaqlar sayəsində


downloaded from KitabYurdu.az

Səfəvilərin vəqfləri daha da genişləndi[35].

Misal üçün, A.Lembtona görə, “Sülük və sicillət-i Teymuri” əsərinin əlyazmasında göstərilir ki, hicri 1010 (1602-1603)-cu ildə I Şah Abbasın Bəlxə göndərdiyi Bahadır xan orada vəqf fərmanı aşkar etmişdi. Teymurun vəqfnaməsi olan bu sənədə görə, istilaçı (Teymur) Səfəvilər nəslinə vəqf olaraq müəyyən əmlak və torpaq vəsiyyət edir. Burada İsfahan, Həmədan, Talış və Taromda olan mülklər də daxil olmaqla “xalis qızıla alınmış, Sultan Xacə Əlinin kişi nəslinə övqaf olaraq vəsiyyət edilmiş” əmlaklar sadalanır. Sənədə həmin mülkiyyətin əvvəlki sahibləri olmuş müxtəlif tayfa başçılarının, əmirlərin, kəndxudaların adlarının siyahısı əlavə olunmuş və təsdiq edilmişdir ki, bütün bunlar kənardan heç bir təzyiq və zorakılıq olmadan, tam razılıq və sağlam düşüncə ilə satılmışdır. Sövdələşmənin tarixi hicri 806 (1403-1404)-cı ildir.

Vəqfnamədə deyilir ki, “böyük xaqan” bu mülklərin idarə olunmasını Seyid Əli Mənsur ibn Seyid Cəmaləddin ibn Seyid Əli Mənsur ibn Seyid Cəbrayıl əl-Hüseyninin kişi nəsillərinə verir. Onlar hər il vergi toplamalı (söhbət xəracdan gedir – O.Ə.), onu Şeyx Xacə Əliyə və onun nəslindən olanlara verməlidirlər[36].

Beləliklə, İskəndər bəy Münşinin Teymurun Xacə Əlinin adına vəqf fərmanının mövcudluğu barədə verdiyi[37] məlumatlar bu faktlarla təsdiq olunur. Vəqf təsisatı, Səfəvilər hakimiyyətə gəldikdən sonra xüsusilə geniş yayıldı. Şiəliyi dövlət dini elan etmiş Səfəvilər sülaləsindən olan şahlar onun hər yerdə genişləndirilməsində maraqlı idilər.Bu işdə şiə ruhaniliyi - onların sinfi hökmranlığının ideoloji dayağı, sadiq köməkçi rolunu oynayırdı. Buna görə də, Səfəvilər ruhaniləri öz tərəflərinə çəkməyi zəruri sayır, şiə müəssisələrinin rifahına yardım göstərir, onlara əməli olaraq ruhanilərin sərəncam verdikləri vəqflər bağışlayırdılar.

XVI əsrdə Ərdəbildə Şeyx Səfiəddin türbəsinin vəqfi, Təbrizdə Elxan Qazan xanın məqbərəsinin vəqfi, Həsən padşah məscidinin vəqfləri və “Cahanşahiyyə” (Cahanşah) vəqfi


downloaded from KitabYurdu.az

Azərbaycanda daha böyük vəqflər idilər[38].

Bu dövrdə İranda şiə müqəddəsləri olan İmam Rzanın Məşhəddəki və onun bacısı Fatimənin Qumdakı məqbərələrinin vəqfləri daha iri vəqflər sayılırdı[39].

Vəqf torpaq mülkiyyəti sahəsinin artım mənbələri, yalnız hökmdarların bəxşişlərindən ibarət deyildi. Bu dövrdə torpaq sahibləri arasında gözə çarpan faydadan çıxış edərək öz mülklərini vəqfə çevirmək ənənəsi özünü göstərirdi. Məlumdur ki, vəqflər adətən vergi və inzibati toxunulmazlıq hüququndan istifadə edir, çox nadir hallarda müsadirəyə məruz qalırdılar. Həmin feodallar bu yolla öz mülkiyyətlərini şiə ruhanilərinin etibarlı mühafizəsi altına keçirir və öz soyadının ardınca mütəvəlli (vəqf işləri müdiri) vəzifəsini yazdırmaqla xəzinəıyə ödəyəcəyi vergilərdən canlarını qurtarırdılar[40].

I Şah Təhmasibin müasirləri olan adlı-sanlı seyidlərin "Tarix-i aləm aray-i Abbasi"də verilmiş siyahısında Məşhəddə İmam Rzanın məzarının təsərrüfat müdiri olmuş Əbülvəlinin adı çəkilir. O, həmin vəzifədən azad edildikdən sonra Təbrizə gəlmiş, yeni təyinat almış və Qazan xan vəqfinin (Övqaf-i Qazani) himayəçisi vəzifəsini tutmuşdu[41]. Yenə də həmin siyahıya görə, mənşə etibarilə Ağqoyunlu padşahları nəslindən olan, Təbrizdəki Əbdülvahabiyyə ailəsi, Həsən padşah məscidinin vəqflərinin işlərini idarə edirdi. Həmin nəslin bir nümayəndəsi olan Mirzə Əbdülhüseyn, Müzəffəriyyə adı ilə tanınan Cahanşah vəqfini idarə edirdi[42].

İskəndər bəy Münşinin yazdığına görə, XVI əsrdə vəqfin iki növü var idi: sünnəti və vacibi. "Sünnəti" vəqflərinin himayəçisi şahın özü idi və vəqfin gəlirləri onun göstərişi ilə xərclənirdi. Bu zaman o, hamı tərəfindən qəbul olunmuş normaları rəhbər tuturdu, çünki bu vəqfləri vəsiyyət edənlər "bir qayda olaraq daxil olan gəlirlərin konkret olaraq hara xərclənməsini" göstərmirdilər. Əldə olunan gəlirlərin ciddi müəyyən edilmiş maddələrlə onlara vəsiyyət


downloaded from KitabYurdu.az

edənlərin tələbinə uyğun olaraq xərcləndiyi vəqflər isə "vacibi" adlanırdı[43].

Göstərildiyi kimi, Azərbaycanda ilk Səfəvilər dövründə xüsusi sahibkar mülk torpaqları xeyli azalmışdı. Lakin hər halda əyanların, o cümlədən şiə ruhanilərinin ayrı-ayrı nümayəndələri bəzən əməlli-başlı gəlir verən iri malikanələrin – mülklərin sahibləri də olurdular[44]. I Təhmasibin şahlığı dövründə "böyük seyidlər" adlanan bu adamların sırasında, İskəndər bəy Münşi, iri mülklərin sahibləri olan bəzi ruhani nümayəndələrinin də adlarını çəkir. Sədr vəzifəsini tutan Mir Qiyasəddin Məhəmməd, I Təhmasibin hakimiyyətinin sonunda "İsfahanda mülk və malikanələrə sahib olmuş" və öz "mülkünün (sərkərin) hesabına ömür sürmüşdür"[45]. Seyidlər təbəqəsindən 5 min tümənə yaxın gəliri olan çoxlu soyurqal və mülk (əmlak) sahibi olan Şah Neymətullanın oğlu Mirmirani Yəzdinin adı çəkilir[46]. Xorasan əmirlərindən, İskəndər bəy Münşi "çoxlu daşınar və daşınmaz əmlak, mülk və tarlalar" sahibi olan Mirzə Əbutalib Rezavinin adını çəkir[47]. Astrabadda Mir Ziyaəddin Fendereski "çox gəlir gətirən mülklər və malikanələr sahibi idi"[48]. Qumda çoxlu mülk və malikanələr varlı seyid Mirhaşım Qumiyə məxsus idi[49].

İlk Səfəvilər dövründə şərti torpaq mülkiyyətinin daha bir formasının – tiyulun meydana gəlməsi və XVI-XVII əsrlərdə geniş yayılması, feodal münasibətlərində yeni hadisə oldu.

İqta təsisatı hələ XVI əsrə qədər qəti olaraq səhnədən çıxsa da, bu istilaha XVI-XVII əsrlərin narrativ mənbələrində təsadüf edilməkdədir. Nəzərdən keçirilən dövrdə iqta istilahı öz-özlüyündə iqtanı əvəz etmiş təsisatları – soyurqalı və daha çox tiyulu bildirirdi[50]. Maraqlıdır ki, əgər biz iqta istilahına salnamələrdə tez-tez rast gəliriksə, rəsmi sənədlərdə (fərmanlarda) bu istilah tamamilə işlənmir[51].

Soyurqal Azərbaycanda XV əsrdə mövcud olduğu şəkildə irsi


downloaded from KitabYurdu.az

mülk sayılırdı və vergi, inzibati-məhkəmə toxunulmazlığını nəzərdə tuturdu[52]. Başqa sözlə, soyurqal sahibi xüsusi mülkiyyət hüququndan istifadə edirdi.

Səfəvilər soyurqalı elə təsisatla əvəz etməyə səy göstərirdilər ki, xidmətlərinə görə vassalların mükafatlandırılması onlara torpaqda möhkəmlənməyə, torpaq mülkiyyətçisinə çevrilməsinə imkan verməsin. Tiyul təsisatı mərkəzləşdirmə siyasətinin mənafeyi naminə yaradılmışdı. İ.P.Petruşevskiyə görə, Səfəvi tiyulu (nəzəriyyə üzrə) onları idarı etmək hüququ olmadan, müəyyən torpaqlardan toplanılan vergi məbləğinin (bütövlükdə və yaxud qismən) qulluq adamlarına irsən deyil, müvəqqəti və yaxud ömürlük peşkəş edilməsini bildirirdi[53].

V.F.Minorski göstərir ki, tiyul ilkin iqtaya müvafiqdir[54]. İ.P.Petruşevski həmin tezisi dəqiqləşdirərək qeyd edir ki, “Səfəvilər dövründə tiyulun inkişafı onların dövlət torpaq sahiblərinə və bu torpaqlarda işləyən kəndlilərin dövlət aparatının köməyilə istismar olunması sisteminə yardım etmək siyasəti ilə bağlı idi. Bu sistem yeni əsaslar üzərində qurulsa da qismən VII-X əsrlərdə, xilafət ölkələrində kəndlilərin dövlət istismarı sistemini və iqta formasının XI əsrə qədərki inkişafının ilkin pilləsini xatırladırdı[55].

Əgər nəzəri baxımdan tiyul sahibi (tiyuldar) idarəetmə işlərinə qarışmadan torpaqdan alınan vergilərlə kifayətlənməli idisə də, əməli işdə bu, heç də belə deyildi. Məsələ bunda idi ki, ilk Səfəvilər öz siyasətlərində ardıcıl deyildilər. Onlar mərkəzləşdirmə xətti ilə qüdrətli qızılbaş əyanlarına güzəştlər arasında tərəddüd edirdilər[56]. Tiyul yalnız dövlət fondu torpaqlarından deyil, bəzən şahın şəxsi torpaqlarından da peşkəş edilirdi. XVI əsrin ilkin mənbələrində tiyul istilahı tez-tez işlədilirdi.

Məsələn, hicri 931 (1524-1525)-ci ildə gənc I Şah Təhmasibin vəkili, rumlu tayfasının başçısı Div Sultan Gürcüstana yürüş etmiş Köpək Sultan Ustaclının orada olmasından istifadə edərək ustaclı tayfasına məxsus olan tiyulları öz həmtayfaları


downloaded from KitabYurdu.az

arasında bölüşdürmüşdü ki, bu da sonrakı ildə ustaclı tayfasının böyük qiyamına səbəb olmuşdu[57]. Bu tiyullar Naxçıvanda və Çuxursəəd vilayətində idi.

Buna bənzər digər bir tiyul Şirvanda idi. Hicri 938 (1531-1532)-ci ildə təkəli tayfasının başçısı, Azərbaycanın cənub hissəsinin əmir əl-ümərasıÜləma bəy şaha xəyanət edərək tayfanın mühüm bir hissəsi ilə türk sultanına xidmət etməyə başladı. Hicri 947 (1540)-ci ildə onlar xondkarı tərk edib  Qazi xan Təkəli başda olmaqla yenidən şahın yanına qayıtdılar və onun tərəfindən xeyirxahlıqla qarşılandılar. I Şah Təhmasib Salyan və Mahmudabadı tiyul kimi Qazi xana bağışladı[58].

İskəndər bəy Münşi qeyd edir ki, I Şah Təhmasibin dövründə qızılbaş tayfaları arasında yüksək vəzifələr tutan və əla tiyullara sahib olan şamlı tayfası xüsusilə fərqlənirdi. Burada həmçinin göstərilirdi ki, ustaclı tayfasından olan bir çoxları əmir adı almış, təbil, bayraq, qoşun (təbl-o-ceyş-o-ləşkər) və fəxri tiyul sahibləri olmuşdu[59].

Bir qayda olaraq, tiyulların bölüşdürülməsi çox vaxt yeni şah taxta çıxdıqdan sonra, dövlət vəzifələrinə yeni təyinatlarla eyni zamanda baş verirdi. Biz yuxarıda gördük ki, buna bənzər bölgülər II Şah İsmayıl taxta əyləşdikdən sonra, həmçinin Şah Məhəmməd Xudabəndə taxta çıxdığı zaman keçirilmişdi.

Yuxarıda göstərilən nümunələrdən görmək olar ki, qızılbaş əyanlarına tiyullar paylanmaqla mərkəzi hökumət eyni zamanda tiyuldarlar üzərinə həmin vilayətləri düşmən basqınından qorumaq vəzifəsini də qoyurdu. Bir çox hallarda canişin, tayfa hakimi, yaxud başçısı kimi tiyul ərazilərini idarə edən tiyuldarlar öz növbələrində tabeliklərində olanlara daha kiçik bəxşişlər ayırırdılar. Məsələn, Muğanda köç üçün əlverişli yerlər almış Qazi xan və təkəli tayfası tezliklə bu vilayətləri mühafizə etməkdə şahın ümidlərini doğrultmuşdular. Şirvan 1538-ci ildə bəylərbəyilik hüququnda Səfəvilər dövlətinin tərkibinə daxil olsa da, ayrı-ayrı yerlər


downloaded from KitabYurdu.az

müqavimət göstərməkdə davam edirdilər. 1540-cı ildə Qazi xan öz qoşununu müdafiəçilərinin inadla müqavimət göstərdikləri Bakı qalasının üzərinə apardı. Son nəticədə şəhər alındı, əhalinin bir hissəsi qılıncdan keçirildi[60].

Belə misalları çox göstərmək olar[61]. Məsələn, İskəndər bəy Münşinin məlumatına görə, hicri 988 (1580-1581)-ci ildə Salman xan Ustaclı Şirvanın bəylərbəyi təyin edlmişdi. Bu, Şirvanın Osmanlı Türkiyəsi və Krım tatarları tərəfindən dəfələrlə hücumlara məruz qaldığı bir vaxt, onun həyəcanlı günləri idi. Buna görə də Şirvanın müdafiəsi Səfəvilər dövləti üçün mütləq bir zərurət idi. Həmin təyinatla birlikdə Şirvan torpaqları burada öz ailələri ilə yerləşəön ustaclı tyfasının əyanları və Salman xanın mülazimləri arasında bölüşdürüldü. İskəndər bəy Münşi ustaclı əmirləri arasında bunların adını çəkir: Salman xan; Nəzər Sultanın oğlu Hüseynqulu Sultan; Eşik Avaz Çavuşlunun oğlu Əliqulu Sultan; Mustafa Sultan Şərəfli; Ənat bəy oğlu Mehdiqulu Sultan Çavuşlu. Onlardan başqa əmirlər içərisində, habelə cagirli, qaramanlı və başqa tayfalardan da 2-3 nəfər var idi. Onların hamısına "Şirvan ölkəsində tiyullar bağışlanmışdı"[62]. İskəndər bəy Münşi tiyulların bu qaydada bölünməsini Salman xan və ustaclı əmirləri arasında "Şirvanın bölüşdürülməsi" adlandırmışdı[63].

XVI əsrdə tiyul hələ ciddi surətdə müəyyənləşdirilmiş bir məna kəsb etmir və müxtəlif bəxşişləri bildirirdi. Nəzərdən keçirilən dövrün mənbələrinin müqayisəsi göstərir ki, eyni bağışlamalar tiyul hüququnda idi, yəni kiçik kənddən tutmuş, bütöv bir mahal, yaxud vilayətə qədər ölçüdə məhdud ərazidən yığılan vergi məbləğinin müvəqqəti mənimsənilməsini bildirirdi[64].

Səfəvilər dövründə soyurqal yox olmadı, şəkilcə bir qədər dəyişildi. Soyurqallar artıq daha çox kənd və yaşayış məntəqələrindən ibarət kiçik sahələr olub, şiə ruhanilərinə məxsus idilər. Sonuncu müddəa Səfəvi şahlarından – I Şah İsmayılın 1509-cu ildə Kəmaləddin Hüseyn Ərdəbiliyə, I Şah Təhmasibin 1552-ci


downloaded from KitabYurdu.az

ildə Xəlifə Dərviş Məhəmmədə, Şah Məhəmməd Xudabəndənin 1584-cü ildə Mir Şərif Xədimbaşıya, I Şah Abbasın 1601-ci ildə yenə də Kəmaləddin Hüseyn Ərdəbilinin nəslindən olanlara Ərdəbil və Xalxal ərazilərində soyurqal bağışlanmasına dair son dövrdə dərc olunmuş fərmanları ilə təsdiq edilir[65]. Bütün qeyd olunan soyurqallar hərbi zümrəyə deyil, ruhanilərə və mülki şəxslərə məxsus idi. Narrativ mənbələrdə də buna bənzər çoxlu faktlar vardır. Məsələn, "Hüseyny seyidlərindən" olan Sədrəddin Məhəmməd öz qardaşları Nizaməddin Əhməd, Qərəməddin Məhəmməd və Əbülməhəmməd Lütfullah ilə birlikdə I Şah Təhmasibin dööründə bir vaxt çox mühüm mövqe tutmuşdular. Həsən bəy Rumlu bildirir ki, onlar Təbrizin yaxınlığında, Əskuyə kəndində yaşayırdılar.Onların babası Əbülqasim əvvəlki hökmdarların ehtiram göstərdiyi yüksək nüfuzlu seyid olmuşdu. I Şah Təhmasib onlarla çox yaxın idi və tez-tez Əskuyə mülkündə onlara baş çəkirdi. Lakin salnaməçinin göstərdiyi kimi, onların yüksək vəkil, sədr və vəzir vəzifələrinə təkidlə iddia etmələri üzündən şahla münasibətləri pozulmuşdu. I Şah Təhmasib sarayda görünməyi onlara qadağan etmiş, lakin onların həmin vaxtadək adlarında olan soyurqalları təsdiq edilmişdi[66].

Məlumatı 1578-1579-cu illərə aid olan, Səfəvilər dövlətində olmuş Venetsiya səfirlərindən biri təminatın özünəməxsus forması kimi tiyullar haqqında yazırdı: "Sonsuz sayda kəndlər və mülklər vardır ki, bunların hamısı, illik məvacibləri ən azından 100 dukat olan süvarilərin haqqını ödəmək üçüçn nəzərdə tutulmuşlar. Lakin əslində, onlar həmin ərazilərdən daha çox..., 3 qat artıq məbləğdə gəlir əldə edirlər"[67].

XVI əsrdə meydana gəlmiş tiyul təsisatı XVII əsrdə, I Şah Abbasın islahatlarından sonra qətiolaraq qanuni şəkil aldı[68].

**Hakim feodal sinfi**


downloaded from KitabYurdu.az

Tədqiq edilən dövrdə Azərbaycanda feodal sinfi beş qrupdan ibarətdi: 1)şah və hakim sülalənin üzvləri; 2) yarımköçəri qızılbaş tayfalarının hərbi əyanları; 3) ali şiə ruhaniləri; 4) mülki bürokratiyanın yuxarı təbəqəsi; 5) oturaq əyanlar.

Biz yuxarıda göstərdik ki, Səfəvilər dövlətində şah ən iri torpaq sahibi idi. O,feodal "nərdivanının" başında dururdu.

Şah və onun xanədanının üzvləri ən məhsuldar və gəlirli torpaqların sahibləri idilər. Səfəvilərin əcdadları əski zamanlardan Ərdəbildə və onun ətrafında yaşayır, əkinçilik və ticarətlə məşğul olurdular. Onlar Azərbaycanın əski oturaq feodal əyanlarına mənsub idilər. Səfəvilərin doğma dili Azərbaycan türkcəsi idi. Bu dil yalnız XVI əsrdə deyil, bu sülalənin hakimiyyətinin sonuna qədər Səfəvilər sarayının və ordusunun dili olmuşdur.

Feodal sinfinin digər qrupları arasında birinci yer müstəsna olaraq dövlətdə siyasi və hərbi hakimiyyətin tam sahibi olan Azərbaycan qızılbaş tayfaları əyanlarına mənsub idi. Yalnız mərkəzdə deyil, ucqarlarda, Səfəvilər dövlətinin tərkibinə daxil olan bütün əyalətlərdə qızılbaş əyanları imtiyazlı, hakim mövqeyə malik idilər. Feodalların bütün qalan qrupları Azərbaycan əyanlarına tabe olub onlardan asılı idilər.

İ.P.Petruşevskinin düzgün olaraq göstərdiyi kimi, qızılbaş əyanlarının aparıcı siyasi qüvvəsi belə bir faktla müəyyən edilirdi ki, onlar ilk Səfəvilərin dövlətində ordunun, (feodal qoşununun) əsas kütləsini təşkil edirdilər. Ordunun yüksək rütbələrinə qızılbaş tayfalarının əyanları təyin edilirdilər. Onlar özlərindən asılı olan həmtayfaları ilə birlikdə irsi olaraq hərbi xidmət göstərirdilər. Bundan əlavə, əyanların yuxarı təbəqələri hakim xanədanın üzvləri və şahın özü ilə qohumluq münasibətlərində olurdular.

Qızılbaş tayfaları və onların əyanları öz xidmətlərinə görə şahdan oturaq kəndlilərin sakin olduğu geniş torpaq sahələri alırdılar. Bu torpaqlara nəzəri cəhətdən şah hökuməti dövlət


downloaded from KitabYurdu.az

mülkiyyəti kimi yanaşırdı. Lakin onları əməli olaraq iri torpaq sahibləri olan qızılbaş tayfalarının əyanları idarə edirdilər[69].

XV əsrdə Səfəvilərin dayağına çevrilmiş qızılbaş tayfaları da həmçinin türkdilli idilər və doğma dil kimi Azərbaycan türkcəsindən istifadə edirdilər[70]. XV-XVI əsrlərin qovuşuğunda qızılbaş tayfları şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar və zülqədər tayfalarına bölünmüşdülər. Səfəvi istilaları gedişində bu tayfalara xeyli türkdilli tayfa və nəsillər qoşuldular.

Oruc bəy Bayat öz əsərində qızılbaş tayfalarının və onların şaxələrinin daha tam siyahısını verir. Bu siyahını tam şəkildə verməyi faydalı hesab edirik:[71] 1) ustaclı, 2) şamlı, 3) əfşar, 4) türkman, 5) bayat, 6) təkəli, 7) xarmandalı (*harmandali*), 8) zülqədər, 9) qacar, 10) qaramanlı, 11) bayburtlu, 12) ispirli, 13) oryad, 14) çavuşlu, 15) asayişoğlu, 16) çəmiş kəzəkli (*Chamish qazaqqlu*), 17) sarızolaqlı, 18) qarabacaqlı, 19) baharlı, 20) qırxlı, yaxud qoruqlu (*griclu*), 21) bozcalı (*Boschalu*), 22) Mahi Fəqihli (*Mahi-Fagihlu*), 23) həmzəli, 24) zolaqlı, 25) mahmudlu, 26) qara çomaqlı, 27) qara qoyunlu, 28) gözü bayızlı (*cossi Boyezlu*), 29 inanlı (*inazlu*), 30 Kuh giluyelu[72].

I Şah Təhmasibin hakimiyyətinin sonunda Səfəvilər dövlətinin yüksək vəzifəli şəxslərinin İskəndər bəy Münşinin verdiyi və bizim dəfələrlə müraciət etdiyimiz siyahısımüstəsna dərəcədə qiymətlidir[73].

Aşağıda bu siyahının qızılbaş əmirlərinə aid olan hissəsini veririk[74].

## Şamlı tayfası

I Şah İsmayılın dövründə bunlar olmuşlar: 1) Hüseyn bəy Lələ; 2) Əbdi bəy; 3) onun oğlu Durmuş xan; 4) onun qardaşı Hüseyn xan (I Şah Təhmasibin bacısı oğlu); 5) Zeynal xan; 6) Ağzıvar xan.


downloaded from KitabYurdu.az

I Şah Təhmasibin dövründə yalnız 5 əmirin təbili və bayraqları var idi: 1) Vəli Xəlifə Ovçu – Məşhəd hakimi; 2) Fulad xəlifə - Həmədan vilayətinin hakimi; 3) Süleyman xəlifə - Astrabad vilayətinin hakimi olmuş, sonra isə sarayda qalmışdı.

## Ustaclı tayfası

I Şah İsmayılın dövründə onlar şamlılardan sonra ən qüdrətli tayfa olmuşdur. 1) Xan Məhəmməd – Diyarbəkir hakimi; 2) Qara xan onun qardaşı; 3) Qılınc xan; 4) Çayan sultan; 5) Köpək Sultan; 6) Məntəşə sultan; 7) Sədrəddin xan; 8) Fəruq Sultan; 9) Abdulla xan; 10) Çuxursəəd hakimi olmuş Şahqulu Sultan.

I Şah Təhmasibin dövründə aşağıdakı əmirlər təbil və bayraq sahibi olmuşlar: 1) Hüseyn bəy – Həsən bəy yüzbaşının oğlu, əmisi Nəzər Sultanın yerində əmir və şahzadə Mustafa Mirzənin qəyyumu (lələsi) olmuşdu; 2) Murad xan Süfrəçi – böyük saray əmirlərindən olmuş Teymur xanın oğlu; 3) Allahqulu Sultan – saray əmiri; 4) Piri bəy – saray əmiri, Rey Vəraminin iqtidarı; 5) Pirə Məhəmməd xan Çavuşlu – Biyepiş əmir - əl-ümərası və və İmamqulu mirzənin lələsi; 6) Məhəmməd xan Toxmaq – Çuxursəədin əmir əl-ümərası; 7) Şahqulu Sultan Yegan – Herat hakimi və Xorasan əmir əl-ümərası, Abbas Mirzənin lələsi; 8) Nəzər sultan Asayiş oğlu; 9) İbrahim Sultan – Şahqulu Sultan Yeganın oğlu, Sərəxs hakimi; 10) ustaclıların şərəfli qəbiləsindən Vəlixan – Xorasanın çərxçıbaşısı; 11) Xorasan əmirlərindən olan Mahmud xan Sufi oğlu – Turşiz hakimi; 12) Teymur xan – Murad xanın atası, Sistan hakimi bə Badi əz-zaman Mirzənin lələsi; 13) Alqus Sultan Çavuşlu – Şüştər və Dizful hakimi; 14) Şahqulu Sultan Qarınca oğlu – Mahi Fəqihli oymağından; 15) Mustafa Sultan Keçəl Şahverdi oğlu.


downloaded from KitabYurdu.az

## Türkman tayfası

1) Əmir xan Mosullu – Gülabi xanın nəvəsi, Xorasan əmir əl-ümərası və I Şah Təhmasibin lələsi olmuş, Mərv yaxınlığındakı döyüşdə böyük hünər göstərmişdi. Məhəmməd Xudabəndənin dövründə onun nəslindən olan adaşı Azərbaycan əmir əl-ümərası və şahla qohum olmuşdu; 2) Məhəmməd xan Mosullu - Əmir xanın qohumu; 3) Şahqulu xan Pornak – tayfanın ən böyük əmirlərindən biri, II İsmayılın dövründə Məşhəd hakimivə Xorasanın yarısının əmir əl-ümərası olmuşdur; 4) Süleyman Xəlifə - Söhrab Xəlifənin oğlu, Xorasanda Tus və Təbəsin hakimi; 5) Heydər Sultan Çabuq Tərxan – Qum hakimi və sarayın böyük əmiri olmuşdur; 6) Əbülməsum Sultan Yadigar Məhəmməd Tərxan oğlu, sarayın böyük əmirlərindən olmuşdur.

## Rumlu tayfası

1) Onların ən adlı-sanlı Şirvan əmir əl-ümərası Araz xan olmuşdur. 2) Hüseynqulu Xəlifə - sarayda xəlifət əl-xüləfa vəzifəsini tuturdu; 3) Dəli Budaq – Xoy hakimi olmuş, sonra isə sarayda qalmışdır; 4) Qurban Sultan sarayda olmuşdur.

## Zülqədər tayfası

1) Onlardan ən çox “yüksələni “ yaxşı qoşun təşkil etmiş Məhəmmədqulu Xəlifə Qorxulu olmuşdur; 2) Məhəmməd Xəlifə - İbrahim xan Hacıların əmisi oğlu, Astrabad hakimi; 3) Vəli Sultan Qalxançıoğlu – Şiraz hakimi, Məhəmməd Mirzənin lələsi; 4) Təbət ağa – Xorasanda Cam hakimi; 5) Şahqulu Xəlifə, Lar hakimi; 6) Mənsur bəy – İbrahim xan Hacıların Xoydakı oğlu.


downloaded from KitabYurdu.az

## Əfşar tayfası

1) Ən məşhur Əmiraslan sultan Ərəşli idi, böyük qoşunu vardı, Əhməd Mirzənin lələsi olmuşdur; 2) Xəlil xan – Kuh Giluyə hakimi, əfşarların 10 minlik evinin (ailəsini) başçısı; 3) Mahmud Sultan- Savə hakimi; 4) Yusifqulu Sultan – Yaqub Sultanın qardaşı, onun yerində Kirman hakimi olmuş, lakin sarayda qalmışdır, II İsmayılın dövründə qorçibaşı və"dövlətin ali şəxslərindən" olmuşdur; 5) İskəndər xan – Xəlil xanın qohumu idi, Həzarcəribdə olmuşdur, Xudabəndənin vaxtında Kuh Giluyə hakimi idi; 6) Yegan Sultan – Xorasanın Fərəh və İsfizar əyalətlərinin hakimi; 7) Xosrov Sultan Kur oğlu Xorasanda olmuşdur.

## Qacar tayfası

1) Yusif Xəlifə - Şahverdi Sultan Ziyad oğlunun oğlu idi, İbrahim Sultanın yerində Qarabağ bəylərbəyisi olmuş, sonra sarayda qalmışdı; 2) Mirzə Əli Sultan – sarayın mötəbər əmirlərindən biri, divanbəyi olmuşdur; 3) Əli Xəlifə Ağçalı – Damğan və Bistam hakimi; 4) Süleyman bəy Ziyadoğlu – Yusif Xəlifənin və Süleyman Sultan Şəkəm oğlunun qardaşı; 5) Solaq Hüseyn – Gilanda "ölkə"si var idi.

## Təkəli tayfası

1) Ərdoğlu Xəlifə; 2) Vəli Sultan Şərafəddin oğlu – Məhəmməd xanın qohumu, Xorasanda "ölkə"si var idi.

## Talış tayfası


downloaded from KitabYurdu.az

1) Odövrün böyük əmiri Bayandur xan Astrada idi; 2) Həmzə Sultan – saray əmiri; 3) Hacı Üveys sultan; 4) Qara xan – Çuxursəəddə Şuragöl və Ələşkərt hakimi; 5) Alpaut İbrahim Xəlifə - Çuxursəəddə "ölkə"si var idi.

### Xunuslu tayfası

1) Hüseyncan Sultan.

### Kürd tayfaları

1) Şərəfxan Ruzəki – Bidlis əmirlərindən idi, Gilanda Tonkabon hakimi; 2) Xəlil Sultan Siyah Mənsur; 3) Oğlan Budaqi Şəkəni – Xorasanda Xabuşan hakimi, Fars əmirlərindən idi; 4) Qılınc Xəlifə Pazuki – Çuxursəəd əmirlərindən idi; 5) Teymur xan Ərdəlan – Həsənabad və Pələıngan (?) hakimi; 6) Şah Rüstəm Abbası; 7) Onun qardaşı Məhəmməd – kiçik Lur hakimləri idilər.

### Çəkəni tayfası

1) Mahmud Xəlifə və 2) Məhəmməd Sultan Calal oğlu – hər ikisi Qarabağda Ziyad oğlunun yanında qulluq edirdilər; 3) Dönməz Sultan da həmçinin Qarabağda idi.

### Cağatay tayfası


downloaded from KitabYurdu.az

1) Mirzə Əli Xəlifə Mirgəraylı – Xorasanda idi; 2) İbn Hüseyn-Mir Hüseyn Sultan Firuzcəngin oğlu, Məşhəddə (?) idi; 3) Hacı Məhəmməd Sultan – Savə hakimi, böyük seyidlərdən idi.

**Şeyxavənd tayfası**

1) Sədrəddin xan -saray əmirlərindən Məsum bəy Səfəvinin oğlu, Sultan Hüseyn Mirzənin lələsi idi; 2) Seyid bəy – onun qardaşı, astrabad hakimi idi; 3) Seyid Süleyman – Nəcəf seyidlərindən olan Seyid bəy Kəmunə kimi tanınırdı. Məhəmməd Kəmunənin oğlanlarından idi.

Bu siyahıda qızılbaş əmirlərinin adları müvafiq tayfalara mənsubiyyətinə görə sadalanırdı. Öncə Azərbaycan tayfaları olan şamlı, ustaclı, türkman, rumlu, zülqədər, əfşar, qacar, təkəli tayfalarının adları çəkilirdi. Bu tayfalar digər tayfalara nisbətən imtiyazlı mövqe tuturdular. Çünki Səfəvilər xanədanının qədim "sufiləri", "qaziləri", "müridləri" və Səfəvilər dövlətinin baniləri sayılırdılar. Həmin tayfaların əyanları özlərinin tam hökmran mövqelərini XVI əsr boyu, I Şah Abbasın islahatlarına qədər saxlamışdılar.

Bu tayfalardan sonra siyahıda digər tayfaların da adları çəkilir. Bunların arasında türk mənşəli şeyxavənd və xunuslu, türk-monqol mənşəli çağatay tayfaları da var idi. Sonra İran mənşəli: talışlar tayfası; kürd mənşəli ruzəki, siyah mənsur, pazuki, ərdalan, çəkəni tayfaları; lur tayfası abbasi;sadalananlardan əlavə mənşəyi məlum olmayan kamunə tayfasının da adı[75] çəkilir.

Qızılbaş tayfalarına əmirlər başçılıq edirdilər. I Şah Təhmasibin vəfatı ərəfəsində divan kitablarında (dəftərlərində) 114 əmirin adı çəkilir[76] . İskəndər bəy Münşi göstərir ki, əmirlər arasında böyük əmirlər (ümərayi-əzəm), yaksək vəzifəli xanlar (xəvanini-vəlaməkan), kiçik (xurud) və böyük (kəlan) sultanlar[77] fərqlənirdilər. Böyük əmirlər "təbil, bayraq, qoşun və məiyyət (təbl-


downloaded from KitabYurdu.az

o-ələm-o-xeyl-o-həşəm") sahibləri idilər.

Yuxarıda göstərilmiş 1576-cı ilə aid olan 114 adlı-sanlı əmirdən 15-i ustaclı tayfasından çıxmışdı, həm də onların 10-u böyük əmir idi. Rumlu tayfasından yalnız "təbil və bayraq sahiblərinin" sayı 4 nəfər idi. İskəndər bəy Münşi şamlı əmirlərindən bəhs edərkən yazır ki, "indi cənnətməkan olan əlahəzrət şahın (yəni I Təhmasibin)taxta çıxmasının əvvəlində şamlı tayfası içərisində böyük əmirlər və adlı-sanlı xanlar var idi... və onlar başqa tayfalardan yüksək vəzifələri və layiqli titulları ilə ayrılırdılarsa da, şah vəfat edən vaxtda şamlılardan "təbil və bayraq sahibləri" olan 5-dən artıq əmir qalmamışdı; qacar tayfasından böyük əmirlər 5 nəfər; təkəli tayfasından – 2; türkmən tayfasından – 6; əfşar tayfasından – 7; zülqədər tayfasından – 6 nəfər olmuşdur". İskəndər Münşinin 1576-cı ilə aid əmirlər siyahısı tam deyildir. Orada 114 əmirdən yalnız 72 nəfərinin adları qeyd olunmuş, 42 nəfərin isə adları göstərilməmişdir. Adları çəkilmiş 72 əmirdən 56-sı qızılbaş, 3-ü çağatay, 10-u kürd və lur, 2-si şeyxavənd, 1-i isə ərəb əmiridir. Beləliklə, bu siyahıdakı əmirlərin 61 nəfəri türk, 11 nəfəri isə qeyri-türklərdirlər[78].

Əmirlərin vassalları və xidmətçiləri onlarla bilavasitə əlaqədar idilər. İskəndər bəy Münşi onlar barədə aşağıdakıları deyirdi: "Şah Təhmasibin vəfatı vaxtı sarayda 6000 böyük yüzbaşı (yüzbaşıyan-i əzəm), vəzifəli şəxs, qorçi və sair xidmətçilər (mülaziman) vardı. Bu hesabdan 4500 nəfəri qorçilər, 1500 nəfəri isə (qorçiyan – daş) (?), yasavullar, bukavullar və sair kimi müxtəlif vəzifəli şəxslər idilər. Onların arasında seçmə yasavullar və qorçilər, eşikağaları, cəbbəxana və divan yasavulbaşıları(yasavulbaşiyan-i qur və divan), mirşikarlar və topçubaşılar (topçibaşiyan) var idi. Bundan başqa hər bir tayfa və zümrənin içərisində əmirlik dərəcəsinə yaxınlaşan şəxslər vardı. Onlar əmir dərəcəsinə layiq görülməsələr də, heç də onlardan az nüfuza malik deyildilər. Onlardan hər birinin 5 nəfərdən 50 nəfərədək bacarıqlı nökərləri var idi. Beləliklə, onlardan 6000 nəfər şah xanədanına (xassə) xidmət edirdi. Onların mülazim və


downloaded from KitabYurdu.az

nökərlərinin sayı isə təxminən 20000 nəfər, bəlkə də çox idi. Qorçilərin cəsurluğu və qorxmazlığı barədə geniş yayılmış söhbətlərə görə, hər hansı döyüşdə onlardan yüzü məiyyətin digər üzvlərinin mininə bərabər idi”[79].

Yuxarıda verilmiş məlumatlar ilk Səfəvilər dövründə inkişaf etmiş feodalizm üçün səciyyəvi olan mürəkkəb feodal “nərdivanının” mövcudluğunu təsdiq edir[80].

Feodallar sinfinin üçüncü qrupunu Səfəvilərin sinfi dayağı olan və onların hərtərəfli köməyindən istifadə edən ali müsəlman şiə ruhaniləri təşkil edirdi. Buraya şeyxülislamlar, qazilər, Cümə məscidlərinin imamları, vaizlər və s.daxil idi. Əsas ilahiyyatçılar (üləmalar) içərisindən çıxan çoxsaylı vəqf işləri müdirləri də bu qrupa aid edilməlidir. Onların bəziləri bürokratik dövlət aparatında aparıcı vəzifələrə irəli çəkilirdilər. Səfəvilər dövlətində ruhanilər azərbaycanlılarla, farslarla, qismən isə ərəblərlə təmsil olunmuşdu.

Xristian ruhaniləri müsəlmanlardan aşağı pillədə dursalar da, bir sıra imtiyazlardan istifadə edirdilər. Erməni ruhanilərinin yuxarı təbəqələri, bir qayda olaraq vergilərdən azad edilən geniş monastr torpaqlarına sahiblik edirdilər[81].

Feodalların dördüncü qrupuna azərbaycanlı oturaq əyanların nümayəndələri daxil idilər. İ.P.Petruşevskiyə görə, belə əyanlar Qarabağda və xüsusilə Şirvanda salamat qalmış, Azərbaycanın cənub vilayətlərində isə yarımköçəri azərbaycanlı və kürd əyanları ilə əvəz edilmişdi[82].

Sonuncu – beşinci qrup dövlət bürokratiyasının yuxarı təbəqəsindən, habelə, vilayətlərdə olan əyalət inzibati aparatının daha iri nümayəndələrindən ibarətdi.

Farslar (yaxud mənbələrdə adlandırıldıqları kimi “taciklər”) Azərbaycan Səfəvilər dövlətinin feodal sinfinə qismən daxil idilər. Lakin burada onlar asılı, tabe mövqe tuturdular. İlk Səfəvilər dövründə onların vəziyyətini tarixçi İskəndər bəy Münşi aşağıdakı şəkildə səciyyələndirir:


downloaded from KitabYurdu.az

“ Sarayda taciklər sinfinə (təbəqe-yi tacikiyyə) mənsub olan başqa əyanlar qrupu (əkbər və əyan) var idi. Onlardan bəziləri qulluq etməyə çalışırdılar (rah-i xidmət daştənd). Onlar bir o qədər mühüm vəzifələr tutmasalar da,dövlət şurasında (cənnət məclisində) müşavirlər kimi çıxış edir və (müzakirələrdə) iştirak etmələri ilə diqqəti cəlb edirdilər”[83]. Buradaca iki farsın – Haşım Quminin və Xacə Əbdülqədir Kirmaninin (iri torpaq sahiblərinin) adları çəkilir. İskəndər bəy Münşi göstərir ki, “hər ikisi yüksək divanın vəziri vəzifəsinə namizəd sayılsalar da, onlardan heç biri bu vəzifəni tuta bilmədi”[84].

Bu fikir venetsiyalı Alessandrinin verdiyi məlumatla da təsdiq olunur. O, saraydakı farslar barədə yazırdı: “Baş müşavirlər (dövlət şurasında) səs verə bilməzlər və şah onları dəvət etməyincə öz fikirlərini söyləməyə ixtiyarları yoxdur; onlar yüksək ləyaqət sahibi olsalar da, sultanın dərəcəsin qalxa bilmirlər. Hətta əyan mənşəli olsalar belə, hərbi xidmətə dair təyinatlar ala bilmirlər”[85].

Qızılbaş əyanları farslara (taciklərə) xor baxır, onlara yuxarı dövlət vəzifələri tutmağa, müstəsna dərəcədə azərbaycanlı feodallara aid olan hərbi işlərə qarışmağa layiq olmayan, aşağı təbəqə nümayəndələri kimi yanaşırdılar.

1583-cü ildə qızılbaş əmirləri tərəfindən edam edilmiş, şah Məhəmməd Xudabəndənin vəziri Mirzə Salman İsfahaninin həlak olması haqqında İskəndər bəy Münşinin hekayəsində belə münasibətin səciyyəvi faktını görmək olar. Vəzir Mirzə Salmanın günahı barədə şahın sualına qızılbaş əmirləri aşağıdakı kimi cavab vermişdilər: “ Mirzə Salman tacikdir və haqq-hesab əməliyyatlarından (omur-i hesab) və divan işlərini idarə etməkdən əlavə, heç kəs ondan xahiş etməmişdir ki, o, qoşun rəisi (sahib-i ceyş-o ləşkər) olsun və sultanlığın (yəni ali hakimiyyətin – O.Ə.) işlərinə qarışsın, təfriqə və qiyama səbəb olsun. İndi qızılbaşıar onu ifşa etmişlər,onunla toqquşmuşlar. İlkin (tələb) budur ki, o, öz ətəyini vəzir vəzifəsindən çəkməli, (dövlət) işlərini tərk etməlidir”[86].


downloaded from KitabYurdu.az

Sonra Mirzə Salmanı ağıllı bir adam kimi səciyyələndirən İskəndər bəy Münşi onun günahını bunda görür ki, o, vəzir vəzifəsinin səlahiyyət çərçivəsini aşmış və "qələm sahibliyinin həddini keçmişdir"[87].

## Kəndlilərin vəziyyəti. Vergilər və mükəlləfiyyətlər

XVI əsrdə kəndlilərin vəziyyəti dəyişilmişdimi? Şübhə yoxdur ki, XVI əstin əvvəlində Səfəvilər dövlətinin yaranması kimi nəhəng bir siyasi hadisə, böyük sosial-iqtisadi irəliləyişlərin nəticəsi və göstəricisi idi. Məsələ bunda idi ki, Səfəvilər ilk vaxtlardan yalnız qızılbaş tayfalarının hərbi qüvvələrinə arxalanmamış, həm də xalqın geniş təbəqələrini öz tərəfinə çəkməklə, onların yardım və rəğbətindən ölkə mənafeyi naminə istifadə etməyə səy göstərmişlər. Bunsuz onların siyasi düşmənlər üzərində qələbəsi qeyri-mümkün olardı. Azğın və yırtıcı istismar nəticəsində Azərbaycan və Qərbi İran kəndlilərini tam dilənçi və tələf olmaq həddinə çatdıran Ağqoyunlu tayfa feodalları Səfəvilərin işini asanlaşdırmışdılar. Şübhə yoxdur ki, Səfəvilər və qızılbaş feodallarının yuxarı təbəqəsi ilk dövrdə əsas istehsalçı sinif olan kəndlilərin vəziyyətinin yüngülləşdirilməsində bilavasitə maraqlı idilər. Nəinki yeni dövlətin yaradılmasına nail olmaq, həm də onun bütövlüyünü çoxsaylı düşmənlərin, xüsusilə də Osmanlı Türkiyəsinin təcavüzkar siyasətinin qəsdlərindən qorumaq lazım idi. Ölkəni ağır iqtisadi pozğunluq və dağıntı vəziyyətindən çıxarmaq, əkinçiliyin və kənd təsərrüfatının, şəhər həyatının və ticarətin inkişafına təkan vermək olduqca vacib idi.

Xalqın vəziyyəti ilə maraqlanmayan Səfəvi feodal tarixçiləri I Şah İsmayılın kəndlilərə menasibətdə siyasətindən konkret olaraq məlumat vermirlər. Bu sahədə dövlətin banisinin tədbirləri haqqında


downloaded from KitabYurdu.az

yalnız ümumi formada qızılbaş hökmdarının "fəzilətlərini" təriflərkən, onun "sadəliyindən", "rəiyyət haqqında qayğısından" bəhs edərkən danışılır[88].

Səfəvi-Osmanlı müharibələri dövründə kəndlilər kütləvi şəkildə Azərbaycanın sərhəd ərazilərində məskunlaşmış olduqları yerləri tərk edir və onların vəziyyəti təsvirəgəlməz dərəcədə ağırlaşırdı. Düşmən orduları və düşməni ölkənin içərilərinə buraxmamaq üçün tez-tez süni surətdə geniş əraziləri viran qoymaq tədbirlərinə əl atan Səfəvi komandanlığı da kəndliləri buna məcbur edirdi[89].

Alessandriyə görə, I Təhmasibin hakimiyyətinin son illərində (70-ci illərin əvvəli) torpaq vergisi məhsulun altıda bir hissəsinə bərabərdi[90]. Şah hökuməti tez-tez xəracı və digər vergiləri ləğv etməyə, yaxud azltmağa məcbur olurdu. Əvəzində belə "iltifatdan" bir neçə il keçdikdən sonra şah adətən əvvəlki illərdə alınmamış vergi borclarını da dərhal ödəməyi tələb edirdi ki, bu da kütləvi dilənçiliyə gətirib çıxarırdı[91].

İlk Səfəvilərin vergi siyasətini öyrənmək baxımından Bakı şəhərinin qala hissəsindəki epiqrafik abidə böyük əhəmiyyət kəsb edir. Bu, Şah Təhmasibin mətni farsca olan, daş üzərində həkk edilmiş və Cümə məscidi minarəsinin özülünə qoyulmuş fərmanıdır. Hicri 964 (1556-1557)-cü il tarixli fərmanda dövlətin bütün vilayətlərində (məmalik) vergilərin (malcəhət və vücuhat) azaldıldığı bildirilir[92].

Fərmanın tarixi göstərir ki, o, Səfəvi dövlətinin Osmanlı Türkiyəsinə qarşı 1555-ci il sülhü ilə başa çatmış viranedici müharibələrinin bütöv bir dövründəb dərhal sonra elan edilmişdir Bu fərmanın verilməsi sübut edir ki, mərkəzi hökumət kəndlilərin ağır vəziyyətini nəzərə almağa məcbur olur və öz təbəələrinin ödəmə qabiliyyətini bərpa etmək üçünbəzi tədbirlər görürdü.

XVI əsrin 70-ci illərinin sonu və 80-ci illərində Səfəvilərin Osmanlı Türkiyəsi ilə apardığı müharibə şəraitində feodal özbaşınalığı və mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində xalqın


downloaded from KitabYurdu.az

(kəndlilərin və sənətkarların) vəziyyətinin kəskin surətdə pisləşməsi müşahidə olunurdu[93].

İlk Səfəvilərin öz sələflərindən fərqli olan hər hansı yeni vergi idarə üsulu müəyyən etmələri barədə əlimizdə məlumatlar yoxdur. Əksinə, bu sahədə ciddi dəyişikliklərin baş vermədiyini bildirən məlumatlar daha çoxdur. Məsələn, Mir Yəhya Qəzvininin məlumatına görə, Uzun Həsənin tətbiq etdiyi qanunlar onun ölümündən sonralar da öz qüvvəsində qalmışdı[94]. Şərəf xan Bidlisinin daha konkret və dəqiq məlumatından məlum olur ki, hətta XVI əsrin sonunda da İraq, Fars və Azərbaycan hakimləri Uzun Həsənin vergi nizamnaməsini (qanunnamə) rəhbər tuturdular[95].

Maraqlıdır ki, Uzun Həsənin qanunları Kiçik Asiyanın şərq vilayətərində (onlar XVI əsrin əvvəlində Osmanlı imperiyasının tərkibinə daxil olduqdan xeyli sonralar da) də feodal münasibətlərinin normaları olaraq qalırdı[96].

Vergi sistemini və onun terminologiyasını öyrənən nisbətən çoxsaylı əsərlərin olmasına baxmayaraq, indiyə kimi bu sahədə bir çox məsələlər aydın deyil və həll olunmamışdır. Bu, hər şeylərdən əvvəl, vergi və mükəlləfiyyətlərin ayrı-ayrı istilahlarının mənasının və onların xarakterinin aydınlaşdırılmasına aiddir. İ.P.Petruşevski göstərir: “Bu mürəkkəblik sənəd mənbələrinin azlığı, narrativ mənbələrdəki məlumatların dolaşıqlığı, xüsusilə vergi və mükəlləfiyyətlərə dair eyni istilahların müxtəlif vaxtlarda və müxtəlif vilayətlərdə eyni mənada işlədilməməsi ilə izah olunur”[97].

Səfəvilər dövləti yaranana qədər və ondan sonra rəiyyətin vergi və mükəlləfiyyətlərinin müqayisəsi bəzi əhəmiyyətli nəticələr çıxarmağa imkan verir. Bizə əvvəlki dövrlərdən məlum olan istilahlarla yanaşı, XVI əsrdə təcrübədə bir sıra yeni vergi və mükəlləfiyyətlər meydana gəlmiş, bəziləri isə istifadədən çıxmışdır.

Biz, aşağıda, ilk Səfəvi şahlarının fərmanlarından əxz etdiyimiz müxtəlif vergi və mükəlləfiyyətlərin adlarını ümumi siyahıya salmışıq.


downloaded from KitabYurdu.az

1.Malcəhət
Bəhrəçə
Dəhyek
2.İxracat
Xariciyyət
3.Şiltakat
Şanakisat
4.Avarizat
5.Ələfə
6.Ülufə
7.Qonalqa
Xanə nüzul
Sərvəriy-i nüzul-i hal
8. Ulaq
Diraz quş
9. Ülam
10.Biyar
11.İxracati-qələ
12.Şikar
13.Dəstəndaz
14.Savəri
15.Peşkəş
Peşkəş-i sahib-i
Ölkə
16.Salami
Salamane
17.Eydi
18.Novruzi
19.Rəsm-i mühdis
İhdas
20. Şilan bəha
21. Rəsm əl-möhr

22. Müməyyəzane
23.Həqq-i səyi ümmal,
Əvamil
24.Rüsum-idaruğəgi və kələntəri
25.Rəsm əl-vizarə
26.Düşüllük-i ərkan-i dövlət
27.Mirabi
28.Dəhyek-i mustoufiyan
29.Dəhyek-o-nim-i soyurqal
30.Dəhyek-i rəiyyəti
31.Xırman bəhrə
32.Azdar
33.Çuvallıq
Xərc-i xurcun
34.Çərik
Zər-i çərik
35.Cizyə
Təvafüt-i cizyə
36.Qəlle-yi ibtiyai
37.Tərh
38.Çıraqlıq
39.Məvaşi
40.Mərai
Çoban bəyi
41.Sər şümar
Səranə
Xane şümar
42.Bəhay-i morq
43.Sorğu və yorğu
44.Ximə
45.Qah
46.Kəndəlik


downloaded from KitabYurdu.az

Tərtib etdiyimiz siyahı heç də tam deyildir, çünki yalnız nəzərdən keçirdiyimiz fərmanlarda adı çəkilən istilahları əhatə edir. Şübhə yoxdur ki, hələ bizə məlum olmayan sənəd və narrativ mənbələrin aşkara çıxarılması, elmi dövriyyəyə daxil edilməsi ilə həmin siyahı xeyli genişlənə bilər[98].

Səfəvilər dövrünün vergi siyasəti ilk dəfə İ.P.Petruşevskinin əsərlərində ciddi təhlil edilmişdir. Bir sıra, az məlum olan istilahlar haqqında V.F.Minorskinin, A.Lembtonun və H.Horstun tədqiqatlarında qiymətli müşahidələr, nəticələr vardır.

Bizim vergi və mükəlləfiyyətlər siyahımızdan bəziləri hələ Sasanilər və Ərəb xilafəti (xərac, cizyə, biyar), əsas hissəsi isə Səlcuqlar, monqollar və Səfəvilərin sələfləri – Qaraqoyunlu və Ağqoyunlu padşahları dövrlərindən miras keçmişdir (malcəhətə, bəhrəçə, dəhyek, ixracat, xariciyyət, şiltəkət, şanakisət, avarizat, ələfə, ülufə, konalqa, ulaq, üləm, bikar, şikar, dəstəndaz, savəri, peşkəş, salami, salamanə, eydi, novruzi, ixdas, həqq-i səyi, ümmal, çerik, tərx, məvaşi, mərayi, sorğu, yorğu və bəzi başqaları).

Biz oxucunu göstərilən istilahların bu və ya digər səviyyədə işıqlandırılmış olduğu müvafiq ədəbiyyata müraciət etməyə yönəldərək, aşağıda onlardan tədqiq olunan dövrdə ilk dəfə qeyd edilənlərinin üzərində dayanacağıq[99].

*"Rəsm-i mühdisə" (ihdas)* – I Şah İsmayılın 1503-cü ilə aid olan fərmanında təsadüf edilir[100]. Bu istilaha ihdas formasında Şah Məhəmməd Xudabəndənin 1581-ci il tarixli toxunulmazlıq fərmanında da rast gəlinir[101]. O, Səfəvilərə qədərki dövrdə Əlvənd Ağqoyunlunun hicri 904 (1498-1499)-cü il tarixli fərmanında ihdas formasında verilir[102]. A.Lembton bu istilahın aydın mənasını vermir. H.Horst onu "polis zabiti" kimi mənalandırır[103].

İhdas mənşəcə ərəb kökündən olub "baş vermək", "olmaq" mənasını bildirir. "Təzkirət əl-mülük" əsərinə görə, ihdas, yaxud başqa cür adlandırıldığı kimi, "mirşəb", növbətçi xidmət zabiti idi və gecələr ictimai asayişin mühafizəsi onun öhdəsinə düşürdü. O, keşikçilər dəstəsi



downloaded from KitabYurdu.az

ilə gecələr şəhər məhəllələrini gəzir və gecə hadisələri barədə səhər darğaya (polis xidməti başçısına) məlumat verirdi[104].

Biz belə hesab edirik ki, "rəsm-i mühdis" istilahı ilə "ihdas" dedikdə - polis zabitinin xeyrinə yığılan vergi nəzərdə tutulur. Lakin rəiyyətdən, onların arasında baş verən mübahisələri, cinayətləri ayırd etmək üçün alınan vergilər "cari ildə mübahisə və ixtilafların olub – olmayacağından" asılı olmadan əvvəlcədən yığılırdı[105]. Ə.Rəhmani ihdas istilahını "gecələr bazarın mühafizəsi üçün" toplanılan vergi kimi müəyyən edir[106].

*"Rəsm əl-möhür"* - (hərfən "möhür haqqı") I Şah Təhmasibin tarixi göstərilməyən fərmanında[107] verilmişdir. Zənn etmək olar ki, bu adla rəiyyətdən möhür vurulması ilə bağlı olan sənədlərin rəsmiləşdirilməsi üçün toplanan vergilər nəzərdə tutulurdu. Ehtimal edilə bilər ki, bu məbləğ möhrdarın ("möhr mühafizəçisi") xeyrinə olaraq toplanırdı.

*"Rüsum-i daruğəgi və kələntəri*" - darğanın (polis rəisinin) və kələntərin (şəhər mülki idarəsinin başçısı) xeyrinə toplanan vergi[108].

*"Mirabi"* – vergim istilahı kimi I Təhmasibin tarixi göstərilməyən fərmanında verilir. Bu istilah (əmirrabi formasında) Yaqub bəy Ağqoyunlunun 1479-cu il[109] tarixli fərmanında da vardır. "Mirab" - ərəb-fars birləşməsi "əmiri-i ab"ın qısaldılmış forması olub hərfən "əmir, su rəisi", yəni suvarma kanalları rəisini bildirir. Suvarma üçün suyun düzgün bölüşdürülməsinə nəzarət edən məmur belə adlanırdı. Qeyd edildiyi kimi, süni suvarma Azərbaycanda, İranda və qonşu ölkələrdə kənd təsərüfatının idarə olunmasının əsas şərtlərindən biri idi. Buradan da hər vilayətdə, yaxud mahalda olan mirabın əhəmiyyəti aydınlaşır. Şardenin (XVII əsr) məlumatına görə, İsfahanın mirabı onun köməkçilərinin aldığı məbləğdən əlavə öz xidmət işinə görə ildə 4 min tümən də alırdı[110].

"Təzkirət əl-mülük"də göstərilir ki, suvarma kanallarına nəzarətçilər təyin etmək, kanalları və kiçik çayları təmizləmək, Zəyəndərudun suyunun həmin çaydan suvarılan İsfahan mahalının bütün



downloaded from KitabYurdu.az

hissələrinə çatması üzərində müşahidə aparmaq İsfahan mirabının vəzifəsinə daxil idi. Mirab həmçinin ayrı-ayrı şəxslərin və ərazilərin su üzərində hüquqları ilə bağlı mübahisə və iddialarını da həll etməyə borclu idi[111].

*"Dəhyek"* – farsca hərfən anlamı "ondan biri" - ərəbcə "üşr" ("on") istilahının sinonimi. İstilahın texniki anlamı – məhsulun $^{1}/_{10}$ payı ölçüsündə torpaq vergisidir[112]. Ehtimal etmək olar ki, I Şah Təhmasibin 1525-ci il tarixli fərmanında "mustoufilərin xeyrinə onda bir" mənasında "dəhyek-i mustoufiyan" istilahı işlədilir[113]. I Təhmasibin tarixi göstərilməyən fərmanından aydın olduğu kimi, dəhyek soyurqallardan da alınırdı. Fərmanda "dəhyek-o-nim-i soyurqal" və "dəhyek-i rəiyyəti" istilahları işlənir. "Dəho-nim" onda birin yarısını (5%), "dəhyek-o-nim" (10% + 5%)isə məhsulun 15%-ni təşkil edirdi. Bu istilahların texniki anlamı o qədər də aydın deyildir. *"Xırman bəhrə"* – I Şah Təhmasibin İsfahana aid olan, tarixi göstərilməyən fərmanında təsadüf edilir. "Xırman bəhrə" hərfən "biçin, taxıldöymə bəhrəsi" deməkdir. Məlum olduğu kimi taxılın döyülməsi dairə boyu sürülən və taxılı tapdalayan öküzlərin köməyi ilə edilirdi. Əlimizdə dəqiq məlumatlar olmasa da, ehtimal etmək olar ki, rəiyyət öz taxılını döymək üçün torpaq sahibinin iş heyvanlarından istifadə edirdi və bundan ötrü də "xırman bəhrə"[115] verməli idi.

*"Xərc-i xurcun" və "çuvallıq"* – səciyyə etibarilə kəndli mükəlləfiyyətləri. Birinci, hərfən "xurcunun dəyəri" anlamında Əhməd Ağqoyunlunun 1497-ci il tarixli fərmanında göstərilir[116]. İkincisi I Şah İsmayılın 1505-ci il fərmanında verilir[117]. Papazyanın fikrincə, "çuvallıq" azərbaycanca "çuval"sözündən yaranmış mücərrəd isimdir, yun parçadan tikilmiş heybə deməkdir. Onun güman etdiyinə görə, istər qoşunlarda, istərsə də divan vergi idarələrində mühüm əşya olan çuvalların tədarükü üzrə xüsusi mükəlləfiyyət var idi[118]. Güman etmək olardı ki, aşırma heybələrinin (xurcunların) və çuvalların tədarükü mükəlləfiyyəti "xərc-xurcun" və "çuvallıq" istilahında öz ifadısini tapmış, pul vergisi ilə əvəz olunmuşdu.


downloaded from KitabYurdu.az

*“Qəlle-yi ibtiyai*” – iki ərəb mənşəli sözdən, yəni “taxıl” və ərəbcə[119] “almaq”, “alqı” sözlərindən ibarətdir. Söz birləşməsi “taxılın satın alınması, alqısı” kimi tərcümə edilməlidir. İstilaha Yaqub (1479-cu il) və Əlvənd (1499-cu il) Ağqoyunluların fərmanlarında, habelə I Şah İsmayılın (1512-ci il)[120] və I Şah Təhmasibin tarixi göstərilməyən fərmanlarındatəsadüf edilir. Əlvənd Ağqoyunlunun A.Lembton tərəfindən aşkar edilmiş hicri 904 (1498-1499)-cü il tarixli başqa bir fərmanında buna bənzər “qəllə-tərx”birləşməsi vardır. A.Lembton göstərir ki, Qacarlar dövründə İranda kəndliləri bazar qiymətlərindən yuxarı qiymətlərlə taxıl almağa məcbur edən adət var idi. Buna qəllə-tərx deyirdilər[121]. Sonuncu fərmanda “qəllə-tərx”istilahından sonra bilavasitə “ibtiyai” adı çəkilir. Rəiyyət vergi və mükəlləfiyyətləri arasında “qəlle-iibtiyai”yə rast gəldiyimiz yuxarıda göstərilən dörd fərmandan ikisində bu mükəlləfiyyət tərx istilahı ilə yanaşı işlədilir; birində həmin istilahdan irəlidə, digərində isə sonra qeyd edilir. Bun hal bizi belə bir qənaətə gətirir ki, “qəəle-yi ibtiyai” və “tərx” istilahları mənaca yaxındırlar. Həm də tərx istilahının texniki məzmunu Ə.Ə.Əlizadənin əsərlərindən bizə yaxşı məlumdur[122]. O, müəyyən etmişdir ki, “tərx”deyəndə: 1) şəhərlilərin və kəndlilərin bazar qiymətlərindən bir neçə dəfə artıq qiymətə taxıl və digər ərzaq məhsullarını icbari qaydada (hakimiyyət orqanlarının əmri ilə) dövlət anbarlarından alması; 2) dövlətin və yerli feodalların buna ehtiyacı olanda rəiyyətin ərzaq məhsullarını bazar qiymətlərindən xeyli aşağı qiymətə onlara satması nəzərdə tutulur. Görünür ki, texniki cəhətdən bu uzlaşma, “tərx” istilahı ilə onun birinci mənasına müvafiq gəlir.

Beləliklə, “qəlle-yi ibtiyai” – bir qədər əvvəl vergi şəklində kəndlilərdən toplanmış taxılın bazar qiymətlərindən bir neçə qat artıq qiymətlərlə dövlətdən və feodallardan satın alınmasını bildirən rəiyyət mükəlləfiyyətidir[123].

*“Bəhay-i morq”* (hərfən “quşun qiyməti, dəyəri”) Şah Məhəmməd Xudabəndənin 1581-ci il tarixli fərmanında işlədilir[124]. Texniki anlamda feodalların tələbi ilə rəiyyətin quş tədarük etməsini bildirən


downloaded from KitabYurdu.az

“morq”istilahına, biz artıq Əlvənd Ağqoyunlunun hicri 904 (1498-1499)cü il tarixli və I Şah Təhmasibin tarixi göstərilməyən fərmanlarında rast gəlmişik[125]. Ehtimal etmək olar ki, feodallar öz mülahizələrinə əsasən həmin mükəlləfiyyəti pul alınması ilə əvəz etmişdilər.

“Ximə”, “kah” (hərfən “odun, “ot”) I Şah Təhmasibin və Məhəmməd Xudabəndənin fərmanlarında rəiyyət mükəlləfiyyətləri sırasında işlədilir. Ehtimal etmək olar ki, rəiyyətin ağac doğraması və feodalları odunla (yanacaqla) və otla təmin etmək mükəlləfiyyətinə müvafiqdir.

*“Kəndəlik”* – Radlovun lüğətində olan türk sözüdür və “divarda bürc ucaltmaq” kimi şərh edilir[126]. Güman etmək olar ki, bu istilah qala bürclərinin tikintisi üzrə rəiyyətin mükəlləfiyyətini bildirir.

Göstərdiyimiz vergi və mükəlləfiyyətlərin Səfəvilər dövlətinin bütün vilayətlərində eyni məzmuna malik olduğunu düşünmək düzgün olmaz. Müxtəlif ərazilərdə yerli ənənələrlə bağlı onların adlandırılmasında müəyyən müxtəliflik müşahidə olunur. Məsələn, I Şah Təhmasibin İsfahana aid olan 1525-ci il tarixli fərmanında vergi və mükəlləfiyyətlərə aid olan 20 istilahın, Şah Məhəmməd Xudabəndənin isə 1581-ci il tarixli fərmanında 19 istilahın adı çəkilir. Şah Təhmasibin tarixi göstərilməyən, İsfahana aid olan fərmanında (fərmanın mətninə əsasən 1533-cü ildən sonra dərc edildiyini qeyd etmək olar) daha çox sayda (30) vergi və mükəlləfiyyət istilahları vardır. Bəzi hallarda müxtəlif istilahlar texniki anlamlarda sinonimdirlər.

## XVI əsrdə Azərbaycan şəhərləri

Tədqiq edilən dövrdə Azərbaycan şəhərləri sənətkarlıq və ticarətin iqtisadi mərkəzləri idilər. Onlardan bəziləri (Təbriz, Gəncə, Ərəş, Ərdəbil, Culfa) bütün Səfəvilər dövləti, digərləri (Bərdə, Naxçıvan, Marağa, Dərbənd və s.) yerli vilayət miqyasında əhəmiyyət kəsb edirdilər.

Mənbələrdə “şəhr”istilahı yalnız təsərüfat həyatının mərkəzlərim olan iri yaşayış məntəqələrini bildirmirdi. Onlar həm də tez-tez inzibati-siyasi mərkəzlər, bəzən isə qalalar idilər. Şəhərləri bildirmək üçün


downloaded from KitabYurdu.az

“şəhr” istilahı ilə yanaşı, digər istilahlar da, məsələn, “bələdə” (ərəbcə cəm halında “bəlad”) işlədilirdi. Müasir fars dilində bu istilah kiçik şəhərlərə şamil edilir. Lakin XV-XVI əsrlərdə bu ad altında yalnız kiçik şəhərlər deyil, eyni zamanda siyai və inzibati mərkəzlər də nəzərdə tutulurdu[127].

Bununla belə, əvvəlki dövrdə olduğu kimi, Azərbaycanda ölkənin iqtisadi həyatında çox vaxt yuxarıda göstərilən şəhərlərdən heç də az rol oynamayan, lakin inzibati-siyasi mərkəz olmayan çoxlu ticarət-sənətkarlıq məskənləri var idi. Adətən onlar kənd yaşayış məskənlərindən, onların ticarət və sənətkarlıq mərkəzləri kimi təkamülü nəticəsində inkişaf edirdi. Azərbaycanın bir çox şəhərləri belə yaşayış məntəqələrindən meydana gəlmişdir. Bu tip şəhərlər mənbələrdə “yer” , “kənd” anlamını verən “qəsəbə” (ərəbcə, cəm halında “qəsəbat”) istilahı ilə göstərilir.

Biz aşağıda XVI əsrdə ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynamış daha iri Azərbaycan şəhərlərini nəzərdən keçirəcəyik.

*Təbriz* – Azərbaycan xalqının sosial-iqtisadi, siyasi və mədəöni həyatında müstəsna rol oynamış ən qədim şəhərlərdən biridir. Təbrizin iri ticarət-sənətkarlıq və siyasi mərkəz kimi yüksəlişi Hülakülər (Elxanilər) dövlətinin paytaxtı elan edildiyi dövrə aiddir[128]. Təbriz Azərbaycanda və qonşu ölkələrdə XIV əsrin ikinci yarısı – XV əsrlərdə yaranan Cəlairilər, Qaraqoyunlu və Ağqoyunlu dövləötlərinin “paytaxt şəhəri” olmuşdur. Bu vəziyyət onun əhalisinin artmasına və ərazisinin xeyli böyüməsinə səbəb olmuşdur.

Səfəvilər dövlətinin banisi İsmayıl 1501-ci ildə Təbrizi ələ keçirərək onu öz dövlətinin paytaxtı etdi. 1555-ci ildə şahın iqamətgahı Qəzvinə köçürüldükdən sonra da Təbriz çox böyük şəhər olaraq qalmışdır. Bu mənada səciyyəvidir ki, ingilis taciri Artur Edvards 13 il keçdikdən sonra (1568-1569-cu illər) Səfəvilər dövlətinin bir sıra şəhərlərini gəzərkən Təbrizi “İranın paytaxtı” adlandırır[129].

Şəhər əhalisinin sayı haqqınad yalnız təqribən mühakimə yürütmək olar. I Şah İsmayılın naməlum tarixçisi, Səfəvilər şəhəri ələ keçirdikləri


downloaded from KitabYurdu.az

zaman (1501-ci il) onun əhalisinin 300 min nəfər olduğunu göstərir[130]. Tarixçi Xondəmir Təbrizi "dünyanın insan yaşayan dörddə bir hissəsinin ən abad şəhərlərindən" biri sayırdı[131]. Oruc bəy Bayat Təbrizi "Şərqin paytaxtı" adlandırır[132]. Onun hesabına görə isə şəhərin əhalisi türk istilasına (1585-ci il) qədər 80 min ailədən çox idi (Q.Le-Strencin hesablamalarına görə 360 min nəfər)[133].

Osmanlıların 1585-ci ildə şəhərə hücumu zamanı Təbrizin hərbi qüdrətindən bəhs edən İskəndər bəy Münşi göstərir ki, "Təbriz şəhərində olan yüz min sakindən, ən azı yarısı döyüş qabiliyyəti olan (işə yarayan) gənclərdir... "[134]. Həm də şəhər əhalisinin əksər hissəsi "tacirlər, sənət və sənaye adamları" zümrəsinə mənsub idi[135].

XV-XVI əsrlərdə Təbrizdə sənətkarlıq sahələri – ipəktoxuma, həllaclıq (yun çırpma), pambıq parça istehsalı, boyaqçılıq yüksək dərəcədə inkişaf etmişdi. Sənətkarlıq məhsullarının xeyli hissəsi xaricə - beynəlxalq bazara çıxarılırdı. Naməlum tacirin məlumatına görə, Siruyanın və Osmanlı Türkiyəsinin, sonra isə Avropanın şəhərlərinə burada istehsal olunan qırmızı və tünd qırmızı qumaş və parçalar, hər cür ipək parçalar göndərilirdi[136]. Digər bir venetsiyalının – Alessandrinin məlumatına görə, Təbriz malları Avropanın İsveç, Polşa, danimarka kimi ölkələrinə də ixrac edilirdi[137]. Bu dövrdə Səfəvilər dövlətində olmuş ingilis səyyahı L.Çempen qeyd edirdi ki, "Təbriz Avropa şəhərlərindən idxal olunan mahud və qarazəy satışı üzrə ölkədə çox mühüm şəhərdir". İpək parçaları buraya, həm onları Venetsiyadan alıb gətirən azərbaycanlı (təbrizli) tacirlər, həm də məhsulu Hələbdən (Aleppodan) Təbrizə çatdıran, şəhərdə yaşayan türklər və ermənilər gətirirdilər[138]. Təbriz əhalisinin çoxluğu ərzaq məhsulları ilə şəhərin müvafiq qaydada təchiz olunmasını tələb edirdi. Buraya ətraf yerlərdən qoyun əti, buğda unu, Urmiya gölündən balıq, Xəzər sahilindəki Mahmudabaddan isə balıq və yüksək keyfiyyətli kürü gətirirdilər. Çoxlu bağ və bostanları olan Təbriz özünü meyvə və tərəvəzlə təchiz edirdi[139].

XV əsrdə də Təbriz Azərbaycan mədəniyyəinin iri mərkəzi idi. XVI əsrin əvvəlində Səfəvilər dövlətinin yaranması ilə əlaqədar Təbrizin


downloaded from KitabYurdu.az

mədəni rolu daha da artdı. I şah İsmayılın bir çox cəhətdən əzəmətli Lorentsonun sarayını xatırladan iqamətgahına çoxlu ölkələrdən o dövrün istedadlı və təhsilli adamları, elm və mədəniyyət xadimləri can atırdılar. Həbibi başda olmaqla Sürüri, Şahi, Matəmi, Tüfeyli kimi Azərbaycan şairləri onun sarayındakı ədəbi məclisin üzvləri idilər. Əsərləri türkdilli xalqların ədəbiyyatına faydalı təsir göstərmiş I Şah İsmayılın özü də böyük Azərbaycan şairi kimi şöhrət qazanmışdır. Özünəməxsus "incəsənət akademiyası" olan şah kitabxanasında misilsiz rəssamlar Sultan Məhəmməd və Kəmaləddin Behzad yaradıcılıqla məşğul olurdular. İncəsənətin miniatür rəssamlığı növünün bütün Yaxın və Orta Şərqdə inkişafında aparıcı rol, Təbriz miniatür məktəbinin nümayəndələrinə məxsus idi[140].

XVI əsrin birinci yarısında Azərbaycana türk basqınları şəhərin inkişafına fəlakətli təsir göstərən mənfi amil olmuşdu. Türk sultanının qoşunları dörd dəfə (1514, 1534, 1535, 1548-ci illər) Təbrizi ələ keçirmişdilər. 1514-cü ildə I Sultan Səlim ən yaxşı Təbriz sənətkarlarını və ustalarını ailələri ilə birlikdə İstanbula aparmışdı (bir neçə yüz nəfərdən bir neçə min nəfərədək). Türk işğalına qarşı mübarizədə Səfəvilərin tətbiq etdiyi "viran edilmiş torpaq" taktikası, eləcə də işğalın özü, Təbrizin və onun ətrafındakı kəndlərin vəziyyətinə olduqca mənfi təsir göstərirdi. Şəhərdə olmuş A.Cenkinsonun (1562) və V.Alessandrinin qeyd etdikləri fakt, türk basqınlarının XVI əsrin ikinci yarısına doğru Təbrizin ticarət-sənətkarlıq əhəmiyyətini nəzərəçarpacaq dərəcədə tənəzzülə gətirib çıxardığını göstərir. A.Cenkinson Təbriz haqqında yazırdı: "İranın ən böyük şəhəridir, lakin ticarət və tacirlər üçün əvvəlki əhəmiyyətini itirib; səbəb, Təbriz şəhərinə qədərki bütün torpaqları istila etmiş, onu çapıb-talamış, bununla Sofini şəhəri tərk etməyə və sarayı ondan on günlük məsafə aralıda yerləşmiş Qəzvin şəhərinə köçürməyə məcbur etmiş türkün genişlənən basqınıdır"[141]. V.Alessandri yazmışdı: "...Bu ticarət şəhəridir, çünki buraya krallığın bütün hissələrindən mallar və karvanlar gətirilir. Lakin müharibə, onun işlərinə çox ziyan vurmuşdur"[142]. Şəhərin iqtisadi əhəmiyyətinin süquta


downloaded from KitabYurdu.az

uğramasında Səfəvilər dövləti paytaxtının Təbrizdən Qəzvinə köçürülməsi də az rol oynamadı. İndiyə qədər elmi ədəbiyyatda Səfəvilər paytaxtının köçürülməsi tarixi kifayət qədər əsaslandırılmadan" 1548, yaxud 1549-cu il göstərilmişdir[143]. Bizə məlum olan tarix salnamələrindən yalnız Qazi Əhmədin "Xülasət ət-təvarix" I Şah Təhmasib tərəfindən paytaxtın köçürülməsinin dəqiq tarixini verir. Bu hadisənin hicri 962-ci il zülhiccə ayının sonunda (yəni 1555-ci ilin dekabrında) baş verdiyi göstərilir[144]. Qazi Əhməd bu köçürməni Səfəvi-Osmanləı müharibəsinin başa çatması və 1555-ci ilin mayında Amasyada bağlanmış sülh müqaviləsi ilə əlaqələndirir. Bu tarixin doğruluğunu müəyyən dərəcədə İskəndər bəy Münşi də təsdiq edir və məlumat verir ki, I Şah təhmasib ömrünün son 20 ilini (1576-cı ildə vəfat etmişdir) yeni paytaxtda – Qəzvində keçirmişdir[145]. Tarixçi paytaxtın dəyişdirilməsi səbəbini Təbrizin "Rum" sərhədlərinin yaxınlığında yerləşməsində görür. Qəzvin isə düşmən basqınlarından kənarda idi.

XVI əsrin 70-ci illərinin əvvəllərindən Təbriz bütün dövlətin keçirdiyi siyasi-iqtisadi böhrana məruz qalmışdır. Feodal istismarının güclənməsi, vergilərin artması sinfi antaqonizmin kəskinləşməsinə səbəb oldu. Bu isə kəndlilərin və sənətkarların bir sıra üsyanlarına gətirib çıxardı. Bunlardan ən böyüyü Təbrizdə sənətkarların və şəhər yozsullarının 2 il (1571-1573) davam etmiş üsyanı oldu. Üsyan göstərdi ki, şəhərdə sinfi ziddiyyətlər son dərəcə kəskinləşmişdir. Sənətkarlar və yoxsullar, sənətkarlıq və peşə cəmiyyətləri şəhərdə ciddi qüvvə təşkil edirdilər. Üsyan yatırıldı. Lakin o, nəticəsiz qalmadı. Xalq hərəkatının geniş vüsət almasından qorxuya düşmüş feodallar güzəştlərə getdi. Dövlətin ümumi ağır maliyyə vəziyyətinə baxmayaraq, Təbrizə vergi toxunulmazlığı (məafi) hüququ verildi[146].

Bir qədər əvvəl, 1565-ci ildə I Şah Təhmasib şəhərlərin iqtisadi yüksəlişinə təkan vermək üçün cəhd göstərərək 30 min tümən təşkil edən mənfur tamğanı lığv etdi[147]. Lakin tamğa vergisinin ləğvi, görünür, məcburi tədbir idi. Çünki bu tədbir nəzərəçarpan nəticələrə gətirib çıxarmadı.


downloaded from KitabYurdu.az

Ehtimal etmək olar ki, XVI əsrin birinci rübündə Osmanlı Türkiyəsinin Suriyanı və Aralıq dənizinin şərqində yerləşən limanları işğal etməsi ilə əlaqədar olaraq ticarət dövriyyəsinin azalması da Təbrizin vəziyyətinin pisləşməsinə təsir göstərmişdi. I Şah Təhmasibin sarayına gələn ingilis tacirləri Asiya və Avropa arasındakı Aralıq dənizinin köhnə ticarət yolları üzərində tam nəzarət qoymuş Osmanlı sultanının ağır gömrük siyasətindən şikayət etmişdilər[148].

Mənfi amillərin (Osmanlı-Səfəvi müharibələri, ticarətdən gələn gəlirin azalması, paytaxtın köçürülməsi və s.) təsiri nəticəsində, XVI əsri ikinci yarısında Təbriz əhalisinin sayı xeyli azaldı. Məsələn, İskəndər bəy Münşinin məlumatına görə, Osmanlı qoşunlarının şəhərə yeni basqını zamanı (1585) Təbrizdə cəmi 100 min nəfər yaşayırdı[149].

Təbriz ən ağır zərbəyə 1585-ci ildən 1603-cü ilə qədər davam edən Osmanlı işğalı ərzində məruz qaldı[150].

*Şamaxı* – XV əsrdə Şirvanın iqtisadi və mədəni mərkəzi oldu. Şəhərin Şirvanın ipəkçilik obyektlərinin mərkəzində yerləşməsi, ipək emalının və hazır məhsul satışının iri mərkəzi olması da buna xeyli dərəcədə kömək etmişdi. İ.Barbaronun sözlərinə görə, Şamaxının 4000-5000 addımlıq ətrafı var idi[151]. Dərbəndilər sülaləsindən olan Şirvanşahlar öz hakimiyyətləri dövründə Şirvanın iqtisadi yüksəliş mərhələsinə daxil olmasına xeyli kömək göstərdilər.

Səfəvilər Şirvanı ələ keçirdikdən sonra Şamaxı Şirvan bəylərbəyiliyinin paytaxtı oldu. XVI əsrin son rübündə türk-tatar basqınları dövründə şəhər güclü ziyana məruz qaldı. O, dəfələrlə əldən-ələ keçdi, dağıdıldı və talan edildi[152].

XVI əsrdə Cənubi Qafqazda ipək istehsalı və ticarəti demək olar ki, bütünlüklə Şamaxıda və Ərəş ərazisində cəmləşmişdi[153]. Əmin Əhməd Razinin məlumatına görə, Şamaxıda hər il təqribən 20 min xalvar xamna (xam ipək) satılırdı ki, bu da təqribən 100 min pud edirdi[154]. A.Cenkinson Şamaxını "gözəl şah şəhəri" adlandırır. Şamaxı burada ipək alıb, sonra isə başqa ölkələrdə sataraq böyük qazanc götürən bir çox ölkələrin tacirlərinin axışıb gəldiyi mərkəzi bazar idi. Şirvan ipəyi yüksək


downloaded from KitabYurdu.az

keyfiyyəti və davamlılığı ilə fərqlənirdi. Şamaxıda rus, hind, türk, İran və erməni tacirlərinin qaldıqları karvansaralar var idi. XVI əsrin ikinci yarısında burada ingilis ticarət məntəqəsi olan "Moskva şirkətinin"daimi nümayəndəliyinin əsası da qoyuldu. Bu işdə "Moskva şirkətinin" agenti olmuş A.Cenkinsona Şirvan ipəyi ilə ticarətdə böyük imtiyazlar vermiş Şirvanın Səfəvi bəylərbəyisi Abdulla xan Ustaclı kömək etmişdi.

İngilis E.Edvards xəbər verir ki, o, Şamaxı bazarında hər batmanı 6,5 funta (yaxud 66-70 şahı) satılan və hər birində 25-26 batman olan 11 tay xam ipək almışdır[155]. İpək nazik və yüksək keyfiyyətli idi. Onu Şamaxıya bilavasitə ipək istehsalçıları olan kəndlilər ətraf kəndlərdən gətirirdilər. Şamaxı ipəyi ilə ticarətdə İngiltərə üçüç faydalı imkanlar görən Artur Edvards şirkət rəhbərlərinə yazmışdı: "Yayda bizim burada (Şamaxıda – O.Ə.) qalan nümayəndələrimiz olacaq, biz xamnanı satmaq üçün hə buraya və həm də başqa yerlərə aparan kənd camaatından almaq imkanına malik olacağıq". Ağıllı və uzaqgörən ticarət kəşfiyyatçısı hesablamışdı ki, bu halda "Moskva şirkəti" hər il 30-40 min funt dəyərində ipək ala bilər[156].

İngilislərin Şirvan ipəyini inhisara almaq üçün belə təkidli səyləri buradan aydın olur. Onların fikrincə, ruslar bu işdə təhlükəli rəqib idilər. Buna görə də Edvards öz məktubunda şirkət idarəsinə məsləhət görürdü ki, özlərinin bütün ticarət məqsədlərini ruslardan gizli saxlasınlar. Lovğa A.Edvards özünün Londondakı sahibkarlarına yazırdı: "Ruslar bizim buradakı ölkələrdə ticarət etməyimizdən pərt olmuşlar, çünki bizi onlara nisbətən daha çox sevirlər"[157].

*Ərdəbil* –monqolların hücumu dövründə bir çox başqa şəhərlər kimi dağıdılmış, əhalisi isə demək olar ki, başdan-başa məhv edilmişdi[158].

Ərdəbilin yeni yüksəlişi XIV-XV əsrlərə, Səfəvilərin feodal mülkünün mərkəzi olduğu dövrə aiddir. Sülalənin banisi Şeyx Səfiəddin və onun xələfləri şəhər hakimləri olduqdan sonra onun abadlaşdırılmasına böyük diqqət yetirməyə başladılar. Burada tikilən Şeyx Səfi türbəsinə ölkənin hər tərəfindən şiə zəvvarları kütləsi axışıb


downloaded from KitabYurdu.az

gəlirdi. Əhəmiyyətinə görə bu türbə yalnız Məşhəddəki İmam Rza türbəsindən geri qala bilərdi. Ziyarətə gələnlər yalnız ibadətlə məşğul olmurdular. Onları bura hər cür mallarla dolu olan Ərdəbil bazatrları da çəkib gətirirdi. XVI-XVII əsrlərdə, Səfəvilər hakimiyyətinin bütün dövrü ərzindəşəhər özünün xüsusi, imtiyazlı mövqeyini saxladı[159]. Ərdəbil və onun ərazisi xassə, şah mülkü dərəcəsinə daxil idi. Onun hakimləri (vəzirləri) şaha tabe olub şəxsən onun qarşısında hesabat verirdilər. Şəhərin bu xüsusi mövqeyi onu XVI əsrin sonu-XVII əsrin əvvəllərindəki müharibələr dövründə talan olunmaqdan xilas etdi. Buna görə də, şəhər 1604-cü ildə əhalisinin çoxluğu və abadlığı baxımından karmelit nümayəndəliyini heyran qoymuşdu[160].

Ərdəbil XVI əsrdə ölkənin ticarət həyatında da böyük rol oynamışdı. Gilandan və Şirvandan Təbrizə, sonra isə İrana aparılan ipəyin tranzit (keçid) yolu üzərində yerləşən Ərdəbil xeyli gəlir əldə edirdi. Ərdəbil tacirləri ölkənin hüdudlarından xeyli uzaqlarda tanınırdılar. Şəhərdə əcnəbi tacirlər üçün çoxlu karvansaralar var idi. A.Cenkinson onlardan birinin – I Şah İsmayılın tikdirdiyi karvansaranın təsvirini vermişdir[161].

*Ərəşin* adına XV əsrə qədərki mənbələrdə təsadüf olunmur. Ehtimal etmək olar ki, Ərəş şəhər kimi məhz bu zamandan mövcuddur. Əmin Əhməd Razinin fikrincə, Ərəşin əsası Ənuşirəvan (Sasani hökmdarı I Xosrov) tərəfindən qoyulmuşdur[162]. İndiki Xaldan kəndini xalq arasında Ərəş də adlandırırlar. Haqqında söhbət gedən əsl Ərəşin mərkəzi, ehtimal edidiyinə görə, Xaldandan üç kilometr şərqdə, Nemətabad deyilən kənddədir. XVI əsrdə ingilis səyyahları Ərəşin adını bütün Cənubi Qafqazın iri ipəçilik mərkəzi kimi çəkirlər. Ceffri Deketin yazdığına görə, Ərəş Şamaxıdan dəvə yolu ilə 4 günlük məsafədə yerləşirdi[163]. A.Cenkinson yazırdı: “Ölkənin Ərəş adlanan baş və ən varlı ticarət şəhəri Gürcüstan sərhədində yerləşirdi. Onun ətrafında hər şeydən çox xamna istehsal olunur. Ticarət etmək üçün bura türklər, suriyalılar və başqa əcnəbilər gəlirdi”[164]. C.Deket də bunu təsdiq edərək yazırdı ki,


downloaded from KitabYurdu.az

“bu ölkənin başlıca əmtəəsi... Ərəş adlanan şəhərdə bol olan xamnadır”[165].

Yenə də həmin ingilislərin məlumatlarına görə, Ərəş bazarlarında, hər bağlamada bir funt olan 100 min funtluq müxtəlif növ, o cümlədən rənglənmiş (al) ipək almaq olar. 15 unsiyaya bərabər 1 funt çəkisi olan hər bağlama 5 pensə bərabər 23 şahıya satılırdı. Beləliklə, ipəyin funtu 11 şillinq 6 pensə başa gəlirdi[166]. A.Edvards göstərirdi ki, hər ata 50-60 batman yük vurmaqla 3000-4000 atı yükləmək olar[167].

Bu, təqribən 240 min batmana bərabər idi.

Venetsiyalı Minadoi Ərəşin adını Səfəvilər dövlətinin başlıca şəhərləri sırasında çəkir. O yazırdı: “Ərəş tacirlərin sadəcə “tatoxes” adlandırdığı gözəl ağ ipəyi xeyli miqdarda istehsal edirdi”[168]. Minadoi daha sonra yazırdı ki, Türkiyə ilə müharibə gedişində fəlakət və dağıntılar nəticəsində həmin ərazidə indi daha ipək istehsal edilmir.

*Culfa* – XV əsrədək kənd olmuşdur. Onun iqtisadi yüksəlişi XV əsrdən başlanır. Şəhər XVI əsrin ikinci yarısında beynəlxalq ipək ticarətinin iri mərkəzi kimi geniş şöhrət qazanmışdı. Culfa tacirləri xamnanı, onun istehsal olunduğu yerlərdə - Şamaxıda, Ərəşdə[169] və Gilanda alır, sonra isə Venetsiya, Amsterdam, Marsel kimi Qərbi Avropa şəhərlərində, həmçinin Suriya, Osmanlı Türkiyəsi və Hindistan şəhərlərində satırdılar[170].

Edvardsın söylədiyinə görə, XVI əsrin 60-cı illəri üçün Culfa tacirləri Suriya limanı olan Hələbə 500 tay ipək gətirir və əvəzində yalnız 18 min parça Venetsiya maddəsi (qarazəy) aparırdılar[171]. 1590-1613-cü illərə dair venetsiya arxivinin məlumatlarına görə, Suriyadan yalnız Venetsiyaya 23724 tay ipək gətirilmişdi[172]. Bu, başlıca olaraq erməni tacirlərinin ixrac etdiyi və onun hesabına böyük sərvətlər qazandıqları Şirvan ipəyi idi.

1581-ci ildə Culfaya gəlmiş ingilis taciri Nyüberi xəbər verirdi ki, şəhərdə evlərin sayı 3000-ə, əhali isə 15-20 min nəfərə çatırdı. 10 il sonra şəöhərdən keçib gedən digər ingilis taciri və səyyahı Kortvrayt burada 2000 ev və 10 min nəfər əhali olduğunu yazırdı[173].


downloaded from KitabYurdu.az

XVI əsrdə Ordubad[174], Naxçıvan və Əylis kimi şəhərlərin mühüm ticarət əhəmiyyəti var idi. S.V.Ter-Avetisyanın sözlərinə görə, sonuncu iki şəhər Səfəvi şahlarının xüsusi himayəsindən istifadə edirdilər. Əylis, Culfa kimi ipək və digər mallarla ticarətin mərkəzi hesab edilirdi. XVI əsrdə şahın şəxsi himayəsi altında olan bu kiçik şəhər xassə, toxunulmaz mahal idi və onun sakinləri vergini bilavasitə şaha ödəyirdilər[175]

*Gəncə* - Səfəvilər dövründə Qarabağ (yaxud Gəncə) bəylərbəyiliyinin mərkəzi idi[176]. Oruc bəy şəhər əhalisinin sayının 50 min ailədən ibarət olduğunu (yaxud Q.Le-Strencə görə, 225 min nəfər) göstərir[177].

A.Cenkinson (1561-1564) Səfəvilər dövlətinin başlıca şəhərləri arasında Təbrizin, Qəzvinin, Kaşanın, Yəzdin, Heratın, Ərdəbilin, Şamaxının və Ərəşin adını çəkir[178].

D`Alessandri (1571-1573)dövlətin ərazisində 52 şəhərin adını çəkir, onların arasında Təbrizi baş şəhər hesab edir. O, digər mühüm şəhərlər içərisində Təbrizdən əlavə Qəzvin, Naxçıvan və Şamaxını da yada salır[179].

Minadoi (1586) Səfəvilər dövlətinin başlıca şəhərləri arasında Şamaxı *(Sumachi)*, Şəki *(Sechi*), Ərəş, Dərbənd, Ərdəbil, Təbriz, Gəncə, İsfahan, Herat, Kaşan, Şiraz, Astrabad, Qəndəhar, Yəzd, Sultaniyyə və bəzi başqalarının adını çəkir. Onun məlumatında Azərbaycan şəhərləri Xoy *(Sou),* Mərənd (*Merent*), Sufiyan (*Soffian)*, Naxçıvan (*Nassiuan*), Culfanın (*Chiulfu)* adları da vardır[180].

Mənbələr ölkənin iqtisadi həyatında müəyyən rol oynamış Bakı[181], Maku, Xalxal, Şəhrinov, Şabran, Mahmudabad, Niyazabad, Salyan, Cavad və s. kimi bir sıra şəhərləri də yada salırlar. Misal üçün, Cavad haqqında A.Cenki8nson aşağıdakıları bildirir: "Yenə də həmin 1562-ci il oktyabrın 6-da mən öz yoldaşlarımla Şamaxıdan çıxdım və 60 mil getdikdən sonra kralın (Şirvan bəylərbəyisi Abdulla xan Ustaclı nəzərdə tutulur – O.Ə.) hər cür növlü meyvələrlə bol bağları olan gözəl sarayının yerləşdiyi Cavad (*Javate*) şəhərinə çatdım"[182].



downloaded from KitabYurdu.az

Azərbaycan şəhərlərinin inkişafı xeyli dərəcədə bir sıra həm daxili, həm də xarici səbəblərlə müəyyən edilirdi. Bu, ilk növbədə həmin şəhərlərin hüdudlarında əmtəə istehsalının və ictimai əmək bölgüsünün inkişafından asılı idi. Ayrı-ayrı bazarların təşəkkül tapması göz qabağında idi. İqtisadi mərkəzlər kimi şəhərlərin yüksəlişi (bu, o cümlədən Şamaxı və Ərəş kimi ipəkçilik rayonlarına da aiddir) bu əmtəə təsərrüfatının təkamülünün nəticəsi idi (Natural təsərrüfatın müxtəlif növlü bir çox xüsusiyyətləri ilə qarışmasına baxmayaraq).

Bəzi hallarda şəhərlərin inkişafına həlledici təsir göstərən digər bir amil – xarici və tranzit (keçid) ticarətinin inkişafı idi. Bu halda şəhərin böyüməsi, onun əlverişli coğrafi mövqedə yerləşməsi ilə müəyyən olunurdu. Lakin nəinki öz vilayətlərində, həm də bütün ölkə miqyasında iqtisadi mərkəzlər olan Təbriz, Şamaxı, Gəncə, Ərdəbil kimi iri şəhərlər eyni zamanda xarici ticarətin də mühüm mərkəzləri idilər.

Xarici, qeyri-iqtisadi amillər də şəhərlərin yüksəlişi, yaxud tənəzzülü, bəzən də sonrakı mövcudluğu üçün az əhəmiyyətə malik deyildi. Onların sırasında Səfəvi-Osmanlı müharibələrini (1514, 1533-1555, 1578-1590), feodal çəkişmələrini, aclığı, epidemiyaları və s. göstərmək olar. Osmanlı işğalı dövründə Təbriz şəhərinə vurulmuş ziyan (ən yaxşı Təbriz sənətkarlarının zorla aparılması, binaların dağıdılması, əhalinin qılıncdan keçirilməsi və s.) müharibələrin viranedici təsirinə parlaq nümunədir (nəticədə XVI əsrin sonlarında şəhər əhalisi xeyli azlmışdı). Eyni sözləri XVI əsrin ikinci yarısında müharibələrdən ciddi zərər çəkmiş Ərəş, Şamaxı, Naxçıvan, Culfa kimi şəhərlər haqqında da demək olar[183].

Şəhərlərdə tez-tez minlərlə insan həyatına son qoyan epidemiyalar baş verirdi. Misal üçün, hicri 981 (1573-1574)-ci ildə Ərdəbildə yayılan taun xəstəliyi qısa müddətdə şəhərdə və onun ətrafında 30 minə qədər insanı həyatdan məhrum etmişdi[184].

Azərbaycan şəhərləri üçün onların yarımaqrar xarakterli olmaı səciyyəvi idi ki, buna da səbəb sənətkarlığın kənd təsərrüfatından ayrılması prosesinin xeyli uzanması və başa çatmaması idi. Buna görə də,


downloaded from KitabYurdu.az

hətta bir çox yüzilliklər boyu mövcud olmuş, sənətkarlıq və ticarət mərkəzləri sayılan şəhərlərin iqtisadiyyatında da kənd təsərrüfatı, habelə onun bağçılıq, bostançılıq, taxıl əkinçiliyi sahələri əhəmiyyətli rol oynayırdı. Məsələn, Avropa səyyahlarının yazdıqlarından görünür ki, Azərbaycan şəhərlərində meyvə bağları, bostanlar və s. böyük sahələri tuturdu. Belə bir vəziyyət  Şamaxıya da, Bakıya da, Mərəndə də və hətta sənətkarlığı yüksək inkişaf səviyyəsinə çatmış Təbrizə də aid idi[184a].

## Azərbaycanın Moskva dövləti və Qərbi avropa ölkələri ilə iqtisadi əlaqələri

XVI əsrdə əsas ticarət obyekti Azərbaycan ipəyi idi. Məhz əsas etibarilə xaricə göndərilən ipəyə görə, Səfəvilər dövlətinin ərazisində onun ixracını inhisara almaq uğrunda ingilis, venetsiyalı, türk və rus tacirləri arasında mübarizə gedirdi. Azərbaycan dünya bazarını xamna ilə təchiz edən başlıca tədarükçülərdən biri idi.

Səfəvi şahları xarici ticarətə və tacirlərə əzəldən hamilik edirdilər. Narrativ mənbələrdən aydın olur ki, hakim sülalənin banisi – I Şah İsmayıl təkəli tayfasından olan qızılbaşların Azərbaycanda böyük tacir karvanını qarət etmələri xəbərini alanda əsas günahkarları cəzalandırmaq, qalanları isə öz əyanları arasında bölüşdürmək barədə mr vermişdi. Həsən bəy Rumlu şahın bu cəzasını onun təbriz tacirləri karvanın qarət olunmasından qəzəblənməsi ilə izah etmişdir[185]. Buna görə də, təsadüfi deyildir ki, Səfəvilər XVII əsrin əvvəlində Azərbaycanı geri alarkən, onu Osmanlı işğalından azad edərkən Azərbaycan şəhərlərinin əyanları və tacirləri I Şah Abbasın qoşunlarını şadlıqla qarşılamışdılar[186].

Ümumiyyətlə, Azərbaycanda ticarət üçün şərait o qədər də əlverişli deyildi. Mərkəzi hökumət tərəfindən görülmüş tədbirlərə baxmayaraq, ticarət yollarında , əsasən köçərilər tərəfindən karvanlara tez-tez basqınlar baş verirdi[187].  Ingilis ticarət nümayəndələrinin İngiltərəyə göndərdikləri məktublarda da bundan çox şikayətlənirdilər. Cenkinson


downloaded from KitabYurdu.az

yazırdı ki, qarət olunmaqdan qorxduqları üçün tacir karvanları Ərdəbildən Qəzvinə qədər, əsasən gecələr hərəkət edirdilər[188].

Məsələn, çempen yazırdı ki, ölkədə səyahət etmək yalnız su çatışmazlığına görə deyil, həm də ona görə ağırdır ki, gecələmək və yemək yerləri tapılan şəhərlər və kəndlər azdır. Bu ingilis yazır ki, "əllərini bizlərdən birimizin qanı ilə yuyacaqları təqdirdə, günahlarının bağışlanacağını güman edən "kafirlər" tərəfindən də böyük təhlükə gözlənilirdi"[189]. Feodal didişmələri zamanı ticarət yolları xüsusilə təhlükəli olurdu. Xüsusilə müharibələr və feodal qiyamları zamanı mərkəzdən ayrılaraq yerli hakimlərin öz adlarına pul kəsdirmələri tez-tez pul sisiteminin pozulmasına səbəb olurdu[190]. Bundan başqa, Osmanlı işğalı zamanı yadellilər öz sikkələrini dövriyyəyə buraxırdılar. XVI əsr boyu pulun dəyəri dəyişilmişdi[191].

Osmanlı Türkiyəsində tacirin və onun mülkiyyətinin təmin olunmaması barədə məlum müddəanı, bütövlükdə XVI əsr Azərbaycanın şəraitinə də aid etmək olar. Bunu Alessandrinin qeydlərindən götürdüyümüz bir neçə nümunə ilə aydınlaşdıraq.

Venetsiyalı xəbər verirdi ki, Naxçıvan şəhərində hakimiyyət orqanları tacirləri öldürən və onların əmlakını mənimsəyən bir neçə quldurunu həbs etmişlər. Onları hakimin (qazının) yanına gətirmişdilər. Onların soyğunçuluq etdiyinə əmin olduqdan sonra o, alınmış malların gətirilməsini əmr etmişdi. Sonra zərər çəkmiş şikayətçiləri qovmuş, cinayətkarları azad etmiş, malların bir hissəsini özü üçün saxlamış, qalanını paytaxt şəhəri olan Qəzvinə (öz rəislərinə və rəsmi şəxslərə) hədiyyə olaraq göndərmişdi. Qarət olunmuş tacirlər şikayət etmək üçün Qəzvinə getmişdilər. Alessandri özü görmüşdü ki, "onlar necə çığırır, paltarlarını yırtır, saray divarlarına dırmaşır, ucadan şahı (I Təhmasibi – O.Ə.) səsləyir, soruşurdular ki, o nə etmək niyyətindədir? Və nə üçün bu cür ədalətsizliyə son qoymur? Bundan ötrü onların dabanlarına amansızcasına döyürdülər. Onları daşa baısrdılar, divardan tullanmağa məcbur edirdilər. Onları heç vaxt dinləmirdilər".


downloaded from KitabYurdu.az

Venetsiyalı yazırdı ki, başqa bir halda 18 nəfər silahlı quldur dəstəsi gecə Təbrizin baş bazarı olan "Qeysəriyyə"nin divarlarına, 40 tacirin olduğu yerə dərmaşıb keçmişdi. Quldurlar bilirdilər ki, tacirlərin arasında, yanında xeyli pulu olan ankaralı tacir vardır. Onlar bu tacirin otağının qapılarını sındırmış, onu öldürmüş, onun gümüş külçələrindən əlavə 300 tümənini (6000skudi) götürmüşdülər. Başqa tacirlər öz yoldaşlarını müdafiə etmək üçün cəhd göstərdilər. Lakin onları öz binalarına qayıtmağa məcbur etdilər.

Tacir və Osmanlı təbəəsi olan Xacə Şərəfəddini bazarda şahın qorçiləri qarət etmişdilər. Onun karvansaradakı otağından 12 min dukatpul aparmışdılar. Rəsmi şəxslərlə onun əlaqələri vardı. Tacir şikayətlə I Şah Təhmasibin yanınadək gedib çıxmışdı. Şah ona demişdi ki, əgər qarət əməli təsdiq olunmazsa, tacir edam ediləcəkdir. Lakin tacir soyğunçuluq əməlini sübuta yetirə bilmişdi. Bu o qədər də asan deyildi, çünki söhbət şahın öz qvardiyaçılarından gedirdi. Şah təqsirkar qorçiləri yanına çağırtdırmış və tacirin qalan pullarını... özü mənimsəmişdi.

Bununla əlaqədar olaraq venetsiyalı qeyd edir ki, bir gün şah dəhlizdə yatan, özünün saray təlxəyi olan qoca qorçiyə dedi ki, keçən gecə onun mahnısını dinləyərək çox yaxşı yata bilmişdir. Qorçi cavab vermişdi: əgər o bilsəydi ki, mahnısı şahın yatmağına səbəb olacaq, heç vaxt ağzını da açmazdı, bu halda şah yatmazdı və təbəələrinin şəhər və kəndlərin küçələrində daimi qətllər üzündə bütün gecə səslənən çığırtı və şikayətlərini eşidərdi. Bunu eşidən şah qəzəbləndi və dedi ki, bunların hamısının günahı qorçilərdədir və buna görə də onlar asılmalıdırlar. Qoca buna da ağıllı cavab verdi: "Əgər məvaciblər verilmirsə, qorçilər nə etməlidirlər? Onlar küçələrə çıxmağa və pis işlər görməyə məcburdurlar!"[192].

Tacirlərin şəxsiyyətinin və əmlakının müdafiə olunmaması, şahın vəzifəli adamlarının və hərbçilətin zorakılığı Səfəvilər dövlətində daxili və xarici ticarətin vəziyyətinə mənfi təsir göstərirdi.

XVI əsrdə Azərbaycan Avropa və Asiyanın bir çox ölkələri ilə geniş əlaqələr saxlayırdı. Moskva dövləti ilə Səfəvilər dövləti arasında


downloaded from KitabYurdu.az

qızğın ticarət XVI əsrin ikinci yarısından (IV İvanın dövründə Şərq ticarətində Moskva dövlətinə mane olan Kazan və Həştərxan xanlıqları Moskva dövlətinə birləşdirildikdən sonra) aparılmağa başlandı. Volqa və Xəzər dənizi yolunun işə salınması ilə eyni vaxtda Azərbaycan Qərbi Avropa dövlətlərini də (İngiltərəni, İsveçi, alman dövlətlərini) maraqlandırmağa başladı. Əgər Moskva knyazlığı öz tacirlərinin mənafeyini müdafiə edərək, sonralar tranzit ticarəti yolunda bir sıra maneələr qoymasaydı, bu ölkələr üçün Moskva dövləti vasitəsilə Asiya ilə ticarət böyük mənfəətlər gətirə bilərdi[193]. Buna görə də, Volqa-Xəzər ticarət yolu əməli olaraq, əsasən, Moskva dövlətinin Azərbaycan və İranla ticarətinə xidmət edirdi.

XVI əsrdə rusların ölkədən ixrac etdikləri başlıca mal Şamaxıda, Ərəşdə, Təbrizdə və digər şəhərlərdə istehsal edilən xamna və ipək məmulatları idi[194].

Rus-Azərbaycan ticarətinin əsas hissəsi Şamaxı və Bakı vasitəsilə həyata keçirilirdi. Məsələn, Şamaxıdakı Moskva tacirlərinin nümayəndəliyi öz sənətkarlıq məmulatı ilə qızğın ticarət edir, buradan isə ipək alırdı. Şəhər bazarlarında, Orta Asiyadan, Türkiyədən, Hindistandan və digər ölkələrdən gətirilmiş mallar da var idi. Azərbaycandan Moskva knyazlığına ipəkdən əlavə Bakı nefti də ixrac edilirdi. İpək və neft Moskva tərəfindən Qərbi Avropa ölkəıərinə satılırdı. Gilan tacirləri Bakı neftini Manqışlaq dayanacağına çatdırırdılar. Oradan isə neft karvan yolu ilə Xivə və Buxaraya, həmçinin də Orta Asiyanın digər şəhərlərinə göndərilirdi[195]. Moskva ilə ticarətdə rusların Təbrizdə, Şamaxıda, Bakıda əldə etdikləri bəqqaliyyə malları, o cümlədən ədviyyat az yer tutmurdu.

Moskva dövlətindən Azərbaycana xəz dəri (samur, sincab, qara-qonur tülkü, dələ, şimal tülküsü, safsar), silah əşyaları (dəbilqə, dəmir geyim, zireh, qismən odlu silah), həmçinin metal məmulatları (baltalar, bıçaqlar və i.a.) daxil edilirdi. Moskva yolu ilə Azərbaycana habelə mahud, qarazəy, məxmər, şüşə, kağız və s. kimi Avropa malları da gətirilirdi[196].


downloaded from KitabYurdu.az

XVI əsrdə Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri də xeyli canlandı. Bu münasibətlərin inkişafı başlıca olaraq Avropa ölkələrində Azərbaycan ipəyinə böyük tələbatla bağlı idi. Avropanın kapitalist, manufaktura sənayesi Azərbaycanda bol istehsal edilən ipəyə kəskin ehtiyac duyurdu.

Avropalıların Azərbaycana can atması onların zəngin ehtiyatları olan Asiya ölkələrinə daxil olmaq məqsədilə, burada istehsal olunan və Avropada böyük tələbat duyulan qiymətli mallara, xammala olan ümumi maraqla bağlı idi. Buna görə də, avropalılar həmin ölkələrin iqtisadi ehtiyatlarını öyrənmək, kəşfiyyat aparmaq və imkan daxilində onlarla bilavasitə ticarət münasibətlərinə daxil olmaq məqsədilə, uzaq Asiya ölkələrinə (Hindistana və Çinə) soxulmaq üçün daha təkidli cəhdlər göstərməyə başladılar.

XV-XVI əsrlərin qovuşuğunda böyük coğrafi kəşflər, Vasko da Qamanın Afrika ətrafından Hindistana dəniz yolunu kəşf etməsi bu münasibətlərdə yeni dövrün başıanğıcını qoydu. XVI əsrin əvvəlində yaranmaqda olan Avropa kapitalist sənayesi özünün manufaktura mallarını satmaq üçün gəlirli bazarlar əldə etməyə, həmçinin ucuz və qiymətli xammal mənbələri mənimsəməyə cəhd edərək Asiyaya güclü maraq göstərməyə başladı.

Vasko de Qamanın kəşf etdiyi yol Asiya bazarlarını ələ keçirmək işində digər Avropa dövlətlərini qabaqlamış İspaniya və Portuqaliya tərəfindən ələ keçirildi.

Avropanın Asiya ilə əlaqələrinin köhnə istiqaməti (Hindistan və İranı Suriya limanları ilə əlaqələndirən Aralıq dənizi yolu) ticarət vasitələrindən böyük gəlir götürən Osmanlı türklərinin və venetsiyalıların əlində idi[197].

Bununla əlaqədar olaraq, Şimali Avropanın bir sıra ölkələrinin ticarət burjuaziyası dairələrində Moskva dövləti və Xəzər dənizi vasitəsilə İran və Hindistana gedən dəniz yolunu istifadə etməkideyası meydana gəldi. Venetsiyanın vasitəçiliyinin bu ölkələrə baha başa gəlməsi, XVI əsrin birinci rübündə isə türklər Suriya klimanları ilə birgə


downloaded from KitabYurdu.az

Ərəbistan yarımadasını tutduqdan sonra, Aralıq dənizi yolu üzərində sərt nəzarət qoymuş Osmanlı sultanlarının gömrük siyasəti bu işi xeyli dərəcədə sürətləndirdi.

Bu dövrdə Avropa dövlətlərinin iqtisadi mənafeləri onlar üçün heç də az əhəmiyyəti olmayan siyasi və hərbi mənafelərinə müvafiq gəlirdi. Yuxarıda göstərildi ki, Osmanlı imperiyası bu dövrdə Cənub Şərqi Avropada geniş təcavüzlarlıq siyasəti həyata keçirirdi ki, bu da Avropa dövlətlərini yaxınlaşmaqda olan birbaşa türk basqını təhlükəsinə qarşı uğurla mübarizə aparmaq üçün özlərinə etibarlı müttəfiqlər axtarmağa məcbur edirdi.

Məhz Səfəvilər dövləti avropalılar üçün belə təbii müttəfiq oldu. Səfəvi şahları lap əvvəllərdən bir sıra Avropa dövlətləri ilə onların qatı düşməni olan, yalnız Avropada deyil, həm də Asiyada təcavüzkarlıq edən Osmanlı sultanı əleyhinə hərbi ittifaq yaratmağa səy göstərirdilər. Buna görə də Səfəvilər adətən ticarət münasibətləri yaratmaq cəhdlərində avropalı tacirlərə yardım edirdilər.

Volqa-Xəzər yolunun işə salınmasının təşəbbüsçüləri ilk vaxtlar Moskva knyazlığından (IV İvandan) yardım görən ingilis tacirləri oldular. İngiltərə Asiya ilə ticarət əlaqələri yaratmaq üçün birinci vəzifə kimi Moskva knyazlığının bazarlarında öz mövqelərini möhkəmləndirməyi zəruri sayırdı. Buna görə də, 1555-ci ildə Londonda ingilis ticarət kapitalının iri nümayəndələri tərəfindən "Moskva şirkəti"nin əsası qoyuldu. Moskva dövləti də, onun əleyhinə iqtisadi blokadaya əl atmış Baltikyanı ölkələrindən yan keçərək dəniz yolu ilə İngiltərə ilə ticarət aparmaqda maraqlı idi[198]. Elə bu zaman IV İvan Narvanı tutdu. Bununla da Moskva dövləti Volqa yolunun bütün sahəsinin sahibi oldu. Bundan sonra "Moskva şirkəti"nin ingilis ticarət nümayəndələri Azərbaycana, İrana, həmçinin Orta Asiyaya bir sıra səyahətlər təşkil etmişdilər.

Volqa-Xəzər yolunun çıxış nöqtəsi Moskva idi. Tacirlər buradan Moskva çayı, Oka və Volqa ilə Həştərxana gəlirdilər. İngilis nümayəndələri Şərqə adətən Moskvaya gəlmədən, Yaroslavldan gedirdilər[199]. Tacirlər Həştərxandan Xəzər dənizinin qərb sahili boyunca


downloaded from KitabYurdu.az

üzür, çox vaxt Dərbəndə gəlmir (XV əsrin sonu üçün ticarət əhəmiyyətini itirmişdi), Niyazabad (Nizabad, Nizovaya) limanına yan alır və burad yükü sahilə boşaldırdılar. Buradan tacirkarvanları Şabrandan (Niyazabaddan 20 km cənubda) keçərək irəliləyir və Şərq ticarətinin mühüm mərkəzi olan Şamaxı şəhərinə gəlib çatırdılar. Şamaxıdan cənuba hərəkət edən səyyahlar Muğandakı Cavad şəhərindən (Kür və Arazın qovuşuğunda) keçərək Ərdəbilə gəlirdilər. Daha sonra, yolun biri Təbrizə, digəri Qəzvin və Kaşana, sonra isə İran körfəzinin sahilinə - Hörmüzə gedirdi. Volqa ilə Moskvadan Həştərxana gəlmək üçün Cenkinsonun səfərinə əsaslansaq, orta hesabla səfər üçün 40 gün tələb olunurdu[200]. Oradan da Şamaxıya qədər (Niyazabada qədər dənizlə, sonra isə Şabrandan quru yolu ilə) iki həftəlik yol var idi[201]. Beləliklə, Moskvadan Şamaxıya qədər olan yol təqribən iki aylıq vaxt tələb edirdi.

Qeyd etmək lazımdır ki, Volqa və Xəzər yolu çox qədim zamanlardan məlum idi. Hələ öyrəndiyimiz dövrdən xeyli əvvəl IX-V əsrlərdə ruslar Volqa və Xəzər dənizi ilə Azərbaycana qədər gəlib çıxırdılar. Onlar o vaxta qədər qarşılıqlı ticarət əlaqələri olan ərəb və rus tacirləri getdikləri yol ilə gedirdilər[202]. Buna görə də, belə hesab etmək səhv olar ki, Volqa-Xəzər yolundan ilkin istifadə olunması XV-XVI əsrlərə aiddir[203].

XVI əsrin ikinci yarısından və XVII əsrdən etibarən, Volqa-Xəzər yolu Moskva dövlətinin (və Avropanın) Asiya ilə əlaqələrində çox mühüm ticarət yolu kimi əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən ingilis Artur Edvardsın qeydləri diqqətə layiqdir. O öz səfərinin məqsədləri barədə, I Şah Təhmasibin suallarına cavab verərək, şaha ingilis tacirləri ilə bilavasitə əlaqələr saxlanmasının onun üçün necə faydalı olacağını izah edirdi: ingilislər şaha malları, "onları əvvəlcə İngiltərədən Venetsiyaya, oradan isə Türkiyə vasitəsilə İrana gətirən venetsiyalılara nisbətən Moskoviya yolu ilə, həm də daha təhlükəsiz və daha qısa müddətdə" gətirə biləcəklər. Bu halda mallar (yun parçalar, mahud) "ikinci və üçüncü vasitələrdənçoxsaylı gömrük rüsumları şəklində, böyük süni xərclərlə Səfəvilər dövlətinə gəlib çatır". İngilis şahı


downloaded from KitabYurdu.az

inandırırdı: “Buna görə də əgər bizim həyatımızın, əmlakımızın və mallarımızın təhlükəsizliyini təmin edən imtiyazlarla sizin bütün mülklərinizdən bizə sərbəst keçib getmək imkanı verilməösizati-alilərininiz üçün sərfəlidirsə, biz sizin ölkənizə bütün bu və başqa malları, türklərin əllərindən aldığınıza nisbətən, tez və ucuz bilərik”[204].

“Moskva şirkəti” Səfəvilər dövlətinin sərəncamına birinci olaraq 1562-ci ildə özünün təcrübəli nümayəndəsi, cəsur səyyah və diribaş tacir, bundan bir qədər əvvəl uzaq Buxara səfərindən qayıtmış Antoni Cenkinsonu göndərdi. Cenkinson öz vəzifəsini uğurla yerinə yetirdi. O, Şirvanın qüdrətli canişini Abdulla xan Ustaclıdan Səfəvilər dövləti ərazisində ticarət mtiyazları, rüsumsuz və maneəsiz ticarət etmək hüququ almağa nail oldu. Abdulla xan Moskva dövlətinə və İngiltərəyə ipək izracını Şirvanın və bütün ölkənin iqtisadiyyatı üçün faydalı iş sayırdı və buna görə də, şahı faydalı iş təklifinə xeyirxahlıqla yanaşmağa inandırmışdı.

A.Cenkinsona təqdim olunmuş fərmanın mətnini veririk:

“Biz, Abdulla xan, göyün və yerin yaradıcısı Allahın qüdrəti ilə təyin olunmuş və indi də səltənət sürən Şirvan və Hirkan kralı[205], bizim əzizimiz və istəklimiz elçi Antoni Cenkinsonun təkidli ərzihalı və xahişləri nəticəsində bizim təşəbbüsümüz və böyük mərhəmətimizlə yalnız çox möhtərəm ser Uilyam Gerretə, ser Uilyam Çestora, ser Tomas Loca, cənab Riçard Melleriyə və cənab Riçard Çemberlenə, onların İngiltərənin London şirkətindən olan bütün tacir-sahibkarlar dəstəsinə bizim ölkəyə ticarət aparmaq üçün mallarla gəlmələrinə və ya bu məqsədlə öz nümayəndələrini göndərmələrinə, keçməyə, başqa şəxslərlə nağd pulla, yaxud mübadilə etməklə alqı-satqı aparmağa, arzu etdikləri qədər bizim ölkədə qalmağa və yaşamağa və istədikləri vaxt, istər onların özlərinə, istərdə də mallarına münasibətdə yubanmadan, əngəlsiz və maneəsiz getməyə tam sərbəstlik, təhlükəsiz buraxılış və icazə hüququ verdik və bağışladıq.

Sonra, hökm vermək istərdik ki, yuxarıda göstərilən ingilis tacirləri və onların şirkəti bizim mülklərimizdə alacaqları və satacaqları mallar


downloaded from KitabYurdu.az

üçün heç bir rüsum verməyəcəklər. Əgər hər hansı bir vaxtda bizim vergi yığanlarımız, bizim digər qulluqçularımız, yaxud onlardan kimsə bizim bu hökmümüzü pozaraqəngəl və sui-istifadə törədib, bu ingilis tacirlərindən, yaxud onların nümayəndələrindən, onların bizim mülklərə gətirdiyi, yaxud buradan apardığı mallardan hər hansı rüsum almağa güc işlədərlərsə, yuxarıda deyilən yığıcılar və qulluqçularöz vəzifələrindən kəönar edilsinlər, bundan sonra bizim gözümüzdən düşməyə düçar edilsinlər, yığıcılarımızın bizim xəzinə üçün onlardan topladığı bütün pullar və mallar isə ingilis tacirlərinə qaytarılsın. Göstərilən ingilis tacirləri, yaxud onların nümayəndələri bizim xəzinəmiz üçün yararlı olan hər hansı mallar gətirərlərsə, xəzinədar belə malları xəzinəyə qəbul etməli və ingilis tacirlərinə həmin malların dəyəri həcmində ya nağd pul, yaxud xamna ödəməlidir. Bizim imtiyazlı fərmanımızmülklərimizin hər yerində təqdim edilərsə, yaxud oxunarsa, biz tələb və hökm edirik ki, onun qüvvəsi olsun və bütün məntəqələrdə ona əməl edilsin”[206].

A.Cenkinsonun Azərbaycanda aldığı imtiyazlar Avropa dövlətlərinin ilkin kapital yığımı zamanı Şərqin sosial-iqtisadi cəhətdən geridə qalmış ölkələrindəaldıqları kapitulyasiya adlanan qeyri-bərabər müqavilələri daha çox xatırladır. Abdulla xanın imtiyazlarına görə, “Moskva şirkəti”nə. Ingilis tacirlərinə imkan verilirdi: 1) ölkəyə gəlmək və burada qeyri-məhdud müddətdə qalmaq hüququ; 2) ingilis mallarının ölkəyə sərbəst və xüsusilə rüzumsuz gətirilməsi, burada satılması.

1563-cü ildə əllərində Abdulla xanın fərmanı olan (A.Cenkinsonun onlara verdiyi) ingilis tacirləri Tomas Olkok, Corc Renn və Riçard Çini Azərbaycana gəlmişdilər[207].

İngilis tacirləri Riçard Consonun, Aleksandr Kitçinin və Artur Edvardsın 1565-1567-ci illərdə Azərbaycana üçücü səfəri zamanı “Moskva şirkəti”nin qarşısında İngiltərə-Azərbaycan ticarətini genişləndirmək, Azərbaycandan ixrac olunan ipək üzərində inhisarı ələ keçirmək üçün ümidverici imkanlar açılmışdı. Artur Edvards özünün 1566-cı il aprelin 26-da şirkətin idarəsinə məktubunda yazırdı: “Mən hər halda şübhə etmirəm ki, hərgah imtiyaz əldə edilərsə, biz arxayın


downloaded from KitabYurdu.az

yaşayacağıq, dincələcəyik.  Tezliklə xamna və ipək parçalar, hər cür ədviyyat və rəngsazlıq malları, eləcə də buranın digər malları ilə ticarətdə böyük firmaya çevriləcəyik”[208].

İngiltərədən Səfəvilər dövlətinə gətiriləcək, oradan isə İngiltərəyə aparılacaq (qiymətləri də göstərilməklə) malların A.Edvards tərəfindən tərtib edilmiş siyahısı böyük maraq doğurur. Gətiriləcək malların arasında qarazəy, qalay, mis qab, nazik qırmızı mahud və misin; aparılacaq mallar arasında isə xamna, bibər, zəncəfil, kükürd, xəz, düyü, qoz, mixək və s. adları çəkilir[209]. Malların böyük qismini şah xəzinəsi alırdı. Bu barədə I Şah Təhmasibin ingilislərdən almaq arzusunda olduğu malların siyahısı əsasında mühakimə yürütmək olar. Şahın tərtib etdiyi həmin siyahıya qızıl və gümüş, zərxara, müxtəlif rəngli məxmər, naxışlı, gümüşü ipək parça, bütün növlərdən atlas, sıx toxunmuş yun parça, qarazəy, yaraq-əsləhə, dəmir geyimlər, tapancalar və s. daxil edilmişdi[210].

Həmin il iyunun 29-da A.Edvards I Şah Təhmasibdən şirkət üçün bir sıra yeni imtiyazlar da əldə etməyə nail oldu. Edvards xəbər verir ki, fərmana möhür vurulmuş və şahın əli ilə imzalanmışdı[211].

Artur Edvardsın şirkət rəhbərlərinə öz məktublarından birində məlumat verdiyi I Şah Təhmasib fərmanının bəzi maddələrinin məzmununu göstərək.

1. Şirkət nümayəndələrinə indi və gələcəkdə, şahın varisləri dövründəheç bir rüsum, yaxud vergi verməmək hüququ bağışlanırdı. İngilis tacirləri öz adamlarının müşayiəti ilə ticarət işlərinin ardınca şahın bütün şəhərlərinə və mülklərinə gedə bilər.Hər cür malları ala və sata bilərdi.

2. İngilis tacirlərinin olacağı bütün şəhərlərdə valilər, hakimlər onlara kömək etməli, onları pis adamlardan qorumalı və onlara hər hansı zərər yetirmiş adamları cəzalandırmalıdırlar..

3.  Kmliyindən asılı olmayaraq, hər hansı şəxsin borcunu təşkil edən bütün pul məbləği üzrə onun ödənilməsi müddəti ötmüşsə, borclu məhkəməyə gətiriləcək və pullar həmin gün ödəniləcəkdir.


downloaded from KitabYurdu.az

4. Mövqe və dərəcəsindən asılı olmayaraq, heç kəs şirkət müvəkkillərinin icazəsi və razılığı olmadan hər hansı malı, yaxud hədiyyəni almağa cəsarət edə bilməz.

5. Əgər təsadüfən bu tacirlərdən, yaxud qulluqçulardan kimsə şah təbəələrindən kimi isə öldürərsə, bu zaman onların mallarından heç nəyə toxunulmamalı və bu işə qarışmamalı, eləcə də zərərverəndən qeyri, heç bir şəxs həmin işə qarışdırılmamalıdır.

6. Hazırda bizdən borc alınmış, yaxud gələcəkdə borc alınacaq bütün məbləğlər, bizlərdən biri olmadığı təqdirdə digərinə ödənilir.

7. Əgər hər hansı mal alınmış, yaxud satılmışsa, onu qaytarmağa heç kəsin hüququ yoxdur[212].

1568-1569-cu illərdə Artur Edvards (artıq ikinci dəfə), Con Spark, Lorens Çepmen, Xristofor Dovset və Riçard Pinqlın daxil olduğu ingilis tacirlər dəstəsi dördüncü dəfə Azərbaycana gəldi. Yenidən Edvardsın fəallığı sayəsində, Şah Təhmasib şirkətin nümayəndəsi Lorens Çlepmenə ingilis tacirləri üçün yeni ticarət imtiyazları bağışladı[213].

A.Edvardsın xəbər verdiyi kimi, L.Çepmenə verilmiş imtiyazlarda belə bir maraqlı bənd də var imiş ki, əgər şirkətin qulluqçularından xristian olan kimsə öz etiqadını dəyişmək və islamı qəbul etmək istərsə, o, şirkət tərəfindən cəzalandırıla bilər və heç kəs bu işə qarışmamalıdır[214]. Edvardsın sözlərinə görə, Səfəvilər dövlətində ingilislərin vəziyyəti o vaxtadək narahat və təhlükəli idi. Məsələn, əgər yadelli bir təsadüf üzündən "yerlini" öldürərdisə, öldürülənin əvəzinə iki nəfərin həyatı tələb edilirdi. Yadellinin borcu əvəzinə həmin millətdən olan hər bir adamın əmlakını mənimsəmək və digər sərbəstliklərə yol vermək olardı[215].

İngilislərin Tomas Benister və Ceffri Deketin başçılığı ilə 1569-cu ildən 1574-cü ilə qədər davam etmiş beşinci ekspedisiyası, Səfəvilər dövlətində "Moskva şirkəti"nin [216] fəaliyyətində ən yüksək nöqtə oldu. Əgər o vaxta qədər ingilis tacirlərinin fəaliyyəti Azərbaycanın və İranın qonşu vilayətlərinin ərazisi ilə məhdudlaşırdısa, bu dəfə ingilislərin qrupu C.Deketlə İran şəhəri Kaşana ticarət səfəri etdi. Davamiyyətinə və


downloaded from KitabYurdu.az

ticarətin həcminə görə ingilislərin bu ekspedisiyası ən böyüyü idi, lakin səfərin sonunda ingilislərin rus kazakları tərəfindən Volqanın mənsəbində qarət edilməsi pərtliyə səbəb oldu[297].

Ekspedisiya üzvlərindən biri olan Layonel Plemtrinin məlumatlarına görə, Hindistana səfər etmək barədə ingilislərin bir xahişi Şah Təhmasib tərəfindən rəd edilmişdi[218]. Bu, onunla izah edilirdi ki, Səfəvi tacirləri özləri hind malları ilə, o cümlədən ədviyyatla ticarətdə vasitəçilik edir və bundan böyük qazanc götürürdülər.

XVI əsrdə ingilislərin Azərbaycana (haqqında Xristofor Berrounun məlumat verdiyi) altıncı və sonuncu səfəri uğursuz oldu. Bu səfər 1580-ci ildə Osmanlı Türkiyəsinin qoşunlarının Şirvan şəhərlərini tutduğu vaxt olmuşdu. Şirvan iqtisadiyyatı tənəzzül keçirirdi və buna görə də X.Berrou ingilislərin gətirdiyi malların pis satılmasından şikayət etmişdi[219].

Bununla da ingilis tacirlərinin Səfəvilər dövlətinin bazarlarında möhkəmlənmək cəhdləri boşa çıxdı.

B.A.Əhmədov Azərbaycana ingilis ticarət ekspedisiyalarının dayandırılmasından bəhs edərkən şimal və Volqa-Xəzər yolunun uzunluğu, yollardakı soyğunçuluqlar, Türkiyə ilə müharibəyə cəlb edimiş Səfəvilər dövlətinin daxili vəziyyətinin əlverişsizliyi, digər ölkələrin rəqabəti vəs.ilə bağlı bir sıra obyektiv maneələri göstərir[220]. Lakin "İngiltərənin müstəmləkə ekspansiyasının qarşısının alınmasında mərkəzləşdirilmiş rus dövlətinin qəti mövqeyi həlledici rol oynadı" müddəasının təshihlərə ehtiyacı vardır. Bu fikir o mənada doğrudur ki, ingilislər Azərbaycana Volqa-Xəzər yoluna bütünlüklə nəzarət edən Moskva dövlətinin ərazisindən keçib gedirdilər. Lakin əgər B.A.Əhmədov ingilislərin Azərbaycana göndərilən ekspedisiyalarına İngiltərənin müstəmləkə ekspansiyası kimi baxırsa, onda qeyd edilməlidir ki, Səfəvilər dövləti o dövrün ən böyük Asiya dövlətlərindən biri idi. O, Balkanı işğal etmiş və bütün Avropanı dəhşətə gətirmiş qüdrətli Osmanlı Türkiyəsinə qarşı dururdu. Şübhə yoxdur ki, əgər


downloaded from KitabYurdu.az

“Moskva şirkəti”nin fəaliyyəti real təhlükə doğurardısa, Səfəvilər dövləti elə İngiltərənin özünə də lazım olan cavabı verə bilərdi.

B.A.Əhmədov Azərbaycanda ingilislərin ticarətinin əhəmiyyəti və miqyasını da bir qədər şişirdir. İngilislərin imtiyazlar haqqında fərmanlar almasına əsaslanaraq, Səfəvilər dövlətində ingilis tacirlərinin mövqelərinin həqiqətən möhkəmlənməsi barədə mühakimə yürütmək olmaz. Feodal münasibətlərinin və şah istibdadının tam hökmranlığı şəraitində bu mövcud dövlət təsisatları təminat verə bilməzdilər və bunlar istənilən vaxt şah, yaxud yerli hakimlər tərəfindən onların öz mülahizələrinə əsasən, ləğv edilə bilərdi.

Bütövlükdə, ingilislərin Səfəvilər dövlətinə təsadüfi xarakter daşıyan, çoxlu məsrəf və zərərlərlə bağlı olan ekspedisiyaları “Moskva şirkəti” kapitallarının çoxalmasına az-çoz əhəmiyyətli təsir göstərə bilməzdi.

Sonralar rus tacirləri ingilislərin Volqa-Xəzər yolundan istifadə olunmasında imtiyazlarının ləğv edilməsində təkid edirdilər. Çünki özləri Azərbaycanla və qonşu Asiya ölkələri ilə faydalı ticarətə getdikcə daha çox maraq göstərirdilər.

Azərbaycan Şimali və Mərkəzi Avropa dövlətləri ilə də ticarət edirdi. Bunu xüsusilə numizmatik materiallar təsdiq edir. Məsələn, Azərbaycanda aşkara çıxarılmış Mirik pul dəfinəsi 1541-1572-ci illərdə zərb edilmiş Qərbi Avropa talerlərindən ibarətdir. Dəfinədəki sikkələr tərkibinə görə olduqca müxtəlifdir: burada Almaniya (Şvabiya, Bohemiya, Bavariya, Friziya, Saksoniya, Köln, Drezden, Nürnberq, Hamburq və s.), Avstriya, İsveçrə (Sürix), Belçika (Lyoj) və başqa ölkələrin knyazlıqlarında zərb edimiş sikkələr var idi[221].

Bu pulları tədqiq etmiş Y.A.Paxomov yazırdı: “Onlar özünün müxtəlifliyi ilə ipək sayəsində indiki Qafqaz Azərbaycanı ərazisi ilə Qərbi Avropanın orta hissəsi arasında XVI əsrdə mövcud olmuş iqtisadi əlaqələri yaxşı səciyyələndirir”[222].


downloaded from KitabYurdu.az

VI FƏSİL

# SƏFƏVİLƏR DÖVLƏTİNİN SİYASİ-İNZİBATİ QURULUŞU

## Mərkəzi bürokratik aparat

Səfəvilər dövləti tipik feodal monarxiyası idi. Dövlətin başında duran Səfəvi şahları dünyəvi hökmdarlar kimi nəinki qeyri-məhdud hakimiyyətdən istifadə edir, həm də (bunu qeyd etmək xüsusilə vacibdir) öz simalarında Ərdəbil dərviş təriqətinin irsi başçıları kimi ali mənəvi (ruhani) hakimiyyəti təmsil edirdilər[1].


downloaded from KitabYurdu.az

Səfəvi hökmdarları digər Şərq müstəbidləri kimi dövlət məsələlərini təkbaşına həll edirdilər. Onların yanında məşvərətçi hüququna malik olan ali məclis (məclisi-əla) olurdu. Alessandrinin xəbər verdiyi kimi, I Şah Təhmasibin dövründə, məclis 2dövlət işlərində böyük təcrübəsi olan adamlardan" – 12 nəfər üzvdən (sultanlardan) ibarət idi. Sonra o, məclisin işini təsvir edir: "Kral yerdən çox da hündür olmayan taxtda oturur və oğulları saraydadırlarsa, onun arxasında əyləşirlər. Xüsusən kralın müavini, Sultan Heydər Mirzə onun diqqət dairəsindən kənarda qalmır. Vitse-krallar adlanan dörd müşavir onunla üzbəüz əyləşir. Şah suallar qoyur, onların barəsində danışır. Sultanların fikrini soruşur və onlardan hər biri öz fikrini söylərkən ayağa durur, şaha yaxınlaşaraq həmkarlarının onu eşidə bilməsi üçün ucadan danışır. Əgər müzakirə zamanı şah maraqlı bir fikir eşidərsə, bu (onun göstərişi ilə) yüksək müşavirlər tərəfindən qeydə alınır. O, çox vaxt bunu şəxsən qeyd edir. Beləliklə, hər kəs növbə üzrə, kralın xahişi ilə öz fikrini söyləyir. Məsələnin mahiyyətinə kralın şübhəsi qalmırsa, həmin məsələ olk şurada həll edilir. Əgər onun şübhəsi qalırsa, bütün şuranın fikrini dinləyir. Sonra isə məsələni şəxsən nəzərdən keçirir və həll edir"[2].

Yuxarıda deyldiyi kimi, Səfəvilər dövlətinin ərazisi iki hissəyə bölünürdü: divan və xassə vilayətləri. Bu bölgüyə müvafiq olaraq onları idarə etmək üçün iki əlahiddə idarə fəaliyyət göstərirdi: divan-i məmalik və divan-i xassə[3], yəni "dövlət vilayətləri divanı" və "şah vilayətləri divanı". Bu təşkilatlar Səfəvilər dövlətinin əsas maliyyə idarələri idi. Divan-i xassəyə aid olan vilayətlər şəxsən şaha və Səfəvilər sülaləsinin digər nümayəndələrinə məxsus idi. Bu vilayətlər şahın müvəkkilləri – vəzirlər tərəfindən idarə olunurdu.

İlk Səfəvilər dövründə dövlət aparatı, inzibati sistem XVII əsrdə müşahidə etdiyimizdən daha sadə idi. "Təzkirət əl-mülük"də verilmiş təsvirə görə, bu sadəlik əsasən mərkəzi saray idarəsinin hesabına özünü göstərirdi. Bu, onunla izah olunur ki, XVI əsrdə Səfəvi şahları daim yürüşlərdə olur və paytaxtda az vaxt keçirirdilər. Yürüşlərdə onlarla


downloaded from KitabYurdu.az

birlikdə bütün saray əyanları və əmirlər də iştirak edirdilər. Buna görə də Səfəvilər daha ucuz başa gələn idarə aparatı ilə keçinirdilər.

İlk Səfəvilər dövründə rəhbər vəzifələr bunlar idi: vəkil, əmir əl-üməra, qorçibaşı, vəzir və sədr. İndi də onlara ayrı-ayrılıqda nəzər salaq.

**Vəkil** şahdan sonra ikinci şəxs sayılırdı və əslində, istər dünyəvi, istərsə də dini işlərdə onun tam hüquqlu müavini idi. O, siyasi və dini tədbirlərin həyata keçirilməsindəqayda yaradılması üçün şahın qarşısında məsuliyyət daşıyırdı. Bu vəzifənin əhəmiyyəti ondan görünür ki, onu tutan ilk şəx məhz İsmayılın tərbiyəçisi (lələsi) – Hüseyn bəy Şamlı olmuşdur. O, İsmayılın Gilanda olduğu 4-5 il ərzində "Səfəviyyə" təriqətinin bütün işlərini idarə etmiş "yaxın şəxslərdən" ("əhl-i ixtisas") biri idi. Xondəmir xəbər verir ki, İsmayıl Təbrizi ələ keçirdikdən dərhal sonra Hüseyn bəy Lələ "vəkalət-i nəfs-i nəfis-i hümayun", yəni "Əlahəzrətin şəxsi müavini" vəzifəsinə təyin olunmuşdu[4]. Hüseyn bəy lələ vəkil vəzifəsindən azad edidikdən sonra (1508) onun yerini Rəşt əyanlarından olan Nəcməddin məsud gilani tutmuşdu. Keçmişdə mahir zərgər olmuş (onun "zərgər" təxəllüsü də buradandır) Əmir Nəcməddin İsmayıla Gilanda yaxınlaşmışdı. Sonra o, Biye-pəs Gilanının hakimi Əmirə İshaqın sərkərdəsi (sipahsaları) olan Kosa Abbasın əlindən qaçmış, Şah İsmayılın qərargahına gəlmiş, qızılbaşların Fərrux Yasara qarşı yürüşündə iştirak etmişdi. Salnaməçilər bu fikirdə yekdildirlər ki, Əmir Nəcməddin vəkil vəzifəsində fövqəladə dərəcədə böyük hakimiyyətə nail olmuşdu[6]. O, hicri 915 (1509-1510)-ci ildə vəfat etdi. Əmir Yarəhməd Xuzani vəkil təyn olundu və ona "Nəcmi-Sani" ("ikinci ulduz") adı verildi[7]. Öz sələfi Nəcməddin Məsudun xahişnaməsi sayəsində Yarəhməd əvvəlcə vəzir təyin olunmuşdu və "sahib-i divan" kimi işləri idarə edirdi[8]. O, tezliklə şahın etibarını qazandı və onun himayəsi sayəsində dövlət işlərində böyük hakimiyyət sahibi oldu[9]. Ehtimal etmək olar ki, təşəxxüslü Nəcmi-Sani öz hakimiyyəti ilə sələflərini ötüb keçmişdi. O, 1512-ci ildə özbəklərə qarşı qızılbaş qoşunlarının yürüşündə özünün hərbi başçı vəzifəsinə təyin edilməsinə nail oldu. Lakin yürüş tam uğursuzluqla başa çatdı. Salnaməçilərin məlumatlarından aydın olur ki,


downloaded from KitabYurdu.az

Şeybani xan 1510-cu ildə darmadağın edildikdən sonra Babur Kabildən hərəkətə başladı. Məvaraünnəhrdə onun hakimiyyətini tanımaq təəhhüdü ilə İsmayılla birlikdə özbəklərə qarşı ittifaq təklif etdi. I Şah İsmayıl Baburun təklifini qəbul etdi. O, böyük bir qızılbaş dəstəsini Babura köməyə göndərdi. Hər iki qoşun özbəklərin tərk etdiyi Səmərqəndə qədər qalibiyyətlə irəlilədi. Qızılbaş əmirlərinə çoxlu hədiyyələr bağışlayan Babur, İsmayıl üçün hədiyyələr gətirən əlavə dəstə yola saldı. Lakin vəkil Nəcmi-Saninin xidmətçisi olan Məhəmmədcana "kifayət qədər diqqətlə" yanaşmadı. Nəcmi-Sani Qumda olan Şah İsmayıla məlumat verdi ki, guya Baburun düşmənçilik niyyətləri vardır. O zaman Şah İsmayıl Nəcmi-sanini qızılbaş qoşunu ilə Məvaraünnəhrə göndərdi. Mənbələrdən aydın olur ki, burada iki əməliyyat keçirilmişdir. Birincinin (Nəcminin iştirakı olmadan) nəticəsində Səmərqənd və Buxara tutuldu. Nəcmin başçılıq etdiyi ikinci əməliyyat isə sərkərdənin qəddarlığı, kütlüyü və inadkarlığı nəticəsində (sayı 15 min nəfər olan Qərşi sakinləri Nəcminin əmri ilə kütləvi şəkildə qılıncdan keçirildi; hətta seyidlərə də aman verilmədi) Səfəvi qoşunlarının tamamilə darmadağın edilməsi ilə başa çatdı. Nəcmin özü özbəklər tərəfindən əsir alındı və Übeydulla xanın əmri ilə edam edildi[10].

Sonrakı vəkil, o vaxta qədər sədr vəzifəsini tutmuşƏmir Nizaməddin Əbdülbaqi Yəzdi oldu. Nəcmi-Sani qızılbaş qoşunlarını Məvaraünnəhrə aparanda əmir Əbdülbaqi onun müavini təyin olunmuşdu. Nəcmi-Sani həlak olduqdan sonra isə özü 1514-cü ildə Çaldıran vuruşmasında ölənədək onun vəzifəsini tutdu[11].

Vəkil vəzifəsində onun xələfi Mirzə Şah Hüseyn İsfahani oldu. O, öz vəzifəsini sələflərinə nisbətən daha uzun müddət yerinə yetirdi və 1523-c ildə, onun hədsiz hakimiyyətindən narazı qalan qızılbaş əyanlarının fitnə-fəsadları nəticəsində öldürüldü[12]. R.Seyvori qeyd edir ki, bu dövrdə vəkilin şah müavini kimi dünyəvi və dini hakimiyyətdə səlahiyyətləri azalır, mülki idarə və dövlət bürokratiyasının başçısı kimi rolu artırdı[13].


downloaded from KitabYurdu.az

Şah vəkil vəzifəsinə Xacə Cəmaləddin Məhəmməd Təbrizini irəli sürdü. “Onun qabil qamətini fəxri xələt və qızıla tutulmuş tac bağışlamaqla bəzədi və onun əzəmət bayrağını əlçatmaz ulduzlara qədər ucaltdı”[14]. O, I Şah İsmayılın vəfatından sonra öz vəzifəsində qaldı, lakin tezliklə Div Sultan Rumlu tərəfindən öldürüldü[15].

I Şah İsmayılın vəfatından sonrakı ilk onillikdə, qızılbaş tayfaları əmirlərinin hökmranlığı zamanı vəkil vəzifəsi yenidən özünün ilkin əhəmiyyətini və qüvvəsini əldə etdi. Tayfa başçıları gənc şahın köməksizliyindən istifadə edərək, yüksək və gəlirli vəkil vəzifəsi uğrunda qanlı mübarizəni davam etdirirdilər. Vəkil vəzifəsində Div Sultan Rumlu, Çuxa Sultan Təkəli və Hüseyn xan Şamlı bir-birini əvəz etdilər. Onlar əslində azyaşlı I Şah Təhmasibin dövründə vəkil vəzifəsinə öz sələfini öldürməklə keçən, tam hakimiyyətli və qüdrətli səltənət naibləri idilər. Onlardan sonra vəkil vəzifəsi haqqında mənbələrdə məlumat verilmir.

**Əmir əl-üməra, yəni “əmirlər əmiri”.** İlk Səfəvilər dövründə nizami ordu yox idi və qoşunlar müharibə baş verdiyi təqdirdə qızılbaş tayfaları əmirlərinin qeyri-nizami hərbi qüvvələrindən təşkil edilirdi. Əmir əl-ümər mahiyyətcə Səfəvi ordusunun baş komandanı idi. Hərbi iş bütünlüklə Azərbaycan feodallarının əlində olduğuna görə, əmir əl-ümərə vəzifəsi təbii olaraq qızılbaş tayfa əyanlarının inhisarında olan imtiyaz sayılırdı. Bu vəzifəni tutanlar arasında, eyni vaxtda həm də vəkil olmuş Hüseyn bəy Şamlını, 1509-1523-cü illərdə əmir əl-ümərə olmuş Məhəmməd bəy Süfrəçi Ustaclını (Çayan Sultanı)[16], onun oğlu Byazid Sultanı[17] göstərmək olar. Div Sultan Rumlu, Çuxa sultan Təkəli və Hüseyn xan Şamlı bir-birinin ardınca vəkil olmuş, eyni zamanda əmir əl-ümərə vəzifəsini ona uyğunlaşdırıb icra etmişdilər. Sonuncu halda vəkil və əmir əl-ümərə vəzifələri arasında hədd qoymaq çox çətindir. Çünki mənbələr bu vəzifələri tez-tez eyni şəxslərə aid edirlər. Mənbələrdən aydın olur ki, hicri 937 (1532-1531)-ci ildə I Şah Təhmasib əmir əl-ümərə vəzifəsini Hüseyn xan Şamlıya və Abdulla xan Ustaclıya etibar etdi və onlar həmin vəzifəni birgə yerinə yetirdilər[18]. Onlar hər ikisi Şah İsmayılın bacısı oğlanları idilər. Həmdə Abdulla xan Ustaclı sonralar



downloaded from KitabYurdu.az

Şirvan hakimi olmuşdu. Daha sonra, hicri 975 (1567-1568)-ci ildə əir əl-üməra və azərbaycan sərhədlərinin hakimi kimi qeyd olunan Şahqulu Sultan Ustaclı məsul elçi kimi türk sultanı II Səlimin yanına göndəriləndə bu vəzifənin adı çəkilir[19].

**Qorçibaşı** "qorçilərin rəisi" – qızılbaş tayfalarının döyüşçülərindən ibarət olan şah qvardiyasının başçısı anlamını verir. V.F.Minorski göstərir ki, ilk Səfəvilər dövründə daimi qoşun yox idi və qorçibaşı "hərbi nazir" idi, onun adi adı da elə əmir əl-ümərа olmuşdur[20].

Salnamələrdə qorçibaşı adını ilk dəfə çəkən Həsən bəy Rumlu hicri 911 (1505-1506)-ci ildə yazırdı ki, bu il Şah İsmayıl "Sultan Heydərlə döyüşdə (onun düşmənlərinin) tərəfində iştirak edənlərin hamısını öldürməyi əmr etmişdir. O, bunu təhqiq etməyi qorçibaşı Əbdül bəy Dədəyə tapşırmışdır"[21]. I Şah İsmayılın anonim tarixində bəzi təfsilatlar vardır. Buradan aydın olur ki, qorçibaşı qoşunla Şirvana yollanmış, çoxlu "türkməni", Tabasaran və Şirvan sakinlərini qırmışdır[22]. Əbdül bəy Dədə Talış sakini idi. O, Şeyx Heydərin ölümündən sonra, gənc İsmayıl Gilanda olduğu dövrdə, Ərdəbil təriqətinin işlərini aparmış məhdud şəxslər dairəsinin – "əhl-i ixtisas"ın üzvü olmuşdu. Lakin sonralar qorçibaşı vəzifəsini siyasi həyatda az nəzərə çarpan adamlar tuturlar: hicri 915 (1509-1510)ci ildə qorçibaşı kimi Yegan bəy Təkəlinin adı çəkilir[23]. 920 (1514-1515)-ci ildə bu vəzifədə Sarı Pirə Ustaclı olmuşdu[24]. Səfəvilər dövləti banisinin dövründə qorçibaşı əmir əl-ümərа ilə müqayisədə xeyli kiçik sima idi. I Şah Təhmasibin dövründə qorçibaşı vəzifəsində hicri 937 (1534)-ci ildə təkəli tayfasının qiyamı yatırılarkən öldürülmüş Durə bəy Təkəlinin adı çəkilir[25]. Sonralar siyasi və hərbi dairələrdə qorçibaşının rolu artır. Hicri 945 (1538-1539)-ci ildən, yəni hicri 969 (1561-1562)-cu ilədək qorçibaşı vəzifəsini tutmuş Sevindik bəy Əfşarın adına mənbələrdə təsadüf olunur[26].

II Şah İsmayılın tədbirlərindən biri qorçibaşı vəzifəsinə Kirman hakimi Allahqulu bəy Əfşarı təyin etmək olmuşdu[27]. Məhəmməd Xudabəndənin dövründə bu vəzifəni sarayda böyük nüfuzu olan Qulu


downloaded from KitabYurdu.az

bəy Əfşar tutmuşdu. Maraqlıdır ki, qorçibaşıların əksəriyyəti qızılbaş əfşar tayfasından çıxmışdı.

**Vəzir** mülki bürokratiyanın ənənəvi başçısı idi. İlk Səfəvi şahının dövründə vəkil və əmir əl-ümərа dövlət idarəçiliyi işlərində vəziri ikinci plana sıxışdırıb hakim mövqeyə malik olduqlarından, onun rolu əhəmiyyətsiz idi. Qüdrətli şiə ruhanilərinin işlərinə vəzirin qarışmasına yol verməyən sədrin olması da vəzirin hüquq və vəzifələrini məhdudlaşdırırdı.

Səfəvilərin ilk vəziri uzun müddət Ağqoyunlu hökmdarlarına vəzirlik etmiş Şəmsəddin Zəkəriyyə Keçəçi Təbrizi olmuşdu[28]. O, hicri 906 (1500)-cı ildə, İsmayıl Şirvanşahlara qalib gəlib Mahmudabadda[29] qışladığı vaxt ona qoşulmuş və vəzarət-divani əla vəzifəsinə təyin edilmişdi. İsmayıl onun mühüm rolunu qeyd edərək ona "Azərbaycanın açarı" adını vermişdi[30]. İki il sonra – hicri 909 (1503-1504)cu ildə Əmir Zəkəriyyə ilə birlikdə Əlvənd Ağqoyunlunun divanında qulluq etmiş Qəvaməddin Mahmud xan (yaxud Mahmudcan) Deyləmi Qəzvini vəzir təyin olunmuşdu[31]. Çaldıran vuruşmasına qədər əlimizdə vəzir vəzifəsinə təyinatlar barədə məlumat yoxdur. Şah Hüseyn İsfahani vəkil olduğu dövrdə bu vəzifəyə Xacə Cəmaləddin Məhəmməd Təbrizi ilə birgə Qazi Cahan Qəzvini təyin olunmuşdu[32].

Biz artıq I Şah İsmayılın sonuncu dəfə təyin etdiyi vəzirin onun ölümündən dərhal sonra edam olunduğu barədə danışmışıq. "Yüksək divan" üzərində nəzarət Qazi Cahan Qəzviniyə etibar edilmiş, sonra isə hicri 931 (1524-1525)-ci ildə vəkil və əmir əl-ümərа Div Sultan Rumlu tərəfindən vəzifəsindən kənar edilmiş, qalaya salınmışdılar[33]. Onun yerinə Mir Cəfər Savəci təyin olundu. Div Sultanın vəziri Ağa Molla Qəzvini, Çuxa Sultanın vəziri Xacə Arux (ehtimal ki, Oruc) Savəci kimi ona da hər gün irili-xırdalı bütün işlər barədə Div Sultana, Köpək Sultana və Çuxa Sultana məlumat çatdırmaq əmr edilmişdi[34]. Güman etmək olar ki, bu, Div Sultanın ustaclı əyanları ilə münasibətləri açıq şəkildə pozulana qədər, 1525-ci ilin bir neçə ayı ərzində dövləti idarə etmiş əmirlər üçlüyünə öz tövsiyələrini hazırlamaq məqsədilə təsis edilmiş üç


downloaded from KitabYurdu.az

vəzirin şurası idi. Ağa Mollanın sonrakı fəaliyyəti barədə bizim məlumatımız yoxdur. Lakin əlimizdə məlumatlar vardır ki, Mir Cəfər Savəci və Xacə Arux (yaxud Oruc) bərabər hüquqla birlikdə hicri 938 (1531-1532)-ci ilədək vəzir vəzifəsini tutumuşlar. Həmin ildə Hüseyn xan Şamlı vəkil vəzifəsini zorla ələ keçirmiş, ilk növbədə hər iki vəziri həbs etmiş, 2onların topladıqları çoxlu əmlak və pulları əllərindən almışdı. Çünki 10 ilə yaxın İraqın, Azərbaycanın, Farsın və Xorasanın bütün əmlak və pul işləri bu iki şəxsin əlindən gəlib keçmişdi". Mir Cəfər Savəci edam edildi, Xacə Arux isə işgəncələr nəticəsində öldü[35]. Hüseyn xanın məmurlarından biri – Əhməd bəy Nur Kamal İsfahani divan-i əla vəziri oldu[36].

Hicri 940 (1533-1534)-cı ildə Hüseyn xan Şamlının edam edilməsi ilə əlaqədar olaraq Əhməd bəy Nur Kamal vəzifəsindən kənar edildi. Onun əmlakı müsadirə olundu, özünə isə vergi yığanlar (mühəssilan) əzab verdilər. O, Əlincək (Əlincəqala) qalasına salındı, lakin sonra azad edildi[37]. Onun yerində isə Xacə Sədəddin İnayətulla Xuzani əyləşdi[38]. Xuzani bu vəzifəni bir müddət hicri 942 (1535-1536)-cı ildə yenidən vəzifəsini yerinə yetirməyə başlamış Qazi Cahan Qəzvini ilə birgə tutdu. Lakin Qazi Cahan isə Sədəddin ilə bir yerdə işləyə bilmədi. Sədəddin daim Qazi Cahanı ləkələməyə və rüsvay etməyə cəhd göstərirdi. Sədəddin hicri 942 91535)-ci ildə edam edildi[39]. Bundan sonra Qazi Cahan vəzifədə tək qaldı və hicri 957 (1550-1551)-ci ilədək öz vəzifəsini icra etdi. O, ixtiyar yaşında, hicri 960 (1552-1553)-cı ildə Qəzvində vəfat etdi[40]. Bizə elə gəlir ki, vəzir vəzifəsində Qazi Cahanın xələfi Məsum bəy Səfəvi olmuşdur. Onun barəsində ilk dəfə "Əhsən ət-təvarix"də hicri 953 (1546-1547)-cü ildə Ərdəbil mütəvəllisi kimi məlumat verilir. O, həmin ildə adlı-sanlı əmirlər sırasında şahın qiyamçı qardaşı Əlqas Mirzə ilə danışıqlar aparmaq üçün Şirvana göndərilmişdi[41]. Məsum bəy hicri 958 (1551-1552)-ci ildə qızılbaş dəstəsinin Ərcişə yürüşünə komandanlıq etmişdi[42]. Şahın əyanı, "vəkalət-i şah-i din-pənah"vəzifəsini tutan Məsum bəyin adı ilk dəfə hicri 967 (1559-1560)[43]-ci ildə, yəni Qazi Cahan vəzir vəzifəsindən kənar olunduqdan 10 il sonra çəkilir. Bu müddətdə digər


downloaded from KitabYurdu.az

şəxslərin vəzir (yaxud vəkil) vəzifəsini tutmuş olduğunu bilmirik. Məsum bəy lələ kimi şahın sevimli oğlu Heydər Mirzəyə təhkim olunmuşdu[44]. İskəndər bəy Münşi göstərir ki, Məsum bəy Səfəvi "divan əmiri olub ali vəzarət vəzifəsinə yüksəldilmişdi" və şahdan daim rəğbət görürdü[45]. "Tarix-i aləm aray-i Abbasi"də əvvəlcə qorçibaşı Sevindik bəy Əfşarın vəziri, "bir müddət keçdikdən sonra isə divan vəziri olmuş" bir şəxsin – Mirzə bəy Əbhərinin adı çəkilir[46]. Ehtimal etmək olar ki, elə Mirzə bəy də Qazi Cahanın bilavasitə xələfi olmuş, vəzir vəzifəsini davam etmişdi.

Şərəf xan Bidlisi göstərir ki, Məsum bəy Səfəvi hicri 976 (1568-1569)-cı ildə vəzir vəzifəsindən imtina etmiş və bu vəzifə Əmir Seyid Şərif Saniyə verilmişdi[47]. Iskəndər bəy Münşi xəbər verir ki, Məsum bəy Səfəvinin istefasından sonra "bir neçə il ərzində vəzarət müstəqil vəzirdən məhrum olmuşdu".

Hicri 981 (1573-1574)-ci ildə şah 2vəzarət-i divan-i əla" vəzifəsini Xacə Cəmaləddin Əli Təbrizi ilə birgə Seyid Həsən Fərəhaniyə vermişdi. Onlardan hər birinə 500 Təbriz huməni məbləğində məvacib (mərsum) müəyyən edilmişdi[49]. Budaq Qəzvini əlavə olaraq bildirir ki, "Xorasan, Gilan, İraq, Fars və Kirman Seyid Həsənin, "Azərbaycan Şirvan və Şəki Cəmaləddin səlahiyyətinə Əlinin tabeliyinə verilmişdi. Lakin bir ildən sonra şah onları işdən kənar etdi"[50].

"Vəzarət-i divan-i əla"ya sonrakı ildə təyinat II Şah İsmayılın dövründə hicri 984 (1576)-cü ildə mustoufilik edən Mirzə Şükrulla İsfahaninin simasında olmuşdur[51]. Lakin şah ondan narazı idi və tezliklə onu işdən kənar edib, Mirzə Salman Cabiri İsfahanini vəzir təyin etdi. Şah "onun ləyaqət və mənsəb dərəcəsini zirvəyə qədər ucaltdı və tapşırdı ki, o, yüksək əmirlərdən heç birisinin qarşısında baş əyməsin"[52]. Yeni şahın – Məhəmməd Xudabəndənin dövründə Mirzə Salman "Yüksək divanın" vəziri vəzifəsini tutmaqda davam etdi. Ona hətta "Etimad əd-dövlə" ("Dövlətin etimadı") fəxri adı verildi[53]. Yuxarıda deyildiyi kimi, o, hicri 991 (1583)-ci ildə qızılbaş əyanlarının sui-qəsdi nəticəsində öldürüldü[54].


downloaded from KitabYurdu.az

I Şah Abbasa qədər vəzir vəzifəsi sırf mülki vəzifə olmuşdur. O, divanın gəlirinə, habelə bütün əyalətlərdən xəzinəyə daxil olan məbləğlərə və digər "büyutat"a nəzarət edirdi.

**Sədr** dini idarəyə rəhbərlik edir və antifeodal bidətçi hərəkatların qarşısının alınmasıkökünün kəsilməsi, habelə hər yerdə şiəliyin mövqelərinin yayılması, möhkəmlənməsi üçün məsuliyyət daşıyırdı. İskəndər bəy Münşi ilk Səfəvilər dövründə sədrin aşağıdakı vəzifələrini göstərirdi: "Onlar seyidlərə və əmmaməlilərə himayə göstərməli və onların işlərində nümayəndələr kimi fəaliyyət göstərməlidirlər (yəni onların mənafeyini müdafiə etməlidirlər – O.Ə.); vəqfləri (övqaf) idarə etməli və şəriət məqsədləri (məarif) üçün pul verməlidirlər"[55].

Sədr vəzifəsi və onun vəzifələri ilk dəfə Səfəvilərdə meydana gəlməmişdir. Teymurilər dövründə, Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti zamanı da biz sədrlərə təsadüf edirik[56]. Səfəvilər dövründə ilk sədr Mövlana Şəmsəddin Lahici (Gilani) olmuşdur. İsmayıl Lahicanda, Kərkiya Mirzə Əlinin sarayında olanda Mövlana Şəmsəddin İsmayılın tərbiyəçisi olmuşdur. İsmayıl Quranı onun yanında öyrənmiş, habelə fars və ərəb dillərini mənimsəmişdi[57]. O, hicri 906 (1501)-cı ildə sədr təyin olunmuş, "vilayətlərin vəqf idarələrini (mövqufat-i məmalik) əlinə alaraq, inam sığınacağının qapılarını açmışdır"[58].

Hicri 909 (1503-1504)-cu ildə Qazi Məhəmməd Kaşani[59] "sədarət"liyə irəli çəkildi. Lakin o, hicri 915 (1509-1510)-ci ildə günahsız adamların öldürülməsində və digər qəbahət işlərdə təqsirləndirilərək edam edildi[60]. Xondəmirin hekayəsindən göründüyü kimi, Qazi Məhəmməd Kaşaninin edam edilməsinə sədrin həddən çox nüfuzuna paxıllıq edən və onun dövlətin bütün işlərinə qarışmasından narazı qalan vəkil Nəcməddin Məsudun fitnə-fəsadları səbəb olmuşdu. Sədr vəzifəsi əmir Seyid Şərifəddin Əli Şiraziyə verildi. Lakin çox keçməmiş, hicri 917 (1511-1512)-ci ildə vəkil Nəcmi Saninin düşməncəsinə münasibəti üzündən, o, istefaya çıxmağa məcbur oldu və şiələrin müqəddəs yerləri olan Kərbəlanı, Nəcəfi ziyarət etmək bəhanəsi


downloaded from KitabYurdu.az

ilə sarayı tərk etdi. Boş qalmış vəzifəyə Nemətulla Kirmaninin nəslindən olan Əmir Nizaməddin Əbdülbaqi Yəzdi təyin olundu[62]. Xondəmir yazırdı: "Əmir Nəcmin (ona) böyük iltifatı sayəsində onun mənsəb və ləyaqət ulduzu xoşbəxtlik və səadətin yüksək zirvəsinə çatdı". Mavəraünnəhrə yürüşə yola düşərkən Nəcmi-Sani onu özünə vəkil vəzifəsində müavin təyin etmişdi. Nəcmin ölüm xəbərini alan kimi, Şah İsmayıl əmir Nizaməddini rəsmi olaraq vəkil kimi tanıdı.

Bu zaman sədr vəzifəsinə bərpa edilmiş Əmir Şərifəddin Əli Şirazi yenidən sarayda peyda oldu[63] Hər ikisi (vəkil və sədr) Çaldıran vuruşmasında hicri 920 (1514)-ci il[64] həlak olana qədər öz vəzifələrində qaldılar.

Çaldıran döyüşündən sonra vəkil və sədr vəzifələri boş qaldı.

Əvvəlcə sədr təyin edilən, Azərbaycanın tanınmış seyidlərindən olan Şəhabəddin Abdulla Lalə öz vəzifəsinin öhdəsindən gələ bilmədi və tezliklə işdən kənar edildi. Əmir Cəmaləddinh Məhəmməd Astrabadi bu vəzifəyə təsdiq olundu[65] O, "böyük hakimiyyət və qüvvə" sahibinə çevrildi və 11 il ərzində - hicri 931 (1524-1525)-ci ildə vəfat edənədək sədr vəzifəsini yerinə yetirdi. Vəkil Mirzə Şah Hüseyn ona həsəd aparır və ondan qorxurdu. Buna görə də, Əmir Qiyasəddin Mənsuru saraya çağırdı ki, o, sədr vəzifəsini Cəmaləddin Astrabadi ilə bölüşdürsün. Lakin bu kələkdən nəticə hasil olmadı[66].

Həsən bəy Rumlunun məlumatına görə, hicri 935 (1528-1529)-ci ildə "I Şah Təhmasib Əmir Nemətulla Hillini Əmir Qəvaməddin Hüseynlə birgə sədarət vəzifəsinə qoydu"[67]. Lakin elə həmin tarixçi yazır ki, çox keçmədən, sonrakı hicri 936 (1529-1530)-cı ildə Əmir Nemətulla Hilli ilə birgə Əmir Qiyasəddin Mənsur da sədr təyin olundu[68] O dövrdə tanınmış astronom olan əmir Qiyasəddin Mənsur hicri 938 (1531-1532)-ci ildə vəzifədən azad edildi. Onun yerinə əmir Müizzəddin Məhəmməd İsfahani təyin olundu[69]. Sonuncu hicri 943 (1536-1537)-cü ildə vəzifədən kənar olundu, Əmir Şəmsəddin Əsədulla Məraşi Şüştəri) ilə əvəz edildi[70]. O vəfat edəndən, yəni hicri 963 (1555-1556)-cü ilədək öz vəzifəsini yerinə yetirdi[71]. Onun yerini Mir Zeynəddin Seyid Əli tutdu[72]. Qəffarinin


downloaded from KitabYurdu.az

məlumatına görə, hicri 964 (1556-1557)-cü ildə keçmiş sədr Müizzəddin Məhəmmədin oğlu Mir Təqiəddin sədr təyin olundu[73].

Əmir Təqiəddin sədr vəzifəsini hicri 970 (1562-1563)-ci ildə tərk etdi. Həsən bəy Rumlunun məlumatlarına görə, sədarət Əmir Məhəmməd Yusif və Əmir Zeynəddin Əli Şüştəri arasında bölüşdürüldü (ərazi üzrə). Salnaməçi xəbər verirdi: "Zülqədədə (iyun, iyul 1563-cü il) İraq, Fars və Xuzistanın sədarəti Astrabadın üləma seyidlərindən olan Əmir Məhəmməd Yusifə həvalə olundu. Zülhiccənin (iyul-avqust 1563-cü il) ortalarında isə Xorasan, Azərbaycan və Şirvanın sədarəti Əmir Şəmsəddin Əsədulla Məraşinin oğlu Əmir Zeynəddin Əliyə verildi"[74]. Sədr vəzifəsinə sonrakı təyinat II Şah İsmayılın dövründə rəbbi əl-əvvəlin 26-da (1577-ci il iyunun 13-də) Mövlana Şah İnayətulla İsfahaninin simasında oldu[75]. Sonrakı ildə Məhəmməd Xudabəndə Mir Şəmsəddin Məhəmməd Xəbisi Kirmanini sədr təyin etdi[76].

Mənbələrdən götürdüyümüz yuxarıdakı misallar onu təsdiq edir ki, İsmayıl və Təhmasibin şahlığı zamanı vəzir və sədr vəzifələri tez-tez iki əyan tərəfindən, eyni vaxtda yerinə yetirilirdi. Biz artıq əmin olduq ki, vəzifənin ərazi əlaməti üzrə iki şəxs arasında bölünməsi yalnız sıdarıtı deyil, həm də vəzarətə aid idi[77]. Göstərilən iki vəzifənin maraqlı xüsusiyyətlərini qeyd edərək R.Seyvori belə hesab edirdi ki, onların ərazi üzrə bölgüsü təsadüfi, müvəqqəti idi. Həm də bu iki şəxsdən hər biri bərabər hüquqlara malik olub oxşar vəzifələri yerinə yetirirdi. İngilis tədqiqatçısının fikrincə, bu, onların hakimiyyətini məhdudlaşdıprmaq məqsədilə edilirdi. Bu faktlara izah tapmağa cəhd göstərən R.Seyvori, fikrimizcə, yeganə mümkün olan fərziyyədən imtina edir. O da bundan ibarətdir ki, sədr və vəkilin ikili olması məmalik və xassə vilayətlərinin mövcudluğu (bu barədə mənbələrdə bilavasitə müvafiq göstərişə rast gəlməsək də) ilə bağlı idi. V.F.Minorski Şardenə əsaslanaraq göstərirdi ki, xassə idarəsi ilk dəfə Şah I Səfinin (1629-1642) dövründə tətbiq edilmişdi[78]. Fikrimizcə, bu barədə aşağıdakıları yazan A.Lembton həqiqətə daha yaxındır: "Şarden dövlət və səltənət torpaqları arasında fərqin I Şah Səfinin hökmranlığına qədər məlum olmadığını qeyd edir.


downloaded from KitabYurdu.az

Bizə elə gəlir ki, həqiqətən, onun bölgüsü I Şah Səfinin dövründə dəqiqləşmişdir. Lakin divani (dövlət) və xassə (səltənət) torpaqları arasında bir qədər geniş, daha ümumi fərq mövcud idi”[79].

Bununla belə, R.Seyvori XVI əsrdə ilk Səfəvilər dövründə dövlətin ərazisinin məmalik və xassələrə bölünməsinin mümkünlüyünü yolverilməz hesab edir. Bizə elə gəlir ki, bu mənada “Təzkirət əl-mülükün” mətnində olan göstəriş çox mühümdür. Öz əsərini təqribən 1726-cı ildə bitirmiş naməlum müəllifin fikrincə, sədarət vəzifəsinin xassə və əmmaya (məmalikə) görə bölgüsü adi təcrübədən irəli gəlirdi. O yazırdı: “Bəzi hökmdarların vaxtında sədr-i xassə və əmma (vəzifələri) təkcə bir şəxsə tapşırılırdı”[80].

Keçmişdə bu iki vəzifənin (sədr-i xassə, sədr-i əmma) bəzən bir şəxsin simasında birləşdirilməsinə dair sitat gətiddiyimiz göstəriş, nəzərdən keçirilən və Səfəvilər dövlətinin bütün tədqiqatçılarının sərfnəzər etdikləri məsələni aydınlaşdırmağa da kömək edir. Əks təqdirdə, əgər onların arasında vəzifə bölgüsü yox idisə, bu vəzifəyə iki şəxsin təyin olunmasını nə ilə izah etmək olardı. R.Seyvorinin iddia etdiyi kimi, iki sədrin, iki vəzirin Səfəvilər dövlətinin bütün ərazisində bərabər hüquqlarla, eyni vəzifələri yerinə yetirdiyini söyləmək məntiqi cəhətdən ağlasığmazdır. Deməli, vəzifə bölgüsü olmalı idi və bu bölgünün dövlət, şah vilayətləri əlamətləri üzrə olmadığını söyləmək üçün əlimizdə əsaslar yoxdur.

**Mustoufi əl-məmalik** – “vilayətlərin xəzinədarı”. O, maliyyə idarəsinin rəhbəri idi. Ehtimal etmək olar ki, mülki idarə aparatının başçısı olan vəzirin nəzarəti altında işləyirdi. “Allahın mühafizə etdiyi vilayətlərin” (məmalik-i məhrusə) ərazisində “divan-i məmalik” idarələrinin bütün maliyyə əməliyyatları, onların əyalət nümayəndələrinə (ümmal) göndərdikləri yazılı təlimatlara müvafiq olaraq həyata keçirilirdi[81]. İdarə vergi aparatının işinə, dövlət büdcəsinin tərtib edilməsinə rəhbərliyi həyata keçirir, vergi siyahılarını təsdiq edirdi. Bəylərbəyilərin tiyul və digər mükafatları, vəzirlərin, mustoufilərin və


downloaded from KitabYurdu.az

kələntərlərin maaşları (rüsumat), mülki və hərbi şəxslərin məvacibləri onun təsdiqləməsi və möhürü olmadan verilmirdi[82]

İskəndər bəy Münşinin məlumatına görə, I Təhmasibin dövründə “divan-i əlanın böyük mustoufilərindən” məlum olan on nəfərin yeddisi mustoufi əl-məmalik, ikisi də “mustoufiy-i bəqayə” “vergi borcları üzrə xəzinədar” idi[83].

Aşağıdakılar mustoufi əl-məmalik olmuşlar: 1) Mir Məsud Curbadqani; 2) Xacə Hüseyn; 3) Qiyas Kohre Şirazi adı ilə tanınan Xacə Qiyasəddin Əli; 4) Xacə Qasım Nətənzi; 5) Xacə Məlik İsfahani; 6) Mir Qiyasəddin Mahmud Şəhristani İsfahani; 7) Mirzə Şükrulla İsfahani. Onların içərisindən daha məşhur olanı yerli əyanların nümayəndəsi, “riyaziyyat qanunlarında və hesab kitablarının aparılmasında mahir” (qanun-i hesabdani və elm-i siyaq) olan, şahın hüsn-rəğbətini qazanmış Xacə Qasım Nətənzi idi. Mir Qiyasəddin Mahmud bu vəzifədə az işlədi və tezliklə işdən azad edildi. Müəyyən dövrdə xəzinədar vəzifəsi “əlahəzrət dəftərxanasının mirzələri (avaracanəvisan-i dəftərxane-yi hümayun)” arasında bölüşdürüldü. “Onlardan hər biri öz idarəsinin mustoufisi idi”. Sonra Mir Qiyasəddin Mahmud yenidən vəzifəyə təyin edildi və bu dəfə uzun müddət ərzində öz vəzifəsini yerinə yetirdi. O, Şah Təhmasibin vəfatına üç il qalmış azad edildi və onun yerinə Mirzə Şükrulla irəli sürüldü. Mustoufi əl-məmalikin rolunu bundan görmək olar ki, hicri 981 (1573-1574)-ci ildə Mirzə Şükrulla bu vəzifəyə təyin olunarkən ona 500 Təbriz tüməni məbləğində məvacib müəyyən edilmişdi. Vəzirlər – Seyid Həsən Fərəhani və Xacə Cəmaləddin Əli Təbrizi üçün müəyyən edilən məvaciblər də həmin miqdarda idi[84]. Yuxarıda qeyd edildiyi kimi, II İsmayılın dövründə Mirzə Şükrulla vəzir vəzifəsinə keçirilmiş, onun yerini isə Mirşah Qazi İsfahani tutmuşdu. O, yeni şah – Məhəmməd Xudabəndənin dövründə də mustoufi əl-məmalik vəzifəsində qalmış və “işdə tam sərbəstlik göstərmişdi”. Lakin o, tezliklə ona düşməncəsinə yanaşan vəzir Mirzə Salmanın təhriki ilə vəzifədən kənar edilmiş və mustoufilik vəzifəsi Xacə Məhəmməd Bəkir Hərəviyə verilmişdi[85]. Mustoufiyan-i bəqayə sırasında İskəndər bəy Münşi Mir


downloaded from KitabYurdu.az

Hidayətulla Məmurinin, onun qardaşı Mir Məhəmməd Məmurinin, habelə əvvəlcə mustoufi əl-məmalik vəzifəsinə irəli çəkilmiş Mirşah Qazi İsfahaninin adlarını çəkir[86].

**Nazir-i büyutat.** "Təzkirət əl-mülükə" görə, büyutat (ərəbcə beyt – ev, bina, təsərrüfat sözünün cəm halı) hər birinin başında sahib-i cəm olan 33 karxanadan (emalatxana) ibarətdi. Büyutatlardan bir çoxu: mətbəx, qab-qacaq yuyulması üçün bina, müxtəlif anbarlar, kitabxana, tövlə vəs. sadəcə olaraq ev təsərrüfatı və məişət ləvazimatı idi. Bununla yanaşı əsl dövlət manufakturası tipli büyutatlar (məsələn, toxuma emalatxanası (şərbafxana), dərzi sexləri (qayçaçıxana), sikkəxana (zərrabxana), cəbbəxana[87], habelə zərgər, dəmirçi, rəssamlıq emalatxanaları və s.) var idi.

Büyutat şah və onun ailəsinin, həmçinin çoxsaylı saray əyanlarının yeməyə, paltara, bəzək əşyalarına və s. olan tələbatının ödənilməsinə xidmət edirdi.

İskəndər bəy Münşi I Şah Təhmasibin dövründə nazir-i büyutat vəzifəsini tutmuş şəxslər haqqında bəzi məlumatlar verir. Bunlar aşağıdakılar idi: Qazi İmad, dövlət pulunu mənimsəməkdə təqsirləndirilərək vəzifədən azad edilmişdi. Ağa Cəmaləddin Kirmani, sonralar "bəzi nalayiq işlər" ucbatından Ələmut qalasına salınmışdı; Mirzə Salman həmin sahədə bir neçə il yanında işlədiyi Azərbaycanın cənub hissəsi vəzirinin köməyi ilə "büyutatların əksəriyyətinin" naziri olmuş, sonra şahın yanına nazir kimi qulluğa girmiş və şah vəfat edənədək orada işləmişdir (II Şah İsmayıl və Məhəmmədin dövründə isə "etimad əd-dövlə"adı ilə vəzir olmuşdur); Xacə Əbülqasim, Fərəhan vilayəti əyanlarından idi, əvvəlcə yüksək divan möhürünün mühafizəçi vəziri (vəzir-i möhrdar-i divan-i əla)olmuş, sonra isə şahın bəzi büyuttlarının naziri (nəzarət-i bəzi əz büyutat-i sərkar-i xassey-i şərifə) vəzifəsinə irəli çəkilmişdi. II İsmayılın dövründə də həmin vəzifədə idi[88]. Mir Əbülfətuh İsfahani, I Şah İsmayılın mustoufi əl-məmaliki olmuş Mir Seyid Şərif Şəhristaninin nəslindən idi, "naziri imarət-i sərkar-i xassey-i şərifə" ("şahın evlərinin işləri müdiri") olmuşdu.


downloaded from KitabYurdu.az

**Eşikağasıbaşı** sarayın baş təşrifat məmuru. Onun vəzifəsi öz tabeliyində olan böyük xidmətçilər ştatı – söhbət yasavulları, eşikağasıları, hərəmağaları, qapıçılar, yasavullar, carçılar[89] olmaqla saray yığıncaqlarında və təntənələrində baş təşrifat məmuru kimi fəaliyyət göstərməkdən ibarətdi.

**Möhrdar**, yaxud möhrdar-i möhr-i hümayun – "əlahəzrət möhürünün mühafizəçisi". "Təzkirət əl-mülük"də göstərildiyi kimi, ilk dövrlərdə möhrdar böyük hörmət sahibi sayılırdı. O, vəzirlərin, mustoufilərin, kələntərlərin təyinatları (rəqəm) haqqında fərmanlara, həmçinin də əmirlərə, hakimlərə və b. bağışlanan soyurqallara, tiyullara aid olan sənədlərə "əlahəzrətin möhürünü" basırdı[90]. İskəndər bəy Münşi belə bir xəbər verir ki, II Şah İsmayıl taxta çıxdıqdan sonra şahzadə İbrahim Mirzəyə müraciə edərək deyir: "Sən cənnətməkan şah (yəni I Şah Təhmasib – O.Ə.) üçün oğul kimi idin, bütünlüklə onun xidmətində olmusan və indi mənə qardaş kimisən. Eşikağasıbaşı (vəzifəsi) sənə yaraşmır". Buna görə də şah onu möhrdar təyin edir ki, "həmişə onun qarşısında oturub söhbəti və danışığı ilə onu şərəfyab etsin"[91].

**Mirşikarbaşı** şahın ov tədbirlərinin başçısı idi. Ona mirşikarlar, ovçubəyilər, şahin saxlayanlar (quşçuyan) və b. tabe idilər.

Ov mühüm tədbir idi. O, heç də yalnız əyləncə səciyyəsi daşımırdı. Şahdan və onun məiyyətindən əlavə on minlərlə döyüşçünün, heyvanları qovan kəndlilərin iştirak etdiyi, geniş əraziləri əhatə edən böyük ovları əslində hərbi manevrləri xatırladırdı[92]. Ehtimal etmək olar ki, "ovçubaşı" istilahı, mirşikarbaşının eyni idi[93].

**Xəlifət əl-xüləfa** ("xəlifələr xəlifəsi") Səfəvi-Ərdəbil təriqətinin geniş yayılmış nümayəndələr şəbəkəsinin başçısı idi (xüləfa - ərəbcə "xəlifə" sözünün cəm halıdır). Əslində o, Səfəvi təriqətinin bütün fəaliyyətini istiqamətləndirir və ona nəzarət edirdi. Öz nümayəndələrinin yaxşı təşkil edilmiş xidməti sayəsində Səfəvilər Azərbaycanı, indiki Ermənistan ərazisini, Kiçik Asiya və İranın şimal vilayətlərini əhatə edən geniş ərazilərə səpələnmiş qızılbaş tayfalarını öz tərəflərinə çəkib şiəlik bayrağı altına toplaya bildilər. Beləliklə, xəlifət əl-xüləfa idarəsi Şeyx


downloaded from KitabYurdu.az

Səfiəddin tərəfindən əsası qoyulmuş "Səfəviyyə" təriqətinin teokratik təşkilatının qalığı idi.

V.F.Minorskinin göstərdiyi kimi, hakimiyyətə gələn Səfəvilər ikili idarəçiliklə qarşılaşdılar, onlara başçılıq etdilər. Onlar "krallar kimi öz sələflərinin (əsasən, Ağqoyunluların) idarəetmə sistemini irsən qəbul etdilər. Onlar ilkin təriqətin ali başçıları kimi öz sufilərindən kor-koranə itaət tələb etdilər"[94]. Böhranlar dövründə onlar öz tərəfdarlarının "şahsevənlik" hisslərinə müraciət edirdilər, çox zaman tayfalararası didişmələri təriqət ardıcılları arasında hökm sürən, müridləri öz "mürşid-i kamilinə" (yəni şaha) danışıqsız itaətə çağıran ən sərt intizam sayəsində yoluna qoyurdular[95].

"Xəlifələrlə" yanaşı "ithaf olunanlar"ın "pirə" ("böyüklər, ağsaqqallar") adlanan daha bir kateqoriyası da var idi. V.F.Minorskinin fikrincə, "xüləfa" "xəlifət əl-xüləfanın" qısaldılmış formasıdır. Təriqətin işlərini idarə edən və onun tələblərində bacarıqlı sərkərdə kimi xidməti olan İsmayılın ən yaxın silahdaşlarından biri mənbəklərdən göründüyü kimi Xədim bəy Xüləfa, yaxud adı tez-tez qısaca çəkilən Xüləfa bəy olmuşdur.

"Xəlifət əl-xüləfa" qızılbaş tayfalarının imtiyazlı zümrəsi içərisindən təyin edilir və bir qayda olaraq, türk (azərbaycanlı) olurdu. Səfəvi sülaləsinin şahları onların köməyi ilə yalnız özlərinin arxalandıqları, onları hakimiyyət başına gətirmiş qüvvələrə deyil, həm də öz ardıcıllarının geniş şəbəkəsinə nəzarət edirdilər. Xəlifət əl-xüləfalar böyük hakimiyyətə malik olub "mürşid-i kamilin" (yəni şahın) təriqət işləri üzrə müavinləri sayılırdılar. Məsələn, I Şah Təhmasib dövründə xəlifət əl-xüləfa vəzifəsini tutan Hüseynqulu Xüləfa Rumlunun adı çəkilir. O, "təbil və bayraq sahibi" olmasa da, böyük nüfuz və təsir sahibi idi. Diyarbəkirdən və Kiçik Asiyanın digər vilayətlərindən "şah astanasına" gələn çoxsaylı sufilər tamamilə ona tabe idilər[96]. İskəndər bəy Münşi I Təhmasibin müasirləri olan əmirlərin siyahısında adi "xəlifə"lərin siyahısında 3 şamlı, 1 türkman, 4 zülqədər, 3 qacar, 1 kürd, 1 cağatay tayfa əmirlərinin adlarını çəkir[97].


downloaded from KitabYurdu.az

Sufi təşkilatı o dərəcədə yaşamağa qabil idi ki, hətta I Abbasın ölümündən sonra da şahın öz ardıcıllarının "mürşid-i kamili" olması ideyası onun nazirləri tərəfindən tanınmışdı. Lakin sonralar xəlifət əl-xüləfa vəzifəsi siyasi hakimiyyətdən uzaqlaşdırıldı və sadəcə olaraq "sufilərin işlərinə dair katibliyə" çevrildi[98]. Məsələn, "Təzkirət əl-mülük"də göstərilir ki, şahın adından fəaliyyət göstərən xəlifət əl-xüləfa bütün vilayətlərə (məmalik) öz nümayəndələrini (xəlifə) təyin edir.

**Münşi əl-məmalik** – "dövlət katibi".V.F.Minorski qeyd edir ki, şah şurasının üzvü və sərəncamında xeyli mirzə ştatı olduğuna görə, münşi əl-məmalik nüfuzlu əyan idi[100]. O vaqiyə-nəvislə (məclis-nəvis) yanaşı şahın yazışmasının bir hissəsini idarə edirdi. Bu iki vəzifə arasında funksional fərq görmək çətindir. Vaqiyənəvis dövlət şurası (məclisi-i əla) iclaslarını sənədləşdirir, arxivi nizama salırdı. O, sarayın tarixşünası, şahın şəxsi katibi idi,şahın yerli hakimlər və xarici dövlətlərlə yazışmasını təşkil edirdi[101]. Münşi əl-məmalik və onun mirzələri şahın bütün məktublarında (pərva nəcət), fərmanlarda və digər rəsmi sənədlərdə müəyyən olunmuş tuğraları yerinə yetirirdilər[102].

İskəndər bəy Münşi I Şah Təhmasib dövrünün tanınmış münşi əl-məmaliklərindən aşğıdakıların adlarını çəkir: vəzir İsmayıl Şəmsəddin Zəkəriyyənin qohumu Məhəmmədi bəy Təbrizi Keçəçi; Mirzə Məhəmməd (Xacə Əli bəy Sorx Kirmaninin oğlu), II Şah İsmayılın dövründə vəzifəyə gəlmiş, Xudabəndənin dövründə isə, Mirzə Salman öldürüldükdən sonra mustoufi əl-məmalik olmuşdu; Qazi Abdulla Cüveyni və Xacə Əlaəddin Mənsur[103]. Onların hamısı şaha yaxın olan saray adamları sırasından çıxmışdı. "Təzkirət" göstərir ki, münşi əl-məmalik ilk Səfəvilər dövründə böyük nüfuza malik olmuşdur.

**Müəyyər əl-məmalik** – "dövlətin əyar vuranı" dövlət miqyasında pul işinə rəhbərlik edirdi. Zərbxana müdiri – "zərrab-başı" ona tabe idi. Bu vəzifənin əhəmiyyəti belə bir faktla müəyyən olunurdu ki, zərbxana sikkə kəsmək hüququ üçün şaha müəyyən məbləğdə pul verirdi. Sikkə kəsmək hüququ üçün vergi "vacibi" adlanırdı. V.Minorskinin göstərdiyi kimi, onun miqdarı pul dövriyyəsinin nisbətlərindən asılı olurdu və onun


downloaded from KitabYurdu.az

müəyyənləşdirilməsi olduqca incə məsələ idi. Çünki bir tərəfdən mümkün qədər daha çox gəlir götürülməsi arzu olunurdu, digər tərəfdən isə pulun dəyərinin azalması ticarətin pozulmasına və hətta iğtişaşlara da səbəb ola bilərdi[105]. Onun ölkənin hər yerindən olan nümayəndələri metal hasilatına nəzarət edirdilər.

İlk Səfəvilər dövründə şahın xeyrinə alınan “vacibi” vergisinin miqdarı 1 misqal qızıl üçün 30 dinar, 1 misqal gümüş üçün isə 2 dinar idi. Sonrakı Səfəvilərdə vergi xeyli artırılmışdı[106].

**Mühtəsib əl-məmalik** – “dövlət mühtəsibi” - şəhər bazarlarına nəzarət qoyan, əmtəələrə qiyməti təsdiq edən mərkəzi aparat məmuru. Onun başlıca vəzifəsi ticarətin düzgün aparılmasına, ölçü və çəkilərə əməl olunmasına, fırıldağa yol verilməməsinə nəzarət etmək idi. O, başqalarına ibrət olmaq üçün belə pozuntuların təqsirkarlarını rüsvayçı “taxta-kulah” mərasimini icra etməyə məhkum edirdi (yəni qayda pozanın başına “taxta papaq” keçirirdilər). Mühtəsib əl-məmalikin bütün vilayətlərdə (məmalik) öz nümayəndələri var idi[107].

Mənbələr bu vəzifədən nadir hallarda bəhs edirlər. İskəndər bəy Münşi mühtəsib əl-məmalik vəzifəsini tutmuş iri feodal – Mirzə Əbdülhüseyn Cahanşahi haqqında məlumat verir[108].

Qeyd olunan mülki, hərbi, dini və saray əyanlarının hər birinin öz dəftərxanası və məmurlar ştatı var idi. Onlardan nəzərdən keçirilən dövrün mənbələrində adı çəkilənlərin, bəzilərinə nəzər salaq.

**Yasavul** mənşəcə monqol “yasa” – “qanun-qayda” sözündəndir. Yasavullar şahın olduğu yerdə qayda yaradırdılar. Yasavullar “yalnız möhtərəm əmirlərin oğlanlarından ola bilərdi və köhnə vaxtlarda onların sayı 8, yaxud 9-dan çox deyildi. Şah Yığıncaqlarında (məclis-i xass) onlar eşikağasıbaşının yerinə xidmət edirdilər. Açıq yığıncaqlarda isə şahın qarşısında dayanırdılar. Halbuki məclisə eşikağasıbaşı xidmət edirdi. Yasavullar onların məvacibini və qulluq yerini təsdiq edən yüksək divanın eşikağasıbaşısının tabeliyində idilər”[109].

Şərəf xan Bidlisi həmin şah yavərlərinin hazırlanmasının təşkili işini aydınlaşdırır. Yüksək vəzifəli valideynlərin oğlanları hələ gənc ikən


downloaded from KitabYurdu.az

şah hərəmxanasındakı şahzadə qızlara xidmət etmək üçün verilirdilər. Onlar sınanılmış mənəviyyat və möminlik hamilərinin daimi nəzarəti altında olurdular. Böyüdükcə onlara çövkən də daxil olmaqla hərbi oyunların bütün növlərini öyrədirdilər. Onlara rəsm çəkmək də öyrədilirdi. Çünki şah Təhmasib deyirdi ki, bu, "insanın zövqünü yaxşılaşdırır"[110].

**Ləşkərnəvis** – "qoşun kargüzarı". I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində əmirlər və qoşun arasında böyük nüfuza və hörmətə malik idi. Belə ki, onun "vəzir vəzifəsinin astanasında" durduğunu güman edirdilər. Xacə bəy Şirazi ləşkərnəvis idi. Onun vəfatından sonra bu "yüksək və xeyirxah vəzifəyə" (mənsəb-i vala ərcüməndi) Əhmədi bəyin qardaşı, o vaxta qədər Azərbaycanın avaracanəvisi olmuş Məhəmmədi bəy irəli çəkildi. Qardaşından sonra vəzifəyə Əhmədi bəy gəldi və Şah Təhmasibin vəfatına qədər və II Şah İsmayılın taxta çıxmasının ilk vaxtlarında bu vəzifəni ifa etdi. O, I Şah Abbasın hakimiyyətinin əvvəlində vəfat etmişdir. İskəndər bəy Münşi göstərir ki, onlar hamısı Şirazdan idilər və orada Xakiyə soyadı ilə tanınırdılar, lakin oranı çoxdan tərk etmişdilər və onların bəziləri İraqda, Azərbaycanda, həmçinin də sarayda xidmət edirdilər[111].

**Mustoufiy-i mal** ("zabitənəvis", "müfradanəvis"lə eynidir). Mustoufi əl-məmalikin başçılığı altında xidmət edirdi. İskəndər bəy Münşi dəftərxana işçilərinin sayını bir-bir göstərərkən yazır ki, "mustoufiyi-mal" – bu, indi (yəni XVII əsrin birinci yarısında) həmçinin, zabitanəvis və müfradənəvis adlandırılanlardandır. Mustoufiyi-mal vəzifəsində Mir Əbuturab Nətənzinin adı çəkilir[112]. V.F.Minorski göstərir ki, zabitanəvisin texniki anlamı "vergiləri yığan" deməkdir. "Avaraca" idarəsindən fərqli olaraq mustoufiyi-malın ştatında olan mirzələr divana daxil olan pul məbləğlərini (vücuhat) qeydə alırdılar. "Təzkirət əl-mülük"ə əsasən, zabitənəvis idarəsinə yığılmalı olan məbləğlər – yol vergiləri (vücuh-i rahdari), tütün ticarəti üçün vergilər, çobanbəyi (mal-qara üçün vergi) və s. idi[113].


downloaded from KitabYurdu.az

**Avaracanəvis.** V.F.Minorski bəzi mənbələr əsasında belə nəticəyə gəlir ki, "avaraca" – kitab, yaxud sənəd idi. Ona müvafiq olaraq, fərdi qaydada vergi verənlərdən ödəmələr alınır və növbəti ödəmələr onlarda elə qaydada yazılırdı ki, oraya əlavələr etmək mümkün olsun"[114]. Avaracanəvis, mustoufi əl-məmalikin nəzarəti altında fəaliyyət göstərir və maliyyə idarəsinə aid edilirdi. V.Minorskinin ehtimalına görə, zabitanəvis bir qayda olaraq, şah mülkiyyəti ilə (və bütün məmalik vilayətlərindən gələn təsadüfi gəlirlərlə) iş görürdü. Halbuki, avaraca kitablarına baxanlar dövlət torpaqlarından (məmalik) daxil olan pulları qeydə alırdılar.

**V.**Minorski "Təzkirət əl-mülük"ə əsaslanaraq, avaracanəvisin aşağıdakı vəzifələrini müəyyənləşdirir. Onların birinci vəzifəsi vergi verənlərin adlarını kitabda qeyd etmək idi. İkincisi, onlar divan qulluqçularından daxil olan sənədlərin üzərində müxtəlif qeydlər edirdilər. Üçüncüsü, onlar tiyula, həme saleyə və s. aid olan sənədləri (pərvanəcat) qəbul edir və yola salırdılar. Dördüncüsü, vergi toplanmasını idarə edən vilayət hakimiyyət orqanlarına göndərilən rəqəm və sənədlərin qeydə alınması, yoxlanması da onların vəzifəsinə daxil idi[15]. Bu vəzifənin əhəmiyyətini İskəndər bəy Münşinin mülahizələrindən görmək olar. Onun mülahizəsinə görə, "bəzən[116] istifanın (mustoufi əl-məmalikin – O.Ə.) vəzifələri şah dəftərxanasının avaracanəvisləri arasında bölüşdürülürdü və onlardan hər biri öz idarəsinin mustoufisi olurdu"[117].

Avaracanəvis vəzifəsini icra etmiş məmurlardan İskəndər bəy Münşi bunların adlarını çəkir: Azərbaycanın və Şirvanın avaracanəvisi olmuş Xacə Məhəmməd Əmin; İraqın avaracanəvisi Xacə Rəşid bəy Şirazi; Xorasan və Kirman avaracanəvisi Ağa Əsəd; Farsın avaracanəvisi Mir Nemətulla.

**Sahib-i tövcih** (tövcih "yollamaq, ünvana göndərmək" deməkdir). V.Minorski Şarden və Kempferin məlumatları əsasında belə bir fikir söyləyir ki, "tövcih" ödəniş vasitəsi idi və "tədiyyələrin əksəriyyəti alıcılara torpaq üçün verilən pullar və digər gəlir mənbələri təxsisatlarla


downloaded from KitabYurdu.az

ödənildiyindən, sahib-i tövcidə "təxsisatlar sahibi" kimi baxmaq olar. "Tarix-i aləm aray-i Abbasi"də "sahib-i tövcih-i divan-i əla" vəzifəsində işləmiş Hidayət bəy Şirazinin adı çəkilir. O, daha əvvəl "sahib-i tövcih" vəzifəsində qulluq etmiş Xacə Həbibullanın qohumlarından idi[118].

Sahib-i tövcihin mirzələr ştatı var idi. O, "şahın sərəncamları" ilə müxtəlif, təsadüfi vergilərin miqdarını müəyyən etmək və vergilərin özbaşına artırılmasına yol verməmək vəzifəsini yerinə yetirən mustoufi əl-məmalikə tabe idi[119].

Mustoufi-yi ərbab-i təhavil ("ərbab-i təhavil" "təhvildaran"la eyni mənadadır) – büyutat mustoufilərinə həvalə olunmuş sikkə zərb edilməsi, əmtəə və xammal işlərinə nəzarət edən məmur. O, şah sarayının müxtəlif büyutatları arasında bölüşdürülmüş mülkiyyətin məsul nəzarətçisi idi[120] Mənbələrdə "I Təhmasib şahın cəmiyyətinə yaxın olan" bir şəxsin – Ağa Seyfəlmülük Tehrani adlı mustoufiy-i ərbab-i təhavilin adı çəkilir[121]. İskəndər bəy Münşi I Şah Təhmasibin müşrifan-i büyutatı arasında aşağıdakıları xatırladırlar: Mirzə Babai Şirazi, şah xəzinəsinin müşrifi (müşrif-i xəzinəy-i amirə); Mirzə Qasım Şirazi, tövlə müşrifi (müşrif-i tövlə); Mirzə Həsən İsfahani, şahın paltarlarının saxlandığı yerin və dərzixananın müşrifi (müşrif-i rikabxana və qayçaçıxana; Mir Seyid Seyfi, dəvələrin saxlandığı binanın müşrifi (müşrif-i şotorxan)[122].

**Vəzir-i qorçiyan-i əzəm, mustoufi-yi qorçiyan-i əzəm** ("Böyük qorçilərin vəziri", "böyük qorçilərin mustoufisi"). Ehtimal etmək olar ki, bu halda şah qvardiyaçılarının, qorçilərin hərbi dəstələrinin vəziri və mustoufisi nəzərdə tutulur. Onlar qvardiyaçılar dəstəsinin rəisi olan qorçibaşının yanında xidmət edir, qorçibaşı üçün dəftərxana və mühasibat işlərini yerinə yetirirdilər. "Təzkirət əl-mülük"dən göründüyü kimi, bu halda vəzir katib və maliyyə nəzarətçisi kimi fəaliyyət göstərir (təyinatlar üzrə sənədlər hazırlayır, əmrlərə, vəsiqələrə hesabatlara və s. möhür basır, tapşırıq qeydləri aparırdı)[123]. Görünür ki, mustoufi-yi qorçiyan-i əzəm mustoufi əl-məmalikin idarəsinə hesabat verirdi. Mümkündür ki, vəzir-i qorçiyan-i əzəmə divani -əla vəziri nəzarət edirdi (lakin bunu qəti təsdiq etmək üçün tutarlı əsasımız yoxdur).


downloaded from KitabYurdu.az

İskəndər bəy Münşi I Şah Təhmasib dövründə böyük qorçilərin vəziri olmuş, Ərəbgirli nəslindən çıxmış Əliqulu bəyin adını çəkir. Həm də bu zaman bildirilir ki, bu vəzifə Səfəvilər hakimiyyətinin əzəlindən onun atası Hüseyn bəyə və nəslinə məxsus olmuşdur. Əvvəlcə mustoufiy-i qorçi, sonra isə mustoufi əl-məmalik olmuş Hacı Məlikin qohumu Mirzə Fəthullah İsfahani "böyük qorçilərin mustoufisi" kimi xidmət etmişdir[124].

Mərkəzi aparatın yuxarıda göstərilən vəzifələrindən başqa, saray nəzdində bir sıra digər əyanlar da var idi: miraxurbaşı - mehtərlərin rəisi, mehmandarbaşı – xarici səfirlərin və hörmətli qonaqların qəbul işlərinə baxan müdir, süfrəçibaşı – süfrəyə qulluq edənlərin rəisi, halvaçıbaşı – saray şirniyyat ustalarının rəisi, şərabçıbaşı – saqilərin rəisi, münəccimbaşı – saray münəccimlərinin başçısı və b.

## Əyalət idarəsi

Səhih surətdə məlumdur ki, XVII əsrdə Səfəvilər dövləti inzibati cəhətdən vilayətlərə (əyalət, cəm halda əyalat) bölünmüşdü. Bu əyalətlərin başında **"bəylərbəyi"lər** (daha dəqiqi, "bəylərbəyi – azərbaycanca – "bəylərin bəyi" deməkdir) dururdu[125]. "Təzkirət əl-mülük"ə əsasən, bəylərbəyilərin idarə etdikləri vilayətlərin sayı on üç idi: 1) Şirvan, 2) Qarabağ və Gəncə, 3) Azərbaycan (indiki Cənubi Azərbaycan), 4) Çuxursəəd, 5) Qəzvin, 6) Qələmrov-i Əli Şəkər (Həmədan), 7) Kuhi Giluyə (Fars), 8) Kirman, 9) Astrabad, 10) Məşhəd-i müqəddəs-i müəlla, 11) Herat, 12) Mərv-i Şahicahan, 13) Qəndəhar[126].

V.Minorski güman edir ki, bəylərbəi istilahı I Şah Abbasın dövründə meydana gəlmişdir. Onun fikrincə, həmin vaxta qədər Səfəvilər dövlətini hakimlər idarə etmişlər[127]. Həm də bu zaman o, "Tarix-i aləm aray-i Abbasi"yə əsaslanmışdır. Çünki burada əyalət başçılarının adları sadəcə olaraq hakimlər kimi çəkilir. Alessandri isə göstərir ki, I Şah


downloaded from KitabYurdu.az

Təhmasibin dövründə dövlət sultanların idarəsi altında olan 50 hissəyə bölünmüşdü[128].

Bununla belə, İ.P.Petruşevski qeyd edir ki, bəylərbəyilər I Şah Abbasdan xeyli əvvəl mövcud olmuşlar. K.Rohrborn da bu fikirdədir[129]. Bəylərbəyilər inzibati və hərbi hakimiyyəti öz əllərində birləşdirmiş, yerli feodal yığma qoşununa (çərik, qoşun) başçılıq etmişlər[130]. Əyalətlər dövlət vilayətləri idi və daha çox sərhəd ərazilərini əhatə edirdi. Buna görə də, bu vilayətlərdə inzibati hakimiyyət hərbi səciyyə daşıyırdı; bəylərbəyi istilahı "əmir əl-üməra" istilahına müvafiqdir. Nəzərdən keçirdiyimiz dövrün mənbələrində vilayət hakimi kimi bəylərbəyi istilahı əvəzinə tez-tez onun sinonimi olan əmir əl-üməra istilahı işlədilir. Bu isə bizi yanlış fikrə gətirib çıxarmamalıdır. İlk Səfəvilər dövründə əmir əl-üməraların, yaxud bəylərbəyilərin təyin olunması Azərbaycan tayfa əyanlarının müstəsna imtiyazı idi. Bəylərbəyilər qızılbaş feodal əyanlarının, yaxud şahzadələrin sırasından təyin olunurdu. Onların hər birinin əslində şah sarayına bənzəyən imarəti olmuşdur. Vilayət inzibati idarə sistemi bir çox cəhətdən mərkəzlə oxşar səciyyədə idi. Mərkəzi aparatdakı sədr, vəzir, qorçibaşı kimi vəzifələrin əyalət aparatında da oxşarları vardı.

Qüdrətli qızılbaş əyanları bəylərbəyi, əmir əl-üməra və hakim sifətilə vilayətləri irsi olaraq idarə edirdilər. Məsələn, Qarabağ və Astrabadı qacar tayfasından olan iki nəslin əmirləri idarə edirdi; Şirvan – ustaclı tayfası, Azərbaycan (cənub hissəsi) – təkəli və türkman tayfaları; Çuxursəəd – ustaclı tayfası;Fars – zülqədər tayfası; Kirman - əfşar tayfası; Herat – şamlı tayfası və b.[131] tərəfindən idarə olunurdu.

Bəylərbəyilər (yaxud əmir əl-üməra) daxili işlərində əməli olaraq mərkəzi hakimiyyətdən müstəqil idilər. Onlar tabeliyində olan əhalidən məmurları vasitəsilə toplamış olduqları müəyyən miqdarda vergini şaha verir, öz həmtayfalarından ibarət olan silahlı qüvvə saxlayır və şahın əmri ilə hərbi yürüşlərdə, yaxud, xalqın üsyanlarının yatırılmasında iştirak edirdilər. Vilayət hakimlərindən bəziləri o qədər qüdrətli idilər ki, hətta öz saraylarının zənginliyi və calalına görə şahla rəqabət aparırdılar.


downloaded from KitabYurdu.az

Nümunə üçün ustaclı tayfa başçısı olan Abdulla xanı yada salaq. O, hicri 956 (1549-1550)-cı ildə Şirvan bəylərbəyisi vəzifəsinə təyin olunmuş və 974 (1566-1567)cü ildə vəfat edənədək, 17 il ərzində həmin vəzifəni tutmuşdu. O, Şirvan əyanlarının separatçı çıxışlarını (Qurban Əlinin, Mehrabın, Qasım Mirzənin) yatırmağa nail oldu və burada Səfəvilərin hakimiyyətini möhkəmləndirdi. Bundan sonra Abdulla xanın nüfuzu daha da artdı. I Şah Təhmasib həm də bibisi oğlu olan Abdulla xanla çox vaxt hesablaşırdı[132]. Cenkinsonun öz qeydlərində Şirvan canişini Abdulla xanın sarayının şahanə təmtəraqının təsvirinə böyük yer verməsi, onu mədh edərək "Şirvan kralı" adlandırması təsadüfi deyildi[133]

İndi də bəylərbəyiyə tabe olan vilayət miqyaslı bürokratik aparatın bəzi vəzifələrini nəzərdən keçirək. Bu zaman qeyd etmək lazımdır ki, mənbələrdə təbii olaraq mərkəzlə müqayisədə əyalət inzibati idarələrinə az diqqət yetirilmişdir.

Artıq qeyd etmişik ki, Səfəvilər bir çox cəhətdən öz sələflərinin inzibati quruluşunu əxz etmişdilər. Bu, **vilayət vəziri** vəzifəsinə də aid idi. Biz bəylərbəyiliklərdə belə vəzirlərin olmasına dair çoxlu dəlillər göstərə bilərik. Məsələn, hicri 916 (1510)-cı ildə Mərv yaxınlığında özbəklər üzərində qələbədən və Xorasanı tutduqdan sonra I Şah İsmayıl yenicə istila olunmuş vilayətdə idarəçilik aparatının təşkilinə böyük əhəmiyyət vermişdi. O vaxta qədər Şeybani xanın divan müşrifi olmuş Xacə Kəmaləddin Mahmud Saqərçi Səfəvilərə xidmət etməyə keçdi. O, vəzir və divan sahibi vəzifəsinə təyin olundu[134]. Hicri 937 (1530-1531- ci ildə Herat bəylərbəyisi Hüseyn xan Şamlı tərkibinə öz vəziri Əhməd bəy Nur Kamal İsfahaninin, vəkili Hüseyn bəyin, Əhməd Sultanın[135] (görünür ki, Kirman bəylərbəyisi Əhməd Sultan Sufi oğlu Ustaclı) vəzirləri olan Xacə Səidinin və Ağa Kamal Kirmaninin, daxil olduğu nümayəndə heyətini saraya göndərdi. Hicri 940 (1533-1534)-cı ildə Azərbaycan hakimi (əmir əl-ümərası) Musa Sultan işləri qaydaya salmağı öz vəziri Xacə Şahquluya həvalə etdi[136]. Şeyx Məcid Kirmani hicri 941 (1534-1535)-ci ildə Osmanlı basqını qarşısında şəhəri tərk etmiş Bağdad hakimi Məhəmməd xan Təkəlinin[137] vəziri idi. İskəndər bəy Münşi qeyd


downloaded from KitabYurdu.az

edir ki, vilayətlərin (məmalik-i məhrusə) daha görkəmli vəzirləri sırasında bütün Azərbaycan və Şirvanın vəziri (və müməyyizi) olmuş Mirzə Ətaullah İsfahani və bütün Xorasanın vəziri (və müməyyizi) Ağa Kəmaləddin Zeynal – İbad Kirmani var idi[138]. Budaq Qəzvini göstərir ki, hicri 967 (1559-1560)-cı ildə yuxarıda adı çəkilən Mirzə Ətaulla bütün Azərbaycanın, Şirvanın, Şəkinin və Gürcüstanın vəziri idi[139]. Buradaca göstərilmişdir ki, Qəzvin vəziri Ağa Molla, Sultan Süleymanın oğlu Bəyazidin yanına elçi göndərilmişdir[140]. Sonra İskəndər bəy Münşi qeyd edir ki, keçmişdə Həsən bəy yüzbaşı Ustaclının vəziri olmuş Xacə Qasım Əli Azərbaycan vəziri vəzifəsinə layiq görülmüşdür. Onun qardaşı Xacə İnayət Türkə onun yerinə Həsən bəyin vəziri olmuşdu. Onların hər ikisi Təbrizdən idi və I Şah Təhmasibin sarayında hörmətli adamlar sayılırdılar. Xacə Məhəmməd Şərif tehrani Yəzd vəzirliyindən azad edilərək İsfahanın vəziri olmuşdu. Ağa Talay Dəvətdar Qəzvininin oğlu Mirzə Bədi əz-zaman Kaşanın vəziri idi. Onun qardaşlarından biri – Əhməd bəy Xorasanın bir sıra mahallarının vəziri olmuşdu. Mirzə Əbdülbaqi Mir Fəzlullah Şəhristani oğlu Qəzvin vəziri olmuş, Mir Seyid Əli Rezavi Quminin vəfatından sonra onun vəzifəsini tutmuşdu[141]. Bizə vilayət vəzirlərinin mərkəzi inzibati idarəyə vəzir vəzifəsinə irəli çəkilməsinə dair bir çox dəlillər məlumdur. Məsələn, Çaldıran vuruşmasından sonra divan vəziri vəzifəsinə gəlmiş Mirzə Şah Hüseyn İsfahani o vaxtadək İsfahan hakimi olan Durmuş xan Şamlının vəziri idi. I Şah Təhmasibin vəziri Mir Cəfər Savəci keçmişdə Bağdadda Zeynəddin Sultan Şamlının vəziri olmuşdu[142]. Yuxarıda adı çəkilən Əhməd bəy Nur Kamal İsfahani də həmçinin “yüksək divan vəziri” təyin edilmişdi[143]. Buna bənzər nümunələrin sayını artırmaq da olar.

Mənbələrdə **vilayət qorçibaşılarının** adları çəkilməsə də, vilayətlərdə qorçilərin mövcudluğu şübhə doğurmur. Məsələn, hicri 984 (1576-1577)-cü ildə əvvəlki əzəömətli Hüseynqulu Xüləfa Rumlu II Şah İsmayılın qəzəbinə düçar olaraq, rumlu tayfasının başçısı vəzifəsindən kənar olunmuş və Məşhəd qorçilərinin qorçibaşısı təyin edilmişdi[144].



downloaded from KitabYurdu.az

Hicri 974 (1566-1567)-cü ildə Səfəvilər xeyli çətinliklərdən sonra nəhayət, Gilanı ələ keçirdilər. Gilan hakimi Xan Əhməd son nəticədə İmamqulu Mirzənin qorçibaşısı olmuş Əmir Hüseyn bəy Qaramanlı (Bayram bəyin oğlu) tərəfindən izlənilərək tutuldu[145]. Mənbədə 1538-ci ildə Şirvandan I Şah Təhmasibin sarayına gəlmiş və Şirvanın istilası zamanı qızılbaş qoşununu müşayiət etmiş[146] qorçibaşı Padarın adı çəkilir. Lakin onun həqiqətən kim olduğunu müəyyən etmək çətindir.

**Sədr** – Səfəvilərin Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən irsən mənimsədikləri əyalət bürokratiyası vəzifələrindən biridir. Qiyasəddin Məhəmməd bin Əmir Yusifi vilayət sədrinə nümunə olaraq göstərmək olar. I Şah İsmayıl hicri 916 (1510)-cı ildə Xorasanı tutduqdan sonra Əmir Qiyasəddini "şəriətin bütün işlərində vahid və müstəqil hakimiyyətlə"[147] Xorasana qazi təyin etdi. Hicri 922 (1516)-ci ildə Təhmasib Mirzə Xorasan hakimi təyin edilərək oraya göndəriləndə, onun ləiəsi olan Əmir sultan (Əmir xan Türkman) əməli hakim oldu. Əmir Qiyasəddin isə şahzadəyə sədr təyin edildi[148].

Yuxarıda qeyd etdiklərimiz dövlət, divan vilayətlərinə də aiddir.

Bununla belə, torpaqların böyük sahəsi Səfəvi şahlarının xassəsinə daxil idi və mülki inzibati hakimiyyətə malik idi. Xassə torpaqları şahın təyin etdiyi, həmçinin xidmətçilər ştatına malik olan məmurlar, vəzirlər tərəfindən idarə olunurdu[149]. Ərdəbil mahalı Səfəvilər sülaləsinin xassəsi idi. İskəndər bəy Münşi məlumat verir ki, İsfahan vilayətində torpaq yerlərinin və mülklərinin əksəriyyəti I Şah Təhmasibə məxsus idi və taxt-tacın varisi Həmzə Mirzənin xassəsi sayılırdı. Həmzə Mirzə öz xassəsini idarə etməyi (daruğəgi) Şah Məhəmməd Xudabəndənin arvadı Məhdi Ülyanın qardaşı oğlu Mir Hüseyn xan Mazandaraniyə tapşırmışdı[150]. Mirzə Nurulla Kufrani İsfahaninin oğlu Mirzə Əhməd I Şah Təhmasibin Farsda olan şəxsi mülklərinin vəziri (vəzir-i sərkar-i xassey-i şərifey-i Fars) idi. Mir Seyid Hüseyn Xətib Qaini Heratda xassey-i şərifənin bəzi mahallarının vəziri idi, "həmin ölkədə böyük hakimiyyət və hörmət qazanmışdı"[151]. Qorçibaşı Əhməd bəy Əfşarın vəziri olmuş Mirzə Məhəmməd Kirmani Ərdəbil vəziri təyin edilmişdi[152].


downloaded from KitabYurdu.az

## Dövlət aparatının maddi təminatı haqqında

Səfəvilər dövründə inzibati-bürokratik aparatın saxlanılması və mükafatlandırılması sistemi çox mürəkkəb idi və bir sıra tərkib hissələri əsasında yaranırdı. Əksər hallarda xidmət adamlarının məvacibinin ödənilməsi müəyyən yerdən vergilərin hamısını, yax7ud bir hissəsini almaq üçün verilmiş xüssusi sənədlər (bərat, həvalə) vasitəsilə həyata keçirilirdi. Bu mükafatlandırma forması Səfəvilər dövlətində geniş tətbiq edilirdi və tiyul adlanırdı. XVI əsrin ikinci yarısından etibarən tiyulun iki növünü ayırmağa başladılar: "Tiyul"un özü və "həme sale" (yəni "hər il", "bütün ili"), İ.P.Petruşevskiyə görə, "həme sale" dövlət qulluqçusuna "bütün illər üçün", yəni onu əldə edən şəxs qulluqdan getmirsə, əməli olaraq ömürlük verilən "məvacib" idi[153]. "Həme sale" "yek saledən", yəni "birillik məvacibdən" fərqlənirdi.

Tiyuldan başqa soyurqal məvacibi də - istisnasız olarq həmin yerdən bütün vergiləri, o cümlədən dövlət vergilərini toplamaq hüququ da mükafatlandırma forması idi. Lakin bu forma əvvəlki dövrlərin qalığı idi və Səfəvi şahlarının yeritdiyi mərkəzləşdirmə siyasətinə zidd olduğu üçün XVI-XVII əsrlərdə geniş yayılmadı.

Bir sıra dövlət əyanları onların vəzifələrinə əlavə olunmuş daimi yığım hüququ ilə təmin edilmişdilər. Məsələn, böyük vəzir (XVII əsrdə) "vəzir-i divan-i əla" "haqq əl-vizarə", yəni "vəzirin xeyrinə vergi"; şah (saray) emalatxanaları müdiri – "nazir-i büyutat" – "haqq əl-nizarə", sədr və qorçibaşı vəzifələri – "haqq əl-təuliyə" və s. yığılması hüququ ilə təmin edilmişdi[154].

Mükafatlandırmanın bir hissəsi natura ilə, əmtəə ilə (taxıl, ərzaq, paltar və s.) həyata keçirilirdi[155]. Şahlar, ocümlədən I Təhmasib tərəfindən ödəmənin bu növündən şəxsi qvardiyaçılarına – qorçilərə münasibətdə geniş istifadə edilirdi. Məsələn, Alessandri yazırdı: "Xəzinənin xərcləri cüzi idi. Çünki o (Şah Təhmasib – O.Ə.), yalnız


downloaded from KitabYurdu.az

krallığın ən yaxşı və ən gözəl kişiləri arasından seçilən və onun şəxsi mühafizəçiləri kimi fəaliyyət göstərən qorçilər adlanan beş min nəfər əsgərin haqqını verir. Hətta bunların da haqqını pulla ödəmir.Geyim və at verir. Onun nəzərincə, onların məvacibinin əvəzində əlverişli olan nə isə qiymətli bir şeyi də oraya əlavə edir"[156].

Göstərilənlərlə yanaşı, vəzifəli şəxslərin mükafatlandırılmasının geniş yayılmış forması ənənəvi "bəxşiş" (rüsum) yığımları idi. Rüsum yığımları vassallardan və vilayətlərdən icbari qaydada, istər natura ilə, istərsə də pulla, çoxlu hədiyyələrdən (peşkəş) tutulan faizlər şəklində mövcud idi[157]. Sarayda hətta xüsusi olaraq fəaliyyət göstərən məmur-peşkəş-nəvis bu hədiyyələri ayrıca kitabda qeydə alır, onların qiymətini müəyyən edirdi. Qəti qərarlaşmış qaydaya görə, şaha hər hansı hədiyyə (peşkəş) göstərən şəxs şaha (yaxud xəzinəyə) əlavə olaraq öz hədiyyəsinin dəyərinin müəyyən faizini də pulla ödəməli idi. Əgər peşkəş verən tərəf şah olardısa, hədiyyəni qəbul edən şəxs şaha müəyyən məbləğdə pul verməli olurdu[158]. Sonra bu yolla toplanmış pullar mərkəzi aparatın müxtəlif məmurları arasında bölüşdürülürdü.

V.F.Minorski göstərir ki, "Təzkirət"ə əsasən məvacibdən əlavə Səfəvilər dövründə dövlət aparatının müxtəlif həlqələrinin xeyrinə təsis edilmiş mükafatlandırmaların, "bəxşişlərin" (rüsum, düşüllük) mürəkkəb sistemi də mövcud idi. Onlar ya şaha və xəzinəyə ödənişlərdən tutulan məbləğin, ya da şaha bəxşiş verilmiş hədiyyələrin dəyərinə edilən əlavənin müəyyən faizini təşkil edirdilər[159].

V.F.Minorskiyə görə, "düşüllük" istilahı türkcə "düşül" ("düş – "yıxılmaq, enmək" sözündəndir) ismindən və "lük" şəkilçisindən ibarət olub "mənzildə yerləşdirmə", "yerləşmə" anlamını verir. Mümkün ola bilən digər oxunma variantı "döşə" felindən olan "döşəl" sözü ilə əlaqələndirilir ("xalını, döşəyi sərmək, döşəmək")[160]. Fikrimizcə, bunun daha dəqiq anlamını V.V.Radlovun lüğətində tapırıq. Burada "düş" felinin anlamlarından biri "almaq (pul)" kimi verilmişdir[161]. Beləliklə, "düşüllük" istilahının teniki anlamı "pul almaq", "bəxşiş" deməkdir. Yaqub Ağqoyunlunun 1488-ci il tarixli fərmanında adı çəkilən bu



downloaded from KitabYurdu.az

istilahın iki müxtəlif növü qeyd olunur: "hökmi", yəni xüsusi fərmanla müəyyən edilən və "istisvabi", yəni "vəzifəyə əlavə edilmiş"[162]. İstilaha digər feodal vergi və vəzifələri sırasında da I Şah Təhmasibin 1525-ci il tarixli fərmanında "düşüllük-i ərkan-i dövlət", yəni "dövlətin ali şəxslərinin xeyrinə düşüllük" formasında təsadüf edilir[163].

Narrativ mənbələrdə də bu özünəməxsus feodal mükəlləfiyyətinin adı çəkilir və bu XVI əsrdə onun xarakterini açmağa kömək edir[164]. Qazi Əhmədin məlumatına görə, 1578-ci ilin sonunda Şirvandan qayıdan şah qvardiyaçıları – qorçilər xəzinə təxsisatları üzrə vergiləri toplaya bilməmişdilər. Onlar maliyyə idarəsinə gəlmiş və ödəmə qabiliyyəti olan digər vilayətlərə təxsisatlar verilməsini tələb etmişdilər. Eyni zamanda tələb edilmişdi ki, xəzinə tərəfindən tutulmuş pul (düşüllük) onlara qaytarılmalıdır. Çünki onlar təxsisatları alarkən hər 100 tümən gəlir üçün vəzifəli şəxslərin xeyrinə 10 tümən (düşüllük) vermişlər[165]. Bu məlumatdan görünür ki, həmin halda "düşüllük" gəlirdən tutulan verginin 10%-ni təşkil etmişdir.

Az bəlli olan bu vergini səciyyələndirmək üçün "Təzkirət"də də məlumatlar vardır. Burada göstərilir ki, kiçik möhür mühafizəçisinin ("möhrdar-i möhr-i şərəf nifaz) bir tüməndən, yəni 110 min dinardan düşüllük formasında aldığı gəlir (rüsum) 833 dinar təşkil edir. Valilərin, hakimlərin, digər vəzifəli şəxslərin təyinatından hər tüməni üçün 303 qazıbəyi (1 qazıbəyi 5 dinara bərabər idi) tutulurdu. Soyurqal və müaflardan hər tümənə 520 dinar alınırdı. Həm də göstərilirdi ki, düşüllük yalnız birinci il ərzində tutulurdu[166]. Bu halda düşüllük "vəzifəyə birinci təyinat" münasibəti ilə məvacibdən (gəlirdən) tutulan vergini bildirirdi[167]. Bu istilah hədiyyələrdən və peşkəşlərdən pulla tutulan "rüsumun" ekvivalenti kimi də işlədilirdi[168].

## Səfəvi ordusu


downloaded from KitabYurdu.az

Səfəvilər dövlətində mərkəzləşdirilmiş nizami ordu yox idi. Ordu müharibə zamanı əyalət hakimlərinin, bəylərbəyilərin ayrı-ayrı , qeyri-nizami feodal dəstələrindən  (qoşun) təşkil edilirdi. Bu, demək olar ki, qoşunları özləri gətirən və döyüşə aparan Azərbaycan tayfaları əmirlərinin süvari dəstələrindən ibrət olurdu. Həmin yığma qoşunların döyüşçüləri  (mülaziman,nukəran) tayfa başçıları tərəfindən saxlanır və təchiz olunurdular. Hər tayfanın döyüşçüləri sədaqətli qohumluq əlaqələri əsasında birləşdiklərinə görə, rəhbər şəxs kimi özlərinin əmirinə tabe olurdular. Buna görə də hətta döyüşlər zamanı da əmirlər xeyli dərəcədə müstəqil hərəkət edir, öz fəaliyyətlərini hər hansı bir ümumi taktiki planla uyğunlaşdırmırdılar. Şah ordunun komandanı hesab olunurdu. Şah yürüşdə iştirak etmədiyi hallarda, orduya Azərbaycan tayfalarının adlı-sanlı əmirlərindən biri başçılıq edirdi.

I Şah İsmayılın hərbi qüvvələri Ağqoyunlu qoşunlarında mövcud olmuş tayfa prinsipləri üzrə qurulmuşdu. Bu təşkilat formasının nöqsanları və geri qalması 1514-cü ildə, Çaldıran vuruşmasında aşkara çıxdı. Həmin döyüşdə Azərbaycan ordusu, Avropa nizamını qəbul etmiş və yaxşı silahlanmış Osmanlı Türkiyəsinin qarşısını ala bilmədi.

Müharibə zamanı Səfəvilərin düşmənə qarşı çıxardığı ordusunun sayı haqqında dəqiq məlumat əldə edilməmişdir. Ehtimal etmək olar ki, feodal hakimlərin müharibədə iştirakı dərəcəsindən asılı olaraq daim dəyişmişdir. Bunu hətta sayca az olan mənbələr də təsdiq edir. Alessandri belə hesab edir ki, müharibə zamanı qoşunların sayı 60 min nəfərə çatırdı[169]. 1586-cı ildə Səfəvilər sarayına gəlmiş C.Vekyetti də güman edir ki, "ən diqqətli hesablamalara görə, altmış min nəfərdən artıq adamı silahlandırmaq olmaz..."[170]. Bu barədə ən qiymətli məlumatları Minadoi verir. O, müxtəlif vilayətlərin döyüşə  çıxardığı feodal yığma qoşunlarının sayını göstərir. Məsələn, İsfahan və onun əyaləti 8 min nəfər, Kaşan – 4 min, Savə - 1 min, sultaniyyə - 1 min, Qəzvin – 12 min, Ərdəbil – 1 min, Şiraz – 8 min, Təbriz – 4 min, Qum  - 2 min, Gəncə və Gürcüstanın bir hissəsi 4 min nəfər atlı verirdi[171]. Bu siyahı heç də tam deyildir. Çünki Səfəvilər dövlətinin Xorasan, Şirvan, Çuxursəəd,


downloaded from KitabYurdu.az

Məşhəd.ı Kirman və s. kimi bir sıra mühüm əyalətlərini əhatə etmir. Minadoi "Səfəvilər döyüşə 60 minə qədər süvari çıxara bilirdilər" fikrini göstərərkən ehtimal etmişdir ki, əgər bütün əyalətlərin hakimləri birlikdə çıxış etsəydilər, o zaman Səfəvilər döyüşə sayı 130-140 min nəfərə çatan qoşun çıxara bilərdilər[172].

Ümumiyyətlə, həmin məlumatlar, Səfəvi mənbələrinin o dövrə aid sənədləri ilə səsləşir. Bu mənada, Xorasana düşmənin növbəti basqınını dəf etmək üçün I Şah Təhmasibin çağırışı ilə əlaqədar olaraq hicri 936 (1530)-cı ildə orduya baxışda iştirak etmiş Qazi Əhmədin qoşun hissələrinin tərkibi, növləri və sayı haqqında müfəssəl məlumatı mühüm əhəmiyyətə malikdir. Salnaməçinin məlumatına görə, həmin rəsmi keçiddə iştirak etmiş qoşunların sayı 120 min nəfər olmuşdu[173]. Qazi Əhmədin məlumatına görə, Təhmasib ölənə yaxın onun şah təminatında (məvacibində) "qızılbaş tayfalarından və nəsillərindən 200 min adam var idi[174]". Əgər mərkəzi hakimiyyətə heç vaxt dövlətin bütün vilayətlərindən yığma qoşunlar toplamağın müyəssər olmadığını nəzərə alsaq, bu rəqəmin şişirtmə olmadığını zənn edə bilərik.

Beləliklə, ehtimal etmək olar ki, hərbi əməliyyatlar dövründə Azərbaycan qoşun hissələrinin sayı həqiqətən 120-150 min nəfər arasında olmuşdur[175].

Feodal yığma qoşunlarından (çərik, qoşun) əlavə, sayı 4500 nəfərə çatan qorçilərin qvardiya dəstəsi şahın yanında əlahiddə xiidmətdə olurdu[176]. Minodoiyə görə isə, pretoriya qvardiyasının (yəni qorçilərin) sayı 6 min nəfər idi. O bildirir ki, onlardan başqa, şahın yanında həmçinin, yasavulbaşının başçılıq etdiyi, eyni vəzifələri yerinə yetirən 700 nəfərlik yasavul dəstəsi də xidmət edirdi[177].
Minadoinin şah qvardiyasının məvaciblərinə dair məlumatları maraqlıdır. 6 min nəfər qorçidən 4 mini malikanələrdən (torpaq mülklərindən) gələn gəlirlərin hesabına yaşayır, qalan 2 mini isə şah xəzinəsindən 160-dan 200-dək tsexin miqdarında mükafat (məvacib) alırdı[178].

Yay, nizə, qılınc, xəncər, döyüş baltaları və qalxanla silahlanmış qorçilər tayfa süvari qoşununu təşkil edirdilər. Şeyx Heydərin tətbiq


downloaded from KitabYurdu.az

etdiyi qızılbaş tacı həmin cəsur döyüşçülərin özünəməxsus baş geyimini təşkil edirdi. Yürüşlər zamanı onlar yanaqları boyunca zirehdən qoruyucuları olan dəbilqələr taxırdılar. Uzun bığ saxlamaları qorçiləri fərqləndirən xüsusiyyət idi. İskəndər bəy Münşi yazırdı: " Qorçilərin cəsurluğu və qorxmazlığı haqqında belə danışırlar ki, istənilən döyüşdə onların yüz nəfəri (Şah Təhmasibin – O.Ə.) məiyyətinin başqa üzvlərinin mininə bərabər idilər".

Qoş7unların lazım olan vaxtda və təyin edilimiş yerdə cəmləşdirilməsiasan iş deyildi. Çox zaman əmirlər təkəbbür və ara çəkişmələri üzündən şah qərargahın gecikdiklərinə, yaxud, ümumiyyətlə, gəlmədiklərinə görə,döyüşlər Səfəvilrəin məğlubiyyəti ilə başa çatırdı. Zəif intizam və döyüşün ən həlledici anında tayfa düşmənçiliyinin coşması qızılbaş ordusunun dəfələrlə darmadağın edilməsinə gətirib çıxarmışdı. Yalnız yığma qoşunlar deyil, habelə qorçilərin qvardiya dəstəsi də yenə həmin qızılbaş tayfa əyanlarının gənclərindən ibarət olurdu. Qeyd etdiyimiz kimi, ordu əsasən süvari hissələrindən ibarət olduğundan, piyadanın rolu əhəmiyyətsiz idi. Qoşun özünün böyük mütəhərrikliyi, manevr qabiliyyəti ilə fərqlənirdi.

Ordunun silahlanmasına gəldikdə isə Alessandri xəbər verirdi ki, onlarda qalxan, qılınc, odlu silahlar (muşketlər) var idi. Odlu silahların lülələrinin uzunluğu 6 qarış (qarış 9 düymədir) idi və onlar çəkisi 3 unsidən (unsi – 28 qramdır) bir qədər az olan qumbaralar atırlar. Venetsiyalı yazır: "Onları elə asanlıqla idarə edirlər ki, bu, nə yay tutmağa, nə də əgər şərait tələb edərsə, yəhərlərinə bərkitdikləri qılıncdan yapışmağa mane olmur. Odlu silahı arxada gizlədirlər, belə ki, bir silah o birisindən istifadə edilməsinə mane olmur"[179]. O, Səfəvilərdə hazırlanan silahların yaxşı keyfiyyətdə olduğunu göstərir və qeyd edir ki, onlarda silah "hər hansı başqa xalqda olduğundan üstündür və yaxşı düzəldilmişdir"[180].

Belə bir fikir vardır ki, Şah İsmayıl dövründə Səfəvilərin odlu silahı olmamışdır.V.Minorski təsdiq edirdi ki, "İranda odlu silah Şah Abbasdan xeli əvvəl məlum idi". Lakin o, qızılbaşların top və tüfənfdən


downloaded from KitabYurdu.az

(tup-o-tüfəng) istifadə etməsinə dair mənbələrin ən ilkin məlumatının Səfəvilərin 1552-ci ildə Ərciş qalasını mühasirəyə almasına aid olduğunu göstərirdi[181]. I Şah İsmayılın müasirləri olmuş naməlum tarixçi və İbrahim Əmini 1500-cü ildə Bakını mühasirəyə almış qızılbaşların yalnız tüfəngdən deyil, həm də top atəşindən (atəş- tup-o-tüfəng) istifadə etdiklərini göstərirlər[182]. Bu da məlumdur ki, I Şah Təhmasibin 1538-ci il Şirvana yürüşü zamanı qızılbaş qoşunu Buğurd qalasına qarşı toplardan istifadə etmişdir[183]. Bütün faktlar onu göstərir ki, Səfəvilərin əzəldən odlu silahı olmuşdur. Lakin çox güman etmək olar ki, belə silah onlarda sayca az idi, avropalılar vasitəsilə təsadüfən onların əlinə gəlib düşürdü. Səfəvilər özləri hələ odlu silah istehsal etmirdilər.

## NƏTİCƏ

Qüdrətli Azərbaycan Səfəvilər dövlətinin yaranması orta əsrlər tariximizdə böyük əhəmiyyətə malik olan hadisələrdən biri olmuşdur. Şah İsmayılın çox gənc yaşlarında hakimiyyət uğrunda döyüşlərə atılması, geniş və qüdrətli bir dövlət yaratması onun ulu babalarını çoxəsrlik mübarizəsinin uğurlu nəticəsi və yekunu idi. Bu dövrdə Azərbaycan dövlətinin sərhədləri Qaraqoyunlular və Ağqoyunlular dövründəki sərhədləri aşıb keçsə də, çoxmillətli bir imperatorluğa çevrilsə də, qaynaqlarda yazıldığı və araşdırmalarda etiraf olunduğu kimi, "Qızılbaş məmləkəti" kimi tanınırdı. Qonşu dövlətlər də Səfəvi-Qızılbaş dövlətini Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin qanuni varisləri hesab edirdilər.

Bu dövlətin "Səfəvilər" adlandırılması isə Şah İsmayılın ulu babalarından olan və çox sadə şəkildə Şeyx Səfi adlandırılan Şeyx Səfiəddin Ərdəbilinin (1252-1335) adından götürülmüşdür. XIII-XIV əsrlərin ərhədində yaşayanŞeyx səfiəddin İshaq Ərdəbilinin dövründən fəaliyyətə başlayan Ərdəbil "Darül-İrşadı", nəinki təkcə Azərbaycan miqyasında, bəlkə bütün Şərq aləmində gedən elmi, fəlsəfi


downloaded from KitabYurdu.az

döyüşlərin ən güclü mərkəzlərindən biri kimi tanınmışdır. Həm xürrəmilik və məzdəkilik, həm də sufizmlə bağlı olan, bir çox hallarda "qızılbaşlıq" adı ilə tanınan səfəviyyə fikri cərəyanı burada formalaşmış, buradan Şərqin bir çox ölkələrinə yayılmışdır. "Darül-İrşad" adi bir təriqət xanəgahı olmaqdan çox, zamanın tələblərindən irəli gəlın bir fikir və ideologiya ocağı idi. Bu ocağa inamla gələn fədakar sufilər, müridlər vaxtilə Şah İsmayılın babası Şeyx Cüneydə, atası Şeyx Heydərə dayaq olmuş, onlara yeni bir dövlətin bünövrəsini qoymaqda yaxından kömək etmişklər. Şeyx səfiəddin nəslinin nümayəndələri bütün Azərbaycanın birləşməsi arzusunda idilər.

Uzun sürən mübarizədən sonra nəhayət, bu arzunu gerçəkləşdirmək İsmayıla nəsib oldu. 1499-cu ildə feodal münasibətlərinin kəskinləşməsi nəticəsində Ağqoyunlu dövlətinin dağıldığı, xalqın ümumi narazılığının artdığı bir dövrdə İsmayıl hakimiyyət uğrunda mübarizəyə atıldı. Xalq İsmayılı ictimai əsasları yeniləşdirəcək, xalqın rifahı və mnafeyi uğrunda çarpışacaq bir sərkərdə timsalında görür və ona böyük ümid bəsləyərək ardınca gedirdi. İsmayılın bayraqları altında Şamlı, Ustaclı, Rumlu, Təkəli, Zülqədər, Əfşar, Qacar, Varsaq adlı türk (azərbaycan) tayfaları, Qaradağ və Talış sufiləri birləşdilər. Onlar İsmayılın ordusunun ən fədakar döyüşçüləri kimi geniş şöhrət qazanmışdılar.

1501-ci ildə İsmayıl Təbrizə daxil olur və Azərbaycanın şahı elan edilir. Və elə ilk vaxtlardan xalqın inam və etibarını doğruldur.

I Şah İsmayıl dövründə Heratdan Bağdadadək uzanan nəhəng ərazidə əhali əsasən Azərbaycan dilində danışırdı. Onun yürütdüyü daxili və xarici siyasət ölkənin, xalqın mənafeyinə xidmət edirdi. Şah İsmayıl yeni dövlətin əsaslarını möhkəmləndirmək üçün ölkə daxilində islahatlar aparırdı. O, elmin, mədəniyyətin, incəsənətin, sənətkarlığın inkişafına geniş yer ayırır, tarixi abidələrə, ziyarətgahlara diqqət və qayğı ilə yanaşırdı.

Aərbaycan dövlətinin sürətli inkişafı, qısa müddət ərzində Şərqin ən qüdrətli imperiyalardan birinə çevrilməsi, düşmən dövlətlərinin,


downloaded from KitabYurdu.az

xüsusilə də Osmanlı imperiyasının Şah İsmayıla və Azərbaycana qarşı qorxu, ehtiyat, qibtə və düşmən münasibəti bəsləməsinə səbəb olurdu. Bu inkişafı gözü götürməyən düşmən dövlətlər, iki böyük qüdrətli müsəlman dövlətinin – Azərbaycanın və Osmanlı Türkiyəsinin qarşıdurmasını çoxdan gözləyirdilər. Bu dövlətləri zəiflətmək məqsədilə rəqib dövlətlər, xüsusilə də Avropa hökmdarları Osmanlılardan istifadə edərək, onlara silah-sursat və 300 top verirl\ər. Beləliklə, 1514-cü ildə Osmanlı Sulatnı I Səlim Azərbaycan sərhədində 100 mindən çox nəhəng qoşun toplayır və Çaldıran düzündə döyüş olur.

Bu vuruşmada Şah İsmayıl yalnız qeyri-bərabər qüvvə baxımından deyil, silahlanma cəhətdən də Sultan Səlimdən geri qalırdı. Səfəvilərdə artilleriya demək olar ki, tamamilə yox idi. Səfəvilərin əsas qüvvəsi olan qızılbaş tayfa süvari qoşunu topların və yeniçəri nişançılarının atəşi qarşısında aciz idi. Lakin qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq, Şah İsmayıl və qızılbaş döyüşçüləri bu vuruşmada misli görünməyən qəhrəmanlıq və rəşadət göstərdilər.

Qızılbaş ordusunun Çaldıran vuruşmasında məğlubiyyətini müasirlər I Şah İsmayılın özünə arxayınlığı və öz sərkərdələrinin məsləhətləri ilə hesablaşmaması ilə əlaqələndirirlər. Lakin yuxarıda qeyd olunan faktlardan göründüyü kimi, Şah İsmayılın məğlubiyyətini şəxsi səbəblərlə deyil, sultanın ordusunun o dövr üçün qabaqcıl olan silahlanması və odlu silahı, artilleriyanı geniş tətbiq etməsi ilə əlaqələndirmək lazımdır.

Azərbaycanın Çaldıran vuruşmasındakı məğlubiyyəti tezliklə öz acı və ağır nəticələrini göstərdi. Osmanlı sultanı Xoy, Mərənd və Təbrizi ələ keçirdi, lakin qızılbaş döyüşçülərinin müqaviməti ilə üzləşib Təbrizdə çox dayanmağa müvəffəq olmadı. Talan etdiyi Azərbaycan sərvətilə bərabər, bir çox sənətkarları da əsir apardı ki, bu da sonradan Osmanlı Türkiyəsində sənətkarlığın inkişafında önəmli rol oynadı.

Çaldıran vuruşmasından sonra yaşadığı 10 il ərzində, I Şah İsmayıl fəaliyyətini yalnız dövlətin möhkəmlənməsi və hərtərəfli inkişafı istiqamətinə yönəltdi. 1524-cü ildə vəfat etdi.


downloaded from KitabYurdu.az

Azərbaycan Səfəvilər dövlətinin banisinin qısa ömrü ərzində apardığı müharibələr, onun vahid Azərbaycan dövləti yaratmaq arzu və istəyindən irəli gəlirdi. Şah İsmayıl Azərbaycan dilini saray və dövlət dilinə çevirmiş, siyasi, ictimai, iqtisadi və mədəi inkişafı üçün böyük işlər görmüşdür.

Şah İsmayıl vəfat etdikdən sonra qızılbaş tayfalarının əmirləri arasında güclənən çəkişmələrin nəticəsində mərkəzi hakimiyyət zəiflədi. Hakimiyyət başında bir-birini ardıcıl olaraq əvəöz etmiş rumlu, təkəli və şamlı tayfaları feodallarının dövrü 1534-cü ilə qədər uzandı. Kiçik fasilələrlə 20 ilə qədər davam etmiş Səfəvi-Osmanlı müharibələrinin yeni dövrünün başlanması da elə bu zaman təsadüf edir. I Sultan Süleymanın dövründə öz qüdrətinin zirvəsinə çatmış Osmanlı imperiyası bu müharibədə təcavüzkar tərəf idi. Osmanlı Türkiyəsinin Azərbaycanı ələ keçirməyə səy göstərməsi, bu ölkənin iri xammal istehsalçısı olmasından, təbii ehtiyatlarınəön zənginliyindən, Asiya ilə Avropa arasında gəlirli tranzit yolunun Azərbaycan ərazisindən keçməsindən irəli gəlirdi.

Osmanlı Türkiyəsinin hücumu, öz təsirini Cənubi Qafqazın qərbinə - Gürcüstana yaymağa cəhd göstərən Səfəvilər dövlətinin inadlı müqavimətinə rast gəldi. Üstünlük, hər halda istila etdiyi ölkələrin saysız – hesabsız insan qüvvəsini və maddi ehtiyatını mənimsəmiş Osmanlı imperiyasının tərəfində idi. 1555-ci il sülhünə görə, Səfəvilər Qərbi Gürcüstanı Osmanlı Türkiyəsinin nüfuz dairəsi kimi tanımağa məcbur oldular. Müharibənin gedişində Osmanlı basqınlarının yolu üzərində yerləşən Cənubi Azərbaycan vilayələrinə böyük ziyan vuruldu. Düşmən qoşunlarının ölkənin içərilərinə irəliləməsini çətinləşdirmək üçün, bəzi sərhəd əyalətləri Səfəvilərin özləri tərəfindən qəsdən viran qoyuldu. Eyni vaxtda Xorasana basqınlar edən özbək xanlarına qarşı mübarizə aparması da Səfəvilərin vəiyyətini mürəkkəbləşdirmişdi.

I Şah Təhmasibin vəfatından sonra Səfəvilər dövləti qızılbaş əyanlarının çəkişmələri nəticəsində zəiflədi. Qanlı mübarizə nəticəsində hakimiyyətə gəlmiş II Şah İsmayıl kütləvi edamlarla öz hakimiyyətini möhkəmləndirməyə cəöhd göstərdi. Lakin o, feodalların sui-qəsdinin


downloaded from KitabYurdu.az

qurbanı oldu. XVI əsrin 70-ci illərinin sonu üçün dövlət əslində qızılbaş əmirləri araında bölündü. Zəif iradəli Şah Məhəmməd Xudabəndənin timsalında mərkəzi hakimiyyət iflic vəziyyətinə düşmüş və əməli olaraq fəaliyyətdən qalmışdı.

Osmanlı Türkiyəsi Səfəvilər dövlətindəki daxili çəkişmələrdən yenə də istifadə etdi və öz qoşunlarını Cənubi Qafqaza göndərdi. 1590-cı ilə qədər davam etmiş müharibələrin yeni dövrü başlandı. Bu dövrdə Osmanlı Türkiyəsi heç bir itki qarşısında geri çəkilməyərəkinadlı və ardıcıl surətdə Cənubi Qafqazı işğal etməyə nail olurdu. Bu ölkələr ağır dağıntılara məruz qaldı. Qanlı döyüşlər meydanı olmuş Azərbaycan xüsusilə böyük ziyan çəkdi. Türklərdən başqa, dəfələrlə Krım xanının soyğunçu dəstələrinin  soxulduğu Şirvan torpağı viran edildi. Səfəvilər dövlətini daxili mübarizə əhatə etmişdi  və ziddiyyətlər onu zəifədirdi. O, türk ordusunun hücumunun qarşısın dayandırmaq iqtidarında deyildi və sülh müqaviləsi bağlamaq məcburiyyətində qaldı. Həmin sülhə görə, Səfəvilər Osmanlılar tərəfindən Gürcüstanın və Azərbycanın işğalı faktını etiraf etdilər. Üzücü müharibələr yalnız Osmanklı feodallarının hökmranlığı altına düşmüş Cənubi Qafqaz xalqlarının tarixi taleyinə mənfi təsir göstərməsi ilə başa çatmadı.  Bu hərbi-siyasi gərginlik Osanlı imperiyasının qüdrətini də sarsıtdı və onun tənəzzülünü sürətləndirdi. Bununla birlikdə Səfəvilər dövlətinin Osmanlı imperiyası ilə mübarizəsi Cənub-Şərqi Avropa xalqlarının Osmanlı işğalına və əsarətinə qarşı uğurla müqavimət göstərməsinə obyektiv yardım idi.

Azərbaycanın Osmanlı Türkiyəsi tərəfindən XVII əsrin əvvəlinə qədər davam etmiş işğalıI şah İsmayıl tərəfindən əsası qoyulmuş Azərbaycan Səfəvilər dövlətinin varlığına son qoydu. Ölkədə Osmanlı feodallarının 20 ilə qədər davam etmiş hökmranlığı onun sərvətlərinin talan edilməsinə,  Aərbaycan iqtisadiyyatının tənəzzülünə gətirib çıxardı. Buna görə də Azərbaycan XVII əsrdə Səfəvilər dövləti sistemində aparıcı mövqeyini və rolunu itirdi və onu İranın daxili əyalətlərinə güzəştə getməli oldu. Bundan başqa, Azərbaycan əynları və qızılbaş tayfaları xarici və daxili müharibələrin gedişində olduqca zəifləyərəközünün


downloaded from KitabYurdu.az

əvvəlki tərkibinin xeyli hissəsini itirdi. Bunun nəticəsində Azərbaycan əyanları özlərinin hər yerdəki hökmran mövqelərini XVII əsrdə dəsaxlamaq iqtidarında olmadılar. Onlar həmişə hesablaşmağın lazım gəldiyi qüvvə kimi qalmalarına baxmayaraq tədricən İran feodalları tərəfindən sıxışdırıldılar.

Ölkənin şimal və cənub vilayətlərinin Azərbaycan Səfəvilər dövləti daxilində siyasi baxımdan birləşməsi feodal Azərbaycanının tarixində yeni mühüm mərhələ hesab edilməlidir. Dövlət, xüsusilə də şəxsi feodal torpaq mülkiyyətinin inkişafı, bununla birbaşa əlaqəsi olan mərkəzləşdirmənin güclənməsi də yeni cəhətlər idi. Mərkəzləşdirilmiş siyasət yeritmək məqsədilə şərti torpaq sahiblərinin yeni forması – tiyul meydana çıxmışdı.

Əsrin birinci rübündə əhalinin vəziyyəti bir qədər yüngülləşdi. Lakin 70-ci illərin sonu və 80-ci illərdə vəziyyət yenidən ağırlaşdı. Çıxılmaz vəziyyətə salınmış zəhmətkeş kütlələr istismarçılara qarşı silahlı mübarizə yoluna qdəm qoydular. Bunun da parlaq nümunəsi 1571-1573-cü illərin Təbriz üsyanı oldu.

Azərbaycan Səfəvilər dövlətinin yaranması ilə Azərbaycanın məhsuldar qüvvələrinin inkişafı üçün əlverişli şərait yarand. Kənd təsərrüfatı canlandı, sənətkarlıq və ticarət yüksək inkişaf səviyyəsinə çatdı. Ümumdünya şöhrəti qazanmış yerli ipək sayəsində Azərbaycanın Moskva dövləti ilə və Avropa ölkələri ilə iqtisadi əlaqələri inkişaf edir və möhkəmlənirdi. Ərəş, Təbriz, Şamaxı və Culfa şəhərləri xamna və ipək məmulatlarının beynəlxalq ticarət mərkəzlərinə çevrildilər. Ərdəbil, Naxçıvan, Gəncə, Bakı və bir sıra digər şəhərlər də iri sənətkarlıq istehsalı mərkəzləri idilər.

